***MAİS QASIMOV, TOFİQ MƏMMƏDOV***

# *BİTKİ KOSMETİKASI*

*Bakı* ©"Araz" nəşriyyatı-2002

*Redaktor: Ə.Əlisəfaoğlu*

*M.Ə.Qasımov, T.S.Məmmədov “Bitki Kosmetikası",*
*Bakı, "Araz" nəşriyyatı 2002, 374 səh.*

M

050-2002

# GİRİŞ

İnsanlar hələ ibtidai-icma dövründə bir çox xəstəlikləri müalicəvi otlarla sağaldırmışlar. Qədim insanlar bitkilərdən bir çox xəstəlikləri müalicə etməklə yanaşı, bəzək məqsədləri üçün də istifadə edirdilər. Belə ki, qədim insanlar bitkilərdən alınan təbii boyalarla ilk dəfə özlərini və heyvan bədənlərinin müxtəlif rənglərlə bəzədilməsinə, geniş istifadə etmişdirlər. Elm və mədəniyyətin inkişafı ilə əlaqədar olaraq, insanların uzun ömür sürmək istəklərini artırmışdır. İnsanlar həmişə cavan, gözəl, zərif, incə, şux saçlar, sağlam dişlərə, gümrah bədənə malik olmalarını arzu etmişlər. İnsanlar öz gözəlliklərini cavan yaşlarından ta ki, qocalıq dövrünə qədər saxlamağın arzusunda olmuşlar. Bu həyatda mümkündürmü? Əlbəttə. Buna siz özünüzə kosmetik xidmətlər etməklə nail ola bilirsiniz.

Sağlam və həmişə gözəl görünüşə malik olmaq üçün təkcə kosmetik bəzəklər əsas rol oynamır, burada gigeniq, keyfiyyətli qida və profilaktik tədbirlərin həyata keçirilməsi nəticəsində dərinin, saçların, diş və dırnaqların vaxtından qabaq toxuma qurluş- larının pozulmasının qarşısını almaq olar.

Dünyanın əksər xalqları öz mədəniyyət tarixlərinin inkişafı ərzində xarici gözəlliklərinə az fikir verməmişlər. Belə ki, onlar müalicə otlarından istifadəğ edib, bir sıra kosmetik məmulatlar hazırlamışlar. Bitkilərdən kosmetik maddələrin hazırlanması sirrləri bizim dövrə qədər gəlib çıxmışdır. Orta əsr xalqları kosmetik preparatlarla dəridə, sifətdə və orqanizm müxtəlif sahələrində əmələ gələn xəstəlikləri müvəffəqiyyətlə müalicə edirmişlər.

Müasir kosmetiki-dermatalogiya sahəsində dərman bitkilərindən alınan bioloji aktiv maddələrdən geniş istifadə edilir. Bu birləşmələrdən kompleks şəkilində istifadə edildikdə dəri və saçların qurluşuna, ümumiyyətlə orqanizm sağlamlığında böyük rol oynayır. Bu bioloji aktiv birləşmələr epiderma hüceyrələrinin bər

pasında və eləcə də dərinin dərin qatlarına işləyərək, su-duz mübadiləsini nizamlayır, ferment sisteminin fəallığını artırır, hormonların fəaliyyətini hormallaşdırır, bir sözlə maddələr mübadiləsini nizama salır.

Bioloji aktiv maddələr vaxtından qabaq qocalmanın qarşısını alır, insanı qəm-qüssədən azad edir.

Kosmetoloqlar bitki xammalarından çövhərlər, dəmləmələr, vannalar, kremlər, lasyonlar, şampunlar, mazlar və s. hazırlayaraq istehsalata buraxmışlar. Onlardan qida, tonuslaşdırıcı, büzüşdürücü və s. vasitə kimi istifadə edilir.

Azərbaycan ərazisi kosmetik bitkilərlə zəngindir. Floramızın tərkibində 600 növdən artıq kosmetik bitkilərə rast gəlmək olar. Kosmetika sahəsində geniş surətdə istifadəsi mümkün olan bitkilərdən aşağıdakıları qeyd edə bilərik: dazıotu, qaraqınıq, yapon saforası, qoz, nar, zirinc, palıd, tozağacı, qızılağac, çaytikanı, xına, basma, soğan, rəvənd, çobanyastığı, boymadərən, nanə, yarpız, kəklikotu, gülxətmi, meşə çiyələyi, bağayarpağı, mayotu, yer sarmaşıqı, səhləb, biyan, anıdız, yemişan, ərik, heyva, ipəyi onosma, adi göyək, alma, badam, sabunotu, herniyar, süsən, qaytarma, novruzçiçəyi, gəcəvər, bağamburc, qırxbuğum, bənövşə, itburnu, bəlğəmotu, dəmirovotu, pişikotu, gicitkən, dəvədabanı, əvəlik, xəndəkotu, qurdotu, sığırquyruğu, quşəppəyi, quşqonmaz, xəşəmbul, gülümbahar, süvrə, zəncirotu, zeytun, quruca, pıtraq, yovşan, göyçiçək, andız, ardıc, mərcanşilə, moruq, firəng üzümü, böyürtkən, qarağat, xamırmaya, sarağan, sumaq, kənda- laş, doqquzdon, söyüd, quşarmudu, kasnı, xına otu, kök, çuğundur, zəfəran, sarıçiçək və s.

Kitabda yeri gəldikcə bu bitkilər haqqında geniş məlumat verəcəyik.

# BƏZƏK VƏ BİTKİ KOSMETİKASININ TARİXİNƏ DAİR QISA NƏZƏR

Belə bir rəvayətdə deyilir ki, bir müdrik ata ölüm ayağında öz qızını yanına çağıraraq deyir: “Mən çox kasıb olduğumdan, sənə heç bir var-dövlət qoyub getmirəm. Ancaq sənə bir ağıllı məsləhət verirəm. Həyatda bacardığın qədər çalış ağıllı ol, əgər istəyirsənsə xeyirxah ol, bir də çalış ki, həmişə gözəl olasan.” Gözəllik təbiətin ən böyük sirlərindən biridir, insan təbiəti isə əhəmişə bu gözəlliyə doğru can atmağa çalışmışdır, insan həmişə gözəl olmağı arzu etmiş və ona meyl etmişdir. Çox qədim zamanlardan bu günə kimi insanlar öz gözəlliklərinin qayğısına qalmağa çalışmış və bütün əsrlər boyu bu gözəllik məfhumunu inkişaf etdirib təkmilləşdirməyə can atmışlar. Əbəs yerə deyil ki, qədim insanlar öz Allahlarını daim cavan, əyilməz, məğrur, fiziki cəhətdən qüvvətli və daima gözəl olmasını arzu etmişlər.

İnsanının gənclik illəri heç də onun daim gözəl görünməsinə təminat vermirdi. Bu zaman insanlarda belə bir fikir yaranmağa başladı ki, nə edəsən ki, həmişə gözəl görünəsən. Çünki təbiət insanlara gözəlliyi daim verməkdə o qədər də əli açıq olmamışdı. Bu zaman insanlar öz gözəlliklərini daim saxlamaq üçün bəzənmək haqqında fikirləşməyə başladılar. Buna görə də insanların həmişə cavan və gözəl görünmək həvəsi, təbii olaraq, çətin olsa da yeni bir incəsənət növünün-kosmetikanın yaranmasının başlanğıcını qoydu.

Kosmetikanın bizim dövrümüzdə yaranması haqqında fikir söyləmək heç də düzgün olmazdı. Heç bir şeydən çəkinmədən demək lazımdır ki, kosmetika insanın meydana gəlməsi ilə eyni bir vaxtda yaranmağa başlamışdı. Çox qədim zamanlarda ilk dəfə yaradılan kosmetik alət, qamışdan və ağacdan hazırlanmış ucu sivri çöplərdən düzəldilən daraq nümunəsi olmuşdur. Bir azdan sonra isə sümükdən düzəldilmiş daraqlar meydana çıxmış-

dır. Bunu bizə arxoloji qazıntılar nəticəsində kurqan qəbirlərindən tapılmış sümük daraqlar məlumat verir.

Hətta dodaq pomadası, qaş və kiprik üçün rəng boyası sayılam qələm də müasir insanların ixtirası hesab etmək olmaz. Zirzəmi və mağaralardan aşkar edilmiş qələmlərlə nəinki dodaqları hətta sifət və bədənlərin boyanmasında da istifadə olunmuşdur, ilk dəfə qələm boyalarından ruhanilərin (keşişlərin) istifadə etmələri fikri irəli sürülür.

Qədim zamanlarda heç də insanların hamısı bitki və rəngli gil-lərdən düzəldilən boyalardan istifadə etməmişlər.

Keçmiş dövrün hərbçiləri döyüş qabağı, düşməni vahiməyə salmaq üçün sifət və bədənlərini müxtəlif parlaq rənglərə boya-yaraq döyüşə girmişlər. Qədim zamanlarda bədənin boyanması xüsusi tayfalara məxsus olmuşdur. Bədənlərin boyanması ən çox dini mərasimlərdə, toy məclislərində və düşmən üzərində qələbə çaldıqda baş verirdi. Bu cür mərasimlərdə sifət və bədənlərini parlaq rənglərə boyayırmışlar. Matəm və məğlub olan dövrlərdə bəzəklərini sönük rəngə boyayırmışlar. Boyaq və bəzək işlərində en çox bitkilərdən hazırlanan boyalardan istifadə edilirdi.

Qədim insanlar bitki və heyvan piylərindən yağ və maz düzəldib bədənlərinə sürtər, özlərini küləkdən və həşərat sancmalarından mühafizə edirmişlər. Pasxi və ona yaxın adalarda yaşayan xalqlar hal-hazırkı dövrə qədər öz adət-ənələrini saxlamağa çalışmışlar. Belə ki, bayram mərasimlərində onlar qədimlərdə olduğu kimi saçlarını qonur rəngə boyayırlar.

Yerli camaat deyirlər ki, biz istəyirik özümüzü keçmiş nəsillə-rimizə oxşadaq.

Qədim çinlilər düşmənlərini qorxutmaq üçün sifətlərini akve- rai mürəkkəblərlə müxtəlif rənglərlə boyayırdılar.

# *MİSİR KOSMETİKA ELMİNİN VƏTƏNİDİR*

Maz və boyaqlardan dəriyə sürtgü materialı kimi istifadə olunması qədim dövrlərdə yaşayan əcdadlarımızdan bizə bəzək məmulatı kimi gəlib çıxmışdır. Ancaq Misirlilər bu bəzək növünü inkişaf etdirərək yüksək incəsənət nümunəsinə gətirib çıxartmışlar.

Məişət geyimləri misirlilərə bizim eradan 5 min il əvvəl məlum olmuşdur. Qədim dövrlərdə misirlilər ağ boyaqla göz ətraflarını çevrəyə alar və yaşıl rəngli mis karbonatla haşiyələrmişlər. Misirlilər istənilən rəng boyalarını, maz və yağları məharətlə hazırlanmas! sirlərinə yaxşı bələd olmuşlar. Əbəs yerə demirlər ki, kosmetika və kosmetik məhsullar bizim eradan bir neçə min il əvvəl misirlilər tərəfindən hazırlanmışdır. Qədim dövrlərdə dəfn edilmiş qəbrlərdən tapılan qabların içərisində maz, müxtəlif ətirli maddələrdən-müşk, qızılgül yağı, ətirli qətran, zəfəran qalıqları hətta tükü qopartmaq üçün pinset aləti də tapılmışdır. Bundan başqa qəbrlərin içərisindən ağ boyaq, ənlik, qaş və kipriklər üçün qara rəng (sürmə) və s. də tapılmışdır. Dəfn olunmuş və mumiyalanmış ölülərin dırnaqlarını qırmızı, yaşıl və yaxud qızılı rəngə boyayarmışlar. Qeyd etmək lazımdır ki, misirlilər keyfiyyətli ağ boyaq, ənlik hazırlamağın məşhur ustaları hesab edilirdilər. Bu maddələr tünd sifətlərə açıq sarımtıl ton verir. Ən davamlı və keyfiyyətli boyalardan isə rəssamlıq sahəsində istifadə olunurdu. Bundan əlavə Misirdə ilk dəfə olaraq ağ tükləri qaraltmaq üçün qara dərili heyvanın qanından resep işlənib hazırlanmışdır. Mumiya ilə boyanmış saçlar min illər keçməsinə baxmayaraq rənglərini olduğu kimi saxlamışdır.

Dərini qidalandırmaq və onu günəşdən qorumaq üçün camış, qoyun, badam, küncüt, gənəgerçək və zeytun yağından hazırlanan təpitmə və mazlardan istifadə edilirdi. III əsrdə yəni bizim eranın 1204-1173-cü illərində faraon ramzesanın çarlığı zamanı qədim Fivax qəbristanının fəhlələri tarixdə ilk dəfə olaraq, kosmetik məmulatlarının, yağ və mazların çatışmamazlığı nəticəsin

də tətil etmişlər. Biz Misir papiruslarında kosmetik məhsulların müalicəvi sirlərinə də rast gəlirik. Papirusların birinin yazısında damarların elastikliyini artıran mazın tərkibi verilmişdir. Bir neçə papirus üzərində isə “yaşlı bir qocanın, 20 yaşlı cavana çevrilməsi” resepti də verilmişdir. Bu papiruslarda göstərilən reseplərin bir çoxunun müalicəvi təsiri təcrübədə təsdiq edilmişdir.

Qədim Misirdə istifadə edilən kosmetik məmulatlar haqqında geniş məlumatlara bizim eranın XVII yüzilliklərində əsası qoyulan Ebers papiruslarında rast gəlmək olar. Papirusun üzərindəki yazılarda “orqanizmin bütün üzvlərinin müalicəsində istifadə edilən kosmetik maddələr haqqında geniş məlumat verilir”. Papirusların birində “qocanın cavana çevrilməsi” və yaxud “qocalıqda əmələ gələn xoşa gəlməz qüsurlardan necə can qurtarma” və s. sirləri qeyd olunmuşdur.

Papirusların yazılarında müxtəlif xəstəliklərin müalicəsində buxar maskasından, vannadan, yaş sarıqlardan, masaj və hamamlardan itifadə etməyi məsləhət görülür. Qırışığın necə aradan qaldırılması, saçların rənglənməsi və onların inkişafının sürətləndirilməsi, ziyilin necə müalicə edilməsi və s. haqqında da geniş məlumatlar verilir. Bir çox kosmetik preparatların müalicəvi təsirindən də danışılır. Məsələn göz qapağı üçün istifadə olunan və bizim dövrümüzə qədər gəlib çıxan qurğuşun sulfid və malaxid yaşılı boyaları ilə misirlilər gözün traxoma və bir sıra yoluxucu xəstəliklərin müalicəsində istifadə etmişlər. Qədim Misir qadınları gözün yuxarı qapaqlarını qurğuşun sulfitlə, alt hissəsi isə malagirlə yaşılı rənglə boyayarmışlar.

Sulfat və yaxud karbonat məhlulları ilə antibiotik preparatlarının kəşfinə qədər 5 min ildən artıq bir dövrdə gözün traxoma xəstəliklərinin müalicəsində istifadə olunmuşdur.

Müxtəlif balzam və ətirli yağlardan yalnız həşarət sancmalarında deyil bina və mənzillərin havasının yaxşılaşdırılmasında da istifadə olunmuşdur. Qədim misirlilər kosmetik maddələrdən istifadə edərək fironların və onların arvadlarının daş və qranitdən portretinin təsvirini vermişlər. 3 min il bundan qabaq Misir çarı Neferttinin kosmetik maddələrlə bəzədilmiş göz oxşayan heykəli, öz gözəlliyini və təravətini itirmədən bizim dövrümüzə qədər

gəlib çıxmışdır. Qayğı ilə bəzədilmiş sifəti, nazik uzun qələm qaşları, gözəl quruluşa malik ağız nahiyəsi, məharətlə, ehtiyatla boyanmış dodaqları heykələ xüsusi gözəllik verir.

Qədim dövrün varlı qadınlarının tualet stolları kosmetik məmulatlarla zəngin olarmış, Arxeoloqlar piramidaların dərin qatlarında gizlədilmiş sərdabəni açarkən onun içərisindən bürünc ayna, qiymətli əntiq əşyalar, xoş iyli ətriyyatlar, boyaq və ənlik hazırlamaq üçün istifadə edilən plitka içərisində maz və qiymətli yağlar saxlanılan gözəl bəzədilmiş qablar da aşkar edilmişdir.

Saçın daranıb səliqəyə salınması və ona göz oxşayan formaların verilməsi qadınların həmişə ön arzusu olmuşdur. Bu dövrlərdə tüklərin möhkəmləndirilməsi üçün istifadə edilən maz və yuyucu maddələr mövcud olmaqla yanaşı baş sancaqları da məlum idi.

Qadın saçlarının müxtəlif formalara salınması, süni saçların düzəldilməsi mədəniyyəti feodal dövrünün məhsulu olmayıb, bunun kökləri çox qədimlərə gedib çıxır. Qədim misir şairləri "kosmetikaya” aid çoxlu şerlər həsr etmişlər. Bu şerlər minilliklərin süzgəcindən süzülərək bizim dövrümüzə qədər gəlib çıxmışdır.

Sadə qadınlar, bütpərstlər, kahinlər, o zamanlar müqəddəs sayılan pişikləri, heykəlləri qoyulmuş Allahları və meymunları kosmetik madəllərlə bəzəyirmişlər.

Qadınlar ilk dövrlərdə göz qapaqlarını yaşıl, sonralar isə qara rənglə bəzəmiş, enli və uzun qaşlar çəkərmişlər.

Kosmetikadan qədim yəhudi xalqları da geniş istifadə etmişdir. Yəhudi xalqı ən çox ətirli mazlardan və xoş iyli qətranlara meyl göstərmişlər. Onlar darçın, səna və ətirli qatranlardan alınan xoş ətirli maddələr ilə sifət və bədənlərini silirmişlər. Matəm mərasimlərində ətirli maddələrdən istifadə edilmirdi. Yəhudilər alkan bitksinin çiçəklərindən alınan xoş ətirli mayedən də geniş istifadə etmişlər. Yəhudi xalqı istifadə etdikləri kosmetik və bəzək maddələrini ən çox farslardan və vavilonlardan alırdılar. Belə bir adət varmış ki, hərgah yəhudi qızları Artakser çarının qəbulunda olmamışdan qabaq “bədənlərini 6 ay ətirli qətran maddəsi ilə xoş iyli kosmetik mazlarla silərmişlər”. Bir sözlə qızlar bir ilin içərisində kosmetikanın sirlərinə dərindən bələd olurdular. Bibi-

liya dövründə Yəhudi kosmetika mədəniyyəti o qədər inkişaf etmişdir ki, İov qızlarından birinin adını "Sürmə qabı" qoymuşdur.

Keşişlər qəmzəli, gözəl, nazlı yəhudi qızlarını kosmetik maddələrlə bəzənmələrindən, qızılı rəngli boyunbağılar bağladıqlarından şikayətlənirdilər. Lakin qız və qadınların kosmetikaya hərislikləri o qədər artmışdır ki, heç bir qüvvə bunun qarşısını ala bilməzdi.

Kosmetika mədəniyyəti bir çox ölkələrdə o, cümlədən də Asursiya, Fars, Ərəb, Hind, Cənubi Amerika və s. ölkələrdə də inkişaf etməyə başlamışlar.

Kosmetika özünün əsas təşəkkül inkişafını cənub rayonlarından götürmüşdür. Bu onunla izah edilir ki, cənub ölkələrdə yaşayan xalqlar, istinin və günəşin zərərli təsirlərindən qorunmaq üçün kosmetikadan geniş istifadə etmyə məcbur olmuşlar.

Tarixi araşdırmalardan məlum olur ki, Asursiya qadınları bədənlərini ətirli maddələrlə silər, xüsusi tərkibli yağlardan sifətlərinə çəkər, qaş və kipriklərini qara rəngə boyayarmışlar. Kişilər isə yaraşıqlı saqqallar qoyar, qrimlənər və saçlarını ətirləyərdilər. Midiyalılar sifətlərinə ağ rəng çəkər və ənlik-kirşan sürtərdilər. Farslar saçlarını, dırnaq və dişlərini rəngli gildən hazırlanmış tozla boyayarmışlar. Bu ən yüksək gözəllik rəmzi hesab edilirmiş.

Hindu qadınları qaşlarına qara rəng çəkər, dodaqlarını qırmızı rəngə boyayar üz və boyunlarını ağardar, yanaq və kipriklərini boyayar və dişlərini qəhvəyi boya ilə rənləyirmişlər.

Mavritaniya qadınları üzlərini mavi rəngli çiçək naxışları ilə bəzəyər, gözlərinə sürmə çəkər və yanaqlarına ənlik-kirşan sürtərdilər.

Laplandiya qadınları sifətlərinə treska balığının yağını sürtməyə həvəs göstərmişlər.

Sonralar xristianlar tərəfindən ərəb kosmetika məmulatları Avropa ölkələrinə yayılmış, qızıl gül suyunun hazırlanma sirlərini onlara öyrətmişlər.

Kosmetika mədəniyyəti Misirdən, Yunanıstana oradan da İtaliyaya yayılmışdır.

# QƏDİM YUNANLARIN GÖZƏLLİK HARMONİYASI

“Kosmetika” yunan sözü olub “kosmet” mənası qulun öz xanımının bədən və sifətinin bəzəməsi deməkdir. Sözün kökü isə "qayda”, “qaydaya salmaq” və yaxud geniş şəkildə “bəzək incəsənəti” mənasını bildirir.

Bu termin əsas məğzi yəni kosmetika mədəniyyəti insanın sağlam, gözəl və orqanizmdə baş verən xoşa gəlməz halları aradan qaldırılmasına xidmət edən vasitə hesab edilir.

ilk zamanlar yunanlar bədənlərini yumuş, sonra isə zeytun və qoyun piyi ilə sürtərmişlər. Sonralar zeytun yağından başqa xoş ətirli iyə malik maddələrdən geniş surətdə istifadə etməyə başlamışlar. Çox keçmədən kosmetik yağlar hər bir yunanın sevimli bəzəyinə çevrilir. Bu dövrlərdə kosmetik maddələrdən bəzək və yaxud maye (ətir) halında istifadə olunurdu. Kosmetika sənayesinin inkişafı ilə əlaqədar olaraq, orqanizmin ayrı-ayrı üzvləri üçün xüsusi bəzək və sürtkü maddələri hazırlanmağa başlandı.

Aparılan arxeoloji qazıntılar zamanı müəyyən olunmuşdur ki, kosmetikada işlədilən ağ rəngli (qurğuşundan), ənlik-kirşanı süni kinovardan (qırmızı mineral) pudranı isə qurudulmuş ətirli bitkilərin çiçəklərindən hazırlayırmışlar. Ətirli çiçəklərdən hazırlanan pudradan yorğan-döşəyin, ağların, alt və üst paltarlara xoş iy vermək üçn istifadə edərmişlər. Antik mifologiyada qeyd edilir ki, Afrodita dini mərasimlərə sifətinə boya və pudra çəkib çıxarmış.

Antik yunan təbabətinin əsasını qoyan qədim Yunanıstanın məşhur tibb alimi Hippokrat bizim eranın 460-377-ci illərində, öz əsərlərində dəri xəstəliklərinə geniş yer vermişdir. Qədim Yananıstanda dəri xəstəlikləri mövcud olmamışdır. Hippokrat bu xəstəliyi ancaq “barbar qəbillər”in uşaqları arasında yayıldığına rast gəlmişdir. Hippokrat qadınların ətirli maddələrdən və yağlı yaxma mazlardan təravət və gözəlliyini itirən dərilərinə sürtər, onla

rın elastikliyini artırar və qırışıqlarını azaldarmışlar. Hippokratın tələbəsi yə davamçısı Diokl dərinin yumuşaqlığını və elastikliyini artırmaq üçün gigienik vannadan, masajdan həmçinin müxtəlif yağ və mazlardan istifadə edilməsini məsləhət görmüşdür. Ondan bir az sonra Kriton özünün yazdığı 4 cildlik əsərində kosmetika elminə geniş yer vermiş, saçların daranıb müxtəlif formaya salınmasından və onların boyanmasına göstərilən xidmətdən və eləcə də üz dərisinə, gözə, buruna, dişə və əllərə göstərilən qayğılardan istifadə edilən kosmetik məhsullar haqqında geniş məlumat vermişdir.

italyanlar kosmetika mədəniyyətini Yunanlardan götürmüş və onu inkişaf etdirərək tətbiq sahələrini genişləndirmişlər.

Misirlilər qrimləmə üsullarının sirlərini romalılara öyrətmişlər. Zəngin Roma qadınlarının tualet stolları həmişə kosmetik məmulatlarla zəngin olarmış. Roma qadınları hər axşam mütləq sifətlərinə çörək qabığı ilə südqarışığı və yaxud paxla yağı sürtər, səhərlər su və eşşək südü ilə yuyarmışlar. Bu əməliyyat nəticəsində sifət ağarar və təravətli olardı. İmperator Neronun arvadı Pop- peya Sabina hər gün eşşək südündən hazırlanan vanna qəbul edərmiş. Bunun üçün xidmətçilər 500 eşşək saxlayarmışlar. Sabina xanım səyahətə çıxan zaman, onun arxasınca 100-ə qədər eşşək apararmışlar. Xidmətçilər bu heyvanların südünü sağar, Sabina xanımı çimizdirərmişlər. Zədəkan qadınların axşamlar üzlərinə sürtdükləri mazların tərkibləri çox mürəkkəb olarmış.

Böyük Pliniy bizim eranın 23-79 illərində yazdığı “Təbiətin tarixi" əsərində bir sıra kosmetik maddələr haqqında geniş məlumat verir. Bunlardan badam yağı və süddən hazırlanmış losyon, üz üçün qurğuşundan hazırlanan ağ boyaq, saçın xurmayı rəngə boyanmasında istifadə olunan sabun, buynuz və süngər daşından hazırlanan daş tozları, qırışığın müalicəsində istifadə olunan kətan yağı ilə öküzün ayağından çıxarılmış piy qatışığından hazırlanan pomada və s. göstərə bilərik.

Misir və orta Şərqlə ticarətin genişlənməsi ilə əlaqədar ola-

ınq, Romaya küllü miqdarda ekzotik kosmetika məmulatlarının axımına səbəb oldu. Bu zaman kosmetik məhsulların əldə edilməsi üçün çoxlu pul sərf olunduğundan İtaliya senatı ölkənin iqtisadiyyatına küllü miqdarda ziyan vuran kosmetik məlumatların axının qarşısını almaq üçün xüsusi sərəncam vermişdir. Bu da İtaliya pullarının xaricə axımının nisbətən qarşısının alınmasına kömək etdi.

Pliniy qeyd edirdi ki, bu dövrdə Hindistan, Çin və Ərəb yarımadasının əhalisi hər il bizim imperiyadan 100 milyonlarla sfste- rlya aparırdılar. Bu da hər il qadın bəzəklərinə küllü miqdarda pul sərf olunduğunu göstərirdi. Ginekoloq və mamalıq mütəxəssisi sayılan Tortolla Rudjiero bu görülən tədbirlərin əksinə olaraq, kosmetika sahəsində möcüzələr yaratdı. Belə ki, bu qadın zəngin bitki ehtiyatlarından istifadə edərək, sifət, tər, yanıq və dəri xəstəlikləri və ağızda əmələ gələn pis iyləri aradan götürmək üçün küllü miqdarda kosmetik məmulatlarının istehsalına başladı. Qısa bir zamanda küllü miqdarda pul əldə etdi. Qədim dövrün məşhur təbiblərindən sayılan Halen bizim eranın (130-200 illərində) kosmetika sahəsi ilə ciddi məşğul olmağa başlayır. O, bir çox krem və mazların reseptlərini hazırlayıb, onların satışını təşkil edir. Halen qeyd edirdi ki, kosmetikanın əsas vəzifəsi insanın təbii gözəlliyinin saxlanmasına kömək etməli və ortaya çıxan qüsurların aradan qaldırılmasına xidmət etməlidir. Halenin dövründə qadınlar üçün 7 komplekt kosmetika məmulatları işlənib hazırlanmışdır. Bunlardan saç və dırnaqların boyanması üçün xına və basma, yanaq və gözlərə parlaqlıq verən ənlik, ağ boya və sürmə, folqa (zərvərəq) ətirli qarışıqdan ibarət torbalar və s. göstərmək olar.

# *GÖZƏLLİYİN CANLANMA DÖVRÜ*

Modanın intibah dövrünün başlanması, insanın özünün mənəvi inkişafı ilə əlaqədar olaraq İtaliyada kosmetikaya olan münasibətin dəyişilməsini tələb edirdi. O dövrlərdə gözəlliyin qanun və qaydalarının əsasları yaranmağa başlayırdı. Həmin illərdə yaranan gözəllik amilinin bir neçə başlıca qanunları bizim dövrümüzə qədər gələrək inkişafın yüksək mərhələsinə çatmışdır.

O dövrlərdə gözəlliyin əsas şərtləri hündür boylu, sərrast qədd-qamət, enli kürək, nazik bel, ağ dişlər və dodağın qırmızılığı əlamətləri hesab edilirdi. Əsrin irəli sürdüyü tələblərdən biri də saçların alın nahiyəsinə tökülməməsi, qaşların rəvanlıq xəttinin pozulmaması, artıq tüklərin çıxarılması və s. daxil idi. Gözəlliyin əsas əlamətlərindən biri də sarışın saçlılıq hesab edilirdi. Paltarlar insanların zövqünə uyğun tikilirdi. Bu o dövrün kosmetika mədəniyyətindən tələb olunurdu. Üzün qrimlənməsi incəsənətin bir növü olub, qadınlar tərəfindən bu sənət günü-gündən inkişaf etdirilib təkmilləşdirilirdi. Saçların rənglənməsində mineral və üzvi boyalardan istifadə edilirdi. Qadınlar çox vaxt saçlarını parlaq sarı rəngə boyayardılar. Evlərdə günəş vannası qəbul etmək üçün xüsusi yerlər ayırar və saçlarını təbii yolla rəngsiz hala salarmışlar. Bu dövrlərdə İtaliyada Djivanni, Baltista, Posta, Sçebella, Korteze və s. müəlliflər tərəfindən kosmetikaya aid xüsusi ədəbiyyatlar yazılıb dərc edilirdi. Yeketerina Sforsa tərəfindən yazılmış kitabda oxuculara qrimlərdən istifadə qaydaları haqqında geniş məlumat verilirdi.

Bu dövrlərdə insanların kosmetika məmulatlarına olan ehtiyaclarını ödəmək üçün xüsusi ətriyyat fabrikləri tikilib istifadəyə verilirdi. Elmi fikrin ümumi inkişafı ilə əlaqədar olaraq, kosmetika məmulatları hazırlayan sənətkarlar əsl elmli adamlara çevrilirdilər. Fransaya qastrollara gələn artistlər özləri ilə çoxlu sayda ənlik, pasta, pudra, boyalar və s. gətirirdilər.

XVII və XVIII əsrlərdə kosmetika Fransada sürətlə inkişaf etməyə başlayır. Bu dövrlərdə Fransada istehsal edilən modalar və kosmetik məmulatlar öz keyfiyyətlərinə və yüksək ətirlik qabiliyyətinə görə digər Avropa ölkələrində istehsal edilən kosmetik

məmulatlarını üstələyir. Fransızlar Avropanın hər hansı bir ölkəsində istehsal olunan kosmetika məhsulları ilə o saat maraqlanar və onların hazırlanma sirllərini öyrənməyə can atırdılar. Bunu biz Paris Universitetinin tibb fakültəsinin həkimi Andre Le-Furnistin XVI əsrdə yazdığı populyar əsərindən aydın görə bilərik. Kitabda bütün Avropa ölkələrində istifadə olunan kosmetik maddələrin tam reseptləri verilmişdir. Bu kosmetik məmulatlar öz keyfiyyətlərilə bir-birindən fərqlənirdilər. Avropanın əksər dövlətlərində müxtəlif kosmetika məhsullarının çeşidlərinin əsasları qoyulurdu. Biz bunu XVI əsrdə italiyalı Jirolamo Rusilin yazdığı "Aleksanın sirri" kitabında aydın görmək olar.

Kitabda qeyd olunan kosmetik məmulatlarından birinin hazırlanma texnologiyası aşağıdakı kimidir: "Ağ göyərçini götürüb onu 15 gün müddətində şam toxumu ilə qidalandırın, sonra onu kəsib, baş və ayaqları kənar etdikdən sonra içərisini çıxarıb distillə qazanından keçirib, üzərinə yumşaq ağ çörək əlavə edib, badam südündə isladıb, üzərinə 400 qram dana beyni və qizardılmış donuz piyi əlavə edib zəif od üzərinə qoyub qarışdıra-qarışdıra qaynadırmışlar. Sonra qaynamanı dayandırıb, alınan məhsulu soyumağa qoyurmuşlar." Bu mürəkkəb proses başa çatdıqdan sonra üz dərisini silmək üçün keyfiyyətli kosmetik yaxma əldə edilirdi. Qəribə burasındadır ki, hazırlanan yeni "reseptlərdə müxtəlif mülahizələr irəli sürülürdü.

Kilsə xadimləri məşhur ətriyyatçıları və həikləri (yüksək elmi dərəcəli adamları) cadugər və fırıldaqçı adlandırırdı. "Sevgi içkisini" hazırlayanlara isə sehrbazlar deyirdilər.

Bir sözlə kosmetik maddələri hazırlayanları və eləcə də onları satanları cadugər və sehrbazlar adlandırırdılar. Hər cür qadağalara baxmayaraq insanlar gözəllik, sağlamlıq və gənclki reseptini əldə etmək arzusu ilə kosmetiklərin yanına axışırdılar.

Ətriyyatçılar öz reseptlərini həmişə gizli saxlamış, heç öz övladlarına da öyrətməyə bir o qədər həvəs göstərmirdilər.

Fransa həmişə kosmetika mədəniyyətinin mərkəzi sayılmış, dünyanın əksər ölkələrində kosmetikanın inkişafına böyük təkan vermişdir.

Təkcə XVIII əsrdə Fransadan xarici ölkələrə hər il 30 miylon frank dəyərində kosmetik məhsullar ixrac edilirdi. 1640-cı ildə ilk

dəfə olaraq Fransada süni saç qoyma üsulu meydana çıxır. Bu hadisə yeni saç formalarının düzəldilməsi ilə əlaqədar kosmetikanın inkişafına səbəb olur. Bu dövrdə zərif, incə qadınların tualet stollarını zəngin kosmetik bəzəkləri bəzəyirdi. Bu stollarda kosmetik məhsullarından ağ boya, ənlik, süleymani, zəy, sürmə, müxtəlif ətriyyat növləri, badam yağı və s. rast gəlmək olardı.

Ağ pudra ilə boyanmış süni saç gəzdirən qadınların yaşlarının düzgün təyin olunması çətinlik törədirdi. Kosmetik boyalardan və qrimlərdən həddindən artıq istifadə edən qadınları öz ərləri tanımaqda belə bəzən çətinlik çəkirdilər. Kosmetikadan həddindən artıq istifadə edən qadınlardan əksər kişilərin xoşu gəlmirdi.

XVIII əsrdə ənlik və pudra qadınların ən çox sevdikləri əyləncə olmuşdur. “Zərif, gözəl, hündür, incə bellik dəbdəbəli qəmşər- li tuman geyinmiş, geniş ağardılmış açıq sinələr pudralanaraq təm-təraqlı formaya salınmış saç, gözəl bəzəkli sifət, süni xallar, tünd boyanmış dodaq, uzun nazik əllər, mərcanvari dırnaqlar” əsrin nazlı-qəmzəli qadınlarını xarakterizə edirdi.

Kişilər pudralanmış süni saçlar gəzdirər, ətirli sulardan istifadə edərdilər. Sevdikləri qıza nail olmayan kişilər kədər əlaməti olaraq üzlərinə ağ boya sürtər və göz yaşları axıdardı.

Lakin XVIII əsrin axırlarında bəzək kosmetikasına olan həvəs get-gedə sönməyə başlayır. Hətta 1799-cu ildə din xadimlərinin təsiri nəticəsi olaraq, İngiltərə parlamenti belə bir qanun verdi: vəzifəsindən, yaşından, irqindən asılı olmayaraq, ənlik, boya və s. kosmetik maddələrdən istifadə edən qadınlar mühakimə edilib, kəbinləri geri oxunacaqdır. Kosmetika hazırlayan mütəxəssisləri cadugər adlandırıb, ölümə məhkum edirdilər.

Lakin bu qadağanlara baxmayaraq gizlincə da olsa gözəlliyə qənim kəsilən qocalığa qarşı kosmetik mübarizə üsulları davam etdirilirdi.

Hətta ingilis kraliçası I Yelizaveta (1553-1603-cü ildə) kosmetikaya o qədər həvəs göstərir və öz cavanlığını geri qaytarmaq üçün qulluqçusuna göstəriş verir ki, onu müxtəlif kosmetik məmulatlarla bəzəyib cavanlaşdırsın. Kraliça arzu edirdi ki, onun parıldayan qan damarları, cavan dərisi, şux baxışları yenidən özünə qaytarılsın.

# *RUS KOSMETİKASI*

Rusiyada kosmetika mədəniyyəti tarixin çox qədim dövrlərinə gedib çıxır. Rus qadınları da müxtəlif bitkilərdən ilk zamanlarda bv şəraitində kosmetik məmulatlar hazırlayıb üzlərinə, dərilərinə, qaşlarına sürtərmişlər. Rus qadınları həqiqətən üzlərini ağardır və ənlikləyirdilər. Lakin bu işi onlar çox kobud sürətdə yerinə yetirir, üzlərinə, boyunlarına həddindən artıq boya yaxır, təbiətin ona verdiyi gözəllikdən də gözəl olmağa çalışırdılar. Alman səyahı Oleariya qeyd edirdi ki, Kimsə rus qadınlarının sifətlərini fırça ilə sanki rəngləmişdir. Qadınlar əl və boyun nahiyələrini mavi, ağ və qəhvəyi rəngə boyayır, qaş və kipriklərinə sürmə sürtərmişlər. Çərkəz knyazlığının qadınları o qədər gözəl olurlar ki, onların kosmetikadan istifadə etməklərinə ehtiyac qalmırdı.

XVII əsrin əvvəllərində 3 yüzilliklər ərzində Fransa rus zadəganlığının kosmetika mədəniyyətin sürətlə inkişafına böyük təsiri olmuşdur.

Artıq XVIII əsrdə Peterburqda Neva prospektində Danilova ətriyyat mağazası açılmışdır. Bu dövrdə ətirçiləyən hava cihazları da mövcud idi. Qadınlar qaşlarına sürmə çəkər, sifətlərinə nəinki ənlik sürtər hətta ağ rəng də çəkər və dişlərini rəngləyərdilər. O dövrlər kosmetika məmulatları çox baha qiymətə olduğundan sadə adamlar onları əldə edə bilmirdilər. Onlar ancaq təbii otlardan ev şəraitində hazırladıqları krem və yaxmadan istifadə edərdilər. Rus xalqı qədim dövrlərdən bəri təmizliyə və səliqəyə xüsusi fikir vermişlər. Qədim rus xalqına dəriyə, ələ, bədənə, saçlara gigenik qulluqlara çox diqqət yetirmişlər. Rus qadınları gözəl bilirdilər ki, qatıq, qaymaq, xama, bal, piy və yağ dərini yumşaldır, sifəti saflaşdırır, boyun və əl dərisinin elastikliyini artırır, qan dövranını nizama salır. Rus qadınları çox vaxtlar onlara lazım olan kosmetik məmulatları təbiətin qoynunda əldə edirdilər. Belə ki, onlar yaşadıqları ərazilərdə bitən ot, çiçək, meyvə, giləmeyvə, kök xammalarını toplayar, qurudub toz halına salar kosmetik cövhərlər, dəmləmələr, yaxma və kremlər hazırlayıb istifadə etmişlər.

Qədim təbiblər suyu təmizlik, kosmetik gigiyena adlandırmışlar. Bu sahədə hamamların rolu böyük idi. Hamamlarda dəriyə qulluq edilər, xüsusi qaşovla onu təmizləyər, ətirli balzamlarla masaj edərdilər. “Təmizlik sağlamlığın və gözəlliyin rəhnidir” deyiblər. Rusiyada varlı qadın və kişilər hər gün hamama gedər,

par qəbul edib, dərilərini təmizləyər və artıqlıq edən tükləri çıxarıb atarmışlar. Hamam olmadıqda isə rus peçlərindən istiradə edərdilər. Hus hamamları əsrlərdən bəri insanların sevdikləri yer olub, onların sağlam və gümrah olmalarında böyük rol oynamışdır.

Kosmetika heç də çoxlarının düşündükləri kimi yalnız krem və ənlik sürtmək, lasyon və şampundan istifadə etmək deyil, birinci növbədə gigiyenik təmizlikdir. Yuyunan zaman dəri çirkdən, tərdən, piydən, məhv olmuş buynuz qişasından təmizlənir. Hamam təkcə gigiyenik təmizlik amili olmayıo, o həmçinin termorequlya- tor rolunu oynayaraq tər vəzilərinin fəaliyyətini yaxşılaşdırır və eləcə də orqanizmin xarici təsirlərdən miıaafiəedıci funksiyasını yerinə yetirir.

Vaxtından tez sifətdə qırışıqların əmələ gəlməsi qadınları çox məyus edir. Dərinin yığılması piy vəzinin funksiyasının zəifləməsi iıə baş verir. Bu zaman dəri öz elektikliyini itirməyə başlayır. Bunun.qarşısını almaq üçün dərini məşq etdirməyi məsləhət görürlər. İsti hamam dərinin məşqi üçün ən əlverişli amil hesab edilir. Qədim atalar sözündə deyilir: gözəl olmaq üçün əziyyət çəkmək lazımdır”. Hamam 10-a qədər kosmetik məmulatı əvəz edir.

İnsanlar çox qədimlərdən bəri təbiətin 3 müalicəvi təsirini sınaqdan keçirmişlər. Bunlar günəş, hava və sudur. Deyirlər ki, bədən su ilə təmizlənir-beyin isə agılnan. Yuyunmağın 10-a qədər üstünlüyü: güc, cəsarət, sağlamlıq, ağıl, təravət, təmizlik, gənclik, sifətə xoş rəng verməklə yanaşı hər bir insanı saflaşdırır və xeyirxah edir.

Tanınmış Nion de Lenklo və Marion de Lori, uzun ömür sürmüşlər. Bunların çox yaşamalarının sirri ondan ibarət idi ki, onlar hər gün təzə su ilə yuyunurmuşlar. Bu əməliyyatı yerinə yetirməklə onlar öz cavan və gözəlliklərini uzun müddət saxlamağa nail olmuşlar.

Rus hamamlarında keçmişdə və hal-hazırda parın əmələ gəlməsində bir çox bitki ekstraktlarından və dərman preparatlarından istifadə olunurmuş. Bu zaman aerozol xüsusiyyətli par alınır. Bitkinin tərkibindəki müalicə maddələri ani halda ciyərə və qana keçir. Bu üsulla qədim zamanlarda bir çox qorxunc xəstəlikləri müalicə edərmişlər. Hal-hazırda rus par hamamlarında evkalipt. qaraqınıq, kəklikotu, yarpız, darçın ekstraktlarından istifadə edilir. Rus hamamlarının simvol və embleması isə tozağacı süpürgəsi hesab edilir.

# *AZƏRBAYCAN QADINLARININ İSTİFADƏ ETDİKLƏRİ TƏBİİ KOSMETİK VASİTƏLƏR*

Azərbaycan qadınları floramızda yayılan qoz, soğan, çoban yastığı, cəfəri, rəng otu, zöhrə otu, lakmus otu, rəvənd, xına otu, boyaq qırxbuğumu, mamır bitkilərindən rəngləyici məşlullar hazırlayıb qaş və saçlarını, xurmayı, sarı qızılı, şabalıdı, qara və s. rəngli çalarlarla boyayırmışlar. Möhkəmləndirici kimi, yumurta sarısı, turş qatıqdan istifadə edərmişlər.

Azərbaycan qadınları ta qədimdən öz zövqləri, təmizlikləri və daha gözəl görünmək qabiliyyətləri ilə seçiliblər. Yəqin elə buna görə də kosmetik vasitədən ən çox istifadə edən Azərbaycan qadınları olub. Bu günə qədər dəb ənənə saxlanılır. Avropada adi günlərdə kosmetikadan istifadə etmək dəb deyil. Şivahi xalq ədəbiyyatına nəzər salsaq “Göyçək Fatma” nağılında qarı Fatmaya minnətdarlıq əlaməti olaraq “qarşına üç bulaq çıxacaq. Onlardan ağ, qara və qırmızı su axacaq. Ağ suda çimərsən, qara suyu qaş, kipriyinə və saça, qırmızı suyu isə yanağına və dodağına çəkərsən”-deyə tövsiyyə edir.

Vəsməni əzir, nar qabığı, arsen və sabun qatıb saça yaxardılar. Sonra qələviyyə sönməmiş əhəng əlavə edib, saçı onunla yuyardılar. Yazda üzüm tinglərini doğrayanda axan mayeni yığıb, kişilər bığına, qızlar saçına çəkərdi. Bu saçı uzadıb və qara olmasına kömək edərdi. Safın yumuşaq olması üçün qarğıdalı yağını və qarğıdalı suyundan istifadə edərdilər. Cot su ilə saç yuyanda axırda gilabı ilə yaxalayardılar. Bu saçın yumşaq olmasına kömək edirdi. Saçın yumuşaq olması üçün yağış və qar suyundan da istifadə edərdilər.

Xına-həna və basma, hənanı əzir, turş narın şirəsini və ya limon suyu və yaxud yararsız su qatardılar. Cod su ilə yuyanda axırda gül suyu, gilabi ilə yaxalayırdılar. Saçın yumuşaq olmasına kömək edirdi.

Hənanı kişilər şaqqalarına da çəkərdilər. Qızlar əllərinə, ayaqlarına və saçlarına həna yaxardılar. Əgər qız gənc ikən dünyasını dəyişirdisə onun əl-ayağına həna çəkib sonra dəfn edərdilər.

Deyərdilər ki, onda inki-minkirin xoşuna gələr və sorğu-sual asan olar. Görünür bu fikir səyaaha zarafatla deyilib. Çünki, adətən bu gəlin qıza toydan bir gün əvvəl həna gətirərdilər. Gəlinin əl-ayağına, saçına həna yaxar və şənlikdə iştirak edən hər bir kəsin həmin hənadan itifadə etməsi “sizin sevincinizə şərikəm” demək idi. Görünür toy olmadan ölən qızın toy hənası qoymaq arzusunu gözündə qoymamaq üçün həna yaxardılar. Qadınlar qaşlarına vəsmə, gözlərinə sürmə çəkərdilər.

*"Qaşa vəsmə, gözə sürmə yaxanda*
*Nazik əllərində innab, həna*
*Səhər dura, sürmə yaxa gözünə Sürmələnsin ala*
*gözlər şux olsun Can alırsan yenə bu nə sürmədir.*
*Çəkibsən o xumar gözə Fatiməi?!" Ağ əllərin əlvan*
*hənadan pəri*

Qadınlar ənlik və kirşandan da istifadə edərdilər.
Ənliyi, kirşanı neylər camalın

**M.P. Vaqif**

Kosmetik vasitə kimi badam yağı, zeytun yağı, gül yağı və gi- lab da işlədilir. Badam yağı ilə sürməni qatar və gözə çəkərdilər. Bu gözün sağlam və işıqlı olmasına da kömək edərmiş. Badam yağı əvəzinə toyuğun bud yağı da işlədilir. Toyuğun bud dərisi dizdən və enli yerdən dairəvi kəsilib, bütün çıxarılır. Qurudduq- dan sonra enli tərəf iç üzdən bərk tikilir. Üzərinə parçadan tuman şəklində üzlük tikilir və nəmlənir.

Sürmə tozu dar tərəfdən budun içərisinə sürmə çöpünün əl yeri sərmədanın ağzı ölçüsündə düzəldilir. Bu cürmədandan istifadə etdikcə badam yağına ehtiyac olmur.

M.S.Ordubadi qılınc və qələm əsərindən Qətibənin bədəninin gülabla massaj olunduğunu yazır. Gülabdan həmçinin saç düzümündə də istifadə edilir. M.P.Vaqifin qoşmalarında bunu aydın görmək olur.

*Gülabilən zülfün ç/ğasm əyər Gülab Hə sığallanır, sulanır,*
*Həlqə düşür, buxaq altda dolanır.*

Gigiyenik vasitə kimi ruşuldan istifadə olunur. Bu mərmər tozu İlə heyvanın beyin iliyindən hazırlanır və üzün dərisinə qulluq wlınek üçün istifadə edilirdi.

Diz dirsək, dabanın yumuşaq olması üçün zeytun badam, yolteli yağından istifadə edilirdi.

Azerbaycan qadınları əsrlər boyu gözəl-göyçək şux qamətli, İncə və nazik barmaqları, sıx, gur parlaq qara saçlara, badamı flözlərə, püstə dodaqlara, süzgün baxışa, nazlı-qəmzəli lurəkətləri ilə başqalarından həmişə fərqlənmişlər.

Aşıq Alı öz şerlərində Azərbaycan qadınlarının gözəlliyini döne-dönə tərənnüm edirdi:

*Yanağı qırmızı buxağı ağdı, Cırağban eləyib ağı qırmızı. Ala gözlərinə gözüm sataşdı Əridi ürəyimin yağı qırmızı.*

Asıq Ailinin başqa bir şerində Azərbaycanın qız və gellnlərinin xınadan kosmetik vasitə kimi məharətlə istifadə etdiklərini belə ifadə etmişdir:

*Yarım mənə bel bağladı, Bağı gülşən qırmızı. Ağ əllərə əlvan xma Yaxıbdı qan qırmızı.*

Gül yağım sirkə ilə qarışdırıb sifətdə olan sızıqları müalicə odərmişlər. Palıd çubuğunu yandırıb alınan qatışığı götürüb, suda qatışdırıb qaşları qaraltmaq üçün istifadə edərmişlər. Qozun nazik çubuqlarını qurudub narın toz halına salır sonra sirkə əlavə edib alınan məhlula yanağı qızartmaq üçün istifadə od i rd ilər.

Alkanla bitkisinin kök hissəsini mart ayında torpaqdan qazıb çıxarır, ehtiyatla bez parça ilə təmizləyir. Təmizlənmiş kök kiçik hissələrə salıb, sonra üzərinə isti su əlavə edib cövhərini çıxartdıqdan sonra içərisinə pambıq salıb, qırmızı rəngi ora hopdurub rumyana kimi boyun nahiyələrinə sürtərmişlər.

# *KOSMETİKADA İSTİFADƏ EDİLƏN BİTKİLƏR*

## *Şam-Pinus*

(Şam-Pinaceae fəsiləsindəndir)

Dünya florasının tərkibində 100-ə qədər növü yayılmışdır. Bunlardan Qafqazda 6 o cümlədən Azərbaycanda 2 növünə rast gəlinir. Bu növlərdən kosmetikada istifadə olunan Eldar şamıdır. Eldar şamı-Pinus eldarica hündürlüyü 8-12 m olan, əlverişli şəraitdə isə 20 m-ə çatan, düzgövdəli və ya çox vaxt əyrigövdəli ağacdır. Onun aşağı əyilmiş uzun budaqları qollu-budaqlı geniş çətir yaradır. Köhnə gövdələrin qabığı qonur-boz olub, üzəri çat- çatdır, cavan gövdələrin və budaqların qabıqları açıq boz rəngdədir.

Eldar şamı Azərbaycanda mədəni halda geniş surətdə yaşıllaşdırma məqsədləri üçün əkilib becərilir. Şam bitkisi çılpaq toxumlular tipinin elə bir növüdür ki, bunlar çiçəkli bitkilərin yer



üzərində ilk inkişafı zamanı, öz çiçəklənmə dövrlərini başa vurmaqda idi. Lakin şam kimilərin içərisində elə cinslər də vardır ki, onlar nəyinki yox oldular, hətta çoxalıb yer üzünün şimal hissələrinə qədər gəlib çatmışlar. Şam da bu bitkilərdən biri hesab edilə bilər.

Şam ağacı ən çox yayılan meşə mənşəli bitkilərdəndir. Əzəmətli gözəl görünüşə malik olub ətirli qətranı havaya uçaraq şamın xoş ətirini ətraflara yararaq havanı təmizləyir, insanın nəfəs almasını asanlaşdırır. Ağ ciyəri xəstə olanları şam meşələrində dincəlməyi məsləhət görürlər. Qədim yunan əfsanələrində qeyd edilir ki, şam ağacı antik dövründə Allahlar içərisində ən şux və şən görünən Papa Allahının ağacı hesab edilirdi.

Şam ağacı bir çox dünya xalqları arasında sevilə-sevilə əkilib becərilir. Belə ki, Yapon və Çin xalqları arasında şam ağacı əbədilik və uzunömürlük, Finlandiya xalqları arasında həyat, Koreya xalqları arasında doğruluq və dözümlülük simvolu kimi təsvir edilir. Kiçik Asiya ölkələrində isə şam ağacı ölməzlik və bərəkət simvolu hesab edilir. Slavyan xalqı toyları, şən mərasimləri, bayramları şam ağaclarının ətrafında qeyd edirlər. Şam ağaclarının yayıldığı sahələr ağ, enlipapaq və çayır göbələklərinin xəzinəsi hesab edilir. Nahaq yerə demirlər ki, "Kişi şamı kəsir, göbələklər bir-biri ilə pıçı-pıçı edir."

Çox qədim zamanlarda şamın bal kimi şirin olan tozcuqlarından müalicə məqsədləri üçün qidalarına qatıb yeyərmişlər. Aclıq illərində şamın iynə yarpaqlarını qurudub, sonra toz halına salıb çovdar unu ilə qatışdırıb, sıyığını hazırlayıb yeyərdilər. Leninqradın (Sank-Peterburqun) mühasirəyə alındığı ağır günlərində əlavə qida məhsulu kimi şamın iynə yarpaqlarından vitaminli "sur- kat" içkisinin istehsalını təşkil etmişlər.

Şam qədim dərman bitkilərindən hesab edilir. Belə ki, bizim eradan 3 min il bundan əvvəl şumerilərin gildən düzəldilən cod vəldə verilən 15 dərman bitkisinin siyahısında şamında adı çokl lir.

Şumerilər şamdan hazırladıqları sarğıları bədənin ıığıivnıı ım hiyyəsinə qoyub ağrını kəsərmişlər. XVIII əsr tarixi nınıılıtyi araşdırarkənbizə məlum olur ki, şam tumurcuqlarını i|iıııınlıh

şəklinə salıb bal ilə bişirərək böyrək xəstəliklərini müalicə edərmişlər. 19-cu əsirdə təşkil olunan bir çox ekspediyalarda əksərən şam tumurcuqlarını toplamaqla məşğul olmuşlar.

Şamın bütün hissələrindən: qabıq, tumurcuq, qoz, cavan budağından, yarpağından, şirəsindən, qətran, kanfol və s. hazırlanan dəmləmə, cövhər, məlhəm və preparatlarından müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə edilmişdir.

Şamın bütün hissələrindən terpentin, qətran turşusu, tumurcuqlarından 3,5%-ə qədər efir yağı, aşı maddəsi, acımtıl piniskrin-C22 H36 On, iynə yarpaqlarından askarbin turşusu, 5%-ə qədər aşı maddəsi, az miqdarda alkoloid, toxumundan isə 26-32%- ə qədər piyli yağ, yarpaq və qabıq hissəsindən isə antoşan tapılmışdır.

Müasir tibbdə şam tumurcuqlarından hazırlanan dəmləmələrdən bəlğəmgətirici, dizinfeksiyaedici, sidikqovucu vasitə kimi istifadə edilir.

Müasir kosmetika və dermatologiya sahəsində şamın tumurcuq və iynə yarpaqlarından hazırlanan preparatlarla uzun sürən sağalmaz yaraların tezliklə qaysaq bağlayıb yeni epitel toxuması ilə bərpa edilməsində, yanıqlarda, don vurmalarında, ekzemala- rın müalicəsində, soyuqdəymədə, tonusun artırılmasında və s. işlədilir.

Bundan əlavə şamdan hazırlanan krem və mazlardan əl və üz dərilənin qidalandırılmasında, ağız boşluğu soyuq dəymələrində, dişlərin dibində baş verən qanaxmaların dayandırılmasında istifadə olunur.

Slavyan xalqları şamın qətran maddəsi ilə dəridə olan ekze- ma və dəmirovun müalicəsində istifadə edirlər.

Bolqarıstan kosmetoloqları şamdan hazırlanan dəmləmə, cövhər və vannalardan bir sıra dəri xəstəliklərin müalicəsində, Çində isə dəri və ayaqlarda əmələ gələn göbələk xəstəliklərin müalicəsində şam vannalardan qəbul etməyi məsləhət görürlər.

Şamın turmurcuqlarını erkən yazda və yaxud qış dövründə toplayıb qurudub saxlayırlar. Qurudulmuş xammalın saxlama müddəti 2 ildir.

# *Ardıc-Yuniperus L*

Sərv-Cupressaceae fəsiləsindədir. Ardıc cinsinin dünya florasının tərkibində 60-a qədər növünə Yer kürrəsinin şimal ərazilərində rast gəlmək olur. Onun Qafqazda 7, o cümlədən Azərbaycanda 6 növü yayılmışdır: Uzunsov ardıc və ya Qafqaz ardıcı- Yuniperus oblonga; alçaq boylu ardıc-Y.sibirica; qırmızı ardıc- Y.oxycedrus; ağır iyli ardıc-Y.foetidissima; çoxmeyvəli və ya şərq ardıcı-Y.polycarpos; qazax ardıcı-Y.sabina. Yuxarıda qeyd olunanlardan başqa Azərbaycanda mədəni halda Virginiya ardıcı-Y.virginiana da becərilir.

Göstərilən birinci 3 növ adıc yarpaqlarının tikanlı olması ilə başqa növlərdən fərqlənir. Ümumiyyətlə ardıc bitkiləri ikievli, 2-3 m hündürlüyündə kol və yaxud 10-12 metr hündürlüyündə ağacdır.

İynəvari yarpaqları qarşılıqlı və ya üç-üç dəstə şəklində toplamışdır. Çoxlu pulcuqlu erkəkciklərdən təşkil olunmuş çiçəklərin sünbülləri oval formadadır. Dişi çiçəkləri yarpaqların qoltuğunda qısa dayaqcıqlar üstündə tək-tək oturmuş qozalardan ibarətdir. Meyvəsi şirəlidir, giləmeyvəyə oxşayır, adətən ikinci ildə yetişir. Bu zaman yaşıl rəngli meyvələri qaramtıl göy rəngə çevrilir. Toxumları dairəvi, uzunsov, qonurumtul rəngdədir.

Azərbaycanda ardıc Kiçik və Böyük Qafqazda, Naxçıvan MR- də aşağı dağətəklərindən orta dağ qurşağına qədər yayılmışdır. Kütləvi şəkildə isə ardıc ən çox Böyük Qafqazın dağ ətəklərində, Bozdağın yamaclarında bitir.

İsti günlərdə ardıc bitkiləri havaya ətirli maddələr yayır. Hava fitonsidlə zənginləşərək orqanizm üçün zərərli təsirə malik olan mikrobları məhv edir. Bir hektar sahədə olan ardıc bitkisi gün ərzində atmosferə 30 kq-a qədər fitonsid ifraz edir. Bu qədər uçucu maddə iri bir şəhərin havasında olan zərərli mikrobları məhv etməyə kifayət edər. Qatranından mebellərin laklanmasında istifadə edilir. Meyvəsini tərkibində 42 %-ə qədər şəkər vardır ki, bu

da 35-40 dərəcə temperaturda suda asanlıqla həll olur. Şəkərindən hazırlanan şərbətdən qənnadı və limonad sənayesində istifadə edilir. Meyvəsindən hazırlanan araq, çaxır və eləcə də pivə keyfiyyətli olur.

Giləmeyvəsinin tərkibində 40%-ə qədər üzüm şəkəri, alma, sirkə, qarışqa turşuları, 430 mq S vitamini yuniperin tərkibliyi boyaq maddəsi, 2%-ə qədər efir yağı, 9% qətran spirti, piyli yağ və s. aşkar edilmişdir. Meyvəsinin tərkibindən 3,40% kül, 12,70 mr/q-K, 7,00-Ca, 1,00 Mg, 0,14-Fe makroelementləri, 0,19 mk/q- Mn, 0,46-Si, 0,39 Zn, 0,17-Cr, 0,04-Al, 9,30-Se, 1,35-Nİ, 0,21-Sr, 0,03-Pb, 89,20-B mikroelemntləri aşkar edilmişdir.

Ardıcın meyvələrini toplayır, sərib qurudur, toz halına salıb ədviyyat kimi istifadə edirlər.

Meyvələrindən hazırlanmış narın tozundan yeyinti məhsullarının hazırlanmasında ədviyyat qatqısı kimi işlədilir. Giləmeyvə- viWsi quş, ət, balıq, məhsullarından hazırlanmış qazartmaların, piti və şorbaların tərkibinə ədviyyat kimi qatılır. Bundan əlavə, giləmeyvələrindən sərinləşdirici içkilər, kvas, və s. hazırlanmasında xoş ətir və tam vermək üçün istifadə edilir. Ardıc giləmeyvələrinin əlavəsi ilə hazırlanan qida məhsulları insanın əhval-ruhiyyəsini yaxşılaşdırır.

Yetişməmiş giləmeyvələrindin yeyinti sənayesi üçün sarı rəngli boyaq maddəsi almaq olar.

Müalicə məqsədləri üçün ardıcın ancaq meyvələrindən istifadə edilir. Meyvələrində bir sıra bioloji fəal maddələr vardır. Bunlardan ən mühümü efir yağı və qatranlardır. Bizdə bitən ardıc bitki növlərindən elmi təbabətdə ən çox istifadə olunanı adi ardıcın (Y.oblonga) meyvələridir.

Dərman bitkisi kimi ardıcdan ilk dəfə qədim Yunan və Roma xalqı istifadə etmişdir. Bizim ulu babalarımız xəstəlik törədən mikrobları məhv etmək üçün yaşadıqları binaların ətrafına ardıc ağacı əkərmişlər. Evdə xəstə olan zaman döşəmələri ardıcın iynə yarpaqlarından hazırlanan cövhərlə silərmişlər. Qadınlar ardıcın budaqlarını peçdə yandıraraq, külündən ağcaqanad və mil-

çeklerin məhv edilməsində istifadə edirmişlər. Qab-qacağı ardıc cövhəri ilə dizinfeksiya edərmişlər. Belə ki, kələm, xiyar, pamidor vo s. turşusunu qoymamışdan qabaq, boçkaları ardıc cövhəri ilə yuyarmışlar. Padval və zirzəmilərə ardıc qoyar, siçan və başqa ziyanvericilərdən qida məhsullarını qoruyarmışlar.

Şimali Amerika hinduları tuperkulyoza yoluxmuş xəstələri uzun müddət ardıc meşələrinə aparar, sağalmadan oradan kənara çıxmağa qoymarmışlar.

Krımda ağ ciyər və yuxarı nəfəs yolları xəstə olanları Misxora rayonun dağ yamaclarında yayılan ardıc meşələrində salınmış sanatoriyalarda müalicə edirlər.

Elmi təbabətdə adi ardıcın qurudulmuş meyvələrindən sulu bişirmə hazırlanır və ondan böyrək xəstəliklərində sidikqovucu dərman kimi istifadə edilir. Qurudulmuş meyvələrinin çay kimi dəmlənməsindən, eləcə də spirtli duru ekstraktından həzm prosesini yaxşılaşdıran tərlədici və iştahagətirici vasitə kimi işlədilir. Ardıcın yarpaqlarından alınan efir yağının spirtli məhlulu rev- matizmdə, nevrologiyada ağrıkəsici sürtmə dərmanı kimi istifadə olunur.

Ardıcın bakteriosid xüsusiyyətlərinə görə ondan dəri xəstəliklərinin müalicəsində geniş istifadə edilir. Bu xüsusiyyətlərinə görə ardıc kosmetika və dermatologiya sahələrində yüksək qiymətləndirilir. Ardıcdan hazırlanan cövhər, dəmləmə vannalardan krem və mazlardan dəridə olan irinli yaraların, səpgilərin, qaşınmaların, başda olan qovaq və tüklərin müalicəsində geniş istifadə edilir.

Bolqar kosmetoloqları ardıc vannalarından qaşınmaların, Polşa dermatalogiyasında irinli yaraların, Almaniyada dəri səpgilərinin və göbələk xəstəliklərinin müalicəsində istifadə olunur.

Dərman və kosmetika məqsədləri üçün ardıcın meyvələrini payızın son aylarında tam yetişib qaramtıl göy rəngə çevriləndə toplamağı məsləhət görürlər.

# GƏCƏVƏR-ACORUS

Danaayağı-Araceae fəsiləsindəndir. Dünya florasında 2 növü yayılmışdır. Bunlara Yer kürəsinin şimal ərazisinin isti iqlimə malik olan rayonlarında rast gəlmək olar. Qafqazda, o cümlədən Azərbaycanda 1 növü vardır.

Gəcəvər (buna çox yerdə su zanbağı kökü də deyilir)-Acorus calamus hündürlüyü 60-120 sm-ə çatan çoxillik, qonurumtul sürünən kökümsovunun yoğunluğu 8 sm olub, çoxlu saçağı olan kökə malik çoxillik ot bitkisidir. Yarpaqları növbəli, xətvari-lansetva- rı, qılınca oxşar, paralel damarlardan ibarət olub gövdə üzərində kom halında yerləşmişdir. Hamaşçiçəyi sarımtıl-yaşıl və yaxud sarımtıl rəngdə olub silindr formasında qında toplanır və gövdənin yuxarı hissəsinə yaxın yerləşir. Çiçəkləri kiçik, ikievli olub, 6 erkəkcik və 1 dişicikdən ibarətdir. Ağızcıq tozcuğundan toz yetişir. Vətəni Çin və Hindistan hesab edilir. Gəcəvər yalnız bu ölkələrdə yayılan xüsusi həşaratlarla çarpaz tozlanır. Avropa ölkələrində yayılan gəcəvər bitkisinin tozdaşıyan orqanı olmadığı üçün meyvə vermir və vegetativ orqanları ilə çoxaldılır.

Yabanı halda Qərbi Avropa, Kiçik Asiya, Himalay, Çin, Yaponiya, Şimali Amerika ərazilərində yayılmışdır. Mədəni halda Qərbi Avropa, Asiya, iran, Hindistan, Şirilanka, Birma, Malayka, Çində və Amerikanın Rio-de Janeyro rayonlarında əkilib becərilir.

Gəcəvər bitkisinə respublikamızın Kür Araz düzənliklərində rast gəlmək olar.

Xalq arasında Gəcəvəri bataqlıq gəcəvəri, adi gəcəvər, iyli air, tatar gəcəvəri, suzanbağı kökü və s. adlarla adlandırırlar.

Gəcəvər adi su bitkisi olub, su hovuzlarında, sakit axan sularda, durğun sakit sulu göl və gölməçələrdə, gilli torpaqlarda yayılmışdır.

Rusiya ərazisinə bu bitkini ilk dəfə tatar-monqol köçəriləri gətirmişlər. Belə bir fikir irəli sürülür ki, Gəcəvər çirkli suyu təmizləyir onu içməli hala salır. Bu bitki hansı su sahəsində bitərsə o sudan cəsarətlə götürüb içmək olar. XIII əsrin əvvəllərində Rusi-

yu erazisinin çay kənarlarında yaşayan tatarlar Gəcəvər bitkisinin əkilib becərilməsi ilə məşğul olub, çirkli suları bu bitkinin köməyi ilə təmizləyib içməli hala salırmışlar.

Gəcəvərin kök hissəsindən dərman və ədviyyat kimi istifadə olunması qədim Yunan və Roma xalqına məlum olmuşdur.

Qədim zamanlarda tif, vəba, irinli yaraların müalicə məqsəd- lori üçün gəcəvərin kökünü çeynəyirmişlər. Ətirli iyli yarpaqlarından məişətdə geniş istifadə edirmişlər. Ukrayna xalqı bunun yarpaqlarını gil döşəmələrinin üzərini örtərək zərərli həşəratları mehv edirmişlər. Yarpaqlarını dəstə halına salıb, həşaratlara qarşı mübarizə apamaq üçün divarlardan aşarmışlar.

Qida və ədviyyat məqsədilə Gəcəvərin xoş ətirli, acımtıl dada malik kökümsovlarından istifadə edilir. Gəcəvərin kökümsovları- nı payızda, yəni sulutarlarda suyun səviyyəsi aşağı düşən zaman toplayırlar. Bu zaman kökümsovlar böyüyərək maksimum inkişaf dərəcəsinə çatır. Toplanmış kökümsovlar 2-3 sm uzunluğunda doğranılır və 30-35 dərəcə temperaturda qurudulur. Qurudulmuş xammal qablara doldurulub quru yerdə saxlanılır. Gəcəvərin kö-kümsovlarının tərkibində 4,8% efir yağı, 150 mq askorbin turşusu, nişasta, kitrə, aşi maddəsi, akorin tərkibli acı qlikozid maddəsi və s. vardır. Bundan başqa, onun kökümsovlarından ətirli ka- lamus yağı, alkaloid, palamin, xolin, qatran və s. tapılmışdır.

Bunun kökümsollarından alınan dərman preparatlarından hələ çox qədim zamanlarda Çində və Hindistanda bir sıra xəstəliklərin müalicəsində geniş istifadə etmişlər. Hazırda bütün ölkələrin tibb ocaqlarında bunun kökümsovlarından hazırlanan dərmanlardan revmatizm, qızdırma, ürəkkeçmə zamanı sakitləşdirici, mədə xəstəliklərində, irinli yaraların və eləcə də zökəm xəstəliklərinin müalicəsində geniş istifadə edilir. Gəcəvəri murdarça- dan hazırlanan vikalin preparatının tərkibinə daxil edilib, mədə yarasında, 12 barmaq xəstəliklərində işlədilir. Gəcəvərin kökündən alınan yağdan alimetin preparatının tərkibinə daxil edilib, or-qanizmdən artıq duzların kənart edilməsində istifadə edilir. Bundan əlavə bu preparatla sidik və öd kisəsində daşların kənar olunmasında da işlədilir.

Polşa alimlərinin tədqiqatlarına görə gəcəvərin kökündən alı-

nan dəmləmənin köməyi ilə mədənin selikli qişasında, xlorid turşusunun ifrazını artırmaqla turşluğu nizama salmaq olar.

Hindistanda kökündən alınan efir yağından tuberqlyozda, ürək pozğunluqlarında işlədilir. Bolqar alimlərinin fikirinə görə kökünün spirtli çıxarışından qıcolma əleyhinə istifadə etmək olar. Belarusiyada şirin kökündən qalxanvari vəzin müalicəsində, ti- bet təbabətində mədə və boğaz nahiyyələrində baş verən xəstəliklərin müalicəsində, Monqolustanda stimulyator kimi istifadə edilir.

Xalq təbabətində dəmləmələrindən həzmin yaxşılaşdırılmasında, qıcolmada, sidik kisəsi soyuqdəymələrində, , zökəmdə, pnevmaniya (sətəlcəm) diş ağrılarında işlədilir. Kökümsovların- dan və yarpaqlarından alınmış efir yağından şirələrə, kompotlara və eləcə də qənnadı məmulatlarına ətir vermək üçün geniş istifadə olunur. Kökümsovlarına şəkər əlavə etməklə mürəbbə hazırlanır. Efir yağından ətriyyat, kosmetika və sabunbişirmə sənayesində də istifadə edilir.

Evdar qadınlar yorğan döşəyin, ehtiyatda saxlanılan paltarların uzun müddət qalması və xoş ətirli olması üçün aralarına gə- cəvər kökü qoyurlar.

Bitkinin kök hissəsindən hazırlanan dəmləmə, cövhər və vannasından dəridə olan irinli yaraların, səpgi və qaşınmaların müalicəsində işlədilir. Kökünü iri pıtraq kökü ilə qarışdırıb dəmləmə hazırlayıb başın tükünün tökülməsinin qarşısını almaq üçün işlədilir.

Gəcəvari əsasən kökümsovları vasitəsi ilə artırıb çoxaldırlar. Onları 8-12 sm uzunluğunda bölüb, 8-10 sm dərinlikdə torpağa basdırıb əkirlər. Kökümsovun payızda oktyabr ayında və yaxud yazda-aprel ayında bir-birindən 50x70 sm aralı cərgələrdə əkib becərirlər. Gəcəvəri ən çox onun təbii bitdiyi sahələrdə əkməyi məsləhət görürlər.

# SƏHLƏB-ORCHIS

Səhləb (Orchis mascula) səhləbçiçəklilər fasiləsinə daxil olan növlərin əksəriyyəti bəzək əhəmiyyətli, müalicə xüsusiyyətli, boyaq təbiətli, qida bitkiləri hesab etmək olar.

Hal-hazırda Amerika ərazisində səhləb fasiləsinin 306 cins və 8200 növünə rast gəlindiyi halda, Asiyanın tropik zonalarında 250 cins və 7 min növünə, Afrika, Madaqaskar, Qvineya, Avstraliya, Yeni Zelandiya ərazilərində 1000-ə qədər növünə rast gəlmək olar.

Şimal yarımkürəsinin mülayim iqlim zonalarında isə səhləb fəsiləsinin 75 cinsinə, 900-dən artıq növünə rast gəlmək olar. Cənub yarımkürəsində 40 cinsə və 500-dən artıq, Avropada isə 250 növünə təsadüf edilir.

Azərbaycan florasının tərkibində isə 48-dən artıq növü yayılmışdır. Səhləb bitkisi insanlara çox qədim zamanlardan məlum olmuşdur. Qədim insanların yaşadıqları mağara divarlarının üzərində həkk olunmuş bitki rəsmlərinin arasında sələbə də rast gəlmək olar. Qədim yunan müəlliflərinin əsərlərində səhləb haqqında məlumatlarla tanış olmaq olar. Səhləbi Teofrast eramızdan (e.ə. 370-286)-cı illərində yazdığı “Bitkilərin təsnifatı” əsərində təsvir etmişdir. Birinci dəfə səhləbi oxşar cəhətlərinə görə təsnifata ayırmışlar. Əvvəllər cinsin adını səhləb adlandırmışlar. Sonra fəsilənin özünə səhləb adı verilmişdir. Bizim eranın əvvəllərində yaşamış Dioskorid iki səhləb növünün təsvirini vermişdir.

Qədim yunan müəllifləri səhləbin kök yumrularının toyuq yumurtasına oxşar olduğuna görə ona “toyuq yumurtası” adı vermişlər. Qədim rus mənbələrində səhləbi “ləpə”, “qoz” və s. adlarla adlandırmışlar. Bundan əlavə ruslar qədim dövlərdə səhləbi “gecə bənövşəsi adlandırmışlar”. Səhləb Çin xalqının ən sevimli çiçəyi hesab olunmuşdur. Tanınmış çin mütəfəkkiri Konfusiy (V- IV) erada yazırdı ki, “o çinli tapılmazdır ki, onun oranjereyasında səhləbə rast gəlməyəsən”. Çində səhləb bitkisinə həsr olunmuş

ilk monoqrafiya əsəri bizim eranın III əsrlərində yazılmışdır. 960-1279-cu illərə qədər davam etmiş Sunsk sülaləsi zamanı səhləb cinsini əhatə edən əsas növlər haqqında samballı tədqiqat işləri yazılıb başa çatdırılmışdır.

Səhləbin gözəl görünən çiçəkləri, insana zövq verən növlərinin rəsmləri çəkilmiş, farfordan düzəldilmiş əşyaların üzərinə həkk edilmiş və ipək parçalardan hazırlanan paltarlar üzərinə tikilmişdir.

Mərkəzi Amerika ölkələrinin yerli əhalisi səhləb çiçəyini məhəbbət rəmzi hesab etmişlər. Onlar səhləb çiçəyini təbiətin möcüzəsi adlandırmışlar.

Avropa və Asiya xalqları isə səhləbin müalicəvi xüsusiyyətlərinə daha çox fikir vermişlər.

Avropalılara səhləb haqqında məlumatları holland və ingilis səyahətçiləri məlumat vermişlər. Onlar səhləbin ağac gövdələrində bitən növlərinə rast gəldikdə çox qəribə hisslər keçirmişlər. Bunu görən avropalılar belə nitcəyə gəlmişlər ki, səhləbi mədəni halda əkib becərmək mümkün deyil. Bu zaman Çində mədəni halda əkilib becərilən səhləb növlərindən avropalıların xəöərləri yox idi. Bu çətinliklərə baxmayaraq holland və ingilis səyahətçiləri səhləb bitkisindən nümunələr toplayıb öz ölkələrinə gətirmişlər. 1698-ci ildə holland səyahətçilərinin gətirdikləri səhləb növlərini Leyden şəhərində oranjereya şəraitində əkib becərmişlər.

Xaricdən gətirilmiş bu “gözəli” seleksiyaçı alimlər, bağbanlar “ancaq”, XVIII əsrin ortalarında mədəni halda əkib becərməyə nail olmuşdular.

1732-ci ildə ingilis səyyahları Baqam adasından gətirdikləri bir dəstə səhləb gülünü öz krallarına hədiyyə etmişlər. Kral ona bağışlanan səhləbləri Kyu Botanika bağında əkib becərməyi bağbanlara tövsiyyə etmişdir. İlk dəfə bu bağda səhləbin yalnız II növü əkilib becərilmişdir. Lakin XIX əsrin ortalarında bağda artıq səhləbin 83 növünün əkilib becərilməsinə nail olunmuşdur.

Mərkəzi London şəhəri olan Karol bağçılıq cəmiyyətinin üzvləri səhləbin oranjereya şəratində geniş əkin sahələrini təşkil

mhılor. Karol bağçılıq cəmiyyətinin sədri Lindley səhləbin oran-|»tr»yn şəraitində geniş surətdə əkilib becərilməsində böyük xid-ıııııllörl olmuşdur. Lindley vəfat etdikdən sonra onun yerinə ham-bıırq botanika bağının direktoru Qustav Reyhenbax təyin olunmuşdur. XVIII əsrin ortalarında Qustav Reyhanbaxın rəhbərliyi ılu tropik və subtropik meşələrdə yayılan səhləb növlərini tədqiq vtı kolleksiya nümunələrini toplamaq üçün ekspedisiya təşkil milimişdir. Bu ekspedisiya zamanı tədqiqatçılar çox çətinliklərə düçar olmuş, hətta çoxunun həyatı bahasına başa çatmışdır.

Səhləbi toxumla cücərtmək üçün alimlər uzun müddət təcrübə İşləri aparmağa məcbur olmuşlar. Nəhayət belə bir qərara gəlmişlər ki, səhləbi toxumla cücərtmək üçün xüsusi göbələk növün- don istifadə etmək lazımdır. Səhləbin toxumla cücərtmək üsullarını alimlər, seleksiyaçılar və bağbanlar tamamilə mənimsədikdən sonra yabanı növlərdən fərqli olaraq, onlar gözəl görünüşə malik olan iri çiçəkli səhləb hibridləri yetişdirməyə başladılar. 1856-cı ildə ingilis bağbanı Con Donin yeni səhləb hibridi yetişdirməyə nail oldu. Sonralar həmin səhləb onun ilk yaradanının şərəfinə Con Donin adı ilə adlandırılmışdır. Beləliklə XX əsrin əvvəllərində səhləblə məşğul olan mütəxəssislər yalnız oranjeraya şəraitində deyil, otaq şəraitində də səhləbi becərmə üsullarını işləyib hazırladılar. Səhləbin geniş kolleksiyalarının toplanıb müxtəlif Botanika bağlarının oranjereyalarında müvəffəqiyyətlə yetid- rilməsinə nail olan cəfakeş alimlərdən Şleterin, Svarsın, Eymsin, Knudsonun böyük xidmətlərini qeyd etməmək insafsızlıq olardı.

Alimlər səhləbin gözəl və ətirli iyə malik forma və sortlarının yaratmalarından başqa, onların faydalı xüsusiyyətlərinə də fikir vermirlər. Belə ki, ta qədim dövrlərdən orta əsrlərə qədər insanlar səhləbin müxtəlif növlərindən toplayıb, onların yarpaq, gövdə və kök yumrularından hazırladıqları sulu dəmləmələr, məlhəmlər vasitəsilə soyuq dəymələrdə öskürək əleyhinə istifadə etmişlər.

Həkimlər Mərkəzi və Cənubi ərazilərində rast gəlinən qırmızı bletila səhləbinin kökündən hazırlanan preparatların köməyi ilə bir sıra xəstəlikləri, o cümlədən çətin sağalan yaraları müəlicə

edirmişlər. Amerika hinduları tüklü qudayerı səhləbinin yarpaqlarından hazırlanan ekstraktların köməyi ilə xənazir xəstəliyini məharətlə müalicə edirmişlər. Tufliyə oxşar səhləbdən hazırlanan preparatlardan yuxugətiric, oturaq sinir ağrılarının aradan qaldırılmasında istifadə edilir. Çində isə səhləbin bletila növündən hazırlanan preparatlar irinli yaraların, yanıqların, nəcib dendrab səhləbindən isə ağrıkəsici, qan təzyiqinin aşağı salınmasında, hündür səhləbdən isə revmatizm və orqanizm müqavimət artıcı kimi istifadə olunur. Yaponiyada diş ağrılarında dəyişkən səhləbin köklərini çeynəyirlər.

Vanilin yarpağından hazırlanan şirələrin köməyi ilə başın tükünü bərpa edirlər. Hal-hazırda bir sıra Avropa ölkələrində səhləbin barmaqvarı kök yumrularını toplayıb "səhləb" adlı preparat hazırlayıb zəhərlənmədə, mədə pozuntularında, cinsiyyət vəzilərinin fəaliyyətinin nizama salınmasında geniş surətdə istifadə edirlər. Səhləbdən qida kimi də istifadə edilir. Lemark öz əsərlərində səhləb köklərindən hazırlanan unla qidalı və asan həzm olunan xörəklər haqqında bəhs etmişdir. Bu xörəkləri ən çox vərəm və uzun sürən xəstəlikdən zəifləmiş xəstələrə verirmişlər.

Azərbaycan xalqı da ta qədim dövrlərdən başlayaraq hal-ha- zırki dövrə kimi səhləb köklərindən hazırladıqları dəmləmə və məlhəmlərlə soyuqdəymədə, təngənəfəslikdə, mədə-bağırsaq pozğunluqlarında istifadə edirlər. Səhləbdən müalicəvi şirələr də hazırlayırlar.

Hal-hazırda Meksikada, Mayamda, Fransada və s. ölkələrdə səhləbin müxtəlif növlərinin yarpaq, gövdə və kök hissələrindən müxtəlif müalicəvi təsirə malik xörəklər hazırlanır. Səhləbin kökündən hazırlanan tozlardan ədviyyat kimi də istifadə olunur. Tütünün tərkibini ətirli etmək üçün oraya səhləb tozu qatırlar.

Səhləb cinsinə daxil olan vanildən hazırlanan ədviyyatlar dünya bazarlarında yüksək qiymətə satılır. Səhləbin bənövşəyi rəngli çiçəklərindən xalçaçılıq və yeyinti sənayesində istifadə olunan boyaqlarda almaq olar.

# *Süsənrıs*

Süsən-Iridaceae fəsiləsindəndir. Süsənin dünyada 200-ə qə- dor növü yayılmışdır. Bunlara ən çox Orta aralıq dənizi ölkələrinin dağlıq ərazisində, Şimal yarımkürəsinin mülayim iqlimə malik zonalarında rast gəlmək olar. Qafqazda 33, Azərbaycanda 26 növü yayılmışdır. Süsənin xalq təsərrüfatında ancaq sarı süsən lıls pseudacorus (floren süsəni-T.florentina), Almaniya süsəni (T.germanica) solğun süsən (T.pallida) və s. növlərindən istifadə olunur.

Süsən çiçəyi təbiətin yaratdığı gözəl canlı abidədir. Çox qədim əsrlərdən bizə qədər gəlib çatan bir xalq əfsanəsində bu zərif gözəl çiçək haqqında deyilir ki, min il bundan qabaq ilk süsən çiçək açır. Bu o qədər gözəl idi ki, bütün quşlar və heyvnalar onu sevməyə başlayır. O, 3 günün içərisində böyüyüb çiçək açır. Nə vaxt ki, toxumları yetişir, külək bunları götürüb dünyanın hər yerinə aparır. Bu zaman Yer kürəsinin hər yerində müxtəlif rəng çalarlarına malik süsən əmələ gəlir. Məsələn, nəmli çəmənliklərdə qızılı sarı süsən, səhralarda qəşəng süsən, dənizkənarlarında qırmızı süsən, ən gözəl süsən isə mavi (hava) rəngli və ətirli dağ süsəni təbiətin qoynunda yayılmağa başlayır.

Bitkinin adı “iris”, “Iridos” yunan sözü olub, “göy qurşağı” mənasını bildirir. Bu da süsənin çiçəklərinin müxtəlif rənglərə malik olduğunu, gözəllik simvolu kimi xarakterizə olunur. “Pseudacrus” yunan sözü olub, yalançı deməkdir.

Qədim insanlar hər hansı bitki ilə ilk tanışlıqda onun müalicəsi xüsusiyyətlərinə fikir verirdilər. Yunan həkimi Dioskorid (bizim eranın 1-ci əsrində) “Dərman vəsaiti” əsərində süsən bitkisinin müalicəvi xüsusiyyətlərindən geniş söz açır. Ssənin yarpaq, kö- kümsov və kök hissələri dərman, aşı, ədviyyat və s. əldə etmək Üçün əvəzsiz xammal sayıla bilər. Belə ki, 300 ildən artıqdır ki, İtaliyada “bənövşə kökü” adı ilə məşhur olan florent süsənindən yüksək keyfiyyətli, xoş ətirli, iron maddəsi ilə zəngin efir yağı istehsal olunur. Bu yağdan isə incə bənövşə çiçəyinin yiini xatırla dan ətir alınır. Süsənin bir çox növlərinin kokümsov və yarpaq hissələri S vitamini, karotin, flavonaid, aşı maddəsi, kvərsetlrı, lyuteolin, 57%-ə qədər nişasta, 9,6% piyli yağ, qətranlar vo u maddələr tapılmışdır.

Sarı süsən seudacorus hündürlüyü 80-100 (110) sm olan çoxillik ot bitkisidir. Yerüstü hissəsi budaqsızdır. Sarı süsən yabanı halda su kənarlarında, bataqlıqlarda və rütubətli çəmənliklərdə bitir. Sarı süsənin torpaq altında yaxşı inkişaf etmiş iri kökümsov ' gövdəsi olur. Yayın əvvəllərində kökümsovlarındakı tumurcuqlardan gövdə, yarpaq, çiçək və meyvə inkişaf edir. Süsən sürətlə böyüyür, çəmən bitkilərindən hündürə qalxır, digər bitkilərin inkişafına imkan vermir, bütöv və ya tala-tala təmiz qruplaşmalar əmələ gətirir. Sarı süsənin yarpaqları uzun müddət, hətta qışda da yaşıl qalır. Yarpaqları lansetşəkilli və paralel damarlıdır. Çiçəklən iri və gözəl görnüşə malikdir. Ləçəkləri aşağıdan bitişik olub, iki dairə üzrə üç-üç yerləşir. Xarici dairədəki ləçəklər iri olub, aşağı əyilir, daxiıdəkilər içə kiçik olub, yuxarı qalxır. Kasa yarpağı yoxdur. Meyvəsi üçyuvalı qutucuqdan ibarətdir. Bitki may-iyun aylarında çiçəkləyir, meyvələri iyul-avqustda yetişir.

Sarı süsən mülayim, subtropik və tropik iqlimi sevir. Respublikamızın torpaq və iqlim şəraiti süsənlərin inkişafı üçün çox əlverişlidir. Sarı süsən Lənkəran bölgəsində daha geniş yayılmışdır. Sarı süsən dərman, efir yağı, boyaq, aşı və bəzək bitkisi kimi olduqca qiymətlidir.

Kökümsovların təzə ikən iysiz və zəhərli olur. Ondan istifadə etmək üçün kökümsovları yerdən qazıb çıxarır, torpağını su ilə yuyub təmizləyirlər. Sonra xırda hissələrə doğrayıb, sərib qurudurlar. Qurudulmuş kökümsovları kağız kisələrə doldurub, xüsusi anbarlarda saxlayırlar. 3-4 aydan sonra kökümsovlarında incə bənövşəyi iy əmələ gəlməyə başlayır. Bu zaman onun köklərini narın toz halına salıb, “bənövşə Kökü" adlı efir yağı alırlar. Sonra alınmış yağdan ətriyyat, kosmetika, sabunbişirmə və s.-lə yanaşı, qənnadı və spirtsiz içkilər istehsalında da geniş istifadə edilir. Bundan əlavə, narın kökümsovları ədviyyat kimi bir çox xörəklərə qatılır. Çiçək və kökümsovunun tərkibində 0,1-0,4% efir yağı, iridin qlüfcozidi, 55-57% nişasta, 10%-ə qədər yağ, 14%-ə qədər aşı maddəsi və s. tapılmışdır. Bundan başqa, içəklərindən 8- 10% llavonoid maddələri, 9-15 (26%-ə) qədər antosian tərkibli boyaq konsentratları və s. alınmışdır. Sarı süsənin qurudulmuş kökümsov və gövdəsindən xalq təbabətində sidikqovucu və qusdurucu dərman kimi istifadə edilir. Təbabətdə isə diş ağrısı, qarın yatalağı və başqa xəstəliklərin müalicəsində işlədilir. Köküm- sovu alkaloidlə zəngin olduğundan onlardan yalnız qurudulmuş

halda istifadə etmək lazımdır.

Sarı süsənin qurudulmuş kökümsovlarının sulu dəmləməsi və blşmişi ishalın qarşısını alır. Sulu dəmləməsi həm də böyrək və sidik yollarının iltibahını, ağrıları və daxili qanaxmaları (uşaqlıq qanaxmalarını) kəsir.

Aristotel, Dioskorid və başqa həkimlər öz əsərlərində xalq arasında süsənin kökü ilə bir çox xəstəliklərin müalicəsində geniş istifadə edilməsi haqqında məlumat verirlər. Qədim zamanlarda süsənin kökünü yerdən qazıb çıxarır, yuyub qurudur, əzərək narın toz halına salıb, şərabda-çaxırda həll edib, kəskin ağrı verən sidik kisəsinin müalicə edirdilər."

Orta əsrlərdə kosmetika sahəsində süsənin kökündən geniş İstifadə etmişlər: bunun cövhəri ilə dişin dibini möhkəmləndirirdilər. Bundan başqa üzdə olan çilin yox edilməsində, qanın kəsilməsində istifadə etmişlər. Tozunu balla qarışdırıb yaranın üzərinə çəkib müalicə edir, döyülmüş ətlə qarışdırıb, açıq sümüyün üzərinə qoyub müalicə edirlər. Tozu balla qarışdırıb, sifətdə olan çillərin üzərinə sürtür, onları yox edirmişlər.

Süsənin bir çox növlərinin çiçək və kökümsovlarının tərkiblərində yeyinti və toxuculuq sənayesində, gön-dəri istehsalında və eləcə də əczaçılıq, ətriyyat və kosmetika sahələrində istifadəsi mümkün olan antosian maddələri, aşı, dərman, efir yağları var. Biz ilk dəfə olaraq süsən çiçəklərindən zəhərsiz və tərkibləri bioloji aktiv maddələri ilə zəngin olan boyaq maddələri alıb qida məhsullarında sınaqdan keçirib maraqlı nəticələr əldə etdik.

Süsən əsasən toxumu, vegetetiv və kökümsovları vasitəsilə artırıb çoxaldırlar. Çoxaltmaq uçün sağlam cavan cücərtilərin şitillərindən də istifadə olunur. Növbəli ƏKİn zamanı süsəni biçilmiş taxıl və yaxud mədəni bitkilər üçün nəzərdə tutulmuş şumlanan sahələrdə əkib becərirlər. Şumlama 27-30 sm dərinliyində aparılır. Şumlamadan sonra hər hektar sahəyə 200-300 kq superfos- fat, 100-150 kq kalium gübrtəri verilir. Bitkinin inkişafı prosesində hər suvarmadan sonra kultivasiya işləri aparılır, alaq otlarından təmizlənir. Bitkinin hündürlüyü 10-12 sm-ə çatdıqda hər hektar sahəyə 150-250 kq superfosfat, 80-125 kq kalium kübrəsi verilir. ikinci ili bitkinin dibi boşaldılır, alaq otlarından təmizlənir və suvarılır. Süsəni qida sahəsi 70x30 sm olan sahədə əkib becərirlər. Hər hektar sahədən 5-8 ton kökümsov məhsulu əldə edilir.

# QOZ-YuQLANS

Bir çox xalqlar qozu insanlara xoş güzəran və uzun ömr bəxş etmək simvolu kimi qəbul edirlər. Qədim yunanlılar bayram günlərində bir-birlərinə qoz meyvəsi hədiyyə edərmişlər. Roma xalqının toy mərasimləri qozsuz keçməzmiş. Moldovan xalqları arasında gözəl bir adət-ənənə bu günə qəbər də davam edir, elə ki, ailədə oğlan uşağı doğuldu, onun şərəfinə həyətdə bir qoz ağacı əkərlər.

Qoz haqqında ilk dəfə elmi məlumatı "botaniklərin atası" Teofrast vermişdir. Sonralar qoz haqqında dəyərli elmi məlumatlara Dioskoridin, Siseronun, Pliniyin, Verqiliyin, Hippokratın əsərlərində rast gəlirik. Qozun meyvəsi iki taylı olub, yeməli nüvəsi 4



lwtıbər hissədən sanki “4 qardaş bir köynəkdə” olduğunu xatirindir Qozun ləpə hissələri insan beyninin qurluşunu xatırladır. Hu barədə çoxlu əfsanələr vardır. Məsələn, yunan filosofu Platon i|n/ meyvəsini düşünmə qabiliyyətinə malik olduğunu qeyd edir, luveç alimi və səyahı Seven Hedin inandırıcı şəkildə qeyd edir ki, (|0/un yetişməmmiş meyvəsini dərəndə incidiyib ağlamağa başlayır.

Teofrast qoz ağacını belə təsəvvür edir: “O, gözəl, iri ağac olub, torpağa tələbkar olmayan, yol kənarlarında bitən, heç nə- dnn İldırım gurultusundan, güclü küləklərdən, dolu və yağışdan qorxmayan canlı bir varlıq kimi qələmə verir.”

Min il bundan qabaq Yunan taciri “qırmızı-yaşıl qoz meyvəsini" Rusiyaya gətirmişdir. O vaxtdan bunun adı-Yunan qozu olanıq adlandırılmışdır.

Qoz (Yuglans regia) qoz fəsiləsinə (Yuglandaceae) aiddir, hündürlüyü 25-35 m gövdəsinin diametri 15-200 (400) sm-ə qədər olan böyük ağacdır. Gövdəsi biçimlidir, qabığı açıq bozdur, hamar və ya azca çatçatdır, qoca ağacların qabığı tünd-boz rəngdədir. Yarpaqları tökülən olub (2) 3-5 cür uzunsov-yumurtavarı və ya ellips şəklindədir. Meyvələri yumurtavarı, ovalşəkilli və ya ovalvarı-kürəvidir, xarici çiçək yanlığı yaşımtıl və çılpaqdır, daxili çiçək yanlığı (qozası) bərkdir, qozaoxşar qırışıqlıdır, az və ya çox iri tilləri vardır, təpə hissəsi sivridir, iyulun ortalarında bərkiyir, meyvə yetişdiyi zaman xarici çiçəkyanlığının rəngi qonurla- şır. Çox vaxt çiçəkyanlığı parçalanıb ayrılır və meyvə yerə dəydiyi zaman qopur. Aprel-may aylarında, yarpaqlar təzə çıxmağa başladığı zaman çiçək açır, meyvələri avqustun axırlarında yetişməyə başlayır.

Qozun vətəni Yaxın Şərq ölkələri hesab olunur. Qafqazda və Orta Asiyada geniş yayılmışdır. Respublikamızda qoz ağacı orta dağ qurşaqlarının meşələrində cır halda rast gəldiyi kimi, mədəni halda da əkilib becərilir. İstər cır, istərsə də əkmə ağacların ən çox yayıldığı yerlər Qafqaz dağlarının cənub ətəyində yerləşən

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ və ismayıllı rayonlarıdır. Az-az hallarda isə Naxçıvan MR-in Şahbuz və Ordubad rayonlarında rast gəlinir. Zaqatala ilə Qax rayonları arasında geniş qoz xiyabanı yaradılmışdır. Qoz qiymətli texniki bitki sayılır. Onun ləpəsinin tərkibində 45-77%-ə qədər yağ, 8-12%-ə qədər zülal, 5-16%-ə qədər azotsuz ekstraktiv maddələr. A, B1,01, V2, E vitaminləri, dəmir və kobaltın duzları var. Qafqazda azərbaycanlılar və Orta Asiya xalqları hələ qədim zamanlardan qoz ləpəsini yeməklə bərabər bir sıra xörəklərin hazırlanmasında da ondan istifadə etmişlər. Qozun həmdə müalicəvi əhəmiyyəti var. Məşhur təbib Əbu Əli İbn-Sina əsərlərində həmişə qozu qüvvətli qida və müalicə bitkisi kimi təbliğ edirdi. Döyülmüş qoz ləpəsindən zəhər əleyhinə, onun əncirlə qarışığından isə həzmi yaxşılaşdırmaq üçün istifadə olunurdu. Üyüdülmüş qoz qabığı ən yaxşı qankəsici hesab edilirdi, yandırılmış qoz qabığının isə yara və xoraların üzərinə səpirdilər. Qozun qərzəyindən hazırda yuqlan preparatı hazırlanır. Bu preparatdan isə dəri xəstəliklərinin müalicəsi üçün yuqlan yağı alınır.

Təzə qoz yağı xora və müxtəlif dəri xəstəliklərinin sağalmasına kömək edir. Döyülmüş təzə qoz ləpəsi də bu xassəyə malikdir. Qoz yağından konyuktivit və orta qulaq iltihabı zamanı istifadə edirlər.

Efir yağları və aşılayıcı maddələrlə zəngin olan ətirli qoz yarpağından təbabətdə geniş istifadə olunur.

Qoz yarpağı həm də insektisid xüsusiyyətə malikdir. Qoz ağacı bitən ölkələrdə əhali xalı və xəz şeyləri güvədən qorumaq üçün onun yarpaqlarından istifadə edirlər. Şimali Qafqazda keçmiş dövrlərdən qalmış bəzi sərdaba və zirzəmilərdə qoz yarpağına rast gəlmək olar. Onların oraya nə üçün qoyulduğunu dəqiq söyləmək çətindir. Çox ehtimal ki, bunu sərdabadakı qiymətli parçaları güvədən qorumaq üçün etmişlər.

Ağcaqanad, mozalan, milçək və başqa həşəratlar həmişə qoz ağacından qaçır. Odur ki, qədim zamanlardan kəndlərin ətrafın

da, evlərin yaxınlığında qoz ağacı əkmişlər. Amerikan fermerləri İsə bu ağacı fermalarda və otlaqlarda əkirlər. Yayın isti günlərində mal-qara bu ağacların altında həm günəşdən, həm də ağca-qanddan qorunur.

Lakin qozdan ən çox yeyinti sənayesində, kulinariya və şir-niyyatda istifadə olunur. Bundan başqa, qozun yetişməmiş mey-vələrində 2,5%-ə qədər “S” vitamini vardır. Bir ton qozdan alınan C vitamini 300 min adamı təmin edə bilər.

Qozdan alınan yağdan yeyinti sənayesində, lak, sabun isteh-salında, lakdan isə rəssamlıq işlərində geniş istifadə olunur. Bu lak rənglərin parlaqlığına və şəffaflığına səbəb olur, həmin rəsmlərin rəngi min illər keçsə də dəyişmir.

Bundan başqa, qozun yarpağında, meyvəsinin qabığında, gövdəsində qiymətli boyaq maddəsi olan yuqlan (yuqlandin) vardır. Laboratoriyada onun yarpaq, qabıq və gövdə hissələrindən boya məhlulu hazırlayıb yun, ipək, pambıq və kapron məmulatlarını qəhvəyi, açıq-qəhvəyi, tünd-qəhvəyi, qəhvəyi-yaşıl, qəhvəyi- boz, qonur-qəhvəyi, qəhvəyi-qara, şabalıdı və s. rəng və çalarla- ra boyamışıq.

Qozun meyvə yanlığında (qabıq hissəsində) 20-25%, gövdəsinin tərkibində isə 40-45%-ə qədər tannin maddəsi vardır ki, bundan da gön-dəri sənayesində qiymətli aşılayıcı maddə kimi İstifadə etmək olar. Qozdan alınan tannin həm gönü aşılayır, hem də eyni zamanda boyayır. Bu da çox qiymətli xüsusiyyətdir.

Qozun yağından və qabıq hissəsindən kremlərin, losyonların, şampunların, sabunların tərkibinə qatıb kosmetika istifadə edir ler. Qadınlar xına ilə qoz qabığını qatışdırıb boya sıyığı hazırla yıb saçlarını boyayırlar.

# SÖYÜD-SALIX

Söyüd-Salix. Söyüdkimilər-Salicaceae fasiləsinə aiddir. Dünya florasının tərkibində söyüdün 500 növü var. Bunların Qafqazda 25, Azərbaycanda 14 növü yayılmışdır.

Söyüd ağaclarının xalq təsərrüfatında böyük əhəmiyyəti var. Səbət söyüdləri (üç erkəkcikli söyüd, qonur və ya purpur söyüd və s.) toxunma şeylər (səbət, toxunma mebel və i.a) üçün gözəl materialdır. Bəzi söyüd növləri qabıqlarında aşı maddələrinin xeyli çox olması ilə başqa bitkilərdən fərqlənir. Azərbaycanda sö- yüdlərdən bu məqsədlə istifadə edilmir. Müxtəlif səbət söyüdlərinin birillik çubuqlarının (şüvlərinin) qabığı ağaclara göz çalağı vurulduqda bir sarğı materialı kimi işlədilir. Söyüd ağacları tikinti materialı, yanacaq, bəzək və dərman materialı (qlükozid sali- sin) kimi də qiymətlidir. Söyüd qabığından hazırlanan preparatlar büzücü maddə, qızdırmanı azaldan dərman, bəzən qurd dərmanı və qankəsən vasitə kimi işlədilir. Xalq təbabətində söyüd qabığından (ağ söyüd, keçi söyüdü və ya kolvarı söyüd, qırmızı söyüd) malyariyaya qarşı istifadə olunur. Söyüd qabığının tozunu isə irin və yaraların üstünə səpirlər.

Bir çox söyüd növlərinin qabığı parçalara sarı, qəhvəyi və qırmızı rəngə boyamaq üçün işlədilir. Söyüdlüklər arıçılıq üçün çox qiymətlidir, yazın əvvəllərində söyüd ağacları çiçəkləmə dövründə çiçək balı (nektar) və tozcuq verir. Arıçılıq üçün ən qiymətli söyüd növləri: keçi söyüdü, kolvarı söyüd, küllü söyüd, ağ söyüd, nisbətən az qiymətli olan növlər isə beşerkəkçikli söyüd, üç erkəkcikli söyüd, purpur söyüdü və sairədir. Bəzi hallarda yaz əlverişli keçdikdə və arı ailələri gümrah olduqda söyüd ağacları hər hektardan 150 kq-a qədər bal verə bilir.

Ağac şəklindəki söyüdlərin oduncağı yumşaq və yüngüldür. Ondan dülgərlik və tokarlıq işində, ev şeyləri, sadə kənd təsərrüfatı alətləri və sairə hazırladıqda istifadə edilir. Söyüd çubuqlarından cürbəcür səbətlər, əl ağacları və s. qayrılır. Söyüdün oduncağından sellüloza istehsal etmək və plastik kütlələr hazırlamaq

üçün də istifadə etmək olar.

Söyüd yaşıllaşdırma üçün geniş əkilən ağacdır. Bağlarda və RnıMlarda, evlərin ətrafında, xiyabanların yanlarında, meşəlikləri kənarlarında və şairədə əkilib yetişdirilən bəzək söyüdləri (xüsusilə də sallaq söyüdlər) bütün dünyada məşhurdur. Söyüdlərdən küçələrdə, yolların kənarlarında, evlərin qabağında və hə- ynllordə əkmək üçün də istifadə edilir. Söyüd növlərindən bir çoxunun böyük meliorativ əhəmiyyətli var, bəzi söyüd növləri qoruyucu meşə zolaqlarında əkilir, bəzilərindən də qumluqlarda, suvarılan torpaqlarda və ya göllərin ətrafında meşə salmaq, yarğan və uçurumları bərkitmək üçün istifadə edilir. Söyüd ağaclıqlarında bəzi ov heyvanları və quşlar yaşayıb qidalanır. Söyüd ağaclarının budaqları qışda ev heyvanları üçün yemdir.

Söyüd növlərinin çoxusu sürətlə böyüməsi (xüsusilə də cavan Ikən) və işıq sevməsi ilə fərqlənir. 20-30 illik söyüd ağaclarının İstehsalat əhəmiyyəti daha böyükdür.

Bədmüşk, pişpişə (S.Carrea) hündürlüyü 1,5-4, bəzən 4-8 m diametri 40-60 sm-ə qədər olan ağacdır. Qabığı yaşılımtıl-boz və hamardır. Böyüdükcə, xüsusilə gövdəsinin aşağı hissəsi qonu-rumtul rəng alır və üzərində uzununa dərin çatlar əmələ gəlir. Cavan budaqları sıx boz tüklüdür, sonralar çılpaqlaşır. Tumurcuqları çox iri, çılpaq və qonurdur. 5 mm-ə qədər uzunluqdadır. Yarpaqlarının uzunluğu 5-12-18, eni 2,5-5-8 sm olub, ellips şəklində- dir. Yarpaqlar açılmazdan əvvəl çiçəkləyir. Dişicik sırğaları qısa saplaqlıdır, sıxdır, meyvələrinin yanındakılar 10 sm-ə qədər uzunluqdadır. Erkəkcikləri 2-dir, sərbəst və çılpaqdır. Mart-aprel aylarında çiçək açır.

Bədmüşk söyüdü Azərbaycanda Böyük və Kiçik Qafqazda, eləcə də Naxçıvan və Lənkəranın dağ yamaclarında yayılmışdır. Əsasən orta və yuxarı dağ qurşağında bitir, nadir hallarda ovalıqda rast gəlir. Çay və çaylaqların sahilləri boyunda, bulaqların yaxınlığında, rütubətli yerlərdə, xüsusilə də meşə yanıqlarında, tarlalarda, meşələrin kənarlarında, uçurumlarda, kollar arasında, çəmənliklərdə tək-tək və topa halında bitir.

Bədmüşk söyüdü çox qiymətli texniki bitkidir. Onun tərkibində dərman, aşı, boyaq maddələri vardır. Bu qiymətli bitki xalq təbabətində qədimdən istifadə olunur. Bədmüşkün çiçəkləri aprel- may aylarında çiçəkləmə vaxtı, qabığı isə iyun-iyul aylarında toplanır. Onun qabığından təzə alınmış şirə bəzi mədə xəstəliklərinin, qaraciyər iltihabının, sarılığın müalicəsində, eləcə də qızdırmanı aşağı salan, qandayandırıcı vasitə kimi faydalıdır. Ondan elmi təbabətdə xinin maddəsinin kəşfinə qədər oynaq revmatiz- minin, böyrək xəstəliklərinin müalicəsində, bəzi vəzilərin şişməsinin qarşısını alınmasında geniş istifadə olunmuşdur. Bunlardan başqa, söyüd qabığının külündən hazırlanan sirkəli məlhəm ziyil götürən dərmandır. Onun kitrəsi isə göz xəstəliyinin müalicəsin- lə mühüm əhəmiyyətə malikdir. Bədmüşk söyüdün çiçəklərindən alınan cövhər xalq arasında "pişpişə arağı" adı ilə məşhurdur. Ondan ürək ağrısı zamanı və ümumiyyətlə, ürək xəstəliklərində damcı formasında istifadə edilir. Son zamanlar alimlərimiz öyrənmişlər ki, ürək dərmanı kimi bitkinin başqa hissələrinə nisbətən erkəkcik daşıyan çiçəkləri daha sərfəlidir. Ondan alınan preparatlar ürək fəaliyyətinin pozulması və nəbzin tez-tez vurması vaxtı işlədilir. Son zamanlar söyüd çiçəyindən hazırlanan duru spirtli cövhərdən qan təzyiqi xəstəliklərində istifadə olunur.

Bədmüşk söyüdün qabığının tərkibində 15-16%, bəzi hallarda isə hətta 21%-ə qədər tanin maddəsi olur. Ağac daha keyfiyyətli olduqda taninin miqdarı 62,1%-ə çatır. Onun qabıqlarından alınan yüksək keyfiyyətli tanin maddəsi gön-dəri sənayesi üçün qiymətli aşılayıcıdır.

Bədmüşk söyüdü tez yarpaq açan, yaxşı ballı bitkilərdən sayılır. Hər il çiçəkləmə dövründə çoxlu bal maddəsi və tozcuq verir. Bal arıları ondan bal, çiçək şirəsi, mum və yapışqan topalayır. Balı qızılı-sarı rəngdə olur. İldə hər hektardan orta hesabla 150 kq bal verir. Qiymətli bəzək bitkisi sayılır. Bədmüşk söyüdün yarpaq, çiçək və qabıqlarının tərkibində flavonoid tərkibli boyaq maddələri vardır. Biz laboratoriya şəraitində bədmüşk söyüdündən sarı, qızılı-sarı, sarı-narıncı, narıncı, narıncı-yaşıl, yaşılımtıl-

zeytunu, firuzeyi, qonur, qonurumtul-boz, açıq qəhvəyi, tünd qəhvəyi, şabalıdı, qəhvəyi-qara və s. rəng və çalarlar almışıq. 1 kq bədmüşk söyüdünün qabığından hazırlanan boya məhlulu ilə 8- 10 kq yun və ipək məmulatını boyamaq olur. Bədmüşk söyüdündən alınan rəng və çalarlar günəş şüasına, sabunla yuyulmağa qarşı davamlıdır.

Bədmüşk söyüdün qələmələri çox çətinliklə kök atır, əsasən toxumları vasitəsilə çoxaldılır. Kötüyündən çoxlu pöhrə verir. Bədmüşk qabığından təbbi rəng kimi saçların boyanmasında istifadə etmək olar.

Ağ söyüd (S.alba) söyüd cinsinin xalq təsərrüfatı üçün əhəmiyyətli növlərindən biridir. Ağ söyüd hündürlüyü 15-20 (30) m olan, geniş çətirli və əlverişli şəraitdə gövdəsinin diametri 2-3 m- ə çatan ağacdır. Qabığı bozdur, köhnə gövdəsinin qabıqları üzərində dərin çatlar olur. Cavan budaqları gümüşü tüklüdür, köhnə budaqları çılpaq qonurumtl və ya sarımtıldır. Tumurcuqları budağa sıxılmışdır, sivridir, ipəklidir, təqribən 6 mm uzunluğundadır. Yarpaqları nazik olub, ensiz və ya enli lansetvarıdır. Sırğaları yarpaqları ilə bir zamanda açılır.

Ikiyuvah çiçəkləri sünbül şəkilində tək-tək düzülmüşdür. Meyvəsi qutucuqdan ibarətdir.

Bitki aprel-may aylarında çiçək açır, meyvəsi iyun ayında yetişir. Ağ söyüd Azərbaycanda çox geniş yayılmışdır. Bu bitki suçuq yerlərdə, arxların, çayların və xəndəklərin kənarlarında tək- tək və topa halında bitir. Çox vaxt həyətyanı sahələrdə: küçələrdə, yol və arxların kənarında və s. yerlərdə yaşıllaşdırma məqsədilə əkilib becərilir. Nahaq yerə xalq arasında demirlər ki, "söyüd kolları su ilə dalaşmırlar". "Söyüd çəmən otları kimidir, onu biçirlər, o yenidən böyüyüb, formalaşmağa başlayır", "Söyüd dik böyüyür" və s. Qədim yunanlılar söyüdü, hekatə və here Allahların- kı hesab edirdilər.

Roma şairi Verqiliyanın əsərlərində qeyd edilir ki, ilahə və pərilər öz yaxın adamlarını, sevgililərini itirən zaman qəmginlik rəmzi olaraq, söyüd ağacının altında oturub yas saxlayarmışlar.

Ağ söyüd təsərrüfat cəhətdən qiymətli xüsusiyyətlərə malik olub, torpağa qarşı az tələbkardır. Yumuşaq təzə çay çöküntülərində yaxşı əmələ gələrək, 20 yaşına qədər hər il təqribən 1 m boy atır. Sonralar boy atması yavaşıyır və tamam qocalıncayadək diametri daim yoğunlaşır, 100 ilə qədər yaşayır.

Ağ söyüdün respublikamızın ərazisində çox geniş yayılmasına baxmayaraq, ümumiyyətlə ehtiyatı olduqca azdır. Yalnız geniş surətdə becərildikdən sonra sənayedə istifadə etmək üçün bir xammal mənbəyi ola bilər. Söyüdün yarpaq, tumurcuq, çiçək və qabıq hissələrindən flavonoid, xrizin, katexin, keversetrin, 14- 15%-ə qədər aşı maddəsi, salisin qlikozidi və s. tapılmışdır.

Söyüd qabıqları nazik dərilərin aşlanması üçün əvəz olunmaz xammal sayılır. Söyüdlə aşlanmış nazik dərilərdən isə zərif əl-cəklərdə və kitab cildlərində istifadə edilirdi.

Söyüdün qiymətli müalicəvi xüsusiyyətləri haqqında qədim yunanların geniş məmulatları varmış. Dioskorid söyüdün qabıq, yarpaq, tumurcuq və çiçəklərindən alınan şirələrin böyük müalicəvi əhəmiyyəti haqqında geniş məlumat verirdi. Söyüddən hazırlanan şirədən kosmetika sahəsində geniş istifadə edilir. Bundan əlavə söyüddən alınan cövhərlə döyənək və ziyillərin aradan qaldırılmasında, baş tüklərinin möhkəmləndirilməsində geniş istifadə edilir.Söyüdün qabığını yandırıb, alınan külünün tərkibinə qatı sirkə turşusu əlavə edib, ayaqda əmələ gələn qaşınmaların, göbələk xəstəliklərinin, döyənəklərin müalicəsində işlədilir. Cövhəri ilə saçları yuduqda tüklər qızılı rəngə boyanır.

Hal-hazırda söyüdün qabıq, yarpaq və tumurcuğundan bir sıra xarici ölkələrdə kosmetika sahəsində də işlədilir. Onun vanna və gövhərləri ilə saçın dibini möhkəmləndirir, qovağı yox edir. Dəridə baş verən qaşınma və ekzemaların aradan qaldırılmasında vannasından geniş istifadə edilir.

Xammal kimi söyüdün qabıq hissəsini aprel ayından başlayıb, iyun ayına qədər toplamağı məsləhət görürlər. Yığılan xammalı günəş altında sərib qurudurlar. Qabığın saxlama müddəti 3 ildir.

# PALID-QUERCUS

FISTIQ-FADACEAE FƏSİLƏSİNDƏNDİR.

Palıdın dünyada 500-ə qədər, Qafqazda 22, Azərbaycanda isə 12 növü yayılmışdır. Bunlardan üçü becərilir. Azərbaycanda uzunyarpaq (Q.pedunculiflora) şabaiıdyarpaq (Q.castaneifolia) Şərq (Q.orientalis) və Araz palıdının (Q.boissieri) meşəlikləri var- lır. Respublikamızda yayılan palıd ağacları uzunömürlü olub, hündürlüyü 20-40 m-ə çatır. Şabaiıdyarpaq və uzunyarpaq palıdlar daha çox yayılmışdır. Şabaiıdyarpaq palıd Lənkəran zonasında daha çoxdur. Palıd şiddətli şaxtaya da, istilərə də davamlı olduğu üçün Yer kürəsinin hər tərəfində bitir.

Hələ eramızdan əvvəl xalq təbabətində palıdın mülaciəvi əhəmiyyəti öyrənilmiş və onun köməyilə bir çox xəstəliklər müalicə edilmişdir. Hazırda palıddan dərman maddələri alınır. Dərman məqsədilə cavan palıd ağacının qol-budaqlarının qabıqlarından istifadə olunur. Palıdın qabığından dərman və boyaq əhəmiyyətli əsas təsiredici maddə aşı maddələridir (10-20%). Bununla yanaşı qabığında qall-Cy Ng $O_5$ və ellaq Cj4 Ng $O_8$ turşuları, 6% pektin, 13-14% pentoza, flavanoid birləşmələrindən kversetin- C15 N10 O7 şəkər, 5% qədər piyli yağ, yarpağından isə kversit- rin, kversetin, aşı və pentoza, B-|, B2, Bg, C, PP vitaminləri, qozalarından 5-6% aşı maddələri, 40-60%-ə qədər nişasta, 4%-ə qədər zülal maddələri və s. müəyyən edilmişdir.

Bundan əlavə qabığından 6,21% kül maddəsi, 1,40 mq/q-k 23,00-Ca, 0,60-Mg, 0,20-Fe makroelementləri, 142,60 mkq/q- Mn, 12,30-Cu, 10,20-Zn, 0,80-Cr, 116,08-AI, 537,12-Ba, 0,08-V, 0,04-Se, 1,84-Ni, 212,00-Sr, 3,04-pb, 74,80-B mikroelementləri aşkar edilmişdir.

Palıdın qabığından alınan aşı maddəsindən qədim zamanlardan üzü bəri gön-dəri məmulatlarının aşılanmasında geniş istifadə olunmuşdur.

Palıdın gövdə, qabıq, çanaq və yarpaqlarından qonur, qəhvə-

yi, açıq-qəhvəyi, tünd-qəhvəyi, qonur-qəhvəyi, qara-bozumtul və s. rənglər alınır. Boyaq maddəsi ən çox palıdın çanaq hissəsindən alınır. Palıdın nəinki qabıq və çanaq hissəsi, hətta oduncaq hissəsi də rəngləyici maddələrlə zəngindir.

Ağ şəffaf konyak spirtinin uzun müddət palıddan düzəldilmiş çənlərdə saxlanıb, getdikcə tündləşərək çayabənzər rəng alması, ətrinin və tamının yaxşılaşması palıd ağacının oduncaq hissəsində çoxlu miqdarda rəngləyici və aşı maddəsinin olması ilə izah edilir.

Palıdın cavan qabığından tannin və tannalbin adlı dərman maddələri alınır. Həmin dərman maddələri mədə-bağırsaq xəstəliklərində, qarın nahiyyəsində şiddətli ağrılar zamanı, dezinfeksiyaedici dərman kimi ishala və qarın yatalağına qarşı istifadə olunur. Hələ eramızdan əvvəl xalq təbabətində palıdın qabığını, çanağını, yarpaqlarını dəmləyərək içmiş və həmin xəstəliklərin qarşısını almışlar. Hazırda da palıdın qurudulmuş qabığını, çanağını, qozasını çay kimi dəmləyərək bir çox xəstəliklərin müalicəsində (ağız boşluğunun iltihabında, stomatitdə və s.) qapqara kimi istifadə edirlər. Bu məqsədlə 10 q qurudulmuş qabığı və ya yarpaqlarını 200 q suda dəmləyərək qapqara etmək lazımdır. Palıd qabığı, qozası, yarpağı və çanağının yüksək konsentrasiyalı dəmlənməsindən isə (20 q palıd qabığı, yaxud qozası 200 q suda dəmlənir) dəri nahiyyəsində baş vermiş yanıqları müalicə etmək üçün istifadə edilir. Bu məqsədlə dəmlənmiş suda tənzifi isladaraq yanmış nahiyyə qoymaq lazımdır.

Palıdın qozası qaramal üçün ən yüksək kalorili yem sayılır. Siloslaşdırılmış palıd qozası qaramalın südünü artırmaqla bərabər, onun keyfiyyətini də yaxşılaşdırır. Palıd qozasından hazırlanmış surroqat (saxta) qəhvə uşaqlarda uzun müddət sürən xroniki ishalın müalicəsində yaxşı nəticə verir. Palıd qəhvəsi mal-qara üçün də çox xeyirlidir. Qozadan alınmış duru cövhər diabetin (şəkər xəstəliyinin) müalicəsinlə müsbət təsir göstərir. Ağır zəhərlənmələr zamanı palıdın qurudulmuş qabıqlarından və ya çanaq

hissəsindən 30 q götürüb 200 q suda çay kimi dəmləyərək düz bağırsaqdan imalə etdikdə çox yaxşı müalicəvi təsir göstərir. Palıd qabığının tərkibindəki aşı maddəsi zəhərlənmə verən maddələrlə birləşərək suda həll olmayan çöküntülər əmələ gətirir. Həmin çöküntülər qana sorulmayaraq çökür və tezliklə orqanizmdən xaric olur. Müxtəlif növ dəri iltihabında palıdın qurudulmuş qabıq vi) çanaq hissəsini dəmləyərək (bişirərək) tənzifi iltihablanmış nahiyyəyə qoyurlar. Hər 10-15 dəqiqədən bir tənzif isladılmalıdır. İltihab keçənə kimi bir neçə gün bunu təkrar etmək lazımdır.

Palıdın qabığının və ya çanaq hissəsinin dəmləməsindən 1 hissə qliserinlə tər əleyhinə istifadə olunur. Yəni bədənin tərlə- yon nahiyyəsinə (əl, ayaq və s.) həmin qarışıqdan sürtdükcə tər-lıımənin qarşısı alınır. Deməli, palıd hissələrindən alınan cövhər-lərdən ətriyyat və kosmetikada da istifadə etmək olar. Şabalıd-yarpaq palıdın qurudulmuş yarpaqlarını və qozalarını çay kimi domləyib, sidik saxlaya bilməyən uşaqlara gündə 1-2 stəkan içir-dirlər. Yetişmiş qozalarını payız və qış aylarında yığıb qurudur, sonra onu döyərək toz halına salır və şəkər xəstəliyinə tutulanlara gündə 3-4 dəfə yeməkdən qabaq 1 xörək qaşığı verirlər.

Bundan əlavə bərabər hissədə götürülmüş palıd və şəftalı yar-paqlarını çay kimi dəmləyir, sonra onun üstünə un əlavə edib bişirir və həmin xəmiri çibanın üstünə yaxırlar. Biz isə bu yaxınlarda palıdıq qabıq və qoza hissəsindən yeni texnologiya üsullarının köməyilə tərkibində acımtıl maddəsi olmayan qəhvəyi rəngli lobii boyaq maddəsi almışıq. Ola bilsin ki, bundan boyaq kimi qənnadı sənayesində istifadə edilsin.

Bundan əlavə, palıdın qabıq, çanaq, yarpaq və eləcə də odun-caq tullantılarından 50-yə qədər qəhvəyi rəng və onun çalarlarını almışıq. Aldığımız rəng və çalarlar günəş şüasına, sabunla yuyul-mağa və eləcə də fiziki-kimyəvi təsirlərə davamlıdır.

# ŞABALID-CASTANEA

Dünya florasının tərkibində şabalıdın 14 növü yayılmışdır. Azərbaycanda mədən halda bir növünə rast gəlmək olar.

Şabalıd (C. sativa) 30-45 m hündürlüyündə ağacdır. Gövdəsi« nin diametri 1-1,5 m, qabığı qonurumtul-boz rəngdədir. Çətirləri



(geniş şaxəli-budaqlıdır. Cavan zoğları tünd qırmızımtıl-qəhvəyi rənglidir, boz tüklərə və qəhvəyi mərciməklərə malikdir. Tumur-ouqiar yumurtavarı, qəhvəyi və ya tünd-təqvəyi rəngdədir. Yarlıqları növbəli düzülmüşdür, uzunluğu 6-15, bəzən 20-28 sm, oıl 3-4, bəzən 7-8 sm-ə bərabərdir. Enli və ya uzunsov lansetva- Ildir. Erkək çiçəkləri sarımtıl olub, çiçək yanlığına və 8-12 erkəkciyə malikdir. Tozluqlar yumurtavarı olub, uzun saplar üzərində yorləşir. Sırğalar çiçək açdıqdan sonra tökülür. Dişicik çiçəklər 8 im uzunluğunda sırğalar şəklindədir. Dişicik çiçəklərdən yuxarı- dıı çox zaman az miqdarda ikievli çiçəklər, sonra isə çoxlu miqdarda erkəkçik çiçək qrupu yerləşir. Meyvəsi bir toxumlu fındıq olub, dərivarı parlaq şabalıdı və yaxud parlaq qəhvəyi rəngli meyvə yanlığına malikdir.

Azərbaycanda şabalıd Böyük Qafqaz dağlarının cənub ətəklərində, Zaqatala, Qax, Oğuz, Qəbələ, Balakən, İsmayıllı rayonlarında mədəni və yabanı halda yayılmışdır. İyun-iyul aylarında çiçəkləyir, meyvələri sentyabrın axırlarında, oktyabr və noyabrda (birinci yarasında) yetişir.

İtaliyaya və Fransaya adi şabalıd təxminən 2 min il bundan əvvəl, Almaniyaya 1 əsrdə, İngiltərəyə isə ancaq XVI əsrdə düşmüşdür. Rəvayətə görə bu ölkələrə şabalıd Qafqazdan aparılmışdır.

Bizim eranın IV əsrindən başlayaraq şabalıdın meyvəsindən əsasən qida kimi Şərq və Orta Asiya xalqları istifadə etmişlər. Sonralar yunanlar və romalılar, az sonra isə Avropa xalqları onu mədəniləşdirmişlər.

Hələ qədim zamanlarda insanlar meşələrə gedərək iri meyvəli ağacları seçib, onları müqəddəsləşdirmişlər. Bu üsulla qiymətli ağacları qoruyub saxlamışlar. Şabalıd qiymətli qida, dərman, bəzək əhəmiyyətli, nektarlı, boyaq və aşı xüsusiyyətli bitkidir Tədqiqatlar göstərmişdir ki, 100 kq şabalıd ağacının oduncağın dan 18-20 çövhər alınır. Şabalıd meyvəsinin tərkibi A, C vo V vıtaminləri ilə zəngindir. Təzə meyvələrində 44-45%-ə qədər su olur. Ləpəsinin tərkibində 60-62% nişasta, 17-18% şəkər,8-14%

azotlu maddələr, 6-8% zülal, 2,31% yağ, anaverin, riboflavin, nikotin, alma, süd və s. turşuları tapılmışdır.

Şabalıdın meyvələri qızardılmış və isti-isti çox ləzzətlə yeyilir. Şabalıdı qızartmazdan qabaq onun uc hissəsini kəsib gözcük düzəldirlər. Bişirən zaman buxar ordan içəriyə daxil olub, sərt qabıq hissəsinin ləpədən qopardır və ləpə asanlıqla ayrılır. Şabalıdın soyumuş meyvəsi soyuq kartof kimi dadsız olub, həvəssiz yeyilir.

Meyvəsindən qənnadı məhsulları, tort, fəsəli, şokolad, rahat-hulqum və s. hazırlanır.

Uzun müddət saxlamaq üçün şabalıdı seyrək halda kağız üzərinə sərib kölgəli, hava vuran yerlərdə qurudurlar. Bəzən isə 60 dərəcə temperaturda xüsusi sobalarda qızdırıb qurudurlar.

Şabalıdın yarpaqlarını tərkibində çoxlu qlükozid, pektin, aşı maddəsi və K vitamini var. Onun cövhərindən və sulu çıxarışından qənkəsici vasitə kimi, qabıq hissəsindən hazırlanmış sulu çıxarışından isə mədə-bağırsaq pozğunluqlarının aradan qaldırılmasında istifadə edilir. Yetişməmiş meyvəsinin tərkibində C vitamini 15%-ə çatır ki, ondan hazırlanan cövhərlər avitaminozda, eləcə də yuxarı tənəffüs yollarının soyuqdəymələrində istifadə olunur.

Şabalıd yaxşı bal verən bitkidir. Çiçək dövründə çətrinin ətraflarında çoxlu bal arıları toplaşır. 15-18 gün kütləvi çiçək açır. Bir gündə bal arıları ondan 4-5 kq bal toplayırlar. Balı çökə balına oxşayır. Şabalıd balının rəngi tünd maye olub, azca acımtıldır və əla müalicəvi xüsusiyyətə malikdir. Şabalıd meyvəsindən əksər ölkələrin xalqları qida kimi istifadə etdikləri üçün 1950-ci ildə BTM- nin nəzdində Beynəlxalq şabalıd komissiyası yaradılmışdır.

Şabalıd aşı bitkisi kimi də qiymətli sayıla bilər. Belə ki, onun oduncağında 8-18%, qabığında 10%, qozalarında 8-20%, təzə yarpaqlarında 12%, çiçək yanlığında 13%-ə qədər aşı maddəsi var.

Hər hektar şabalıd sahəsindən ildə 20001 yarpaq, 400 kq çiçək yanlığı, 800 kq qoza tökülür. Bunlardan aşı cövhəri hazırla

yıb gön-dəri sənayesində istifadə etmək olar.

Şabalıdın oduncağının tərkibində çoxlu aşı maddəsi olduğundan, o çox möhkəmdir və göbələk xəstəliklərinə qarşı davamlıdır. Ona cörə respublikamızda şabalıd meşələri kiçik sahə tutsa da, böyük xalq təsərrüfatı əhəmiyyəti vardır. Onun yüksək keyfiyyətli oduncağından qiymətli mebel, parket, faner, çalğı alətləri və bəzək əşyaları hazırlanır. Keçmişdə şabalıd ağacının oduncağı qiymətli material kimi başqa ölkələrə göndərilirdi. Davamlı şabalıd oduncaqlarından düzəldilmiş çəlləklərdə saxlanan konyak, şərab və pivə xoşa gələn dadı, rəngi və ətri ilə fərqlənirdi. Şabalıdın oduncağı palıddan üç dəfə möhkəmdir.

Şabalıd həm də qiymətli boyaq bitkisidir. Onun oduncaq, qabıq, çiçək yanlığı, qoza və yarpaqları kverçetin, hiperozid, kate- xin və s. tərkibli flavonoidlərlə zəngindir.

Biz laboratoriya şəraitində şabalıddan açıq-qəhvəyi, qəhvəyi-qonur, tünd-qəhvəyi, şabalıdı-qonur, firuzəyi, tütünü, boz, bozumtul-qonur, bozumtul-tütünü və s. rəng və çalarlar almışıq. Alınan rəng və çalarlar günəş şüasına, sabunla yuyulmağa qarşı çox davamlıdır.

Son illərdə respublikamızda şabalıd sahələrinin qorunub artırılmasına fikir verilmədiyindən, onun meşələri azalmışdır. Bu çatışmazlığı aradan qaldırmaq üçün vaxt itirmədən geniş şabalıd meşələri salınmalıdır.

Yadda saxlamaq lazımdır ki, Azərbaycanda bitən şabalıd meyvələrinin iriliyi, yüksək məhsuldarlığı, şaxtaya davamlığı və müxtəlif xəstəliklərə az tutulması ilə fərqlənir. Şabalıdın yarpaq və tozundan hazırlanmış məhlullardan kosmetika sahəsində ge niş istifadə olunur.

# *TOZAĞACI-BETULA*

Tozağacı-Betulaceae fəsiləsindəndir. Dünya florasının tərkibində tozağacı cinsinin 50-yə qədər növü yayılmışdır. Bu növlərdən Qafqazda 5 o cümlədən də Azərbaycanda 3 növünə rast gəlmək olar. Tozağacı növləri bütün şimal yarımkürəsindən başlayaraq, suptropik zonalarına, oradan da tundurayadək böyük bir ərazilərdə yayılmışlar.

Tozağacı növlərinin əksəriyyəti şaxtaya davamlı, torpağa qarşı az tələbkar, işıqsevən və kifayət qədər tezböyüyən ağaclardır.

Azərbaycanda tozağacı növlərinə başlıca olaraq Böyük və Kiçik Qafqazın yüksək dağ zonalarında rast gəlmək olar. Onlar Böyük Qafqazın şərq qurtaracağında, Şahdağ, Tufandağ, Dibrar dağı ərazilərində geniş yayılmışdır.

Azərbaycanda yayılan tozağacı növlərinin içərisində ən əhəmiyyətlisi əyilən tozağacı hesab edilir.

Əyilən tozağacı-Betula pendula hündürlüyü 20-22 (26) m-ə qədər olan ağacdır; cavan ağaclarının qabığı ağ və hamardır, yaşlı ağaclarınkı isə qabarıq şəkilində çat-çatdır. Çətiri ovalşəkil- li, sallaqdır, budaqları aşağıya sallanmış haldadır. Tumurcuqları düz, konusvari, sivri və parlaqdır, qonur rəngdədir. Yarpaqları növbəli, nazik, üçbucaq-rombşəkilli, 3,5-7 sm uzunluğunda və 2,5-5,5 sm enindədir, hər iki üzü hamardır. Çiçəkləri bir evli sal- ğımvarı-sırğa formasındadır. Meyvəsi qanadvari fındıqçadır. Bitki may-iyun aylarında çiçək açır. Meyvəsi avqust-sentyabr aylarında yetişir.

Müalicə məqsədləri üçün tumurcuq, az hallarda yarpaqlarından istifadə edilir.

Tumurcuğunun tərkibində 0,3%, 5-oksi-7,4 dimetoksiflavon- C17 H14 O5, 5,3% efir yağı, betulen-C15 H22, O1, betulol-C15 H24 O be tulen turşusu-Cıo H16 O4 və s. maddələri aşkar edildiyi halda, yar

pağından isə betulen turşusu, butil efiri-C 36 $He_2$ O 2,8% askarbin turşusu, 9%-ə qədər aşı maddəsi, hiperozid-Cao H21 O12 3,2% sapoten, 0,04-0,5 efir yağı, qabıq hissəsindən isə triterpen spirti, betulen-Cao Hso O2, betulozid qlikozidi-C16H24 O7 və qaulterin-C14 H18 O 15%-aşı maddəsi, alkoloid, efir yağı və suberin tapılmışdır. Tozağacı gövdəsindən tərkibi bioloji aktiv mədətlərlə zəngin şirə alınır. Bu şirənin həyatverici şərabını, “ağacın qanı” adlandırırlar. Bu şirənin tərkibindən çoxlu miqdar mikroelementlər, vitaminlər, zülal, turşu, aşı və s. maddələr tapılmışdır. Şirəsindən orqanizm möhkəmləndirilməsində, böyrəkdə olan daşların müalicəsində, acğiyər xəstəliklərində istifadə edilir. Tozağacı tumurcuğundan hazırlanan cövhərdən tərgətirici, sidik qovucu, ödqovucu vasitə kimi istifadə edilir. Yarpaq və tumurcuqlarından hazırlanan cövhərdən mədə soyuqdəymələrində, mədə yaralarında, revmatiz- mada, qankəsici və s. xəsiəliklərin müalicəsində işlədilir.

Tozağacının yarpağından vatiminli çay hazırlayıb, orqanizmin müqavimətini artırırlar.

Bir çox əsrlər boyu tozağacı insanların inam yeri olmuş, ona pənah gətirmişlər. Tozağacının tumurcuq və yarpaqlarından qədim dövrlərdə kosmetika sahəsində geniş istifadə edilmişdir.

Hələ çox qədim dövrlərdə qadınlar tozağacının şirəsini toplayıb, onunla yuyunaraq sifətlərində olan ləkə və çivzələri müalicə edirmişlər. Cavan budaqlarından süpürgə düzəldib buxar hamamlarında dəridə qandövranın nizama salınmasında, ağrıların yox edilməsində istifadə edirlər. Tozağacından alınan qatranlardan dəri xəstəliklərində, yaraların, yanıqların müalicəsində istifadə edilir. Vişnovski mazının əsas tərkib hissələrindən biri de to- zağacı qətranı təşkil edir.

XVI-XVIII əsrlərdə otla müalicə edən həkimlər tozağacındııı hazırlanan cövhər və dəmləmələrlə bir sıra dəri xəstəliklərini məharətlə müalicə edərmişlər.

Müasir kosmetikada tozağacının tumurcuğundan qətran və şi

rəsindən soyuq dəymədə, dəridə baş verən gicişmə, qaşınma, qıcolmaların aradan qaldırılmasında, dəridə qandövranın nizama salınmasında geniş istifadə edilir.

Yarpaqlarından hazırlanan dəmləmələrdən saçları yuyub, yumşaldır və tükün dibini bərkidirlər. Kosmetoloqlar müxtəlif dəri ekzemaların, çiban, səpgi və xoraların müalicəsində tozağacı şirəsindən gözəl müalicə vasitəsi kimi istifadə edirlər. Tozağacı şirəsindən nəinki rusiya, eyni zamanda bir sıra xarici ölkələrin kosmetika sənayesində geniş istifadə edilir. Bolqarıstanda toza- ğacı preparatlarından kəskin xroniki dəri xəstəliklərində dəmirov, qaşınmaların və göbələk xəstəliklərinin müalicəsində istifadə edilir. Tozağacı şirəsi ilə tükün dibini möhkəmləndirilməsində, qovağın təmizlənməsində istifadə edilir. Çexoslovakiyada yarpaq və tumurcuğundan cövhər və vannalar hazırlanıb bir sıra dəri xəstəliklərinin müalicə edirlər.

Tozağacının ehtiyatı rus dövləti ərazisində boldur. Tozağacı tumurcuqlarını fevral ayında toplamağı məsləhət görürlər.

Xammalı tozağacı kəsilən meşələrdə toplayırlar. Belə ki, qışda kəsilmiş tozağacı budaqlarını yaza qədər qoruyub saxlayır, tumurcuqlar yazda qoparıb şişməsi üçün günəşin altına sərib qızdırmalı, toplayıb, döşəməyə sərib qurudur, toz halına salıb, xüsusi kağız təlislərə doldurub, xüsusi anbaroarda saxlanır və yeri gəldikcə istifadə edilir.

Xammalın saxlama müddəti 2 ilə qədərdir.

# *QIZILAĞAC-ALNUS*

Tozağacı-Betulaceae fəsiləsindəndir. Dünya florasının tərkibində 40-a qədər növü yayılmışdır. Bunlar ağac və iri kollardan ibarətdir. Qafqazda 4, o cümlədən də Azərbaycanda 3 növünə rast gəlmək olar.

Təbabətdə və kosmetikada iki növündən: boz qızılağac-A- incana A.qlutinosa yapışqanlı və ya qara qızılağac istifadə edilir. Hər iki növ ağac formasındadır. Qara qızılağacın girdə, kənarı diş-diş olan yarpaqlarının üstü parlaq, tünd yaşıl, altı isə tutqun yaşıldır. Boz qızılağacın yarpaqları isə ellipsşəkilində, kənarı diş- diş, yaşımtıl boz rəngdədir. Hər iki növ qızılağac yazın ilk ayında yarpaqları inkişaf etməmişdən əvvəl çiçək açır. Çiçəkləri bircinsli və birevlidir. Tac çiçəkləri 3-5 ədəd uzun sırğa şəkilində, dişi çiçəkləri isə 8-10 ədəd saplaqsız sünbüldə toplaşmışdır. Belə deyirlər ki, "Elə ki, qızılağac çiçəklədi, demək yaz cəldi", başqa bir atalar sözündə deyilir ki, "harda ki, qızılağac var-orada bol ot var". Doğurdan da Qızılağac yayılan sahələrdə bol yem otu olur. Qızılağac şaxtaya adavamlı bitkidir.

Qızılağac qiymətli dərman, aşı, boyaq bitkisidir. Bitkinin qoz və hamaş meyvəsinin tərkibindən 25%-ə qədər aşı maddəsi, 3,7% qal turşusu, yarpaqlarının tərkibində, 23-25%-ə qədər aşı maddəsi, flavanoid maddələrindən-Cs, H20 O12 hiperozid, kversit- ПП-C21 H20 Qu, miristrin fustin, qabıq hissəsindən 2,5-30%-aşı maddəsi, taraksfrol (alnulin)-Cao Hм O trakserin-Cзo H« O və s. maddələr tapılmışdır. Bundan başqa hamaşmeyvəsinin tərkibin dən 5,80 mq/q-K, 5,00-Ca, 0,80-Mg, 0,20-Fe makroelementlərl, 56,10 mkq/q-M, 9,44-Cu, 18,60-Zn, 0,08-Mo, 1,68-Cr, 86,24 Al, 1,20-V 0,13-Se, 2,96-Ni, 12,00-Sr, 3,76-pb, 57,20-B 54,00 I mikroelementləri aşkar edilmişdir. Qızılağacın hamaşmeyvələrini bişirmə florasında mədə-bağırsaq xəstəliklərində, ishala qarşı büzüşdürücü və dezinfeksifaedici, qankəsici, dərman kimi daxi

lə təyin olunur. Xammaldan tinktura, quru ekstrakt halında və həmçinin büzüşdürücü qankəsici yığıntıların (çayların) tərkibində istifadə edilir. Elmi təbabətdə qızılağacın qoz və həmaşmeyvəsindən sırğa qabıq və yarpaqlarından hazırlanan preparatlarından büzüşdürücü, qankəsici, mədə-bağırsaq xəstəliklərində, xüsusən də uşaqlarda baş verən ishala qarşı işlədilir.

Qızılağacın hamaşmeyvəsindən alınan sulu dəmləməsindən kosmetika sahəsində, yanıqlar zamanı bədənin hər hansı bir hissəsində əmələ gələn ağrıların aradan qaldırılmasında yaş sarğı kimi, dişlərin dibinin bərkidilməsində, dərinin müqavimətinin artırılmasında və s. istifadə edilir. Qızılağacdan hazırlanan məlhəm və cövhərlərdən dəri xəstəliklərində; başda tükün tökülməsinin qarşısının alınmasında, yağlı sifətlərdə dəridə əmələ gələn yara, civzə və səpkilərin müalicəsində istifadə edilir. Qızılağacın meyvələrini meşədən budama işləri aparan zaman toplamağı məsləhət görürlər. Meyvənin tərkibində su az olduğundan onu tez sərib qurutmaq olur. Xammalın saxlama müddəti 3 ildir.

# ADİ MAYASARMAŞIĞI (XAMIRMAYA)-HUMULUS

Kənaf Cannabinaceae fəsiləsindəndir

Dünya florasının tərkibində xamırmayanın 3 növü yayılmışdır. Bunlara ən çox mülayim və isti ölkələrin ərazilərində rast gəlmək olar. Azərbaycanda yabanı halda 1 növünə təsadüf olunur. Mayasarmaşığının adı "Humulus" latınca torpaq, yəni torpaq üzərinə sərilən deməkdir. Növün adı isə "lupilus" "canavar" mənasını bildirir. Pliniy mayotunu "çəmən canavarı" adlandırır. Adi mayasarmaşığı-Humulus hipulus ikievli çoxillik sarmaşan ot bitkisi olub, qarmaqvari ilişən iynəcikləri olan 7-10 m uzunluğunda dördbucaqlı yerüstü gövdəyə malikdir. 3-5 dilimli, qarşılıqlı yarpaqları saplaqlı qaidəsində ovalvarı və yaxud ürəkvarıdır. Erkəcik çiçəkləri xırda sarımtıl-yaşıl rəngdə olub, 5 yarpaqlı çiçək yanlığına malik olub, süpürgə çiçəkqrupuna toplanmışdır. Dişicik çiçəklərinin yanlığı sadədir, yarpaqların qoltuğunda yumurtavarı sünbül şəkilində yerləşir. Bitki inkişaf etdikcə çiçək sünbüllərin hamısı yumurta formalı meyvəyə çevrilir, buna da "xamırmaya qozası" deyilir. Bitki may-iyun aylarında çiçəkləyir, meyvələri iyulda yetişir.

Azərbaycanda mayarsarmaşığı Samur-Dəvəçi, Kür-Araz, Lənkəran ovalıqlarında, Böyük və Kiçik Qafqazın və eləcə də Talışın aşağı dağ ətəklərində geniş yayılmışdır. Bu gözəl və yaraşıqlı bitkiyə meşə açdıqlarında, kolluqlarda, çayların kənarlarında bitki örtüklərində, ən çox isə bağlarda rast gəlmək olar. Respublikamızda bol ehtiyatı vardır. Mayasarmaşığı ilə park və bağçaların, çəpərlərin və çardaqların bəzədilməsində geniş istifadə olunur.

Bitki yabanı halda Avropa və Asiya ərazilərində geniş surətdə

yayılmışdır. Mədəni halda isə Amerika, İngiltərə, Almaniya Ukrayna, Qafqaz və s. ölkələrdə əkilib becərilir. İşgüzar adamlar bu “yaşıl qızılı” toplamaq üçün bütün ölkəni gəzməli olurlar.

Hamaşmeyvələrinin tərkibində 26%-ə qədər qatran, 2%-ə qədər efir yağı, acı maddə-lupulin (qızılı-sarı rəngdədir), alkaloid humilin, humulen turşusu, humulon, kempferol, kversetin-3 ruti- nozid, kversetin, kompferon 3-qlyukozidləri, kversetin-3 rutino- zid, leykosianidin, leykodelfinidin, xalkon, 3,4% aşı maddəsi, vitamin qrupu xolin, valerian turşusu, şəkərli maddələr, mum və s. tapılmışdır.

Bundan əlavə “qoz" meyvəsinin tərkibindən 9,55% kül maddəsi 28,20 mq/q-K, 10,70-Ca, 3,40-Mg, 0,20-Fe mikroelementlə- ri 30,60 mkq/q-Mn, 4,64-Cu 28,20-Zn 0,16-Mo, 0,96-Cr, 150,16- Al, 0,56-V, 0,09-Se, 2,72-Ni, 1,36-Sr, 2,00-pb, 34,00-B, 1-0,15 mikroelementləri tapılmışdır.

Mayasarmaşıcından müxtəlif müalicə üsullarında istifadə edilir.

Meyvələrinin tərkibində olan lupulin spazmolitik, ağrıkəsici və sinir sistemi sakitləşdirici təsirə malikdir. Qurudulmuş meyvələrindən 10:200 nisbətində dəmləmə hazırlayıb sakitləşdirici və yuxugətirici dərman kimi qəbul edilir.

Çoxlu müşahidələr və tibbi təcrübələrə əsasən müəyyən olunmuşdur ki, mayaotunun qoz meyvəsindən hazırlanan preparatlardan sakitləşdirici, ağrıkəsici, soyuqdəymə və qıcolmaya qarşı işlədilir. Bir çox müəlliflər qeyd edirlər ki, onun preparatlarından yuxusuzluqda, cinsi üzvlərin fəliyyətinin artırılmasında, iqlim dəyişiklərində baş verən əsəb xəstəliklərinin müalicəsində geniş istifadə edilir.

Mayaotunun mədə və böyrək xəstəliklərində və mineral maddələr mübadiləsinin nizama salınmasında işlədilir. Cavan yarpaqlarından kələməvəzi kimi Şi xörəulərinin hazırlanmasında istifadə edilir. Yaz aylarında cavan gövdələri də yeməli olub qulan-

çar əvəzi xörəklərə qatılır. Qoz meyvəsindən piyvəyə acımtıl və ətirli iy vermək üçün istifadə edilir. Çörək-bulka sənayesində maya əvəzi kimi kvas hazırlanmasında istifadə edilir.

İri və xırda buynuzlu mal-qara üçün yaxşı yem hesab edilir. Qiymətli bəzək bitkisi sayılır. Yaxın vaxtlarda təcrübə üsulları maya sarmaşığının meyvə qozunun tərkibindən bioloji aktiv bitki hormonu, tapılmışdır ki, bundan da kosmetika sahəsində geniş istifadə edilir. Mayaotunun sulu çıxarışı ilə başı yuyub tükün tökülməsinin və eləcə də qovağın məhv edilməsində işlədilir. Bundan başqa qap-qara şəkilində diş ağrılarında işlədilir. Qozundan alınan ekstaktları müxtəlif kremlərin tərkibinə daxil edib, yaşlı qadınların sifət, boyun və əl dərilərinə sürtərək onların elaktikliyini artırırlar. Qozundan vannaların hazırlanmasında da istifadə edilir.

Mayaotunun “qoz-meyvəsini” quru açıq havada meyvənin rəngi yaşılımtıl-sarı olan zaman toplayırlar. Toplanmış meyvəni yaxşı havası dəyişən binalarda qurutmağı məsləhət görürlər. Göstərilən qaydalara riayət etməklə qurudulan meyvə 2 ilə qədər öz rəngini, iyini və keyfiyyətlərini saxlamaq qabiliyyətinə malik olur.

Mayasarmaşığı vegetativ üsulla (çubuq, yeraltı zoğları) ilə artırıb çoxaldırlar. 1 hektar sahəyə 4400-5000-ə qədər kol bitkisi əkməyi məsləhət görürlər.

# GİCİTKƏN-URTICA

Gicitkən-Urticaceae fəsiləsindədir

Dünya florasının tərkibində gicitkən cinsinin 50-ə qədər növü yayılmışdır. Bunlara ən çox yerkürəsinin mülayim iqlim zonalarında rast gəlmək olar. Bu növlərdən Qafqazda, o cümlədən Azərbaycanda 3 növü yayılmışdır.

Bu, latınca "yandırmaq, dalamaq" mənasındadır. Gicitkənin yarpaq və gövdələrinin içərisi silisium və qarışqa turşusu ilə dolu sıx tükculüklə əhatə olunmuşdur. Bu tükcülüklərin ucu iti və kövrəkdir. Bitkiyə toxunduqda ani halda tükcüuklərdən bir neçəsi dərinin toxumasına bataraq ucları çox asanlıqla qırılır. Elə bu vaxt silisium və qarışqa turşularının qarışığından ibarət çox kəskin yandırıcı və dalayıcı xüsusiyyətinə malik maye buraxılır. Respublikamızda ən geniş yayılanı dalayan gicitkəndir. Buna ikievli gicitkən də deyilir. Gicitkənin bir növü "kəzənə" adı ilə tanınır.

Gicitkən, demək olar ki, Azərbaycanın bütün zonalarında yayılmışdır. Respublikamızın dağ-meşə rayonlarında onun sənaye əhəmiyyətli ehtiyatı vardır. Gicitkənin qiymətli növü ikievli gicitkəndir.

İkievli gicitkən-iri gicitkən-U.dioica hündürlüyü 100-150 sm olan çoxillik ot bitkisidir. Şaxəli kökləri, dördtilli yerüstü gövdəsinin budaqlanması, qarşı-qarşıya düzülmüş tünd yaşıl yarpaqlardan ibarət olması bu bitki üçün səciyyəvi əlamətdir. Yaşıl rəngli xırda çiçəkləri isə budaqlarının qoltuğunda sünbül çiçək qrupunda toplanmışdır. Bitki iyun ayından başlayaraq, sentyabra kimi çiçəkləyir. Meyvəsi qutucuqdur.

Gicitkən qiymətli dərman bitkisidir. İstər xarici ölkələrdə, istərsə də ölkəmizdə gicitkəndən dərman bitkisi kimi geniş istifadə olunur. Məsələn, Polşa xalq təbabətində gicitkəndən qankəsi- ci, qaraciyər xəstəliklərində, oynaqlarda baş verən revmatizm əleyhinə və başda tükün tökülməməsinə qarşı geniş istifadə olunur. Bolqarıstan və Almaniyada qanazlığına, ateroskleroza, əzələ və oynaq revmatizminə, suçiçəyinə, böyrək və sidik kisəsi soyuqdəymələrinə, qaraciyər, öd kisəsi, mədə-bağırsaq spazmala- rına, həmçinin, babasil, dəridə baş verən göbələk və s. xəstəliklərə qarşı müvəffəqiyyətlə istifadə edilir. Fransada uzunsürən

kəskin xroniki bağırsaq iltibahında, eləcə də vərəm, dizenteriya və s. xəstəliklərin müalicəsində işlədilir.

Cavan gicitkən yarpaqlarından alınan şirədən öd yollarında və böyrəklərdə əmələ gələn daşların əridilməsində, eləcə də qaraciyər, soyuqdəymə və paralicə qarşı istifadə olunur.

Kökündən və toxumlarından hazırlanan cövhərin şəkərlə qarışdırılması böyrək və öd yollarında çoxdan kök salıb bərkimiş daşların əridilməsinə kömək edir. Həvəngdəstədə döyülüb, əzilmiş gicitkəndən oynaqlarda və eləcə də əzələlərdə əmələ cələn revmatizmə və radikulitə qarşı yapışdırıcı məlhəm kimi istifadə edilir. Gicitkəndən hazırlanan preparatlardan uşaqlıq və babasil xəstəliklərində baş verən qanaxmalarda, iqlim dəyişiklərində, mədə yaralarında, vitamin çatışmazlığında geniş istifadə olunur. Bu xəstəliklərin sağalmasına kömək edən onun tərkibində olan S, K, vitaminləri, karotin və xlorofil birləşmələridir. K vitamini qankəsicidir. Xlorofil orqanizmin həyat fəaliyyətini gücləndirir, maddələr mübadiləsini yüksəldir, uşaqlığın tonusunu artırır, mədə-bağırsaq, ürək-damar sistemlərinin normal işləməsinə şərait yaradır. Orqanizmin yeni toxumalarla təmin olunmasında və eləcə də toxuma pozğunlarının qarşısını almaqda böyük rol oynayır. Bir sözlə, xlorofil orqanizmdə baş verən normal həyat fəaliyyətinin nizamlanmasında əsas yer tutur.

Qızdırma (titrəmə) xəstəliyi bu cür müalicə olunur: doğranmış gicitkən kökünə sarımsaq qatıb suda qaynadırlar. Alınmış cövhər xəstənin bədəninə sürtülür və gündə 3 dəfə bir xörək qaşığı qəbul edilir.

Gicitkən toxumlarından hazırlanmış cövhər insan və heyvanlarda həvəsi artırır. Bundan hazırlanmış vanna isə məxmərək xəstəliyinə, tərləmə əleyhinə və eləcə də istiliklər nəticəsində bədəndə əmələ gələn yanıqların müalicəsinə kömək edir.

Gicitkən bitkisi sanki vitamin “fabrikidir”. Belə ki, onun yarpaqları S vitamini ilə zəngindir. Bunun tərkibində olan S vitamininin miqdarı qarağat, kartof, kök və əvəlikdəkindən çoxdur. Yarpaqlarının tərkibində V və V2 vitaminləri də vardır. Odur ki, respublikamızın bir çox rayonlarında bitkinin təzə, tünd yaşıl rəngli yarpaqları ovulub azca duzla yeyilir. Ondan kükü və müxtəlif adda xörəklər bişirilir. Bitkinin cavan yarpaq və zoğuna soğan, istiot, keşniş, qoz, yağ və azca sirkə əlavə edilməklə xəmir xörəklərinə qatılır. Azərbaycanın bir çox rayonlarında gicitkənin yarpaq-

larini qurudur, ona azca sirkə qatıb ədviyyə kimi saxlayır və yeri gəldikcə istifadə edilir. Bundan əlavə, gicitkəndən kətə, salat, göyərti şorbası, püre hazırlayırlar. Cavan zoğlarını və yarpaqlarını duza qoyurlar. Cavan yarpaq və gövdəsini doğrayıb kölgəli yerdə qurudurlar. Şoraba, əriştə, kükü bişirdikdə ədviyyə qatqısı kimi istifadə edirlər. Qanı az olan adamlara cavan gicitkən yemək məsləhət görülür.

Gicitkən həm də qiymətli yem bitkisidir. Belə ki, onun qarğıdalı, sorqo, çovdar, vələmir, çuğundur, kartof, otla birlikdə hazırlanmış silosu yüksək keyfiyyətli olur.

Gicitkən bitkisi qidalılığına görə paxlalı bitkilərdən heç də geri galmır. Gicitkanın tərkibindən 20,8% protein, 2,5% yağ, 18% sellüloz, 30,7% azotsuz tərkibli şirə, 16,6 mq% kalium, kalsium və dəmir tərkibli mikroelementlər və 50 mq%-ə qədər karotinoid və s. maddələr tapılmışdır. Yaşıl yarpaqlarının tərkibində 2,5-5%- ə qədər xlorofil faddəsi vardır. Gicitkən qiymətli texniki bitki sayılır. Onun gövdəsinin tərkibində lif istehsal etmək üçün çoxlu se- lüloza maddəsi aşkar edilmişdir. Gicitkənin yarpaqlarının tərkibində К vitamini, urtisin qlikozidi, aşı və zülal maddələri, qarışqa və askorbin turşusu, B2-C17 H20 Oe H< vitamini, pantoten turşusu, protoporfrin C34H34 O4 H4 və koproporfirin-Cзб Hзз Os H4 sitosterin, qistamin-Cs Hэ Hз, 50 mg% B-karotin C40 H» ksantofill-C« Hse O2 ksantofillepoksid-C40 Fk Oз və violaksintin-C4o Fk O4 karotinodlə- ri tapılmışdır. Bundan əlavə tərkibində asanlıqla ayrılan 5%-ə qədər xlorofil maddəsi, 1,96%-ə qədər 3-0-qlikozidı və 3-0 rutino- zid-kversetin, kemferol və izoramnetin flavanadləri, 10%-ə qədər nişasta və s. maddələr də aşkar edilmişdir.

Yaşıl yarpaqlarının tərkibindən 14,40%, kül maddəsi, 34,20 mq/q-K, 37,40-Ca, 6,00-Mg 0,3 Fe makroelementləri, 0,31 -mk/q-Mn, 0,80-Cu, 0,50-Zn, 0,13-Co, 248,00-Mo, 0,06-Cr, 0,11-Al, 16,64-Ba, 10,50-Se, 0,12-Ni 1,15-Sr, 0,06-pb və s. mikroele- mentləri tapılmışdır.

Gicitkənin müalicəvi xüsusiyyətləri haqqında ilk məlumatı İbn Sina vermişdir. Böyük təbib doğranıb nazik toz halına salınmış gicitkənlə burun qan axmalarının kəsilməsində istifadə etmişdir. Toxumundan alınmış cövhərləri astma, hava çatışmamazlığında, pleviritin müalicəsində işlədilirdi. Gicitkəndən ağ ciyər, öskürək, uşaqlıq qanaxmalarında da istifadə edilirdi.

Şirəsinə şəkər qatışdırıb öskürək əleyhinə əla müalicə vasitə-

1

si kimi istifadə olunmuşdur.

Gicitkənin yarpaqlarından alınmış təzə şirəsi, dəmləməsindən bir sıra xəstəlikləri müalicə edirlər.

Gicitkəndən şəkər əleyhinə də işlədilir.

Onun gövdəsinin tərkibində 8-12%-ə qədər lif materialı vardır. Bu liflər uzun və möhkəmdir. Saxalində yerli əhali bunun lifindən balıq toru, ip, kəndir və kobud parçalar hazırlayır və müxtəlif növ ələklər düzəldirlər. Bunlar o qədər möhkəm və davamlı olur ki, hətta uzun müddət suda qaldıqda belə çürümür.

Gicikən qiymətli boyaq bitkisidir. Hələ XIX əsrin axırları XX əsrin əvəllərində gicitkənin yaşıl hissəsi xarici ölkələrə göndərilmiş və ondan yaşıl boyaq "xlorofil" alınmış, yeyinti, tibb sənayesində geniş istifadə edılmişdir. Biz isə birinci dəfə olaraq gicitkənin yaşıl yarpaqlarından və kök hissələrindən boyaq ekstraktı almışıq. Bu ekstraktla yunu yaşıl, yaşıl-qonur, yaşıl-qəhvəyi, yaşıl- boz, yaşıl-zeytunu, zeytunu-yaşıl, yaşıl-sarı, sarımtıl, sarımtıl-na- rınçı, narıncı və s. rəng və çalarlara boyadıq.

Ümumiyyətlə, 60-a qədər rəng və çalarlar almağa nail olduq.

Birinci dəfə olaraq yeni texnologiya üsulları işləyib hazırlayaraq gicitkən yarpaqlarından yeyinti və spirtli içkilər sənayesində böyük ehtiyac hiss edilən qiymətli müalicəyi təsirə malik yaşıl rəngli boyaq maddəsi aldıq. Aldığımız yeni yaşıl rəngli boyaq maddəsi yeyinti məhsullarını boyamaqla yanaşı, onların tərkibim vitaminlərlə zənginləşdirir. Bu boyaq maddəsi diş paslalarının, klsmetika məhsullarının, tibb sənayesində dərman preparatlarının tərkiblərinə də daxil edilə bilər.

Hal-hazırda kosmetika sahəsində gicitkəndən geniş istifadə edilir. Belə ki, ondan hazırlanan cövhər, dəmləmə, vannasından, krem və mazlardan dəridə baş verən xroniki yaraların, çibanların, qotur və ekzemaların müalicəsində istifadə olunur. Bundan başqa dəridə əmələ gələn düyün və qabarların üzərinə yaxılır, yaradan cələn üfunətli iylərin aradan qaldırılmasında dizinfeksiya edici vasitə kimi işlədilir. Bundan əlavə sıyığından toxumların bərpa edilməsində, elastikliyinin artırılmasında işlədilir. Bir sıra xarici ölkəərdə yarpağından alınan şirəsindən tüklərin dibinin möhkəmləndirilməsində, qovağın təmizlənməsində istifadə olunur. Bolqarıstanda cövhərindən daşlaşmaya qarşı işlədilir, zilli müalicə edirlər.

# *BAĞAMBURC-(HƏMİŞƏCAVAN)-VISCUM*

Bağamburc-Yoranthacecae fəsiləsindəndir. Dünya florasının tərkibində bu cinsin 60-a qədər növünə rast gəlmək olar. Qafqazda 2, o cümlədən Azərbaycanda 1 növünə təsadüf edilir.

Ağ bağamburc (həmişəcavan)-Viscum album. Bu həmişəyaşıl yarım parazit kolcuq olub, yaşadığı ağacın budaqlarına möhkəm halda yapışaraq öz inkişafını davam etdirir. Şar formasında olub, diametri 1 metrə qədər olan çoxlu çəngəl formalı yaşıl budaqlardan və qalın dəriyə bənzər oturaq halda qarşı-qarşıya düzülmüş uzun yarpaqlardan ibarətdir. Bitki ikievli, nadir hallarda birevlidir. Çiçəkləri sarımtıl-yaşıl, 5-6 haçalı zoğalardan çiçəkyatağı sadə 3-4 üzvlü, erkək və dişiciyi 3-4 ədəd olub, aşağı nahiyyədən bir- birinə sarılmışlar. Ağ, şirəli, yalançı giləmeyvəsinin diametri 1 sm olub, 1-2 ədəd yapışqan kleylə əhatə olunan toxumdan ibarətdir.

Mart-aprel aylarında çiçək açır, avqust-setyabrda meyvəsi yetişir.

“Omelya” qədim slavyan sözündən götürülərək “təmiz” mənasını bildirir. Xalq arasında buna quş kleyi deyilir. Qədim bir rəvayətdə deyilir ki, sərt şaxtalı günlərin birində, soyuqdan əziyyət çəkən bir ağac Allaha yalvararaq ondan kömək istəyir. Bunu eşidən Allah göydən, həmişəyaşıl omeliya kolunu göndərir ki, ağacı şaxtadan qorusun.

Ağ rəngli yalançı giləmeyvəsi qara toyuq, drozdov quşlarının sevimli qidası hesab edilir. Quşlar gileymeyvəni həvəslə yeyir, toxumlarla özlərini təmizləyirlər.

Toxumları quşların həzm orqanlarından keçərək, yapışqanlı hala keçib, ağacların budaq, oduncaq və qabıq hissələrinə asanlıqla yapışıb, cücərməyə başlayır. Yeni cücərən bağamburcun kök şaxələri ağacın qabığı altına daxil olur, sonra onlarda sorucu

tellər əmələ gəlir ki, bunlar da öz növbəsində oduncağın içərisinə yeriyərək inkişaf etməyə başlayaraq iri yarımkol formaya çevrilir. Bitki vegetativ, kök zoğları vasitəsi ilə artırılıb çoxaldılır. Bir ağacın üzərində çoxlu bağamburc bitkisi yaşayır və həmin bitkilərdən də öz başlancıqlarını götürürlər. Toxumun cücərməsi üçün hökmən işıq lazımdır, buna görə də bağamburc həmişə ağacın yuxarı hissəsində bitməyə çalışır. O həmişə çalışır ki, çətirdən kənarda, harada ki, işıq çoxdur, orada inkişaf etməyə can atır. Belə hesab edirlər ki, bitki bir ağacda 40 ilə qədər ömür sürə bilər. Cənub və cənub-qərbi Avropa və Qafqaz ərazilərində bağamburc yarıparazit halda yaşayır. Bitki suyu və mineral qida maddələrini yaşadığı ağacdan, üzvi maddələri isə özü fotosintez edərək alır.

Bağamburc əsasən yarpaqlı ağaclarda-vələs, dəmirağac, qovaq, ağcaqayın, tozağacı, çökə, qarağac, söyüd, yemişan, bəzən palıd, qoz, ağ akasiya xüsusilə də alma və armud üzərində bəzən də iynəyarpaqlılar şam, ağ şam, küknar üzərində yarım parazitlik edir və onlara, xüsusən də meyvə ağaclarına müəyyən qədər zərər verir.

Dərman və kosmetik məqsədlər üçün payız və qış aylarında tədarük olunan cavan budaq və yarpaqlarından istifadə edilir.

Bitkinin tərkibindən kəskin amorf xüsusiyyətli viskotin maddəsi ayrılmışdır ki, bu da parçalanaraq, amin turşuları və şəkərlərə çevrilərək visserin-C15 $N_{26}$ O2, &-viskol (B-amirin) C30N50 O və V-viskol (lupeol) C30N50 O olenı və ursol turşuları, alkaloid xüsusiyyətli maddə-Cs Nn N, xolin, asatiexolin, protinilxolin, amirlərdən: novriskalbin, viskalbin, tiramin, B-fenil-etilamin, az öyrənilmiş viskamin, pinet, kvebraxit, B-kversit və inozit spirtləri, kökündən olein, linol və pallektin turşuları askorbin turşusu, piyli yağ, karo- tin, sirinqin qmenkozid, kauçuk, meyvəsindən isə qatran maddələri tapılmışdır. Omeliyadan müalicə məqsədləri üçün ilk dəfə qədim yunan və roma təbibləri istifadə etmişlər.

30-50-ci illərdə isə omeliyadan hazırlanan preparatları farmakoloji və kliniki sınaqlardan keçirilərək onların əsəb, hipertoniya,

qıcıqlanmaya qarşı qiymətli müalicə vasitəsi olduğu təsdiq edilmişdir. Preparatlar arteriya təzyiqini aşağı salır, əsəb qıcıqlanmalarını azaldır, orqanizmdə azot mübadiləsini sürətləndirir. Bundan başqa omeliya preparatlarından ağ ciyər, mədə bağırsaq, uşaqlıq, qıcolmada, damar xəstəliklərində, bağırsaq, uşaqlıq qanaxmalarında daxilə qəbul edilir. Şirəsindən qan təzyiqini aşağı salırlar. 0,2 q narın toz halına salınmış yarpağından götürüb, 10%-li spirtə töküb, çıxarışını hazırlayıb, hər dəfə 20 damcı olmaqla cündə 3 dəfə daxilə qəbul etməyi məsləhət görürlər.

Omeliyanın preparatlarından limfa düyünlərinin müalicəsində işlədilir. Çexoslovakiyada isə əczaçılıq sınayesində çayı və ekstraktından istifadə edilir.

Yarpaq və gövdəsində çoxlu miqdar protein maddəsi olduğundan mal-qara üçün kökəldici yem hesab olunur və əsas etibarilə qış vaxtı təzə halda heyvanlara verilir.

Omeliyanın meyvəsi zəhərli olub, uşaqlar üçün təhlükəlidir.

Omeliyadan hazırlanan dəmləmələrdən kosmetika sahəsində sağalmayan yaraların, irinli və gec sağalan bir sıra dəri xəstəliklərinin müalicəsində geniş istifadə edilir. Belə ki, 60 qram omeliya tozundan götürüb, 1 litr qaynadılmış suya töküb dəmləyib istifadə edirlər.

Biz isə bundan ilk dəfə qiymətli təbii boyuq maddəsi almağa nail olduq.

# HERNİYAR-HERNIARA

Qərənfil-Caryorhyllaceae fəsiləsindəndir. Dünya florasının tərkibində herniyar cinsinin 45-ə qədər növü yayılmışdır. Bunlardan Qafqazda, o cümlədən də Azərbaycanda 4 növünə təsadü edilir. Aşağıdakı 2 növündən təbabətdə və kosmetikada istifadə edilir: hamar herniyar-Heriniaria glabra və tüklü herniyar-H.hirsu- ta hamar herniyar-H.glabra. Uzunluğu 5-15 (20) sm, gövdəsi çoxlu sayda yerə sərilmiş budaqlardan və saçaqlı oduncaqlı kökə malik, sarı-yaşıl rəngli çoxillik ot bitkisidir.

Yarpaqları qarşı-qarşıya düzülmüş ellepisvari, ovalvari, iti və yaxud küt aşağı hissədən daralan olub, çox qısa saplaqdan ibarətdir. Yarpaq atlığı enli yumurtavari pərdəvaridir. Çiçək tacı beş ağımtıl bizvari, çox qısa ləçəklərdən ibarətdir. Çiçəkləri xırda, görkəmsiz, beşüzvlü qoltuqda sıx yumaqvarı şəkilində yerləşmişdir. 5 ədəd qısa erkəkcikdən ibarətdir. Meyvəsi birtoxumlu açılmayandır. Toxumu tünd qəhvəyi rəngdə parlaq və hamardır. Bitki iyun ayından payıza kimi çiçəkləyib meyvə verir.

Hamar herniya Azərbaycanın daşlı-çınqıllı yerlərində, çay kənarlarında, Kür ovalıqlarında, Diabarda, Lənkərann və Naxçıvan MR-nın dağlıq sahələrində yayılmışdır. Buna düzənliklərdən, yuxarı dağlıq zonalarına qədər ərazilərdə rast gəlmək olar. Bitkiyə alaq otu kimi bağ və bağçalarda da rast gəlinir.

Bitkinin latınca mənası “herniaria glabra” “hernia” sözündən əmələ gələrək “hamar” “glabra” isə çılpaq sözlərindən götürül müşdür. Bu da bitkinin zoğlarının hamar olmasını bildirir. Xıılq arasında bu bitkiyə “it sabunu” deyirlər. Qərbi Avropa xalqları bil kinin köklərindən ətirli sabun köpüyü hazırlayıb, pal-paltarlıııı yu yurlar.

Rusiyanın bir çox şəhərlərində isə bu bitkinin kökündən hazırlanan maye sabunla bir çox ev heyvanlarının yununu yııyuıhi'

Otunun tərkibindən kumarin və onun törəmələri umbelliferonun 0,2% təşkil edən məftil efiri herniarin C10N8O2,kversetin, rutin, triqlyukozid, arabinozid kversetin flavonoidləri,triter

pen saponinləri, hidroliz olunaraq, kvilay turşusuna-C30 N46 05, ramnoz, qalktoz və qlyukozid maddələri, 0,6% qatı efir yağı, alkaloid izləri, aşı və qatran maddələri tapılmışdır.

Hamar herniyardan alınan preparatlarından su çiçəyi xəstəliyində böyrək və sidikqovucu vasitə kimi istifadə edilir. Otunu suya salıb çoxaldıqda sabun köpüyü əmələ gətirir. Bu su ilə yuduqda dəri çox yumşalır.

Hamar herniyarı tədərük edərək, Avropa ölkələrinə ixrac edilib sidikqovucu vasitə kimi istifadə edirlər. Belarusiya xalq təbabətində sulu məhlulu ilə sarılıq, mədə ağrılarında, qrija (yırtıq), uşaqlıq salmalarında, sidik qanaxmalarında, quduzluqda işlədilir. Qaynadılmış məhlulu ilə diatezi və ekzeması olan uşaqları çimizdirir, müalicə edirlər.

Xalq təbabətində su çiçəyində sidikqovucu, kəskin sidik kisəsi soyuq dəymə xəstəliklərində, həmçinin sarılıqda istifadə edilir. Ağır fiziki iş zamanı əmələ gələn əzələ ağrılarında, 10% cövhərindən içməyi məsləhət görürlər. Ot və kök hissəsindən hazırlanan cövhərindən antiseptik, soyuqdəymə, revmatizmdə, artirim- də, sakitləşdirici, mədə pozğunluqlarında, podaqra, kolit, yoğun bağırsaq iltihabında, qıcolmada, özündəngetmə, əsəb, bağırsaq və s. xəsiəliklərin müalicəsində geniş istifadə edilir. Otundan və toxumundan hazırlanan cövhərindən isteriya, özündəngetmə xəstəliklərində, kökündən hazırlanan məhlulundan qaşınmada istifadə edilir. Pörtlədilmiş yarpaqlarını təpitmə formasında əzilmiş yerə, damar soyuqdəymələrində yaş sarğı kimi istifadə edilir. Toxumundan hazırlanan spirtindən isə trixnoz əleyhinə işlədirlər.

Bitkinin sulu çıxarışı yaxşı köpük verdiyinə görə, ətirli iyə malik olduğundan, yuyucu maddələrin əvəz edici kimi istifadə etmək olar. Ətirli iyə malik olduğundan bundan ətriyyat və kosmetika sahələrində geniş istifadə edilir. Dermatalogiyada yarasa- ğaldıcı və büzüşdürücü vasitə kimi istifadə olunur. Ətirli suyu əl və bədən dərisini yumşaldır, elastiklik qabiliyyətini artırır. Bu xüsusiyyətinə görə hamar herniyar kosmetikada geniş istifadə edilir. Bitkidən quru və adi halda ətirli cövhər hazırlanır. Tüklərin inkişaf etdirilməsi üçün əla vasitə hesab edilir. Bitkinin bütün vegetasiya dövrü ərzində toplayırlar. Toxumu vasitəsilə çoxaldırlar.

# SABUNOTU-SAPONARA

Qərənfilçiçəklilər-Caryorhylaceae fəsiləsindəndir. Dünya florasının tərkibində 25-ə qədər növü yayılmışdır. Qafqazda 6, o cümlədən də Azərbaycanda 4 növünə təsadüf edilir. Aşağıdakı 1 növündən dərman sabıınotundan-Saronaria officinalis-dən təbabətdə və kosmetikada istifadə edilir.

Dərman sabunotu-S.officinalis bu hündürlüyü 30-90 sm olan dikduran güclü budaqlanan azca daralan kökümsovu olan çoxillik ot bitkisidir. Yarpaqlarının uzunluğu, 5-12 sm, eni 1-4 sm olub, lanset və yaxud ellipsvari, aşağıdakılar saplaqlı, yuxarıdakılar isə oturacaqlıdır. Çiçəkləri iyli qalxanvari-süpürgəvari hamaşçiçək- dən ibarətdir. Kasacığı bitişik yarpaqlı, silindirvaridir. Ləçəkləri ağ və yaxud çəhrayı rəngli uzunsov-tərsinəyumurtavari girintili- çıxıntılı və yaxud tamamilə bükülmüşdür. Meyvəsi uzunsov yu- murtavari bir yuvalı çoxlu xırda qara rəngli toxumu olan qutucuq- dan ibarətdir. İyun-avqust aylarında çiçək açır, sentyabrda meyvəsi yetişir.

Sabunotu bitkisi Azərbaycanın Gədəbəy rayonunda Qala kənd ətrafında, orta dağlıq zonalarda, açıqlı və kolluqlarda yayılmışdır. Kök və kökümsovunun tərkibində 20%-ə qədər saponin, saporubrin, bu da hidroliz olunaraq, hipsoqenin-C40 N46 04, yarpağından saponarin C27 N32 016, və viteksin-C21 N20 010 flavanoidləri, 1%-ə qədər askorbin turşusu, pektin, selik və s. tapılmışdır. Çox qədimdən tibbdə bu bitkinin qırmızı-qonur rəngli kökümsovu məşhur "qırmızı sabun kökü" adlandırılır.

Xalq arasında sabun otunu təmizkar, "tatar sabunu" "sabun çiçəyi", "arx dostu olmayan", "paxlalı", "sabunotu" və s. adlarla adlandırırlar. Bunun latınca elmi adı "Saro" sabın mənasını bildirir. "Saponaria" sözü bir sıra orta əsr müəlliflərindən Albertus Maq- nus, Bok, Hesner, Lobelpus, və s. müəlliflərin əsərlərində qeyd edilir. Müasir elmi adı isə K.Linney tərəfindən verilmişdir.

Qırmızı sabun kökündən nəfəs yolları xəstəliklərində belğəmgətirici, bronxitdə, kəskin öskürəkdə, zəkəmdə və s. işlədilir.

Xalq təbabətində kök və kökümsovundan hazırlanan domle-

məsindən süstlük, böyrək, ciyər, dalaq, həzm pozğunluqlarında və s. işlədilir. Kök və yarpaqlarından hazırlanmış cövhərindən daxilə qəbul edilərək, həzm pozğunluqlarında, podaqre (oynaq və toxuma) xəstəliklərində, ekzema, ekssudat diatezdə frunkul- yoz (çoxlu çiban çıxarma) əleyhinə, xal, dəmirov dəri iltihabında işlədilir. Təzə yarpaqlarından yaş sarğı kimi irinli yaraların üzərinə qoyurlar.

Sabunotu bəzən qıcıqlandırıcı təsir də göstərir. Daxilə artıq miqdarda qəbul edildikdə öskürək, ürək bulanması, qusma, qarın ağrısı əmələ gətirir. Sapotoksin kəskin qanzəhərləyici təsirə malikdir. Onunla heyvanlar zəhərləndikdə əsəb pozğunluqları, qıcol- ma, tənəffüs iflici və ölümlə nəicələnir. Onun üçün sabunotu pre-paratlarından uzun müddət istifadə etdikdə çox ehtiyatlı olmaq lazımdır.

Bundan başqa cövhərindən bəlğəmgətirici, işlədici, yelqovu- cu, eləcə də damar xəsiəliklərində işlədirlər. Sabunotu şirəsinə sirkə və arpa yarması əlavə edib bir müddət saxladıqdan sonra dəmirov və cüzam xəstəliklərinin müalicəsində sürtkü kimi istifadə edilir.

Qərbi Avropa ölkələrində bəlğəmgətirici, Bolqarıstanda isə dəri səpgilərində istifadə edilir.

Qatı məhlulu tükün inkişafı üçün ən səmərəli vasitə hesab edilir. Pambığı ekstraktına batırıb, buşı yuduqdan 1-2 saat sonra dəriyə sürtürlər və yaxud yatmaqdan qabaq, məhlulla başın tükünü isladırlar. Bu üsulla tükün tökülməsinin qarşısı alınır və onun dibi bərkiyir.

Sabunotu toxum və vegetativ orqanları ilə artarılıb çoxaldılır.

# ZİRİNC-BERBERIS

Zirinc-Berberidacea fəsiləsinə aid olub, dünyada 450-yə qədər, Qafqazda və Azərbaycanda isə 3 növü yayılmışdır.

Bu növlərin ən qiymətlisi adi zirinc hesab edilir. Adi zirinc-B.vulgaris hündürlüyü 2-3,5 m-ə qədər olan şaxələnmiş koldur. Gövdələr yer səthindən başlayaraq çoxlu qol-budaq atır. Cavan budaqları sarımtılqonur, yaşlıları bozumtul rəngindədir. Yarpaqları, adətən üçhaçalı tikandır, möhkəmdir, uzunluğu 1 sm-ə qədər olur, bəzən də sadəcə bir tikandan ibarətdir, ellips foramalı, tərsinə yumurtavari-lansetvarıdır. Çiçəkləri salxım şəklində, sarı rəngdə olub, çiçək qrupunda yerləşir. Meyvələri salxımlarda yerləşən uzunsov, al qırmızı rəngli, turş giləmeyvədir. İri toxumları vardır. Bitki aprel-may aylarında çiçək açır, meyvələri sentyabr- oktyabrda yetişir. Adi zirinc Azərbaycanın demək olar ki, hər yerində aradan orta dağ qurşağına qədər yayılmışdır. Meşə kənarında, çay vadilərində, kolluqlarda, qayalıqlarda və uçurumlarda bitir. Bozdağ sisteminin seyrək meşələrində daha geniş yayılmaqla çökəklərdə xırda cəncəllik əmələ gətirir. Azərbaycanda adi zirincin sənaye əhəmiyyətli ehtiyatı vardır. Azərbaycanda yayılmış bu 3 növ zirincin meyvələri bir-birindən dadlıdır. Odur ki, onların meyvələri həvəslə yeyilir və müxtəlif məqsədlər üçün işlədilir. Kimyəvi tərkibi az öyrənilmişdir. Bütün orqanlarının tərkibindən 10-a qədər alkoloid, o cümlədən berberin alkoloidi tapılmışdır. Berberin maddəsinin 13,4%-i kök qabıqlarında toplanır. Bundan əlavə, köklərində 1,5% aşı maddələri, 1,12% qatran, 38,6 mq% askorbin turşusu olur. Meyvələrinin tərkibində 5% şəkərli maddə, 6,5% üzvi turşu, o cümlədən meyvəyə turşuluq tamı verən alma turşusu, 150 mq% S vitamini, E, karotin, pektin, aşı, boyaq maddələri və s. tapılmışdır. Toxumlarının tərkibində 15%- ə qədər yağ var.

Bundan əlavə zirincin yarpaqlarının tərkibindən 15,10 mq/q-K 7,30-Ca,1,10 Md, 0,10-Fe makroelementləri, 46,90 mkq/q Mn, 14,40-Si, 29,00-Zn 0,72-Co, 0,40-Mo, 0,40-Cr, 60,40-AI, 8,08-Ba, 0,40-Se 2,88-Ni 2,32 sr 0,72 pv, 67,60-B, 0,15-1 mikroelementlə- ri tapılmışdır.

Kök hissəsindən isə 2,70-mq/q-k 1,30-Ca, 0,90-Md, 0,13-Fe

makroelementləri, 33,00 mkq/q-Mn, 8,56-Cu, 32,1O-Zn, 0,16-Si, 74,96-AI, 5,44-Va, 1,44-V 0,02-Se 0,096-Ni 1,92-Sr, 0,40-rb, 0,60-B 0,09-1 və s. mikroelementləri aşkar olunmuşdur.

Zirinc qiymətli dərman bitkisi sayılır. Bizim eradan 650 il qabaq zirincin meyvəsindən qan təmizləyici vasitəsi kimi istifadə olunması haqda gil lövhəcikləri üzərində yazılan mənbələrdə məlumatlar var. İlk anlar zirincdən hazırlanan sulu dəmləmələr sarılıq, qızdırma və ş. xəstəliklərə qarşı işlədilmişdir.

Böyük təbib ibn Sina zirincdən hazırlanan cövhərlərin odqo- vucu və qankəsici xassəyə.malik olduğunu qeyd edirdi. Çin, Tibet, Hindistan, Orta Asiya, İran, Əfqanıstan, Bolqarıstan və s. ölkələrin xalq tətabətində zirincin müxtəlif növlərindən hələ qədim zamanlardan geniş istifadə edilmişdir. Onun kök və gövdəsindən alınan müxtəlif cövhərlər xalq təbabətində iltihab prosesinin, dəri xəstəliklərinin (ekzema, dəmrov, qızıl yel, cüzəm və s.) mədə, ciyər, göz: ağızın selikli qişasının iltihabı və s. xəstəliklərin müalicəsində istifadə edilmişdir. Hindistanın müasir klinikalarında zirincdən həmin üsulla alınan müxtəlif məlhəmlər, içmə dərman kimi geniş tətbiq olunmaqdadır.

Zirinc meyvələrindən susuzluğu aradan qaldıran vasitə kimi də istifadə edilir.

Tacikistanın dağ kəndlərində yaşayan əhali müalicə məqsədi ilə zirincin kökünü xırda-xırda doğrayır və onu 50-60 dəqiqə qaynadır. Nəticədə qonur rəngli məhlul alınır ki, bunu da mədə xəstəlikləri zamanı içirlər. İltihab prosesi zamanı isə həmin məhlul sürtmə dərmanı kimi işlədilir. Belə ki, bu dərman sümük sınığı və ya çıxığı olan zaman şiddətli ağrıyan və çox əzilmiş, zədələnmiş yerlərə sürtüldükdə yaxşı nəticə verir.

Zirincin kökündən alınan cövhərlə ürək xəstəliklərini, əsəb sisteminin zəifləməsilə əmələ gələn tez yorulma, əsəbilik başağrısı və s. şəkildə təzahür edən əsəb xəstəliklərini, revmatizm, qızdırma və s. xəstəlikləri də müalicə edirlər. Ona görə də qabaqlar bu məhlul böyük müalicəvi əhəmiyyəti olan bir dərman kimi dağ kəndlərinin apteklərində satılırdı.

Azərbaycanın Şəki, Quba, Qusar və s. rayonlarının əhəlisi zirincin meyvələrindən dərman hazırlayıb, bir çox xəstəliklərin müalicəsində istifadə edirlər. Bunun üçün meyvəni toplayır, şü

şələrə doldurub, üzərinə bir az duz və su töküb, ağzını mökəm bağlayır və qıcqırmaya qoyurlar. Bir müddət keçdikdən sonra qıcqırma prosesi baş verir və meyvənin rənci dəyişilir. Sonra şüşə qabın ağzını açır, tənzifdən süzüb, alınan cövhəri sarılıq, böyrək, qızdırma və s. xəstəliklər zamanı içirlər.

Qabığından hazırlanan qatı məhlulundan revmatizmə və səpgiyə qarşı sürtkü kimi istifadə edirlər.

Bundan əlavə, yarpaqlarından hazırlanmış cövhərlərdən qızdırma, böyrək, suçiçəyi, sarılıq, xüsusi də öd kisəsində olan daşların əridilməsində, oynaq və radikulit və s. xəstəliklərin müalicəsində ceniş istifadə olunur.

Elmi təbabətdə adi zirincin yarpaqlarından dəmləmə və duru spirtli cövhər hazırlanıb daxili qanxamalarda (uşaqlıq qanaxmalarında) qankəsici dərman kimi işlədilir. Bundan əlavə, zirincin spirtli cövhərindən sidik kisəsinin və qara ciyərin iltihabında, soyuqdəymədə, uşaqlıq əzələlərinin möhkəmləndirilməsində, qanxamalarda, ürək döyüntülərinin tənzimlənməsində, qan təzyiqinin aşağı salınmasında və s. istifadə edilir.

Bir çox mənbələrdə qeyd edilir ki, zirincin preparatları xərçəngin də müalicəsində işlədilir. Hələ qədim zamanlardan zirincin meyvələri tam yetişdikdən sonra yığılır, qurudulur və narın əzildikdən sonra müxtəlif yeməklərə, xüsusilə ət xörəklərinə ədviyyat kimi əlavə edilir. Yarpaqlarını əvəliklə qarışdırıb, müxtəlif salatlar hazırlanır. Meyvələrindən həmçinin qışda istifadə etmək üçün turş pastil və yüksək keyfiyyətli kvas, kompot, mürəbbə, likör, çaxır, şərbət, şirniyyat və digər məmulatlar hazırlanır. Meyvələrindən pəhriz xörəkləri də bişirilir.

Xalq təbabətində təzəcə dərilmiş zirincin meyvələrindən hazırlanmış mürəbbə, şərbət və firni skorbut, raxit, qanazlığı, isitmə (malyariya), eləcə də mədə-bağırsaq xəstəliklərində çox qədimdən istifadə edilir, quru meyvələrindən isə çay dəmlənir.

Kimya elminin inkişaf etmədiyi dövrlərdə yazı məqsədilə zirincin meyvələrindən qırmızı, bənövşəyi rənglər hazırlamışlar.

Zirinc kollarının arıçılıq təsərrüfatında da böyük əhəmiyyəti var. O hər il yüksək şirəli bol çiçək verir ki, bu da bal arıları üçün yaxşı qida mənbəyidir. Ondan alınan bal yüksək şəkərliliyə və şəffaflığa malik qızılı-sarı rəngdə olur.

Zirinc eyni zamanda bəzək koludur. Ondan bağ və bağçaların, parkların bəzədilməsində geniş istifadə edilir.

Zirinc həmçinin qiymətli boyaq bitkisi sayılır. Zirincin meyvə, qabıq, gövdə və köklərinin tərkibində 10%-dən artıq sarı rəngli flavonoid maddələri tapılmışdır. Biz laboratoriyada zirincin meyvə, qabıq, kök və gövdə hissələrindən boyaq məhlulu hazırlayıb, ipək və yun məmulatlarını sarı, limonu-sarı, qızılı-sarı, parlaq-sarı, sarı-narıncı, sarı-yaşılı, sarı-qonur, narıncı, narıncı-yaşıl, narıncı-boz, narıncı-tütünü, narıncı-qəhvəyi, narıncı-mixəyi, narıncı-darçını, yaşıl, yaşıl-sarı, tütünü, firuzəyi, çəhrayı, bənövşəyi, qırmızı, qırmızı-çəhrayı, açıq çəhrayı, şabalıdı, zeytunu və s. rəng və çalarlara boyadıq. Alınan rənglər günəş şüasının, əsasın, turşunun və kimyəvi yuyucu maddələrin təsirinə qarşı çox davamlıdır.

Möhkəm oduncaqlı zirincin gövdəsindən həmçinin müxtəlif xarratlıq məmulatları hazırlanır. Zirincin respublikamızda geniş yayılmasına baxmayaraq, ehtiyatı azalmaq üzrədir. Bunun əsas səbəblərindən biri onu mal-qaranın daim yeməsidir. Həm də onun meyvəsini yığarkən adamlar əvvəlcə kolları dibdən kəsərək kənara çəkir və sonradan meyvəsini yığırlar. Bundan başqa, qaz çəkilməyən rayonların əhalisi zirinci qırıb, qış dövrlərində yanacaq kimi də istifadə edir. Bunlar da zirincin təbii artmasına və çoxalmasına mənfi təsir göstərir. Buna görə də o, digər kollara nisbətən azlıq təşkil edir.

Təbabətdə, yeyinti sənayesində və xalq təsərrüfatının bir çox sahələrində zirincdən müxtəlif məqsədlər üçün geniş istifadə olunduğundan, təbii halda yayılmış zirincin qorunub saxlanması və onun süni yolla çoxaldılması şübhəsiz fermer, meşə təsərrüfatı idarələrinə xeyli gəlir verə bilər.

Zirinc eroziyaya uğramış yamacların bərkidilməsində meşə-meliorativ məqsədlər üçün də qiymətli kol cinslərindən biridir. Yamacların bərkidilməsində istifadə olunan ağac və kol cinsləri güclü kök sistemi əmələ gətirmək, quraqlığa davamlılığı və torpağın münbitliyinə az tələbkarlığı ilə fərqlənməlidir. Bu əlamətlərin demək olar ki, hamıs zirincdə olduğundan, o eroziyaya uğramış sərt yamaclarda, qumlu, daşlı çay vadilərində yaxşı bitir və inkişaf edir.

Zirnc kolu əsasən 30-40 sm dərinlikdə yayılan və şaxələnən güclü kök sistemi əmələ gətirir. Həmin kök və kökcüklər torpaq hissəciklərini tor kimi öz aralarına alaraq bərkidir və onu hər cür yuyulmadan, dağılmadan mühafizə edir. Bu cür yamaclarda torpağın susazdırma qabiliyyəti də çoxalır ki, bununla da səthi su axınının və yuyulmanın qarşısı alınır. Odur ki, normal zirinc örtüyü altındakı yamaclarda demək olar ki, eroziya müşahidə edilmir. Qeyd etmək lazımdır ki, respublikamıızın dağlıq zonalarında eroziya prosesi nəticəsində yararsız hala salınmış torpaq sahələri xeyli ərazini əhatə edir. Bu cür sahələrdə zirinc əkinlərinin aparılması iki əsas məqsədin yerinə yetirilməsinə səbəb ola bilər: eroziya prosesinin qarşısı alınar və bu cür əkinlərdən xeyli gəlir əldə etmək olar. Təəssüf ki, respublikamızın ərazisində aparılan meşə əkinlərində bu günə qədər zirincə təsadüf edilmir. Halbuki zirincin çoxaldılması çox asan, sadə və əlverişlidir.

Zirinci çoxaltmaq üçün onan yığılmış toxumları lətdən təmizlənir, stratifikasiya edildikdən sonra aqrotexniki qaydada hazırlanmış torpağa səpilir, yazda cücərti verir. Bu üsulla külli miqdarda zirinc şitili almaq mümkündür. Aparılan təcrübələr göstərmişdir ki, birinci ilin axırında onun tinglik şəraitində yetişdirilən tinglərinin hündürlüyü 20-30 sm-ə çatır. İkinci ili onları artıq daimi əkin yerinə köçürmək məsləhət görülür.

Zirinci qələmələr və kök pöhrələri vasitəsilə çoxaltmaq daha asan və məqsədəuyğundur. Bu məqsədlə tinglikdə yetişdirilmiş ikiillik tinglərdən istifadə edilməsi daha sərfəlidir. Lazımi qədər nəmliyi olan sahələrdə onun toxumlarını birbaşa daimi əkin yerinə də səpmək mümkündür. Zirincin meyvəsini tam yetişməmiş halda toplamaq lazımdır. Tam yetişdikdə yumşaq olur, əzilərək xeyli itkiyə yol verilir.

Meyvəni uzun müddət saxlamaq üçün onu şəkərləyirlər. Giləmeyvəsini açıq günəş altında çardaq, örtük və sobalarda qurutmaq olar. Qurudulmuş meyvələri qutularda və yaxud təlislərdə saxlamaq mümkündür.

Tərkibində çoxlu miqdar bioloji aktiv maddə olduğundan hal-hazırda zirinc preparatlarından kosmetika sahəsində geniş istifadə edilir. Belə ki, onun yarpaq, çiçək, meyvə və kök hissəsindən hazırlanan cövhər, dəmləmə və yaxmasından antisepti, soyuq

dəymə, tonus və müqavimət artırıcı kimi istifadə edilir.

Zirinc preparatlarından saçın inkişaf edib, kökünün bərkidilməsində, piqment ləkələrinin, ziyillərin, civzə və sifətdə olan Tpiy yığımlarının müalicə edilməsində geniş işlədilir. Dermatologiyada zirinc preparatlarından dəri qırışıqlarının aradan qaldırılmasında tonusartırıcı vasitə kimi istifadə edilir.

Zirincin kök hissəsini bütün vegetasiya dövründə toplamağı məsləhət görürlər. Yarpaqlarını isə çiçək açan dövrdə yəni aprel-may aylarında toplayırlar. Bitkinin kökünü toplayarkən hər 10 m2 sahədən bir kol çıxarmağı məsləhət görürlər. Zirincin kökü toplanan sahələrdən ikinci dəfə təkrarən xammalı 10-15 ildən sonra toplamağı məsləhət görürlər. Zirincin yerdən qazılıb çıxarılmış köklərini su ilə yumaq olmaz, çünki berberin maddəsi suda yaxşı həll olur. Xammalın saxlanma müddəti 3 ildir.

iri dəmrovotu (ziyilotu) *(Chelidonium mayuc) xaşxaş* (papaveraceae) fəsiləsindəndir. Çoxillik ot bitkisi olub, bütün hissələrində sarı rəngli süd şirəsi var. kökləri iri, şaxəli, düyünlüdür. Gövdəsi.azca qabırğalı və düyünlü, yuxarı hissəsindən budaqlanan- dır. Üst hissəsi parlaq yaşıl, alt hissəsi isə göyümtül olan 5-7 hissəli gövdə yarpaqları növbəli, ləlәkvarı bölümlüdür. Gövdəsinin aşağı hissəsində yerləşən yarpaqlar saplaqlı, yuxarıdakılar isə oturaqdır. Parlaq sarı çiçəkləri sadə çətir çiçək qrupunda toplanmışdır. Erkəkciyi çoxdur. Meyvəsi silindrik formada qınaoxşar qutucuqdan ibarətdir, yumurtaya oxşar toxumları parlaq qara rəngdədir. Bitki iyun-sentyabr aylarında çiçəkləyir və meyvə verir.

Dəmrovotuna Azərbaycanın hər yerində rast gəlmək olar. Belə ki, o, Böyük Qafqazın Quba ərazisində, Kür-Araz düzənliyində, Alazan-Ağrıçay vadisində və s. yerlərdə yayılmışdır. Meşəlik sahələrdən tutmuş əkin və alaq otları arasında, zibilliklərdə də təsadüf edilir.

Dərman məqsədi ilə otundan istifadə edilir. Bu məqsədlə bitki təzə çiçək açan zaman toplanılır və tez bir zamanda quru havada qurudulur. Dəmrovotu toplanarkən əlcək geymək lazımdır, çünki bitkinin şirəsi qıcıqlandırıcı (yandırıcı) təsirə malik olduğu üçün dəridə yara əmələ gətirə bilər.

Bitkinin bütün hissələrində bir sıra alkoloidlər var. Otunda

0,97-0,87%, kökündə 1,9-4,14% alkoloidlər olduğu aşkar edilmişdir. Bundan başqa, otundan 0,01% efir yağı, 171 mq/S vitamini, 49-102 mq A vitamini, acı maddə olan xelidoksantin, flavo- noidlər, saponinlər, üzvü turşular (alma, limon, kəhrəba və xeli- don) və s. müəyyən edilmişdir. Toxumlarında 40-68% piyli yağ, lipaza və s. tapılmışdır.

Sulu məhlulunu dəri altına yeritdikcə qıcıqlanma ağrı əmələ gətirir. Qana yeritdikdə ürək döyünməni azaldır, lakin tənəffüs prosesini dərinləşdirir. Dəmrootu bakterisid təsirə malikdir. Təzə şirəsi patogen mikroblara qarşı bakterisid və insektisid təsir göstərir. Bundan öd yolları xəstəliklərində də istifadə olunur. Dəmro- votunun alkoloidlərindən əsəb xəstəliklərindən əzab çəkənlərə kömək məqsədilə ağrıkəsici kimi istifadə edilir. İbn Sina öz əsərlərində qeyd edir ki, kəskin diş ağrılarında otunu çeynədikdə ağrı kəsilir, sıxıb çıxarılmış şirəsi göz yaşı axmasının qarşısını alır, göz bəbəyində əməl gələn ağ ləkələrin aradan qaldırılmasına köməklik edir.

V.K.Varlıq (1919) göstərir ki, dəmrovotundan müalicə kimi is- tifadə edildikdə onu çiçək açan dövrdə toplamaq məsləhət görülür. Qurudulan zaman tərkibindəki süd şirəsinin 90%-ni itirir. Ona görə də dərman preparatlarını dəmrovotunun yenicə toplanmış otundan hazırlamağı məsləhət görürlər.

Elmi təbabətdə dəmrovotundan hazırlanan preparatlardan sa- rılıq, podaqra, sidikqovucu, işlədici, keyləşdirici, yara kəsik, dəri xəstəliklərində, o cümlədən dəri vərəmində, ziyillərin müalicəsində istifadə edilir. Dəri vərəmində və bir sıra dəri xəsəliklərində soyuq cövhərindən istifadə olunur. Xalq təbabətində dəmrovotunun təzə süd şirəsinin yaxması ilə dəri ziyil, döyənək və s. xəstəlikləri sağaldırlar.

Dəmrovotundan hazırlanan preparatlardan yaman şişlərin müalicəsində və yaxud inkişafının qarşısını alınmasında da istifadə edilir. Q.Nandelşat qeyd edir ki, onun özü dəmrovotu preparatları ilə epiteli toxumasında əmələ gələn yaraların müalicəsinin şahidi olmuşdur. Hazırda bir sıra ölkələrin tibb müəssisələrində dəmrovotundan hazırlanan preparatlarla böyrək, qaraciyər, öd kisəsi xəstəliklərinin, mədə yaralarının sağalmasında və eləcə də ağrıların qarşısını almaq üçün geniş istifadə edilir.

# *QUŞƏPPƏYİ-CAPSELLA*

Quşəppəyi cinsinin dünya florasının tərkibində 6 növü yayılmışdır. Bu növlərə ən çox kiçik Asiya, Yunanıstan və Avropa ölkələrinin ərazilərində rast gəlmək olar. Qafqazda, o cümlədən də Azərbaycanda 1 növünə-adi qüşəppəyinə Capsella bursa-pas- toris rast gəlmək olur. Bu hündürlüyü 4-60 sm olan iyvari nazik kök sisteminə malik birillik ot bitkisidir. Gövdəsi tək və yaxud bir neçə ədəd olub budaqlanandır. Kökətrafı rozetvari yarpaqlarının saplağı 15 sm uzunluğunda üçdilimli ipəkvari uzunsov-lansivarı, gövdə yarpaqları növbəli oturacaq, xırda, yuxarı getdikcə kiçiklə- şir. Çiçəkləri ağ rəngli uzunsov salxımda toplanmışdır. Toxumları xırda açıq qəhvəyi, kəsik yastılaşmış üçkünc buynuz meyvədən ibarətdir. Bir bitkidə 60-65 minə qədər toxum odur. Bitki erkən yazdan başlayaraq payıza kimi çiçəkləyir və meyvə verir. Qüşəppəyinə alaq bitkisi kimi Azərbaycanın hər yerində o cümlədən də çəmənliklərdə, qumluqlarda, çayların kənarlarında, əkin sahələrində, bostanlarda, alaqlı sahələrdə, yol və yaşayış evlərinin ətrafında rast gəlinir.

Respublikamızda bol ehtiyatı vardır. Bitkinin adı “kapsella”-ki- çik “kisəcik”, “kisə” qəhvəyi rəngli toxum mənasını daşıyır. Növün adı burdan götürülmüşdür. Bitkinin ot hissəsinin tərkibindən ramnoqlyukozid qissepin C28 N32 014 bursov turşusu, aşı maddəsi, quzuqulağı, fumar, alma, limon və çaxır turşuları, piramin, xolin flavonoidləri, 120-198 mq % C vitamini və K vitaminləri ta- mılmışdır.

Yaşıl hissəsisinin tərkibindən 9,4% kül maddəsi, 34,10 mq/k, 16,90-Ca, 2,50 mq, 0,30-Fe makroelementləri, 0,09 miq/q-Mp, 0,74 Si, 0,69-Zn, 0,09-Co, 5,60-Mo, 0,04-Sç, 0,09-Al, 0,37-Ba, 0,03-V, 0,00-Se, 0,21-Ni, 0,32-Sr, 0,03-pb, 0,05-1, 8,10-Br, 38,4- B mikroelemenləri tapılmışdır.

Quşəppəyindən alınmış cövhərlərdən hələ orta əsrlərdə qankəsici vasitə kimi istifadə edilmişdir.

Hal-hazırda elmi təbabətdə quşəppəyinin qurudulmuş otundan spirtli duru ekstrant və dəmləmə hazırlanır ki, o da uşaqlıq qanaxmalarında, qankəsici vasitə kimi işlədilir. Quşəppəyindən həmçinin mədə-bağırsaq, böyrək və qaraciyər qanaxmalarında da istifadə olunur. Qankəsici təsiri tərkibində olan K vitamini ilə əlaqədardır.

Elmi təbabətdə büzüşdürücü vasitə kimi ishal, dizinteriya, qastritdə, ciyər, ürək və s. xəstəliklərdə istifadə edilir.

Dioskorid qeyd edirdi ki, quşəppəyi qanqovucu xüsusiyyətə malikdir. Quşəppəyi otundan xalq təbabətində çay dəmləyib daxili qanaxmalara qarşı içirlər. Bundan əlavə cövhərindən qaraciyər, böyrək, sidik kisəsi həzm pozğuntularında işlədilir.

Hindistanda quşəppəyi cövhərindən qusma əleyhinə işlədilir.

Quşəppəyinin yerüstü hissəsindən hazırlanan ekstrakt və vannalardan kosmetika sahəsində periferik qandamarları yığılmalarında, dəridə baş verən yara və xoraların müalicəsində işlədilir.

# *QARAGAT-RIBES*

Rusalçası-Grossulariaceae fəsiləsindəndir. Dünya florasının tərkibində 140-a qədər növü yayılmışdır. Azərbaycanda 3 növünə təsadüf olunur. 1 növü mədəni halda becərilir. Daha geniş yayılmış Şərq qarağatıdır. R.orientale becəriləni isə qara qarağat-dır-R.nigrum.

Qarağatın adı “ribes”, ərəb sözü olan “rabas” sözündən götü-rülmüşdür. Bunların bir növü turşuluğuna görə rəvənd adlandırılır.

Rus ordusu VIII əsrdə insanları məğlub etdikdən sonra qarağat gətirib “krijovnik” rus üzümü adı altında əkib becərirlər. Sonra giləmeyvəsinin rənginə görə “nigrum” qara adı vermişlər. Qara qarağat hündürlüyü 2 metrə qədər olan yarpağını tökən kök hissədən yuxarıya doğru inkişaf edən budaqları sarımtıl-boz rəngdədir. Gövdəsi dikduran budaqlanandır. Yarpaqları növbəli, saplaqlı 3-5 barmaqvari bölünən olub, kənarları iri dişvarıdır. Çi-çəkləri açıq bənövşəyi və yaxud çahrayımtıl-boz rəngdə olub salxım formasında hamaşçiçəkdə toplanmışdır. Meyvəsi çox toxumlu, dairəvi giləmeyvəsi qaramtıl və yaxud tünd bənövşəyi rəngdə olub, ətirli xoş iyə malikdir. May-iyun aylarında çiçək açır, iyul- avqust meyvəsi yetişir.

Qarağatın qiymətli xüsusiyyətlərini nəzərə alıb 1740-cı ildə Fransada, XVIII əsrdə İngiltərədə, XIX əsrin sonunda isə Almaniya və Amerikada mədəni hala keçirilmişdir. Qarağat tez bar gətirən, 23-30 dərəcə şaxtaya və 30-40 dərəcə istiyə dözən, bol və sabit məhsul verən qiymətli kol bitkisidir. Qarağat bitkisi çox qiymətli qida və dərman bitkisi sayılır. Meyvəsinin tərkibində 4000 mq S vitamini, P,B, vitaminləri, karotin, 17%-ə qədər şəkər, 4,5%-ə qədər alma və çaxır, limon turşuları, 0,43% aşı maddəsi, kofeyin, protokatexin, xinin, kempferol, kversetin, mirisetin, ke- miferol-3 qlikozid, izopversetin, mirisetin-3 qlikozid, kempferol-3- rutinozid flavonoidləri, rutozid, sianidin və delfinidin-3-qlikozidlə-

ri, katexın və s. tapılmışdır. Tumurcuqlarından isə 0,6%-ə qədər efir yağı tapılmışdır. Yarpaqlarından karotin, askarbin turşusu və efir yağı tapılmışdır.

Meyvəsinin tərkibindən 5,12% kül maddəsi, 22,20 mq/q % K, 5,20-Ca, 2,40-Md, 0,06-Fe, mikroelementlərdən isə 0,09 mkq/q Mn, 0,57 Cu, 0,55-Zn, 0,04 Co, 0,80-No, 0,08 Cr, 0,06 Al, 0,02 V, 1,00-Se, 0,26-ri, 0,09-Sr, 0,07-rb, 35,60-B aşkar edilmişdir.

Yarpağında isə 7,78% kül maddəsi K-28,90 mkq/q, 13,40-Ca, 2,80-Mg, 0,20-Fe mikroelementlərdən 0,23-Mn, 0,17-Cu, 1,88- Zn, 0,22-Co, 7,20-Mo, 0,27-Cr, 0,07-Al, 031-Ba, 0,06-V, 41,60- Se, 0,42-Ni, 0,17-Sr, 0,09-pb, 0,28-1, 63,60-B mkq/q tapılmışdır. Müalicə məqsədləri üçün qarağatın yalnız meyvəsindən deyil, tumurcuq və yarpaqlarından dəmləmə və cövhər hazırlayıb, böyrək və sidik kisəsində olan daşların kənar edilməsində istifadə edilir. Meyvə və yarpaq hissələri vitaminlə zəngin olduğundan ondan hazırlanan dəmləmədən soyuqdəymə, tərgətirici, sidikqovucu, orqanizm müqavimətinin artırılmasında infeksiya xəstəliklərinə qarşı işlədilir.

Elmi təbabətdə qarağatın meyvələri və yarpaqları polivitamin- li maddə kimi, skorbutda və digər hipo və avitaminozlarda, dia- tezlərdə, mədə-bağırsaq xəstəliklərində, qanazlığında istifadə edilir ki, bu da onların tərkibində olan vitaminlərlə və mikro və makroelementlərlə əlaqədardır. Təzə meyvələrindən alınan şirədən səs tutulmalarında, göy öskürəkdə, quru öskürəkdə istifadə edilir.

15-20 ədəd qarağat meyvəsi insanın gündəlik S vitamininə olan tələbatını ödəyir. Qarağatın meyvə və yarpaqlarından hazırlanan dəmləmə, cövhər, yaxmalardan kosmetika sahəsində geniş istifadə edilir. Belə ki, meyvəsini əzib, süzgəcdən keçirib, alınan lətli hissəsindən sifətin dərisinə sürtüb 25-30 dəqiqə saxladıqdan sonra isti su ilə yuyub təmizləyirlər. Qarağat yaxması dərini təmizləyir, onun elastikliyini artırır və təravətli edir. Qarağat vannaları qəbul etdikdə bədəndə olan xoşa gəlməz iyləri yox edir, orqanizmin müqavimətini artırır, əsəb sistemini sakitləşdi-

rir. Qarağat yarpağını gicitkən, çobanyastığı, kəklikotu, üç yarpaq yonca, dazıotu və qaraqınıqla qarışdırıb, qadınlar üçün “gözəllik vannası” hazırlayırlar. Bu “gözəllik vannasını” qadınlar qəbul edərək, bədənlərinin təravətli, xoş iyli, gümrah və şux hala salırlar.

Yarpaqlarından hazırlanan dəmləmələrlə uşaqları çimizdirib, dərilərində olan səpgiləri aradan qaldırırlar. Qarağatın yarpaqlarından hazırlanan dəmləmələrlə Fransada dərinin tonusunun artırılmasında, Polşada dəri xəstəliklərində, Tibet təbabətində dia- tez ə dəri səpgilərində, Çexoslovakiyada ətirli vannalarından maddələr mübadiləsinin nizama salınmasında, dəridə olan səpgilərin aradan götürülməsində istifadə edilir. Qarağatın meyvələrinin rəngi üç cür-ağ, qara və qırmızı olur.

Qırmızı meyvəli qarağat ən çox Quba, Xaçmaz, Dəvəçi və Qusar rayonlarının ərazilərində yayılıblar. Qara qarağat kolları isə Quba rayonunun Yelenovka, İqriq, Mirzəməmmədkənd, Alek- seyevka, Amsar, Nügədi kəndlərində kifayət qədər əkilib becərilir. Qarağatdan yüksək keyfiyyətli mürəbbə və şəkər tozu ilə basdırılmış ətirli tutma (qarışıq) cem, kompot, konfetici, çaxır, likyor, spirtsiz içkilər, təbii rənglər və s. hazırlanır. Bu mürəbbə və tutmanı uzun müddət saxlamaq mümkündür.

Ən çox vitaminli meyvə hesab edilən antonovka almasının 180 qramında 30 mq/% vitamini olduğu halda, qırmızı qarağatda 40, qara qarağatda isə 78-80 mq-dır.

Qara və qırmızı qarağat kolları Quba-Xaçmaz zonasının torpaq və iqlim şəraitində yaxşı inkişaf edir. Bu bitkinin kollarını çoxaltmaq üçün erkən yazda tumurcuqlarının yatmış vaxtında əkirlər. Əkin materialı 30-40 sm uzunluğunda bioloji cəhətdən sağlam olan ikiillik, orta yoğunluqda 2-3 köklü pöhrələr koldan ayrılır. Əkin materialı 45-60 dərəcə bucaq altında yanı üstə xəndəyə- nəm torpağa basdırıb 2-3 gün orada saxlanılır. Həmin kolların uc hissəsindən 8-10 sm kəsib sonra daim yerinə əkilməlidir.

Əkindən əvvəl pöhrələrin kökləri təzə peyin və hümuslu (çürüntülü) torpağın qarışığından hazırlanmış horrada 5-6 saat müd

dətində saxlanılır, sonra, bu əkinə materialı cərgəarası 1,2-1,5 metr, bitkilərarası isə 80-90 olmaqla əkilir. Əkin zamanı pöhrələri torpaqdan çıxarıldığı səviyyədə torpağa basdırılır. Geniş miqyasda qarağat əkini salmaq üçün əkin materialı bir il əvvəl hazırlanır. Bunun üçün tinklik yaradılır. Sonra əsas kolda olan birillik zoğlardan 20-25 sm uzunluğunda qələmlər kəsilir. Hər qələmin üzərində 7-8 ədəd sağlam tumurcuq olmalıdır.Qələmləri bir-birindən 20 sm aralı, nisbətən maili vəziyyətdə və cərgə ilə basdırmaq lazımdır. Qələmlərin üzərindəki tumurcuqların ikisi-üçü torpağın üstündə qalmalıdır. Hər hektar qarağat sahəsində təsiredi- ci maddə hesabı ilə 60 kq azot, 90 kq fosfor, 40 ton çürümüş peyində qarışdırılıb verilir. Qarağat əkinləri hər il 3-4 dəfə suvarılmalıdır.

Kollar üç ildən bir budanır. Budama aparılarkən kolların üzərində 1-3 yaşlı 10-15 ədəd sağlam zoğ saxlanılır. Qocalmış və az meyvə verən zoğlar kəsilib atılır.

Hər kol əkildiyi birinci ildə 500-600 qram, ikinci ildə 2,5-3 kq, üçüncü-dördüncü illərdə 8-10 kq-a qədər meyvə verir. Bitdyiyi ekoloji şəraitdən asılı olaraq hər bir hektar sahədən 50-300 kq-a qədər meyvə toplamaq olar. Bəzən hər hektar sahədən 1850- 2020 kq-a qədər meyvə toplamaq mümkündür. Qarağat bəzək bağçılığı üçün də qiymətli kol bitksisidir. Əhalinin mənalı istirahətə olan ehtiyacını təmin etmək üçün yaşıllaşdırmanı da meyvəçilik təmayülündə inkişaf etdirmək lazımdır. Çünki meyvə və giləmeyvə bitkilərinin əkilməsi həm iqtisadi, həm də estetik cəzət- dən faydalıdır.

# *FİRƏNG ÜZÜMÜ (RUS ALÇASI)-GROSSULARIA*

Daşdələnkimilər-Saxifragaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində firəng üzümünün-rus alçasının (buna çox yerdə rus alqısı da deyirlər), 50-yə qədər növü yayılmışdır. Bu növlərə ən çox Şimali Amerika, Avropa, Asiya və Afrika ölkələrində rast gəlmək olar. Firəng üzümü cinsinin I növünə Avropada, 3 növünə Asiyada, 46 növnə isə Şimali Amerikada rast gəlmək olar. Bir çox ölkələrdə isə məsələn, İngiltərə, Hollandiya, Belçika, Fransa və s. ölkələrdə mədəni halda əkilib becərilir. Firəng üzümü mədəni bitkilər içərsində ən cavanı hesab edilir. Belə ki, bunun mədəni və yabanı növləri haqqında elmi məlumatlara nə də yunan da roma əlyazmalarında rast gəlmək olmur. Firəng üzümü haqqında elmə ilk məlumatı 1536-cı ildə fransız həkimi Ryueləm vermişdir. Firəng üzümü rusiyada ilk dəfə XI əsrdə monastr bağlarında əkilmişdir.

Hal-hazırda rus alçasından 100-ə qədər müxtəlif meyvə sortları əldə olunmuşdur. Amerikada isə rus alçasının-G.vulgaris növünü çarpazlaşdırma üsulu ilə az tikanlı növ-G.hirtella itburnuya oxşar-C.cynos və Missuriya-G.nissourensis əldə edilmişdir.

Firəng üzümü və yaxud rus alçası-Grossularia reclinata alçaqboylu çoxillik koldur. Zoğlarının buğumaları tikanlarla əhatə olunmuşdur. Yarpaqları 3-5 barmaqvari bölünmüş çılpaq və yaxud yumuşaq tüklə örtülmüşdür. Çiçək qrupu 1-3 çiçəkdən ibarət olub, salxımda toplanmışdır. Çiçəkləri ikievli, xırda, yaşımtıl və yaxud qırmızımtıldır. 5 ədəd erkəcikdən və 1 ədəd dişicikdən ibarətdir, əksər sotları öz-özünə tozlanandır. Çarpaz üsulla tozla- nanları məhsuldar olur. Arılar vasitəsilə tozlanır. Meyvəsi yalançı giləmeyvə olub, dairəvi və yaxud uzunsov olub, ağ, sarı, yaşıl, qarmız, tün qırmızı və yaxud qara rəngindədir. Meyvəsinin içəri

sində çoxlu toxumu olur.

Azərbaycanda rus alçası, yabanı halda Quba və Füzuli rayonlarında-orta və yuxarı dağ qurşaqlarındakı kolluqlarda, daşiq və qayalıqlarda rast gəlinir.

Firəng üzümü müntəzəm bar verməsi və meyvəsinin daşınmağa davamlı olması ilə fərqlənir. Firəng üzümünün tez məhsula düşməsi onun ən qiymətli xassələrindən biridir.

Müalicə məqədilə meyvələrindən istifadə edilir. Meyvələrində bir sıra müalicə əhəmiyyətli maddələr müəyyən edilmişdir. Belə ki, tərkibindən 150-200 mq% s, 10-16% karotin, B və A vitaminləri 6-12%-ə qədər şəkərli maddələr, 0,4-2% üzvi turşular, 0,88% pektin, flavanoid, boyaq, aşı və s. maddələrlə yanaşı dəmir, mis, fosfor və s. makro və mikroelementləri də aşkar edilmişdir.

Rus alçasının meyvələri qiymətli dietik maddə sayılır. Onları vitaminozlarda, dəmir, mis və fosfor çatışmamazlığında, maddələr mübadiləsinin pozğunluğunda işlədirlər. Bundan başqa ödqo- vucu və sidikqovucu kimi də istifadə edirlər.

Xalq təbabətində təzə toplanmış meyvələrinin şirəsindən xroniki qəbizlikdə yüngül işlətmə dərmanı kimi istifadə edilir. O, böyrəklərdə daş yığılan zaman daşsalıcı və sidikqovucu kimi işlədilir. Yarpaqlarından hazırlanmış dəmləmə vərəm xəstəliyində içilir. Bundan əlavə meyvələrindən şəkər xəstəliyində qan azlığında, qəbizlikdə, piylənmədə, mədə-bağırsaq xəstəliklərinə qarşı işlədilir.

Kosmetikada isə meyvəsini əzib, sıyığını hazırlayıb, qaymaq və azca xamaya qatıb yaxma kimi sifətə sürtüb 10-15 dəqiqə saxladıqdan sonra yuyub təmizləyirlər. Bu zaman üzün sifəti parlaq elastiki və təravətli olur.

Yetişməmiş meyvələri ilə dəridə əmələ gələn ziyil, çiban, piqment ləkələrinin yox edilməsində işlədilir. Yarpaqlarından hazırlanan cövhərlə tükün dibini möhkəmləndirirlər.

Firəng üzümü çox məhsuldar bitkidir. Bar verməyə əkindən 2-

3 il sonra başlayır, tam məhsuldarlığa 5-6-cı ildə düşür və 12-15 il davam edir. Əlverişli iqlim şəraitində 20-25 il məhsul verir. Hər hektardan 110-200 sentnerə qədər məhsul verir.

Firəng üzümü qarağata nisbətən quraqlığa davamlıdır. İldə 500-600 mm yağıntısı olan rayonlarda suvarılmadan bol məhsul verir, kölgəlik sevmir, normal rütubətli orta dərəcədə mexaniki tərkibli torpaqlarda yaxşı bitir. Meyvəsinin və vegetetiv orqanlarının yerləşməsinə görə firəng üzümü qırmızı və ağ qarağata oxşayır. Firəng üzümünün 1-2 və 3 illlik zoğları bar verir.

Ən bol məhsuldar zoğlar 3 illikdən yuxarı yaşlı budaqlarda yerləşir. Çiçəkləməsi 3-12 gün davam edir.

Firəng üzümü kolu bölüb ayırma və yaşıl çilik əkm əüsulları ilə çoxaldılır. Əkin materialı becərmək üçün ən yüksək məhsulu kollar seçilir və qara qarağatda olduğu kimi, zoğlar üfiqi vəziyyətdə torpağa basdırılır. Bu zoğlar kök atdıqdan sonra payızda qazılıb çaxırılır. Yaxşı inkişaf etmiş çoxlu saçaqlı kökkü olan tinglər plantasiyaya əkilir, zəifləri isə böyüməkdən ötrü xüsusi ləklərə əkilir və lazımi qulluq edilir. İkiillik tinglilər keyfiyyətli əkin materialları sayılır.

# ÇİN LİMONU-SCHIZANDRA

Limonnik-Schisandraceae fəsiləsindəndir. Dünya florasının tərkibində çin limonunun 25 növü yayılmışdır. Bunlar sarmaşan formada olub, Asiya və Şimali Amerikanın tropik və subtropik ölkələrində yayılmışdır. Qafqazda o cümlədən də Azərbaycanda 1 növü yayılmışdır.

Çin limonu-S.chinensis. Bu, gödəsinin uzunluğu 8-10 m, eni isə 2-4 sm olan oduncaqlı, yarpaqları tökülən sarmaşan birevli çoxillik bitkidir. Saat əqrəbi istiqamətində spiralvari olub, təbii dayaq kimi ağac və kolları asanlıqla qucaqlayıb dırmaşır. Zoğları asanlıqla əyilən elastiki olub qırılmayandır. Yaşlı limonkimilərin qabığı tünd qəhvəyi rəngli olduğu halda, cavanlarınkı isə hamar və parlaqdır.

Yarpaqları növbəli parlaq-yaşıl rəngdə, uzunluğu 10 sm eni isə 5 sm olub, ellepisvarı və yaxud enlilansetvari, saplağı çəhrayı qırmızımtıldır. Erkək və dişi çiçəkləri çiçək saplağından uzundur, ağ rəngli xoşagələn iyə malikdir. Dişi çiçəkləri silindirvari, çiçəkyatağından, çoxlu ikievli dişicikdən ibarətdir. Meyvə-formalaşan zaman çiçək saplağının uzunluğu 20-30 dəfə artır, hər bir çiçək inkişaf edərək giləmeyvə əmələ gətirir. Meyvə yığımı bir- birləri ilə yapışmış halda sünbülvari sallaq meyvə əmələ gətirir. Meyvələri qırmızı rəngli şarvaridir. Çin limonunu may-iyun aylarında çiçək açır, sentyabr-oktyabr aylarında meyvə verir. Bir hektar sahədən 300-1600 kq giləmeyvə məhsulu toplamaq olar.

Meyvəsinin tərkibində çoxlu miqdar üzvü turşulardan: 11%-ə qədər limon turşusu, 8% alma, 0,8% çaxır, kəhraba turşusu, tonusartırıcı maddələrdən xisandrin-C23 N32 07, sxizandrol-C21 N28 07 1,5% şəkər, A, B, S, D, Ğ, S, E, P vitaminləri, tanin və boyaq maddələri liqnan, qolizin və s. maddələr tapılmışdır.

Meyvəsinin tərkibində 3,54% kül, 19,20 mq%-k, 0,70%-Ca, 1,70 mq%-Md, 0,06 mq% Se makroelementləri və 0,22 mq%-Mn, 0,10 mq%-Si, 0,13 mq%-Zn, 0,01 mq%-Cr, 0,04 mq%-Sr, 0,02 mq%-Al, 31,05 mq%-Va, 33,30 mq% 0,33mq%-Ni, 0,03 mq%-pb, 0,09 mq%-I,020 mq%-B mikroelementləri tapılmışdır.

Çin limonu qədimdən tibet və çin təbabətində 1596-cı ildən

başlayaraq müalicə məqsədləri üçün istifadə edilmişdir. V əsrdə çində bu bitkidən tonus artırıcı və ödqovucu vasitə kimi işlədilmişdir. Çin farmakologiyasında qeyd edilir ki, bu bitkidən hazırlanan preparatlardan yorğunluğun aradan qaldırılmasında, orqanizm qüwətləndirilməsində geniş istifadə edilmişdir. Uzaq şərqdə yaşayan xalqlar arasında bu bitkinin müqavimətartırıcı, yorğunluğu aradan qaldırıcı xüsusiyyətləri çoxdan məlum idi. 1895- ci ildə akademik B.L.Kamarov yerli ovçulara söyləmişdir ki, uzaq və keçilməsi çətin olan dağ cığırları ilə hərəkət etməkdə bu bitkinin şirəsi onlara çox köməklik etdiyini dönə-dönə qeyd etmişdir. Bunun meyvəsindən hazırlanan şirədən içdikdə uzun müddət susuzluq və aclığın nə olduğunu bilmirsən. Bitkinin şirəsi gözün görmə qabiliyyətini artırılmasında böyük rol oynayır. Buna görə müharibə zamanı gecə uçuşu keçirən təyyarəçilərə çin limonu yedizdirmişlər. Müharibə zamanı aparılan tibbi təcrübələrdən limon şirəsinin orqanizmin müqavimətinin artırılmasında, ürək və tənəffüs üzvülərinin fəaliyyətinin gücləndirilməsində, əsəb sisteminin sakitləşdirilməsində, fiziki əmək qabiliyyətinin yüksəldilməsində böyük əhəmiyyəti olduğu təsdiq edilmişdir. Hal-hazırda toxumunun tozundan, meyvə şirəsindən qastrit və mədə yaralarının müalicəsində geniş istifadə edilir. Qırmızı rəngli meyvəsindən bir sıra müalicəvi içki növləri hazırlanır. Çin limonun meyvəsi qanazlığında, avitaminozunda, fiziki və zehni yorğunluqlarında çox faydalıdır. Meyvəsindən hazırlanan şirədən ən çox xizək sürmə zamanı əmələ gələn kəskin yorğunluğu aradan qaldırılmasında geniş istifadə edilir.

Meyvəsindən alınan efir yağından krem və losyonlar hazırlayıb, dəridə baş verən bir sıra xəstəliklərin müalicəsində işlədilir. Meyvəsindən vitaminlərlə zəngin mürəbbə, cem, kisel, ətirli spirtsiz içkilərdə istehsal olunur. Çin limonunun toplanması çox asandır. Belə ki, bir fəhlə gün ərzində 50 kq-a qədər meyvə toplaya bilər. Meyvə tam yetişəndə bitkiyə xəta toxundurmadan salxımı ehtiyatla kəsib götürürlər. Yığılmış təzə giləmeyvələri kağız üzərinə nazik sərib mehvuran gölkə yerlərdə 3-4 gün müddətində qurudurlar. Sonra meyvəni çiçək saplağından ayırıb, kətan kisələrə doldurub havası daim dəyişilən quru anbarlarda saxlayırlar.

# HEYVA-CUDONIA

Gülçiçəklilər-Rosaceae fəsiləsindəndir. Dünya florasının, eləcə də Azərbaycan florasının tərkibində heyvanın ancaq 1 növü-C.oblonga yayılmışdır.

Adi heyva-C.oblonga hündürlüyü 1,5-7 (8) metrə qədər olan ağac və ya koldur. Adı heyvanın meyvəsinin qurluşuna, tamına, böyüklüyünə, yetişmə dövrünə və ağacın morfoloji əlamətlərinə görə bir çox forması mövcuddur. Bunlardan iri və xırda, tez və gec yetişən, bərk və yumşaq, almavarı və armudvarı meyvəli, turş və turşməzə tamlı, sıx və seyrək çətirli formalarını göstərmək olar.

Yabanı bitən adi heyvanın yarpaqları mədəni heyvaya nisbətən xırda, tükcüklü və qısa saplaqlıdır. Yarpaqları yumurtavari və yaxud girdəvari kənarları bütöv, yuxarı hissəsi çılpaq, aşağı hissəsi bozumtul-keçəvaridir. Çiçəkləri tək halda olub, solqun-çəh- rayı rəngli qısa tüklə örtülən çiçək saplağından ibarət olub, yarpaqdan sonra açılır. Çarpaz tozlanır. Erkəkciyi 15-25, dişiciyi təkdir. Aprel-may aylarında çiçəkləyir, meyvəsi sentyabr-noyabr aylarında yetişir. Yetişmiş meyvələri limonu-sarı, sarı-kəhraba rəngdə olur və özünə məxsus gözəl ətiri vardır. Bitmə şəraitdən və forma müxtəlifliyindən asılı olaraq meyvəsinin ağırlığı 50-200 (500) q-dır. Mədəni sortlarında (qış heyvasında) bir ədəd meyvənin ağırlığı bəzən 3 və (heyva sortlarını Çin heyvası ilə hibləşdir- dikdə) 4 kq olur. Toxumları qırmızı-qəhvəyi rəngli tərsinə yumurtavari, düzgünolmayan küncvari olub, qabığının üst hissəsi çoxlu selik maddəsi ilə əhatə olunmuşdur.

Normal inkişaf etmiş ağacda 10-120 ədəd meyvə olur. Heyva yabanı halda Böyük Qafqazda Samur-Dəvəçi düzənliyindən və Alazan-Əyriçay vadisindən başlayaraq dəniz səviyyəsindən 750 metr yüksəkliyə qədər kolluqların içərisində 1250 hektar sahedo tək-tək və ya kiçik qrup halında yayılmışdır. (Əsədov, 1981)

Respublikamızın ərazisində yabanı heyva çox geniş yayılmış dır. Ona ən çox Lənkəran ovalığında, aşağı, bəzən isə dağlıq /o nalarında ən çox rast gəlmək olur. Heyva tək-tək və ya qrup hu lında tarlalarda, meşəaltı kimi aşağı sıxılıqlı meşələrdə, bir qıy da olaraq, başqa kollarla qarışıq halda bitir.

Buna çay və göllərin sahələrində də rast gəlmək olur. Münbit torpaqlarda yaxşı bitir və bol məhsul verir. Heyva hal-hazırda həyətyanı sahələrdə geniş surətdə əkilib artırılır. Ordubad şirini, Ordubad turşusu, qara heyva və atbaşı, qış heyvası, daş neyva və s. ən çox yayılmış sotlardır.

Alimlər arasında adi heyvanın mənşəyi haqqında müxtəlif fikirlər irəli s.ürülür.

Heyva On və Kiçik Asiya, Qayqaz, İran, Ərəbistan və Orta Asiya ərazilərində yayılmışdır. Mədəni heyvanın vətəni Qafqaz olub, oradan da Kiçik Asiya, ölkələrinə yayılmışdır. Yunanıstana heyva Romadan gətirilmişdir. Yunanlar heyvanı çox qiymətləndirmiş və onu xoşbəxtlik, məhəbbət və bolluq rəmzi adlandırmışlar. Heyva bizim eradan qabaq XII əsrdə yunanlara yaxşı məlum idi. Yunanlar ilk dəfə heyvanı "melon gidonian" adlandırmışlar. Elə oradan da bunun elmi adı yəni latınca adı "Kidoniya", Krit adasında yerləşən Kidon şəhərinin şərəfinə bu adı heyvaya vermişlər. Heyvanın meyvələrinin dadı və gözəlliyi xoşlarına gəldiyi üçün yunanlılar ona öz şəhərləri "Gidonıyanın adını vermişlər.

Tarixi məlumata görə, qədim yunanlarda belə bir adət varmış ki, qızlarının xeyir işində daha doğrusu, qızlarını köçürən məqamda onlara heyva yedirdərmişlər ki, "Äfrodit" kimi sevgidə xoşbəxt olsunlar.

Yeyinti və tibb sahəsində ən çox becərilən heyvadan istifadə olunur. Heyvanın toxumunda və meyvəsində 20%-ə qədər selikli maddə, 0,53% amiqdalin qlyukozıdi, 18-20% piyli yağ, 1,06% qatran, meyvəsinin tərkibindən 8,75-12,60 şəkər, ondun da 5,97- 9,28% fruktoza, 2,77-3,31% qlyukoza və 1,16-2,58% saxaroza təşkil edir: 0,85-2%-ə qədər alma, limon, çaxır turşusu, 0,33% pektin, 0,42-0,66% aşı maddəsi, 20 mq% S vitamini, 1-2 %-ə qədər qətran, 8,2% karotin, 13%-ə qədər kül maddəsi, qabığındakı ətirli iyi olan etil və pelarqon-etil efirlərinin olması ilə əlaqədardır. Bundan əlavə 30 mq/kq Fe, 1,4 mq/kq-Cu və s. maddələr tapılmışdır.

Heyva yarpaqlarının tərkibində 0,03% alkoloidlər, 0,28% amiqdalin qlikozidi, 7,3% selikli maddələr, 4,6% piy yağ, 1,28 qətran, 1,47% alma, limon, çaxır turşuları, 118,2 mq% askorbin turşusu, karotin, cüzi miqdarda K vitamini müəyyən edilmişdir.

Yarpaqları farmokloji cəhətdən də öyrənilmişdir. Belə ki, heyvanın qurudulmuş yarpaqlarından sulu dəmləmə, tinktura və

spirtli dru okstrakt hazırlanmış və eksperimental təcrübə bu preparatların urək-damar sisteminə müsbət təsir göstərdiyi müəyyən edilmişdir. Heyva yarpaqlarının dəmləməsi bronxial astmaaa çox gözəl müalicəvi təsir göstərir.

Heyvanın toxumları soyuqdəymələrdən baş verən tənəffüs yollarının iltihabında, bronxıtlərdə sinəyumşaldıcı, intibah götürü- cü, maddə kimi, eləcə də xroniki mədə-bagırsaq xəstəliklərində, mədə yarasında, mədənin selikli qişasını yumşaltmaq, yaranı sa- xaltmaq üçün daxilə qəbul edilir.

Heyvanın meyvəsindən, toxumundan və yarpaqlarından xalq təbabətində çox qədimdən istifadə edilir. Yarpaqlarından və cavan budaqlarından çay dəmləyib ürək ağrısında sakitləşdirici və qan təzyiqini azaldıcı vasitə kimi içirlər. Meyvəsindən hazırlanmış mürəbbə ürək zəifliyində qüvvətverici kimi məsləhət görülür.

Qəbələ rayonunda heyva ağacının gövdə və qol-budaqlarının qabıqlarını qurudur, çay kimi dəmləyərək quru öskürəyə qarşı içirlər.

Lənkəran rayonunda heyvadan “heyvarub” adlı mürəbbə hazırlayıb, soyuqdəymədən baş verən xəstəliklərdə işlədirlər. Salyan rayonunda mürəbbə hazırlayıb, zəiflikdə və qanazlığında qüvvətverici vasitə kimi qəbul edirlər.

Naxçıvan MR-in Şahbuz, Ordubad rayonlarında isə çiçəyindən çay dəmləyib öskürək və soyuqdəymə xəstəliklərində içirlər. Azərbaycanın əksər rayonlarında heyva ağacının yarpaqlarından hazırlanmış çayı şirinləşdirib uşaqlarda tez-tez baş verən qarın ağrılarında, ishalda, eləcə də qusmalarda onlara içirirlər.

Əksər yerlərdə təzə yarpaqlarını dərib, dolma bükürlər.

Toxuculuq sənayesində se ikdən parçaları parıldatmaq işində istifadə edilir. Toxumunda o an selik maddəsindən Fransada bərbərxanalarda və kosmetika sahəsində işlədirlər. Selikdən hazırlanmış emulsiyalardan dəridə əmələ gələn ekzema, qaşınma, gicişmələrin müalicəsində istifadə edilir. Heyvanın meyvəsi bü züşdürücü olduğundan ondan dəridə, dodaqda əmələ gələn çat maların müalicəsində sürtkü kimi istifadə edilir. Bir çox ölkələrdə isə selik maddəsini kremlərin tərkibinə daxil edib, göz xəstəliklə rində istifadə edilir. Meyvəsindən sifətə təravət və elaktikllk voı mək üçün istifadə edilir. Yarpaqlarının qatı məhlulunu saçıı sm tüb, onu açıq qızılı rəngə boyamaq olar.

# *ALMA-MALUS*

Dünya florasının tərkibində almanın 30-50-yə qədər növü yayılmışdır. Qafqazda, o cümlədən də Azərbaycanda 2 növünə rast gəlinir. Bunlardan Şərq almasını-M.orientalis və ev alması-M.domestica növlərini göstərə bilərik. Bunlardan ən geniş yayılanı şərq almasıdır. Şərq alması-M.orientalis kol və ağac formasında olub hündürlüyü 6-8 m və bəzən 18 m-ə çatır. Enli, çadırvari çətirlidir. Yaşlı ağaclarda gövdə qabıqları boz rəngdədir. Cavan budaqları bəzən tikanlı, az və ya çox tüklüdür: sonralar çılpaqlaşır. Qabığı tünd qəhvəyi, köhnə budaqların qabığı isə tünd boz və ya tünd qonur, parlaq olub, pulcuqlar şəkilində qopur. Yarpaqları yumurtavarı lanset formalı və ya enli ovalşəkillidir. Çiçək qrupu 4- 6 çiçəkdən ibarətdir. Çiçək sapları saçaqlı, keçətüklüdür. Meyvələri müxtəlif formada olub, əksərən dəyirmi, diametri 2-3 sm-dir. Ekoloji şəraitdən asılı olaraq, aprel-may aylarında çiçəkləyir, meyvəsi isə avqust-oktyabr aylarında yetişir. Meyvəsi iri, ətirli və şirəlidir. Qrup halında rast gələn kolların və çıxlıqda bitən ağacların meyvəsi xırda, açıqlıqda tək-tək bitən ağacların meyvəsi isə bir qədər iri olur. Yetişmiş meyvələrin çox müxtəlif sarı, göyümtül, qırmızı, qırmızımtıl-ağ, qırmızı zolaqlı və ağımtıl sarı rəngdə olur. Şərq alması meyvələrinin dadı öz şirin, turşməzə və əksər hallarda acı tamlı olur. Bəzən elə acı tamlı meyvəyə təsadüf edilir ki, acılığından yemək belə mümkün olmur. Belə almalar qurudulub qax halına salındıqda acılığı bir qədər azalır və yeməli olur. Şərq alması Azərbaycanın bütün meşə rayonlarında geniş yayılmışdır. Azərbaycanın bir sıra rayonlarında çırtdan alma adı ilə buna rast gəlinir.

Naxçıvan MR-də rast gəlinən cırtdan alma diqqəti daha çox cəlb edir. O, çoxlu miqdarda iri və dadlı meyvə məhsulu verir.

Şərq almasının tərkibindən 2,42%-ə qədər alma, çaxır, limon, xolraqen və arabin turşuları, 12%-ə qədər şəkər maddələri, pek- tin, aşı və boyaq maddələri, 64,2 mq% S vitamini, karotin, B-> B12 və Bs vitaminləri dəmir və fosfor makroelementləri, marqans, mis, kalium mikroemenetləri, efir yağı, qabıq hissəsindən flavo- nid maddələri, toxumundan 0,6% amiqdalin qlyokozidi, 15%-ə qədər piyli yağ aşkar edilmişdir.

Ywylnlı mifi|hiHİIorı üçün şərq almasının meyvələrindən geniş İKİllmh) olunur Şorq almasının bəzi formalarının meyvələri şirin-lolmı vo IJIM vllaminlidir. Meyvələrindən kompot, cem, povidlo, pıınlll, |olu, marmelad, kvas, şirə, kisel və sərinləşdirici içki, şərtili vo n yoylnti məhsulları hazırlanır. Qalan tullantılarından isə slrko luı/ııLınır. Şərq almasının meyvələri alma turşusunun dəmir ılıı/ııııun estraktını hazırlamaq üçün yaxşı xammaldır. Bu eknlhıklıı lobabətdə böyük əhəmiyyəti vardır, ondan qanazlığı vo UIIK.O do xloroze xəstəliyinin müalicəsində istifadə edilir.

Alnın meyvəsi həzm sistemini möhkəmləndirir. Xroniki ishalı, kot.kln onterit xəsiəliklərinin müalicə olunmasında işlədilir. Almanın vo oncdan hazırlanan müxtəlif konserv məhsullarının ürək zəifliyinə, qanazlığına, xroniki mədə-bağırsaq xəstəliklərinə, eləcə do vitamin azlığına çox yaxşı müalicəvi təsiri olur. Almadan ən çox xroniki qəbizlikdə istifadə edilir.

Alma meyvəsi təzə və quru (qax) halda yeyilir və uzun müddət saxlanılır. Almanı qurutmaq üçün onu doğrayıb, qaralmasın deyə duzlu suya töküb bir 10-15 dəqiqə saxlayırlar. Sonra duzlu suyu süzüb, sərib qurudur, uzun müddət saxlamaq üçün şüşə qablara doldurub, sərin və qaranlıq yerdə saxlayırlar.

Almadan kosmetika sahəsində çox qədim zamanlardan itifa- də edilir. Belə ki, süzgəcdən keçirilmiş almanı piylə qarışdırıb alınan kosmetik yağdan dəridə olan yaraların, dodaq çatlarının müalicəsində geniş istifadə edilir. Alma sıyığından dəridə baç verən soyuqdəymələrin aradan qaldırılmasında işlədilir. Almadım isti yaxma kimi də istifadə edilir. Belə ki, süzgəcdən keçirilmiş sıyığı 25-30 temperaturda qızdırıb üzün dərisinə yaxıb 15 ;'(> do qiqə saxladıqdan sonra yuyub təmizləyirlər. Bu zaman uil*»Il»ı rəngi şəfəqlənir (durulur) elastikliyi artır.

Kosmetoloqlar təzə almadan dəridə olan zillin fııfMllı o»lh geniş istifadə edirlər. Belə ki, təzə yabanı almımı dilimj edib, dərinin ziyil olan hissəsinin üzərinə qoyur (lilli əmll prosesi 6-7 dəfə təkrar etməklə müalicəni 3 *4* lıoll« dayj məyi məsləhət görürlər. Yarpaqlarından alman «lərllı bərkidilməsində istifadə edirlər. Almanın yai|iHi|lHtm lanmış dəmləmələrdən başı yuduqdan noııoı y»mi aul I dibini bərkitmək üçün sürtürlər

# QUŞARMÜDU-SORBUS

Dünya florasının tərkibində 90-a qədər növünə rast gəlmək olar. Bu cinsin Qayqazda 18, o cümlədən Azərbaycanda 14 növü yayılmışdır. Rus xalqı quşarmudu ailə xoşbəxtliyi və sevgi rəmzi kimi sevib qoruyurlar. Buna görə də hər bir təzə ailə quran gənclər evlərinin qabağında xoşbəxtlik rəmzi olan quşarmudu əkirlər. Orta əsrdə Avropa xalqları bir çox qorxunc xəstəliklərdən özlərini qorumaq üçün quşarmuduna ilahi bir qüvvə kimi səcdə edirmişlər. Quşarmudu qiymətli dərman, qida və bəzək bitkisidir. Bunlardan ən qiymətlisi aşağıdakılardır. Qafqaz quşarmudu- S.auciparia hündürlüyü 6-8, bəzən 15 metrə çatan dağınıq çətirli bitkidir. Diametri 40 sm-ə qədər olan uca koldur. Yarpaqları tək- ləlәkvari (11) 13-15 (19) yarpaqcıqdan ibarətdir. Çiçək qrupu çoxçiçəkli, qalxanvaridir. Çiçəkləri ağ rəngdə olur. May-iyun aylarında çiçək açır, avqust-sentyabrda meyvə verir, meyvələri qışda ağacların üzərində qalıb quşların yemini təşkil edir.

Qafqaz quşarmudu Azərbaycanın Quba rayonunun ərazisində və eləcə də yuxarı dağ meşə qurşağında yayılmışdır. Meşələrin kənarlarında, tarlalarda və fıstıq meşələrində rast gəlinir. Tək- tək və qrupla bitir. Quşarmudunun yetmiş meyvəsindən istifadə edilir. Meyvəsinin tərkibində 20 mq% & və B karotinodləri və onların törəmələri olan violaksantin, auroxrom, zeaksantin, lyutein, S, P, B2 E vitaminləri, kversetirin, izokversitirin, meratin, rutin, kversetin, hiperozid-3-qalaktozid və 3-arabinozid sianadin, 3,5-diqlyukozid-sianadin, leykosianidin flavanoidləri, epikatexqallat, epiqallokatexin, epiqallokatexinqallat ursol və oleanol turşuları, aşı maddələri fenolkarbon turşusu, kofeyin, xloroqen, kumarin 1,9-3,9% alma, limon, çaxır, sorbin turşuları, 5,1-7,5%-ə qədər qlyukoza, sorboza, sorbit, mannit, toxumlarından amiqdalin qli- kozidi, 22%-ə qədər piyli yağ və s. tapılmışdır.

Bundan əlavə meyvələrinin tərkibində 3,23%-ə qədər kül maddəsi, 16,50 mq/q-K, 2,20-Ca, 1,00-Mg, 0,04-Fe makroele-mentləri, 81,70 mkq/q-Mp, 4,96-Cu, 8,65 Zn, 0,08-Co, 0,16-Cr, 26,96-Al, 18,32-Ba, 0,80-V, 0,14-Se, 4,40-Sr, 1,04-rb, 4,80-B

1,04-Nİ, mikroelementləri tapılmışdır.

Qədim yunan və roma həkimləri quşarmudu meyvələrindən dezinfeksiyaedici, sidikqovucu, öskürək və s. sahələrdə istifadə etmişlər.

Uzun illər quşarmudunun dizinfeksiya edici xüsusiyyətlərindən istifadə edib, suyun uzun müddət içmək üçün yararlı hala salınması üçün onun içərisinə kiçik quşarmudu budağı salarmışlar. Bu zaman su xoş ətirli və uzun müddət içməli xüsusiyyətini saxlayarmış.

Rus xalqı quşarmudunun meyvələrini şaxta vurduqdan sonra yığıb qurudar, narın un halına salıb, şəkər və balla qarışdırıb şirinthər sıyıq xörəklər bişirirlər. Bundan başqa ununa şəkər və bal əlavə edib xamır hazırlayıb, şirin çəkə, fəsəli, qoğal və s. bişirib süfräni bəzəyirlər.

Ukrayna xalqı meyvəsindən pasta, mürəbbə, cem, şirə, kompot və s. hazırlayır, şəkər tozuna qarışdırıb ləzzətlə yeyirlər.

Elmi təbabətdə quşarmudunun təzə yığılmış meyvəsindən hazırlanan şirələrdən sidikqovucu, böyrək xəstəliklərində, hiperto- niya və daxili qanaxmaların dayandırılmasında istifadə edilir. Quşarmudunun çiçəklərindən hazırlanan cövhərlərdən isə böyrək, qalxanvari vəzin, öskürək, meyvəsindən ürək, mədə turşulu- ğunun normal hala salınmasında, hemoredə babasildə işlədilir. Meyvəsindən hazırlanan çaylardan isə sinqa xəstəliklərində istifadə edilir.

Quşarmudunun meyvələrinin tərkibində çoxlu miqdar karoti- noid maddələri olduğundan kosmetika sahəsində ondan geniş istifadə edilir. Meyvəsini əzib vitaminli kütlə hazırlayıb sifətə yaxıb ləkələrin, səpkilərin, gicişmələri müalicə edirlər. Meyvələrini sentyabr-oktyabr aylarında aşağı budaqlardan tikanları ilə birlikdə budaqlara ziyan vurmadan toplayırlar. Toplanmış meyvələri səbət, vedrə və kağız təlislərə doldurub xammal kimi müəssisələrə göndəril ir.

Meyvələri qurutmaqdan qabaq sortlara ayırır, kənar qatışıqlardan təmizləyir, sonra xüsusi qurucu şkaflarda 60-80 dərəcə temperaturda qurudurlar. Qurudulmuş meyvələr öz keyfiyyətlərini 1 ilə qədər saxlayır.

# BÖYÜRTKƏN-RUBUS

Dünya florasının tərkibində 250-ə qədər növü yayılmışdır. Bu növlər kol və çoxillik ot bitkilərdir. Azərbaycan florasının tərkibində böyürtkən cinsinin 15 növünə rast gəlmək olar. Böyürtkən ya- rımkol, çoxillik giləmeyvəli bitkidir. Yabanı halda Asiya, Avropa və Amerika qitəsində geniş yayılmışdır. Azərbaycanın bütün zonalarında böyürtkən kolluqlarına rast gəlinir.

Böyürtkən bitkisi moruğa nisbətən çox gec (XIX əsrdə) mədəniləşdirilmişdir. Mədəni halda ən geniş Amerikada, Avropada isə az yayılmışdır. Böyürtkən kollarının formasına görə iki qrupa bölünür: dikduran və dağınıq kollar. Böyürtkənin yerüstü hissəsini birillik və ikiillik zoğları təşkil edir, yeraltı hissəsinin (köklərinin) ömrü uzun olur. Onlar çox qüvvətli olduğundan torpağın dərin qatlarına gedir və quraqlığa davamlıdır. Meyvəsi forma etibarilə uzunsov və konusvari, rənginə görə qırmızı, qara, al-qırmızı və sarı olur. Böyürtkən Azərbaycanın ən qədim giləmeyvəli bitkilərindən olmasına baxmayaraq bu vaxta qədər ətraflı öyrənilməmiş və sənaye əhəmiyyəti olan məhsuldar formaları seçilib mədəniləşdirilməmişdir.

Böyürtkən bitkisi uzun müddət çiçəkləyir, ona görə də meyvə yığımı avqust ayından başlayaraq qar düşənə qədər davam edir, məhsuldardır, bir kol 4-6 kq-a qədər meyvə verir. Azərbaycan florasının tərkibində yayılan əsas böyürtkən növləri aşağıdakılardır: Buş böyürtkəni-R.buschii Qafqaz böyürtkəni-R.caucasicus bozumtul böyürtkən R.catesius qanşirəli böyürtkən-R.anatolicus kə- ləkötür böyürtkən-R.hirtus, Gürcüstan böyürtkəni-R.georgicus, eberiya böyürtkəni-R.ibercus, ağımtıl böyürtkən-R.candicans və uzunsovmeyvə böyürtkən-R.dolichocarpus.

Bunlardan insan orqanizmi üçün ən qiymətli növü sayılan bozumtul böyürtkən haqqında geniş elmi məlum verməyi qərar aldıq. Bozumtul böyürtkən-R.caesius. Bu hündürlüyü 0,5-1,5 metrə

olan koldur. Buna bəzən qara moruq da deyilir. Budaqları silindir-vari olub, demək olar ki, əksəriyyəti yerə doğru oraqvari əyilmişdir. Onlar boz ləkəli, müxtəlif tikanlı və ya tikansızdır. Yarpaqları üç yarpaqcıqlıdır, yarpaqaltlığı enli lansetvarıdır. Yarpaq saplağı çox qısa və ya oturandır. Çiçəklərinin əksəriyyəti ağımtıl, nadir halda çəhrayı rəngdə olub, salxımvari halda yerləşmişdir. Meyvəsi qaramtıl və yaxud qaramtıl-qırmızı rəngli iriçəyirdəkli, azdənə- li və dadsızdır. May-iyun aylarında çiçəkləyir, iyul-oktyabr aylarında meyvə verir. Bəzən kolun üstündə həm çiçək, həm də meyvə olur. Azərbaycanın əksər rayonlarında ovalıqdan başlayaraq dağ ətəklərinə kimi yayılmışdır. Adətən çay sahillərində, meşələrin açıqlıqlarında, kolluqlarda, ələlxüsus Quba-Qusar rayonları, Samur-Dəvəçi, Kür-Araz ovalıqlarında ehtiyatı çoxdur. Buna aşağı düzən rayonlarından başlamış subalıp sahələrinə qədər ərazilərdə rast gəlmək olar. Böyürtkən S vitamini və aşı maddələri ilə zəngindir. Zoğlarında və yarpaqlarında 271 mq %-ə qdər S vitamini və 12-13% aşı maddələri tapılmışdır. Meyvələrində çoxlu miqdar şəkər (qlükoza 2,87-3,64 %, fruktoza 3,12-3,24 %, saxa- roza 0,85-0,58 %, limon turşusu 1,62-2,16 %, müəyyən edilmişdir. Toxumlarında 22-26 % piyli yağ vardır ki, bu da tərkib etibarilə linolein-80%, linol-15%, olsin 18% və palmitin turşuların qli- seridlərindən və fitosterindən ibarətdir.

Azərbaycan Dövlət Tibb Universitetində qanşirəli və bozumtul böyürtkən növləri kimyəvi analizdən keçirilmişdir. Bunların yar-paqlarından 13-14% aşı maddəsi, 168-190 mq% S vitamini müəyyən edilmişdir. Yetişmiş meyvələrinin tərkibindən 2-4 % aşı, 5,7 % qlükoza, 3,16 % fruktoza, 3,14 % saxaroza, 0,43 % pento- zanlar, 1,2 % üzvi turşular (alma, limon, çaxır) 5-8 mq % karotin, 230 mq % S vitamini B1 B2 maddələri köklərindən isə 0,03 % al- kaloidlər, 0,05% qlikozidlər, 10,78-11,63 % piroqallol qruppu aşı maddələri, 6,2 % qətranlı maddələr, 1-2 % üzvi turşular tapılmışdır. Bundan əlavə yarpaqlarının tərkibindən 5,57 % kül maddəsi, 19,30 mq/q k, 10.000 Ca, 3,40-Md, 0,20 Fe, makroelementləri,

340,00 mkq/q-Mn, 7,80-Cu, 28,90 Zn, 0,10-Ca, 1,00-Mg, 0,40-Cr, 67,60-Al, 0,20-Se, 1,44-Ni, 8,48-Sr, 1,10-pb, 77,20-B mikroelementləri tapılmışdır. Böyürtkən bitkisi dərman kimi çox qədim dövrlərdən xalqlara məlum idi. Bir çox qədim həkimlər böyürtkən haqqında qeyd edib göstərirlər ki, "onun bütün hissələri o cümlədən də meyvələri orqanizmi qüvvətləndirən, xüsusiyyətinə malikdir". Meyvənin şirəsini çıxarıb, onu kölgə yerdə bir müddət saxladıqdan sonra sulanan yaraların üzərinə sürtdükdə, yaranın suyu dayanır və tədricən qaysaq qoyub sağalmağa bağışlayır. Böyürtkən qiymətli yabanı giləmeyvə bitksisi kimi Teofrasta da məlum idi.

Xalq təbabətində qurudulmuş meyvələrindən sinə ağrılarında istifadə edilir. Eyni məqsədlə təzə dərilmiş meyvələrindən şərbət və mürəbbə hazırlayıb qəbul edirlər. Qurudulmuş kal meyvələrindən çay dəmləyərək şəkər xəstəliyində içirlər. Yarpaqların və kal meyvələrini açıq günəşli havada qurudur, çay dəmləyərək uşaqlarda tez-tez baş verən ishalda büzüşdürücü və antisentik dərman kimi istifadə edirlər. Tam yetişmiş meyvələri isə yüngül iş- ləyici, tərlədici, sidikqovucu vasitə kimi istifadə olunur.

Qəbələ və Lənkəran rayonunda böyürtkənin qurudulmuş meyvələrindən və yarpaqlarından çay hazırlayıb, soyuqdəymələrdə tərlədici vasitə kimi içirlər.

Qanşirəli böyürtkən yarpaqlarının sulu dəmləməsini boğaz ağrısında dezinfeksiyaedici qarqara dərmanı kimi işlədirlər. Qurudulmuş köklərini xırda-xırda doğrayır (çay qaşığı kökü 1 stəkan qaynar suda), 30-40 dəqiqə dəmləyir, soyudub ishal və dizenta- riya zamanı içirlər.

Qurudulmuş qanşirəli böyürtkən köklərinin sulu bişirməsini vərəm xəstəliyində qəbul edirlər. Böyürtkəndən hələ çox qədim zamanlardan dermatologiya və kosmetika sahəsində istifadə edilmişdir.

Belə ki, Dioskorid böyürtkəni yarpaqlarından hazırlanmış sulu çıxımından islatma kimi dəridə baş verən dəmirov, ekzema, ya-

ra və irinli çibanların müalicəsində istifadə etmişdir. Yarpaqlarından hazırlanan məlhəmdən maz hazırlayıb dəridə və sifətdə əmələ gələn çillərin, qaşınma və qıcıqlanmaların aradan qaldırılmasında sürtkü kimi istifadə edilir. Yarpaq və meyvələrindən hazırlanan sıyıxların tərkibinə xama və yaxud azca kəsmik qatıb qarışdıraraq, sifətə sürtür. 10-15 dəqiqə saxladıqdan sonra yuyub təmizləyirlər.

*Böyürtkənin çoxaldılması.* Böyürtkən bitkisi toxum, pöhrə, kökçiliyi və uc tumurcuğunun basdırılması yolu ilə çoxaldılır. İstehsalatda böyürtkənin dikduran kollu forması kök pöhrələri və kök çiliyi yolu ilə, dağınıq kollu formaları isə uc tumurcuğun basdırılması üsulu ilə çoxaldılır.

Dikduran kollu böyürtkən bitksindən çoxlu miqdar əkin materialı istehsal etmək üçün ilk yazda və ya payızda koldan 50-60 sm aralı yer qazılır və 6-8 mm diametri olan köklər çıxarılır. Sonra onlar 15-20 sm boyda doğranılır, qabaqcadan hazırlanmış münbit torpağa 15x20 sm sxemdə cərgəvi üsulla əkilir və suvarılır. Bütün vegetasiya müddətində sahənin torpağı həmişə alaqdan təmizlənmiş, yumşaq və rütubətli olmalıdır. Payızda bitkilər qazılıb çıxarılır və inkişaf dərəcəsinə görə çeşidlərə ayrılır, müvəqqəti olaraq əkin vaxtına qədər torpağa basdırılır və ya dərhal plantasiyaya əkilir. Yeni əkilmiş plantasiyaların hər hektarından 0,5-1 t və sənaye əhəmiyyətli sahələrin hər hektarından isə 5-71 meyvə məhsulu tədarük etmək olar.

# *MORUQ-RUBUS*

Moruq cinsinin dünya florasının tərkibində 250, bəzi mənbələrə görə 600-ə qədər növü yayılmışdır. Bunların əksəriyyəti kol yarımkol və çoxillik ot bitkiləridir. Azərbaycanı yabanı halda 15 növü (biri növü otdur) yayılmışdır, bir növü becərilir.

Bu növlərə ən çox Avropa, Asiya, Afrika, Amerika və Avstraliyanın mötədil iqlim zonalarında rast gəlmək olar.

Moruq cinsinin ən çox yayıldığı növü isə adi moruq R.idaeus hesab edilir. Hal-hazırda yaradılan bir çox moruq sortunun başlanğıcını adi moruq təşkil edir. Moruq haqqında ilk yazılı mənbələrə bizim eradan III əsr qabaq qədim yunan alimi Katon xəbər verir. Bizim eranın I əsrdə yaşamış Böyük-Pliniy yabanı moruğu Kret adasının mərkəzi dağlıq hissələrində müşahidə etmişdir. K.Lİney moruğunun latınca botaniki adını vermişdir. Bizim eranın IV əsrində yaşamış Roma tədqiqatçısı Palladius, moruğu bağ bitkisi adlandırmışdır. Qədim roma əhalisinin ən mötəbər adamları sayılan zədeganlar moruğu öz yaşayış evlərinin ətraflarında və yaxud xüsusi bağlarında əkirmişlər.

Moruğun meyvəsinin rəngi tünd qırmızı, açıq-qırmızı, ağımtılsarı olur, yetişəndə tez tökülür. Odur ki, yetişən meyvələr dərhal dərilib istifadə olunmalıdır. Moruq çox məhsuldar və gəlirli bitkidir. Plantasiyanın yaşından və moruğun sortundan asılı olaraq bir hektardan 50-60 sentner məhsul tədarük etmək olar. Yüksək keyfiyyətli meyvəsi, kollarının tez bar verməsi və asan çoxalması moruğun geniş yayılmasında mühüm rol oynayır. Moruq yabanı halda çox geniş yayılaraq Azərbaycanın dağlıq yerlərində meşə talalarında təsadüf edilir.

Moruq-yarımkol bitkidir. Onun yeraltı hissəsi kökkümsov gövdələrdən, habelə yaxşı inkişaf etmiş yan köklərdən ibarətdir. Kökümsov gövdələr hər tərəfə yayılır, çoxlu miqdarda yatmış tumurcuq əmələ gətirir, əlverişli şəraitdə bu tumurcuqlardan zoğlar bi-

tir. Yerüstü hissəsini birillik və ikiillik zoğlar təşkil edir. Vegetasiya ərzində kökümsov gövdələrdəki yatmış tumurcuqlardan şiv zoğlar əmələ gəlir, ikinci il isə həmin zoğlarda yarpaq meyvə zoğu, çiçək və meyvə inkişaf edir. Bar vermiş zoğlar quruyur, onları yeni zoğlar əvəz edir. Sortun xüsusiyyətindən asılı olaraq bitkinin çiçəklənməsi 11-40 gün davam edir. Ona görə də meyvəsinin yetişməsi 20-30 gün uzanır.

Havalar isti keçdikdə çiçəkləmə 11-12 günə başa çatır. Moruq kolu hər il bar verir, yeni salınmış plantasiya 2-3 ildən sonra məhsula düşür, yüksək məhsul 4-5-ci ildən başlayaraq təxminən 10 il davam edir. Plantasiyanın ömrü 12-15 ildən çox olmur. Meyvələri sortundan asılı olaraq iri, orta və xırda olur. Moruq sotlarının xüsusiyyətlərindən biri də gövdələrin rənginin müxtəlif olmasıdır. Malboro və Proqes sortlarının gövdəsi qırmızı, Turner və Kinq sortlarının isə tünd-qırmızıdır. Nisbətən gec çiçəkləyir. Azərbaycanın meyvəçilik zolarında təxminən mayın axırında və ya iyunun əvvəlində çiçək açır.

Meyvəsinin kimyəvi tərkibi sortundan və yerli şəraitindən asılı olaraq müxtəlifdir. Adi moruq meyvələrində efir yağlarının izi, 5,6-15% şəkər, 8,1 % frkutoza, 4,3 % qlyukoza, 6,5 % saxaroza, 1,38-2,2 % alma, limon, qarışqa, çaxır, kapiron salisil üzvi turşuları, 0,3% aşı maddələri, 4-6 % seliloza C1, B1, B2, karotin vitaminləri, 1,4 % kversetin, 3 qaloktozid, kversetin və kempferol-3- B-D qlyukuronid kversetin-3-qlyukozid, antosian maddələrindən sianin-xlorid C21 Na, Oe Cl 0,9 % pektin, azotlu maddələr, 0,1-0,2 % zülallar, 0,45-2,8 % selikli maddələr, fol turşusu, dəmir mis və kalium duzları, sitosterin və s. maddələr tapılmışdır.

Toxumlarının tərkibində 14,6 % piyli yağ vardır. Yarpaqlarının tərkibində 5,57 % kül, 19,30 mq% K, 10,00 mq %-Ca, 3,40 mq %, 0,20 mq %-Fe makroelementləri, 340,00 mkq/q Mp, 7,80 mq Cu, 28,30 mq %-Zn, 0,10 mq % Ce, 1,00 mq %-Mo, 0,40 mq %-Cr, 67,60 mq %-Al, 0,20 Se, 1,44 mq %-Ni, 8,48 mq %-Sr, 1,10

mq%-pb 77,20 mq %-B və s. mikroelementləri tapılmışdır. Elmi təbabətdə qurudulmuş və dondurulmuş meyvələrindən sulu dəmləmə hazırlanır və bundan da soyuqdəymələrdən baş verən xəstəliklərdə, xüsusən uşaqlarda temperatur olan zaman tərlədici vasitə kimi qəbul edilir. Moruq iştahartıran profilaktik və müalicəvi vasitə kimi, maddələr mübadiləsi pozğunluğunda istifadə edilir. Qurudulmuş meyvələrindən hazırlanmış dəmləmə (çay) və mürəbbə soyuqdəymələrdə tərlədici kimi, eləcə də boğaz ağrılarında (anginada) iltihaba qarşı qarqara dərmanı kimi istifadə edilir.

Moruq meyvəsini mədə-bağırsaq xəstəliklərində ateroskleroz- da, iştahı artırmaq və həzmolmanı yaxşılaşdırmaq qanı artırmaq, isti salıqçı üçün də işlədilir. Xalq təbabətində yarpaqlarının çayından qastritlərdə, enteritlərdə və eləcə də tənəffüs yolları xə- siəliklərində büzüşdürücü və iltihabı götürücü kimi istifadə edilir, boğaz ağrılarında qarqara dərmanı kimi işlədirlər. Moruq meyvələrinin çox vaxt cirə meyvəsi, dəvədabanı yarpaqları, cökə çiçəyi ilə bir yerdə bərabər hissədə götürüb çay kimi dəmləyərək soyuq dəymədə, mədə bağırsaq xəstəliklərində işlədilir. Bundan əlavə quruduomuş moruq meyvələrindən qara qınıq otu ilə bir yerdə çay hazırlayıb iltihabi aralan qaldıran və mədənin həzm prosesini yaxşılaşdıran dərman kimi istifadə edilir. Tibet təbabətində dəmləmə və cövhərlərindən əsəb sistemində, kəskin infeksiya xəstəliklərində işlədilir.

Moruqdan ən çox uşaq pəhriz xörəklərinin hazırlanmasında istifadə edilir. Meyvələrindən mürəbbə, cem, şəkər, spirtsiz içkilər, şirə, çaxır, kvas, dondurma hazırlanır. Qənnadı məmulatlarını çəhrayı və qırmızı rəngə boyuyur. Meyvəsindən hazırlanan şirədən dərman preparatlarına xoş iy və keyfiyyətinin artırılmasında istifadə edilir.

Moruq yaxşı nektar bitkisidir. Balı şəffaf, ətirli şirin və keyfiyyətcə cökə balından fərqlənmir. Tərkibində 33 faizdən artıq qlyu-

koza, 41 faiz levuloza tapılmışdır. 1 hektar meşə moruğunun çiçəklərindən 70 kq, bağ moruğundan isə 50 kq bal əldə edilir.

Kosmetikada moruğun çiçək, meyvə yarpaq hissələrindən istifadə edilir. Bunun meyvəsini toplayıb, əzərək sıyıq şəkilinə salıb, sifətin dərisinə yaxıb, 10 dəqiqədən sonra yuyun bu zaman sizin sifətiniz parlaq və təravətli olacaq. Əgər moruq sıyığı sifətinizi qıcıqlandırarsa, tərkibinə az miqdarda qaymaq və yaxud kəsmik qatmağı məsləhət görürlər. Sifətin dərisinə ən yaxşı təsir xırdalanmış təzə yarpağa yağlı krem sürtülmüş sifətə qoyub 10- 15 dəqiqə saxlasanız sifətiniz təravətli olar. Təzə yarpağından alınmış şirəni 1:4 nisbətində kərə yağı ilə qarışdırıb, maz hazırlayıb dəridə olan çil, çiban və ekzemaların müalicəsində istifadə edilir. Yarpağının sulu çıxarışından isə dəridə baş verən səpgilərin yox edilməsində işlədilir. Moruğun yarpaqları kosmetik xammal yığıntılarının tərkibinə də daxil edirlər.

Kosmetika yığıntının hazırlanması:

| | |
|---|---|
| Tozağacı yarpağı | 4 |
| Çəmən yoncası (yarpaq və çiçəyi) | 4 |
| Aptek birəotu | 4 |
| Moruq (yarpaq) | 4 |
| Çöl yarpızı (otu) | 4 |

Qeyd etdiyimiz yığıntının cövhərinin köməyi ilə dərini təmizləyir, onun elastikliyini artırır, möhkəmləndirir, pis iyləri kənar edir, orqanizm sakitləşdirir və maddələr mübadiləsini nizama salır. Yarpağının sulu məhlulunu potaş (qələvi) ilə qarışlırıb tükü qara rəngə boyayırlar.

Moruqdan bir çox ölkələr müalicə və kosmetika sahəsində geniş istifadə edirlər.

*Moruğun çoxaldılması* kimi, moruq bitkisi çoxlu miqdar kök pöhrələri verir və moruqluq salınarkən bu pöhrələrdən əkin materialı kimi istifadə edilir. Moruq bitkisinin toxumu ilə, kolunu bölüb ayırmaqla, kök çiliyi və yaşıl zoğ çiliyi vasitəsi-

# *ÇİYƏLƏK-FRAQARIA*

Dünya florasının tərkibində 20-30 bəzi mənbələrdə 50 növü yayıldığı qeyd edilir. Bu cinsin növlərinə ən çox Avropa, Asiya, Şimali Afrika və Amerika qitəsində rast gəlmək olur.

Latınca çiyələyin adının mənası “F.vesca” feil sözü olub, meyvəsi ətirli deməkdir. Bu növlər içərisində meşə çiyələyi-F.vesca yaşıl və yaxud gecə çiyələyi-F.vıridis bağ və yaxud anatas çiyələyi, muskant çiyələyi-F.moschata, vergeniyə çiyələyi-F.virgıni- ana çilli çiyələyi-F.chiloensis göstərmək olar. Bunların içərisində ən çox yayılanı meşə çiyələyidir. F.viridis.

Bu hündürlüyü 14-30 sm olan qısa kökümsova və nazik kök sisteminə malik çoxillik ot bitkisidir. Bir gövdəli düz qalxan olub bir neçə çiçəkdən ibarət hamaşiçiçək əmələ gətirir. Yarpaqları üçər formalı, uzun saplaqlı olub, gövdəni qucaqlayandır. Çiçəklərinin diametri 12 sm olub ağ rəngdədir. Meyvəsi yumurtavari “giləmeyvə” fındıqcıdan ibarət olub, ətli şirin xoş iyli çiçək yatağından ibarət olub parlaq qırmızı rəngədir. May-iyun aylarında çiçək açır, iyun-iyulda meyvəsi yetişir.

Çiyələk (“zemlyanika”) və bağ çiyələyi (“klubinka”) meyvəsindən insanlar çox qədim zamandan istifadə etməyə başlamışlar. Lakin vergeniya növünün mədəniləşdirilməsi XII əsrin əvvəllərinə aiddir. Çiyələk birinci dəfə Fransada, sonra İngiltərədə və İtaliyada mədəni halda becərilmişdir. Rusiyada bu bitkilərin becərilməsinə XVIII əsrdə başlanmışdır.

Yabanı halda xırda meyvəli çiyələyə hər yerdə təsadüf edilir. Çiyələyin bir çox növləri içərisində sənaye əhəmiyyətlisi irimey- vəli çiyələk sortlarının əksəriyyəti Çili və Vergeniya növlərinin çarpaz tozlanması nəticəsində seçmə yolu ilə alınmışdır. İrimey- vəli çiyələyə (“zemlyanika”) bəzi yerlərdə çiyələk və səhvən bağ çiyələyi də (“klubnika”) deyilir. Bunlar xarici görünüşcə bir-birinə oxşasalar da, aralarında çox fərq vardır. Çiyələk bitkisi birevli, kolları alçaq, çiçəkləri yarpaqlarının səviyyəsində duran, meyvələri iri və çox məhsuldardır. Bağçiyələyinin kolları iri hündür boylu qüvvətli budaqlara malik ikievli bitki olub, meyvəsi nisbətən xırda və az məhsuldar olur. Bunun istehsalatda geniş yayılmış və sənaye əhəmiyyətli olan sotları azdır.

Çiyələyin meyvələrinin tərkibində zəngin vitamin kompleksi aşkar edilmişdir. Meyvəsinin tərkibində 80-90% su, 4,5-10 (15%)-e qədər şəkər, 0,8-1,6% limon turşusu, 0,9-1,2% azotlu maddələr, 1,0-1,7%-pektin, 1,0-1,6%, selüloza, 0,16-0,25% aşı, 50-80 ml%, S vitamini, karotin, alma, salisil, foliev turşuları, pe-larqonidin-3-qalaktozid, pelarqonidin-3 qlyukozid, sianidin-3 qlyukozid və s. aşkar edilmişdir. Yarpaqlarının tərkibindən isə 280 mq% S vitamini karotin, fraqarin qlikozidi/flavanoidlərdən: rutin, kempferol, qlikozidi, kversetin-3 qlyukozid, leykoantosian, katexin, ıızvi turşulardan: tumar, qlyukuron, xloroqen, malon, salisil əvə koriq turşuları, alkaloid izləri tapılmışdır. Yarpağının tərkibindən isə 8,12% kül maddəsi, 21,90 mq% K, 14,70 mq%-Ca, 4,50 mq%-Mg, 0,60 mq%-Fe makroelementləri: 0,22 mq %-Ca, 0,84%-Cu, 0,90 mq%-Zn, 0,22 mq%-Mn, 1,28 mq%-Mo, 0,30 mq %-Ce, 0,29 mq-Al, 0,8 mq%-Ba, 0,09 mq%-V, 11,00 mq%-Se, 0,18 mq%-Nİ, 0,73 mq%-Sr, 0,25 mq%-pb, 0,09 mq%-I, 78,30 mq %-Br, 143,20 mq%-B və s. aşkar edilmir. Bundan əlavə meyvənin tərkibindən insan orqanizmi üçün ən mühüm maddələrdən dəmir tapılmışdır. Çiyələk meyvəsi təzə halda yeyilməkdən başqa, bundan yüksək keyfiyyətli mürəbbə, cem, marmelad, dondurma, konfet içi, şirə, çaxır, boyaq və s. hazırlamaq üçün istifadə edilir. Təzə meyvəni şərbətin içində dondurub saxlayanda keyfiyyətini itirmədən uzun müddət qalır.

Çiyələkdən müalicə məqsədləri üçün hələ çox qədimdən yəni XIII əsrdə istifadə olunmada başlanmışdır. Bir qədim dərman bitkilərindən bəhs edən kitabda yazılmışdır; "Çiyələyin giləmeyvəsindən hazırlanan müalicə sularından səhər və axşam içdikdə bəlğəmin və bir sıra qarışıqların orqanizmdən kənar edilməsində tənəffüs yollarının yaxşılaşdırılmasında, ürəyin möhkəmləndirilməsində, orqanizm müqavimətinin artırılmasına, böyrək və öd daşlarının əridilməsində böyük rol oynayırdı".

Elmi tətabətdə çiyələk hal-hazırda da öz əhəmiyyətini itirmə-mişdir. Belə ki, hal-hazırda onun meyvə və yarpaqlarından hiper-toniya, ateroskleroza, mədə və onikibağırsaq yaralarının, qəbiz- liyə, artiritdə, duz mübadiləsinin pozğunluqlarının müalicəsində işlədilir. Bunun yarpağından isə zəif sidikgətirici, böyrək daşlarının əridilməsində, vitamin çatışmazlığında soyuqdəymədə, uşaqlıq yolları qanaxmalarında işlədilir.

Böyük Linney çiyələyi “Allahın hədiyyəsi” adlandırmışdır. Çiyələyin meyvəsi Linneyin oynaq və toxumalarında baş verən kəskin xəstəliyini müalicə etmişdir. Bu kiçik myeyvənin müalicəvi qüdrətinə bir çox şair və yazıçılar heyran qalaraq öz ürək sözlərini şer və hekayələrlə bildirmişlər. Məsələn yazıçı Vladimir So- lodxin qeyd edirdi ki, meşədə bitən giləmeyvələrin içərisində birinci yerdə çiyələyi qoymaq lazımdır; çünki o bütün giləmeyvələrdən şirin və ətirlidir”. Keyfiyyətinə ətrinə və şirinliyinə görə ona heç bir meyvə çata bilmir. Hədər yerə demirlər ki, “hansı evdə çiyələk meyvəsi var, o evdə həkimə ehtiyac olmaz”.

Meyvəsi təzə halda vitamin mənbəyi olub, avitaminozda, piy və mineral pozuntularında, öd və böyrəklərdə olan daşların müalicəsində, qanazlığında, aterosklerozda geniş istifadə edilir. Yarpaq və meyvəsindən alınan cövhərlərdən sidikqovucu babasil, raxit, sarılıq və şairədə istifadə edilir. Hər gün 4-5 ədəd təzə çiyələk meyvəsi yedikdə o şəkəri aşağı salır. Hələ çox qədim dövrlərdən çiyələyin meyvəsindən kosmetikada genis istifadə edilmişdir. Qızlar və qadınlar yatmazdan qabaq çiyələyin meyvələrindən əzir, cunadan keçirib alınan sıyıqdan sifətlərinə yaxıb 15- 20 dəqiqə saxladıqdan sonra, südlə yuyub təmizləyirlər. Yağlı dərilərdə isə çiyələyin sıyığını yumurta ilə qarışdırıb sürtməyi məsləhət görüldüyü halda, quru dərilərdə isə meyvə sıyığına bir çay qaşığı badam yağı, qaymaq və nişasta qatıb sifətə sürtməyi məsləhət görürlər.

Müasir kosmetika və dermatalogiya sahələrində tez-tez çiyələk meyvə və yarpağına müraciət edilir. Çiyələkdən hazırlanan sıyıqların köməyi ilə dəridə əmələ gələn çilləri, cizvə, sızanaqları, piqment ləkələrini müalicə edirlər. Meyvəsindən hazırlanan suyundan isə istənilən sifət dərilərində istifadə etmək olar. Gündə bir dəfə çiyələk suyu ilə sifətinizi silib 10 dəqiqədən sonra otaq temperaturunda yusanız, sifətiniz xoş ətirli və təravətli olar. Unutmaq olmaz ki, bir neçə çiyələk sotları alergiya, səpgi və qaşınma əmələ gətirir. Buna baxmayaraq bu cür xəstəlikləri çiyələkdən hazırlanan yaxmalarla müalicə edirlər.

Çiyələkdən Fransa, Bolqarıstan, Çexoslavakiya, Avstriya, Polşa və s. ölkələrin kosmetika sahəsində geniş istifadə edilir. Çiyələk bitkisi torpağa az tələbkar olub, istənilən torpaq və iqlim şəraitində uyğunlaşır, yaxşı inkişaf edib, bol məhsul verir. Ona

Rusiyanın şimalından başlayaraq cənub zonalarına qədər hər yerdə rast gəlmək olar.

Onun müsbət cəhətlərindən biri də ən tez yetişən meyvələrdən olub, əkildikdən bir il sonra məhsula düşməsi və hər il bar verməsidir. Çiyələk bitkisinə edilən aqrotexniki qulluq işləri sadədir. Bitkinin inkişafı üçün çəkilən xərc özünü qat-qat doğruldur. Çiyələyin sortundan və ona edilən qulluqdan asılı olaraq bir hektardan 70-100 sentnerə qədər məhsul toplamaq olar.

Göstərilən xüsusiyyətlər çiyələk bitkisinin geniş yayılmasına maraq yaradır. Bunu nəinki böyük sahələrdə, hətta məktəbyanı, Sanı sahələrdə, şəhər ətrafı təsərrüfatlarda və dibçəkdə be- bol məhsul almaq olar. Çiyələk Azərbaycanın Quba-Xaç- maz, Lənkəran Astara və Şəki-zaqatala, Qarabağ, Abşeron və s. rayonlarda becərilir.

Çiyələk bitkisinin nazik saçıqlı kökləri torpaq altında 50-60 sm sahəni əhatə edir. Çox dərin və uzaqlara yayılmır, qısa köküm- sov gövdələri üzərindən çıxan uzun saplaqlı üçhaça yarpaqları vardır. Vegetasiya dövründə kökümsov gövdənin yuxarı yan tumurcuqlarından çıxıb yerə sərilən nazik zoğ (bığ) üzərində olan buğumlardan tumurcuq əmələ gəlir. Tumurcuqlar inkişaf edir, yarpaqlanır və kök ataraq yeni bitki əmələ gətirir. Bir koldan ildə 15-20 ədəd cavan bitki əmələ gələ bilər. Yarpaqların ömrü 60-70 günə qədər olur, sonra köhnə yarpaqları yeniləri əvəz edir. Qışda yarpaqları yaşıl olur, yazda yeni yarpaqlar çıxandan sonra köhnələr quruyur. Çiyələyin sortundan asılı olaraq yarpağının sayı 18 ədəddən 120-yə qədər ola bilər. Kökümsov gövdədən, zoğ və yarpaqdan başqa, çiyələyin çiçək zoğu da çıxır ki, bu da sortun xüsusiyyətlərinə görə müxtəlif uzunluqda və miqdarda olur. Meyvələrin yetişmə müddətinə görə çiyələk sortları tez, orta və gecyetişən olur. Tezyetişən sotlar martın əvvəlində, orta yetişənlər ondan 4-6 gün sonra, gecyetişənlər isə 8-12 gündən sonra çiçəkləyir. Çiçəkaçma dövrü sotların bioloji xüsusiyyətlərindən, habelə iqlim şəraitindən asılı olaraq 22 gündən 30 günə qədər uzanır.

# QUŞQONMAZ-FILIPENDULA

Dünya florasının tərkibində quşqonmaz cinsinin 10-a qədər növü yayılmışdır. Qafqazda, o cümlədən də Azərbaycanda 2 növünə rast gəlmək olar.

Bu növlərin içərisində müalicə, aşı və kosmetika sahəsində istifadə olunan ən qiymətli növlərdən biri qarağac yarpaq quşqonmazı-F.ulmaria göstərə bilərik. Qarağacyarpaq quşqonmaz hündürlüyü 100-200 sm olan sürünən kökümsovu möhkəm, qabırğalı gövdəsi olan çoxillik ot bitkisidir. Yarpaqları lələkvari bölünən yuxarıdakı yarpaqları 3-5 daraqvari, 2-5 ədəd bərabər iri, enli yumurtavari və yaxud yumurtavari-lanset müşarşəkillidir. Yan yarpaqları cüt xırda kənarları dişlidir. Yarpaqların yuxarı hissəsi yaşıl, arxa hissəsi ağımtıl keçəvaridir. Çiçəkləi sıx süpürgə- vari salxımda toplanmışdır. Ləçəkləri sarımtıl ağımtıldır. Meyvə yarpaqları 6-10 ədəd, spiralvari, qıvrımvari demək olar ki, çılpaqdır. Meyvəsi çoxlu-fındıqcadan ibarətdir.

Bitki Azərbaycanın Böyük Qafqazın Quba ərazisində, Naxçıvan və Lənkəranın dağlıq zonalarında yayılmışdır. Buna ən çox nəmli çəmənliklərdə rast gəlmək olar. Qarağacyarpaq quşqonmazın bütün hissələrindən aşı, flavanoid, efir yağı tapılmışdır. Belə ki, yarpaq, kök boyuncuğu, kökündə və çiçək hissələrinin tərkibində 3,5-21,8%-ə qədər aşı maddəsi, 0,67-10,7%-ə qədər lyuteolin, kempferol, kversetin, sianidin, çiçəklərindən isə 0,22% efir yağı S vitamini və s. tapılmışdır. Tərkibində aşı maddəsi olduğu üçün ondan hazırlanan dəmləmələrdən, cövhərlərdən bü- züşdürücü vasitə kimi mədə bağırsaq xəstəliklərində, yarasağal- dıcı, tərgətirici, epilepsiya, revmatizm, oynaq ağrılarında işlədilir.

Kökündən və eləcə də çiçəklərindən hazırlanan dəmləməsindən əsəb, hipertoniya, zökəm və suqovucu, sidikqovucu vasitə

kimi istifadə edilir.

Tibet və monqol təbabətində ağciyər xəstəliklərində, həzm orqanlarının nizama salmasında işlədilir.

Bundan başqa sulu çıxarışı ilə damarbərkidici, soyuqdəymə, yara əleyhinə əsəb və həyəcanlanmaya, bağırsaq xəstəliklərində tətbiq edilir.

Yayın istisində bitkilərin əksəriyyətində olan şeh damcıları çoxdan buxarlanıb yox olduğu halda amma quşqonmazın yarpaqlarının üzərində yerləşən “yaşıl fincanın” içərisi sərin şeh damlaları ilə dolu olur. Ondan isə bitkilər, ağaclar, günəş, göy, əksi olunur, aşağı əyilsən, öz əksini görə bilərsən. Yarpağa toxunan kimi yaşıl fincanın içərisindəki sərin şey damlaları tökülmədən civə kimi o tərəfə bu tərəfə axır. Bu sudan hələ orta əsr əl- kimyagərləri "göy damcısı”, “göy şehi” kimi təsvir edib, onun köməkliyi ilə “fəlsəfə daşını” axtarmağa başlamışlar. Bitkinin latınca elmi adı da elə “alxemillya”dan götürülmüşdür. Orta əsrlərdə Qərbi Avropa xalqları quşqonmazı cədugar ot kimi təsvir etmişdir. Qədim zamanlarda belə düşünürdülər ki, əgər səhər tezdən üzünüzü quşqonmazın şeh damcıları ilə yusanız, sizin əvvəlki gözəlliyiniz özünüzə qayıdar. O, zamandan bəri bir çox ölkələrin, xüsusilə də İsveçrə qadınları sifətlərini quşqonmazın şeh damcısı ilə dolu yarpaqları ilə silərək artıq piylərin, zil və piqment ləkələrini yox edirmişlər. Quşqonmazın otundan hazırlanan cövhərlərdən vanna şəkilində, yaş sarğı halında, təpitmə formasında dərinin xarici səthində olan irinli yaraların, çiban ekzema və qoturun müalicəsində istifadə edilir. Təzə yarpaqlarını qurudub, narın toz halına salıb kəsik yaraların üzərinə çəkib qanı kəsirlər.

# SİNCANOTU-SANDUISORBA

Dünya florasının tərkibində 20-yə qədər növünə rast gəlmək olar. Qafqazda, o cümlədən Azərbaycanda 1 növü-Dərman sincanotu-S.officinalis yayılmışdır. Bitkinin latınca adının “Sanguisorba” mənası “qan kəsici” deməkdir.

Dərman sinca otu-hündürlüyü 1 metrə qədər olan, odunalaş- mış üfüqi istiqamətdə yerləşən kökümsov və uzun köklərə malik çoxillik ot bitkisidir. Gövdəsi budaqlanan qabırğalıdır. Kökətrafı yarpaqları uzun saplaqlı, lələkvari, gövdə yarpaqları oturacaq, 6 sm uzunluğunda uzunsov-yumurtavari, kənarları itidişlidir. Tünd qəhvəyi qırmızı xırda çiçəkləri oval və ya silindrik başcıqlı sün- bülçiçək qrupuna toplanmışdır. Meyvəsi açıq qəhvəyi quru to- xumcadan ibarətdir. Bitki iyun-avqust aylarında çiçək açır, meyvəsi avqust-sentyabrda yetişir.

Azərbaycanda Böyük və Kiçik Qafqaz dağlarının çəmənliklərində Quba-Qusar zonasında yayılmışdır. Nəmli çəmənliklərdə rast gəlmək olar. Kökümsovunun tərkibində 12-13%, kökündə 16-17% fırının tərkbiindən isə 23%-ə qədər aşı maddəsi aşkar edilmişdir. Bundan əlavə kökündən 2,4-4% saponin, 1,8 efir yağı, kempferol, kversetin-flavonoidləri, 29%-nişasta, A, B, S, D, E vitaminləri və s. tapılmışdır.

Kökümsov və kökünün tərkibindən 8,13%-ə qədər kül maddəsi, 5,80 mq/q-K, 23,10-Ca, 2,90-Mg, 0,40-Fe makroelementləri, 0,47-mkq/q-Mn, 0,59-Cu, 1,02-Zn, 0,04-Co, 0,03-Cr, 0,31-Al, 5,71 -Ba, 0,12-V, 1,39-v, 1,15-Nİ, 6,14-Sr, 0,06-pb, 0,010-1,2,00- V mikroelementləri aşkar edilmişdir. Dərman və kosmetika sahəsində köklərilə birlikdə kökümsovlarından istifadə edilir. Avqust sentyabr aylarında köklərini torpaqdan aqazıb çıxarır, soyuq su ilə yuyulub təmizlənir və açıq havada qurudulur.

Elmi təbabətdə qurudulmuş kökümsovlarından sulu bişirmə və duru spirtli ekstrakt hazırlayıb qankəsici dərman kimi babasil

və uşaqlıq qanaxamalarında, həmçinin mədə-bağırsaq xəstəliklərində, dizenteriyada və kəskin xroniki enterokolitlərdə büzüşdürücü, antiseptiq və iltihabı aradan qaldıran, öskürək əleyhinə dərman kimi istifadə edilir.

Antinanın, gingivitin, stomatitlərin müalicəsində də işlədilir.

Xalq təbabətində qurudulmuş köklərini və yarpaqlarını ayrı-ayrılıqda çay kimi dəmləyib qarın ağrılarında ishala, dizenteriya- ya, yuxarı nəfəs yolları soyuq dəymələrində bəlğəmgətirici vasitə kimi istifadə edirlər. Köklərinin sulu dəmləməsindən uşaqlıq qanaxmalarında qankəsici dərman kimi işlədirlər.

Kosmetika və dermatologiya sahəsində kök və kökümsovun- dan hazırlanan dəmləmələrdən, cövhər və məlhəmlərindən irinli yaraların təmizlənməsində, vena soyuqdəymələrində, ekzema və qaşınmalarda istifadə edilir. Başqa bitkilərlə qarışdırıb, tükün dibini möhkəmlədilməsində işlədilir. Ondan hazırlanan vannalardan istifadə edərək dəriyə yaxın venaların normal hala salınmasında istifadə olunur. Dərman sincanotundan bir çox xarici ölkələrin Fransa, Polşa, Bolaqarıstan, Çexoslavakiya və s. kosmetikalarında geniş istifadə edilir. Dəri yaralarında istifadə olunur.

# İTBURNU-ROSA

Dünya florasının tərkibində 300-ə qədər növü yayılmışdır.

İtburnu (Rosa) Rosaceae fasiləsinin itburnu cinsinə aiddir. Azərbaycanda 60-dan artıq itburnu növü bitir ki, bunlardan da 6 növü mədəni halda becərilir. İtburnu bitkisinə respublikamızın demək olar ki, bütün rayonlarında rast gəlinir. Meşələr itburnu ilə daha zəngindir.

İtburnu adətən işıqlı, seyrək meşələrdə, düzənliklərdə, meşə talalarında, çay kənarlarında, yol qırağında və s. bitir. Müxtəlif ekoloji şəraitdə bitməsi ilə əlaqədar olaraq itburnunun çiçəklənməsi və meyvə verməsi də müxtəlif vaxtlara düşür. Aranda və dağətəyi rayonlarda itburnu may və iyun aylarında, dağlarda isə iyun-iyul aylarında çiçəkləyir. İtburnu torpağın münbitliyinə qarşı çox tələbkar olmasa da, həddən artıq zəif tərkibli, gilli, qumlu və bataqlaşmış torpaqları sevmir. Şaxtaya və quraqlığa davamlı, işıqvevən bitkidir. İtburnu toxumlar, kökümsovlar, kök pöhrələri və qələmələr vasitəsilə çoxalır.

Təbii itburnu nvövlərinin bir çoxundan bəzək məqsədilə canlı çəpər düzəltmək üçün qələmaltı kimi və eləcə də dağ yamaclarının bərkidilməsində, torpağın yuyulmasının qarşısının alınmasında istifadə edilir. İtburnu meyvəsi əvəzi olmayan vitamin mənbəyidir. Son illərdə Azərbaycanda yayılan bir sıra itburnu növlərinin sistematikasını və kimyəvi tərkibini nəbatat institutunun baş elmi işçisi biologiya elmləri namizədi H.Hacıyeva öyrənmişdir. Alim sübut etmişdir ki, Azərbaycanın rayonlarında yayılan itburnu növlərinin tərkibində müxtəlif tərkibli çoxlu vitaminlər, o cümlədən S vitamini var. İtburnu cinsinin növlərinin intarduksiyası ilə bioloji elm namizədi Asəf İsgəndərov məşğul olmuşdur.

Dərman məqsədilə itburnu bitkisnin ancaq meyvələrindən istifadə edilir. Meyvələri, adətən, sentyabr-oktyabr aylarında toplanır. Bu dövrdə çəhrayı-qırmızı rəngə boyanan itburnu meəvlərini əllə yığırlar. Toplayanlar əllərinə əlcək geyir və önlük bağlayırlar. Sonra onu xüsusi sobalarda və ya quruducularda 70-80 dərəcə temperaturda qurudurlar. Nəzərə almaq lazımdır ki, itburnu meyvələri şaxta düşənə kimi toplanmalıdır. Şaxtadan sonra toplanan

meyvələrdə S vitamini, eləcə də digər vitaminlər azalır, ona görə də keyfiyyəti pisləşir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, itburnu meyvələrini gün altında qurutmaq olmaz. Çünki günəş şüası meyvələrdə olan vitaminləri və eləcə də qiymətli fəal maddələri parçalayaraq yararsızlaşdırır. Yuxarıda göstərilən qaydada qurudulmuş itburnu meyvələri xüsusi torbalara və ya qutulara yığılaraq havası quru binalarda saxlanır. Belə tədarük edilən itburnu meyvələri Dövlət standartına əsasən iki il müddətində saxlanıb istifadə oluna bilər. Qeyd etmək lazımdır ki, itburnu meyvəsi çox qiymətli təbii nemətlərdən biridir. Onun tərkibində müalicə əhəmiyyətli bir sıra maddələr var.

Məsələn, qurudulmuş meyvələrində 5,6%-ə qədər S vitamini olur. Lakin seleksiya yolu ilə yetişdirilən itburnu meyvəsində S vitamini daha çoxdur. Ona göərə də itburnu çox zəngin S vitamini mənbəyi hesab edilir. İtburnu meyvəsinin tərkibində olan S vitaminin miqdarı qarağatın meyvəsində olan S vitamininin miqdarından 10 dəfə, almadakından isə 100 dəfə çoxdur.

1-3 itburnu meyvəsinin tərkibində olan S vitamini normal insanın S vitamininə olan gündəlik tələbatını ödəyir. İtburnu meyvəsində S vitaminindən başqa 12-18 mq% karotin, 0,3 mq% B1 və B2 vitamini vardır. Bir q-nda 40 Beynəlxalq vahid K vitamini, karotinoidlər, P vitamini, flavonoidlər, 18 %-ə qədər şəkər, 4 % aşı maddələri, 3,7 % limon və alma turşusu, pektin maddələri və s. olur. Toxumlarınada isə çoxlu miqdarda piyli yağ və E vitamini vardır. İtburnu meyvələrindən zəngin S vitmini, eləcə də poli- vitamin mənbəyi kimi təbabətdə geniş istifadə olunur. Meyvələrindən çay kimi dəmləmə şəklində sinqa, raxit, qızılyel, qanazlığı, vərəm, böyrək xəstəliklərində geniş istifadə edilir. Son vaxtlarda toxumlarından piyli yağ alınır ki, bu da yanıqlarda, derma- titdə yarasağaldıcı dərman kimi işlədidir. Ümumiyyətlə, itburnu meyvəsi son illərdə ödqovucu, eləcə də atereskleroza qarşı geniş tətbiq olunur. Bu məqsədlə itburnu meyvəsindən bir sıra preparatlar hazırlanır. Dərgil meyvəsindən çayı belə hazırlayırlar. Əvvəlcə bütöv meyvələrdən bir xörək qaşığı götürüb soyuq su ilə yuyurlar. Sonra çaynikin içinə töküb iki stəkan qaynar su əlavə edir və 16 dəqiqə od üzərində dəmləyirlər. Sonra götürüb 24 sa-

ııt saxlayırlar. Dəmlənmiş çayı süzərək ondan gündə iki dəfə, hər dəfə də yarım stəkan içirlər.ltburnu boyaq bitkisi kimi də qiymətlidir. Onun meyvələrinin tərkibində S vitaminindən başqa karo- tln, likopin, rubiksantin, traksantin və s. kimi qiymətli boyaq maddələri vardır.

Bunlardan 6 mq/%-i karotin, 53 mq %-i likopin və 41 mq%-i İsə oksigen tərkibli karotinoidlərdir. İtburnu meyvəsindən alınan karotinoid maddələrindən kosmetika sənayesində geniş istifadə olunur. Kökünün tərkibində isə bir neçə flavonoid tərkibli boyaq maddələri vardır.

XVI-XVII əsrlərdə itburnunun çiçək və myeyvələrindən hazırlanan cövhərlərlə dişin dibindən axan qanın kəsilməsində, yaraların sağaldılmasında, qanqrenada (qanın zəhərlənməsində), yaraların yuyulub dizinfeksiya edilməsində geniş istifadə olunmuşdur. Toxumlarından alınan yağdan başda əmələ gələn yaraların üzərinə yaxaraq onları müalicə edirmişlər. Hal-hazırda itburnunun çiçək, meyvə və toxumlarından hazırlanan cövhərlərdən, dəmləmələrdən, yaxma, krem və mazlardan kosmetika sahəsində geniş istifadə edilir.

Sibir xalqları itburnu ləçəklərini balla qarışdırıb qızıl yelə qarşı, kökündən hazırlanan vannasından isə ayaq tərləmələrində istifadə edilir. Bir çox xarici ölkələrin kosmetikasında da itburnudan geniş istifadə edilir. Bolqarıstanda meyvə və toxumundan hazırlanan yaxma və yağından dəridə olan ekzema, yara, çiban və qaşınmaların müalicəsində istifadə edilir. Yarpaq və meyvəsindən hazırlanan vitaminli cövhərlə başı yuyub tükün tökülməsinin qarşısını alırlar. Meyvəsindən hazırlanan “vitaminli çayından” daixilə qəbul edilərək civzə və çibanları müalicə edirlər. Yağından uzun sürən xəstəliklər nəticəsində yataqda yatmış halda olan xəstələrin “yataq yaralarının” müalicəsində işlədilir.

# BADAM-AMUQDALUS

Badam cinsinin dünya florasının tərkibində 40-a qədər növü yayılmışdır. Bunlardan Qafqazda 8, o cümlədən Azərbaycanda yabanı halda 3 növünə təsadüf edilir. 1 növü-A.communis mədəni halda becərilir. Xalq təsərrüfatının müxtəlif shələrində ən çox becərilən adi badamdan istifadə olunur.

Adi badam-A.communis bu hündürlüyü 6-7 m olan kiçik ağac və koldur. Cavan budaqlarının qabığı qırmızımtıl-qəhvəyi və yaxud qəhvəyidir. Yarpaqları elleps şəkilli dilimli yaşıl yarpaqlara malikdir. Tək-tək yerləşən solğun çəhrayı və ya ağ rəngli gözəl çiçəklərə malikdir. Meyvəsi tumludur, qabıqlıdır, bir toxumludur, toxumların üzəri sarı-qonur rəngli nazik pərdə ilə örtülmüşdür. Badam yazın ilk vaxtında çiçəkləyir, avqust-sentyabr aylarında meyvəsi yetişir. Badam ağacı çox qədim vaxtdan becərilən qiymətli bitkidir. Onun üç növündən istifadə edilir. Birinə şirin badam-A.communis, dağ b.-A.fenzliana, nair b.A.-nairica hər üç növ badam ağacı bir-birinə oxşayır. Bunları yalnız toxumlarının dadı ilə ayırmaq mümkündür. Badam Axərbaycanda xüsusən Abeşe- ronda becərilir. Badamın toxumlarında 50-60 % piyli yağ, 20- 30% zülal, bundan əlavə toxumlarında selik maddəsi, 2,97 % sa- xaroza, 3,1-3,8 % panitozanlar, B2 vitamini, kalium kalsium və maqneziumun, fosfor turşusu duzları vardır. Dağ badamının toxumlarında yuxarıda göstərilənlərdən başqa 3-4 % amiqdalin qli- kozidi vardır ki, bu da parçalandıqda qlukoza şəkərini, benzoy al- dehidini və sionid turşusunu əmələ gətirir.

Dağ badamında olan amiqdalin qlikozidinin bu xassəsindən istifadə edərək, ondan “acı badam suyu” adlı preparat alınır. Bu preparat damcı halında və mikstur dərman növlərinin tərkibində ağrı kəsici və sinir sistemini sakitləşdirici dərman kimi daxilə qəbul edilir.

Elmi təbabətdə badamın toxumlarından alınan piyli yağdan is-

İlində edilir.

Xalq təbabətində şirin badam toxumlarını şəkərlə bir yerdə u/Ib xörək qaşığı ilə gündə 3-4 dəfə öskürəyə qarşı qəbul edirlər. Sulu bişməsini çiçək xəstəliyinə tutanlara içirdilər. Naxçıvanda yerli əhali dağ badamının (yabanı) quru yarpaqlarını çay kimi dəmləyib ishala qarşı və qurd əleyhinə içirlər.

İbin-Sina qeyd edir ki, badamın toxumu beyin və gözün inkişafına müsbət təsir edir.

Dağ badamdan kosmetika sahəsində geniş istifadə edilir. Dağ badamdan alınan efir yağından yüksək keyfiyyətli sabun və kremlər hazırlanmasında istifadə edilir. Kosmetikada istifadə edilən "badam suyu" "badam emulsiyası", dəridə, sifətdə olan piy yığımlarının təmizlənməsində geniş istifadə edilir.

Fransada badam jımığından əldə və dəridə əmələ gələn dəmirov və ekzemaların müalicəsində istifadə edilir. Badam suyu əl və ayaqda əmələ gələn tərləmənin qarşısının alınmasında ən gözəl vasitə hesab edilir.

# ADİ MEŞƏGİLASI-PADUS AVİUM

Dünya florasının tərkibində 10-a qədər növü yayılmışdır. Qafqazda, o cümlədən də Azərbaycanda 1 növü-P.avium yayılmışdır.

Adi meşəgilası-padus avium bu hündürlüyü 6-7 metrə qədər olan ağac və koldur. Qabığı qaramtıl boz rənglidir. Cavan budaqları çox vaxt tünd qırmızı olur. Yarpaqları uzunsov, ellipisşəkilli, ucu sivri, qaidəsi dəyirmi, kənarı xırda iti mişardişli, üst tərəfdən tutqun, qırışıq, alt tərəfdən bozumtul olub, saplağı 1-15 sm uzun- luğundadır. Yarpaqaltıqları bizvari və tez töküləndir. Çiçəkləri rəngli sıx saxlıma toplanmaqla ətirlidir. Ləçəkləri ağ, tərs yumur- tavari, qısasaplaqlıdır. Kasa yarpaqcıqları üçkünc formadadır. Erkəkcikləri 20-ə qədər olub, sarıtoztuqludur. Meyvəsi qara, şarşə- killi olub, üzəri bir qədər parıldayan, çəyirdəkli, şirin və ağızbü- züşdürəndir.

Meşəgiləsi Azərbaycanda orta dağ ətəklərindən yuxarı dağ qurşağına kimi Kiçik Qafqazın mərkəzi hissəsinin meşələrində, meşə kənarında, kol cəngəlliklərində, çay qırağında bitir.

Meşəgilası gözəl bəzək bitkisidir, (xüsusən çiçəklənmə dövründə) Oduncağı nisbətən yumşaq, dülgərlik alətləri hazırlamaq üçün yararlıdır.

Meşəgilasının meyvələrində 6-8% aşı maddələri, antosianlar, 5%-ə qədər alma və limon turşuları, qlikozidlər, fitonidlər, şəkərlər və askorbin turşusu vardır. Yarpaqlarında və çiçəklərində amiqdalin və prola razin qlikozidləri müəyyən edilmişdir. Bu qli- kozidlərə görə çiçəkləri və yarpaqları da acı badamın iyini verir. Meşəgilasının gövdə qabıqlarında 2 % qdər şəkər, amiqdalin, qlikozidləri, antosian, 2-3 % aşı və qonur rəng almaq üçün kver- setin boyaq maddələri tapılmışdır. Bütün orqanları (yarpaqları, çiçəkləri, meyvələri, qabığı) fitonsid xassəlidir. Meyvəsinin tərkibində 2,81 %-ə qədər kül, 13,40 mq/q k, 2,20 Ca, 1,20 mg, 0,04 —120

I u makroelementləri, 22,60 mkq/q Mn, 25,00-Cu, 15,60-Zn, 7,0- Co, 0,28-Cr, 27,40-AI, 0,05-Se, 3,08-Nİ, 0,80-Sr, 1,80-pb, 33,00- B, 0,42-1. mikroelementləri aşkar edilmişdir.

Meşəgilasının qurudulmuş meyvələrindən çay dəmləyib qarın ağrılarında ishala və dizenteriyaya qarşı içirlər. Meşəgilasından demləmə hazırlayarkən meyvələri əzib xırdalamaq məsləhət görülmür, çünki toxumların tərkibində zəhərli amiddalin qlikozidi vardır. Meyvələr sidikqovucu və tərlədici təsirə də malikdir.

Şimal rayonlarında meyvəsindən kisel, sərinləşdirici içkilər, lükorlar hazırlanarkən çəyirdəyiini kənar etmək lazımdır. Əksi halda çəyirdəyindən acı zəhərli təsirə malik olan amiqdalin maddəsi sıza bilər. Meyvəsindən spirtli içkilərə tünd qırmızı rəng vermək üçün istifadə olunur.

Çiçəklərindən meşəgilası suyu alınır ki, bu da bəzi hallarda göz dərmanı kimi işlədilir.

Qabığından hazırlanan çay dəmləməsindən irinli yaraları yu- lub dizinfeksiya edilməsində, zədə almış dəri müalicəsində istifadə edilir. Bundan əlavə qabıq və meyvələrindən hazırlanan cövhərdən miqrobəleyhinə, soyuqdəymədə istifadə edilir.

Meyvəsinin büzüşdürücü xüsusiyyətinə malik olduğundan kosmetikada geniş istifadə edilir.

Çiçək, yarpaq və meyvə hissəsində hazırlanan preparatlarından baş tüklərinin möhkəmləndirilməsində, üzdə olan piy yığılmalarının aradan qaldırılmasında istifadə edilir.

# *Ononis-Ononis*

Paxlalılar-Fabaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində ononis cinsinin 70-ə qədər növü yayılmışdır. Qafqazda, o cümlədən də Azərbaycanda 5 növünə rast gəlmək olur.

Əkin ononisi-O.arvensis bu hündürlüyü 30-80 bəzən (200) sm olan uzun saçaqlı odunlaşmış tünd-qonur çox başlıqlı kök sisteminə malik çoxillik ot bitkisidir. Gövdəsi düz və yaxud sərilən, budaqlanan, türklə əhatə olunmuşdur. Yarpaqları növbəli, saplaqlı, yuxarıdakılar sadə, aşağı və ortada yerləşən yarpaqları üçər formasında uzunsof-ellepisvaridir. Çiçəkləri çəhrayı və yaxud ağımtıl rəngdə, sıx sünbülvari hamşçiçəkdə zoğların qurtaracağında yerləşmişdir. Meyvəsi paxla olub 2-4 toxumdan ibarətdir. Toxumları şar formasında, azca böyrəkvarı, tündqəhvəyi və yaxud zeytunu-qonur rəngdədir. İyul-avqust aylarında çiçək açır, sentyabr-oktyabrda meyvəsi yetişir. Əkin ononisi Azərbaycann Samur-Dəvəçi, Böyük Qafqaz ərazilərində, Alazan-Ağrıçay vadisində, Kür-Araz düzənliyində, Naxçıvan MR-nın dağlıq zonalarında yayılmışdır. Bu növə düzənliklərdən başlayıb, orta dağ qurşaqlarında, çay, əkin, çöl, bağ-bağçada, arx və yol kənarlarında, bulaq və kolluqlarda rast gəlmək olar.

Əkin ononisin müalicəvi xüsusiyyətləri insanlara çox qədim dövrlərdən məlum idi. Hələ Dioskorid bitkinin kök hissəsilə böyrək və sidik kisəsində olan daşların təmizlənməsinin şahidi olduğunu qeyd edir.

Müalicə məqsədləri üçün köklərindən istifadə edilir. Köklərinin tərkibindən ononin qlikozidi-C22 N22 $Q_9$, hidroliz olunaraq formononetin-Cıe N12 Ü4 qlyukozid, onospin-C2i N24 $Q_9$, ononetin-Cıs N14 O4, triterpendiol Cзo Nso O2 və s. maddələrə çevrilir. Bundan əlavə kökünlən piyli yağ, aşı maddəsi, efir yağı, qətran aşkar edilmişdir.

Kökünün tərkibindən 9,51% kül maddəsi, 3,20 mq/q-K, 3,40-

Cu, 4,20-Mg. 0,40-Fe makroelementləri, 0,14 mkq/q-Mn, 0,26- Cu, 0,16-Zn, 0,69-Mo, 0,02-Cr, 0,39-Al, 0,35-V, 14,20-Se, 0,62- Nl, 0,19-Sr, 0,80-pb, 0,15-1, 0,90-B mikroelementləri tapılmışdır.

Əkin ononisin kök hissələrindən dəmləmələr hazırlayıb hələ çox qədim zamanlarda tərgətirici, sidikqovucu və qankəsici vasi- lo kimi istifadə edilmişdir.

Elmi təbabətdə kəskin babasil xəstəlikləri zamanı baş verən qanaxamaları dayandırır, ağrını azaldır, xroniki qəbizliyi aradan götürür. Bundan əlavə çövhəri ilə böyrək və sidik kisəsində olan daşların əridilib orqanizmdən kənar edilməsində istifadə edilir. Kosmetologiya sahəsində otundan hazırlanmış vannalarla dəridə olan ekzema və yaraların müalicəsində istifadə edilir. Kökündən hazırlanmış məlhəmlərlə dəri çatmalarında baş verən qanaxmaların dayandırılmasında işlədilir. Xroniki dəri xəstəliklərində kök hissəsindən alınan sulu dəmləmələrdən qantəmizləyici vasitə kimi istifadə edilir.

Kök hissəsini payızda çıxarır, gövdə hissəsini kəsib atır, soyuq suda yuyur, kağız üzərinə sərib mehvuran yerlərdə qurulurlar. Süni üsulla 40-60 ° temperaturda xüsusi qurudücularda qurudurlar. Yaxşı qurudulmuş xammal öz keyfiyyətini 2 il müddətində itirmədən saxlayır. Əkin ononisin əkildiyi hər hektar sahədən birinci ili 8 sentner, ikinci ili isə 22 sentner quru kök məhsulu əldə etmək olar.

Kökündə flavonoid boyaq maddəsi saxladığına görə yun ipləri sarə və onun çalarlarına boyamaq olar.

# *SAFORA-SOPHORA*

Dünya florasının tərkibində 50-ə qədər növü yayılmışdır. Qafqazda o cümlədən də Azərbaycanda mədəni halda I yəni Sophora yoponica növünə rast gəlmək olar. Bu hündürlüyü 20-25 m-ə çatan, yarımkürə çətir yaradan, yarpağını tökən ağacdır. İri gövdələrdə ağacların qabığı tünd boz rəngdə olub, dərin çatlıdır. Zoğları və cavan budaqları tikansız olub, yaşıldır, tumurcuq yarpaq saplağının qaidəsi ilə örtülüdür. Yarpaqları tək ləlәkvaridir. 11-25 sm uzunluğunda olub, 9-17 ədəddir. Çiçəkləri 1-1,5 sm uzunluğunda, sarımtıl-ağ rəngdədir. 15-30 sm uzunluqda seyrək süpürgələrdə budaqların qurtaracağında yerləşmişdir. Paxlaları 3-8 sm uzunluğundadır. İyul-avqust aylarında ğçiçəkləyir. Meyvəsi sentyabr-oktyabr aylarında yetişir. Azərbaycanda 1937-ci ildən geniş surətdə əkilib becərilir. Vətəni Yaponiya və Cənubi Çin hesab edilir. Respublikamızın düzən rayonlarından tutmuş orta dağ zonasına qədər meşə, park və bağlar salınmasında, şəhərlərin yaşıllaşdırılmasında geniş istifadə olunur. Düzən rayonlarda, o cümlədən Abşeronda suvarma tələb edir. Yapon saforası ağ akasiyaya çox oxşayır. İlk görünüşündə bunları bir-birindən ayırmaq çətin olur. Bunların hər ikisinin qarşı-qarşıya düzülmüş uzunsov yarpaqları, həmçinin sarımtıl solğun ağ çiçəkləri bir-birinə oxşayır. Akasiya kimi yapon saforası da torpağa az tələbkardır. Bu keyfiyyətlərinə görə yapon saforası Cənub rayonların iqlim-torpaq şəraitinə tez uyğunlaşaraq bu yerlərin daim "sakininə" çevrilmişdir.

Safora bitksinin ən mühüm bioloji xüsusiyyətlərindən biri də (bütün paxlalılarda olduğu kimi) torpağı azot maddəsi ilə zənginləşdirir. Bu müsbəti xüsusiyyətlər saforanın cənub rayonlarının qumsal sahələrində əkili becərilməsinə səbəb olmuşdur.

Müalicə məqsədləri üçün qönçə, çiçək, yarpaq və meyvəsindən istifadə edilir. Yapon saforasının bu hissəsindən rutin-C37 N30 016, saforin, kversetin-C15 N10 07, ramnozin, amiloz, seforozid və s. maddələr tapılmışdır. Yayıldığı ekoloji şəraitdən ası-

lı olaraq qonçasının tərkibində 20-37 %-ə qədər rutin maddəsi mlayır. Toxumunun tərkibində protein, zülal və nişasta tapılmışdır Bundan əlavə meyvəsinin tərkibindən 4,44 % kül maddəsi, 17,30-mq/q K, 2,20-Ca, 1,20-Mg, 0,05-Fe makroelementləri, 11,20 mkq/q-Mn, 13,00-Cu, 28,80-Zn, 3,84-Co, 0,72-Mo, 0,40- Cr. 15,92-Al, 0,12-Se, 1,76-Nİ, 1,44-pb, 9,20-B, 0,15-1 və s. mikroolementləri aşkar edilmişdir.

Çiçəklərindən isə 5,16 % kül maddəsi, 21,30 mq/q-K, 5,50- Ca, 1,80-Mg, 0,10-Fe makroelementləri, 14,80 mkq/q-Mn, 20,50- Zn, 0,80-Mo, 0,48-Cr, 51,14-Al, 0,18-Se, 3,12-Ni, B O Cu, 3,04- Sr, 0,96-rb, 34,40-B, 0,10-1 və s. mikroelementləri tapılmışdır.

Bitkiyə vətəni Çin və Yaponiyada sitayiş edərək, tibbdə bir çox xəstəliklərin o cümlədən damarların möhkəmləndirilməsində, alınan rutin maddəsindən vitamin çatışmazlığında, şüa xəstəliklərində, qan qapliyarlarının pozğunluqlarının aradan qaldırılmasında, revmatizmdə, sarılıq xəstəliklərinin müalicəsində geniş istifadə edilir.

Saforanın qönçə və çiçəklərindən hazırlanmış preparatlardan dəri səpgilərinin, ekzema, qotur, qaşınma, yanıq trofiq yaraların müalicəsində geniş istifadə edilir. Qönçəsindən hazırlanan vannasında yuyunaraq saçın möhkəmləndirilməsində və tükünün tökülməsinin qarşısının alınmasında istifadə edilir.

Qurudulmuş meyvəsindən hazırlanan ekstraktla dəri toxumalarının bərpa edilməsində istifadə olunur.

Orta əsrlərdə Çin dövlətində yapon saforasının qönçələrindən 100 tonlarla toplayıb, “çin sarı giləmeyvəsi” adı altında təbii boyaq xammalı kimi bir çox ölkələrə ixrac olunurdu. Çinin özündə də yapon saforasının qönçə və meyvəsindən təbii boyaq alaraq parça məmulatlarının boyanmasında geniş istifadə olunmuşdur.

Yapon saforası toxum, kök, qələm vasitəsilə asanlıqla əkilib çoxaldılır.

# *İNNAB-ZIZYPHUS*

İnnabın (Zizprhus yuyuba) hündürlüyü 15 metrə çatır. Lakin Azərbaycan şəraitində innabın hündürlüyü orta hesabla 6-12 metrə qədər olur. Ağacların gövdəsi kələkötür, oduncağı bərk, palıdı rəngdə, çətri ensiz olub, budaqları yuxarıya doğru qalxır. Cavan zoğları əvvəlcə tünd yaşıl, sonra palıdı və nəhayət qırmı- zımtıl-boz rəng alır. Budaqları dirsəklidir, hər dirsəkdə ildən-ilə böyüyən, düyünə bənzər, üstü pul-pul fırlar vardır. Bu fırların üzərində vegetativ və generativ tumurcuqlar yerləşir.

Yarpaqları sadə, növbəli, alt tərəfdən açıq yaşıl, ürək şəkilli olub, kənarları bütöv, yaxud dişciklidir. Yarpağın uzunluğu 2-5 sm, eni 2-2,7 sm olur. Saplaqlarının uzunluğu isə 0,2-5 smdir. Üzərindəki üç əsas damarın biri yarpağın tam ortasından, digərləri isə yarpağın kənarlarından ucuna tərəf gedir.

Yarpaqları iki tikandan ibarət olub, yarpaq saplağının əsasında yerləşir. Onlardan biri uzun, digəri isə qısadır.

Çiçəkləri cari ildə əmələ gəlmiş cavan budaqlar üzərində, yarpaqların qoltuğu altında qruplarda yerləşir. Hər çiçk qrupunda 7- 14 çiçək, hər cavan budaqda isə 5-12 çiçək qrupu olur. Çiçək yatağı bir qədər ətli, yastı, ulduzvarıdır, qızılı sarımtıl rəngdədir. Dişiciyi çiçək yatağının ortasında olub, birağızcıqlıdır. Çiçəkdə 5 kasa yarpağı və 5 ədəd ləçək yarpağı vardır. Ləçəklərin arasında isə çiçək yatağının kənarına yapışmış 5 ədəd erkəkcik yerləşir.

Meyvələri yumru, uzunsov, armud şəkilli, qabıqları parıldayan, qəhvəyi, qırmızımtıl-qonur rəngdə olub, çəyirdək meyvədir. Meyvələri yabanı halda 1-2 sm, mədəni formalarda 3 sm uzunluğunda, 1,5-4,5 q ağırlığında olur.

İnnabın vətəni cənubi və cənub-şərqi Asiya, həmçinin Orta Asiya və Zaqafqaziya sayılır.

İnnab Azərbaycanda qədim zamanlardan bəri həyətyanı sahələrdə becərilir. Bu bitkiyə ən çox Göyçay, Ağdaş, Ucar, Abşe-

ron yarımadasında, bəzi hallarda isə Cənubi Qarabağ rayonlarında, Gəncə, ətraflarında Şəki, Qax, Zaqatala rayonlarında, Mu- (jıın-Mil düzlərində, Lənkəran və Naxçıvanda rast gəlmək mümkündür.

İnnab çox qiymətli faydalı bitkidir. Belə ki, onun meyvəsi dadlı və keyfiyyətlidir. Meyvələri yaş və qurudulmuş halda istifadə olunur. İnnabın meyvələrinin tərkibində 800 mq %, yarpaqlarında İsə 1220 mq % S vitamini vardır. İnnabın meyvələrinin tərkibində 40%-ə kimi şəkər, 5%-dən çox protein, 1,5% kəhrəba və alma turşusu, 2,5% pektin 2%-ə qədər qatran, 1,2% aşı maddəsi və s. vardır.

İnnabın meyvəsindən qənnadı və konserv istehsalatında istifadə edilir.

Qurudulmuş innabı bir ildən çox saxlayıb ondan istifadə etmək mümkündür. İnnabın meyvələrindən Yaxın Şərq və Aralıq dənizi ölkələrində yaş və qurudulmuş halda istifadə olunur.

Xörək hazırlamaq üçün onun meyvələrini düyü ilə birlikdə qaynadıb qovururlar. İnnabdan çörək də bişirilir.

Azərbaycanda və Yaxın Şərqdə İnnab qədimdən müalicə məqsədilə işlədilir.

Qalen göstərir ki, bu meyvə asan həzm olunmasına görə mədəyə müsbət təsir göstərir. Ərəb həkimi Məssih göstərmişdir ki, innabın meyvələri astma xəstəliyi zamanı insanı sakitləşdirir. Başqa məmulatlara görə innabın meyvələri qan dövranında oyadıcı təsir edir. Məhəmməd Hüseynin bir neçə əsr bundan əvvəl yazılmış “Məhzən-əl ədviyyə” əsərində innabın müalicə əhəmiyyəti haqqında geniş məlumat var. O göstərir ki, innab öskürək və ağız yarasının müalicəsi üçün yaxşı dərmandır. İnnab meyvəsinin ununa bal qatmaqla hazırlanmış yağ ağız yarasını sağaldır, innab qanı təmizləyir, ciyərin, böyrəyin və sidik kisəsinin ağrısını sakitlşdirir.

Biz ilk dəfə laboratoriya şəraitində innabın yarpaq və qabıqla

rından boya məhlulu hazırlayıb, yun, ipək və pambıq məmulatlarını boz, bozumtul-sarı, bozumtul-qonur, açıq qonur, qonur-yaşılımtıl, yaşılımtıl-boz, zeytunu, zeytunu-yaşıl, açıq qəhvəyi, açıq şabalıdı, şabalıdı-qonur, çəhrayı-qonur, mavi-qonur, göyümtül- boz və s. rəng və çalarlara boyadıq. Ümumiyyətlə biz ilk dəfə innabdan 50-dən artıq rəng və çalar almağa nail olduq. Alınan rənglər bütün kimyəvi təsiredicilərə qarşı çox davamlıdır.

İnnabın meyvələrindən aldığımız boyaqdan biskivit, tort, zefir, keks, konfet, marmalad, barbaris və s. rənglənməsində istifadə etmək olar.

İnnab şaxtaya, quraqlığa davamlıdır. Tez məhsul verməyə başlayır. Hər il bol məhsul verə bilir. İnnabdan qoruyucu zolaqlar düzəldilir, yarğanları, uçurumları möhkəmlətməkdə istifadə olunur.

İnnab gözəl bəzək ağacıdır. O qəşəng çətiri və parıldayan yarpaqları, ətirli çiçəkləri ilə özünün görünüşünü daha da yaxşılaşdırır, payızda qırmızıtəhər qəhvəyi meyvələri onu bir az da gözəlləşdirir.

İnnabdan dağətəyi və aran yerlərində, daşlı, qumlu ərazilərdə və yamaclarda yaşıllıqlar və canlı çəpərlər salmaq üçün istifadə oluna bilər. Təbii yolla dəniz səviyyəsindən 1500 metrə hündürlüyə qədər yayılır. Kök bicləri basdırma yolu ilə asanlıqla çoxalır.

# *QIZILGÜL-ROSA*

Qızılgülçiçəklilər-Rosaceae fəsiləsindəndir.

Qızılgül cinsinin dünya florasının tərkibində 550-600-ə qədər növünə rast gəlmək olar. Bunlara ən çox yer kürəsinin Şimal yarümkürəsində rast oəlmək olar. Keçmiş SSRİ-də 200, Qafqazda 56, o cümlədən də Azərbaycanda 42 növü yayılmışdır. Bunlardan (> növü mədəni halda əkilib becərilir. Qızılgül qol-budaqlı, 15-200 вт-ə qədər hündürlükdə olub, növbə ilə düzülmüş ləkəyəbənzər Щ1ап vardır. Gövdə və qol-budaqlarının üzən xırda tikanlar- müşdür. Tək-tək yerləşmiş qırmızı, qırmızı-bənövşəyi və nadir hallarda ağ rəngli çiçəkləri son dərəcə xoşagələn ətirli qoxuya malikdir.

Qızılgül Bolqarıstanda, Fransada, Türkiyədə, Hindistanda, Əfqanıstanda, Misirdə, Suriyada və başqa ölkələrdə yağ almaq məqsədilə becərilir. Qızılgül Krımda, Krasnodar vilayətində, Ukrayna, Moldaviya, Gürcüstan və Azərbaycanda da becərilir. Azərbaycanda qızılgül çox qədim zamanlardan bəri becərilən ən qiymətli ətirli və şəfalı bitkidir. Böyük Azərbaycan şairi və filosofu dahi Nizami də öz əsərlərində Azərbaycanın qədim şəhər və kəndlərində ətiri adamı bihuş eləyən qızılgülləri məharətlə təsvir edir. İlk dəfə Bolqarıstanın qazanlıq qızılgülü Ordubad şəhərində əkilmişdir. Hazırda respublikamızda Şəki-Zaqatala zonasında geniş sənaye əhəmiyyətli plantasiyaları salınmışdır.

Hər qızılgül kolunda 800-1000 məxməri gül. Hər güldə isə 70-80-a qədər ləçək olur. Bir gülün çəkisi 3-4 qram gəlir. Hər hektardan 25-30 sentner gül toplamaq olar. Çiçəkləri sübh tezdən toplayıb həmin gün də efir yağı zavoduna göndərirlər. Burada təzə toplanmış çiçəklərdən efir yağı istehsal edirlər. Qızılgüldə 0.1-0,2 faizə qədər efir yağı vardır. 1 ton qızılgül ləçəyindən 0,8 kq qızılgül yagı alınır. Qızılgül çiçəklərində efir yağının miqdarı az olsa da, bu yağ çox qiymətli sayılır. Hətta vaxtilə bu yağ qızıla bərabər tutulmuşdur. Qızılgül yağının tərkibinin çox hissəsi xoşətirli alifatik birləşməiərdən ibarətdir. Bu birləşmələrin ən mühüm və miqdarca çoxu (60 faiz) geraniol spirtidir. Bundan başqa qızılgül yağında 30 faizə qədər sıtronellol, 1%-ə qədər fenil-etıl spirti, sit- rol və evqenol vardır. Meyvəsinin tərkibində P vitamini 15-18 fa

iz S vitamini vardır.

Qızılgül yağı ətriyyatda ən bahalı ətirlərə, odekalonlara, pomadalara, əl-üz sabunlarına, yuyucu tozlara, şampunlara, diş rastlarına və s. məlumatlara əlavə edilir. Qızılgül yağından qənnadı və likor-araq sənayesində və təbabətdə, əczaçılıqla da geniş istifadə edilir.

Qızılgül likörü və qızılgül spirtsiz desert içkisi əsasən qızılgül yağı əlavə edilməklə hazırlanır. Qənnadı sənayesində qızılgül yaqı, ətirli cövhərlərin tərkibinə daxil olur. “Meçta” karameli qızıl- güf vağı ilə ətirləndirilir. Bundan əlavə qızılgül cövhərindən cüzi halda xörəkləri ətirli etmək üçün də ədviyyat kimi qatılır.

Ətirli su olan qızılgül suyu (gülab) xalq təbabətində malyariya xəstəliyi zamanı dəriyə sürtmək üçün istifadə edilir. Qızılgül mürəbbəsi isə qanazlığında qüwətləndirici və mədənin həzm prosesini yaxşılaşdırıcısı vasitə kimi işlədilir.

Qızılgül ləçəklərindən sənaye miqyasında (Zaqatala və Ordubadda) mürəbbə də istehsal edilir. Ən yaxşı mürəbbə kazanlıq qızılgülü ləçəklərindən alınır. Ləçəklərin aşağı hissəsi kəsilib atılır, yuyulur və 5 dəqiqə qaynar suda pörtülür. Pərtlətmək üçün istifadə olunan suda 40/-İİ şəkər məhlulu-şərbət hazırlanır, ləçəklərin üstünə tökülür və bir dəfəyə hazır olunca bişirilir. Hazır olana yaxın limon turşusu əlavə edilir. İtburnu gülünün ləçəklərindən də mürəbbə hazırlanır.

Gülab qızılgül ləçəklərinin su buxar ilə distilləsindən alınan ətirli sudur. Bir sıra spirtsiz içkilərin (əsasən şərbətlərin) ətirləşdirilməsində gülabdan istifadə edilir. Xalq təbabətində başağrısına qarşı tətbiq edilir. Halva, südlü sıyıq və s. bu kimi şirin xörəklərin ətirləndirilməsində işlədilir. Qızılgül ləçəklərindən gülqəndə də hazırlanır. Gülqənd hazırlamaq üçün qızılgül ləçəkləri 1:2 nisbətində şəkər tozu ilə birlikdə əzişdirilir, 20-30 gün günəş altında saxlanılıb yetişdirilir. Bu yüksək kalrili və ətirli qida məhsuludur. 7 il saxlanılmış gülqənddən xalq təbabətində qüvvətli dərman kimi ümumi zəifliyi, qanazlığının, başgicəllənməsinin və s. xəstəliklərin qarşısını almaq üçün istifadə edilir.

Qızılgülün tünd qırmızı sortlarının ləçəklərindən gülsuyu hazırlamaq üçün onların üzərinə qaynar su tökülür, limon turşusu əlavə edilib 8-10 saat saxlanılır. Bundan sonra düzülür, şəkər əlavə edilir və soyudulur. Beləliklə Ovtala adlı şərbət hazırlanır. Bəzən

Ovtalaya gülab da qatılır. Ovtala yeməkdən sonra və ya plov yanında verilən spirtsiz iskidir-şərbətdir. Ovtal Quba, Xaçmaz rayonlarında geniş yayılmışdır.

*Gülabın alınma qaydası.* Gülab təklikdə içki deyildir. İçkilərin ətirli olması üçün ondan istifadə edilir. Gülab qızılgüldən alınır. Onun çəkilməsi üsulu "araqnanənin" çəkilməsi kimidir. Lakin gülabın çəkilməsi üçün bir sıra digər qab növlərindən istifadə odilir.

Gülab çəməkdən ötrü qızılgülü dərir, adi mis qazanın içərisinə, yarısına qədər doldurulur və gülün üst səthindən 3-4 sm yuxarı qalxmaq şərti ilə qazana su tökürlər. Qazan ocağın üstünə qoyulur. Sonra qazanın ağzına gildən xüsusi hazırlanmış əngə- пэк adlanan qabı çevirib kip surətdə oturdulur və ora xəmirlə səliqə ilə xəmirlənir. Bundan sonra əngənəyin böyründəki deşiyə təxminən 1-1,5 m uzunluğunda qamış taxılır. Qamışın o biri başı isə axar soyuq su içərisinə qoyulmuş güyüm ağzına taxılır və ağacdan qayrılan "toz" adlanan əşyanın deşiyinə bənd edilir. Bu əməliyyat qurtarandan sonra, qazanın altı yandırılır və qızıl gül qaynadılmağa başlanır. Beləliklə qaynamaqda olan suyun buxarı əngənəyin və torun deşiyinə bənd edilmiş qamışın içərisindən keçərək güyüm içərisinə dolur və burada güyümün soyuq divarlarına toxunaraq gülaba çevrilir. Qamış şiddətli qızmamaq üçün onun üzərinə əski parçaları sarıyır və soyuq su ilə tez-tez isladılır.

Gülab şüşə qablara doldurulur, ağızları tıxaclanır, xəmirlənir, rəf və şkaflara düzülür.

*Gül suyunun hazırlanma üsulu.* Gül suyu da təklikdə içilmir. Lakin içiləcək içkini ətirli və xoşməzə etmək məqsədi ilə tətbiq olunur. Gül suyu qızıl güldən hazırlanır... Bunun üçün dərilmiş qızıl gülün yarpaqlarını şüşə və ya çini bərniyə yığıb üzərinə ilıq su tökür və bir qədər limon duzu əlavə edirlər. Limon duzu gül suyunun rəngini bir qədər tündləşdirir və onu turşməzə edir. Bütün bu işlərdən sonra onun ağzını kip qapayırlar. Sonra gül suyu butulkalara tökülür, butulkaların ağzını bərkidir və hətta xəmirləyir, mumlayırlar. Gül suyundan istifadə etmək lazım gəldikdə butulkanın ağzı açılır, istənilən qədər götürülür və yenidən butulkaların ağzı möhkəm qapanır.

# SARAGAN-COTINUS

Sumaq-Anacardiaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində 3 növünə rast gəlmək olar. Qafqazda o cümlədən Azərbaycanda 1 növü-C.coggygria yayılmışdır.

Sorağan-hündürlüyü 2-5 olan qüvvətli (çoxlu) budaqları olan kol və ya kiçik ağacdır. Yarpaqları növbəli tökülən olub, iri yumur- tavari çılpaq yazda yaşıl, yayda sarımtıl, payızda isə qırmızı rəngdə olub dəyişəndir. Yarpaqlarının uzunluğu 8-10, eni 7 sm- dir. Saplaqları uzundur. Çiçəkləri yaşımtıl qonur rəngdə iri yumu- şaq süpürgədə toplanmışdır.

Çiçəyinin çoxu toxum verməyən olub, çiçəksaplağı isə çiçə-kaçandan sonra xeyli uzanır, üzəri qırmızımtıl və ya çəhrayı yu-muşaq tüklərlə əhatə olunaraq gözəl görünüşə malik olur.

Çəyirdək meyvəsi quru xırda, yumşaq tüklərlə örtülmüş, gözəl görünüşə malik hamaş meyvədə toplaşmışdır. Bitki may ayında çiçəkləyir, iyul-sentyabrda meyvə verir. Hamaş meyvələri zəif külək əsən zaman qopub uzaq məsafələrə yayılaraq artıb çoxalır.

Bitkini kökə toxunmadan kəsdikdə qısa bir dövrdə çoxlu zoğlar verib kollaşmağa başlayır. Sarağanın vətəni Cənubi və Orta Avropa, Suriya, İran və Əfqanıstan hesab edilir.

Sarağan respublikamızın dağ-meşə rayonlarının aşağı və orta qurşaqlarında yayılmışdır. Bol ehtiyatı Böyük və Kiçik Qafqazın şərq qərb, şimalı, mərkəzi və cənub-bozqır yaylası kür düzənliyi, Şəki, Oğuz, İsmayıllı, Kəlbəcər, Ağdərə rayonlarındadır. Şamaxı və Ağsu rayonlarında da rast gəlinir. Buna orta dağ qurşaqlarından başlayıb, quru yamaclarda, qayalı və daşlı yerlərdə, tək və ya başqa kollarla birlikdə və qrup halında rast gəlmək olar. Əhənglə zəngin olan torpaqlarda yaxşı inkişaf edir. İşıq sevən bitki olub, quraqlığa və şaxtaya davamlıdır.

Sorağanın yarpaq və oduncaq hissəsindən dərman, aşı və boyaq maddəsi istehsalını təşkil etmək olar. .

Azərbaycan xalqı sarağandan aşı və boyaq bitkisi kimi qədim /amanlardan bəri geniş istifadə etmişlər. Belə ki, XX əsrin əvvəllərinə kimi İsmayıllı rayonun Lahıc kəndində, Şəki şəhərində yerli dabbaqxanalarda bu bitkinin yarpaqlarından aşılayıcı kimi geniş surətdə istifadə edilmişdir. Burada dağ keçsinin (dağ kəli) və başqa kiçik heyvanların dərisi bununla aşıya qoyulur və hazırlanan gen-dəridən ayaqqabı (çust) meşin və dəri paltolar və s. tikilirmiş. Sarağanın yarpaqlarının tərkibində 15-25 %-ə qədər aşı maddəsi tapılmışdır ki, bunun da əsas hissəsini tanin-C76 N52 046 (Pentaqaloil-qlyukozidi) təşkil edir. Bundan başqa qall turşusu, mirisitrin-021 N20 012, fustin-C15 N12 06 flavanid maddələri, 0,2% efir yağı və s. tapılmışdır. Bundan başqa yarpaqlarının tərkindən 3,67% kül maddəsi, 11,4 mq% q-K, 6,50-Ca, 1,90-Mg, 0,07-Fe makroelementləri, 26,60 mkq/q-Mn, 7,60-Cu, 23,20-Zn, 0,16-Co, 0,16-Cr, 22,00-AI, 0,15-Se, 2,88-Ni, 2,96-Sr, 0,64-pb 43,20-B və s. mikroelementləri tapılmışdır. Sənayedə yarpaqlarından texniki və tibbi tanin istehsal edilir. Oduncağından flava- noid xassəli boyaq maddəsi alınır. 1 kq tozundan hazırlanan boyaq məhlulu ilə 15-20 kq-a qədər yun ipi boyamaq olar.

Gələcəkdə respublikamızın ərazisində boyaq sənayesi geniş-ləndirilərsə sarağanı mədəni halda geniş surətdə əkmək lazım gələcəkdir. Sarağan bəzi başqa bitkilərin inkişaf edə bilmədiyi dağ yamaclarında asanlıqla inkişaf edir. 1 hektar sahədə 12000- 15000 kol əkmək olar. Yer sürüşməsinə qarşı da yararlıdır. Oduncağı yerin altında və üstündə uzun zaman çürümədiyinə görə üzüm bağlarında uzun müddət paya kimi istifadə oluna bilər. Tokarçılıq və dülgərlik işlərində geniş istifadə edilir.

Təbii şəraitdə torpağı yaxşı bərkidən budaqlanmış kök sistemi əmələ gətirir.

1 hektar sahədən 150-300 kq, bəzən isə 2,5 ton yarpaq topla

maq olar.

Yaxşı dekorativ kol sayılır.

Sarağanın yarpaqlarından hazırlanan tanin preparatlarından büzüşdürücü, antisentik soyuqdəymədə istifadə edilir. Tanalbin, Tansol preparatlarından isə ağız, burun, mədə yaralarının, yanıqların müalicəsində işlədilir.

Sorağanın dəmləmə və cövhərlərdən kosmetika və dermatalogiya sahələrində geniş istifadə edilir. Belə ki: cövhərlərindən dəridə çətin sağalan yaraların, ekzema və qaşınmaların müalicəsində istifadə edilir. Şaxta vurma nəticəsində əl və ayaq nahilə- rində əmələ gələn şişlərin müalicəsində gözəl effekt verir. Bundan əlavə sarağanın ekstraktından ağız nahiyyəsində əmələ gələn yaraların, dişlərin dibindən axan qan sızıntıların qarşısını almaq üçün qar-qara kimi istifadə edilir. Sarağana odundağından alınan boyaqla qadın saçlarının dibini mökəmləndirirlər. Sarağa- nın yarpaq və oduncağından aşı və flovanid maddələri ilə zəngin boyaq ekstraktları hazırlayıb kosmetika və ətriyyatda geniş istifadə oluna bilər. Sarağan toxum və qələmlə asanlıqla artırılıb çoxaldılır.

# *SUMAQ-RHUS*

Dünya florasının tərkibində 250-ə qədər növünə rast gəlmək olar, Qafqazda, o cümlədən Azərbaycanda 1 növü-Rhus coriaria



yayılmışdır. Aşı sumaq-R.coriaria hündürlüyü 8 m-ə diametri 20 sm-ə qədər olan xırda ağac və ya koldur. Yaşlı ağacların dirək gövdəsinin qabığı bozumtul rəngli dayaz, qeyri-bərabər çatlıdır. Cavan bağlarının qabığı açıq şabalıdı olub, seyrək və ya sıx sarı qırmızımtıl, qumral tükcüklə örtülmüşdür. Yarpaqları mürəkkəb olub, 9-17 ədəd bir yerdə olan təkləkəvarıdır. Yarpaqcıqları əsas saplaq üzərində oturaq olub, ucdan küt, üzəri tükcüklü, kənarları kobud mişarvari dişlidir. Xırda, yaşıltəhər ağ rəngli, bircinsli çiçəkləri gövdə və budaqların yuxarısında piramidal süpürgəyə oxşar çiçək qrupunda toplaşmışdı. Meyvəsi .qonur-qırmızı, yumru, böyrəkvari olub, tükcüklərlə örtülmüşdür. İyun-iyul aylarında çiçəkləyir. Meyvəsi sentyabr-oktyabr aylarında yetişir. Hər çiçək süpürgəçində 200-300 (500) meyvə olur. Normal inkişaf etmiş bir ağacda 70-150 sünbülvari dişicik çiçəkləri olur ki, bu da hər ağacın 50 min toxum (meyvə) verməsinə imkan yaradır. Bəzən sumaq dəniz səviyyəsindən 800 m yüksəklikdə təsadüf edilir. Quraqlığa davamlıdır, 25° şaxtadan quruyur. Lakin şaxta vurmuş yerüstü gövdəsi quruduqda kökdən pöhrə verərək təzələnir. Azərbaycada Naxçıvan MR-də orta dağ qurşağına kimi, Böyük Qafqazda 2800 hektar sahədə yayılmışdır. Dəvəçi rayonunda Pirə- bədil, Düz Bilici, Pirəməsən, Leyti, Dağ Bilici, Gəndov, Ləçədi, Sədan, Meşrif kəndləri yaxınlığında və gil-gil çay hövzəmində kənd təsərrüfatı sistifadəsindən çıxmış əkinə yaramayan torpaqlara asanlıqla köçür və sıx təmiz sumaq kolluğu yaradır. Düz Bilici kəndi yaxınlıganda qoyulmuş nümunə sahəsində 1 hektarda 1250 ədəd kol vardır. Hər kolda orta hesabla 50 q mevyə olmuşdur. Beləliklə 1 hektarda 500 kq meyvə ehtiyatı olduğu hesablın- maşdır. Ümumiyyətlə Böyük Qafqazd 75 ton sumağın meyvə ehtiyatı müəyyən edilmişdir (Əsədov, 1981)

Sumağın sənaye əhəmiyyətli ehtiyatları Şəki, (Ordubad) İsmayıllı, Şamaxı, Ağsu, Dəvəçi, Quba rayonlarında aparmaq olar. Bu rayonlarda 2 min hektara qədər sumaq bitkisi yayılmışdır. Hər hektarda 500 kq quru çəki ilə sumaq meyvəsi toplamaq olar. Sumaq qiymətli texniki bitki sayılır. Yarpaqlarının tərkibində 12-30 %-ə qədər aşı maddələri tapılmışdır. Aşı maddələrinin tərkibində 15% tanin, qal turşusunun metil efiri, eləcə də sərbəst halda qal və selaq turşuları var. Yarpaqlarında alma və çaxır turşular, flavo-

noidlər (mirisitrin) 11 mq % S vitamini və s. vardır. Bundan baş- na yarpaqlarından kversetin, ramnetin, mirisetin, flav ol efir yağı (İzi), 18,38 piyli yağ, 6,03 % üzvi turşular, K vitamini (izi) və s. tapılmışdır.

Aparılan eksperimental təcrübədə sumağın yetişmiş meyvələrinin dəmləməsi, xüsusən meyvələrdən hazırlanmış duru eks- trakt qanda şəkərin miqdarını azaldır. Bundan əlavə sumağın spirtli duru ekstraktı klinik təcrübədən də keçirilmiş və onun şəkərli diabetin başlanğıc dövründə effektli təsir göstərdiyi müyyən edilmişdir. Azərbaycan xalq təbabətində sumaq yarpaqlarından ve meyvələrindən çay dəmləyib qarın ağrısına ishala və dizente- riyaya, iflic, podaqraya qarşı içirlər. Meyvəsi kəskin turş dada malik olub, qırmızı toz halında tünd sirkə hazırlanmasında və xalq təbabətində öd kisəsi xəstəliklərinin müalicəsində, qanaxmada və s. istifadə olunur. Azərbaycanda xalq təbabətində sumaq tozundan isitmə zamanı temperaturu aşağı salan vasitə kimi istifadə edilir. Yun və ipək parçaların sarı, narıncı, qırmızı, qəhvəyi, qonur çəhrayı və s. rənglərə boyanmasında sumaxın bütün hissələrindən istifadə etmək olar. Azərbaycanda sumağın təbii ehtiyatları böyükdür. Kənd təsərrüfatı üçün yararlı olmayan yerlərdə, quru, daşlı-çınqıllı yamaclarda geniş surətdə becərilə bilər.

Meyvəsi iştah açandır. Meyvəsindən ədviyyat kimi ən qədim zamanlardan hazırkı dövrə qədər müxtəlif xörəklərin-ət, piti, tikə-kabab, lüləkabab, qutab və s. tərkibinə qatqı kimi əlavə edilir. Sumaqdan hazırlanan ədviyyat iştahartırıcı, həzm yaxşılaşdırıcı xüsusiyyətlərə malikdir. (Qasımov, 1992)

Meyvə və yarpaqlarından alınan dəmləmə və cövhərlərdən dəridə olan ekzemaların, qaşınmaların, yaraların müalicəsində istifadə edilir. Yarpaqlarından alınan cövhərdən tüklərin dibini bərkidilməsində işlədilir. Meyvəsinin toxumlarından alınan bərk yağla müxtəlif kosmetik kremlərin hazırlanmasında istifadə oluna bilər.

# MURDƏŞƏR-FRANGULA

Dünya florasının tərkibində 50-yə qədər növü yayılmışdır. Azərbaycanda 2 növünə təsadüf edilir. Bunlar aşağıdakılardır: qızılağac mürdəşər-F.alnus, iriyarpaq mürdəşər-F.grandifolora.

Mürdəşirin növləri yarpaqlarının tökən, bəzən həmişəyaşıl, tikansız budaqlara malik xırda ağac və ya kol bitkilərdir. Mürdəşirin ən qiymətli növü qızılağac mürdəşər-Frangula alnus sayılır. Bu hündürlüyü 6-7 metrə qədər olan, qara rəngli, hamar qabıqlı, kiçik ağac və ya kol bitkisidir. Cavan zoğları qırmızımtıl-şabalıdı rəngli və lansetvari, ağ mərcişəklidir. Zoğları çılpaq və ya qonu- rumtuldur, tumurcuqları şabalıdı rəngli, ipəkvari tüklüdür. Yarpaqları uzunsov-enlipsvarıdan enli tərs yumurtavarıyadək dəyişkəndir, uzunluğu 3-6 (8) sm, eni 1,5-4 (5) sm-dir. Uca tərəf kəskin daralandır və ya dəyirmidir. Çiçəkləri xırdadır, ikicinslidir, ensiz zəngvarıdır. Xaricdən görünüşü yaşımtıl-ağ, daxildən sarım- tıldır. Yarpaq qoltuqlarından çıxmış 1 sm uzunluğunda olan qısa saplaqlar üzərində yerləşir. Meyvəsi torvarıdır, diametri 8-10 mm-ə qədərdir. Əvvəlcə qırmızı, yetişdikdən sonra bənövşəyi- qara rənglidir, içərisində 2-3 ədəd linzavarı, hamar şabalıdı rəngli çəyirdəyi olan çəyirdək meyvədir. May-iyun aylarında çiçəkləyir, sentyabrda meyvəsi yetişir. Qızılağac mürdəşər Azərbaycanın dağ-meşə rayonlarında geniş yayılmışdır. Xüsusən Quba- Qusar, Şəki-Zaqatala, Lənkəran-Astara zonalarında bol ehtiyatı vardır. Buna arandan yuxarı dağ qurşağınadək rütubətli yerlərdə, meşə kənarlarında, kolcuqlarda, çay kənarlarında, bataqlıq çəmənlərdə meşəciklər təşkil edir, qrup halında və başqa kol cinsləri arasında səpələnmiş halda təsadüf edilir.

Dağlıq zonalarda dəniz səviyyəsindən 1700 m-ə qədər hündürlüyə qalxır. Çox davamlı və torpağa az tələbkardır. Alazan-........

Aftrçay ovalığında həm çox rütubətli yerlərdə-qara suların ətrafın- dn, bataqlıq çəmənlərdə, həm də palıd və vələs meşəliklərində lohii halda təsadüf edilir. Gözəl, parlaq, yaşıl, parıldayan yarpaqlarına və yetişmə prosesinə rənglərini dəyişən meyvələr olduğuna görə çoxdan bəri parklarda, bağ və bağçalarda dekerativ bitki kimi becərilir.

Qızılağac mürdəşərin yarpaq, meyvə qabıq hissəsinin tərkibindən 2,57-5,7 %-ə qədər antraxinon birləşmələri-franqulin, xri-/ofanol, emodin, fisçion, aloe, rein, emodinantren, franqulaemo- din, palmidin, 10,4%-ə qədər aşı maddəsi və s. tapılmışdır. Bundan əlavə qabığının tərkibində 3,57 % kül, 4,80 mq%-K, 18,80 mq% Ca, 2,60 mq% Mg, 0,40 mq %-Fe, 107,00 mq% Mn, 12,40 Cu % 16,60 mq %-Zn, 0,16 mq%-Co, 152,58 mq%-AI, 171,68 mq % Ba, 0,72 mq %-V, 0,04-mq%-Se, 1,52 mq% Ni, 7,92 mq%-Se, 27,52 mq % B, 7000 mq %, 072 mq % 1 və s. aşkar edilmişdir.

Qızılağacın qabıq hissəsini erkən yazda, çiçək açmamış toplamağı məsləhət gördülər. Yoğun gövdədən dairəvi kəsik açır, sonra onu uzununa kəsərək soyub götürürlər. Bıçaqla qabıq hissəni qaldırıb soymaq olmaz. Yığılan xammalı meh vuran çardaqlarda kağız üzərinə nazik halda sərib qurutmağı məsləhət görürlər. Tez qurusun deyə gün ərzində xammalı 1-2 dəfə çevirirlər. Yığılmış xammal zəhərli olduğu üçün azı bir il ondan istifadə etməyi məsələhət görmürlər. Tez qurusun deyə onu 100 dərəcə temperaturunda 1 saat ərzində quruducu şkaflarda qurudurlar. Qızılağac mürdəşərin qabıqlarından hələ çox qədim dövrlərdən zəif işlədici kimi istifadə edilmişdir. Çar rusiyasında işlədici dərman kimi Amerikadan alınan mürdəşər qabıqlarından istifadə edilirdi. Rusiya ərazisində yayılan mürdəşər qabıqlarının toplayıb Avropa ölkələrinə icrac edib, xeyli qazanc əldə edirdilər.

Rus kommersantları dövlətdən gizli rusiya ərazisində yayılan mürdəşərin qabığını toplayıb, anbarlarda bir il saxladıqdan sonra, Amerika mürdəşəri adı altında rusiya dövlətinə artıq qiymətə

satarmışlar. Bir gün bu fırıldağın üstü təsadüfən açılır. Belə ki, yükdaşıyan fəhlələrdən biri bilmədən 1 tay yükü yerə salır. Bu zaman kisə cırılıb xammalı kənara səpələyir. Beləliklə fırıldağın üstü açılır.

Kosmetikada mürdəşərdən həzm sisteminin nizamə salınmasında geniş istifadə edilir. Hərgah həzm sistemi normal işlərsə dəridə və sifətdə səpgi, civzə, yara, qaşınma və s. əmələ gəlməz.

Kökündən hazırlanmış cövhərindən mədə-bağıraq xəstəliklərində, kök və qabıq hissələrindən qastritdə, bağırsaq sancmalarında, budaq, qabığından yarasağaldıcı, meyvə, qabıq və budaqlarından işlədici, bir sıra mədə-bağırsaq xəstəliklərində və s. işlədilir. Qabıq, budaq, yarpaq və meyvəsindən hazırlanan eks- trakt, həb və şairədən mürəkkəb tərkibli “vikalin”, “vikair” preparatlarına daxil edib, büzüşdürücü, hipasidə, zəif işlədici, həmçinin mədə və on iki bağırsaq xəstəliklərinin müalicəsində işlədilir. Bundan əlavə babasil əleyhinə və eləcə də işlədici çayların tərkibinə daxil edilir. Qızılağac mürdəşərdən müalicə vasitəsi kimi Litva, Belarusiyada, qızdırmada, Bolqarıstanda əsəb xəstəliklərində piyləmədə, şəkərli diabetdə, ekzemada, revmatizmdə və bir sıra dəri xəstəliklərində işlədilir.

Mürdəşrin qabıq hissəsindən hazırlanan “ramnil”, “vikalin”, “franqulen”, “vikair” “turqenol” və s. preparatlarının köməyi ilə mədə-bağırsaq, sidik kisəsi, öd, böyrək daşı, babasil, qaraciyər və s. müalicəsində geniş istifadə edilir. Qabıqlarından alınan ekstraktla tükün dibini möhkəmləndirməklə yanaşı, saçları qızılı- şabalıdı rəngə boyayır.

Toplanmış xammal 3 il keyfiyyətini saxlayır.

## COKƏTILIA

Cökə-Tiliaceae fəsiləsindəndir. Dünya florasının tərkibində cökənin 50-yə qədər növü yayılmışdır. Bunlardan Azərbaycanda 4 növü yayılmışdır. Bunlar aşağıdakılardır: xırda yarpaq çökə- Illia cordata enliyarpaq cökə-Tflıa platyphyllos, Qafqaz cokəsi-I.begoniifolia Azərbaycanda enliyarpaq və Qafqaz cökələri geniş



yayılmışdır. Böyük və Kiçik Qaygazın dağ meşələrində və Talış meşələrində bitir. Adətən talalarda, enliyarpaq meşələrdə, xüsusən fıstıq və şabalıd meşələrində çox olur.

Cökə qiymətli dərman, aşı, nektar, vitamin, yağ və bəzək bitkisi sayılır. Müalicə məqsədilə bitkinin əsasən çiçəklərindən istifadə edilir. Bitkinin çiçək hissəsi çiçəkaltlığı ilə birlikdə toplanır.

Cökənin çiçəklərinin tərkibindən 0,05% efir yağı, bunun da tərkib hissəsi farnezoldan təşkil olunmuşdur. Bundan əlavə çiçəklərindən kempferol, aksetin, afzelin, kempferitrin, tilirozıd, kversetin, tilianin, qesperidin, biozid kempferol, qerbasetin, pro- toantosianizinlər, aşı maddələri, saponinlər, fenolkarbon turşusu, S vitamini, karotin, qatran, polisaxaridlər və s. tapılmışdır. Toxumunun tərkibindən 29,3 pulu yağ və çoxlu miqdarda zülal maddələri tapılmışdır. Bundan əlavə çiçəklərinin tərkibindən 6,16% kül maddəsi, 23,60 mq/q-k, 26,90-Ca, 3,00-MçL 0,20-Fe makroe- lementləri, 207,00 mkq/q-Mn, 8,63-Cu, 29,00-Zn, 0,48-Co, 0,64- Mo, 0,56-Cr, 115,40-AI, 0,13-Se, 2,16-Ni, 25,50-Sr, 2,96-rb, 59,60-B, 0,06-1 mikroelementləri tapılmışdır. Yarpaqlarının tərkibindən 12,3% sulukarbohidratlar tapıbdır. Meyvəsində üzvi turşulardan alma, limon, turşuları, toxumundan isə saxaroza, rafino- za, staxioza və s. aşkar edilmişdir.

Xalq təbabətində cökə çiçəyinin çayından tənəffüs yollarının iltihabında, qaraciyər, böyrək, mədə-bağırsaq xəstəliklərində və soyuqdəymədə geniş istifadə olunur. Cavan zoğları da çay kimi dəmlənib içildikdə müalicəvi təsir göstərir.

Qədim zamanlardan cökə ağacı qiymətli bal bitkisi kimi yüksək qiymətləndirilmişdir. Bal arısı onun təkcə bir çiçəyindən 7 mq-dəK nektar çəkə bilir. Yaxşı iqlim şəraitində, aydın günəşli havalarda bir hektar çökə meşəsindən bir tonadək bal almaq mümkündür.

Cökə balının mühüm müalicəvi əhəmiyyəti Misirdə, Yunanıstanda hələ 6000 il bundan əvvəl məlum olmuşdur. Maraqlıdır ki, balın ətrini və dadını uzun müddət saxlamaq üçün onu cökədən hazırlanan qablarda saxlayırlarmış. Bunun da səbəbi cökənin çiçəyi kimi ağacının da ətirli olmasıdır.

Çiçəyin güclü ətrini arılar 3 km məsafədən hiss edirlər. Xoşagələn ətrə malik olduğuna görə, çiçəkdən alınan efir yağı ətriyyat sənayesində, kosmetikada, sabun bişirmə sənayesində, əczaçılıqda istifadə olunur.

Qabıqdan təmizlənmiş cökə meyvələrinin tərkibində 33%-ə

qüdər qiymətli qida əhəmiyyətli yağ var. Dadı badamı xatırlamaqla, tiziki-kimyəvi xüsusiyyətlərinə görə, ən yaxşı yemək yağı •ayılır. Cökə yağından qənnadı sənayesində də geniş istifadə adilir. Havanın təsirinə qarşı davamlı olub,-20 dərəcədə donur. Yağı sıxıb çıxartdıqdan sonra yerdə qalan tullantısı, yəni cecəsi ınal-qara üçün zəngin yem sayılır. Cecənin tərkibində 12,4 % zülal, 7,9 % piyli yağ, 31,4 % azotsuz ekstraktiv maddə, 23,4 % sel- lüloza və s. maddələr tapılmışdır. Şərq xalqları çəkənin cavan yarpaqlarına və çiçək tumurcuqlarına şəkər qatmaqla qiymətli ədviyyat hazırlayır və ondan qida məhsulu kimi istifadə edərmiş. Hazırda respublikamızın çökə yayılan rayonlarının əhalisi onun cavan yarpaqlarını dərib dolma hazırlayırlar.

Qurudulmuş cökə yarpaqlarının tərkibində 5 % provitamin A tapılmışdır. Yarpaqlarından çox vaxt vitamin cövhərləri hazırlanır.

Cökənin çiçəklərindən hazırlanan “cökə çayından” bir çox xəstəliklərin -soyuqdəymənin, böyrək qanaxmalarının, ağız boş-luğunun qanaxmasının və s. müalicəsində istifadə edilir. Cökənin çiçək və yarpaqlarından hazırlanan cövhər, dəmləmə, vanna-larından krem və mazlarından dəridə baş verən səpgi, ekzema, qoturluq, irinli yaraların müalicəsində istifadə edilir.

Çiçəyindən hazırlanan losyon və şampunlardan saçın yuyulub təmizlənməsində, onların inkişafını sürətləndirməsində, eləcə də tükün dibini bərkidilməsində işlədilir.

Qətrandan ekzema və trofiq yaraların müalicəsində qeniş istifadə edilir.

Cökə bəzək və sanitariya-gigeniya xüsusiyyətlərinə malik ol-duğuna və uzun müddət çiçək açdığına görə, atmosferdə olan bir çox zərərli mikrobların təmizlənməsində sanki “süzgəc” rolunu oynayır.

Cökədən bağ-bağça, park və xiyabanların yaşıllaşdırılmasın- da geniş istifadə etmək olar. O, havanı mikroblardan təmizləmək və ətrafa xoş ətir yaymaqla insanın ovqatına gözəl təsir edir.

# BƏLĞƏMOTU-ALTHAEA

Əməkoməcilər-Malvaceae fəsiləsindəndir. Dünya florasının tərkibində bəlğəmotu cinsinin 12 növü yayılmışdır. Qafqazda 13 o cümlədən də Azərbaycanda 5 növünə rast qəlmək olar. Tibbi və kosmetika sahəsində ən geniş istifadə edilən növü dərman bəlğəmotu-Altnaea of ficenalis hesab olunur.

Dərman bəlğəmotu hündürlüyü 60-150 sm olan yoğun qısa, çoxbaşcıqlı kökümsov və budaqlanan kök sistemi malik çoxillik ot bitkisidir. Gövdəsi tək və yaxud bir neçə ədəd dikduran, budaqlanandır. Yarpaqları növbəli, saplaqlı, yuxarıdakı yarpaqları bütöv, yumurtavarı, orta və aşağı yarpaqları ürəkvari 3-5 çox da dərin olmayan dilim, kənarları dişli, bozumtul-yaşıl məxməri tüklərlə örtülmüşdür. Çiçəklərinin diametri 2-3 sm olub, ağ, solğun- çəhrayı, qırmızı rəngdə yarpaqların qoltuğunda yerləşmiş, gövdə və budaqların yuxarısında uzun sünbülvari çiçəkqrupunda yerləşmişdir. Meyvələri çoxtoxumlu, dairəvi şəkillidir. Böyrəkvari, tünd-qonur rəngli hamar toxumları vardır. Bitki iyun ayından başlayaraq sentyabra qədər çicək açır. Toxumları sentyabrda yetişir. Azərbaycanda dərman bəlğəmotu aran rayonlarda, ən çox isə Kür-Araz, Alazan-Aqriçay və Samur-Dəvəçi ovalıqlarında, çəmənlik yerlərdə, kolluqlarda, nəmli torpaqlarda, çay kənarlarında bitir.

Bitkinin əsas təsiredici maddəsi selikdir. Köklərində 35%-ə qədər suda yaxşı həll olan selikli maddə bu da hidroliz olunaraq pentoza, qalaktoza və dekstrozaya çevrilir. Tərkibində 37 %-ə qədər nişasta, 4 % betain, 10,20 %-ə qədər saxaroza, 11 % pek- tin, 2 %-ə qədər asparogin 1,7 % efir yağı, alma turşusu, fitoste- rin, kauçuka bənzər maddə, 1,25-1,7 % piyli yağ, aşı maddəsi, kempferol, kversetin flavanauləri, kumar, kofeyn, ferulov, salisil, vanilin turşuları və s. tapılmışdır. Çiçəklərində 0,2-0,3 % efir yağı, 4-5 % selikli maddələr, karotin, askorbin turşusu, meyvələrində isə 2 % piy var. Kökünün tərkibindən 8,65 kul maddəsi, 11,30 mq/q-K, 17,40-Ca, 4,00 Mg, 0,73-Fe makroelementləri, 0,10 mkq/q-Mn, 0,47-Si, 0,25-Zn, 0,10-Co, 0,10-Cr, 0,46-AI, 0,29-V, 5,71 -Se, 0,15-Ni, 0,63-Sr, 0,05-pb, 0,10-1, 0,20-B mikroelement- ləri tapılmışdır.

Dərman bitkisi kimi çox qədim dövrdən məlumdur. Bunun –

müalicəvi təsiri haqqında Teofrast, Pliniy, Dioskorid, İbn-Sina geniş məlumatlar verirlər. Dioskorid bu bitkinin adını "altana" yəni çoxlu dərdlərin dərmanı" qoymuşdur. İbn Sina isə bunun yunanca adının mənasını "çoxtərəfli", çox "əhəmiyyətli" daşıdığını qeyd edir. Bəlğəmotundan qədim Yunan və Roma xalqları geniş istifadə etmişdilər. Orta əsrlərdə bunu mədəni halda geniş surətdə əkib becərmişlər. Qədim zamanlarda bunu sayların ətrafında əkib becərərək yarpaq, kök və toxumundan hazırlanan möhkəm, cövhərlərlə öskürək qanlı dizinteriyanı və s. müalicə edərmişlər.

Müasir tibb elmində isə köklərindən soyuq suda hazırlanan 5 %-li dəmləməsi, ekstraktları və "Muxaltin" adlı həbləri soyuqdəymələrdən baş verən nəfəs yollarının iltihabında, ağciyər xəstəlik- lərində, mədə-bağırsaq xəstəliklərində (qastrid, enterokolit və s.) eləcə də boğaz ağaclarında qar-qara dərmanı kimi geniş istifadə edilir. Bəlğəmotu kökü sinə çayının və öskürək əleyhinə işlənən yığıntıların tərkibində də işlədilir.

Xalq təbabətində yarpaqlarından, çiçəklərindən və köklərindən dəmlənmiş çay öskürəyə qarşı və sinə ağrılarında sakitləşdirici vasitə kimi istifadə edilir.

Çiçəklərini suda pörtdədib, uşaqlarda baş verən soyuqdəy- mələrdə ağrıyan nahiyələrə qoyurlar. Bəlğəmotu çiçəklərini qızılgül ləçəkləri və şüyüd çiçəklərilə qarışdırıb çay hazırlayır və quru öskürəkdə içirlər. Qurudulmuş çiçəklərinin çayı uşaqlarda tez- tez baş verən mədə xəstəliklərində iltihaba və ishala qarşı işlədilir. Bitkinin köklərindən hazırlanmış çay mədə ağrılarında, ishalda, kəskin qastritlərdə, enterokolıtlərdə yumşaldıcı və iltihabı aradan qaldırıcı vasitə kimi istifadə edilir. Qurudulmuş yarpaqlarından və çiçəklərindən kərə yağında hazırlanmış məlhəm dəri xəstəliklərində (açıq yaralarda) yarasağaldıcı və iltihabı götürücü kimi, eləcə də frunkullara (çibanlara) qarşı istifadə edilir.

Yarpaqlarını toz halına salıb, zeytun yağı ilə qarışdırıb, yanıq- ların, yaraların, qaşınmaların müalicəsi üçün dəriyə sürtürlər. Çi- çəklərindən hazırlanmış cövhərdən isə gözün selikli qişasını müalicə edirlər. Kökünün sulu məhlulu (1-2 xörəkqaşığı kökü 1 stəkan soyuq suda bir neçə saat çıxarışı aparır soyuq dəymə nəticəsində dəridə əmələ gələn prosesləri aradan qaldırmasında istifadə edir.)

# *DAZIOTU-NYPERICUM*

Dazı-Nyrericaceae (Cutiferae) fəsiləsindəndir.

Adi dazıot-Hypericum perforatum daızı bitkisinin dünya florasının tərkibində 400-ə qədər növü yayılmışdır. Bunlara yarımkol və çoxillik ot şəklində yer kürəsinin əksər rayonlarında rast gəlmək olar. Azərbaycanda bu qiymətli bitkinin 15-ə qədər növü yayılmışdır. Dazı otuna respublikamızın dağ və dağətəyi rayonlarında, meşəliklərdə meşə kənarında, dağ çaylarının ətraflarında bağ və bağçalarda daha çox rast gəlmək olar.

Dazı otunun əksər növləri qiymətli dərman, aşı, efir, boyaq və bəzək bitkisi kimi məşhurdur. İnsanları ta qədim zamanlardan başlamış hal-hazırkı dövrə kimi müxtəlif xəstəliklərin müalicəsində istifadə etdikləri dərman “şəfa” bitkilərinin ən qiymətlilərindən biri də dazı otudur. Dazı otundan dəman vasitəsi kimi ilk əvvəllər, yəni bizim eramızdan 460-377 il qabaq Hippokrat xəbər vermişdir. Dazı otu növlərinin içərisində dərman vasitəsi kimi ən qiymətli növü adi dazıotu olmuşdur. Dazı otunun ilk vaxtlar “ilahi otu” adlandırmışlar. Bu da yununca onun qorxu və qarabasma xəstəliklərinə tutulmuş adamların müalicəsində istifadə olunmasını göstərir.

Tarixi mənbələrdə dazı otunu müqəddəs “İonna otu” adlandırmışlar. Belə ki, onun çiçək açma vaxtı “İvan günü”nə və ya iva- nın qanı bunun toxum və çiçəklərini ovcun içərisinə töküb, barmaqla ovxalayan qırmızı qan şirəsinə çevrilir. Rus xalq təbabətində dazı otunun dovşan qanı, qanverici adlandırırlar.

Almanlar buna şeytanqovan bitki adı vermişlər. Çoxları belə güman edirmişlər ki, dazıotu şeytanı evdən qovur və davaşavanı evdən uşaqlaşdırır. Prusiyanın bir çox rayonlarında yaraların sağalmasına gözəl təsir etdiyi üçün dazıotunu “yaraları sağaldan Allah” adlandırmışlar. Dazı otundan italyanlar bir çox xəstəliklərin müalicəsində geniş istifadə etdikləri üçün bunu “göbək otu” adlandırmışlar. Müxtəlif xalqlar öz müalicəvi təsirinə görə dazı otuna müxtəlif adlar vermişlər.

Dərman bitkilərinin müalicəvi təsirlərinin sirlərini öyrənməklə uzun müddət məşğul olan A.T.Bolotov 1780-ci illərdə yazırdı ki, elə bir dərman bitkisi tapılmaz ki, öz müalicəvi xüsusiyyətlərinə görə dazı otuna bərabər olsun. A.T.Bolotova göstərir ki, dazı otundan və toxumlarından alınan yağ, günəbaxan yağı ilə qarışdırıb, onu az miqdarda su, çaxır spirtinə və ya üzüm çaxırına töküb, çalxalayaraq qarışdırıb bir çox daxili xəstəliklərin müalicəsində əvəzolunmaz dərman kimi istifadə edirlər. Bundan hazırlanmış mazda müxtəlif irinli yaraların, sancma və s. nəticəsində əmələ gələn yaraların sağaldılmasında istifadə olunur.

Bir çox ölkələrin Xalq təbabətində dazı otundan müxtəlif xəstəliklərin müalicəsində geniş surətdə istifadə olunur. Məsələn, Polşa Xalq təbabətində dazı otundan hazırlanmış spirtli cövhərlə ağrıları azaldan, yaraları sağaldan, ürək keçmə, sınıq və çatların, daxili qanaxmaların, çibanlı yaraların yetişib sağaldılmasında və s. xəstəliklərin müalicəsində istifadə olunur. Bundan hazırlanmış cövhəri çaxırda həll edib, qızdırma, sarılıq, qadın xəstəliklərinin və eləcə də işlətmə əleyhinə istifadə edirlər. Dazıotunun çiçək və toxumlarından alınan yağdan əsəb xəstəliklərinin müalicəsində istifadə edilir. Bundan başqa dazıotunun çiçəklərindən hazırlanan cövhərdə vərəm xəstəliyini də müalicə edirlər. Bir çox müəlliflər qeyd edib göstərirlər ki, dazı otundan alınmış yağ maddəsi ilə bir çox xəstəlikləri, oynaqlarda əmələ gələn ağrıların, yağı əhənglə qarışdırıb yanıq nəticəsində əmələ gələn yaraların müalicəsində istifadə etdirmişlər. Bundan başqa dazıotunun yağından doğuşdan sonra qadınların döşlərində əmələ gələn vəz şişlərinin aradan qaldırılmasında istifadə olunur. XVII əsrdə İtaliyada dazı otunun üst hissəsini kəsib götürərək, onu quruyub narın toz halına salıb və həmin tozu palma yarpaqlarından hazırlanmış məhlulla qarışdırıb, uzun müddət saxladıqdan sonra ondan qırmızı rəngli balzam hazırlayıb bir çox xarici və daxili xəstəliklərin müalicəsində istifadə etmişlər.

Rus xalq təbabətində də dazı otundan müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə olunur. Belə ki, bundan hazırlanmış preparatlarla qankəsici, sakitləşdirici, ürək-damar sistemində əmələ gələn pozğunluqların nizama salınmasında istifadə edilir.

Dazı otunun spirtli cövhəri, yağı, eləcə də ondan hazırlanmış bir çox preparatlardan vərəm, qan qusma, yara qanaxamalarını, qurd xəstəliklərinin, qıc olma, özündən getmə, əsəb sisteminin nizama salınmasında, yaraların uyuşub sağaldılmasında, irinlə- mə əleyhinə əzilmələri və döş şişləri xəstəliklərinin müalicəsində istifadə olunur. 45 il dərman bitkilərinin müalicəvi xüsusiyyətləri ilə məşğul olan alim M.A.Nosal yazıodı ki, dazı otu kimi qiymətli müalicəvi xüsusiyyətlərə malik ikinci bir bitki tanımır.

Macarıstanda dazı otundan hazırlanan yağ və mazlardan xarici və daxili orqanlarda baş verən yara və yanıqların müalicəsində istifadə olunur.

Dazı otunun xalq təbabətində qiymətli müalicə xüsusiyyətlərinin sirlərini öyrəndikdən sonra alimlər başladılar bunun kimyəvi tərkibini öyrənməyə bir sıra ölkələrin alimləri dazı otunun kimyəvi tərkibini öyrənməyə çalışmışlar. Alimlər dazı otunun tərkibin-dən-flavanoidlərdən 8%-ə qədər hiperozid-C12 N20 012, rutin, kversetin, izokversitrin, mirisetin, antosian, boyayıcı fotodinamik aktivli maddələrdən, hiperisin-C30 N16 08, psevdohipersin-032 N30 010 protopsevdohipersin pirokatexintörəmələri 9-12 % aşı maddələri, efir yağı 10-17 %-ə qədər qətranlı maddələr, saponin- lər, xolin 95-135 mq % rotin 80-140 mq % S vitamini, nikotin turşusu və onun amidi 3,48 % üzvi turşular, pektin, şəkər və s. maddələr müəyyən edilib.

Dazıotunun yerüstü hissəsinin tərkibindən 4,21 % kül, mq/q 16,80-K, 7,30-Ca, 2,20-Mg, 0,11-Fe makroelementləri 0,25 mkq/q-Mn, 0,34-Cu, 0,71-Zn, 0,21-Co, 5,60-Mn, 0,01-Cr, 0,02-AI, 0,00-Se, 0,18-Nİ, 0,18-Sr, 7,20-Cd, 0,08-pb, 40,40-B mikroele-mentləri tapılmışdır.

Dazıotu toxumlarından hazırlanan yağdan kosmetika sahəsində geniş istifadə olunaraq, sifətdə, bədənin başqa nahiyələrində əmələ gələn çivzələrin, qoturun, qaşınmaların, irinli yaraların müalicəsində geniş istifadə edilir. Dazıotu yağını ev şəraitində çox asanlıqla hazırlamaq olar. Belə ki, 1 hissə adazı otu toxumunu götürüb, 2 hissə bitki yağının üzərinə töküb, 2-3 həftə saxlayın. Tərkibi bioloji aktiv maddələrlə zəngin olan yağdan yeri gəldikdə müxtəlif xəstəliklərin müalicəsində istifadə edin.

# *BƏNÖVŞƏ-VIOLA*

Bənövşə-Violaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində bənövşənin 500 növü yayılmışdır. Qafqazda 32, o cümlədən də Azərbaycanda 25 növünə rast gəlmək olar. Bunlardan təbabət və kosmetikada ən çox ətirli-Vıola adorata və çöl bənövşəsindən V.arvensis istifadə olunur.

Ətirli bənövşə çoxillik ot bitkisi olub, sürünən ağımtıl, buğumlu, yoğun kökümsova malikdir. Qaidəsi ürəkvarı olan uzunsap- laqlı, enli yumurtavari yarpaqları var. Kənarları yarımdairəvi-diş- li, təpə hissəsi kütləşmiş və ya itiləşmişdir. Açıq yaşıl rəngli yar- paqaltlığı enli lansetşəkillidir. Tək-tək yerləşən çiçəklərinin uzunluğu 13 sm eni 2-3 sm olub, göy və yaxud bənövşəyi rəngli, ətirlidir. Meyvəsi yumuru qutucuqdan ibarətdir. Bitki mart-may aylarında çiçəkləyir, meyvələri may-iyun aylarında yetişir. Ətirli bənbvşə Böyük və Kiçik Qafqazın meşə rayonlarında və Talışın orta dağ qurşağına kimi geniş sahələrdə yayılmışdır.

Çöl bənövşəsi bir və ya nadir halda ikiillik ot bitkisi olub, 10- 30 sm hündürlükdə yerüstü gövdəyə malikdir. Qısa saplaqlı yar- paqlarının qaidəsi paz şəkillidir. Gövdəsinin yuxarı hissələrində- ki yarpaqları lansetşəkilli və ya uzun-lansetvarıdır. Solğun sarı rəngli çiçəkləri qeyri müntəzəmdir. Çiçək tacı kasacağından uzundur. Aprel-may aylarından çiçəkləyir, meyvələri iyun-avqust- da yetişir. Çöl bənövşəsi Azərbaycanın bütün rayonlarında yayılmışdır. Ona subalp qurşağına kimi sahələrdə, eləcə də əkin yerlərində, kolluqlarda və çəmənliklərdə daha tez-tez rast gəlinir.

Bənövşənin yerüstü hissələrində rutin, delfinidin və peonidin antosian qlikozidləri, kversetin, kempferol, rutin, flovonoid 0,15- 0,2 % efir yağı, karotin, 140-396 mq % askorbin turşusu, sapo- ninlər, salisil turşusu, selikli maddələr və s. vardır. Efir yağının əsas tərkib hissəsini salisil turşusunun metil efiri təşkil edir. Elmi təbabətdə çöl bənövşəsinin otundan öskürəyə qarşı geniş istifadə edilir. Dəmləməsi bronxial vəzilərin sekresiyasını artırır, sinəyumşaldıcı təsir göstərir, həmçinin sidikqovucu dərman kimi də işlədilir. Çöl bənövşəsindən Azərbaycan xalq təbabətində çay dəmləyib, nəfəs yollarının soyuqdəymələrdən baş verən iltihabı

aradan qaldıran və sinəyumşaldan dərman kimi, həmçinin öskürəyə qarşı qəbul edilir. Çöl bənövşəsinin otundan hazırlanmış çay sarılıq xəstəliyində, revmatizmdə və pedoqrada da istifadə edilir.

Ətirli bənövşənin qurudulmuş köklərindən və otundan dəmlənmiş çay xalq təbabətində ishala və dizenteriyaya qarşı istifadə edilir. Bundan əlavə köklərindən, yarpaq və çiçəklərindən çay dəmləyib öd yolları xəstəliyində, qıcolmada, epilpesiyada, bronxial astmada və əsəb xəstəliklərində işlədirlər.

Bundan əlavə bənövşənin çiçək, yarpaq və kök hissələrindən hazırlanan sulu və spirtli cövhərlərdən ödqovucu, soyuqdəymə, böyrək və sidik kisəsində olan daşların əridilməsində, revmatizmdə, pedaqra, bəlğəmgətirici, branxit və s. xəstəliklərin müalicəsində geniş istifadə edilir.

Bundan əlavə bənövşədən hazırlanan bir sıra preparatlara baş ağrılarında, əsəb, qıcolmada, yaman şişlərin müadicəsində, zillərin yox edilməsində, ürək döyülmələrində, yuxusuzluq və göyöskürək əleyhinə işlədilir. Cövhərindən zökəm, angina, yuxarı nəfəs yolları xəstəliklərində, boğaz, udlaq, mədə-bağırmaq nahiyələrində əmələ gələn xərçəngin müalicəsində işlədilir. Kök hissəsindən hazırlanan cövhərlərlə uşaqlıq nahiyəsində əmələ gələn xərçəngin, uşaqlarda sarılığın, irinli yaraların bir sıra dəri səpmələrində istifadə edilir. Siropundan isə mədə ağrılarında sakitləşdirici, ürəkdöyüntülərində, plaviritdə işlədilir. Çiçək və yarpaqlarından alınan efir yağından ətriyyat və kosmetikada qiymətli ətirlərin hazırlanmasında, sabun bişirməsində, diş pastalarının xoş iyli olmasında qatqı kimi işlədilir.

Bənövşədən hazırlanan preparatların müalicəvi keyfiyyətinə görə bir sıra ölkələrin: Niderlandın, Almaniyanın, Polşanın, Türkiyənin, Argentinanın, Portuqaliyanın, Fransanın, Çillinin, Macarıstanın, Bolqarıstanın və s. dövlətlərin farmakopeyasına daxil edilmişdir. Bənövşə cinsinin ən qiymətli növlərindən biri də respublikamızın həyətyanı sahələrində bəzək bitkisi kimi əkilib be- cərilşn üçrəngli bənbvşədir.

*Üçrənglibənövş&V.horiensis* hündürlüyü 10-46 sm olub, nazik saçaqlı köksisteminə malik birillik və yaxud ikiillik ot bitkisidir. Gövdəsi dikduran sadə və yaxud budaqlanandır. Yarpaqları

növbəli, aşağıdakılar enliyumurtavari saplaqlı olub, uzunluğu 7 sm eni 2 sm yuxarıdakılar uzunsov, oturandır. Çiçəkləri tək-tək gövdə üzərində yerləşərək göy və yaxud açıq bənövşəyi rəngdə, diametr 2-3 sm, çiçəksaplagının uzunluğu 12-13 sm-dir. Meyvə- si-qutucuq üç lay istiqamətində çatlayandır. Toxumları xırda, qonurumtul, parlaqdır. Aprel ayından başlayıb payızın axırına kimi çiçək açır, meyvəsi iyunda yetişir. Bir qutucuq meyvəsində 3 minə qədər toxumu olur. Üçrəngli bənövşənin vətəni Asiya və Avropanın Skandinaviya və İslandiyanın mülayim iqlimə malik zonaları hesab edilir.

Üç rəngli bənövşə həqiqətən üç rənglidir. Belə ki, onun yuxarıda yerləşən ləçəkləri tünd-göy, bənövşəyi, aşağıdakıları sarı və yaxud ağ, mərkəzdə yerləşən ləçəkləri isə narıncı sarı rəngdədir. Növün adı da bu xüsusiyyətinə görə götürülmüşdür.

Alabəzək bənövşə haqqında belə bir rəvayət söyləyirlər ki, bunlar bacı-qardan olublar. Bacı-qardaş olduqlarını bilmədiklərindən ayrılığa dözə bilmədiklərinə görə evlənirlər. Evləndikdən sonra çiçəyə çevrilirlər. Xalq arasında bunu “anyutini qlazki”-ala- bəzək bənövşə “ivan-da-mariya” üç qardaş, yarırəngli, üç rəngli, yer çiçəyi və s. adlandırılır.

Bir çox xalqlar bənövşəni yayın ilk müjdəsi adlandırıb, təbiətin oyanması, canlanması ilə əlaqələndirirlər. Qədim romalılar bənövşəni “yupiterin çiçəyi" adlandırmışlar. Belə bir rəvayət söy- ləyirlər ki, guya bir güclü hökmdar bu gözəl gözoxşayan çiçəyə açığı tutaraq onu ev qulluqçusuna döndərir. Bənövşənin gözəlliyi gülsevərlərin ciddi marağına səbəb olmuşdur. GülsevərTər hal-hazırkı dövrə kimi saysız-hesabsız bənövşə sortları yaratmışlar. Bənövşə böyük alman şairi və filosofu Hötenin ən sevimli çiçəyi olmuşdur. Gülsevərlər böyük ədibin şərəfinə onlarla göz oxşayan iri ləçəkləri olan bənövşə sortları yaradaraq onun əsərlərindəki surətlərin adını vermişlər. Qara sortun adını “doktor fausta”, parlaq qırmızı sortunu-”meristofelya", zərif-mavini “marqarita” və s. yermişlər. Cənubi farnsanın Nissi vilayətində və eləcə də Şimali İokaliyanın Parmı yaxınlığında-iri çoxçiçəkli ətirli sortları yaradıl-mışdır. Üç rəngli bənövşəni insanlar yalnız gözəlliyinə görə yox, həm də müalicəvi təsirinə görə də sevirlər. Belə ki, Kolumbiya xalqı bənövşədən alınan cövhərdən qızdırma, titrətmə, Braziliya

isə nəfəs yolları xəstəliklərində işlədirlər. Bitkinin ot və köklərinin tərkbindən rutin fiolakversetrin-C27 N30 016 bu isə hidroliz olunaraq kversetin-C15 N10 07, ramnoza və qlyukoza çevrilir. Yarpağından-0,13 %, gövdəsindən-0,08 %, kökündən isə 0,05 % rutin maddəsi tapılmışdır. Çiçəklərinin tərkibindən antosian qliko- zidləri: violanin-C36 N37 017 bu da öz növbəsində delfinidin, qlyukoza, ramnoza, 3-qlyukozid delfinidin, 3-qlyukozid-peonidin və s. çevrilir. Çiçəklərindən efir yağı, violaksantin-C40 N56 04, zeaksantin, auroksantin, flavoksantin karotinoidləri, aksorbin turşusu, saponin və s. tapılmışdır.

Ot hissəsinin tərkibindən 13,73 % kül maddəsi, 61,20 mq/q- K, 18,20-Ca, 3,00-Mg, 0,50-Fe makroelementləri, 0,12-Mn, 0,40- Cu, 0,35-Zn, 0,08-Co, 11,20-Mo, 0,04-Cr, 0,12-Al, 0,23-Ba, 18,60-Se, 0,19-Ni, 1,12-Sr, 0,09 pb, 65,20 B mkq/q mikroele- mentləri tapılmışdır.

Bənövşədən alınan cövhərdən bronxitdə bəlğəmgətirici, bronxial vəzinin fəaliyyətinin artırılmasında istifadə edilir. Çayından isə qan təmizləyici, dəri səpgilərində, dəmirovun, revmatizma, qızılca, ağciyər, podaqra və s. xəstəliklərin müalicəsində istifadə edilir.

Üç rəngli bənövşədən hazırlanan məlhəm, cövhər və vannası ilə dəri səpgi, cırmaq, irinli dəri yaralarının, dəri vərəminin, ekze- ma və qaşınmaların müalicəsində geniş istifadə edilir. Üzdə, sifətdə və baş nahiyyələrində piy yığıntılarının aradan qaldırılmasında hazırlanan cövhərindən istifadə edilir.

Fransa, Almaniya, İngiltərə, Afrika, Hindistan, Əfqanıstan, Avstraliya, Çin, Yaponiya, Vyetnam və başqa ölkələrin mətbəxlərində bənövşənin incə zərif yarpaqlarını dərib, qurudub narın toz halına salaraq bir sıra ət, sup, borş və s. xörəklərin tərkibinə qatırlar. Biz isə ilk dəfə olaraq, bənövşənin bəzək məqsədilə əkib becərən növ və sortlarının qırmızı, bənövşəyi, göy, abı və s. rənglərdə olan ləçəklərindən qatı boya ekstraktı hazırlayıb, krem, marmalad, karamel, limonad və s. məmulatları qırmızı, çəhrayı, mavi və s. rəng və çalarla boyadıq. Uzun ipdə isə bənövşə boyağından 15-dən artıq müxtəlif rəng və çalarlar almağa nail olduq.

Bənövşədən alınan efir yağından kosmetika və yeyinti sənayesində də istifadə etmək olar.

# *XINA-LAVSONIA INERMİS*

Ağalarot (Ağalarot fəsiləsindəndir-Lathraceae)

...Saray dəlləyi torbadakı qonur tozu əli ilə sakitcə xeyli qarışdırdı. Sonra qarşısında əmrə müntəzir dayanmış quldan ağayana soruşdu:

-Haradan gətirdiniz?

-Canfəşanlıq göstərən qul tezcə:

-Necə ki əmr etmişdiniz, Ərəbistandan-dedi. Dəllək ciddi gö- kəm alıb çox məsul bir əməliyyata, Misir şahı kleopatranın saçını rəngləmək üçün xına hazırlamağa başladı. O, bu qadının şıltaq xasiyyətli olduğunu yaxşı bilirdi. Bilirdi ki, ölkədə dəbdə geyinib keçinməkdə ona heç kim çatmamalıdır. Bəzənməkdə hamıya o, nümunə göstərməlidir. Ona görə də sahibinin qəzəblənməsindən ehtiyat edən sadiq qulluqçu daim göz qoyurdu ki, şaha dünyanın ən yaxşı bər-bəzəyi, o cümlədən xına da tapılıb gətirilsin...

Xına hələ o vaxtlar qadınların necə geniş istifadə etdiklərini qədim Misir papiruslarından bilmək olar. Onunla saçı, qşları, dırnaqları rəngləyir, onu dodağa, gözün altına çəkirdilər.

Orta Asiyalı böyük həkim İbn Sinanın əsərində xınanın müalicəvi əhəmiyyəti də göstərilmişdir. Ondan cırmaq yarasına, qan axmaya, soyuqdəyməyə, göbələk və mədə xəstəliklərində, baş ağrısına qarşı, qiymətli dərman kimi istifadə olunmuşdur. Avropaya da xınanın ərəblər gətiriblər.

Afrikada və Yaxın Şərq ölkələrində bu gün də ondan həvəslə istifadə edirlər. Daha çox isti və bol su olan İran körfəzi ölkələrində yetişdirilən xına burada xüsusilə qiymətli sayılır. İraqın cənubunda isə təbiət buna daha gözəl şərait yaratmışdır.

Qızmar avqust günlərindən birində İran körfəzinə tökülən geniş Şattel-Ərəb çayı boyunca ekskursiyaya çıxmışdım. Adama elə gəlirdi ki, burada həyat dayanıb. Hətta çayın hər iki tərəfinə düzülmüş palmalar da başlarını aşağı əyib nəmişlik həsrətində qurumuşdular. Ağacların altında xilasedici kölgəciklərdə qara camışlar mürgüləyirdi. Kəndlilər 50 dərəcə istidən qorunmaq üçün qurudulmuş qamışdan düzəltdikləri evlərində daldalanırdılar. Təkcə bir metr, yarım boyu olan ağacların ətrafında adda-budda adamlar

görünürdü. Xına yarpağı yığılırdı. Sahənin sahibi, gündən yanmış uzun köynəkli fəllah alnındakı təri silib dedi: “Ağacı adətən yazda əkirik. 0 kölgəni sevir. Kökləri suda cana gəlsin deyə qızmar günəş lazımdır. Su da azca gərək duzlu ola. Belə olanda bitki tez boy atır və qısa vaxtda salxımaoxşar formada ağ güllər açır. Ancaq bizim məhsulumuz yarpaqdır. Onu ildə dörd dəfə toplayırıq. Yarpaq əvvəlcə gündə qurudulur, sonra isə dəyirmanda üyüdüb toza çeviririk." Onu hər bir İran bazarında və ya dükanında almaq mümkündür. Bir də ki, xına nəinki bəzək və müalicə vasitəsidir, onunla həm də bir çox adət və mərasimlər bağlıdır. Əgər siz küçədə əl-ayağının xınasından göz qamaşan qız görsəniz, əgər yanından ötənlər onu xoş nəzərlərlə yola salırsa, səhv etməmisiniz- deməli o, gəlindir. “Leylat hənna” adlı mərasim Küveytdən Əlcəzairə qədər bu gün də geniş yayılmışdır. Bu, toya bir neçə gün qalmış keçirilən xına gecəsidir.

Dəvət olunanlar təzə nigah bağlayanların evinə yığışır, bir-birinə qarışmış dəb səsi və adamların çal-çağırı altında isladılmış xına dolu nimçəni içəri gətirirlər. Əvvəlcə gəlinin ovuclarında və topuqlarında romb şəkilli naxışlar çəkilir. Sonra onu bəzəyirlər. Üzük, sırğa və başqa daşqaşlarını taxırlar. Ətrafdakıların hamısı gəlini tərifləyir, təzə ailəyə xoşbəxtlik arzulayırlar. Bu adətən mənasını buradakılardan kimsə sizə çətin ki, aça bilsin. Lakin bir şey aydındır ki, onun kökləri əsrlərin dərinliklərindən gəlir.

Hələ çox qədim zamanlardan, yəni 6000 il bundan əvvəl Şərq xalçalarının bitkilərdən alınan boya məhlulu ilə boyanması haqqında məlumatlar vardır. 2000 il bundan qabaq Pliniy öz “Təbii tarix” əsərində rəngləyici maddələrdən ərəb ölkələrində də istifadə olunduğunu göstərir. O, eyni zamanda qeyd edir ki, İngiltərə qadınları müqəddəs mərasimlərdə çıxış etməzdən əvvəl dərilərinə səma rəngi vermək məqsədi ilə bədənlərini indiqo boyağı ilə silərmişlər. Homerin məlumatına görə, qədim yunanlar və romalılar Şərqdən gətirilmiş və tərkibində boya maddəsi olan qiymətli otlardan istifadə edirmişlər. Homer öz qeydlərində xınanın da adını çəkir.

Xına çoxillik kol bitkisidir, bir sıra tropik ölkələrdə-Madaqas- karda və Afrikanın şərq sahillərindən başlamış ta Şimali Avstraliyaya qədər yayılmışdır.

Xına öz morfoloji aləmətlərinə görə, botaniklərdən K.Liney tərəfindən ağlar ot fəsiləsinə aid edilmişdir. Latınca bu bitkinin adı "Lavsonya" adlanır.

Xınanın gövdəsinin hündürlüyü tropik ölkələrdə 3-7 metrə çatır.

Azərbaycanda yetişdirilən xınanın uzunluğu isə 75-80 santimetrə çatır. Xınanın qarşı-qarşıya düzülmüş oturacaq, yumurta şəklində, kənarları bütöv parlaq yaşıl rəngli yarpaqları, gövdəsinin təpəsində və yan budaqları üzərində süpürgə formasında toplanmış ətirli çiçəkləri vardır. Çiçəkləri ağımtıl, yaşıl-çəhrayı rəngdə olub, əspərək (məhəbbət çiçəyi) iyi verir. Meyvəsi xırda, şar formalı, dördkünclü qutucuqdan ibarətdir. Toxumları xırda olur.

Azərbaycan şəraitində xına avqustun ortalarından oktyabr ayına kimi çiçəkləyir. Xına ilə əvvəllər qədim misir xalqları, o cümlədən saray hərəmləri saçlarını, dırnaqlarını, habelə əl-ayaqlarını boyayırdılar.

Sonralar xına-həna yaxmaq yaxın Şərq xalqların arasında da yayıldı.

Xına ilə bığı, saqqalı, saçları, əl və ayaqları boyamaq Azərbaycan xalqı arasında da uzun müddət dəbdə olmuş və indi də davam etməkdədir. Respublikamızın əksər rayonlarında, habelə Bakıda şənliklər, toy və bayramlarda daha çox işlənilir. Boyaq məqsədilə xınanın, əsas yarpaqlarından istifadə olunur. Uzunluğu 5- 5,5 sm eni isə 2 sm-ə qədər olur. Xına yarpaqlarını payız aylarında toplayıb qurudur, sonra xırdalayıb, tozun halına salaraq toy və bayramlarda xınadan bəzək məqsədilə geniş surətdə istifadə edirlər.

Alimlərin apardıqları tədqiqatlar nəticəsində məlum olmuşdur ki, xınanın yarpaqlarının tərkibində müxtəlif yağlar, su, sellüloza, azot, kül, pantazon, tanin, efir yağı, kitrə və "lavson" adlı rngləyici maddə var.

Xınanın tərkibindəki rəngləyici maddələr hələ kimyəvi cəhətdən tam öyrənilməmişdir. Onlar haqqında bəzi məlumatlar əldə edilmişdir. Biologiya elmləri namizədi Rəşid Abbasovun rəhbərliyi altında xınanın rəngləyici maddələri öyrənilərək müəyyən edilmişdir ki, rəngləyici maddələr turş xassəyə malik olmaqla, havada və işıqda sarı-çəhrayı rəngə çalan iynəciklər şəklində kristallaşır.

Xınadan alınan rənglər olduqca davamlı olaraq, hətta 4-5 min

il keçməsinə baxmayaraq, hələ də Misir mumyalarında xına rənginin izləri tapılır.

Xınanı çoxları ancaq saçlara qızılı rəng verən və onların çal rəngini gizlədən bitki boyası kimi tanıyırlar. Lakin xına, eyni zamanda, müalicəvi xüsusiyyətlərə də malikdir. Məişətdə və kosmetikada işlədilən bir çox boya saçlara zərərli təsir göstərdiyi halda, xına onlardan fərqli olaraq, saçların inkişaf etməsinə müsbət təsir göstərir və başda köpəyin əmələ gəlməsinin, saçların tökülməsinin qarşısını alır. Bundan əlavə, xınadan podaqraya qarşı həblər düzəldilir, irinləmədə, yaralarda tozundan istifadə edilirdi. Nəhayət, xınadan sulu bişirmə şəklində dərman kimi, sarılıqda, mədə pozğunluğunda, qızılçada, göz xəstəlikləri zamanı işlədilirdi.

Qədimdə belə geniş tətbiq olunan xına bizim dövrümüzdə, demək olar ki, istifadəsiz qalmışdır. Əsassız olaraq, onun müalicəvi xassələri şübhə altına alınır. Azərbaycan alimlərinin tədqiqatları göstərmişdir ki, xalq təbabəti bu şəfalı boyanı nahaqdan belə yüksək qiymətləndirməmişdir. Professor R.Əliyev xınanın bütün tərkib hissələrinin, o cümlədən, rəngləyici maddələrini təmiz kristal şəklində alaraq, kliniki sınaqdan keçirmiş və müəyyən etmişdir ki, xınadakı boyayıcı maddələr həqiqətən son dərəcə qüvvətli anti- septik (zərərləşdirici) xassəyə malikdir, onlar iltihabı aradan qaldırır və azaldır. Xına, xüsusilə, gec sağalan yaralara, dəri xəstəliyi-ekzemaya, irinləmələrə, folikumetə və eləcə də oynaqlarda olan ağrılara qarşı müsbət təsir göstərir.

Təbiətdə xoş ətirli içəkləri ilə nəzəri cəlb edən xına kolunun yarpaqlarından alınan bu sarı-yaşıl tozdan keyfiyyətli və ondan faydalı ikinci bir boya hələ aşkar edilməmişdir.

Hazırda xına Yaxın və Orta Şərq ölkələrində daha geniş istehsal olunur. Xına Böyük Səhranın əsas bitki məhsulu hesab olunur. Bundan başqa, o, Ərəbistanda, İranda, Hindistanda, Sudanda, Seylonda, Yaponiyada və s. ölkələrdə də becərilir. Hal-hazırda xınanın dünyada illik istehsalı 6-7 min tona bərabərdir.

Gigiyenik xassəli, müalicəvi əhəmiyyətli bu qiymətli boya bitkisi İranın milli sərvətidir. İranda onun becərilməsi ilə məşğul olan bir neçə iri firma vardır. Xına, əsasən, toxum və qələmlə çoxaldılır. Toxumları səpindən qabaq isladılır və cücərənə kimi isti yerdə saxlanılır.

Qələmlə artırmaq üçün budaqlar 20-22 santimetr uzunluğunda kəsilib torpağa basdırılır və suvarılır.

Yarpaqlar 2-3 ildən sonra ildə iki dəfə yığılır, iqlim-torpaq şamilindən asılı olaraq, xına yığımı müxtəlif vaxtlarda aparılır. Xına yığımını da çay kimi mexanikləşdirmək mümkündür.

Yığılmış xına yarpaqları qızmar günəş altında qurudulur və kisələrə doldurulub, bazarlara göndərilir. Xınanın üyüdülməmiş yarpaqları daha qiymətli hesab olunur. Misirdə xınanın məhsuldarlığı hər hektardan 1.800-2.000, Tunisdə 1.000-1.500 kiloqram olur.

Yabanı halda Ərəbistanın və Şimali Afrikanın tropik və subtropik səhralarında bitdiyindən xına quru və isti iqlimə daha tələbkardır. Bu məqsədlə Kürdəmir, Salyan, Naxçıvan MR-sı Abşeron xına üçün perspektiv zona kimi qiymətləndirilir.

Alimlərin fikrinə görə, xına quru subtropik zonalarında, o cümlədən, Azərbaycanda geniş becərilə bilər. Lakin sərt qış aylarında xınanı yerüstü hissəsi donur. Odur ki, şaxtaya davamlı formalar üzərində çalışmaq lazımdır.

Professor İ.Axundzadənin təcrübələrinə görə, xına Azərbaycanda birillik bitki kimi becərilə bilər.

Professor M.Mikayılovun fikrinə görə, bizim şəraitdə alınan xına məhsulu keyfiyyətinə görə, xaricdən alınan üstündür.

Nikitsk nəbatat bağından gətirilən xına şitilləri Mərdəkandakı dendroloji bağında, bağın direktoru mərhum Rəşid Abbasovun rəhbərliyi ilə sınaqdan keçirilmişdir. Alimlərin apardıqları gərgin əməyin nəticəsi öz bəhrəsini vermişdir. Alimlər xınadan Abşeron şəraitində toxum almağa nail olmuşlar. Hal-hazırda Camalxan Mirzəyev soyuğa davamlı və kol şəkilli, yəni çoxillik xına sortu yetişdirmək üzərində elmi təcrübə işləri aparır.

Biz xınanın yarpaq hissəsindən alınan boya məhlulu ilə yun ipi boyayıb, sarı-narıncı, qonur, qəhvəyi, boz, yaşılımtıl, çəhrayı, çəhrayı-narıncı, dəvə yunu rəngi və sairə rəng və çalarlar almağa nail olduq. Xınadan alınan rənglər çox davamlı olur. Beləliklə, Azərbaycanda əkilən xınadan dərman, kosmetika, ətriyyat, bəzək, həm də xalçaçılıq sənayesində qiymətli təbii boyaq kimi istifadə olunacaqdır.

# İNDİQOFERA-INDIQOFERA

İndiqofera-I.tinctoria paxlalılar fəsiləsi-Fabaceae aiddir. İndiqofera cinsinin bütün tropik ölkələrində 250-300-ə qədər növü yayılmışdır. Bunların içərisində qiymətli təbii boyaq bitkisi kimi



daha məşhur olanı indiqoferadır. Bu, çox da böyük olmayan kol bitkisidir. Hündürlüyü 60-180 sm-dir. Yarpaqları ləçəkşəkillidir. 4-7 cüt yarpaqcıqdan ibarətdir. Yarpaqcıqları ellipsvarıdır. Çiçək- leri qırmızımtıl-sarı, süpürgəvarı quruluşda olub, qoltuqcuqda yerləşərək salxımvarıdır. Meyvəsi paxlalıdır, düz silindvari şəkildə olub, içərisində 4-7 toxum yerləşir.

Hazırkı dövrə qədər bütün botaniklər indiqofera bitkisinin ancaq mədəni halda əkilib-becərildiyini və vətəni Hindistan olduğunu qeyd edirdilər. Lakin bu yayıxlarda "Yamaykanın florası", "Afrikanın tropikflorası", "Qananın ağac bitkiləri" və s. əsərlərin müəllifi olan F.Qervayn yuxaradakı fikrin yanlış olduğunu elmi dəlillərlə sübut etdi. O, göstərdi ki, indiqo bitkisi mədəni halda yox, təbii halda bitki qruplaşmaları əmələ gətirərək, Qərbi və tropik Afrika, Seneqaliya, Nigeriya və s. rayonlarda yayılmışdır.

Yamayka ölkəsində bitki 60 sm, Afrika ölkələrində isə 180 sm hündürlükdə kol olub, zəif oduncaqlıdır. Hazırda boyaq məqsədi üçün bir çox Ölkələrdə-Hindistanda, Afrikada, Birmada, Çində, Yaponiyada, Vyetnamda, Şri-Lankada, Filippində, İngiltərədə, İtaliyada, Kolumbiyada, İranda, ərəb ölkələrində, Yava adalarında, həmçinin Cənubi Avropada və Amerikanın cənub ərazilərində əkilib-becərilir.

Avropa xalqları indiqo boyağı ilə XVI əsrdə tanış olmuşlar. Fransız sahibkarları bu bitkinin boyama sirlərini öyrənmək məqsədi üçün dəfələrlə Hindistana getmiş və orada düşmən kimi qarşılanmışlar. indiqo boyağının alınması, yun pambıq və ipək məmulatlarının boyanması üsulları uzun müddət avropalılardan gizli saxlanılmışdır. Buna görə də Avropada elə başa düşürdülər ki, indiqo boyağı mineral maddələrdən alınır. Odur ki, Avropa xalqları uzun müddət bu boyağı "Hindistan daşı" adlandırmışlar. Uzun müddətdən sonra alimlər indiqo boyağının bitki mənşəli olduğunu isbat etmişlər. Elə ki, gizli yollarla indiqofera bitkisi toxumlarının əldə edilməsi və boyama sirləri avropalılara məlum oldu, onda İngiltərə, Fransa və Almaniya dövlətləri bu bitkinin əkilib-becərilməsi haqqında qərar verdilər. Eyni zamanda bu bitki toxum-

larinin başqa ölkələrə satılmasını qadağan etdilər.

Texniki tərəqqinin qarşısını heç bir tədbirlə almaq mümkün olmadığından, indiqo boyağı get-gedə bütün Avropa ölkələrinə yayıldı. Lakin XX əsrin ortalarında indiqo boyağından boyaq sənayesində istifadə olunması azaldı. Ancaq cüzi miqdarda Hindistandan Avropa ölkələrinə ixrac edilirdi. XX əsrin birinci onilliklərində hər il dünya bazarlarında, 25 milyon kq-a qədər indiqo boyağı satılırdı. Bunun 15 milyon kq-nı süni yolla alınmış indiqo boyası təşkil edirdi. Qalan 10 milyon kq-ı isə təbii indiqo boyası təşkil edirdi. Təbii indiqofera boyasını dünya bazarlarına ən çox Hindistan ixrac edirdi. İndiqofera bitkisinin bütün hissələrindən, xüsusi ilə də yarpaqlarından qlikozid xassəli indikan-Cu Ni? Noe+3 H2 O tapılmışdır. Bu da başqa qlikozidlər kimi indikan turşusu və enzim maddələrinin köməyi ilə parçalanaraq qlikoza və indoksilə çevrilir: C« Ni? O6+3H20 O N?o N+Ce N12 Oe rəngsiz in- doksil isə öz növbəsində havada olan oksigenin təsiri ilə oksid- ləşərək göy rəngli indiqo maddəsinə çevrilir: 2 CB H?o N+$O_2$->Ci6 H10 N? O2+2 H20

Sonuncu mərhələ aşağıkadı sonluqla başa satır:

2Cl4 N17 N0B+$0_2$4C<6 N10 Ni> O2+2C6 N12 Oe

İndiqo maddəsi bitkinin yarpaqlarında çəki hesabı ilə 0,6 % bütövlükdə isə 0,25 % təşkil edir.

Tibb sənayesində indikanı indoksulsulfat turşusu adlandırırlar. Buna da kalium duzu şəklində heyvan və insan sidiyinin tərkibində rast gəlmək olar. İndikan isə orqanizmdə zülal təbiətli maddə olub, bağırsaq boşluğunda pankras şirəsinin təsiri ilə parçalanaraq indola çevrilir. Birinci halda indol oksidləşərək indiok- sila, 0 da orqanizmdə əmələ gələn turş mühitinin təsiri ilə indika- na çevrilir. Bir çox ölkələrdə indiqofera bitkisi son dövrə qədər köhnə qaydada əkilib becərilirdi. Süni yolla indiqo boyağı sintez olunduqdan sonra ingilis sahibkarları indiqo boyağının keyfiyyətini və məhsuldarlığını artırmaq yolları haqqında düşünməyə başladılar.

Bitkinin məhsuldarlığı və ondan alınan indiqo boyağının key-

liyyoti bir çox amillərdən asılıdır. Bu, təkcə torpağın quruluş və keyfiyyətindən, hava və iqlim şəraitindən deyil., sahələrə verilən gübrələrin növündən, əkilmə üsulundan, bitkinin tam yetişməsin-ılon, yarpağın toplanma qaydasından və nəhayət, boyaq maddə-ulnın hansı texniki proseslərlə alınmasından asılıdır. Bitkinin top-lanması aşağıdakı qaydada həyata keçirilir. Yarpaqlarını və yaxud bütün hissələrini toplayırlar. Bitkidən bir ildə iki və daha çox 4 dəfə məhsul götürürlər. Toplanmış məhsulu isladaraq sementlənmiş daş hovuzun içərisində lay-lay sərirlər. Sonra qıcqırma prosesi başlayır. Qıcqırma prosesi suyun keyfiyyətindən, temperaturundan bitkinin yetişmə fazasından asılı olaraq 10-15 gün davam edir. Qıcqırma nəticəsində əmələ gələn maye xüsusi keyfiyyətlərə malik olmalı və açıq sarı rəng almalıdır. Alınmış açıq sarı rəngli maye başqa bir hovuza axıdılır. Bu zaman havanın oksigeni ilə məhlulda oksidləşmə prosesi baş verir. Oksidləşmə tez başa çatsın deyə, yerli əhali onu çubuqla köpüklənənə qədər qarışdırırlar. Ən yaxşı üsul isə oskidləşmənin sürətləndirilməsidir, bunu mayenin içərisinə hava vumaqla həyata keçirirlər. Bu zaman məhlul yaşıl rəng alaraq, yavaş-yavaş lopa şəkilində çənin dibinə çökür. Sonra çöküntünü toplayıb, vakum-nasoslarda qovmağa başlayırlar. Bu üsulla iki prosesi həyata keçirirlər. Birincisi, indi- qo boyağını qarışıqlardan təmizləyir, ikincisi, təkrar baş verən qıcqırmanın qarşısını alırlar. Alınmış məhlulu qalın kətan parçanın üzərinə axıdır, sonra çöküntünü yığıb sıxaraq məftil ilə kiçik hissələrə bölür, yaxşı meh vuran kölgəliklərə sərib qurudurlar.

Dünya bazarlarında satılan indiqo boyağının üzərinə hansı ölkədə istehsal olunduğunu göstərən möhür vurulur. Ən keyfiyyətli indiqo boyağı Sumatra və Yava adalarında istehsal olunur. Dünya bazarlarında müxtəlif çeşid, növ və sortlara ayrılmış çoxlu sayda indiqo boyağı satılır. Tərkibində 50% indiqo boyağı olan toz pis, 82%-dən çox olanı isə əla növ hesab edilir.

Təcrübəli boyaqçılar indiqo boyağının saf və qarışıq olmasını boyanmış materialın rəng və çalarlarına görə təyin edirlər.

Təbii indiqo boyağının kimyəvi quruluşu alimlərə məlum ol

duqdan sonra, bunu süni yolla sintez etməyə başladılar.

Süni indiqonu ilk dəfə 1865-ci ildə İ.Bayer almışdır. 1868- 1870-ci illərdə isə indiqo boyağı zavod üsulu ilə alınıb, satışa göndərilmişdi. Bu dövrdə süni indiqo təbii indiqo boyağını sənayedən sıxışdırıb çıxartmağa başladı. Lakin süni indiqi heç də tamamilə təbii indiqoya “qələbə” çala bilmədi.

Hazırda yuxarıda qeyd etdiyimiz ölkələrdə indiqofera boyağı istehsal edilib dünya bazarlarına göndərilərək, ondan yun, ipək, pambıq, kətan və s. materialların boyanmasında, eləcə də “Basma” adı ilə kosmetik maddə kimi xına ilə qarışdırılıb, saçların qara rəngə boyadılmasında istifadə edilir. Azərbaycan xalqı indiqo boyağı ilə XVII əsrin sonu, XIX əsrin əvvəllərində tanış olmuşlar. Xalqımız indiqo boyağının boyama texnologiyasını gözəl mənimsəmiş və ondan məharətlə göy, mavi, abı rəng və çalarlar almağa nail olmuşlar. Boyama proseslərini küp qablarda aparırmışlar. Boyama prosesi aşağıdakı əməliyyatlarla həyata keçirilmişdi.

Palıddan hazırlanmış iri çəlləyin içərisinə 38-40 litr insan sidiyi (“cövhəri”) töküb, onun ağzını möhkəm bağlayıb, 2 aya qədər kölgəli yerdə saxlayırmışlar. İki aydan sonra çəlləkdə qalmış sidiyi “cövhəri” süzüb başqa bir palıd çəlləyinə tökərmişlər. Sonra 74-76 kq qurudulmuş indiqo bitkisini narın toz halına salıb, kətan torbaların içərisinə doldurub sidik “cövhər”inin içərisinə salarmışlar. indiqo boyağı tamamilə həll olsun deyə, gündə 2-3 dəfə sidik “cövhəri”nin içərisinə salınmış kətan torbanı çalxalayarmış- lar. Boyaq tez yetişsin deyə onu isti yerə qoyurdular. Çəlləyi isti olan yerdə saxlamaq mümkün olmadıqda, onun tərkibindəki sidiyi hər gün 30 dərəcə temperaturda qızdırırdılar. Hər 3-4 gündən bir boyağı “yetişib” əmələ gəlməsini bilmək üçün ondan nümunə götürürdülər. Belə ki, bir parça yun və ya ipi bir neçə saatlığa çəlləyin içərisinə salırdılar. Hərgah yun məmulatı yaşıl rəng alarsa, deməli “boyaq yetişib”, hazırdır. Yox, yaşıl rəng almırsa, deməli, bir neçə gün də gözləmək lazım gəlirdi. Yun məmulatını indiqo boyağı ilə boyamaq üçün əvvəlcə onu boyaq məhlulunda isladır, sonra yüngülcə sıxır, iri həcmli teştə sərirmişlər. Sonra sərilmiş

yun kələflərin üzərinə yenidən boyaq məhlulu əlavə edib, bir gün saxİayırmışlar. Sonra yunu çıxarıb yüngülcə çıxır və asırmışlar. Huyaq məhlulunu yenidən 30 dərəcəyə qədər qızdırır, qurudulmuş yun kələfləri yenidən boyaq məhlulunda isladırmışlar. Bu proses təkrar olunmaqla 6-7 gün davam etdirilirdi. Elə ki, istənilim rəng əldə edildi, o zaman proses dayandırılardı. Boyanmış ipi götürüb təmiz sidik "cövhəri"nin içərisinə salıb yaxalayır və yeni- dun boyağın içərisinə salardılar. Hazırlanmış boyağı saxlayıb, onunla 2-3 dəfə, hər dəfə eyni miqdarda yun kələfi boyayarmış- lar. Tünd göy rəng almaq istədikdə isə boyağın üzərinə yeni in- dlqofera boyaq (tozu) əlavə edirmişlər.

Bundan əlavə, qabaqcadan sarı rəng boyadılmış yun kələfi indiqo boyayığının içərisinə salaraq, onu gözəl, davamlı yaşıl rəngə boyayırmışlar. Boyadılmış yun ipin rəngini daha da möhkəmlondirmək üçün qurudulmuş kələfi yenidən sidik cövhərində yaxalayıb, ardıc meyvəsindən hazırlanmış qaynar məhlulun içərisinə salarmışlar. Bundan sonra kələfi çıxarıb, açıq havada kölgə düşən yerə asıb qurudarmışlar.

Indiqo boyağı başqa boyalardan fərqli olaraq universal xüsusiyyətlərə malikdir. Belə ki, bu boyaqla yun, pambıq, ipək və kətan məmulatlarından başqa, istənilən materialları göy, mavi, abı və onların rəng və çalarlarına boyamaq mümkündür. Qadınlar indıqo tozu ilə xınanı qarışdırıb saçlarını parlaq qara rəngə boya- yırlar.

Dünya florasında tərkibində indiqo boyağı maddəsi saxlayan bitkilər çoxdur. Bunlardan rəng otunu-isatis tintoria boyaq qırxbuğumu-polygonum tinctorium, zöhrə otunu-Mercurialis perennis, lakmusotunu-Chrosophora tinctoria və s. göstərə bilərik.

İndiqo təbii boyağından hal-hazırda kosmetika sənayesində geniş istifadə olunur.

# *MƏRCANGİLƏ- VACCINCIM*

Mərcangilə-Ericaceae fəsiləsindəndir. Mərcangilə cinsinə K.Liney dövründə 12 növ, hal-hazırda isə dünya florasının tərkibində 400-ə qədər növü müəyyən edilmişdir. Bu növlərə ən çox Amerika, Avropa, Asiya, Afrika qitələrinin ərazilərində rast gəlmək olar. Cinsin Qafqazda, o cümlədəndə Azərbaycanda 7 növü yayılmışdır.

Mərcangilənin latınca elmi mənası “İda dağının üzüm giləsi" deməkdir.

Mərcangilə-Vaccinum vetis ideala bu həmişəyaşıl sürünən, güclü kök sisteminə malik dırmaşan zoğlardan ibarət 25-30 sm hündürlüyündə olan kol bitkisidir. Yarpaqları dərivari, çoxillik, el-lipsvari və yaxud tərsinəyumurtavari küt və yaxud bir qədər girin-tili-çıxıntılı, azca dişivari və yaxud bütöv kənarlıdır. Yuxarı hissəsi parlaq yaşıl, alt hissəsi tünd qonurumtuldur. Yarpaqları növbəlidir. Çiçəkləri ağ və çəhrayı rəngdə olub, qısa qalın salxımvari çiçək qrupunda keçən ilki budağın qurtaracağında yerləşmişdir. Meyvələri qırmızı rəngdə giləmeyvədir. Mərcangilə may-iyun aylarında çiçək açır, avqust-sentyabr aylarında meyvəsi yetişir. Mərcangilənin xoşa gələn turşməzə dadlı qırmızı və ya çəhrayı rəngli meyvələri vardır. Bir giləmeyvəsinin tərkibində 5-31-ə qədər toxum olur.

Mərcangilənin meyvəsinin tərkibindən 83-84,60% su, 6,91- 10,37 % şəkərli maddələr, 0,39-0,83 % saxaroza, 2,96-4,60 % qlyukoza, 3,98-5,77 %, fruktoza, 1,79-2,11 % üzvi turşular 0,168- 0,382 % aşı maddəsi, 1,49-2,14 % selüloza, 0,08-1,64 pektin maddəsi 0,57-0,89 % azotlu maddələr 0,23-0,28 % kül, 0,032- 0,041 %fosfor turşusu və s. maddələr tapılmışdır. Bundan əlavə meysəsindən 0,3-0,6 % p, 0,03 mq% B, 1,0 mq % E, 0,5-0,10 mq % A (karotin) antosian-3,5 diqlikozid, malvidin-3,0 qlikozid, sia- nidin, benzoy, limon, alma, quzu qulağı, askarbin turşuları və s. aşkar edilmişdir.

Yarpaqlarının tərkibindən isə 8-10 %-ə qədər aşı vaksinin

hIdroxinon, hiperozid, hiperin, ramnozid, kempferol, kversitrin, Izokverstrin, rutin və s. flavonal maddələri, ursoj, qall, elleqal, mi-rlstin, üzvi turşular, spirt, şəkər, karotin, xlorofil, arbutin, mineral maddələr və s. tapılmışdır.

Toxumlarının tərkibindən 30 %-ə qədər piyli yağ maddəsi aşkar edilmişdir.

Mərcangilənin 1 kq meyvəsinin tərkibindən 4,28 % kül, 8,40 mq/q %-K, 1,505-1,665 B, 0,006-0,25-Cr, 32,25-34,20 Cu, 32,25-48,00-Ya, 0,020-0,021 Mo, 0,064-0,065-Nİ 0055-0,108-pb, 0,25-0,55 Sn, 1,118-1,485 Si, 0,023-0,245 Pi, 0,019-0,053-W, 0,159-0,495 Zn, 11,17-12,28-Fe, 94,60-96,40-Ca, 22,40-64,40 Mn 44,52-421,20 və s. makro və mikroelementləri tapılmışdır.

Mərcangilənin meyvələrindən hemopatiya, vitamin çatışmaz-lığında, zəif işlədici, ishala, revmatizmaya, şirəsindən qüwətlən-dirici, tonusartıcı, mədə yaralarında, qızdırmada və s. xəstəliklərin müalicəsində istifadə olunur. Bundan əlavə şirəsindən qızılca zamanı susuzluğun aradan qaldırılmasında işlədilir.

Elmi təbabətdə mərcangilənin yarpaqlarından daha geniş istifadə edilir. Belə ki, bitkinin yarpaqlarını çiçək açmamış toplayıb, qurudub toz halına salıb işlədirlər. Ümumiyyətlə bitkinin yarpaqlarını iki dəfə toplayırlar. Birinci dəfə çiçək açmamış, ikinci dəfə meyvələri yetişəndən sonra toplamağı məsləhət görürlər. Mər- cangilə yarpaqları əllə, ehtiyatla dərilib toplanır. Bitkinin kökü torpağın 2-4 sm dərinliyində olduğundan yarpaqları toplayan zaman dartmaq olmaz, çünki bitki asanlıqla kökdən qopub məhv ola bilər. Bitkidən ikinci dəfə təkrar yığımı 5-10 ildən sonra aparmağı məsləhət görürlər. Toplanan yarpaqlar qurudulmamışdan qabaq çürümüş, həşərat zədələrindən, qaralmış yarpaqlardan təmizlənir, havası daim dəyişilən, quru havalı çardaqlarda və ya günəş şüası düşməyən binalarda kağız üzərinə sərilib qurudular. Qurudulmuş yarpaq xammalı 3 il öz keyfiyyətini itirmədən qala bilir.

Mərcangilə yarpaqlarının tərkibində müalicə əhəmiyyətli mad dələrdən ən başlıcası arbutin qlikozididir. Yarpaqlarda onun miqdarı 6-9 %-dir. Mərcangilə yarpaqlarında olan arbutin fenol törə

məli qlikozid olub, son dərəcə qüvvətli antiseptik və dezinfeksiyaedici təsirə malikdir. Mərcangilə yarpaqlarının sulu dəmləməsi duz çöküntüləri ilə müşayiət olunan xəstəliklərdə, artiritdə, sidik kisəsi iltihabı, şiş, böyrək daşı xəstəliyi, revmatizm, podaqra, nefrit, oynaqların formasının dəyişilməsi kimi ağır xəstəliklər zamanı daxilə qəbul edilir. Böyrəklərdə və sidik yollarında düz yığılan zaman mərcangilə yarpaqlarından hazırlanan çay çox faydalıdır. Mərcangilə çayından, eləcə də onun qarışıqlarının qastritdə, xroniki tonzilitdə, stamatitlərdə, paradontoz xəstəliklərinin müalicəsində də istifadə edilir. Bundan başqa yarpaqlarından alınmış sulu və spirtli çıxarışlarından və hazırlanan preparatlarından mədə şişlərində, ishal əleyhinə, uşaqlıq və daxili qanaxmalarında, şəkər, tuberklyoz, sarılıq, qastrit, vitamin çatışmazlığında və s. işlədilir.

Meyvələrindən qan damarları kövrəyliyi zamanı, xırda qansızmalarında, eləcə də turşuluq azlığı nəticəsində baş verən qastritdə istifadə olunur. Bundan başqa təzə dərilmiş meyvələri və ya qurudulmuş meyvələrinin çayı böyrək xəstəliklərinin müalicəsində çox faydalıdır.

Meyvələrindən yeyinti sənayesində bir çox qida əhəmiyyətli məmulatlar-mürəbbə, şərbət, kompot, pavidla, şirə, çaxır, cövhər, likor, cem və s. hazırlanır. Meyvələrindən hazırlanan qırmızı təbii boyadan yeyinti məhsullarının zövq oxşayan rənglərə boyanmasında istifadə edilir. Hər hektar sahədən 93,2-180,5 kq meyvə toplamaq olar. Mərcangilənin yarpaq və meyvəsindən kosmetika sahəsində geniş istifadə edilir. Belə ki, bitkinin mey və yarpaqlarından hazırlanan dəmləmələrdən, çaylardan, cövhərlərdən baş tüklərinin tökülməsində, qovaq və qaşınmaların aradan qaldırılmasında geniş istifadə olunur. Mərcangilə şirəsindən hazırlanan maskalardan isə dərinin vaxtından qabaq solub qırışması əleyhinə işlədilir. Estraktından isə göz xəstəliklərində istifadə edilir.

# *XƏNDƏKOTU-SUMPHUTUM*

Sümürgənçiçəklilər-Boraginaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində bu cinsin 25-ə qədər növü yayılmışdır. Bunlardan Qafqazda 6, o cümlədən də Azərbaycanda 3 növünə rast gəlmək olar.

Müalicə və kosmetika sahəsində istifadə olunanı isə bərk xəndokotu növü hesab edilir. Bitkinin adının mənası, “bərkimək”, birləşdirmək deməkdir. Bərk xəndəkotu-hündürlüyü 30-60 sm olub çoxlu əyri budaqlardan ibarətdir. Gövdə üzərində yerləşən yuxarı yarpaqları qısasaplaqlı və yaxud orraq olub, uzunsov-yumurtavarldir. Çiçək tacı göyümtül-mavi rəngdədir.

Bərk xəndək otu Azərbaycanın Böyük Qafqazın Quba ərazisində, Kiçik Qafqaz sahələrində, Naxçıvan MR-ın və Lənkəranın dağlıq zonalarında yayılmışdır. Müalicə məqsədləri üçün köküm- sovundan istifadə edilir. Kok hissəsi qara rəngli, qısa, yoxundur. Kökünün tərkibindən lazikartin-C21 N33 07 N2, alantolin-C4 N6 03 N4 alkoloidləri, qatran, çoxlu selik maddəsi, efir yağının izləri, sinoqlossin-033 N49 09 N və s. tapılmışıdır.

Xəndəkotunun kök hissəsindən alınan məlhəmdən sümük çatlarının bitişdirilməsində, qanaxmaların dayandırılmasında istifadə olunur. Qədim tibb həkimləri bu bitkinin gözəl müalicəvi təsirlərinə görə yüksək qiymətləndirmişlər. Həkim Fernol cərrahlara məsləhət görürdü ki, əzələ zədələnmələrini bu bitkidən alınan məlhəmlərlə, müalicə etsələr məqsədlərinə tez nail ola bilərlər. Qədimlərdə bitkidən alınan cövhərlə qanlı ishalı, qanlı sidiyi, qanlı bəlğəmləri müalicə edirmişlər.

Bəlğəmgətirici, soyuqdəymə əleyhinə, yumuşaldıcı və qankə- sici xüsusiyyətlərinə görə bitkidən bir çox ölkələrin kosmetika və dermatologiya sahələrində geniş istifadə olunur.

Belə ki, Bolqarıstanda kompres və sıyığından dəri səpmələrində, sınıqlarda, xarici qanaxmalarda çibanların müalicəsində istifadə edilir. Diş xəstəliklərində isə gap-qara şəklindəğ işlədilir.

Kosmetoloqlar isə büzüşdürücü, yumşaldıcı və soyuqdəymə əleyhinə işlədilər. Bundaş yaş sarğı, plastır kimi yarasağaldıcı əzələ zədələrində, səridə olan irinli yaraların sağaldılmasında istifadə edilir. Bitkidən alınan məlhəm və cövhərlər hüceyrənin toxumlarının inkişafını sürətlənirir, dərinin tezliklə sağalmasına şərait yaradır.

# NORVUZÇİÇƏYİ-PRIMULA

Novruzçiçəyi-Primulaceae fəsiləsindəndir.

Dağ döşündə qar yavaş-yavaş əriyir. Adda-budda boz ləkələr görünür. Bu, torpaqdır, qış yorğanını çiynindən atır. Bir az aralıda novruzgülü təbiətə boylanır. Deyəsən, səhərin soyuq şaxtasından üşüyür. Ovcumun içərisində tuturam, ilahi, bu zərif varlıqda nə qədər hərarət olarmış! Sanki əlimə isti bir əl toxunur. Xoş gəlmisən novruzgulu! Sən baharın müjdəsisən. Sən ana təbiətin bixə bəxş etdiyi ilk bahar sovqatısan."

Dünfa florasının tərkibində 500-ə qədər növü yayılmışdır. Qafqazda 23, o cümlədən Azərbaycanda 8 növünə təsadüf edilir. Bunlardan irikasacıqlı novruzçiçəyi-P.macropalyx, Voronov novruzçiçəyi-P.woranowi və rəngbərəng novruzçiçəyi-P.heterochro- ma və s. faydalı xüsusiyyətləri öyrənlmişdir. Yaz novruzçiçəyi və yaxud dərman novruzçiçəyi-P.veris bunu xalq arasında "açar" "tezyetişən", "qoyuncuq", "sarılıq" və s. adlarla çağırılır. Aprelin axırları və mayın əvvəllərində otlar sürətlə boy atmağa başlayanda novruzçiçəyi birinci çiçək açıb yazın gəlişini sevinclə qarşılayır. Çiçək tacı parlaq-sarı, boruvarı beş qanadlı açılmış çiçəklərdən ibarətdir. Kasacığı boruvari zəngvarıdır. Yarpaqları açıq-ya- şıl, kökətrafı yarpaqları yumurtavarı və yaxud uzunsov kənarları dalğavari qarışıqlı qısa yumuşaq məxmərvari tüklə əhatə olunmuşdur. Bitkinin kökümsovu qısa, yoğun, üfiqi istiqamətdə yerləşmiş çoxlu köklərdən ibarətdir.

Bitkinin kökünün tərkibində 5-10 %-ə qədər saponin, 0,08 % efir yağı, primulaverin-Cso №s $Q_3$ qlikozidi triterpen birləşməsi primulaqenin-Cso №o $Q_3$ yarpaqlarından 2 %-ə qədər saponin, 3 mq % krotin, çiçəklərindən saponin və flavanoid maddələri tapılmışdır. Bitkinin bütün hissələri askorbin turşusu saxlayır. Belə ki, yarpağından 5 %, çiçəklərindən isə 6 %-ə qədər S vitamini tapılmışdır. Bitki aprel-iyun ayında çiçək açır, meyvəsi may-iyunda yetişir. İrikasacıqlı novruzçiçəyi çoxillik ot bitkisi olub əyri kö- kümsova və çoxlu ağ məftilvari formalıdır. Yarpaqsız çiçəkotu

u/orlndə sadə çətirvarı çiçəkqrupu yerləşir. Çiçək tacı parlaq sarı rongdədir. Meyvəsi çox toxumlu qutucuqdan ibarət olub yumur- lrt formasındadır. Qaraya çalan xırda toxumları vardır. Bitki aprel- iyun aylarında çiçəkləyir, meyvəsi may-iyunda yetişir. Azərbaycanda dağ ətəklərindən başlamış subalp qurşaqlarına qədər yayılmışdır. Adətən meşəliklərdə, meşə açıqlıqlarında, kolluqdar- da və çəmənliklərdə bitir. Respublikada ehtiyatı boldur. Rus xalqı novruzçiçəyini "qızılaçarcıq" adlandırırlar. Bu da yazda isti günlərin başlanmasına yol açma kimi mənalanır. Bitkinin müalicəvi əhəmiyyəti insanlara çoxdan məlum idi. Novruzçiçəyi dərman bitkisi kimi ilk dəfə qədim yunanlara məlum olmuşdur. Yu- nanlılar novruzçiçəyindən hazırlanan dərmanları "Olimp çətiri" adlandırmışlar. Qədim yunanlar bu bitkini "dodekateon" yəni 12 Allahın çiçəyi adlandıraraq, onun müalicəvi təsirinə inanırdılar.

Novruzçiçəyinin kökündən alınmış cövhərdən branxitdə, ağciyər soyuqdəymələrində, çiçəyinin cövhərindən əsəb yorğunluqlarında, baş ağrılarında, yuxusuzluqda, yarpağının cövhərindən isə, müqavimət artırıcı, tərgətirici və sidik qovucu vasitə kimi istifadə olunur.

Tibbdə bitkinin yarpaq, çiçək, kökümsovvə köklərindən istifadə edilir.

Yarpaq və çiçəklərini, çiçək açan dövrdə, kökümsov və kök hissəsini isə payızda bitkinin üst hissəsi quruyan zaman və yaxud erkən yazda, yarpaq əmələ gələnə qədər toplayırlar. Yerdən qazılıb çıxarılmış kök hissəsini torpaqdan təmizləyib, tez soyuq suda yuyub, doğrayıb, açıq havada kağız üzərinə sərib qurutmaq lazımdır. Qurudulmuş xammalın ölçüləri 3-12 sm olub kökkümso- vu qonurumtul, kökləri nazik açıq qonur rəngli xoş ətirli iyə acım- tıl dada malik olub bənövşənin iyini xatırladır.

Novruzçiçəyinin çiçək və yarpaqları yaz fəslində zəif xoşa gələn iyə, azacıq şirintəhən dada malik olur. Yarpaq və çiçəkləri tezliklə havası dəyişilən binalarda sərib qurutmağı məsləhət görürlər. Bunları quruducu şkaflarda 100-120 dərəcə temperaturda qurudurlar.

Xammal nə qədər tez qurusa tərkibində bir o qədər çoxlu vitamin saxlaya bilər.

Yarpağında növündən asılı olaraq çoxlu 700-6000 mq% S vitamini saxlayır. Novruzçiçəyinin yarpağında olan S vitaminin miqdarı heç bir bitkinin yarpağında təsadüf edilmir. A vitamini ile də zəngindir. Yarpaqlarının tərkibində S vitaminin miqdarı çiçə- yinkindən 3 dəfə, kök və kökümsovundan 10 dəfə çoxdur. Zərif yarpağından salat kimi istifadə etmək olar. Dadının keyfiyyətinə görə bostan salatlarından heç də geri qalmır. Qida keyfiyyətinə görə bostan şalatlarından üstün sayılır. Qəribədir ki, bir çox ölkələr məsələn İngiltərə, Hollandiya Novruzçiçəyini kərdilərdə qida və vitamin bitkisi kimi əkib becərirlər. Bu erkən bitən yaşıl tərəvəz bitkisi kimi çox qiymətli sayıla bilər. Belə ki, yazda bizim orqanizmimizdə vitamin çatışmazlığı hiss olunur, bunun tərkibi isə zəngin S və A vitaminləri, makroelementlər və bir sıra bioloji aktiv maddələrlə zəngin olduğundan çox qiymətli sayıla bilər. 1 ədəd yarpağın qırıb yedikdə insanın bir gündə S vitamininə olan tələbini təmin edir.

*Novruzçiçəyinin quru yarpaqlarından cövhərin hazırlanması:* 1 xörək qaşığı toz halına salınmış yarpağından götürüb, 0,5 litr qaynar suda, 30-60 dəqiqə saxlayıb, cunadan süzdükdən sonra orqanizm vitaminə olan tələbatını ödəmək üçün gündə 2-3 dəfə yarım stəkan qəbul etməyi məsləhət görürlər.

Cövhərin tərkibindəki S vitamini tez parçalandığına görə bunu 1-2 gündən çox saxlamağı məsləhət görmürlər. Yarpağından alınan cövhərin sidikqovucu xüsusiyyətinə malik olduğuna görə bundan sidik kisəsi, böyrək, çiçəyinin cövhərindən isə yuxusuz- luqda, əsəb zəifliklərində, həmçinin baş ağrılarında istifadə olunur.

Toz halına salınmış yarpaqları uzun müddət saxlandıqda öz keyfiyyətini itirmədiyinə görə, ondan cövhər hazırlayıb, vitamin mənbəyi kü xörəklərin tərkibinə qatmağı məsləhət görürlər. Bu vitaminli xörəklər ərkən yazda orqanizmdə vitamin çatışmazlığı nəticəsində haldan düşmüş xəstələr üçün çox xeyirli hesab edi-

Ilı Bu cür xörəklər vitamin çatışmazlığında, orqanizm zəiflədikdi», sifətin solğunluğunda, dəri quruduqda, iştah pozuntularında vu 8. çatışmazlıqlarında çox xeyirlidir. Erkən yazda vitamin çatışmazlığında gözün görmə qabiliyyəti kəskin surətdə azalır. Gözü normal hala salmaq üçün bitkinin vitaminli cövhərindən içməklə Vö eləcə də zərif yarpaq və çiçəklərindən salat hazırlayıb yemək- le aradan qaldırmaq olar.

*Çiçəyindən cövhərin hazırlanması:* 3 xörək qaşığı quru çi- çeyindən götürüb 250-300 ml qaynadılmış suda 30-60 dəqiqə saxladıqdan sonra, süzüb gün ərzində qurtum-qurtum içməyi məsləhət görürlər.

Kökümsovunda və kökündə 5-10 faizə qədər saponin maddəsi saxladığından bundan bəlğəmgətirici vasitə kimi istifadə edilir.

*Kökündən cövhərin hazırlanması.* 1 xörək qaşığı 10 q kökündən götürüb, 200 ml qabaqcadan qaynadılmış suya töküb 15 dəqiqə qaynadırlar. Sonra süzərək gündə 3-4 dəfə 1-2 xörək qaşığı qəbul etməyi məsləhət görürlər.

Kökündən alınmış cövhərdən əsasən yuxarı nəfəs yolları soyuqdəymələrində, xroniki bronxitdə, pnevmaniyada, ağciyər xəstəliklərində, göy öskürəkdə, soyuqdəymələrdə bəlğəmgətirici vasitə kimi işlədilir. Bundan tərgətirici və sidikqovucu vasitə kimi də istifadə etmək olar.

Novruzçiçəyinin kökünü müxtlif bitkilərin tərkibində qatışdırıb, bəlğəmgətirici vasitə kimi nəfəs yolları xəstəliklərində tətbiq edilir.

Xalq təbabətində cövhərindən yalnız təkcə bəlğəmgətirici kimi yox, həmçinin sidikqovucu, tərgətirici, revmatizm ağrılarının sakitləşdiricisi kimi də istifadə edilir.

Bitki zəhərsiz olduğuna görə bundan alınan preparatlardan uzun müddət istifadə etdikdə heç bir zərərli təsir müşahidə olunmur.

Nvovruzçiçəyinin çoxlu növ müxtəlifliyi mövcuddur. Bir çox növləri bəzək bitkisi kimi ev şəraitində becərilir. Kimsədə alergi-

ya meyli vardır, onlar bir az ehtiyatlı olmalıdırlar. Çin novruzçiçəyi növü ola bilsin ki, kəskin alergiya əmələ gətirsin.

Ona görə də bu növlə məşğul olan zaman çox ehtiyatlı olmaq lazımdır. Alergiyaya tutulmuş xəstələr bu bitgidən yan keçməlidirlər.

Bu növlər özlərinin vəz tükcüklərindən zülal ifraz etdiklərindən, selikli qişa soyuqdəymələri, zökəm, temperaturun yüksəlməsi və s. kimi xoşa gəlməz alergiya xüsusiyyətli xəstəliklər əmələ gətirirlər.

Mənim yoldaşlarımdan biri uzun sürən ağır qrip xəstəliyindən ağ ciyər xəstəliyinə tutulmuşdur. Bu yüksək dozaya malik antibiotiklər və eləcə də başqa dərman növləri qəbul etməyə başlamışdır. Lakin bu dərmanların buna heç bir xeyiri olmamış əksinə uzun müddət öskürmə, tez-tez tərləmək, tez yorulmaq, tempera- turun-37,3 37,5 olması, baş ağrıların, yuxu pozğunluqları halları yüksəlmişdir. Mən ona novruzçiçəyinin müalicəvi xüsusiyyətləri haqqında geniş məlumat verdim. Ona kök, kökümsov, yarpaq və çiçəyindən hazırlanan cövhərdən qəbul etməyi məsləhət gördüm. Bu hadisə aprelin əvvəllərində baş vermişdir. Bir aydan sonra həmin xəstə öskürəyin azalması gözün görmə qabiliyyətinin yüksəlməsi, yuxunun artması və özünü yaxşı hiss etməsini nıənə bildirdi.

Mənim tanışım novruzçiçəyinin yarpaq və çiçəklərini toplayıb, ondan salat hazırlayıb, xörəklə yeməyə başlamışdır. Bir aydan Sonra tanışımın xəstəliyi tamamilə yox olub getmiş, o özünü tamamilə sağlam və gümrah hiss edirdi.

Kosmetika sahəsində novruzçiçəyinin yarpağından hazırladan cövhərdən sürtkü, yaxalamaqla sifətdə əmələ gələn qızartı- ^rın yox edilməsində istifadə edilir. Bundan başqa cövhərindən Jəridə baş verən səpgilərin, qaşınmaların aradan qaldırılmasında istifadə edilir. Kökündən hazırlanan dəmləməsindən isə baş tükünün inkişafının sürətləndirilməsində istifadə olunur.

# ÇİLƏDAĞI-EREMOSTACHYS

Dodaqçiçəklilər-Lamiaceae fəsiləsindəndir.

Çilədagının dünya florasının tərkibində 50-ə qədər növü yayılmışdır. Bu növlərə əsasən Qərbi və Orta Asiya ərazilərində rast cəlınir. Qafqazda 4, Azərbaycanda isə 3 növü yayılmışdır.

Cırımlı çılədağı (E.laciniata) çoxillik ot bitkisi olub, kökətrafı boyuncuğu ağ, yunvarıdır. Gövdəsinin hündürlüyü 35-85 sm olub, ağımtıl, dağınıq halda uzunsov tükcüklərlə örtülmüşdür. Yarpaqları zəif tükcüklərlə örtülən uzun saplaqlardan, ləlәkvarı bölünən, uzunsov, lansetvarı və yaxud dişvarı formasındadır. Çiçəkləri çoxsaylı olub, süpürçjəvarı sünbüldə toplanmışdır. Ləçək- fəri boruvarı-zəngvarıdır. Çiçək yanlığı ağımtıidır. Qozvarı meyvəsi qaramtıl və yaxud qaramtıl qonur rəngdə olur. May-iyun aylarında çiçək açır. İyun-iyulda meyvə verir.

Cırımlı çilədağı Azərbaycanın ancaq Naxçıvan MR-in ərazisində düzənlik sahələrdən tutmuş orta dağ qurşaqlarının daşlı- çınqıllı yamaclarına qədər yayılmışdır.

Gürcü çilədağı (E.iberica) çoxillik ot bitkisidir. Kökətrafı boyuncuğu ağımtıl yunvarı tüklərlə əhatə olunmuşdur. Gövdəsinin hündürlüyü 50-100 sm olub, düz, sadə, nadir halda az budaqla- nan sıx uzun tüklərlə örtülmüşdür. Yarpaqları uzun saplaqlı, yaşıl rənglidir, azca tüklərlə örtülən lələkvarı və yaxud ikər lələkvarı bölünür, ensiz uzunsov və yaxud lansetvarı buğumlardan ibarətdir. Çiçəkləri çoxsaylı süpürgəvarı çiçəklərdən ibarət olub, sünbüldə toplanmışdır. Ləçəkləri boruvarı-zəngvarıdır. Çiçək yanlığı ağımtıl rəngdədir. Qozvarı meyvəsi tünd-qırmızımtıl rəngdədir. Aprel-may aylarında çiçək açır, iyun-iyulda toxum verir.

Gürcü çilədağı Azərbaycanın Quba, Abşeron, Qobustan ra-Klarında, Kür-Araz ovalığında, Lənkəran (zuvanda), Naxçıvan

-in düzən və dağlıq sahələrində geniş yayılmışdır. Ona ən çox daşlı çınqıllıqlarda, yovşanlıqlarda və kolluqlarda rast gəlinir.

iriyarpaq çilədağı (E.macropylla) çoxillik ot bitkisi olub, sıx tüklərlə örtülmüşdür. Gövdəsinin hündürlüyü 20-60 sm, yoğun, möhkəm və az budaqlanandır. Aşağı yarpaqları iri, enli yumurtavarı və yaxud enli ovalvarı olub, 6-10 sm uzunluğunda, 4-6 sm enində saplaqdan ibarətdir. 4-6 ədəd süpürgəvarı çiçəkləri sün

büldə toplanmışdır. Kasacıqları qıfvarıdır. Çıçəkyanlığı narıncı-sarımtıl rəngdədir. Meyvəsi qozvarı formada, qaramtıl-qonurumtul rəngdədir. May ayında çiçək açır, iyunda meyvə verir.

İriyarpaq çilədağı respublikamızın ancaq Naxçıvan MR-in düzən və dağlıq sahələrində yayılmışdır.

Çilədağının bütün orqanları, xüsusilə xeyli ətləşmiş kökümsovları alkoloidlərlə zəngindir. Qədim zamanlardan bəri xalq təbabətində bir sıra xəstəliklərin müalicəsində istifadə olunur. El arasında hələ qədimlərdən çıxıq, burxulma və sınıqların, həmçinin bədənin hər hansı hissəsində əmələ gəlmiş şişləri, fırları, ağrıları bitkinin kökümsovlarından hazırlanmış tozla müalicə etmişlər. Onunla oynaqların arasına su yığılmasını, müxtəlif dəri yaralarını da sağaldırlar. Bu köklərdən məlhəmlər hazırlayıb sümüklərin iltihabını da müalicə edirlər.

Dərman məqsədilə bitkinin kökümsovlarından istifadə edilir. Payızda onun kökümsovlarını toplayıb, torpağını yuyub təmizləyir, qurudub toz halına salırlar. Çıxıq, sınıq zamanı zədələnmiş nahiyyəni həmin tozla ovuşdururlar. Onun doğranmış yaş hissələrim ağrıyan yerin üstünə qoyub bağlayırlar. Ağrılar tezliklə sağalır. Çılədağından hazırlanmış məlhəm dəridəki irinli yaraların, ekzemanın təbii dərmanıdır. Bunun üçün kökümsovlardan hazırlanmış tozu kərə yağı ilə qarışdırmaq, yaranın üstünə yaxmaq lazımdır. Yaxmanı gündə iki dəfə təzələmək məsləhətdir.

Çilədağın kökumovlarından təngnəfəsliyin, bronxial astmanın müalicəsində və bəlğəmgətirici kimi istifadə edilir. Təmizlənib qurudulmuş çilədağının kökmsovlarından 20-25 q götürüb, 3 litr suda yarım litr qalana kimi qaynadırlar. Həmin məhlul hər gün səhərlər acqarına yeməkdən 30 dəqiqə qabaq 200 q-lıq stəkanın 1/4 hissəsi qədər içilir.

Sümükdən çirk gələn zaman çilədağı tozu (50 q) və ət maşınından keçirilmiş qoyun quyruğundan (150 q) məlhəm hazırlayıb işlənməmiş ağın üstünə yaxıb yaranın üzərinə qoymaq lazımdır. Bundan çirk çəkilənə kimi gündə 2 dəfə istifadə edilməlidir. Sonra isə yaranın üzərinə təmiz bal yaxılmalıdır.

Çilədağının çiçəklərində efir yağlarının olduğu müəyyən edilmişdir. Toxumlarının tərkibində çoxlu piy maddəsi tapılmışdır. Onun yeraltı yumruları kartof yumrularına oxşayır. Əksər hallarda çox iri, 20-25 sm uzunluğunda olur. Diametri 30 sm-ə çatır. Bir növ çuğunduru xatırladır.

Müxtəlif yerlərdən yığılmışçilədağı növlərinin kökyumrularının lurklbi bir-birindn fərqlənir. Belə ki, köklərinin tərkibində 9,63- 13,3 % protein, 1,48-3,04% yağ, 11,67-14,75% sellüloz, 13,47% kül, 68,08 % su və s. maddələr toplanır. Bundan başqa, köklərinin tərkibində 0,03-0,01 % fosfor, 0,19-0,24 % kalsium, 1,02-2,66 % kalium, 1,54-2,10 % azot və s. elementar olur.

Bu bitkilərdə kalsiumun miqdarı digər bitkilərə nisbətən çoxdur. Məlumdur ki, kalsium sümük maddəsinə bərklik verir, orqanizmdə sümük əmələgəlmə prosesini sürətləndirir. Ona görə, bu olomentin hər hansı birləşməsi sümük toxumasına yumşaldıcı ə- sir göstərə bilməz. Əgər sümük sınıqlarının yumşaldılmasına və oynaq ağrılarında çilədağı bitkisinin yumrularından xalq təbabətində geniş istiadə olunursa, deməli, onun tərkibində kalsiuma antaqonist maddə olmalıdır. Aparılan tədqiqatlar göstərmişdir ki, belə maddə stronsiumdur.

Araşdırmalardan məlum oldu ki, çilədağı bitkisinin kök yumrularının gülündə stronsium vardır. Müxtəlif ekoloji zonalardan toplanmış çildağı yumrularında stronsiumun miqdarı müxtəlif olur. Onun bır kq yumrusunda 1140 mq stronsium olduğu müəyyən edilmişdir. Ola bilsin ki, sümük sınıqları və oynaq xəstəlikləri zamanı stronsiumun müxtəlif birləşiələri müsbət rol oynayır. Heyvanlar bu bitkini həvəslə yeyir və sonra otlamağa meylləri azalır. Məlumdur ki, stronsium pepsin fersentinin aktivliyim azaldır və piroüzüm turşusunun toxumalarda əmələ gəlməsini zəiflədir. Heyvanların sonradan az otlaması bu bitkinin yerüstü hissəsində də stronsium birləşmələrinin çox olması ilə əlaqədardır.

Biz isə ilk dəfə olaraq onun yerüstü hissələrindən boyaq hazırlayıb, yun ipi sarı-narıncı, narıncı, narıncı-qonur, qonurumtul, boz, firuzəyi, zeytunu, zeytunu-yaşıl, yaşıl, tütünü, tütünü-yaşıl, açıq-qəhvəyi və s. rəng və çalarlara boyadıq.

Naxçıvan MR-də çilədağı bitkisinin çox böyük ehtiyatı var. Onun xalq təbabətində əhəmiyyətini nəzərə alıb bu təbii ehtiyatdan düzgün istifadə etməyin vaxtı çatmışdır. Tərkibindəki təbii maddələr əsasında yarım sintez vasitəsilə ondan bioloji cəhətdən daha fəal maddələr də almaq olar. Bundan tibb sənayesində istifadə olunan qiymətli dərman preparatları istehsal etmək mümkündür.

# SURVƏ VƏ YAXUD ADAÇAYI-SALVIA

Sürvə cinsinin dünya florasında 700-ə qədər növünə rast gəlmək olar. Bundan Qafqazda 40, o cümlədən Azərbaycanda 27 növü yayılmışdır. Bunlardan 2 növü-adaçayı və ənbər sürvə becərilir.

Dərman və ədviyyə kimi ən faydalı bitkilərdən biri də adaçayıdır. Bu, hündürlüyü 80-120 sm olan yarımkol, çoxillik, ətirli, etir- yağlı ot bitkisidir. Gövdəsi aşağı hissədən odunlaşmış bir neçə dördkünc budaqdan ibarətdir. Yarpaqları qarşı-qarşıya düzülmüş, lələkvarı və yaxud lələkvarı yumurta formasında, saplaqlı qırışıqlı olub, üzəri çoxlu nöqtəvari vəzciklə əhatə olunmuşdur. Çiçəkləri qısa, çiçək sütuncugunda, ziqamorf 6-10 ədəd yalançı süpürgəyəoxşar sünbül formasında dəstə-dəstə gövdəsinin yuxarı hissəsində yerləşmişdir. Kasacığı ikidodaqlı çılpaqdır. Çiçək tacı ətirli, göy-bənövşəyı və yaxud parlaq-çəhrayı, nadir nalda ağımtıl rəngli, ikidodaqlıdır. Erkəkciyi 4 ədəddir. Bunların ön hissədə yerləşən iki ədədi inkişaf edir, arxada yerləşən ikisi inkişaf etmir. İkinci ili may-avqust aylarında çiçək açır. Avqust-sentyabrda meyvəsi yetişir. Meyvəsi quru, 4 ədəd tünd-qırmızı və yaxud qara rəngli yumru fındıqçıdır. 1000 ədədinin çəkisi 4-10,6 qramdır. Qədim yunan xalqları belə bir rəvayət söyləyirlər ki, “ölümə qalib gəlmək istəyirsənsə, bağında sürvə ək*’. Bu da sürvənin qiymətli müalicəvi təsirə malik oitki oldğunu təsdiq edir.

Sürvənin müalicəvi xüsusiyyətləri haqqında böyük təbib Hip-pokrat, Dioskorid, Pliniy əsərlərində geniş dəyərli məlumat vermişlər. Sürvənin ən qiymətli xüsusiyyətlərindən biri odur ki, ondan sonsuzluqda geniş istifadə olunmuşdur. Belə ki, süvrədən hazırlanan xörəkləri sonsuz qadınlara yedizdirərək, uşaqvermə qabiliyyətini bərpa edərmişlər. Misirdə baş verən epidemiya xəstəliklərini sürvədən hazırlanan xörəklərlə müalicə edərmişlər.

Sürvənin qiymətli müalicəvi təsirə malik olması hələ qədimdən məlumdur. Qədim Yunanıstanda sürvənin yarpaqlarından “treçeski çayı” hazırlanmış və ondan orqanizmi qüwətləndirici vasitə kimi istifadə etmişlər. Cənubi Avropa xalqları sürvəni “müqəddəs ot" adlandırmış, bundan hazınlanan “Avropa çayı”nı mədə yaralarının sağaldılmasında işlətmişdir. Hazırda Bolqarıstanda sürvənin yarpaq və çiçəklərindən hazırlanan cövhərindən so-

yuqdəymədə, nəfəs qolları xəstəliklərində istifadə edilir. Sürvə cövhərindən mədə ağrılarında, mədə-bağırsaq pozğunluqlarında, tərləmə, təngnəfəslikdə, sidik kisəsi və böyrək kanallarının xəstəliklərində, uşaq əmizdirən anaların südünün artırılmasında və s. istifadə edilir.

Sürvənin çiçək və yarpaqlarının tərkibində 1,2-2,8% efir yağı vardır. Efir yağının tərkibində linalilasetat, sineol, pinen, borneol, tuyon və digər terpenlər tapılmışdır.

Yaşıl yarpaqlarının tərkibində 14,60% kül maddəsi 22,90 mq/q-K, 40,90-Ca, 9,20-MÇL 0,80-Fe makroelemetnləri, 99,20 mkq/q-Mn, 15,50-Cu, 97,40 Zn, 0,80-Co, 2,69-Cr, 73,92-Al, 1,25- V, 0,18-Se, 1,53-Ni, 89,70-Sr, 5,23-pb, 78,00-B, 0,15-Li mikroe- lementləri tapılmışdır. Bundan alınan efir yağından əczaçılıqda, qənnadı və konserv sənayesində istifadə edilir. Sürvənin yarpaqları və çiçəyi ədviyyəli dad və xoş iyə malik olduğundan təzə və qurudulmuş halda tərəvəz xörəklərinə, salatlara, şirin xörəklərə qatılır. Sürvənin çiçək və yarpaqlarından hazırlanan ədviyyatdan konserv, kolbasa, pendir istehsalında və tərəvəz, balıq xörəklərinin dadının və keyfiyyətinin yaxşılaşdırılmasında, habelə şərab, likor-araq və çay içkilərinin, tütünün ətirləndirilməsində əlavə qatqı kimi istifadə edilir. Bundan əlavə, efir yağından ətriyyat və sabunbişirmə sənayesində, diş pastalarına xoş ətir verilməsində, tüklərin tökülməsinin qarşısının alınmasında geniş işlədilir.

Sürvədən kosmetika sahəsində də istifadə edilir. Belə ki, yarpaqlarından hazırlanan cövhər, dəmləmə, vanna və mazlarından dəridə əmələ gələn irinli yaraların, zillərin, çıbanların ekzema və qaşınmaların müalicəsində istifadə edilir. Bir sıra ölkələrin kosmetika sahəsində süvrədən geniş istifadə edilir.

Əkilib becərilmə xüsusiyyətləri. Sürvəni toxum, şitil, hissələrə bölünmüş halda və həmçinin qələm vasitəsilə əkib becərirlər. Toxumla çoxalma qış aylarında və yaxud erkən yazda aparılır. Dənli bitkiləri tədarük etdikdən sonra, torpağın üst hissəsini 4-5 sm qalınlığında şumlayır, bir aydan sonra isə 25-27 sm dərinliyində şum işi aparılır. Şumlanmış sahə malalanır və kultivasiya işləri görülür. Sonra toxumları cərgəarası 70 sm olmaqla 4-5 sm dərin- iıkdə hər hektar sahəyə 8 kq olmaqla toxum səpilir. Cücərtilər 18- 22 gündən sonra alınır. Cücərti alındıqdan sonra cərgələrarası alaq işləri görülür.

# BƏDRƏNC (BALLINANƏ)-MELISSA

Bu cinsin dünya florasının tərkibində üç növünə rast qəlmək olar. Yabanı halda Cənubi Avropa, Orta Asiya, Şimali Afrika və Orta Aralıq dənizi ölkələrində rast gəlinir. Azərbaycanda bir növü Melissa officinalis dərman bədrənci yayılmışdır.

Dərman bədrənci-hündürlüyü 30-80 (120) sm olan, xoş ətirli, çoxillik ot bitkisidir. Çoxbudaqlı kökümsovdan ibarətdir. Yerüstü hissəsi düz qalxan və yaxud sərilən halda budaqlanan, dördkünc, sıx yarpaqlarla əhatə olunmuşdur. Saplaqlı yarpaqları qarşı-qarşıya düzülmüş uzunsov, uzunluğu 5-6, em 2,5-3 santimetrdir, dişlidir. Çiçəkləri yuxarı yarpaqların qoltuğunda 3-5 (10) ədəd dəstə-dəstə yalançı süpürgədə toplanmışdır. Çiçək kasacığı iki- dodaqlıdır. Tac çiçəyi ağımtıl, açıq-bənövşəyi və yaxud çəhrayı rəngdə qırmızı ləkələrlə əhatə olunmuşdur. Yuxarı dodağı bükülü, ağadıdakı isə 3 ağızcıqlıdır. Erkəkciyi 4-dür. Meyvəsi (toxumu) xırda, parlaq, tünd-qəhvəyi, açıq qonur, rəngli, uzunsov formada fındıqçadan ibarətdir. Bitki iyun-avqust (sentyabr) aylarında çiçəkləyir meyvələri avqust-sentyabrda yetişir. İkinci il çiçək açır. Avropanın orta zonalarında isə həmişə çiçək açır, lakin çox vaxt meyvə vermir.

Respublikamızın ərazisində yabanı halda meşə rayonlarında adan başlayaraq orta dağ qurşağına qədər) geniş yay ılmış- ətən bu bitkiyə meşələrdə, meşə kənarlarında, kolluqlarda, açıqlıqlarda, nəmli, kölgəli, yarğanlıqlarda, bəzən isə bağ və bostanlarda da rast gəlinir. Yerüstü hissələri kəskin limon iyinə malik olduğuna görə buna limon yarpızı da deyilir. Bədrəncın yerüstü hissəsində 0,33 %, yarpaqlarında 0,1-0,3 %, çiçəklərində isə 0,04-0,08 % efir yağı vardır. Efir yağının 60 %-ni sitrol aldehidi təşkil edir. Bundan əlavə tərkibində sitronellol, mirsin, geraniol, mınalol və başqa terpənlər, yarpaqlarında acı klikozidlər, 5 % aşı maddəsi, qatran, selikli maddə, qəhvə, ursol və oleonol turşuları, 150 mq % S vitamini, karotin və s. tapılmışdır. Meyvələrində 20 %-ə qədər ətirli yağ vardır. Bundan əlavə otunun tərkibində 7,57 % kül maddəsi, 31,20 (mq) K, 13,80-Ca, 5,40-Mg, 0,10-Fe mak- roelementləri, 24,80 mkq/q-Mn, 8,88-Cu, 46,80-Zn, 0,24-Mo, 0,24-Cr, 105,68-Al, 45,04-Ba, 0,16-V, 0,15-Se, 0,88-Ni, 22,20-Sr, 1,76-pb, 59,60-B, 0,05-1 və s. makroelementləri aşkar edilmişdir. Xalq arasında bədrəncə kökkəli limon, limonotu, balotu, arıotu və

orı sbəti də deyilir. Bu da onun arıları özünə ən çox cəlb etdiyinə yörədir. X əsrdə “Heoponikin” verdiyi məlumata görə bədrənc in- unları arı sancmalarından qoruyurmuş. O nektarla zəngindir. Ondan hazırlanan bal öz ətri və keyfiyyətinə görə başqa bal növ- lorindən fərqlənir.

Qiymətli dərman bitkisi kimi bir çox xəstəliklərin müalicəsində geniş istifadə edilir. Hələ çox qədim zamanlarda bədrənc roma, yunan, ərəb xalqları tərəfindən qiymətli dərman bitksisi kimi mədəni hala keçirilərək əkilib becərilmişdir. Bir qədər sonra isə şəfa verici bitki Kimi İtaliya, İngiltərə, Amerika və Balkan ölkələrində geniş surətdə əkilərək becərilmişdir.

Bədrəncdən müalicə otu kimi Ibn-Sina da istifadə etmişdir. Belə ki, ondan hazırlanan cövhərlərlə ürək fəaliyyətinin nizama salınmasında, həzm sisteminin yaxşılaşdırılmasında və eləcə də məyusluqun, qəmginliyin aradan qaldırılmasında istifadə olun- muşdur. Elmi təbabətdə bədrənc preparatları ilə qıcolmanın qarşısını alır, yağından oturaq sinir xəstəliklərində istifadə edilir. Xalq təbabətində geniş işlədilir. Onun qurudulmuş otunun çay kimi dəmlənməsi ürək, baş və mədə ağrılarını aradan qaldırır. Yüksək qan təzyiqinin aşağı salır və həzm prosesini yaxşılaşdırır. Bundan əlavə, böyrək xəstəliklərində sidikqovucu və iltıhabgəti- rıci kimi daxilə qəbul edilir. Çox qüvvətli fıtonsidli təsiri vardır. Azərbaycanın bir sıra dağ meşə raonlarında (Quba, Qusar, Qo- naqkənd, Xudat, Yalama) yetişir. Yerli əhali bədrənci çiçəkləyən dövrdə toplayır, onun yerüstü hissəsini çay kimi dəmləyib revma- tizm və podaqra vaxtı içirlər. Bundan başqa çayından beyin fəaliyyətinin artırılmasında yaddaşın gücləndirilməsində istifadə olunur. Bunun efir yağı limon iyini xatırladan acımtıl-ədviyyə xüsusiyyətinə malikdir. Cavan yarpaq və zoğları ya təzə halda istifadə edilir, ya da qurudularaq toz nalına salınır və ətdən, balıqdan hazırlanan xörəklərə xoş ətirli ədviyyə kimi qatılır. Bundan başqa, ədviyyə kimi müxtəlif sərinləşdiricilərin, çay və cövhərlərin tərkibinə qatqı kimi əlavə edilir.

Ədviyyat qatışıqları hazırladıqda qara və ətirli istiotu əvəz edə bilir. Bədrənc təbabətdə, ətriyyat və yeyinti sənayesində istifadə olunur.

Bədrənc bitkisindən kosmetika shəsində də geniş istifadə olunur. Pliniy qeyd edirdi ki, bədrəncin sıyığını bal ilə qarışdırıb qaranlıq mühitdə göz pərdəsinin ağrıyan naniyyəsinə sürtün onu

tezliklə sağaldarmışlar. Hal-hazırda isə yarpaqlarından hazırlanan cövhərlərdən təpitmə, yaş sarqı kimi dəridə olan çiban və irinli yaraların üzərinə qoyuo sağaldırlar. Tərkibindəki efir yağından isə losyonların tərkibinə daxil edilməsində və eləcə də ətirli suların hazırlanmasında istifadə edilir. Bədrənc dazıotu, qaraqı- nıq otların bir-birləri ilə qarışdırıb alınan cövhərdən gücsüzlükdə, halsızlıqda, mədə pozğunluqlarında, bir sıra dəri xəstəliklərinin müalicəsində daxilə qəbul edilir.

Bədrənc bir sıra xarici ölkələrin kosmetika və dermatologiya sahəsində geniş istifadə olunur. Məsələn, Bolqarıstanda dəri səpgilərinin, çibanların müalicəsində işlədilir. Bir sıra krem, maz və yaqlar hazırlanır. Fransada yarasagaldıcı, Avstraliyada ətirli vannaların, İtaliyada isə kremlərin hazırlanmasında geniş istifadə olunur.

*Əkilib becərilmə xüsusiyyətləri.* Bədrənci toxum, kollu hissələrə bölməklə, qəlm, gövdə, kök və s. ilə artırıb çoxaldırlar. Toxumu bir başa əkin sahələrinə səpməklə və yaxud şitil vasitəsilə çoxaldırlar. Toxum vasitəsilə əkildikdə bədrənc birinci ili çikək açmır. Bitki bir əkin sahəsində 10 ilə qədər məhsul vermə qabiliyyətinə malikdir. Buna görə də bədrənci ən çox sulu yerlərdə əkib becərməi məsləhət görürlər. Əkin qabağı sahəni alaq otlarından təmizləmək üçün kultivasiya işləri aparılır. Şum işlərindən əvvəl hər hektar sahəyə 20 ton peyin, 200-250 kq superfosfat, 150-200 kq-a qədər kalium kübrələri verilir. Şumlamanı 25-30 sm dərinliyində aparırlar. Yazda torpağı malalayır, kultivasiya işləri aparılır və alaq otlarından təmizlənir. Səpin qabağı hər hektar sahəyə 100-150 kq ammonium şorası çilənir. Toxumların dərinliyi 1-1,5 sm olmaqla hər hektar sahəyə 5-6 kq toxum səpilir. Sənaye məqsədləri üçün şitil vasitəsilə artırıb çoxaldırlar. Əkin üçün 30-40 günlük şitilərdən istifadə edilir. Şitilləri qida sahəsi 70x30 sm olmaqla bır-birindən 4-5 sm aralı cərgələrə əkirlər. Bədrənc əkilən hər hektar sahədən 2-3 dəfə məhsul götürmək olur. Hər hektar sahədən 18-20 ton yaşıl kütlə əldə edifır.

Bədrənc bitkisi Ordubad, Gəncə, Qusar, Lənkəran və s. rayonlarda həyətyanı sahələrdə becərilir. Hazırda Ukraynada bədrənc plantasiyaları vardır. Hər hektar sahədən 150 kq bal məhsulu toplanır.

# *DAĞNANƏSİ SATUREYA*

Bu cinsin dünya florasında 30-a qədər növü yayılmışdır. Bunlardan Qafqazda 9, o cümlədən Azərbaycanda 6 növünə rast gəlmək olar. Dağnanəsi kol, yarımkol, çoxillik və birillik bitki hesab edilir. Nanə Orta Aralıq və Qara dənizi sahillərindən başlayaraq dünyanın bir çox ərazilərinə yayılmışdır.

Ətirli ədviyyəli bitki kimi 3 növündən istifadə edilir: dağnanəsi, sünbülvarı nanə, bağ nanəsi və yaxud ətirli nanə.

*Dağnanəsi-Satureya* montana hündürlüyü 50-70 sm-ə çatan çoxbudaqlı yarımkol bitkidir. Gövdəsində 30-50-yə qədər budaq olur. Azca maili vəziyyətdə xaricdən sıx tükcüklərlə örtülür. Yarpaqları xətvarı lanset olub 1,5-3,0 sm uzunluğundadır. Kənarları bütövdür, üzəri isə nöqtəvarı vəzciklərlə örtülür. Çiçəkləri ağımtıl-çəhrayı rəngdədir, qırmızı ləkələrlə əhatə olunur.

Bitki birinci il ancaq vegetativ orqanları əmələ gətirir. İnkişafının ikinci ili çiçək və meyvə verməyə başlayır. İyun-avqust aylarında çiçək açır. Sentyabr-oktyabr aylarında meyvə verir. Meyvəsi çox kiçik, yumurtavarı, parlaq-qonur rəngli qutucuqdur.

Dağnanəsi yabanı halda Əlcəzairdə, Portuqaliyada, Cənubi Fransada, Şimali İtaliyada, eləcə də başqa ölkələrdə yayılmışdır. Mədəni halda, ədviyyə və bəzək bitkisi kimi, Qərbi Avropada, Orta Asiyada, ABŞ-da və s. ölkələrdə becərilir. Şaxtaya davamlı bitki sayılır. Torpağa qarşı az tələbkardır, istənilən yerdə əkmək olar. Toxum və vegetativ orqanları ilə çoxaldılır. Hər hektar sahədən 120-150 setner yaşıl xammal əldə edilir. Qurudulmuş otundan 0,57-0,60 %-ə qədər efir yağı alınır. Bir hektar sahədən 70- 85 kq efir yağı əldə etmək olar. Bitkinin hündürlüyü 10-12 sm-ə çatanda tədarük olunur, 2-3 ay ərzində ikinci dəfə məhsul əldə edilir.

Dağnanəsi tam çiçək açan zaman toplanır və kölgədə qurudulur. Dağnanəsinin qurudulmuşu ədviyyə kimi ət, balıq, quş və tərəvəzlərdən hazırlanmış müxtəlif xörəklərə xoş ətir verir və vitaminlərlə zənginləşdirir. Yarpaqlarında 50 mq %-ə qədər S vitamin vardır. Bundan alınan efir yağından ətriyyat və kosmetika sənayesində geniş istifadə edilir.

*Sünbülvarı* /ra/ra-S.sgicipera. Hündürlüyü 40-50 sm-ə çatan, budaqlanan, əsası hissədən sıx yarpaqlarla örtülən gövdədən ibarətdir. Yarpaqları parlaq-yaşıl rəngdə olub üzəri nöqtəvarı vəzciklərlə örtülür. Çiçəkləri ağımtıl-çərhayı rəngdə, 3-4 ədəd yalançı, süpürgədə toplanır. İyul-avqust aylarında çiçək açır. Avqust-sentyabrda meyvə verir. Meyvəsi kiçik, dairəvi və yaxud yastılaşmış fındıqçadan ibarətdir. Yabanı halda Qafqaz və İranda yayılmışdır. Ədviyyəni bitki sayılır. Çinqıllı və karbonatlı sahələrdə yaxşı inkişaf edib bol məhsul verir. Quraqlığa davamlı bitkidir. Tam çiçək açan dövrdə efir yağı ilə zəngin olur. Çox qurudulduqda və saxlandıqda tərkibindəki efir yağının miqdarı kəskin surətdə azalır. Çoxillik mədəni bitki sayılır. Sünbülvari nanədən təzə və qurudulmuş halda, xoş ətirli ədviyyə kimi istifadə edilir. Şorba, ət və balıqdan hazırlanan xörəklərə, xiyar və pomidor tutmalarına əlavə edilir.

Bundan alınan efir yağı sarı rəngdə olub, kəskin, xoş ədviyyə- li, acımtıl, zəif yandırıcı xassəyə malikdir. Efir yağının tərkib hissəsinin əsas komponentlərini timol, sineol, terpinen, az miqdarda metil-karvakrol və karvakrol təşkil edir. Yağı güclü təsiredici antimikrob xüsusiyyətinə malikdir, spirtdə yaxşı həll olur. Bu yağ keyfiyyətinə görə yüksək qiymətləndirilir və yeyinti, ətriyyat, kosmetika, əczaçılıq, sabunbişirmə sənayesində istifadə edilir. Bunun qurudulmuş tozu müxtəlif xörəklərə və qara ətirli istiotla qarışdırılması isə kolbasaların tərkibinə daxil edilir.

**Bağ nanəsi və yaxud ətirli** *nanə-S.hortens/s.* **Bu** hündürlüyü 40-70 sm olan efiryağlı ot bitkisidir. Gövdəsi çoxsaylı (20-25 ədəd), qarşı-qarşıya düzülmüş budaqlardan ibarət kol formasındadır. Yarpaqları xətvarı lanset formasında olub, üzəri nöqtəvarı vəzciklərlə örtülür. Çiçəkləri kiçik, açıq bənövşəyi, çəhrayı, bəzən də ağ rəngdədir. İyun-sentyabr aylarında çiçək açır. Oktyabr ayında meyvə verir. Meyvəsi fındıqçadır. Cücərmə qabiliyyətinin 3 ilə qədər saxlayır. Kök sisteminin inkişafı zəifdir, üfüqi istiqamətdə torpaq daxilinə hərəkət edir. Ətirli nanənin vətəni Orta Aralıq dənizi və Şərq ölkələri hesab edilir. Bu ölkələrdə ətirli nanəyə yabanı halda da rast gəlmək olar.

Müalicəvi təsirinə, ədviyyəli xüsusiyyətinə görə Rusiyada, Ukraynada, Qafqazda, Orta Asiyada, Altayda və s. ərazilərdə be-

cərilir. Əkilən sahələrə qulluq edilməzsə o, az bir vaxtda çırlaşıb alaq otuna çevrilər. İşığa qarşı tələbkar olduğundan günəşli ərazilərdə bol məhsul verir. Hər hektar sahədən 70-80 sentner yaşıl kütlə əldə edilir ki, bundan da 42-48 kq efir yağı alınır. Qurudulmuş nanədən isə 0,60-2%-ə qədər efir yağı əldə edilir. Efir yağının əsas komponentləri karvakrol, timol, borneol, sineol, pinnen və bir sıra terpen birləşmələridir. Bundan başqa, onun tərkibindən aşı və qatran maddələri tapılmışdır.

Ətirli nanədən hazırlanan cövhərdən mədə ağrılarında, köp-mədə, bağırsaq qurdlarının tökülməsində istifadə olunur. Kəskin tünd ətrə malik olduğundan ondan ədviyyə kimi istifadə etdikdə çox az miqdarda götürülür ki, xörəyə əlavə edilmiş digər ədviyyələrin keyfiyyətinə təsir etməsin.

Ümumiyyətlə, yuxarıda qeyd etdiyimiz nanə növləri xörəklərə xüsusi ətir verir və onların tərkibini vitaminləşdirir. Hazırlanmış çay növləri mədə-bağırsaq, həzm aparatının, ferment ifraz edən vəzlərin fəaliyyətini normalaşdırır. Bir çox müalicəvi əhəmiyyətli konfet növlərinin tərkibinə qatılır.

Uzunyarpaqlı nanənin çiçək hissəsində 1,54-4,6%, yarpağında 0,74-2,02 %, gövdəsində 0,10-0,24 % efir yağı vardır.

Yarpaqlarının tərkibində 81,2-147,4 mq % S vitamini tapılmışdır. Efir yağından hazırlanan bir çox preparatlardan ağrıkəsici, qı- colma əleyhinə, qızdırma xəstəliklərində sərinləşdirici kimi istifadə edilir.

*Nanə şərbəti.* Mədəni qüvvətləndirir, ürəkbulanma, ishal və hıçqırmaya qarşı faydalıdır. Narı sıxıb suyunu çıxarırlar. Onun yarısı qədər nanə cövhəri əlavə edir, qaynadıb, kəfini alırlar və həmin miqdarda şəkər qatırlar.

Uzunyarpaq nanənin hər hektar əkilən sahəsindən 150-180 sentner yaşıl xammal kütləsi alınır. Bu qədər məhsuldan 100-120 kq efir yağı əldə olunur.

Dağnanəsindən kosmetika sahəsində də geniş istifadə edilir. Belə ki, otundan hazırlanan cövhər, dəmləmə və losyon və şam-punlardan dəridə olan çirk, piy, ekzema, qotur və yaraların təmiz-lənib müalicəsində istifadə edilir.

# *QARAQINIQ-ORIGANUM*

Qaraqınıq cinsinin dünya florasında 10-a qədən növünə rast gəlmək olar. Yabanı halda Orta Aralıq dənizi ölkələrində yayılmışdır. Qafqazda 3, Azərbaycanda isə 1 növü vardır. Xalq arasında qaraqınığı ətircik, ətirli, arı sevən, həvəsləndirici rəng,



"ana", "meşə yarpızı" və s. adlarla adlandırırlar.

Qaraqınığın elmi adı "Origanum" yunan sözü olub, "Orus" dağ, ganus-yaraşıq deməkdir. Göz oxşayan xoş ətirli qaraqınıq bitkisi həqiqətən də öz gözəl görünüşü ilə dağ və meşələrimizin bəzəyi sayılır. O, qırmızı-bənövşəyi, acımıtıl-çəhrayı, bənövşəyi-çəh- rayı rəngə çalan gözəl çiçəkləri və xoş ətri ilə fərqlənir. Hündürlüyü 30-90 sm-ə çatan çoxillik ot bitkisidir. Əyri və ya horizontal istiqamətdə uzanmış kökümsovdan ibarətdir. Qısa saplaqlı, uzunsov, bütövkənarlı yarpaqları və xırda çiçəkləri vardır. Çiçəkləri topa-topa yarpaqların qoltuğunda süpürgə formasında yerləşir. Tac çiçəkləri ikidodaqlı, tünd-qırmızı, çəhrayı rəngdədir. Qır- mızımtıl-bənövşəyi rəngli 4 künclü, dikduran gövdədən ibarətdir. Meyvəsi 4 fındıqçadan ibarət olub, meyvə kasacığında yerləşir. Bitki iyun ayından avqust ayına kimi çiçəkləyir, meyvələri avqust-sentyabrda yetişir. Qaraqınığa Azərbaycanın ovalıqdan tutmuş subalp qurşağına kimi bütün rayonlarında təsadüf edilir. Ona tez-tez meşə kənarlarında, quru meşə açıqlıqlarında, kolluq və çəmənliklərdə, bağ və bağçalarda rast gəlmək olur.

Dərman, efir yağı və ədviyyə üçün gövdəsinin yuxarı hissəsi, 20-25 sm uzunluğunda çiçəkli və yarpaqlı baş hissələri toplanıb, açıq havada qurudur. Qaraqınıq otunun tərkibində 0,12-1,20 % efir yağı tapılmışdır. Efir yağının tərkibində 50 %-dən artıq timol maddəsi vardır. Bundan başqa, anigenin, lyutselin və 7 qlükozid- lyutelin, izoroyfolin, kosmoinin flavinoidləri, 13 %-ə qədər aşı maddəsi, askorbin turşusu tapılmışdır. Toxumlarının tərkibində, 28 %-dən artıq piyli yağ maddəsi alınmışdır. Bundan əlavə otunun tərkibində 6,39 % kül maddəsi, 19,80 mq/q-K, 12,40-Ca, 2,10-Mg, 0,63-Fe, makroelementləri, 0,12 mkq/q-Mn, 0,49-Cu, 0,34-Zn, 0,26-Co, 4,80-Mo, 0,07-Cr, 0,39-Al, 0,16-V, 44,90-Se, 0,18-Ni, 0,30-Sr, 0,11-pb, 13,20-B mikroelementləri aşkar edilmişdir.

Qədim zamanlarda qaraqınığı toplayıb evdə şaxlar, bütün il boyu özlərini qorqunc xəstəliklərdən qoruyarmışlar. Bu bitkinin müalicəvi xüsusiyyətləri haqqında Dioskorid, Aristotel, Aristofan

öz əsərlərində geniş bəhs edirlər.

Elmi təbabətdə qurudulmuş qaraqınıq otunu dəmləyib həzm prosesinin yaxşılaşdırılmasında, iştahanın artırılmasında, mədə şirəsi azlığında, mədə-bağırsaq traktı xəstəliklərində, iltihab və spazma zamanı işlədilir.

Efir yağından tampon hazırlayıb soyuqdəymələrdə, qrip və zökəm xəstəliyində işlədilir. Onun spirtli məhlulundan diş ətinin iltihabında antiseptik və dezinfeksiyaedici kimi istifadə edilir. O həmçinin müxtəlif qatranların və məlhəmlərin tərkibində nevrolo- gıya və revmatizm xəstəliklərində ağrıkəsici, dəridə əmələ gələn çiban və yaraların müalicəsində istifadə olunur. Qaraqınıq otundan hazırlanmış preparatlardan mərkəzi sinir sisteminin sakitləş- dirilməsində, tər vəzilərinin fəaliyyətinin artırılmasında işlədilir. Qaraqınıqdan hazırlanan çövhərdən yuxusuzluqda, tənqnəfəslik- də və soyuqdəymədə işlədilir.

Qaraqınıq çövhərindən hazırlanan kvasdan susuzluğu aradan qaldırılmasında sərinləşdirici içki kimi daxilə qəbul edirlər Bu kvasdan ən çox yayın şıdığı günlərində ot və taxıl biçini vaxtı daha faydalıdır. Qaraqınığın çiçək və yarpaqlarından yorğunluq aradan qaldıran ətirli çay hazırlanır. Bundan başqa qaraqınıq çayı müalicəvi təsirə malik olub, soyuqdəymədə tərlədici, həzm sistemini nizama salır, əsəb sistemini sakitləşdirir.

Çobanların müşahidələrinə əsasən qaraqınıq bitkisi ot və mal-qara tərəfindən yaxşı yeyilmir. Lakin qoyun tərəfindən az da ola çiçək hissəsi yeyilir. Qaraqınığı həşaratlar həvəslə yeyirlər.

Qaraqınığın mal-qara tərəfindən yaxşı yeyilməməsinə baxma- yaraq, o malqara üçün tədarük olunan yemin ətirli və xoş iyə malik olmasına şərait yaradır.

Qaraqınıqdan kosmetika sahəsində də geniş istifadə edilir. Ondan hazırlanan sıyığın tərkibinə bal qataraq dəriyə sürtüb, qo- turluq, gicişmə, ekzemaya, qaşınmaya və eləcə də dazlaşmağa qarşı istifadə edirlər.

Qaraqınıqdan bir çox xarici ölkələrin ətriyyat kosmetika sahəsində də geniş istifadə edilir. Belə ki, Bolqarıstanda yerüstü his-

gesindən alınan efir yağından sabun və ətir, odekolon və s. Çe-xo-Slavakyada kosmetik krem və mazların, Hindistanda antıbak- terial mazların və s. hazırlanmasında istifadə edilir.

Bolqarıstanda vannasından ekzema, irinli yaraların, Fransada yaraların qaysaq bağlayıb sağaldılmasında, Almaniyada ətirli vannaların hazırlanmasında istifadə edilir.

Xammalın toplanması çiçək fazasında iyul və avqusun birinci yarasında toplamağı məsləhət görürük. Xammalı qayçı, bıçaq və sekator vasitəsilə gövdədən 20 sm yuxarı kəsib toplayırlar. Toplayan zaman bitkini dartmaq olmaz, onda bitki kökdən çıxır, təbiətə çoxlu ziya dəyə bilər.

Toplanma qaydalarına düzgün riayət edilərsə eyni bır yerdən təkrarən bir neçə il fitosenoza heç bir zərər vermədən tədarük etmək olar. , ., . . .

Hal-hazırda qaraqınıq mərzə əvəzi kımı həyətyanı sahələrdə əkilib becəririlir. Qaraqınığı kökləri və toxumları vasitəsilə artırıb çoxaldırlar.

, ,

*Qaraqınığın əkilib becərilməsi.* Qaraqınığı toxum və yaxud kolu hissələrə bölməklə əkib becərirlər. Toxumunu payız və yaxud erkən yazda soyuq parniklərdə və yaxud cərgələrdə əkirlər. Hər hektar sahəyə 2-3 kq toxum səpilir. Toxum və şitilləri payız və yaxud erkən yazda qida sahəsi 70x40 sm olan enli şırımlarda əkirlər. Toxumları 1-1,5 sm dərinlikdə əkməyi məsləhət goruruk. Şumladıqdan sonra hər hektar sahəyə 20-251 peyin, 300 kq su- perfosfat, 150 kq kalium kübrələri verilir. Əkin sahəsi həmişə təmiz və yumuşaq olmalıdır.

Xammalı tam çiçək açan zaman toplamağı məsləhət görürlər. Birinci ili hər hektar sahədən 4-5 ton, ikinci ili isə 20-25 ton yaşıl kütlə tədarük olunur.

# *SIĞIRQUYRUĞU- VERBASCUM*

Keçiqulağı-Serophulariaceae fəsiləsindəndir. Qafqazda 40, o cümlədən də Azərbaycanda 25 növünə rast gəlmək olar. Təbabətdə 4 növü: çətirli sığırquyruğu-Verbascum phlomodes, ayıqulağ[1] [Sl]ğır quyruğu-V.thapsus, parlaq sığırquyruğu-V.speciosum, sıxçiçəkli sığırquyruğu-V .densiflorum.

*Çətiri sıgırquyruğu-V.phlomides.* Bu hündürlüyü 50-150 sm oia^x ağımtıl sarı yunvarı eçəyə bənzər tüklərlə örtülmüş ikiillik ikisidir. Gövdəsi dikduran slindirvari, sadə olub, uzun, ensiz,[SLJ]nb(jlvari hamaşçiçəkdən ibarətdir. Birinci ildə kökyanı rozety[ar]Paqiarı, ikinci ildə isə yarpaq və çiçəklə örtülü hündürboy göv« əmələ gəlir. Uzunsov-ellipsvari kökyanı yarpaqları saplaq* onlar itiuclu əks yumurtavari-uzunsovdur. Növbəli gövdə yarpWı oturaqdır. Çiçək saplaqları qısadır. Çiçəklərinin 2-8-i birp u$_{zun}$ ensiz dəstədə toplaşmışdır. Çiçək kasacığı 5 bölüm*, sünbülvari tac çiçəkləri qızılı-sarı rəngdədir. Meyvəsi tərsik yumurtavarı, ikigözlü qutucuqdan ibarətdir. Qonur rəngli çoxWa toxumları vardır. Bitki iyun-avqust aylarında çiçəkləyir, gələri iyul-oktyabrda yetişir. Azərbaycanda yabanı halda BöyWafqazın əksər rayonlarında Samur-Dəvəçi ərazisində Kiçik öalpazın şimal zonalarında ovalıqdan tutmuş, orta dağ qurşağın[2] kimi yayılmışdır. Buna meşə açıqlıqlarında, otlar və alaq- lı ye™o, bostanlarda, su arxlarının kənarlarında daha tez-tez rastRr.

Ayıqulağı sığırquyruğu-Verbascum thapsus. Bu çətiri sığırquyruğundan yarpaq və çiçəklərinin formasına görə fərqlənir. Bunun yarpaqları uzunsov-ellipsvarıdır. Xırda açıq-sarı çiçəkləri iri, sıx sünbülvari çiçək qurupuna toplaşmışdır. İyun-iyul aylarında çiçəki avqustda meyvəsi yetişir. Bu növə də Böyük və Kiçik Qafqaz rayonlarında, Samur-Dəvəçi ovalıqlarında tez-tez rast gəlmək

Parlaq sığırqurucu-V.speciosum yuxarıda qeyd etdiyimiz növlərdən Wəkqrupunun süpürgə formada olması ilə fərqlənir. Erkəkciklərinin hamısı ağ tüklüdür.

*Hündürsığırquyruğu-V.thapsiformehu* hündürlüyü 1-1,5 m monokarp saçaqılı kök sisteminə malik ot bitkisidir. Aşağı yarpaqlan oturacaq və yaxud qısasaplaqlı, uzunsov və yaxud uzunsov ellpisvari orta hissədə yerləşən yarpaqları növbəli, aşağı doğru əyilən, uzunsov və yaxud yumurtavarı olub, mişarvari dişlidir. Çiçəklərinin 2-8-i bir yerdə qısa çiçəkçaplağında toplaşmışdır. Çiçəktacı sarımtıldır. Toxumları qonurumtul rəngdə şarvari- oyuqdur. Bitki iyun-avqust aylarında çiçək açır, avqusta toxumu yetişir. Birinci ili rozet yarpaqlar əmələ gətirir. İkinci ili çiçək açır. Toxumla əkilib çoxaldılır.

*Sıxçiçəkli sığırquyruğü-V.densiflorum* bu hündürlüyü 180- 200 sm olan keçəvari tüklərələ örtülən ikiillik köküsaçaqlı ot bitkisidir. Gövdəsi dikduran, budaqlanmayan olub, yarpaqlarla örtülmüşdür. Kökətrafı yarpaqları oturacaq, qısa saplaqlı, uzunluğu 40 sm olan uzunsovdur. Gövdə yarpaqları növbəli, gövdənin yuxarısına doğru keçdikcə kiçilən olub, hər iki tərəfi keçəvari yunla əhatə olunmuşdur. Çiçəklərinin diametri 5 sm olub, iri sarımtıl rəngdə sıx salxımvari formasında qısa çiçəksaplağı üzərində yerləşmişdir. Meyvəsi tərsyumurtavari, sıx tüklərlə örtülmüş qutu- cuqdan ibarətdir. Toxumları qonurumtul silindirvaridir. Bitki iyun- avqusta çiçək açır, avqust-sentyabrda meyvəsi yetişir.

Azərbaycanın Böyük Qafqaz ərazisində yayılmışdır. Ancaq to- xum vasitəsilə çoxaldılır. Hər bir çiçək səhər tezdən açılır axşama yaxın solur və yerə tökülür. Sığırquyruğunun ən qiymətli hissəsi çiçək tacı hesab edilir. Bunun tərkibindən 2,5 % selikli, 11 %-ə qədər şəkərli maddələr, 11-12 % sulu karbohidratlar, sapo- ninlər, efir yağının izləri, &-krosetin C20 N24 04 tərkibli boyaq maddəsi & və B karotin, qesperidin flavanoid, alma və fosfor turşuları. S vitamini, alkaloid və s. maddələr tapılmışdır.

Çiçəklərinin tərkibindən 3,01 % kül maddəsi, 17,30 mq/q K, 4,70-Ca, 1,90-Mg, 0,22-Fe makroelementləri, 49,20 mq/q-Mn, 13,20-Cu, 23,60-Zn, 0,50-Mo, 0,60-Cr, 0,05-Se, 1,30-Ni, 26,80- Sr, 0,70-pb, 2,00-B, 1,50-Li mikroelementləri tapılmışdır.

Elmi təbabətdə çiçəklərindən sulu dəmləmə hazırlayıb tənəffüs yolları xəstəliklərində sinəyumşaldıcı, iltihabı aradan qaldırıcı, bəlğəmgətirici öskürək dərmanı kimi istifadə olunur. Sinəyumşaldan yığıntının (çayın) tərkibinə də daxil edilir. Xalq təba

bətində qurudulmuş çiçəklərini süddə bişirib ağciyər vərəminə qarşı içirlər. Çox vaxt çiçəklərini bərabər hissədə gülxətimi, əməköməçi və dəvədabanı çiçəklərilə qarışdırıb çay kimi dəmləyərək soyuqdəymələrdən baş verən tənəffüs yolları xəstəliklərində, si-nəyumşaldan və iltihabı aradan qaldıran dərman kimi daxilə qəbul edirlər. Rus xalq təbabətində sığırquyruğundan çox qədim zamanlardan qankəsici vasitə kimi istifadə edilmişdir. Çiçəyindən hazırlanan dəmləməsindən əsəb sisteminin nizama salınmasında, mədə-bağırsaq, boğaz ağrısında işlədilir. Spirtli çıxarışından isə damarların yumşaldılmasında istifadə edilir. Yarpaq və çiçək köklərindən sulu bişirmə hazırlayıb mədə-bağırsaq xəstəlikləridə, ishala və dizenteriyaya qarşı qəbul edirlər. Çiçəklərinin sulu dəmləməsini və həmçinin çiçəklərini gicitkan yarpaqları və kasnı kökləri̇lə (bərabər hissədə) qarışığını çay kimi dəmləyib şəkər diabetinə qarşı içirlər. Qurudulmuş yarpaq və çiçəklərindən çay dəmləyib boğaz ağrılarında (anginada) qarqara dərmanı kimi işlədirlər. Bolqarıstanda çiçəklərindən hazırlanan cövhərindən göyöskürəkdə, bronxial astmada, təngnəfəslikdə, Almaniyada ağrıkəsici, soyuqdəymədə, damar yığılmalarında, qankəsici vasitə kimi işlədilir. Bundan əlavə plevrit, bronxlarda baş verən soyuqdəymələrin, astma, zökəm və s. xəstəliklərin müalicəsində işlədilir. Toxumlarından alınan cövhərdən, qurdlu yaraların və ek-zemaların müalicəsində istifadə edilir.

Sığırquyruğundan kosmetika və dermatologiyada da geniş is-tifadə edilir. Çiçəklərindən hazırlanan cövhərlərdən, vannalardan yumuşaldıcı, təpmə, şəkilində ekzema, qotur, qaşınma və çibanların müalicəsində istifadə edilir.

Fransada sığırquyruğundan çoxdan bəri soyuqdəymədə, yu-muşaldıcı, ağrıkəsici, kimi istifadə edilir. Hal-hazırda isə vanna-sından dəri xəstəliklərində işlədilir. Polşada tükün tökülməsinin qarşısının alınmasında, baş dərisinin yuyulmasında istifadə edilir. Almaniyada “məşəl çiçəyi” adı altında üz siniri soyuqdəymələrində istifadə olunur.

# QURDOTU-LINARIA

Dünya florasının tərkibində 150-ə qədər növü yayılmışdır. Bunlara ən çox yerkürəsinin mülayim iqlim zonalarında rast gəlmək olar. Qurdotu cinsinin Qafqazda 26, o cümlədən də Azərbaycanda 17 növü yayılmışdır.

Bu növlərin içərisində tibbi və kosmetika sahəsində istifadəsi mümkün olanı isə adi qurdotudur.

*Adi aurdotu-Liniaria* vulgaris bu hündürlüyü 40-90 sm olan köküzoğlu, gövdəsi dikduran sıx yarpaqlarla əhatə olunmuş-kökusaçaqlı çoxillik ot bitkisidir. Yarpaqları növbəli lansetvari xət- vari və yaxud xətvari formada oturacaq, çılpaq 2-7 sm uzunlu- ğundadır. Çiçəkləri limonu-sarı rəngdə gövdəin qurtaracağında salxım şəkilində yerləşmişdir.

Meyvəsi uzunsov qutucuqdan ibarətdir. Bitki iyundan-sentyabra qədər çiçək açır, avqusta meyvəsi yetişir.

Adi qurdotu Azərbaycanın Böyük Qafqazın Quba ərazisində, Samur-Dəvəçi düzənliklərində, Xəzər sahillərində yayılmışdır. Buna düzənlik sahələrdən başlanmış orta dağ qurşaqlarına qədor olan ərazilərlə rast gəlmək olar. Bitkiyə ən çox meşəliklərdə kolluqlarda, meşə açıqlıqlarında, çay, yol kənarlarında, çöllüklərdə rast gəlmək olar.

Otunun tərkibindən D-1-peqanın-C11 H22 No2, Ilnarin-C28 H32 014, akasetin-C16 H12 05, neolinarin-C29 H34 015, pektolinarin-C29 H34 015, fitosterin-C26 H44 014 n-triakantan-C30 H62 askarbin turşusu və s. maddələr tapılmışdır. Adi qurdotun- dan hazırlanan dəmləmələrdən, cövhərdən işlədici, sidik və öd- qovucu vasitə kimi istifadə edilir.

Belorusiya xalq təbabətində otundan hazırlanan çayından göz soyuqdəymələrində, boğaz angenasında və s. işləcfılir.

Tibbi təcrübədə qurdotundan hazırlanan ekstraktdan babasil, işlətmə, köpmə, ödqovucu, bağırsaq fəaliyyətinin yaxşılaşdırılmasında, qəbizlikdə və s. işlədilir.

Qurd otundan hazırlanan cövhərlərdən, spirtli çıxarışlarından ekzema, qaşınma və çibanların müalicəsində istifadə edilir.

Qurdotundan hazırlanan sıyığın tərkibinə donuz piyi qarışdırıb "jabrey" mazı hazırlayıb, dəridə baş verən ekzema, qotur və qaşınma əleyhinə istfifadə edirlər.

Qurdotundan Bolqarıstan, Çexo-Slovakiya, Polşa və bir sıra ölkələrdə kosmetika sahəsində geniş istifadə edilir.

# *BAĞAYARPAĞI-PLANTAGO*

Bağayarpağı-Plantaginaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində bağayarpağının 250-ə qədər növü yayılmışdır. Qafqazda o cümlədən də Azərbaycanda 14 növünə rast gəlmək olar. Bunlardan təbabətdə və kosmetikada ən çox iri bağayarpağı növündən istifadə olunur.

Bağayarpağının latınca adının mənası, “plantago” “pəncə” “ayağın altı” və “hərəkət” sözlərindən əmələ gəlmişdir. Hindular bu bitkiyə “ağların izi” adı vermişlər.

iribağa yarpağı-plantago mayor. Hündürlüyü 15-40 sm olub, uzunsaplaqlı yaşıl yarpaqlardan ibarət çoxillik ot bitkisidir. Dairəvi formalı, kənarları bütöv iri yarpaqları vardır. Qonur rəngli xırda çiçəkləri sünbül formasında gövdənin yuxarı hissəsində yerləşmişdir. May-iyun aylarında çiçək açır. Avqust-sentyabr aylarına qədər çiçəklənməsi davam edir.

Yarpaqlarının tərkibindən aukubin qlikozidi-C15 N22 09 (bu parçalanaraq qlyukoza və aukubiqenə-C9 N12 04 çvevrilir,) acı və aşı maddəsi, karotin, askorbin turşusu, alkaloidlərin izi, K vitamini, 6%-ə qədər polisaxorid, 11% selikli maddə, lyuteolin, kveresetin, apiqenin, skutellaren, hispudilin, baykalein flavanid- ləri və s. aşkar edilmişdir.

Touxumlarının tərkibindən 44%-ə qədər selikli maddə, piyli yağ, sərbəst sulu karbohidratlardan planteoza-C18 N32 06 və s. tapılmışdır. Bundan əlavə yarpaqlarının tərkibində 15,79 % kül maddəsi, 44,60 mq/q-K, 39,30-Ca, 3,60-Mg, 0,70-Fe, makroele-mentləri, 0,25 mkq/q-Mn, 0,92-Cu, 0,70-Zn, 0,25-Co, 2,67-Mo, 0,12-Cr, 0,34-Al, 22,05-Ba, 0,13-V, 0,70-Se, 0,17-Ni, 1,82-Sr, 0,13-pb, 45,60-B və s. mikroemenetləri aşkar edilmişdir.

Bağayarpağının bir neçə növündən xüsusən iriyarpaq növündən elmi təbabətdə və eləcə də xalq təbabətində qədim zamanlardan geniş istifadə olunur.

Bu çox qədim dərman bitkilərindən biri sayılır. Çinlilər dərman

məqsədi ilə bunun yarpaq və toxumlarından 3 min il bundan əvvəl istifadə etmişlər. Xalq təbabətində bağayarpağının yarpaqlarından bəlğəmgətirici, sidikqovucu və sonsuzluğa qarşı istifadə etmişlər.

Qədim Yunanıstan və Roma təbabətində bağayarpağı toxumlarından ishal xəstəliyinə qarşı istifadə olunmuşdur. İran və Ərəb xalq təbabətində bağayarpağının X əsrdə istifadə etməyə başlamışlar. Rus xalq təbabətində bağayarpağından XVII əsrdə istifadə olunmağa başlanmışdır. Ölkəmizdə bitən bağayarpağının toxumlarının tərkibində, çoxlu selikli maddə olduğundan ondan soyuqdəymə zamanı mədədə baş verən pozğunluqların aradan qaldırılmasında bağırsaq xəstəliklərində və kolitdə geniş istifadə olunur. Yarpaqlarından şiddətli bronxitdə, kəsiklərin, irinli yaraların, əziklərin, yanıqların, axşamlar sidiyin saxlanması əleyhinə, diş ağrılarının sakitləşdirilməsində və s. xəstəliklərin müalicəsində işlədilir. Kənd yerlərində bunun toxumlarından hazırlanmış tozdan uzunsürən islaha qarşı bağırsağın selikli qişa xəstəliyində və eləcə də dizinteriya əleyhinə istifadə olunur.

Bağayarpağından hazırlanmış şirədən isə mozalan sancmalarında və s. müalicəsində istifadə olunur. Çox vaxt toxum ilə şirəli yarpaqlarını qarışdırıb əldə edilən məlhəmdən ilan vurmaları və mozalan sancması zamanı və eləcə də şişlərin müalicəsində kompres kimi istifadə edilir.

Bağayarpağından elmi təbabətdə öskürməyə qarşı istifadə olunan preparatların tərkibində geniş istifadə olunur. Toxumlarından isə spastik və atonik qəbizliklə zəif işlətmə dərmanı kimi, eləcə də xroniki mədə bağırsaq xəstəliklərində dəmləmə və bişirmələr formasında işlədilir.

Son illərdə müəyyən edilmişdir ki, təzə dərilmiş bağayarpağından alınan şirə mədə bağırsaq xəstəliklərinin müalicəsi üçün çox faydalıdır. Eyni zamanda öyrənilmişdir ki, bağa yarpağının sulfanilamid və antibiotik maddələrlə bir yerdə verilən preparatı dizenteriyada gözəl müalicəvi təsir göstərir. Bundan əlavə xalq təbabətində qanlı ishala dizinteriya və bağırsaq yaralarına qarşı

da işlədilir. Bu məqsədlə bitkinin yarpaqlarını çiçək açan vaxt toplayır, açıq havada qurutduqdan sonra onu həvəngdəstədə əzib proşok halına salırlar. Həmin tozdan gündə üç-dörd dəfə 1- 2 çay qaşığı götürüb xəstənin dilinin üstünə tökərək isti çayla içirdirlər. Bağayarpağının sulu çıxarışından alınan plantaqulyisin preparatından mədə yaralarında, onikibarmaq bağırsaq xəstəliklərində, turşuluq azlığında və s. işlədilir. Bağayarpağından dəri xəstəliklərinin müalicəsində geniş istifadə olunur. Bağayarpağının dəri yaralarını tez sağaldıcı xassəsi xalq təbabətinə çoxdan məlumdur. Bu məqsədlə təzə dərilmiş bağayarpağının yaranın üzərinə qoyub sarayır və hər iki-üç saatdan bir təzəsi iələ əvəz edirlər. Bağayarpağından hazırlanan şirələrdən proflaktik vasitə kimi dəri xəstəliklərində geniş istifadə edilir. Şirəsinin tərkibi bioloji aktiv maddəllərlə zəngin olduğundan ondan bir sıra qidalı kremlər hazırlanır. Yarpaqları nəinki yara qanaxmalarını dayandırır, həmçinin dizinfeksiya edir və sağaldır. Civzə, sızanaqlı yağlı dəri xəstəliklərini yarpağından hazırlanan maskalarla müalicə edirlər. Bitki şirəsinə mel qatışdırıb bir sıra dəri xəstəliklərini müalicə edirlər. Orta əsrlərdə də bağayarpağından kosmetika sahəsində geniş istifadə edilmişdir. Belə ki, onun şirəsi ilə sifətdə olan ləkələrin təmizlənməsində yumurta ilə qatışığından yanıqların sağaldılmasında, göz ağrılarında, diş qanaxmalarında geniş istifadə olunmuşdur.

Toxumlarından təpmə şəkilində, göz soyuqdəymələrində, dəri yaralarında işlədilir.

Bolqarısttan, Fransa, Almaniya, Çin və bir sıra başqa ölkələrdə bağayarpağından qızıl yel xəstəliklərində, dermatitdə isə yaralanmış yerlərin, irinli yaraların müalicəsində istifadə edilir.

Ətriyyatda bağayarpağı şirəsi qatılmaqla bir sıra losyonların, şampun və kremlər hazırlanır.

Bitkinin yarpaqlarını çiçək açan zaman toplamağı məsləhət görürlər.

# GƏNDƏLAŞ-SAMBUCUS

Doqquzdon-Caprifoliaceae fəsiləsindəndir. Kəndalaşın dünya florasının tərkibində 40-a qədər növü yayılmışdır. Bu növlərdən Rusiyada II, Qafqazda 4, o cümlədən Azərbaycanda yabanı halda 2 növünə təsadüf edilir. Bunlardan qara kəndalaşı s. nigra və otvarı kəndələşı S.ebulus-y misal göstərə bilərik.

Qara kəndələş-Ş.nigra çoxbudaqlı kol və ya ağacdır. Əsasən kökdən kollanır və bəzən alçaq dirək gövdə əmələ gətirir. Ağacların hündürlüyü 8-10 m, diametri isə 16-40 (50) sm olur. Kollarının boyu 3-5-7 metrdir. Budaqlarının qabığı bozumtul rəngli, qeyri-bərabər uzunluqda dayaz çatlıdır. Cavan zoğları hamar, yaşılımtıl, getdikcə bozumtul rəngə çevrilir. Qarşı-qarşıya düzülmüş tək xətvarı yarpaqları vardır. Yarpaqları yumurta şəkillidir. Ağ rəngli, xırda, ətirli çiçəkləri qalxanvarı çiçək qrupuna toplanır. Meyvəsi qara-bənövşəyi, şirəli, parlaq, yeməli, ətirli giləmeyvədir. Bitki may-iyun aylarında çiçəkləyir, meyvəsi iyul-avqusta yetişir. Meyvəsi bənövşəyi-qara, səthi parlaq, 2-4 yumurtavari qəhvəyi rəngli çəyirdəkdən ibarətdir.

Qara kəndələş Azərbaycanın Böyük və Kiçik Qafqaz ərazilərinin cənub və Şimali-şərq yamaclarında yerləşən bütün rayonlarının meşəliklərində dərələr boyunca rütubətli, nəmli sahələrdə, meşəliklərdə dəniz səviyyəsindən 600-1200 m yüksəkliklərdə 6500 hektar sahədə yayılmışdır.

Tezböyüyən, rütubətə tələbkar, isti və kölgəsevən bitkidir. Oduncağından çalğı aləti (qara zurna, tütək və ney) düzəldilir.

Çiçəklərindən sambuniqrin-Ci4 Oe N rutin, efir yağı, qatran, xolin, xlorogen, kofeyin, valeriyan, alma, askorbin və sirkə turşusu tapılmışdır. Təzə yarpaqlarından sambunqrin, efir yağı, heq- san və qlikol aldehidi, karotin, budaqlarının qabığından efir yağı, fitosterin, giləmeyvəsindən 41% askorbin turşusu, karotin, antosian maddələrindən xrizantemin-C21, N21, O11, Cl sambusin-C27, N31, O5,C12 və sambusisianin-C26, N29 ,O15, Cl maddəsi, amin tursuları və

s. tapılmışdır.

Çiçəyinin tərkibində 9,22% kül, 41,66 mq% K, 8,00 mq%-Ca, 460 mq%-Mg 0,20 mq%-Fe makroelementləri, 53,40 mq%, 9,20 mq%-Su, 36,20 mq%-Zn, 0,88 mq%-Co, 0,88 mq% Cu, 0,24 mq%-Cr, 63,36 mq% Al, 0,22 mq%-Se, 0,96 mq%-Ni, 2,64 mq%- Sr, 0,96 mq%-Pb, 102,80 mq%-B 0,15 mq % I mikroelementləri tapılmışdır.

Kəndəlaşın çiçək, yarpaq, meyvə hissələrindən hazırlanan dəmləmə cövhər və preparatlarından laringi, (xirtdək iltihabı) bronxit, novrolgiya, böyrək, sidik kisəsi, şəkər və s. xəstəliklərinin müalicəsində istifadə edilir. Çiçəklərindən hazırlanan dəmlə-məsindən soyuqdəymədə tərlədici və tənəffüs yollarının iltihabını aradan qaldıran vasitə kimi istifadə edilir.

Çiçəklərindən tərlədici və yumuşaldıcı təsirlərə malik olan çayların tərkibinə daxil edilir. Çiçəklərindən hazırlanan çaydan boğaz ağrısında, ağız nahiyyəsi və diş ətinin iltihabında, anginada, sidik kisəsi iltihabında, sümük ağrılarında, göz xəstəliklərində istifadə edilir. Qurudulmuş meyvələrindən xalq təbabətində kisel hazırlanıb yüngül işlətmə dərmanı kimi işlədilir. Meyvəsi yeməlidir, türşməzə-şirin tamı vardır. Kəndəlaş, meyvəsindən marmelad, jele, mürəbbə, şirə, cem, sirkə hazırlanır. Sənayedə qənnadı və şərab məhsullarının rənglənməsində istifadə olunur. Qafqazda geniş ərazilərdə yayılmasına baxmayaraq, sənaye əhəmiyyətli meyvə tədarükü aparılmır. Bunun əsas səbəbi isə həmin bitkinin meşələrdə seyrək halda yayılmasıdır. Balakən rayonunun Conculutaxta və İsmayıllı rayonunun Qurban Əfəndi adlı meşə sahəsində qoyulmuş nümunə sahələrində I hektarda müvafiq olaraq 8 və 4 ədəd kəndəlaş olmuşdur və bu ağaclardan cəmi 10,5 kq meyvə tədarük edilmişdir. Beləliklə Böyük Qafqazdan 290 tona yaxın kəndəlaş meyvəsi tədarük etmək mümkün olduğu hesablanmışdır.

Bir normal inkişaf etmiş 15-20 yaşlı koldan 8 kq meyvə yığmaq mümkündür. Kəndəlaş təbii şəraitdə toxumu, kök və kötük pöhrələri ilə artır. Süni olaraq qələmlərlə artırılması da mümkün

dür. Toxumları yazda səpildikdə 3-4 ay stratlfikasiya olunmalıdır. Payız səpini yaz səpininə nisbətən daha yaxşı nəticə verir. Kəndəlaşın çiçək və meyvələrindən hazırlanan dəmləmə, cövhər, vannalarından və eləcə də maskalarından dəridə baş verən irinli yaraların, qotur və qaşınmaların müalicəsində geniş istifadə edilir.

Bolqarıstanda vannasından dəri səpkilərinin, Macarıstanda sıyığından irinli yaraların, göbələk xəstəliklərinin, Polşada isə ekzemaların müalicəsində istifadə edilir.

Qədim əlyazmalarında deyilir ki, döşdə olan irinli yaraları, çiban, vəz və s. sağaltmaq üçün kəndəlaş yarpağının təpitməsini qoysanız tez sağalar. Kəndəlaşdan hazırlanan ekstraktdan azca daxilə qəbul etməklə baş ağrısı sakitləşər, daxildə olan parazit qurdlar tökülər.

Meyvəsindən hazırlanan sıyığından ilan dişdəmələrində, arı, əqrəb sancmalarında yaxma kimi istifadə edilməsini məsləhət görülür. Kəndəlaş meyvəsinin ekstraktının tərkibinə zeytun yağı qatıb başın tüklərinə sürtüb qaraldırlar.

Başqa bir xalq əfsanəsində deyilir ki, əgər kəndəlaşın gövdəsini kəsib oyuq formasına salıb, içərisinə əzilmiş qurd gözü, kərtənkələ dili, bir it ürəyi, üç qaranquş ürəyi, üç yaşıl qurbağa dili qoyub, üzərinə dəmir tozu töküb, ağzını möhkəm bağlayıb, iki həftəyə qədər qaranlıq yerdə saxlayın. Sonra həmin məlhəmdən götürüb çətin sağalan dəri yarasının üzərinə sürtsəniz, yaramın tezliklə qanı kəsilər, keyləşər və oranı ətlə doldurar. Xammal üçün çiçəklərini çiçək tacı tökülən kimi toplayır və səbətlərə dol durub, həmin dəqiqədə qurudulmağa göndərirlər. Çiçəklərinin toplanma müddəti 15-20 gün davam edir. Çiçəkləri 1 sm qalınlığında kağız üzərinə sərib havası daim dəyişilən binalarda qurudurlar. Bundan əlavə 40-50$^0$ temperaturda quruducu şkaflarda da qurutmağı məsləhət görürlər.

# BAŞINAGACI-VIBURNUM

Dünya florasının tərkibində 200-ə qədər növü yayılmışdır. Qafqazda o cümlədən də Azərbaycanda 3 növünə rast gəlinir. Təssərrüfat əhəmiyyətli növü isə adi başınağacı-Viburnum opu- lus növü daha maraqlıdır. Başınağacına çoxlu mahnılar qohşul- muş, onun gözəlliyini qız gözəlliyi ilə müqayisə edirlər. Belə ki, ağappaq çiçəklərlə bəzənmiş kolu, ağ don geymiş “gəlinə” bənzədirlər. Adi başınağacı-hündürlüyü 5 metrə çatan geniş çətirli koldur. Cavan budaqlarının qabığı yaşımtıl-boz rəngdədir. Qarşı- qarşıya düzülmüş enli yumurtavari yarpaqlarının kənarları mişar- varidir. Çiçəkrupu yastı yarımçətirdə toplaşmışdır. Çiçəkləri 5 ləçəkli, 2 formalı yəni kənar çiçəkləri ağımtıl çiçək yarpağından ibarət olub, toxumsuzdur ortada yerləşən çiçəkləri çəhrayı-ağımtıl, oturacaqlı nisbətən kiçik ikievlidir, toxumverəndir. Erkəkciyi 5, dişiciyi üçbölümlü ağızcıqdan ibarətdir.

Al qırmızı rəngli parlaq yumurtavari-girdə birçəyirdəkli meyvələri büzüşdürücü və ağımtıldır. Şaxta vurduqdan sonra şirinləşərək yeməli olur.

Başınağacının meyvəsindən şirə, mürəbbə, cem, marmelad, vitaminli çay, təbii boyaq və s. hazırlayırlar.

Bundan başqa meyvələri sərt qış zamanı bir çox quşların yeminə çevrilir.

Bitki may-iyun aylarında çiçəkləyir, meyvələri avqust-sentyabrda yetişir.

Başınağacı Azərbaycanda Böyük və Kiçik Qafqazın meşələrində, Alazan-Əyriçay vadisində, Samur-Dəvəçi düzənliyində, Talışda, Quba-Qusar, Şamaxı-Şəki, Zaqatala-Balakən zonası meşələrində yayılmışdır.

Qabıqlarının tərkbiində 6,5 %-ə qədər qətran tapılmışdır ki, bunun da əsas tərkib hissəsini qarışqa, sirkə və izovalerian turşuları, fitosterolin-C33 N56 06, fitosterin-C27 H46 0 kristal formalı turşu-C19 H18 09 mirsilip spirti-C 31 H64 0 flobofenoldan

və s. ibarətdir. Meyvəsindən 3,1 -3,2%-ə qədər aşı, üzvü turşular, askorbin turşusu və s. tapılmışdır. Bundan başqa fenolkarbon turşuları, viburinin qlikozidi, triterpen saponinləri, K və P vitaminləri, çəyirdəklərində 21 % piyli yağ müəyyən edilmişdir. Bundan əlavə meyvəsinin tərkibində 1,67 % kül, 12,00 mq/q-K, 2,70-Ca 1,20-Mg, 0,04-Fe makroelementləri, 0,03 mkq/q-Mn, 0,40-Cu, 0,47-Zn, 0,12-Cr, 0,01-Al, 9,75-Se, 0,23-Ni, 0,33-Se, 0,08-pb, 0,09-1, 3,20-B mikroelementləri tapılmışdır.

Başınağacının preparatları büzücü, qankəsici, iltihaba qarşı təsir göstərir. Elmi təbabətdə qabıqlarından sulu dəmləmə, bişirmə və duru ektrakt formada preparatlar hazırladıb daxilə, eləcə də uşaqlıq, mədə-bağırsaq qanaxmalarında, babasildə qankəsici dəraman kimi işlədirlər.

Xalq təbabətində qabıq və meyvələrindən hazırlanan dəmləməsindən əsəb sistemi (nevarastepiya, epileppsiya, xəstəliklərində və eləcə də bal və şəkərlə qatışdırıb hepertoniyada işlədilir. Çiçəklərinin sulu çıxarışından öskürək, soyuqdəymə, təngnəfəslikdə, sklerozda, tuberkulyoz, dəri və s. xəstəliklərinin müalicəsində işlədilir. Meyvələrindən hazırlanmış vitaminli şərbətlər qüvvətverici və sakitləşdirici maddə kimi istifadə edilir. Başınağacından kosmetika sahəsində də geniş istifadə edilir. Ən çox da dermotologiya sahəsində işlədilir. Belə ki, qabıq və çiçəklərindən hazırlanan cövhərlərdən dəri səpgilərində, allergiyada, ekze- ma və s. xəstəliklərin müalicəsində istifadə edilir. Ev kosmetikasında başınağacı meyvəsindən hazırlanan şirədən isə civzə, də- mirov, çiban, diş dibindən axan qanın kəsilməsində daxilə qəbul etməyi məsləhət görürlər.

Başınağacının qabıq çiçək və meyvəsini icazə verilmiş sahələrdən toplayırlar. Qabıq hissəni ilk yaz aylarında yəni qabıqda şirə çoxalan zaman toplamağı məsələhət görürlər.

Qurudulmuş xammalın saxlanma müddəti 4 ildir.

# *DOQQUZDON-LONICERA*

Dünfa florasının tərkibində doqquzdon cinsinin 200-ə qədər növü yayılmışdır. Qafqazda 7, o cümlədən də Azərbaycanda 5 növünə rast gəlmək olar. Bu növlər haqqında qısa da olsa oxucuya məlumat verməyi qərara aldıq.

*Adi doqquzdan-Lonicera* caprifolium. Bu çoxda hündür olmayan sarmaşan və yaxud dırmaşan gövdədən ibarət olan bitkidir. Yarpaqları qısa saplaqlı sərt, ovalvari olub, 3,5-10 sm uzunluğundadır. Yuxarıda yerləşən yarpaqları dairəvi-ovalvari, cüt-cüt birləşərək çaşavari forma əmələ gətirirlər.

Çiçəkləri ətirli iri, oturacaqlı şəkilində olub bir neçə süpürgə- vari hamaş çiçək əmələ gətirir. Çiçək tacı çəhrayı-sarımtl və yaxud sarımtıl-ağ rəngdə olub 5 sm uzunluğundadır. Meyvəsi qırmızımtıl-narıncı rəngli giləmeyvədir. Toxumları ellipsvaridir. Adi doqquzdon Azərbaycanın Samur-Dəvəçi düzənliyində, Böyük Qafqazın Quba zonasında, Qobustanda Kiçik Qafqaz ərazilərində, düzənlik sahələrdən başlamış orta dağ zonalarına qədər yayılmışdır.

Təzə şirəsindən və eləcə də spirtli çıxarışından (cövhərindən), homeopatiyada, miqrob əleyhinə və s. işlədilir. Yarpağından hazırlanmış dəmləmələrindən boğaz ağrılarında, yaş sarğı kimi ağrıyan yerlərə qoyulur. Təzə şirəsindən mədə yaralarında, bir sıra dəri xəstəliklərində, çiçəyindən hazırlanan dəmləməlirn- dən bəlğəmgətirici, ağrıkəsici, bronxial astmalarda, göz ağrılarında və s. istifadə olunur. Ətriyyat sənayesində geniş işlədilir. Nektar, bəzək, boyaq və torpaqbərkidici xüsusiyyətlərinə malik bitkidir.

Çiçəkaltıqlı doqquzdon-L.bracteolaris. Bu çoxbudaqlı koldur. Tmurcuqları iki kasacıqla birləşərək kolpaq əmələ gətirir. Cavan zoğları çılpaq nazikdir. Yarpaqlarının uzunluğu 1,5-3 (5) sm, eni —

15-18 mm olub, qısa saplaqlı, elepisvari-uzunsov və yaxud yumurtavaridir. Çiçək tacı sarımtıldır. Meyvəsi bir toxumludur. Azərbaycanda Naxçıvan MR-ın dağlıq zonalarında yayılmışdır.

Gürcü d.-L.iberica. Bu hündürlüyü 50-200 sm olan dağınıq budaqlara malik kol bitkisidir. Yarpaqları 2-3,5 sm uzunluğunda qısa saplaqlı, yumurtavari, bəzən dairəvi şəkilindədir. Çiçək altlığı uzunsov-lansetvaridir. Çiçək tacı sarımtıldır. Giləmeyvələri iki ədəd olub bir-birləri ilə birləşmişlər.

Gürcü doqquzdonu Azərbaycanın hər yerində yayılmışdır. Buna aşağı dağlıq zonalardan başlamış, yuxarı meşəliklərdən, subalpçəmənliklərinə qədər rast gəlmək olar.

Qafqazda-L.caucasica Bu hündürlüyü 0,5-3 metrə qədər olan koldur. Yarpaqları qısa saplaqlı olub enliovalvari yumurtavari uzunsovdur. Çiçəkləri tək halda qoltuqda yerləşmişdir. Çiçək tacı qırmızımtıl-bənövşəyi rəngli çılpaqdır. Meyvəsi şarvari, qara rənglidir.

Qafqaz doqquzdonu Azərbaycanın Quba, Qobustan, Zuvanda və Lənkəranın dağlıq ərazilərində yayılmışdır. Qiymətli bəzək bitkisi sayılır. Meşə də-L.xylosteum hündürlüyü 1-2 m olan koldur. Cavan budaqları yumuşaq tüklərlə örtülmüşdür. Yarpaqları qısa saplaqlı olub 3-6 sm uzunluğundadır. Xalvari, uzunsov-yumurta- varidir. Çiçək tacı sarımtıl-ağ yumuşaq tüklərlə örtülmüşdür. Meyvəsi qırmızı rəngdədir.

Bitki Azərbaycanın Quba ərazisinin orta dağlıq meşələrində yayılmışdır.

Tərkibindən efir yağı, loqanin, sverozid, saponin, alkaloid, ksilostozidin, lokislostozidin A. loksilostozidin B. aşı və flavonoid maddələri, meyvəsindən sekoloqanin və s. tapılmışdır.

Kökündən hazırlanan cövhərlərdən, komi xalqı yaş sarğı kimi ağrıyan yerlərə qoyub, dəri səpgilərində sürtkü kimi istifadə edirlər. Kökündən hazırlanan preparatlarla çibanların, irinli yaraların, dəri səpkilərinin müalicəsində işlədilir. Meyvə, budaq və qabıq

hissələrindən hazırlanan dəmləmə, cövhər vannalarından dermatitdə, xanazır, isitmə, hemopatiyada, qıcolmada, titrəyici paralicdə və s. işlədilir.

Nektar, yem, bəzək bitkisi sayılır.

Ümumiyyətlə doqquzdonun meyvəsinin şirəsindən qanazlığında, geniş istifadə edilir. Bəzək bitkisidir. Doqquzdan növlərindən bağ və parkların yaşıllaşdırıb, bəzədilməsində geniş istifadə edilir. Bu növlər sıx kol olub, uzunömürlü bağların bəzi sayılır.

Bunun şirəli meyvəsindən təzə halda, şəkərlə qatışdırıb cem, mürəbbə, şirə, şərbət və s. hazırlayırlar.

Bundan əlavə meyvələrindən müalicə vasitəsi kimi tibet təbabətində geniş istifadə edilir. Meyvəsinin tərkibindən sulu karbonlar, vitamin kompleksi, flavanoid, aşı maddələri tapmışdır. Meyvə şirəsindən soyuqdəymə əleyhinə; qan azlığında hipertoniya- da, vitamin çatışmazlığında istifadə edilir.

Doqquzdon meyvəsində kosmetika sahəsində də geniş istifadə edilir. Meyvəsindən soyuqdəymədə, qan qapliyarların möhkəmləndirilməsində, sifət və dəridə olan dəmirov, yara və qaşınmaların müalicəsində istifadə edilir.

# PİŞİKOTU- VALERIANA

Pişikotu-Valerinaceae fəsiləsindəndir.

Dünya florasının tərkibində pişikotu cinsinin 200 növü yayılmışdır. Qafqazda, o cümlədən Azərbaycanda 8 növünə təsadüf edilir. Bunlardan təbabətdə iki növü-dərman pişikotu V.officinalis və çökəyarpaq pişikotu V.tilifolia istifadə edilir.

Dərman pişikotu-60-120 sm hündürlükdə yerüstü gövdəsi olan çoxillik ot bitkisidir. Gödək şaquli, istiqamətli kökümsova və çoxlu nazik sapvari saçaqlı köklərə malikdir. Gövdənin üzərində qarşı-qarşıya düzülmüş, yarpaqları təkləçəkvarıdır. Gövdənin aşağı hissəsində yerləşən yarpaqları saplaqlı, yuxarıdakılar-sap- laqsızdır. Çiçəkləri çəhrayı rəngdə olub, ətirlidir, gövdənin zirvəsində iri qalxanvari süpürgədə toplaşmışdır. Meyvəsi kekilli to- xumcadır. Polimorf bitkidir. May ayından başlayaraq avqusta kimi çiçəkləyir, meyvələri avqust-sentyabrda yetişir.

Azərbaycanda Böyük Qafqazda (Quba rayonunda) və Kiçik Qafqazın mərkəzi və şimal hissələrində, Kür düzənliyində, aşağı dağ qurşağında, Subalp zonasının, meşələrində, çayların kənarlarında, bataqlıqlarda Subalp çəmənliklərində yayılmışdır.

Hər cür ekoloji şəraitdə yayılmağına baxmayaraq, nadir hallarda geniş sahələr əmələ gətirir.

Pişikotunun kökümsov və köklərinin tərkibində 0,5-2%-e qədər efir yağı, bununda əsas hissəsini borneli-ovaleriant borneal spirtinin izovalerian turşusu ilə efiri-C15 N26 02, izovalerian tur- şusu-C5 N10 02 burneol-C10 N18 02 onun sirkə, qarışqa və yağ turşuları ilə efirləri, müxtəlif terpenlər və seskviterpenlər-C15 H24 pinen, kamfen, terpineol və s. bisiklik alkoqol-mertikol (sərbəst halda və izovalerian turşusu ilə efiri və s.) valerin və xatinin alkoloidləri, qlikozidlər, piril-metiloeton C6 N7 O N və s. vardır.

Kök və kökümsovlarının tərkibində 5,99%-ə qədər kül maddə

si, 7,80 mq/q-K, 2,10-Ca, 1,80-Md, 0,50-Fe makroelementləri, 0,20 mkq/q-K, 0,12-Cub 0,36-Zn, 0,13-Cr, 0,41 -Al, 0,27-Ba, 0,19- V, 0,89-Se, 0,66-Ni, 0,06-Sr, 0,02-pb, 0,12-1, 8,80-B mikroele- mentləri tapılmışdır.

Cökəyarpaq pişikotu, dərman pişikotuna nisbətən iridir. Çiçəkləri ağ və ya çəhrayıdır. İyun-iyul aylarında çiçək açır, meyvələri avqust-sentyabrda yetişir. Azərbaycanın demək olar ki, (Talış zonasından başqa) bütün rayonlarında rast gəlmək olar. Dərman məqsədilə hər iki növün köklərindən və kökümsovlarından istifadə olunur. Payızın ilk aylarında toplanır, soyuq su ilə yuyulub təmizlənir, açıq quru ahavada bir qədər qurudulub bir yerə yığılır və 2-3 gün saxlanır. Beləliklə, bitkinin ətirli iyi artır. Sonra xammal nazik qatla sərilib kölgəli yerdə və ya xüsusi quruducularda (35-40 °S) tam qurudulur. Belə qurudulmuş köklər və kö- kümsovlar açıq-qonur rəng alır.

Azərbaycanda yayılan cökəyarpaq pişikotu ilk dəfə Azərbaycan Dövlət Tibb Universitetində öyrənilmiş və tərkibində 0,4-0,6 % efir yağı, 2,3-2,8% üzvi turşular, 39-40 % ekstraktiv, 2,5 % qət- ranlı, 4,78 % aşı maddələri və s. aşkar edilmişdir.

Pişikotu köklərindən alınan preparatlar müasir təbabətdə müxtəlif sinir sistemi xəstəliklərində, ürək-damar sisteminin ner- vozunda, yuxusuzluğu aradan qaldıran, ürəyin fəaliyyətini artıran, eləcə də epilepsiyada qıcolmağın qarşısını alan vasitə kimi işlədilir. Pişikotunun dəmləməsi, tinkuru, qatı ekstraktı elmi təbabətdə geniş istifadə olunur. Bundan əlavə kompleks ürək dərmanlarının tərkibinə də daxil edilmişdir. Pişikotu köklərindən hazırlanan preparatlar eyni zamanda sakitləşdirici, mədə və köpün qarşısınıalıcı dərman yığıntılarının tərkibində də istifadə olunur. Xalq təbabətində pşikotu köklərindən çay dəmlənib ürək ağrılarında, ürəkkeçmələrdə sakitləşdirici vasitə kimi, eləcə də mədə- bağırsaq ağrılarında spazma aradan qaldıran dərman kimi qəbul edilir.

Pişikotundan kosmetikada da geniş səpgidə istifadə edilir. Lakin daha çox antibakterial və sakitləşdirici vasitə kimi, habelə əsəb pozğunluqları zamanı dəridə baş verən səpgi, ekzema, gicişmə, irinli yaraların müalicəsində işlədilir. Pişikotundan derma- tologiya sahəsində də geniş istifadə edilir.

Bitkinin kökünün toplanması payız aylarında, üst hissəsi qo-nurlaşıb quruyan dövrü aparılır. Eyni yerdən xammalın təkrar top-lanması 2-3 ildən bir aparılmalıdır. Kökü toplayan zaman yerdən hamısını qazıb çıxartmaq olmaz. 1-2 xırda kökü yerdə saxlamaq lazımdır ki, gələcəkdə inkişaf edib əsas bitkinin yerini versin. Bitkinin kökünü qazan azaman oyulmuş yuvalara toxum səpin, üzərini azca torpaqla örtün, gələcəkcə topladığınız bitkilərin yerinə yenisini şahidi ola bilərsiniz. Btkinin kökünü toplayan zaman hər 50-100 kvm-dən bir 1-2 iri bitki ekzempilyarını saxlamağı unutmayın. Toplanmış kökləri suda çox saxlamaq olmaz, çünki onun tərkibindəki bioloji aktiv maddələr suya keçib azala bilər.

ABŞ-da, pişikotundan esensiya, likyor, cövhər və şirələr ha-zırlanır. Ədviyyat kimi pişikotu yarpaqlarından hazırlanan tozdan bir sıra Avropa ölkələrinin kulinariyasında geniş istifadə edilir. Pişikotunun təzə dərilmiş yarpaqlarından müxtəlif salat növləri hazırlanır. Bundan başqa tozundan duru xörəklərə, balıq, tərəvəz və s. xörəklərin tərkibinə qatılır. Salat-qarnir hazırlanır.

Yaxşı qurudulmuş köklər 2-3 il öz keyfiyyətlərini itirmədən saxlayır.

# ANDIZ-İNULA

Dünya florasının tərkibində 200-ə qədər növünə Avropanın, Şimali Afrikanın ərazilərində rast gəlmək olar. Qafqazda 19, o cümlədən Azərbaycanda 13 növü vardır. Ən faydalısı və geniş yayılanı uca andızdır.

Pliniy qed edir ki, andız Zevs və Ledinin qızı Yeleninin göz yaşlarından cücərərək əmələ gəlmişdir.

Andız feil sözündən olub "təmizləmək", "boşaltmaq" deməkdir. Yunanca isə "Helios" günəş mənasını bildirir. Bu adı ona çiçəklərinin rənginə görə verilmişdir.

Uca andız-İ.thelenium gövdəsinin hündürlüyü 100-250 sm, yuxarı hissədən zəif budaqlanan, yoğun ətli, kökümsova malik çoxillik ot bitkisidir. Kökümsovdan bir neçə uzun və yoğun köklər ayrılır. Yarpaqlarının uzunluğu 50 sm, eni isə 20 sm-dir. Gövdə yarpaqları uzunsov, azca itiləşmiş aşağı yarpaqları saplaqlı, yuxarıdakılar isə oturaqdır. Onların alt tərəfi sərt məxməri, kənarları isə qeyri-müntəzəm dişlidir. Çiçəkləri qızılı-sarı, 6-8 sm enində gövdənin və budaqların zirvəsində səbətcikdə sərbəct formada yerləşir. Çiçəkqurupu iri, sayca azdır. Çiçək səbətinin kənarlarında qızılı-sarı dilcikvarı, ortasında isə boruşəkilli sarı rəngli çiçəkləri yerləşmişdir. Kökümsovu ətli, xaricdən tünd-qonur, daxildən ağımtıldır. İyul-sentyabr aylarında çiçək açır. Avqust-oktyabrda meyvə verir. Meyvəsi uzunsov, dördüzlü, qəhvəyi-qonur rəngdədir.

Uca andız Azərbaycanın ovalıq hissəsindən başlayaraq su- balp qurşağına kimi meşə sahələrində, çəmənliklərdə, çaykəna- rı kolluqlarda, dağ çayları ətraflarda yayılmışdır.

Kökümsov və köklərinin tərkibində 1 -5%-ə qədər efir yağı vardır. Əsas komponentlərini seskviterpen laktonları alantopikrin, izoalantopikrin, dehidroalontolakton, alantol turşusu və proazu- len və s. təşkil edir. Bundan əlavə, kökünün tərkibində saponin- lər, 44%-ə qədər inulin xassəli yarımşəkərli maddələr, alkoloidlə-

rin izi, sirkə və benzoy turşuları, S. vitamini, qatran və s. tapılmışdır.

Yerüstü hissəsində 0,5-3%-ə qədər alantopikrin acı maddəsinin olduğu da müəyyən edilmişdir. Kökünün tərkibində 3,23 mq% kül, 14,50% K, 7,40 %-Ca, 1,90%-Mg, 0,50 %-Fe makroe- lementləri; 0,11%-Co, 0,38% Si, 0,27-Zn, 0,11% Co, 0,04% Ca, Se, 10,00%, 0,14%-Nİ, 0,15%-Sr, 0,13%-I 14,40%-B 12 və s. B. mikroelementləri tapılmışdır. Elmi təbabətdə cövhərindən xroniki tənəffüs yollarının iltihabında, ağciyər vərəmində və soyuqdəymələrdə, öskürək əleyhinə bəlğəmgətirici vasitə kimi işlədilir. Köklərindən alınan seskvitrepen laktonlardan hazırlanan allanton preparatlarından mədə, onikibarmaq bağırsaq xəstəliklərinin müalicəsində istifadə edilir.

Müasir elmi təbabətdə alantol preparatından revmatizm, qrip, allergiya, mədə qəbzliklərində və eləcə də ağciyər xəstəliklərində istifadə edilir.

Xalq təbabətində andızın qurudulmuş çiçəklərindən çay dəmləyib, soyuqdəymədə baş verən tənəffüs yolları iltihabında, vərəm xəstəliklərində sinəyumşaldıcı və iltihabgötürücü dərman kimi içirlər. Kökləri iştahartırıcı, ödqovucu, sidikqovucu vasitə kimi işlədilir. Yarpaqlarından və köklərindən çay dəmləyib şəkər diabetində, daxili qanaxmalarda və babasil xəstəliyində qankəsici kimi içilir.

Dioskorid qeyd edir ki, andız kökünü toz halına salıb, bal ilə qarışdırıb səhər və axşam yeməkdən qabaq bir xörək qaşığı qəbul etsəniz öskürəyiniz tezliklə aradan götürülər.

Andızdan kosmetika sahəsində də geniş istifadə edilir. Belə ki, kökündən hazırlanmış dəmləmə və cövhərlərdən çətin sağalan irinli yaraların, dəri səpgilərin, ekzemaların sağaldılmasında işlədilir.

Ev kosmetikasında andızın kökünü narın toz halına salır, ərinmiş piylə qırışdırıb, alınan mazdan dəriyə sürtüb, çiban, qaşınma və s. müalicə edirlər.

Andızdan bir sıra xarici ölkələrin-Avstraliya, Bolqarıstan, Ma

carıstan və Polşa ölkələrinin kosmetikasında geniş istifadə edilir. Andızın kök hissəsinin tərkibində 4%-ə qədər efir yağı tapılmışdır. Bu yağ öz ətirli xoş iyinə görə bənövşəni xatırladıb ətriyyat sənayesində geniş istifadə edilir.

Bir sıra Avropa ölkələrində və ABŞ-da andızın kök və kökümsovlarından hazırlanmış ətirli cövhərlərdən qənnadı sənayesində konfet, marmelad, likor, spirtsiz içkilərin, qida konsentratlarının tərkibinə qatılır. Bundan başqa cövhərindən konserva sənayesində geniş istifadə edilir.

Hal-hazırda Ukrayna, Belorusiya ölkələrində andızı müalicə otu kimi həyətyanı sahələrdə əkib becərirlər.

Andızı çoxillik ot bitkisi kimi asanlıqla əkib becərmək olar.

*Əkilib becərilmə xüsusiyyətləri.* Andızı qabaqcadaq şumlanmış, alaq otlarından təmizlənmiş və cərgələr salınmış sahələrdə toxum, şitilə əkib becərirlər. Bəzi hallarda kök və kökümsov- ları vasitəsilə əkirlər. Andızın toxum və şitillərini qida sahələri bir-birindən 70x40 sm aralı olmaqla əkib becərməyi məsləhət görürlər. 1 hektar sahəyə 5 kq-a qədər toxum səpilir. Andızı çoxillik bitki kimi əkib becərirlər. O əkildiyi birinci ildə yalnız kökətrafı yarpaqlar əmələ gətirir. İkinci ilin sentyabr-oktyabr aylarında çiçəkləyir və meyvə verir.

Andız əkilən sahələrə qabaqcadan hər hektar sahəyə 400- 500 kq superfosfat, 200-250 kq kalium gübrələri verilir.

*Məhsuldarlığı.* Andızın kök və kökümsovunu ikinci ilin payızının son aylarında yerdən qazıb çıxarır, torpaqdan təmizlədikdən sonra suda yuyur, xırda hissələrə doğrayıb mehuran çardaqların altına sərib qurudurlar. Hər hektar sahədən yaş hlda 16-20 ton, quru halda isə 6-71 xammal əldə olunur.

## *DƏVƏDABANI (ÖGEYANA)-TUSSILAGO*

Dünya florasının tərkibinə 1 növ olub, bütün ölkələrin o cümlədən də Azərbaycanın əksər rayonlarında yayılmışdır. Bitkiyə



çox yerlərdə “ot anası”, “ögey ana”, “yara otu”, “torağın şahı” bəyəm saymaqla qurtarmaq olur. Bitkinin latınca botaniki “Tussilago” iki söz birləşməsindən əmələ gəlib “qov” və “öskürək” mənasını deməkdir. Bu da onun müalicəvi bitki olduğunu müəyyən edir. Növün mənası yəni “farfara” “elə bil ki, üzərinə un səpilib” bu da yarpağının xarici görünüşünü xarakterizə edir. Dəvəda- banı-T.farfara hündürlüyü 10-25 sm olan sürünən kökümsovu saçaqlı çoxillik ot bitkisidir. Yumuşaq tüklə örtülmüş çiçək saplağı erkən yazda yarpaq əmələ gəlməmişdən qabaq kökümsovdan inkişaf edir. Kökətrafı yarpaqlarının uzunluğu 20-25 sm olub, uzun saplaqlı dairəvi-ürəkvari, üst hissəsi yaşımtıl, aşağı hissəsi yumuşaq keçəvari tüklərlə örtülmüşdür. Yarpaq ayasının yuxarı hissəsi hamar, “ögey ana” kimi soyuq, alt hissəsi yumuşaq tüklə örtülmüş “ana” kimi istidir. Xırda yarpaqlarla sıx əhatə olunan gödək çiçək gətirən gövdəsi var. Qızılı sarı rəngli və borucuqvari çiçəkləri gövdəsinin zirvəsində səbət çiçəkqrupunda yerləşir. Çi- çəkyatağı çılpaqdır, bir sıralı örtüyünün qaidəsində xırda yarpaq- cıqları vardır. Nəmişli və yağmurlu havada çiçəkləri örtülür və aşağı sallanar. Bitkidə çiçəkaçma prosesi başa çatdıqdan sonra kökətrafı yarpağı inkişaf etməyə başlayır. Bitki mart-aprel aylarında çiçək açır, meyvələri may-iyunda yetişir. Meyvəsi uzunsov qabırğalıdır.

Dəbədabanı respublikamızın Samur-Dəvəçi ovalığında, Naxçıvan MR-sı daxil olmaqla Böyük və Kiçik Qafqaz ərazilərində axan çay və arxların kənarlarında geniş yayılmışdır. Bundan əlavə buna uçulmuş köhnə kanalların ətraflarında, yamaclarda, dəmiryolu kənarlarında, rast gəlmək olar.

Dəvədabanı ən tez içək açan bitkilər qrupuna daxildir. Elə ki, çayların ətrafında qar əriməyə başladı, o dəqiqə qızılı-sarı rəngli çiçəklər ətrafa xoş ətir iyi yaymağa başlayır. Təbiət sanki sarı kə- layağıya bürünmüş “gəlin” mənzərəsini xatırladır. Bu da təbiəti kənardan durub seyr edən insanlara xoş sevinc bəxş edir.

Çiçək səbətinin tərkibindən faradiol-C30 N50 02, arnidiol- C20 N50 02, taraksintin-C40 N56 04 stiqmasterin-C29 N48 0,

fitoeterin-C28 N48 0 hentakoz$_a$n-C27 N56 aşı müddələri rutin hiperozid, flavanoıdlərı, efir yağı $_{və\ s}$. tapılmışdır. Yarpaqlarından isə 2,63% tussıllakin qlikozidi, 6-7% selikli maddə, polisaxa- ridlər, insulin və dekstrin, qal turşusu, alma və çaxır turşuları 5,18 mq% karotınoıdlər, S vitamini və s. tapılmışdır.

Yarpaqlarından 10,20 % kül maddəsi, 37,40 mq/q-K, 10,90- 4,30 Md, 0,20-Fe makroelementləri, 0,14 mkq/q-Mn 0 78-Cu 0,60-Zn, 0,27-Co, 0,40-Mo, 0,03-Cr, 0,07-Al, 0,05-Ba 0 02-v' 25,00-Se, 0,21-Nı, 0,01-Sr, 0,24-pb, 8,00-Ag, 0,09-1, 107 10-Br' 40,00-B mikroelementləri aşkar edilmişdir.

Dəvədabanın müalicəvi xüsusiyyətləri qədim romalılıra da məlum idi. Dioskorid və Pliniy bunun yarpaqlarından alınan cövhərlərdən və yaxud tüstüsündən öskürəkdə istifadə etmişlər. Hip- pokrat isə bəlğəmgətirici vasitə kimi istifadə etmişdir.

Hal-hazırda dəvədabanın elmi təbabətdə qurudulmuş yarpaqlarından (102-200 q suda) çay dəmləyib soyuqdəymələrdən baş verən tənəffüs yolları xəstəliklərində sinəyumuşaldıcı və bəlğəmgətirici öskürək dərmanı kimi, xüsusən bronxitdə və ağ ciyər xəstəliklərində iltihabı aradan qaldırıcı dərman kimi qəbiil edilir Təzə dərilmiş yarpaqlarından alınmış şirəni şəkərlə və ya balla qarışdırıb bronxitdə, xüsusən bu xəstəliyin törətdiyi şiddətli öskürək zamanı gündə 4-6 dəfə xörək qaşığı ilə içirlər. Sinə çayının və tərlədici çayların tərkibinə daxildir. Bundan başqa yarpaq və çiçəklərindən hazırlanan dəmləmələrinin tərkibində özünə məxsus müxtəlif kimyəvi maddələrdən ibarət olduğundan ondan bəlğəmgətirici, tərləyidıcı, mikrob əleyhinə, yumuşaldıcı, ağ ciyər xəstəliklərində, bronxitdə, astmada, qanqrenada, mədə, böyrək, qaraciyər, sidik kisəsi və s. xəstəliklərin müalicəsində geniş istifadə edilir.

Xalq təbabətində qurudulmuş yarpaqları yandırıb tüstüsündən boru vasitəsilə quru öskürəyə və ya astmaya tutulmuş xəstələri inqalyasiya edirlər. Yarpaq və çiçəklərindən çay dəmləyib soyuqdəməylərdə tərlədici kimi, sarılıqda, mədə xəstəliklərində bağırsaqların selikli qişasının iltihabına qarşı, eləcə də böyrək və si

dik kisəsində əmələ gələn iltihaba qarşı içirlər. Hal-hazırda dəvədabanından kosmetika sahəsində də geniş istifadə edilir. Bunun təzə yarpaqlarından hazırlanmış şirədən dəridə əmələ gələn gec sağalan yaralarda, şişlərdə, qızartıların müalicəsində işlədilir. Yarpaqların sıyığından qabarların, döyənəyin üzərinə qoyurlar. Yarpağını gicitikanla 1:1 nisbətində qarışdırıb, alınan cövhərindən başda olan tükləri yuyaraq onları bərkidir və qovaqdan təmizləyir. Bu cür cövhər ilə həftədə üç dəfə başı yumağı məsləhət görürlər.

Yarpaqlarını qurudub toz halına salıb, irinli və sulu yaraların üzərinə səpib sağaldırlar.

Bir çox xarici ölkələrdə məsələn Bolqarıstanda, Polşada və Almaniyada yarpağından sarğı kimi dəridə baş verən yanıqların irinli yaraların, vena xəstəliklərində, şişlərin üzərinə qoyub sağaldırlar. Faransada vannasını hazırlayıb dəri xəstəliklərinə tutulmuş xəstəni çimizdirirlər.

Dərman və kosmetika sahəsində istifadə etmək üçün yarpaqlarını əl ilə yayın birinci yarsında toplayıb, açıq havada, talvar altında, ya da qurudcuda qurudurlar.

# *PITRAQ-XANTHIUM*

Dünfa florasının tərkibində 10-a qədər növü yayılmışdır. Bu növlərə dünyanın istənilən ərazisində rast gəlmək olar. Qafqazda o cümlədən də Azərbaycanda yabanı halda 3 növünə təsadü edilir. Təbabətdə yeyintidə və kosmetika sahəsində adi pıtraq- Xanthium strumarium və iynəvari pıtraq-X.spinosum istifadə edilir.

Bunlardan ən qiymətli növü isə adi pıtraq-X.strumarium hesab edilir. Bu hündürlüyü 15-40 (50) sm olan birillik ot bitkisidir. Gövdəsi dikduran güclübudaqlanan, qısatüklü, yarpağın əsas hissəsində 2-3 bölümlü sarı rəngli möhkəm tikanları yerləşmişdir. Yarpaqları ürəkvari saplaqlı, uzunsov rombvari, üçqanadlı ortada yerləşən qanadı uzunsov-lansetvari olub uzunsovdur. Kənarları iri dişlidir. Çiçəyi boru şəkilli, tək səbətdən və çox çiçəklərdən təşkil olunmuşdur. Səbət yarpaqların qoltuğunda yerləşmişdir. Dişi səbəti təkdir. Meyvəsi bərk (sərt), ellepsvari-uzunsovdur. Bitki iyun-iyul aylarında çiçəkləyir, meyvəsi avqust-sentyabrda yetişir.

Adi pıtraq Azərbaycanın əksər rayonlarında geniş surətdə yayılmışdır. Bitkiyə düzənlik sahələrdən tutmuş orta dağ qurşaqlarına qədər uzanan ərazilərdə rast gəlmək olar. Ən çox zibilliklərdə, meşə açıqlıqlarında, meşə cığırlarının, kənarlarında, kolluqlarda, yol kənarlarında və yaşayış binalarının ətrafında yayılmışdır.

Kimyəvi cəhətdən yaxşı öyrənilməmişdir. Ədəbiyyat məlumatlarına görə tərkibindən 32,8% askorbin turşusu, amorof formalı ksantostrumarin, alkaloid maddələr, bütün hissələrindən çoxlu yod və boyaq maddəsi tapılmışdır. Toxumunun tərkibində 35-40% piyli yag vardır.

Özbəkistanda əkilmiş adi pıtrağın hər hektarından 14-20 sentner toxum, ondan da 224 kq yağ əldə edilmişdir. Bəzən hər hektar sahədən 2 tona qədər toxum əldə etmək olar.

Tərkibində çoxlu miqdar yod tapıldığından Çin təbabətində yaşıl hissəsindən alınan şirə ilə qalxanabənzər vəzin müalicəsində istifadə edilir. Bundan başqa çində bitkidən alınan preparatlardan tərgətirici, revmatizmə əleyhinə, əsəb sisteminin sakitləş

dirici vasitə kimi işlədilir.

Toxum və kökündən alınan cövhərindən qanlı ishalda, xanə- zir, diş ağrısında, otunun təzə şirəsindən isə boğaz qıcıqlanma- larında, bəd xassəli şişlərdə, rak və zobun müalicəsində işlədilir. Təzə yarpaqlarından hazırlanan şirəsindən Orta Asiya xalqları astma, babasil və boğaz spazmasının müalicəsində istifadə edirlər. Şirəsindən sidikqovucu, qurdsalığı vasitə kimi daxilə qəbul edilir.

Pıtraqdan hazırlanmış şirədən antimikrob, soyuqdəymə əleyhinə, istiliyin normal hala salınmasında və eləcə də sakitləşdirici vasitə kimi də işlədilir. Otundan hazırlanan cövhərini heyvanlar üzərində sınaqdan keçirib, onun kişi cinsi orqanlarının fəaliyyətinin artmasına müsbət təsiri aşkar edilmişdir.

Adi pıtrağından çox qədim zamanlarda kosmetika sahəsində geniş surətdə istifadə olunmuşdur. Yarpaqlarının don vurmuş yerlərə qoyur, dəridə əmələ gələn çiban, ziyil və qaşınmaların müalicəsində istifadə edilir.

Bitkinin dəməməsindən (çayından) dəridə olan göbələk və səpgiləri müalicə etmək üçün istifadə edilir. Çox vaxt bunun vannasını hazırlayıb bədənində çoxlu çiban, səpgi və qaşınması olan xəstələri çimizdirirlər.

Otundan hazırlanan şirə və çayından müxtəlif dəri xəstəliklərində, diatezdə, gicişmədə, dermatozda, qaşınmada, həşərat sancmalarında işlədilir. Bitkidən hazırlanan mazdan isə qoturun, qaşınmaların, müalicəsi üçün dəriyə sürtürlər. Hal-hazırda Polşa və Almaniyada bitkinin kök hissəsindən hazırlanan dəmləmələrindən başın tükünü yuyaraq, onları vaxtından tez tökülməsinin qarşısını alırlar. Çində ilan dişləmələrində, həşərat sancmalarında işlədilir. Bolqarıstanda isə dermatelogiya sahəsində təzə şirəsindən istifadə edilir. Yaxmasından isə tüklərin dibinə sürtərək onların dibini bərkidir və qovağı yox edirlər.

Adi pıtraq çox qiymətli xüsusiyyətlərə malik bitkidir. Əksər adamlar onu həyətyanı sahələrindən amancasına qırıb məhv edirlər. Təəssüflər olsun ki, həmin adamlar onun müalicəvi keyfiyyətlərini hələ də düzgün başa düşməmişlər.

Müalicə məqsədləri üçün pıtrağın birillik kökündən istifadə olunur.

# *ÜÇBÖLÜMLÜYATIQQANQAL-BİDENS*

Dünfa florasının tərkibində 200-ə qədər növü yayılmışdır, Qafqazda 3, o cümlədən Azərbaycanda 1 növünə rast gəlinir. Üçbölümlü yatıqqanqalın elmi adı “Bidens” latın sözü olub, “bis” (iki) dens “diş” deməkdir. Bu da iki iti diş şəkilli meyvə deməkdir. Növünün elmi adı isə “tripartita üç bölünən mənasında, yarpağın ayısının qurluşunu göstərir. Xalq arasında buna “itciyər”, “ilişkən”, xənazirotu, keçi buynuzu, bataqlıq otu və sadı ilə çağırırlar. Üçbölümlü yatıqqanqal-Bidens triparita. Hündürlüyü 15-60 (100) sm olan kökü saçaqlı şaxələnən nazik samanı rəngli birillik ot bitkisidir. Gövdəsi dikduran, yoğun silindirvari yaşıl və yaxud qırmızımtıl rəngli olub qarşı-qarşıya düzülmüş yarpaqlarla əhatə olunmuşdur. Yarpaqları qısa saplaqlı dərin üçbölümlü lansetvari gövdənin yuxarı hissəsində yerləşənləri sadə, kiçik, kənarları mişar- dişli olduğu halda ortada yerləşən yarpaqları nisbətən iri və bütövdür. Sarı-qonur boru şəkilli çiçəkləri iri səbətlərdən ibarət olub, yarımgirdə formasında, tək-tək hallarda budaq və gövdələrin qurtaracağında yerləşmişdir. Çiçək səbətləri ikiqat zəngvari yaşıl qınla əhatə olunmuşdur. Kənar yarpaqları çiçək səbətdən uzundur. Çiçəklər solub və meyvəsi yetşən zaman səbəti qaralır və qonurlaşır. İyul ayından çiçək açır sentyabr ayına qədər davam edir. Meyvəsi toxumcuq olub, iki ədəd iynəvari qılçıq formasındadır.

Üçbarmaq yatınqanqal otu Azərbaycanın demək olar ki, hər yerində geniş yayılmışdır. Buna ən çox nəmli yerlərdə, subasmış çəmənliklərdə, çayların, göllərin, bataqlıqların kənarlarında daha çox rast gəlmək olar. Bundan başqa bitkiyə zibilliklərdə, əkin sahələrinin kənarlarında, alaq otu kimi bostanlarda rast gəlmək olur.

Yatıqqanqal otunun tərkbiindən bir sıra bioloji fəal maddələr müəyyən edilmişdir. Bunlardan 50 mq% karotin, 60-70 mq% askorbin turşusu 4,5-5,8% aşı maddəsi, 1,2-2,8%-butein, kversetin, izokreopsin, flavanodlədən, xalkon, auronlar, kempferkol, lyuteo- lin, sinarozid, sulfuretin, sulfurein, maritimetin, maddələri kamarinlərdən umbeliferon, skopoletin, eskuletin və s. tapılmışdır. Bundan əlavə darçın turşusu törəmələri, efir yağı (izi) acı maddə-

ləri, selik və qatranlı maddələri, toxumlarından isə 11%-ə qədər piyli yağ tapılmışdır.

Yaşıl hissəsinin tərkibindən 8,60% kül, 40,40 mq%q-K, 11,40- Ca, 3,50-Mg, 0,20-Fe makroeelementləri, 0,16 mkq/q Mn, 0,45- Cu, 0,81-Zn, 0,02-Co, 0,02 Cr, 0,14-Al, 0,08-V, 4,17-Se, 0,08-Ni, 3,11-Sr, 0,03-pb 87,20-B mikroelementləri tapılmışdır.

Hələ çox qədim zamanlarda üçbarmağın yarpaqlarından hazırlanan çaydan, cövhərlərdən dizinteriya, ekzema, damar və s. xəstəliklərin müalicəsində istifadə edilmişdir. Üçbarmaq otunun müalicəvi əhəmiyyəti o qədər böyük idi ki, keçmiş Rusiyanın çar quberniyasının 29 əyalətində bunun toplanıb tədarükü ilə məşğul olmuşlar. Çin və tibet təbabətində də üçbarmaq otundan soyuqdəymədə, ishalda, geniş istifadə olunmuşdur.

Xalq təbabətində üçbarmaq otundan hazırlanan məlhəmlərdən, cövhərlərdən xənazir, raxit, ilthab əleyhinə, oynaq xəstəliklərində, istifadə olunmaqla yanaşı sidikqovucu və tərgətirici vasitə kimi də işlədilmişdir. Qədim zamanlarda ilan dişləmələrinə qarşı mübarizə aparmaq üçün effektli dərman preparatları olmadığı dövrdə üçyarpaqdan hazırlanan məlhəmlərdən istifadə edilmişdir.

Otundan hazırlanan cövhərindən iştahaçıcı, çətin həzm olunmağa qarşı, eləcə də böyrək və dalaq xəstəliklərində istifadə edilir.

Tərkibində çoxlu miqdar karotin və bir sıra qiymətli bioloji aktiv maddələr olduğundan kosmetika və dermotologiya sahəsində geniş istifadə edilir. Belə ki, bundan hazırlanan məlhəmlərdən, dəmləmələrdən, cövhərlərdən dəri ekzemasına, qoturluğa, xanəzirə, başda o cümlədən uşaqlarda əmələ gələn qartmağa qarşı geniş istifadə edilir. Toxumundan əldə olunan yağdan yaraların tez sağaldılmasında, dəri yanıqlarında epitel hüceyrəsinin sürətlə bərpa edilməsində işlədilir. Otundan hazırlanan vannalarından insanın sağlam, gümrah, bədənin təravətli olmasında istifadə edilir. Üçbarmaq otunun tərkibinə tozağacı, gicitkən, atbıtrağı, çovdar, zəncirotu, qaraqınıq qarışdırıb, hazırlanan vannasından I sağlamlaşdırıcı, qüwətləndirici kimi istifadə etməklə yanaşı dəriyə sağlam rəng verilməsində də istifadə edilir.

Üçbarmaq otunun qönçə və ilk dövrdə açan çiçəklərini topla-

yıb hazırlanan vannasından dəri xəstəliklərində, diatezin müxtəlif formasında, qaşınmalarda, səpgilərin müalicəsində geniş istifadə edilir.

Yayın axır aylarında, bitki qönçə və çiçək açan dövrdə gövdənin 30 sm hündürlüyündən kəsib götürürlər. Bəzən onun yarpq və yaxud kiçik yan budaqlarını da toplayırlar. Bir müddət keçəndən sonra elə ki, bitkidə cavan budaqlar əmələ gəldi, təkrarən ikinci dəfə toplama işləri aparılır.

Üçbarmaq əkilən sahələri ot biçən maşınlarla toplayır, silos kambaynları vasitəsilə doğrayıb xırdalayır, talavar, çardaq və yaxud od quruducularında 45-50 dərəcə temperaturda sərib qurulurlar. Təbiətdə hər hektar sahədən 5-9 sentnor yaşıl quru kütlə əldə edildiyi halda, mədəni şəkildə becərildikdə isə 24 sentner məhsul götürmək olar. Bitkinin kombaynlarla toxumunu döyüb çıxarırlar. Üçbarmaq otu, yaxşı şumlanmış, mala çəkilmiş nəmli torpaqlarda əkilib becərilsə bol məhsul əldə etmək olar.

Taxıl sahələrdə əkildikdə yaxşı inkişaf edib bol məhsul verir. Dondurma şumundan sonra hər hektar sahəyə 40 ton peyin və yaxud kompast, 30 kq mineral gübrə verməyi məsləhət görürlər. Üçbarmaq otunun toxumlarını əkindən qabaq sortifikasiya edib, qış dövründə sərin şaxtalı günlərdə yaxud erkən yazda əkirlər. Toxumları bir-birindən cərgələr arası 60 sm olmaqla 1 sm dərinliyində əkirlər. Bir hektar sahəyə norma olaraq 8-12 kq toxum götürülür. Vegetasiya dövründə 4-5 dəfə kultivasiya işləri aparılır və alaqdan təmizlənir. XIX əsrin sonlarında və XX əsrin əvvəllərində üçbarmaq otundan yun ipək və pambıq məmulatlarının boya- maq üçün Rusiyada geniş surətdə əkib becərmişlər.

Üçbarmaq otundan alınan təbii boyaqdan qadın saçlarını qızılı sarı rəngə boyamaq olar.

# BOYMADƏRƏN-ACHILLEA

Dünya florasının tərkibində boymadərənin 200-ə qədər növü yayılmışdır. Bunlara ən çox şimal yarımkürəsinin mülayim iqlim zonalarında rast gəlmək olar. Qafqazda 21, o cümlədən Azərbaycanda 14 növü yayılmışdır. Dərman, ədviyyat və kosmetika sahəsində ən geniş istifadə edilən növü adi boymadərəndir. Adi boymadərən-Achillea millefolium hündürlüyü 20-120 sm, kəskin, xoş ətirli çoxillik ot bitkisidir. Kökümsovu sürünən, qaytanabənzər, budaqlanmayan nazik kökdən və yeraltı zoğlardan ibarətdir. Gövdəsi dikduran, tüklü budaqlanmayandır. Yarpaqları növbəli, lansetvari və yaxud xətvari formasında, uzunluğu 15 sm, eni isə 3 sm-dir olub, ikiqatdaraqvari və çoxsaylı buğumlardan ibarətdir. Çiçəkləri ağımtıl, çəhrayı, sarı, narıncı rəngdə səbətcikdə yerləşir. Meyvəsi yastı, uzunsov, gümüşü-sarı toxumcadır. Çiçəklənməsi iyun ayından başlayaraq yayın sonuna qədər davam edir. Dil şəkilli çiçəkləri sarıdır. Adi boymadərən Azərbaycanın Böyük Qafqaz ərazilərində, Kiçik Qafqazda, Naxçıvan, Lerik və LənKə- ran rayonlarının dağlıq ərazilərində yayılmışdır. Buna orta dağ zonalarından başlayıb, subalp çəmənliklərinə qədər rast gəlmək olar. Buna ən çox meşə açıqlıqlarında, meşəliklərdə, kolfar arasında, bəzən də əkin sahələrində də müşahidə etmək olar. Tez- tez geniş fitosenoz sahələri əmələ gətirir.

Boymadərənə xalq arasında ağ yonca, arı yuxası, ağ başlı, kəsik ot, boymadərən, ilanotu, iyli ot, əsgər otu və s. adlandırılar.

Yarpaq ayası çoxlu kəsiklərdən ibarət olduğu üçün bunu boymadərən adlandırmışlar. Boymadərəndən müalicə məqsədləri üçün də istifadə olunma tarixi çox qədim dövrlərə gedib çıxır. Qədim yunan əfsanələrində bu cinsin latınca mənası “Axıllsa” “Axilin kəşfi” kimi təsvir olunur. Belə söyləyirlər ki, Troyan müharibəsinin qəhrəmanı Axill, yaralı əsgərləri bu otla müalicə edərmiş. Belə ki, o, boymadərən bitkisindən sıyıq hazırlayıb tüfəng yarasından əmələ gələn şişlərin üzərinə yaxıb müalicə edərmiş. Boymadərən cövhərindən qrip və zökəm zamanı buruna damcı şəklində salıb müalicə edərmişlər. Yaralarda axan qanı kəsdiyinə görə Dioskorid bunu “yara otu” adlandırmışdır.

Boymadərənin yarpaqlarının tərkibindən 0,05% axillen C7 N13 03 alkaloidi, yarpaq və çiçəklərindən 0,8 efir yağı tapılmış

dır ki, bununda əsas tərkibi proazulen təşkil edir ki, ondan da xamazulen-C14 N16 və B-pmnen, kamfora borneol, puyon, sineol, kariofillen, linalil, bornilasetat, limonen, qeranpol, axilin, millefin, milleoralid, 8-anqelolil-artabin, leukomizin, austriqin, artilezin, kosmosin, lyuteolın, lyuteolin-7 qluyikozid, izoralitin, kastisin, artemenen, flavanoid maddələri staxidrin, qomostaxdirin, axilein, betonisin, xolin, alkaloidləri, saponin, aşı maddəsi, şəkərli maddə, qatran, kitrə, üzvi turşuları və S, K karotin vitaminləri və s. tapılmışdır.

Çiçəklərinin tərkibindən 7,99% kül, 30,70 mq/q-K, 10,90-Ca, 2,60-Mg, 0,20-Fe makroelementləri və 0,07 mkq/q Mg, 0,68-Cu, 0,14-Zn, 5,60-Mo, 0,02-Cr, 0,03-AI, 0,80-Se, 0,22 Ni, 0,04-Sr, 0,03-pb, 39,60 B mikroelementləri tapılmışdır.

Ot hissəsindən 11,57 % kül, maddəsi 35,20 mq/q-K, 11,80- Ca, 2,60-Mg, 0,20-Fe makroemenetləri, 0,09 mkq/q-Mn, 0,74-Cu, 0,68-Zn, 0,13-Co, 3,20-Mo, 0,02-Cr, 0,04-AI, 0,02-V, 0,25-Se, 0,20-Ni, 0,13-Sr, 0,03-pb, 0,05-1,44,40-B mikroelementlər aşkar edilmişdir. Boymadərənin çiçəklərini çay kimi dəmləyib daxili qanaxmalarda qankəsici vasitə kimi istifadə edilir. Elmi təbabətdə boymadərənin cövhər və dəmləməsindən qankəsici dərman kimi qadın qanaxmalarında, kəskin bağırsaq nahiyyələrində baş verən babasil qanaxamlarında istifadə olunur. Tez-tez boymadə- rənlə gicitkən cövhərlərini qarışdırıb, kəskin qanaxamalarda istifadə edilir. Elmi tibbdə cövhərindən qadın xəstəliklərində, diş ağrılarında, südəmər qadınlarda südün artırılmasında istifadə edilir.

Qədim əlyazmalarda aydın olur ki, boymadərəndən kosmetika sahəsində geniş istifadə edilmişdir. Belə ki, boymadərənin çiçəklərini, çobanyastığı bitkisi ilə qarışdırıb, cövhərini hazırlayıb, sifəti yuyarmışlar. Bundan sonra dəri elastiki təravətli və tutqun- çəhrayı rəng alarmış. Cövhəri və dəmləməsindən dəridə və üzdə civzə, çiban, yara, xora, çizvə, zi in və s. müalicəsində istifadə edərmişlər. Cövhərindən kremlərin tərkibinə daxil edib dərinin qidalandırmasında istifadə edərək qarışıqları yox edirmişlər. Hal- hazırda ekstraktından dəridə olan irinli yaraların, çibanın, qaşınmaların müalicəsində müvəffəqiyyətlə istifadə edilir. Boymadərəndən hazırlanan losyonlardan kişilər sifətlərinə sürtürlər. Boymadərənin otundan və çiçəyindən dünyanın bir çox ölkəsinin kosmetikasında geniş istifadə edilir.

Bitkinin ot və çiçək hissəsini tam çiçək açan dövrdə toplamağı məsləhət görürlər.

# *YOVŞAN-ARTEMISIA*

Yovşanın dünya florasında 400-ə qədər növünə rast gəlmək olar. Bu növlərin əksəriyyəti şimal yarımkürəsinin mülayim iqlim



zonalarında yayılmışdır. O, birillik, ikiillik, çoxillik, bəzi hallarda yarımkol bitkidir. Rusiyaya 170, Qafqazda, o cümlədən Azərbaycanda 16 növü vardır. Bir növü *A.dracunculus* tərxun mədəni halda becərilir. Yovşan yunan sözü olub sağlam, güclü deməkdir. Yovşan əsasən səhra və yarımsəhra bitkisi olub, Orta Asiya və Qafqaz respublikalarında daha çox yayımışdır.

Yovşanın bir çox növü-dərman, qida, efir yağlı, boyaq və bəzək üçün yararlı olanları mədəni halda becərilir.

Bəzi mənbələrdə göstərilir ki, bu bitkinin adı Mavzola çarı Artemiza xanımın (Artemisia) adından götürülmüşdür. Böyük təbiət alimi Pliniy göstərir ki, guya bu bitki ilə çarın arvadı Artemiziya xanımı müalicə olunmuşdur. Böyük Pliniy qeyd edirdi ki, kim özü ilə yovşan yarpağı gəzdirsə, o uzun yol qət etməsinə baxmayaraq, yorğunluğun nə olduğunu hiss etməzmiş.

Yovşan haqqında bir çox rəvayətlər hökm sürür. Qədim rəvayətlərin birində deyilir ki, yovşanın o qədər gözəl ətri var ki, hətta ondan bir dəstə toplayıb iyləyən bir qaçqının behuş olması göstərilir. Yovşanın öz şerlərində gözəl təsvirini verən şair A.N.Maykov yazır: Bir gün Qıpçaq xanı Otrok öz dəstəsi ilə Qafqaz dağlarına gəzməyə çıxır. Xanın başı o qədər kefə qatışır ki, o, öz yurduna qayıtmağı belə yaddan çıxardır. Bunu görən xanın qardaşı Sırçan xanın xanəndəsini çağırıb qardaşının arxasınca göndərir və deyir ki, Otrok xanına de ki, artıq vaxtdır öz vətəninə qayıtsın. Xanəndə o vaxt gəlib, Otrok xanının düşərgə saldığı yerə çatır ki, bu zaman xan və vəzirləri ilə kef məclisi qurub şənlənirdi. Xanəndə icazə alıb, Otrok xanı olan çadıra daxil olub, qardaşının yazdığı kağızı onu uzadır. Otrok xanı kağızı oxuyub ona heç bir məhəl qoymur və xanəndənin məclisdən qovulması əmrini verir. Bu zaman xanəndə qoltuğundan bir dəstə yovşan çıxardıb xana göstərir. Xan yovşanı görən kimi, həyəcanlanaraq sifəti dəyişilir onu xanəndədən alıb, iyləyərək yovşanı öpə-öpə vətənin yada salır və tezliklə öz dəstəsilə ora qayıdır. Yovşan haqqında belə bir rəvayət də söylənilir: o, ölkə varlı və insanları xoşbəxtdir ki, onun torpağının sinəsi üzərində dərin kök salmış yovşan

sahəsi vardır. Bu sahə sakitlik içərisində qərq olmuş payız fəslində tozağacı meşəsini, göyümtül tüstü burulğanını və həzin səslə işləyən su dəyirmanını xatırladır.

Yovşanla əhatə olunmuş sahələr gözəl görmüşə malik olur. Uzaqdan tamaşa edən adama estetik zövq verir. Onlar sıx kol formasında olub, nə yayın istisindən, nə də qışın soyuğundan qorxurlar.

Yovşanın müalicəvi təsiri insanlarla çox qədim dövrdən məlum olmuşdur. Şərq xalqları bundan cövhər hazırlayaraq gün vurmuş xəstələrə içirdib müalicə edərmişlər. Qədim yunan həkimləri yovşanın güclü sağlamlıq təsirə malik olduğuna görə, onu "çoxsaylı otların anası" adlandırmışlar.

Rus xalq təbabətində yovşandan bir çox yolxucu xəstəliklərinin müalicəsində istifadə olunmuşdur. Bundan başqa yovşanla mədə-bağırsaq, qızdırma, böyrək və qadın xəstəliklərinin müalicəsində və eləcə də sidik və öd qovucu vasitə kimi istifadə olunmuşdur. Misirlilər qeyd edirlər ki, yorulmuş ayaqlara bir dəstə yovşan bağlasanız, yorğunluq tezliklə oradan qalxır. Yovşandan hazırlanmış cövhərdən, araqdan, vermutdan iştahgətirici vasitə kimi istifadə olunur. Yarpaq və cavan zoğlarından ədviyyat kimi qızardırılmış və yağlı xörəklərin xüsusilə də ördək və qaz ətlərinin iştahla yeyilməsində istifadə olunur.

Yovşanın tərkibində kifayət qədər efir yağı, flavonoid, kuma- rin, seksiterpen laktonları, absintin, anabsintin, artabsin, xama- zulen, vitaminlər, üzvi turşular, şəkər, selikli maddələr və az miqdarda alkalokdli maddələr vardır.

Yovşanın tərkibində efir yağının olması onun qurdqovucu valerian turşusunun olması onun sakitləşirici, fenol birləşmələrinin olması onun vəba xəstəliklərinə qarşı müalicəvi təsirini göstərir. Tərkibi müxtəlif kimyəvi madəllərlə zəngin olduğundan tibb sahəsində müxtəlif xəstəliklərin müalicəsində ondan geniş istifadə olunur.

*Müalicə yovşanı.* A.abrotanum-gözəl müalicəvi təsirə malik olduğuna görə, xalq arasında buna "Allah ağacı", "müqəddəs

ağac, “qüvvə verici ağac” və sairə deyirlər. Bu 80 sm hündürlüyündə olan yaşıl kol bitksidir. Bunu Rusiyanın.cənub rayonlarında o cümlədən bizim respublikada da prak və bağçalarda mədəni halda əkib becərirlər. Yabanı halda isə Cənubi-Şərqi Asiya ölkələrində rast gəlinir. Bundan başqa onu Cənubi Avropa və Amerika ölkələrində mədəni halda əkib becərirlər. Müalicə yovşanın gövdəsi budaqlanan olub, sıx yarpaqla örtülmüşdür. Çiçəkləri yaşımtıl-sarı rəngdə olub, süpürgə əmələ gətirir. Bunun tərkibində limon iyli efir yağı, abrotonin alkalandi, qətran, aşı, flafon və sairə maddələr vardır. Cavan zoğlarından alınan efir yağından qənnadı və likyor məmulatlarına iy və dad (tam) vermək üçün istifadə olunur. Bundan hazırlanmış cövhər və preparatlardan qan azlığı və eləcə də xənazir xəstəliklərinin müalicəsində istifadə olunur.

Yeyinti məqsədləri üçün müalicə yovşanının yarpaq, çiçək, gövdə hissələrindən hazırlanmış ədviyyədən sirkə, sous (xörək şirəsi) şorba, cövhər, şərab, ət və balıq və s. qida məmulatlarının tərkibinə daxil edirlər.

Bu məqsədlər üçün onun cavan, yarpaq, çiçək, qönçə hissələrini toplayıb, kölgədə qurudur, narın poroşok halına salaraq ağzı kip bağlanmış qablara doldurub, quru və sərin yerlərdə saxlayıq yeri gəldikcə istifadə edirlər.

İstər xörəklərin, istərsə də ət məhsullarının tərkiblərinə azacıq miqdarda yovşandan hazırlanmış cövhər əlavə edib, onları xarab olmadan belə uzun müddət saxlayırlar.

*Acıyovşan-A.absinthium.* Bu şaquli, çoxbaşlı kök sisteminə malik, hündürlüyü 1-2 metrə qədər olan çoxillik ot bitkisidir. Gövdəsi odunlaşmış çoxlu qol-budaqdan ibarət olub, bozumtul-yaşıl rəngdədir. Yarpaqları saplaqlı, boz-yaşıl, ikiqat-üçqat bölünmüş və üzəri sadə ağ tüklərlə örtülmüşdür. Çiçək qrupu dəyirmi, sarı rəngdə olub, boru şəkillidir. Kənardakılar dişi cinsli, ortadakı çiçəkləri isə ikiçiçəklidir. Yetişmiş toxumları qonur rəngli, azacıq yastı, uzunsov paz formasında olub, üzəri cizgilidir. Bitkinin bütün hissələri acıdır. Acı yovşan dərman və efir yağlı bitki sayılır.

Dərman məqsədi əli onun yuxarı hissələrini çiçək açan dövrə kimi toplayırlar.

Dərmanşünas alim Loniçerus məsləhət görürdü ki, müxtəlif xörəklərin tərkibinə azacıq olsa da yovşan əlavə etsinlər. Belə ki, o həm qidanın tez həzm olunmasına kömək edir, həm də zəhərli maddələri öd kisəsindən qovulmasına kömək edir.

Aviçena yovşanın ən yaxşı öd və sidik qovucu, qurd salıcı, titrətmə, qadınlarda baş verən qanaxma pozğunluqlarında, gözün xroniki xəstəliyində ən gözəl vasitə olduğunu təbliğ edirdi. O həm də yazıb qeyd edirdi ki, yovşanla düyündən hazırlanan mürəbbəyə bal qatıb qurd xəstəliklərinə və göbələklə zəhərlənmə əleyhinə işlədirlər. Yovşandan hazırlanmış məlhəmi əzilmiş yerlərin sağaldılmasında istifadə edirlər. Bundan başqa yovşan məlhəmindən sidik kisəsində qalmış daşların əridilməsində və eləcə də paralicə qarşı mübarizədə istifadə edirlər.

Yovşanın may ayında toplanmış hissələrindən qaynatma yolu ilə əldə olunmuş məlhəm ilə titrətmə, sarılıq, qaraciyər, sidik, dalaq, yuxusuzluq, ürək keçmə, qusma, ishal, təngnəfəslik, bədən boşluqlarına yığılmış suların (mayelərin) və bir sıra bağırsaq xəstəliklərinin müalicəsində geniş surətdə istifadə olunur. Elmi təbabətdə yovşanı Halen preparatlarının tərkibinə daxil edərək, qüv- vətləndirici, iştahgətirici, həzm yaxşılaşdırıcı vasitə kimi istifadə edirlər.

Yovşanın tərkibindəki efir yağından mərkəzi sinir sisteminə oyandırıcı təsir göstərilməsində istifadə olunur. Bunun xamazu- len maddəsi ilə orqanizm toxumlarının funksiyalarının nizama salınmasında, soyuq dəymə əleyhinə, bronxial astma, revma- tizm, ekzema, yanuq və şüa xəstəliklərinin müalicəsində istifadə edirlər.

Müasir xalq təbabətində acı yovşandan mədə pozğunluqlarının aradan qaldırılmasında, qəbizlikdə, qızdırmada, ürək keçmə, qadın xəstəliklərində, qan azlığında, öd kisəsi xəstəliklərində və damarların genişləndirilməsində, yuxusuzluqda və eləcə də piyləmə əleyhinə istifadə edirlər.

Rus xalq təbabətində yovşandan hazırlanmış şirədən yarasağaldıcı və qantəmizləici kimi geniş istifadə olunur.

Azərbaycan xalq təbabətində isə yovşanın yarpaq, çiçək və kök hissələrindən hazırlanmış cövhərlə, məlhəmlə soyuqdəymə, qankəsmədə, çibanların sağaldılmasında, bir çox yaraların müalicəsində istifadə edirlər. Bundan başqa onun döyülmüş yarpaqlarını unla qarışdırıb, xəşil bişirərək ac qarnına daxilə qəbul edərək, quruların qovulmasında istifadə edirlər. Kölgədə qurudulmuş yaşıl kütləsini turşudulmuş südlə qaynadaraq əzilmiş bədən nəhiyyələrinin sağaldılmasında, sınıqların bitişməsində istifadə edirlər. Yovşanla, boymadərən bitkisinin bir-birinə qatışdırıb köpmə əleyhinə işlədirlər.

Çin xalq təbabətində acı yovşandan mədə pozğunluqlarının aradan qaldırılmasında, Almaniyada yovşanla mədə bağırsaq, Bolqarıstanda tuberklyoz, özündən getmə, Polşada yarasağaldan vasitə kimi istifadə olunur. Bundan başqa yovşan məlhəmilə hamilə qadınlarda baş verən toksikoz əleyhinə, qanaxmaya qarşı və eləcə də vəba xəstəliklərinin müalicəsində istifadə olunur.

Yovşandan hazırlanmış preparatları bir aydan artıq qəbul etməyə icazə vermirlər. Belə ki, bu preparatlar hamiləliyə mənfi təsir göstərir.

Yovşanın yarpaq, çiçək və yerüstü hissələrinin tərkibində qlikozidlərdən əsasən asbintin, anabsintin, artabsin, xamuzen və s. maddələr vardır. Bu qlikozidlərin məhsulu isə azulen maddəsidir. Acı yovşanın tərkibində 11,6-24,5% tuyil spirtli, tuyon, fellendren, santonin, pinen, 24,1-35,2% tuyilasetat, kadinen 0,25% siril, izovalerian və palmitin turşuları 12 mq% karotin, 175 mq % S vitamini, inulin, aşı maddəsi və s. tapılmışdır.

Acı yovşanın yerüstü hissəsindən 7,40% kül, 35,10 mq/q-K, 10,20-Ca, 2,00-Mg, 0,20-Fe, makroelemenləri, 0,14 mkq/q-Mn, 0,48-Cu, 0,62-Zn, 0,12-Co, 4,00-Mo, 0,02-Cr, 0,07-Al, 5,90-Se, 0,34-Ni, 0,13-Sr, 0,06-pb, 98,70-Br, 88,80-B mikroelementləri aşkar edilmişdir.

Qida məqsədləri ilə acı yovşandan da istifadə etmək olar. Be-

iə Ki, bunun yarpaqları S vitamini, üzvi turşular, efir yağı, nişasta və s. maddələrlə zəngin olduğundan yeyinti məhsullarına əlavə kimi daxil edilməsini məsləhət görürlər.

Acı yovşandan spirtli içkilərin, lükor, vermud və s. içki növlərinə iy və tam vermək üçün istifadə olunur.

Aparılan tədqiqatlar göstərmişdir ki, acı yovşan yeyinti məqsədləri üçün çox əhəmiyyətli bitki hesab oluna bilər. Yovşandan yeyinti məhsullarının tərkibinə daha çox əlavə olunması üçün aşpazlar və texnoloqlar öz sözlərini deməlidirlər.

Acı yovşandan mal-qara az miqdarda belə yedikdə, süddə acılıq və kəskin yovşan iyi gəlir.

Yovşanın bir çox növləri o cümlədən iyli yovşan mal-qara üçün xüsusilə də qoyunlar üçün payız fəslində qiymətli yem hesab olunur. İyli yovşanı payız aylarında qoyunlardan başqa keçi, at və dəvələrində yaxşı yemi hesab olunur. Heyvandarlığın inkişaf etdirilməsi ilə əlaqədar olaraq iyli yovşanı respublikamızın qoyunçuluq rayonlarında mədəni halda keçirib, geniş surətdə əkib becərmək lazımdır. Yovşanın tərkibindəki efir yağından isə ətriyyat və sabun bişirmə sənayesində istifadə olunur.

Hal-hazırda yovşandan 24 ölkənin tibb sahəsində istifadə edilir. Hətta Fransada “sağlamlıq otu” adı altında mədəni halda əkib becərirlər.

Acı yovşandan kosmetika və dermatologiya sahəsində də geniş istifadə edilir. Biz buna qədim həkimlərin əlyazmalarında da rast gəlirik. Otunun şirəsini mazla qarışdırıb dəridə əmələ gələn çatların, yaraların, qaşınmaların müalicəsində istifadə edirmişlər.

Yovşanın cövhərinin tərkibinə başqa bitkilərdən hazırlanan cövhərləri əlavə edib vanna hazırlaıb, dəridə əmələ gələn səpgi və qaşınmaları müalicə edirlər. Bir sıra xarici ölkə kosmetikasında da yovşandan geniş istifadə edilir.

Hal-hazırda Azərbaycan florasının tərkibində yayılan yovşan növlərinin kimyəvi tərkibi k.eAS.Sərkərov b.e.n. A.Ələsgərova tərəfindən geniş surətdə öyrənilir.

# *GÜLÜMBAHAR-CALENDULEA*

Dünya florasının tərkibində 20-30-a qədər növünə rast gəlmək olar.

Gülümbahar birillik, nadir hallarda isə çoxillik ot bitkisidir. Gövdəsi 20-50, bəzən də 75 sm hündürlüyündə saçaqlı kökə malik olub, gövdəsi budaqlanan, qabırğaları tüklərlə örtülmüşdür. Yarpaqları növbəli uzunluğu 13 sm olub, aşağı yarpaqları saplaqlı, uzunsov-tərsinəyumurtavari, yuxarıdakılar oturacaq şəklində uzunsov-lansetvaridir. Çiçəkləri iri, gövdənin yuxarı hissəsində tək-tək yerləşib parlaq sarı narıncı və yaxud narıncı-qırmızı rəngli səbətdə toplaşmışdır. Bitki mart-aprel-may ayından başlayıb, payızın son ayına qədər çiçəkləyir. İyulda meyvə verir. Gülümbahar cinsinin dünyada yabanı hald 20 növü yayılmışdır. Bunlara əsasən ən çox Orta Aralıq dənizi ətrafındakı ölkələrdə və İranda rast gəlinir. Mədəni halda becəriləni isə dərman gülümbaharıdır. Onu bütün Avropa ölkələrində, ABŞ-da və s. qiymətli dərman və bəzək bitkisi kimi geniş surətdə əkib becərirlər. Ukraynada ən yaxşı dərman və bəzək bitkisi sayılır.

Respublikamızda Gülümbahar çoxdandır ki, yalnız bəzək bitkisi kimi becərilir. Onu Azərbaycanın hər yerində xüsusən, rayon mərkəzlərində, bağlarda, bağçalarda, həyətlərdə bəzək bitkisi kimi əkirlər.

Gülümbahar bitkisi çox qiymətli dərman, boyaq və bəzək bitkisidir. Çiçəklərinin tərkibindən karotin-C40 N56 likopin-C40 N56, violaksantin-C40 N56 04 rubinksantin-C40 N56 O neoliko- pin A, sitroksantin-C40 N56 O flavoxrom-C40 N56 O flavoksan- tin-C40 N56 O neolikopin A, sitroksantin-C40 N56 O flavoxrom- C40 N56 O flavoxrom-C40 N56 O flavoksantin-C40 N56 03 xri- zantemonsin, sitraksantin, və s. maddələr tapılmışdır. Çiçəkdə karotinodlərin ümumi miqdarı 3%-ə qədər olur. Bundan əlavə çiçəklərinin tərkibindən izoramnetin, rutin, izrampetin-3 D-q qlyu- kozid, kversetin-3 D-qlyukozid, narsissin, flavanoidləri, 0,02% efir yağı, 3,4% qətran, 4% selik, albumin, 6,8% alma turşusu,

pentadesil-C 15 N30 02 kalendulozid, A, B, S, D, D2 və F1 C vi- taminlər, alkoloid izi və S tapılmışdır. Ot hissəsinin tərkibindən isə kalenden-C23 N38 07 acı maddəsi, arindol, farodiol triter- penləri, toxumundan isə piyli yağ maddəsi və s. aşkar edilmişdir. Bundan əlavə çiçəklərinin tərkibindən 8,01% kül maddəsi, 29,80 mq/q-K, 11,40-Ca, 2,50-Mg, 0,15-Fe makroelementləri, 0,20 mkq/q-Mn, 0,86-Cu, 1,31-Zn, 0,03-Co, 1,47-Mo, 0,09-Cr, 0,05-Al, 4,20-Se, 0,25-Ni, 0,10-Sr, 0,03-pb, 0,05-1, 48,40-B mikroement- ləri aşkar edilmişdir.

Gülmahardan müalicə məqsədləri üçün ilk dəfə qədim yunanlar istifadə edərək, gec sağalan uyuşmayan yaraların, qızdırma xəstəliklərinin, ekzema və çibanların eləcə də bəd xassəli şişlərin sağaldılmasında istifadə etmişlər.

XIX əsrin axırları, XX əsrin əvvəllərində gülümbahar bitkisi alimlərin diqqətini özünə daha çox cəlb etmişdir. Biokimyaçı alimlər onun kimyəvi tərkibini öyrənməyə başladılar.

Gülümbahar dərman bitkisi kimi xalq təbabətinə XII əsrdən məlumdur. O zamanlar ondan tərlədici, dezinfeksiyaedici, bü- züşdürücü, irinləmə əleyhinə və s. məqsədlər üçün geniş istifadə olunmuşdur. İbn-Sina qeyd edirdi ki, gülümbahardan hazırlanmış cövhərdən dazlığın aradan qaldırılmasında, sinir xəstəliklərində, zəhərili həşərat sancmalarına qarşı istifadə olunmuşdur.

Hazırda gülümbahardan hazırlanan preparatlarla angina, sto- matit, alveollar və s. müalicə edilir. Eyni zamanda dərman gü- lümbaharından hazırlanan dərmanlarla mədə və onikibarmaq ba- ğırsağın yaralarını, qastritin, qadın və sidik qanaxmalarında aqa- raciyər və öd axarı yollarının xəstəliklərini sağaldırlar. Bundan başqa, ondan hipertonia xəstəliyi zamanı ürəyin ritmini tənzim- ləşdirmək üçün istifadə olunur. Şiddətlənmiş xərçəng xəstəliyinin qabağını almaq və onun təsirini zəiflətmək üçün “KN” həbi işlədilir. “KN” həbi orqanizmin zəhərlənməsini azaldır, xəstədə gəyirmə, ürək bulantısı, ağrı və qeyri-halların qarşısını alır. İştah və yuxu gətirir. “KN” dərmanlarının bir hissəsini gülümbaharın çiçəyindən alınmış cövhərlər təşkil edir.

Müəyyən edilmişdir ki, gülümbaharın dərmanları mərkəzi sinir sistemini sakitləşdirir, qan təzyiqini azaldır, ürəyin döyünməsini tənzim edir. Bu bitki çox güclü bakteriositdir, stafilokok və streptokoklara yaxşı təsir edir. Xalq təbabətində qurudulmuş çiçəklərindən çay dəmləyib öd yolları, ağız boşluğu, diş, boğaz ağrısı və s. xəstəliklərin müalicəsində istifadə edirlər.

Qurudulmuş çiçəkləri əvvəlcə xırdalayır, sonra kərə yağında məlhəm hazırlayaraq, uyuşmayan yaraların və eləcə de çibanın üstünə yaxırlar. Gülümbabahar preparatlarından soyuq dəymələrdə, ödqovucu, böyrək və diatez əleyhinə də işlədilir.

Gülümbahar cövhərlərindən ağızboşluğu soyuqdəymələrində, diş dibindən axan qanın kəsilməsində, qabar və zillərin, piqment ləkələrinin müalicəsində geniş istifadə olunur.

Gülümbahar çiçəklərindən hazırlanan yaxma, krem və mazlardan dəridə əmələ gələn yaraların, qaşınma və göbələk xəstəliklərinin müalicəsində geniş istifadə edilir. Çiçəklərindən hazırlanmış karotinlə zəngin kremindən dərinin epitel toxumasının tezliklə bərpa edilməsində əvəzi olmayan vasitə kimi işlədilir. Hal-hazırda mağazalarda gülümbahar çiçəklərindən hazırlanmış müxtəlif adda losyon, şampun, krem, maz və yaxmalar satılır.

Biz isə dünyada ilk dəfə olaraq yeni texnologiya hazırlayıb çiçəklərindən karotinlə zəngin preparat almışıq. Bu texnologiya üçün bizə “patent" verilmişdir.

# AT PITRAĞI-ARCTIUM

Dünya florasının tərkiində 11-ə qədər növünə təsadüf edilir. Qafqazda o cümlədən də Azərbaycanda 4 növü yayılmışdır.

At pıtrağının adı "Arctium" yunan sözü "arctos" olub "ayı" mənasını daşıyır. Antik dövründən bu bitki belə adlandırılır. İri arıpıtrağı-Arctium lappa iki illik ot bitkisidir. Gövdəsi sərt (möhkəm) düz şırımlı, qırmızımtıl rəngə boyanmış, budaqlanan, 100-180 sm bəzən isə 270-300 sm hündürlüyündədir. Yarpaqları iri, saplaqlı, ürəkvari-yumurtavari olub, qısa tükcüklərlə örtülmüş 50-60 sm uzunluğu olan saplaqdan ibarətdir, iyul-avqust aylarında çiçəkləyir, avqust-sentyabrda meyvə verir.

Görəsən ot bitkilərinin içərisində at pıtrağına oxşar ikinci bitki tapmaq olarmı? Bu nəhəng yaşıl bitkiyə sahibsiz qalmış yararsız torpaqlarda, çuxur və xənəklərdə, boş sahələrdə, kanal və arxların kənarlarında bir sözlə hər yerdə rast gəlmək olar. Bota- niklər bu bitkinin vülqar (kobud) adlandırırlar. Bunu nahaq yerə belə adlandırmırlar. Belə ki, bitkinin damarlı ətli qırmızımtıl gövdəsi əsas hissədən elə möhkəm qurulmuşdur ki, ot arabasının təkərləri ilə itələmək olmaz. At pıtrağının zahiri görünüşünün belə güclü və kobud olması təbiətcən bunu "ayıya" bənzədir. "Yaşıl ayı" əkilmiş bostan sahələrində sakitcə yuxuya gedərək, cücəli toyuğu, kirpini, dovşanı, qurbağanı, hafa və bir sıra canlı heyvanları öz "ağuşuna" çəkib, şiddətli isti və rütubətli havadan qoruyur.

At pıtrağı xalq təsərrüfatı əhəmiyyətli bitkidir. Belə ki, onun kökünün tərkibindən 45-60 %-ə qədər inulin, 12 % protein, 0,17 % efir yağı, 0,82 piyli yağ, palmetin, stearin turşuları, sulu karbohidratlar, həmçinin sitosterin, stiqelasterin, toxumundan arktin qlikozidi, 20 %-ə qədər piyli yağ, yarpaqlarından aşı, selik və 0,03% efir yağı tapılmışdır. At pıtrağının əhəmiyyətini saymaqla qurtarmaz. Birinci o mal-qara üçün qiymətli yem bitkisi sayılır. Yaşıl halda mal-qara bunu yemir. Lakin günəbaxan və baldırğanla hazırlanmış silosunu həvəslə yeyir. At pıtrağı silosu ilə inəkləri yedizdirən zaman onların südünün artması müşahidə edilmişdir. Deməli at pıtrağı silosu həm heyvanların çəkisini və südver

mə qabiliyyətinin artmasına səbəb olan qiymətli yem bitkisi sayıla bilər. Toxumları quşların əvəzsiz yemi sayılır. Bitkinin ən qiymətli cəhətlərindən biri də bunun qida əhəmiyyətinə malik olmasıdır. Sibir və Qafqaz xalqları at pıtrağını qida bitkisi kimi çoxdan tanıyırlar. Yaponlar isə tərəvəz bitkisi kimi bunu əkib becərirlər. Yazın ilk vaxtlarında siz atpıtrağının cavan yarpaq və zoğlarını kəsib xörəklərə qatıb istifadə edə bilərsiniz. Cavan vaxtı yarpaq və körpə zoğu çox yeməli olur. Sonra bunu pörtdədib, duzlayıb, yağla qatışdırıb, saxlayıb qış vaxtları zəngin vitamin mənbəyi kimi xörəklərə qatıb istifadə edə bilərsiniz. Payız vaxtı atpıtrağı məxbəxə iri ətli kök hissəsini hədiyyə edir. Atpıtrağının cavan kökünü kök əvəzi kimi yeyirlər. Onu doğrayıb qurudub, un halın salıb çörək bişirirlər. Məhsuldarlıq az olan illərdə atpıtrağı kökündən hazırlanan unu 1:2 çovdar unu ilə qarışdırıb çörək bişirirlər. Bundan əlavə cavan köklərini qida kimi suda və yaxud zəif qızdırılmış halda yeyirlər. Xırda-xırda doğrayıb sonra onları turşudulmuş südün içərisiənə tökür, üzərinə qarışqa və sirkə turşusu əlavə edib qızardırırlar. Bu zaman inulin şəkərə çevrilir. Bu üsulla atpıtrağından şirintəhər püre hazırlanır. Atpıtrağının faydalı xüsusiyyətlərindən biri də toxumunda zəngin piy yağı olmasıdır. Düzdür toxumlarından alınan yağın tərkibi acı olduğundan qida üçün yaramır. Lakin bu yağdan yüksək keyfiyyətli sabun və əlif istehsal olunur.

At pıtrağının ən qiymətli xüsusiyyətlərindən biri də onun müalicəvi əhəmiyyət kəsb etməsidir. Dərman məqsədilə onun iri ətli kök hissəsindən istifadə edilir. Kök hissəsindən hazırlanan preparatlardan sidikqovucu və tərlədici vasitə kimi istifadə edilir.

Toxumlarından sidikqovucu və işlədici kimi istifadə olunduğu halda, yarpaqlarından yaş sarğı kimi şiş və xənazir yaralarının üzərinə qoyub müalicə edirlər. Atpıtrağından hazırlanan preparatlar antimiqrob fəallığa malik olduğundan, qızdırma, soyuqdəymə, mədə yarası, revmatizm, babasil və böyrək daşlarının və s. müalicəsində geniş istifadə edilir.

Atpıtrağından kosmetika sahəsində də istifadə edilir. Belə ki, kök hissəsindən alınan efir yağını zeytun və badam yağına qatıb, tüklərin möhkəmləndirilməsində istifadə edilir. Vannasından isə dəri səpgilərində işlədilir.

# GÖYÇİÇƏK (GÜLƏVƏR)-CENTACIREA

Dünya florasının tərkibində göyçiçəyin 600-ə qədər növü yayılmışdır. Qafqazda 70, o cümlədən Azərbaycanda 30 növünə rast gəlmək olar. 4 növündən müalicə vasitəsi kimi istifadə edilir: göy göyçiçək-C.cyanus qumluq göyçiçək-C.arenaria, Zaqafqaziya göyçiçəyi-C.transcaucasica və günəbaxana oxşar göyçiçək-C.solstitalis. Tibbi və kosmetika sahəsində ən geniş istifadə olan növü isə əkin göyçiçək növüdür.

Göyçiçək cinsinin adı qədim antik roma mənbələrində söylənilən 2 rəvayətlə bağlıdır. Belə ki, bədəni at və sifəti iri saqqala əhatə olunmuş “kentavır” adlı bir canlının qarabaşaq otu ilə yaralanan heronu bu bitki ilə müalicə etdiyinə görə bu adı vermiş- lər.Bu zaman heronun özü bitkilərin müalicə sirlərini Allahların oğlanlarını öyrətməklə məşğul olmuşdur.

Əkin göyçiçək-C.cyanus-hündürlüyü 30-100 sm olan birillik nadir hallarda ikiillik ot bitkisidir. Gövdə yarpaqları oturacaq olub xətvari, lənəkvari-daraq şəkilli, kənarları bütövdür. Bənövşəyi, göy rəngli çiçəklərinin diametri 3 sm olub, səbət formasında gövdənin qurtaracağında yerləşmişdir. Çiçəyi ağ, mavi, çəhrayı, yasəmən rənginə qədər ola bilir. Meyvəsi uzunsov toxumcuqdan ibarət olub, boz rəngdədir. Çiçəkləri iyundan başlayaraq payızın son aylarına qədər açır, avqust-sentyabrda meyvə verməyə başlayır.

Əkin göyçiçək (güləvəri) Azərbaycanın Kiçik Qafqaz ərazisinin şimal və cənub hissələrində, Abeşeron, Lənkəran, Naxçıvan MR-da, ümumiyyətlə respublikamızın hər yerində yayılmışdır. Buna ən çox taxıl zəmilərinin kənarlarında, yonca sahələrində, alaq otlarının arasında, meşə yollarının kənarlarında rast gəlmək olar. Göyçiçək düzənlik sahələrindən tutmuş orta dağ qurşaqlarına qədər yayılmışdır.

Çiçəklərinin tərkibində antosian tibli sianin qlikozidi-027 N31 016 Cl sikorin-C15 N16 09, santaurin-C24 N26 013, sianidinx-

lorld-C15 N11 06 Cl, pelarqonin-xlorid-C27 N31 015 Cl apiqe- nln, lyuteolin, kversetin, rutin, falavanoidləri aşı, selikli, kumerin vo s. tapılmışdır. Bunun ot və çiçəklərindən-5,16% kül, 17,00 mq/q K, 18,10-Ca, 2,70-Md, 0,30-Fe makroelementləri, 0,23 mq/q-Mn, 0,77-Cu, 0,57-Zn, 0,06-Co, 0,07-Cr, 0,28-AI, 0,09-V, 1,11-Se, 0,36-Ni, 0,04-Sr, 0,06-pb, 0,50-B və s. mikroelementlə- rl aşkar edilmişdir.

Elmi təbabətdə mavi göyçiçəyin güllərindən sulu dəmləmə hazırlayıb sidikqovucu və ödqovucu dərman kimi qəbul edilir. Cövhərindən sidik kisəsi və borusunda əmələ gələn iltihabın, şiş ve irinli yaraların müalicəsində də istifadə edilir.

Xalq təbabətində göyçiçəyindən çay dəmləyib, ürək ağrılarında sakitləşdirici vasitə kimi işlədilir.

Hələ çox qədim zamanlarda göyçiçəyin toxumlarını yığıb qurudar, narın toz halına salıb, zil, qaşınma və ekzema əleyhinə işlədirmişlər. Ləçəklərindən alınan cövhərlərdən isə göz ağrılarında istifadə olunmuşdur.

Hal-hazırda kosmetikada göyçiçəyin ləçəklərindən alınan dəmləmələrdən, cövhərlərdən dəridə əmələ gələn yaraların, ekzemaların, qaşınmaların müalicəsində eniş istifadə edilir. Bundan göz ağrılarında, bədən nahiyyələrində əmələ gələn qıcıqlanmalarda da istifadə edilir. Dəri səpgilərində isə vannasını qəbul edilməsini məsləhət görürlər.

Çiçəklərindən yeyinti sənayesi üçün göyrəngli təbii boyaq alınır.

Müalicə və kosmetika məqsədilə tam çiçək açan dövrdə çiçək səbətlərini qayçı ilə kəsib qıfvari və bir qədər boruşəkilli çiçəkləri ayırıb talvar altında sərib qurudurlar. Qurumuş çiçəkləri kağız kisələrə doldurub quru yerlərdə saxlayırlar.

# ZƏNCİROTU-TARAXACUM

Zəncirotu-dünya florasının tərkibində bu cinsin 300-ə qəər növü yayılmışdır. Onun Qafqazda 20, o cümlədən də Azərbaycanda 13 növünə rast gəlmək olar. Bunlardan ən qiymətlisi dərman zəncirotu-T.offisinahs hesab edilir.

Bitkinin elmi adı “Taraxacum” yunan ssözü olub, “göz xəstəliyi” mənasını daşıyır. Dərman zəncirotu hündürlüyü 20-50 sm olan yoğun,şaxəsiz, düyünlü, ətli əsas kökə malik çoxillik ot bitkisidir. Yerüstü gövdəsi yoxdur, lakin çoxlu kökətrafı rozet əmələ gətirən iri yarpaqlara malikdir. Yarpaqları forma və ölçülərinə görə bir-birindən kəskin surətdə fərqlənir. Qayıqvarı formalı yarpaqları tezliklə kökə doğru hərəkət edir. Bu xüsusiyyətlərinə görə zəncirotu bağayarpağını xatırladır. Kökətrafı yarpaqları novça rolunu oynayaraq, yağış sularını kökə doğru ötürüb, bitkini su ilə təmin edir. Çiçək oxu çılpaq, hündürlüyü 25-30 sm olub, yuxarısında diametri 3-5 sm olan tək halında qızılı sarı rəngli çiçəkləri səbət şəkilində yerləşmişdir. Aprel, may, iyun aylarında çiçəklənməyə başlayır. Payız avlarında yenidən çiçək açır. May-iyulda toxum verir, zəncirotu Azərbaycanda geniş yayılmışdır. Ona ən çox çöl, çəmən, yol kənarlarında, bağ və bağçalarda, meşə açıqlıqlarında, çınqıllı yamaclarda rast gəlmək olar. Zəncirotu yer kürəsində ən çox yayılan bitki sayılır. Bu bitkiyə kosmopolit bitki deyirlər. Zəncirotu başqa bitkilərlə birlikdə xalça əmələ gətirir. Düşdüyü şəraitə asanlıqla uyğunlaşır, mal-qara taptagına davamlıdır. Onu heç bir bitki sıxışdırıb məhv edə bilməz. Zəncirotu qiymətli və faydalı bitki sayılır. Zəncirotunun çiçəklərinin tərkibindən taraksantin-C40 N56 04, flavoksantin-C4Ö N56 03, lyutein, ksantofill C40 N56 02, violaksantin-C40 N56 02, karotinaidləri, triterpen spirti-adindol-C30 N50 02, faradiol və B1 B2 C vitaminləri və s. tapılmışdır, kökündən isə triterpen birləşmələri (alnulin, skimiol)-C30 N50 0, taraksasterol-C30 N50 0, psevdot raksaste- rol-C30 N50 0, B-amirin-C29 N48 0, B-sitostrein-C29 N50 0, stiqmasterin-C29 N48 0. Bundan başqa kökündən taraksol-C30 N46 03, 24%-40%-ə qədər inulin, 3%-kauçuk, piy maddəsi və s. aşkar edilmişdir. Çiçəklərindən 329-655 mq% s vitamini tapılmışdır. Kökünün tərkibindən 10,58 % kül, 12,90 mq/q-K, 6,40-Ca,

1,40-Md, 0,90-Fe mikroelementləri: 0,14 mkq/q-Mn, 0,64-Si, 0,79-Zn, 0,11-Co, 0,60-Mo, 0,35-Cr, 0,65-Al, 0,12- , 0,34-V, 1,50-Se, 0,39-m, 0,45-sr, 0,01-Pb, 0,06-1, 0,90-Br, 39,20-B mikroelementləri aşkar edilmişdir.

Zəncirotundan dərman məqsədləri üçün əsas kökündən, nadir hallarda isə yarpaqlarından istifad edilir. Bitkidən müalicə otu kimi çox qədim .zamanlardan istifadə olunmağa başlanmışdır. Belə ki, Abu-Əli Ibin-Sina təzə toplanmış bitkidən alınan şirə ilə göz xəstəliklərini, ilan dişdəmələrini, həşarat sancmalarını müalicə etmişdir. Zəncirotunun kök hissəsindən istifadə edən zaman onu payızın son aylarında yarapaqları sarılıb quruyan zaman və yaxud erkən yazda kökləri toplanıb, əvvəlcə kənar qarışıqlardan ayrılır, sonra süd şirəsi tamamilə süzülüb qurtarana qədər açıq havada 3-4 gün saxlanılır. Sonra onları soyuq su ilə təmiz yuyub xırda hissələrə doğrayır, həmişə mehvuran kölgəli açıq havada, ya da 40-60 dərəcə S temperatura malik xüsusi şkaflarda qurudulur. Yaxşı qurudulmuş kök hissəsinə əl ilə toxunduqda asanlıqla sınır və əzilir. Qurudulmuş köklərin yuxarı hissəsi qırmızımtıl qonur, daxili isə ağımtıl rəngə, iysiz, ağımtıl-şirin dada malik olurlar. Zərərverici nəşaratlardan qorunarsa qurudulmuş köklər öz keyfiyyətlərini 6 ilə qədər saxlayır.

Təbabətdə acıqovuq kökündən alınan qatı ekstraktlardan dərmanların tərkibində iştah artıran, həzm prosesini yaxşılaşdıran, qastritdə mədə turşuluğu azaldan, böyrək və öd yollarının nizama salınmasında geniş istifadə edilir. Aparılan tibbi eksperment zamanı aşkar edilmişdir ki, zəncirotunun kök və yarpağından hazırlanan tozdan qanda xollesterinin miqdarının azaldılmasında geniş istifadə oluna bilər. Məlumdur ki, zəncirotu preparatları mədəaltı vəzinin fəaliyyətinə müsbət təsir edərək insulin ifrazının artırılmasına şərait yaradır.

Tibbdə zəncirotunun cövhəri və dəmləmələrindən geniş istifadə edilir.

*Zəncirotu cövhərinin hazırlanması.* 1 çay qaşığı zəncirotu kökünü 1 stəkan qaynar suya töküb dəmləyir, alınan ekstraktı cunadan süzüb, gündə 3-4 dəfə stəkanın 1/4 miqdarında, yeməyə 30 dəqiqə qalmış qəbul edirlər.

*Zəncirotu çayının hazırlanması.* 3 çay qaşığı zəncrotu kökü götürün, 0,7 l qaynar suya töküb, 15-20 dəqiqə qaynadın, sonra soyudub, cunadan süzün, yeməkdən 30 dəqiqə qabaq gündə 3

dəfə 50-100 ml içmək məsləhət görülür.

Kökünün tozundan və qatı ekstraktından əczaçılıq sənayesində həblərin hazırlanmasında istifadə edilir. Xalq təbabətində zəncirotundan müalicə məqsədləri üçün daha geniş istifadə edilir. Belə ki, zənirotundan hazırlanan cövhərlərdən, dəri səpgilərində, çibanların, dəridə və sifətdə olan çillərin aradan qaldırılmasında, qızdırmanı salan, bəlğəmgətirici, qadınlarda südün artırılmasında, tərgətirici, həyat tonusunun artırılmasında və eləcə də qantəmizləyici vasitə kimi istifadə edilir. Bundan əlavə, zəncirotu preparatları böyrək və sidik kisəsində əmələ gələn daş və qumların parçalanıb orqanizmdən kənar edilməsində böyük rol oynayır. Cövhərindən vərəm və ekzemaya qarşı da istifadə edilir. Kök və yarpaqlardan hazırlanan dəmləmələrindən böyrək xəstəliyinə, sarılığa, yuxusuzluğa, eləcə də babasilə qarşı işlədilir. Zəncirotu kökünün tozunu balla qarışdırıb, üzərinə isti süd zərdabı qatılır və dəri ekzemları əleyhinə işlədilir. Zəncirotunun zərif yarpaqları erkən yazda vitaminlə daha zəngin olduğundan orqanizm üçün çox faydalı sayılır. Yarpağından nazırlanan salat növlərindən nəinki orqanizm vitaminlə təmin edir, hətta süd azlığında, böyrək xəstəliklərində, həzm prosesinin yaxşılaşdırılmasında, dəri xəstəliklərində, damarlarda duzun yox edilməsində müalicəvi vasitə kimi istifadə edilir. Bu cür salat növləri orqanizmdə həzm vəzilərinin fəaliyyətini artırır, həzmi normalaşdırır. Yarpaqlarının acılığını aradan qaldırmaq üçün onları suda 20 dəqiqə soyuq suda saxlamaq lazımdır.

Zəncirotundan hazırlanan mürəbbə öz rəngi və dadına görə balı xatırladır. Zəncirotu çiçəklərini sübh tezdən (saat 5-6-da açılır, gündüz saat 3-də yumulur), günəşli günlərdə toplamağı məsləhət görürlər. Dumanlı, yağışlı günlərdə çiçək tozcuğu nəmdən qorumaq üçün yumulur. Zəncirotu çiçəklərinin kimyəvi maddələr işlədilən sahələrdən və eləcə də yol kənarlarından toplamaq məsləhət görülmür.

Mürəbbə üçün ən iri və ləçəkləri çox olan çiçəkləri toplamaq lazımdır.

*Çiçəkdən mürəbbənin hazırlanması.* 1000 ədəd zəncirotu çiçəyinin 1 l qaynanmış suya tökür, üzərinə 2 kq şəkər tozu, 3 ədəd limon, 25 ədəd təzə albalı yarpağı əlavə edin. Sonra limonları sürtgəcdən keçirin, emalı qaba töküb üzərinə 1 l su əlavə edib, 15 dəqiqə qaynadın, sonra oddan götürüb 12-24 saat sax

layın. Alınmış qarışığı qatılaşana qədər qarışdırın, sonra alimi-num qaba töküb, yenidən od üzərinə qoyun. Su qaynamağa baş-layanda üzərinə şəkər tozu əlavə edib 2 saat (köpüyünü yığmaq şərtilə) qaynadın. Bu mürəbbə rənginə və qatılığına görə oalı xa-tırladır. Ona görə də ona “zəncirotu balı" da deyirlər. Alınmış mü-rəbbəni sterilizə edilmiş şüşə qablara doldurub, ağzını kip ortün, otaq temperaturunda saxlayın. Zəncirotu çiçəklərindən nektar da hazırlayırlar ki, buna da xalq arasında “günəş eliksiri” deyilir.

*Eliksirin hazırlanması.* Səhər tezdən zəncirotu çiçəklərini toplayın, 3 l-k şüşə balon, 1,5 kq şəkər tozu, təmiz taxta çubuq götürün. Sonra 1 lay çiçək, 1 lay şəkər tozunu taxta çubuqla əzib, yenidən 1 lay çiçək, 1 lay şəkər tozu tökün, üzərim çubuqla dö-yəcləyib şirəsini çıxarın. Əməliyyatı şüşə balon dolana qədər da-vam etdirin. Alınmış şirəni cunadan süzün. Ekstrakt qonur rəngə, cımtıl dada malik olur. Bütün qışı soyuq yerdə saxlayın. Şirədən 1 xörək qaşığı götürüb 50-100 ml suda həll edib yeməkdən 20-30 dəqiqə qabaq qəbul edin. Zəncirotu eliksiri iştahaçıcı, həzm yax-şılaşdırıcı və orqanizmin tonusunun (müqavimətim) artıran xüsu-siyyətə malik maddə sayılır.

Zəncirotundan alınan cövhərlərdən, dəmləmələrdən və şirə-lərdən kosmetika sahəsində geniş istifadə edilir. Fransada erkən yazda alınmış şirəsindən qanın tərkibinin yaxşılaşdırılmasında, sifətin rənginin açılmasında (şəfəqləndirilməsində) istifadə edi-lir. Almaniyada şirəsindən dəridə və üzdə olan çillərin müalicə-sində, Bolqarıstan və Polşada dəri xəstəliklərinin müalicəsində işlədilir. Fransada zəncirotunu salat bitkisi kimi əkib becərirlər. Xalq arasında onun kökündən kofeəvəzi kimi istifadə edirlər. Zəncirotunu hamı tanıyır. Zəncirotu toxumları asanlıqla yayılaraq artıb çoxalır. Belə ki, onun toxumları paraşüt formasında olub, kü-lək vasitəsilə asanlıqla üfürülərək havaya qalxıb uzaq məsafələ-rə uçurdur. Təbiidir ki, “paraşutçular öz funksiyalarını dəqiq yeri-nə yetirirlər”, toxumcuglar uçan zaman, tərpənmədən, çevrilmə-dən aşağı, torpağa doğru istiqamət alaraq əkinə hazır vəziyyət-də torpağa sancılır. Bir zəncirotu bitkisində 3 minə qədər toxum-cuq olur.

İnsanlar bu faydalı bitkiyə müxtəlif münasibət bəsləyirlər. On-lardan bir qismi zəncirotunu alaq otu hesab edir, bağ və bostan-lardan təmizləyib tullayır, digərləri dərman bitkisi kimi çoxaldır, bir qrupu isə nektarverən bitki kimi istifadə edir.

# *MOLLABAŞI (ÇOBANYASTIGI)-*
# *CHAMOMİLLA*

Dünya florasının tərkibində 50-ə qədər növü yayılmışdır. Bunlardan Qafqazda 3, o cümlədən də Azərbaycanda 2 növünə rast gəlmək olar.

Dərman, boyaq və kosmetika sahəsində istifadə olunan ən qiymətli növü isə adi çobanyastığı (mollabaşı)-Chamomilla recu- tita hesab edilir. Bu, hündürlüyü 15-60 sm-ə qədər olan kökü saçaqlı birillik ot bitkisidir. Gövdəsi dikduran, tək halda olub, əsası hissədən çox budaqlanandır. Yarpaqları növbəli ikər lələkvari- daraqvari şəkilində uzunluğu 5 sm, eni 1,8 sm olub qalxanvari iti qurtaracağı oturandır. Çiçəklərinin orta hissəsində boru şəkilli, kənar çiçəkləri 12-18 ədəd ağ ləçəklərdən ibarət olub, səbətdə gövdənin qurtaracağında toplanmışdır. Meyvəsi uzunsov qonurumtul-yaşıl rəngdə olub, azca yuxarıya doğru əyilən, 5 qabırğalı toxumcuqdan ibarətdir. 1000 ədəd toxumunun çəkisi 0,026- 0,053 q-dır. Bitki may-sentyabr aylarında içək açır, iyunda toxum verir. Bitkinin bütün hissəsi güclü ətirli iyə malikdir. Dil şəkilli çiçəkləri saat 4-də üfiqi istiqamət alıb açılır, saat 7-də bağlanır.

Adi çobanyastığı yabanı halda çəmənliklərdə, düzənliklərdə, meşəliklərdə, səhralıqlarda və quru yerlərdə bitir. Azərbaycanda Kür-Araz ovalıqlarında geniş yayılmışdır. Bundan əlavə buna çöllüklərdə, adi yolların kənarlarında da rast gəlmək olar.

Xalq arasında çobanyastığını, yabanı çobanyastığı, "qızartı otu", "roman otu", "ana otu" samyaqla qurtarmaz adlar ilə çağırırlar. Əsasən çiçək səbətindən istifadə olunur. Çiçək səbətinin tərkibindən 0,2-0,08% efir yağı tapılmışdır ki, əsas tərkib hissəsini xamazulen-014 N18 (göy rəngli qatı maye) təşkil edir terpen-C10 N15, 10%-ə qədər seskviterpen-C15 N24, 20%-ə qədər seskviterpen spirti C15N24O2 və C15 N26 02 kadein C15 N26 O həmçinin kamril, nonil və izavalerin turşuları təşkil edir.

Efir yağından başqa çiçəklərindən anenin-C26 N25 014 kversimetrin-021 N20 012, bu da hidroliz olunaraq kversetinə-C15

N10 05 və qlyukozaya çevrilir, pronamazuelen matrisin-C 17 N22 05, lakton qrupu-matrikarin-C17 N25 05 taraksasterol-C30 N50 0 xolin, fitosterin, salisil turşusu yağ turşuları, S vitamini, karo- tin, nitro, selik, acımtıl maddə və s. tapılmışdır.

Bundan əlavə çiçəklərinin tərkibindən 10,57% kül 41,80 mq/q K, 8,30-Ca, 3,10-Mg, 0,30-Fe makroelementləri; 0,29-Mn, mkq/q 0,78-Cu, 0,80-Zn, 0,16-Co, 0,09-Cr, 0,27-AI, 0,20-Ba, 0,08-V, 7,20-Se, 0,24-Ni, 0,12-Si, 0,07-rb, 0,07-1, 38,80-B mikroelement- ləri aşkar edilmişdir. Çobanyastığı ən qədim dərman bitkilərindən hesab edilir. Bunun müalicəvi təsiri haqqında məlumatı bizim eradan 23-79 il qabaq Böyük Pliniy öz əsərlərində qeyd etmişdir. Çobanyastığının cövhərləri ilə sakitləşdirici və qıcolmada işlədilməsi haqqında məlumatlara Hippokrat və Dioskoridin əsərlərində də rast gəlmək olur. Çobanyastığı orta əsr antiq dövrünün ən qiymətli məşhur dərman bitkisi sayılmışdır.

Hal-hazırda çobanyastığının dəmləmə və bişirməsi diş xəstəliklərində, boğaz ağrılarında və ağız nahiyyəsində əmələ gələn iltihablara qarşı antiseptik dərman kimi, tərlədici və spazma əleyhinə, köpün qarşısını alan gec sağalan yaralarda və eləcə də sakitləşdirici vasitə kimi işlədilir.

Boymadərən otu gülümbahar çiçəkləri ilə birlikdə mədə bağırsaq xəstəliklərində, spazmada, çox yaxşı müalicəvi təsir göstərir. Elmi təbabətdə çobanyastığından hazırlanan preparatlardan daxilə qəbul edilərək sakitləşdirici, bağırsaq spazmalarında, köpməyə, tərgətirici, işlədici, ağrı kəsici, soyuqdəymə əleyhinə, menstruasiya qarşı və s. işlədilir.

Çiçəklərindən hazırlanan cövhərlərindən mədə pozğunluqlarında, beyin qan damarlarının genişləndirilməsində, yoğun bağırsağın iltihabında, tənəffüsün yaxşılaşdırılmasında köpün qarşısının alınmasında, qaraciyər, böyrək, sidik kisəsi xəstəliklərində işlədilir. Çobanyastığından diş xəstəliklərində ağız və boqaz şişlərinin qarqara edilməsində, babasildə, düz bağırsaq qatlamalarında istifadə edilir.

Fransada çobanyastığının cövhərindən həzm pozğunluqlarında, yorğunluqda həddindən artıq məşğulluqda əmələ gələn hal- sızlıqda, kofe və tütünlərin xoş iyli olmasında, əhval-ruhiyyəsini pisləşdiyi dövrdə qəbul edilir.

Çobanyastığı bir çox dərman yığıntılarının tərkibinə daxildir.

Hal-hazırda istər ölkəmizdə, istərsə də bir çox xarici ölkələrdə çobanyastığı kosmetika sahəsində geniş tətbiq olunur.

Qədim dövrün həkimləri çobanyastığı ilə sifətdə olan xal, çillərin müalicəsində, göz xəstəliklərində mazından sürtkü kimi işlədilmişdir.

Çiçəklərindən hazırlanan cövhərdən üz dərisinin dizinfeksiya edilməsində, ona elestiklik və təravət verilməsində, dəri tonusunun artırılmasında, sifətdə olan piy yığıntılarının, ekzemaların, qoturun və s. müalicəsində istifadə edilir.

Çobanyastığı cövhəri qidalandırıcı və vitaminləşdirici kremlə- rin tərkibinə daxil edilir. Yorulmuş və qızarmış göz qapağını müalicə etmək üçün səhər və axşam çobanyastığı cövhəri ilə yumağı məsləhət görürlər. Çobanyastığını cövhərini spirt və qlisirinlə qarışdırıb, sifətdə olan tozu, çirki və təri yuyurlar. Qatı cövhəri ilə başı yuduqda tüklərin qızılı sarı rəngə çevrilməsinin şahidi olarsınız.

Çobanyastığının ekstraktından şampun, lasyon, sabun, maz və kremlər hazırlayıb, sifətdə, boyun nahiyyətələrinin dərisinə qulluq edilməsində istifadə edilir.

Bolqarıstanda çobanyastığı cövhəri vannasından ayaqlarda baş verən tərin qarşısını almaq üçün istifadə olunur. Polşada yanıqların, yaraların müalicəsində, tüklərin tökülməsinə qarşı işlədilir. Dünyanın 26 ölkəsində çobanyastığından müalicə və kosmetikada istifadə edilir. Dəridə olan qaşınmaların, gicişmələrin, ekzema, göbələk və səpmələrin qarşısını almaq üçün onun vannasından istifadə edilir.

Çobanyastığı xammalından likor, cövhər, vermut içkilərin tərkibinə qatılır.

Ondan spirtsiz içkilərin xoş ətirli iyə malik olmasında istifadə edilir.

Efir yağından ətriyyat və kosmetika sənayesində krem, diş paslalarının vətirli sabunların istehsalında Fransada isə çaxırların xoş iyli olmasında istifadə olunur.

Bundan ABŞ-da, İngiltərə, Fransa, Bolqarıstan ölkələrində müalicə çaylarının hazırlanmasında istifadə edilir. Çobanyastığından müalicə çayını hazırlamaq üçün 15 q quru çiçəyi 1 l qay-

nar suda dəmləyir, sonra 15 dəqiqə sakit halda saxlayır, üzərinə qaymaq əlavə edib, bal və yaxud şəkərlə birlikdə süfrəyə verirlər. Bu cür çayı yatmazdan 30 dəqiqə əvvəl qəbul etdikdə, dərin və şirin yuxuya qərq olursan. Latviyada çobanyastığından yığım çaylarını: yarpız, çobanyastığı, zirə (1:0,5:0,5) və yaxud gülüm- bahar, zirə çobanyastığı (1:1:0,5) nisbətində götürüb, hazırlayırlar.

*Boyaqotu-Rubia*cinsinin dünya florasının tərkibində 55-60-a qədər növü yayılmışdır. Bunlardan Qafqazda 4, Azərbaycanda isə 3 növü yayılmışdır. Bunlardan gürcü boyaqotu-Rubia iberica sərt yarpaq boyaqotu-R.rigidifolia, Zaqafqaziya boyaqotu-R.tran- scaucasica göstərə bilərik. Bu növlərin içərisində xalq təsərrüfatı üçün ən qiymətlisi gürcü boyaqotu hesab edilir. Gürcü boyaqotu-Rubia iberica (Boyaq çiçəklilər-fəsiləsi Rubiaceae). Bu çoxillik ot bitkisidir. Gövdəsi 3 metrə qədər olub, dırmaşandır. Çiçəkləri xırda, ləçəkləri sarı, meyvəsi qara, girdədir. Kök sitemi qol-bu- daqlı, əsas kök və kökümsovlardan ibarətdir.

Azərbaycanda gürcü boyaqotuna təbii halda dəniz səviyyəsindən başlayaraq 1000 m hündürlüyü qədər sahələrdə rast gəlmək olur. O ən çox Quba, Dəvəçi, Xaçmaz, Qusar, Şamaxı, Abşeron, Qazax, Ağdam, Lənkəran, Naxçıvan MR-da yayılmışdır.

Boyaqotu bitkisinin bizim eradan I əsr qabaq boyaqçılıq sənayesində istifadə etmək məqsədilə geniş surətdə əkib becərmişlər. Orta əsrdən başlanmış XIX əsrin sonu və XX əsrin əvvəllərinə kimi boyaqotunun çiçəklənən dövrü olmuşdur. Belə ki, bunu bu dövrlərdə bir çox ölkələrdə, o cümlədən Elzas, Hollandiya, Fransa, İngiltərə, Almaniya, Hindistan, Əfqanıstan, İran, Türkiyə, İspaniya, Portuqaliya, Monqolustan, Misir, İraq, Suriya və s. dövlətlərdə geniş surətdə əkilib becərilmişdir. Boyaqotu bu dövrlərdə bir çox ölkələrdə becərilməsi dayandırılaraq, yabanı hala keçərək, cırlaşmış, sonralar yenidən başqa-başqa dövlətlərin tabeliyinə keçirilərək yenidən əkilib becərilmişdir. Heç elə bir boyaq bitkisi tapılmaz ki, boyaqotu kimi məşhur və geniş ədəbiyyat məlumatına malik olsun. Çox nadir ölkə tapılır ki, boyaqotu haqqında məlumatları olmasın. Boyaqotunun kök hissəsindən əsasən xalçaçılıq sənayesində qırmızı rəng və onun çalarlarını alınmasında istifadə edilmişdir. Monqol və Hokasidə olan mədəniyyət

abidələrini tədqiq edərək alimlər belə nəticəyə gəlmişlər ki, boyaqotu kökü ilə boyanan yun məlumatlarının rəngi min illər keçməsinə baxmayaraq.olduğu kimi qalmışlar.

Plini göstərir ki, İtaliyada boyaqotu kökü ilə yun və dərilərin boyanmasında geniş istifadə etmişlər. Boyaqotunun Azərbaycanda da geniş surətdə əkilib becərilməsi haqqında bir çox ərəb tarixçi və tədqiqatçılarının əsərlərində rast gəlirik. Tarixi mənbələri araşdırarkən görürük ki, ərəb işğalçıları dövründə boyaqotu bitkisinin Azərbaycanda çiçəklənmə dövrü olmuşdur. Monqol işğalçıları dövründə də Azərbaycanda boyaqotunun geniş sahələri olması barədə ədəbiyyat mənbələrində rast gəlirik. Orta əsrlərdə isə boyaqotunun nisbətən əkn sahəsi azalmağa başlayır.

İbtidai feodal-kəndli təsərrüfatı zamanından başlanmış ta ki, XIX əsrin axırlarına qədər boyaqotu Azərbaycanda özünün yüksək inkişaf mərhələsinə gəlib çatmışdır.

Bu dövrdə Azərbaycanda yetişdirilən boyaqotu tərkibindəki boyaq maddələrinin keyfiyyətinə görə, dünya bazarlarında Qərbi Avropa ölkələrində becərilən boyaqotundan çox üstün sayılırdı. Bundan başqa Azərbaycan boyaqotusu Kiçik Asiya və Hind ölkələrində becərilən boyaqotundan üstün sayılırdı.

Qərb ölkələri XVII əsrdə boyaqotu kökü ilə pambıqdan hazırlanmış kumaç məmulatların boyanmasında geniş istifadə etmişlər. Bu boyama üsulu XVII əsrə qədər Avropa ölkələri xalqlarından gizli saxlanmışdır. XIX əsrin əvvəllərində isə Yaxın Şərq ölkələri pambıq-kumaç məlumatlarının boyama üsullarının sirrlərini öyrənməyə səy göstərmişlər.

Rusiyada isə boyaqotu bitkisinin kökü I Pyoturun dövründə Qafqazdan yığılırdı.

Bu dövrdə Moskvada şəhəri və onun ətraflarında yerləşən boyaq fabriklərini boyaqotu köükü ilə Arotopopov və Qryaznov tacirləri təmin edirdilər. Bu iki tacir Moskva şəhərinə o qədər boyaqotu gətirirdilər ki, hətta 1720-ci ildə orada boyaq köklərini üyütmək üçün ilk zavod tikilmişdir. Bu tacirlər dövlətə söz vermişlər ki, onlar ölkəni boyaq kökünə olan ehtiyacını tamamilə ödəyəcəklər. Daha bundan sonra xaricdən gətirilən boyaq kökünə ehtiyac qalmayacaq. Birinci Pyotur qərar vermişdir ki, boyaq otunu Qafqazdan başqa Astraxan Orenburq, Saratov, Penza, Simbirs-

ki, Kursk, Ukrayna, Novorosiyski və cənubi Polşa sahələrində əkilib becərsinlər.

Boyaqotunu geniş sahələrdə əkilib becərilməsi haqqında çıxarılan dövlət qanununa baxmayaraq, onun göstərilən rayonlarda əkilib becərilməsi çox ləng gedirdi.

Boyaqotunun əsas becərilən mərkəzi Şimali Qafqazda (Dərbənd) Zaqafqaziyada isə (Azərbaycan) hesab edilirdi. XIX əsrin ortalarında Nijeqorod yarmarkasına hər il Qafqaz və Zaqafqaziyadan çoxlu miqdar üyüdülmüş boyaqotu kökü gətirilib satılırdı.

XIX əsrin əvvəllərində Azərbaycanda becərilən boyaq kökü özünün keyfiyyət və boyaq maddəsinin miqdarına görə başqa ölkələrdə becərilən boyaq köklərindən üstün sayılırdı.

Akademik A.S.Sumbatzadə 1958-ci ildə qeyd edərək göstərir ki, 1860-cı ildə Azərbaycanın Quba qəzasında 50 min puta qədər boyaq kökü tədarük olunmuşdur. 1861 -1869-cu ilə kimi isə Quba qəzasından 200 min puta qədər boyaq kökü təöarük olunaraq dövlətə satılmışdır.

Bu dövrdə Azərbaycanda becərilən boyaq kökü bütün dünyada məşhur idi. Belə ki, 1857-ci ildə Londonda təşkil olunmuş ümumdünya sərgisində Allahqulu Hacı oğlu və Cəfər Hacı Məmmədyar oğlu tərəfindən Quba qəzasından gətirilib nümayiş etdirilən boyaq kökü fəxri fərman və medallarla təltif olunmuşdur.

1862-ci ildə yenidən London şəhərində təşkil olunmuş sərgidə Azərbaycandan gətirilən boyaq kökünü nümayiş etdirən Qa- zixan Mustafa oğlu ilə Mustafa Qaramirzə oğlu fəxri fərmanla, Hacı Cavad Əlibəy oğlu isə yüksək keyfiyyətli boyaq kökü yetişdirdiyi üçün fəxri fərman və qızıl medala layiq görülmüşdür.

XIX əsrin 60-cı illərinə qədər boyaq kökü qırmızı rəng almaq üçün ən çox işlədilən bitki idi.

1868-ci ildə Almaniyada Qrebe və Liberman tərəfindən aliza- rinin süni surətdə alınması üsulu tapıldıqdan sonra boyaq kökünün qiyməti böyük sürətlə aşağı düşməyə başladı.

1841-ci ildə kimyagər N.Zinin tərəfindən anilinin alınması isə boyama sənətində birinci böhrana səbəb oldu.

Alzarin ilə boyama boyaq bitkisinə nisbətən rahat və ucuz başa gəlirdi. Çünki boyaq bitkisi ilə rəngləmə çox vaxt və diqqət tələb edirdi. 1871 -ci ildə dövlət tərəfindən alizarin boyalarının sa- '

tılmasına başlandı. Məlum olduğu üzrə, 1872-ci ildə xüsusi fabrikalarda anilin rəngləri meydana çıxır. Onların ucuz olması, rənglərinin əlvanlığı tezliklə təbii boyaqların aradan çıxmasına səbəb oldu.

Alizarin və anilin maddələrinin ucuz və boyama prosesinin asan olması onların tez yayılmasına səbəb oldu.

Qeyd etmək lazımdır ki, bu kimyəvi boyaqlar təbii boyaqların verdiyi möhkəm rəngi verə bilmirdi. Lakin bunun sənaye üçün heç bir əhəmiyyəti yox idi. Bunlar tez bir zamanda boyaq kökünə qələbə çalaraq, onu məişət və təsərrüfatdan çıxartdı. Belə ki, 1873-cü ildən etibarən boyaq kökünə olan tələbat tamamilə kəsildi və həmin ildə Qafqazda boyaq kökü məhsulu toplanmamış qaldı.

M.D.İsayev göstərir ki, o dövrdə Qarabağda,Talışda və Ermənistanda toxunan qədim xalçaların bütün fonu qırmız və qırmızla (koşenilə M.Q.) boyaq kökünün qarışığı ilə boyanmış iplərdən toxunurdu.

Biz boyaqotunun əkilib becərilməsi haqqında da maraqlandıq. Yaşlıların söylədiklərindən aydın olur ki, o dövrdə boyaqotu- nu necə də məharətlə əkib becərmişlər. Becərməni aşağıdakı qaydada aparırmışlar.

Boyaqotunu cərgə üsulu ilə bir-birindən 1,5 metr aralı əkirmişlər. Cərgələrarası şırımları kifayət qədər dərin edirdilər ki, heç olmasa suyun aradan axıda bilsinlər. Birinci suvarmanı səpindən sonra, qalan 2-3 dəfə suvarmanı isə bütün yay boyu aparırmışlar. Əkilmiş sahədə birinci ildə bitkinin alaq otlarını təmizləyir, ket- manla ehtiyatla dibini boşaldırlar. İkinci ili isə alaq otlarından təmizləməklə, dibini boşaldır. Bundan əlavə 2 dəfə yaz döründə, 2 dəfə yay ərzində suvarma işləri aparırlar.

Üçüncü ili isə bitki normal hündürlüyə malik olduğuna görə alaq otlarından təmizlənmə işləri lazım gəlmir, ancaq yumşaltma işləri aparılır. O qədər keyfiyyətli yumuşaltma işləri aparılırdı ki, boyaqotu sahəsi bütün il boyu nəmli halda qalırdı. Hərgah üçüncü ili hava çox quru keçməzsə, onda bir dəfə suvarma isləri aparılır. Suvarmanı yayın ortalarında, bitki çiçək açan dövrdə aparırlar. Həmin ilin payızında əkin üçün bitkinin toxumunu yığmağa başlayırlar. Dördüncü ilin mart ayında isə bitkinin kökünü qazıb '

çıxarırlar. Əkin sahəsində isə çox nazik kökləri saxlayırlar ki, Nonrakı illər onlar inkişaf edib, yenidən bərpa olunaraq əsas ana kökü əmələ gətirirlər ki, dörd il keçdikdən sonra onları təkrarən ledarük edirlər. Bu proses hər dörd ildən bir baş verir. Bitkinin kök hissəsi toplanıb sahədən kənar edildikdən sonra üç dəfə suvarma işləri aparılır. Bir dəfə yazda, iki dəfə isə yayda aparılır. Yerdə qalan nazik köklər isə sonrakı illər inkişaf edib, ana kökü »mələ gətirirlər ki, bunu da sonralar yenidən təkrarən dördüncü İli tədarük edirlər. Boyaqotu əkilən sahədən 10-12 dəfə məhsul götürülür. Toplanan məhsulun miqdarı 10-12 dəfə məhsul götürülür. Toplanan məhsulun miqdarı 10-12 dəfədən sonra azalmasına baxmayaraq, boyama keyfiyyəti olduğu kimi qalır. Qazılıb çıxarılmış kök hissələri doğranmaqdan qabaq qurudur, kiçik hissələrə salır və boya məhsulu alırlar. Çox vaxt isə qazılıb çıxarılan boyaq köklərini atmosfer və günəş şüalarından qorumaq üçün onu çardağın altında meh vuran sahələrdə sərib qurudurmuşlar. Qurutma müddəti isə 1,5-2 ay çəkir. Qurutma o vaxta qədər davam edir ki, ona toxunduqda əl ilə asanlıqla sınsın.

Boyaqotu ilə məşğul olanların öz təcrübələrinə əsasən söylədikləri məlumatlara görə bu cür qurudulmuş boyaqotu kökünün boyama qabiliyyəti aşağı olurdu. Ona görə də boyaqotunun kökünün qurutmağın başqa üsullarını öyrənib axtarmağa başladılar. Belə ki,boyaqotu əkilən sahələrin ətrafında eni 1 metr, dərinliyi isə 2 metrə qədər olan boçka formalı quyular qazırdılar. Toplanmış kökləri torpaqdan təmizləyib, dəstə-dəstə edib, quyunun yanına düzürmüşlər. Sonra quyuya odun töküb, yandırır. Yandırmanı o vaxta qədər davam etdirirlər ki, quyunun gil hissəsi tamamilə qızarmış olsun. Elə ki, quyunun bütün hissələri qızardı, yandırma dayandırılır və közün tamamilə yanıb sönməsi gözlənilir. Elə ki, közlər tamamilə yanıb söndü, bu vaxt quyunu ağzına qədər boyaqotu kökü ilə doldurub, üzərinə su çiçəyir, qapaqla örtür, üzərinə keçə salıb, torpaqla örtərək üç günə qədər saxlayırlar. İki gündən sonra quyu tamamilə soyuyur. Üçüncü günün səhərisi quyunun ağzını açaraq, bayaq köklərini oradan çıxararaq, qabaqcadan müəyyən edilmiş sahələrə günəş altına sərib 2-3 dəfə qarışdırıb, xüsusi meh vuran çardaqların altına yığırlar.

Sonra təkrarən boyaq köklərini quyuya doldurub, yuxarıdakı '

əməliyyatları yenidən təkrar edirlər. Bu üsulla 3-4 həftə ərzində sahədən toplanmış boyaqotu köklərini qurudaraq, xüsusi anbar-lara yığıb, boyaq işləri üçün lazım gəldikcə istifadə edirdilər. Kök hissəni qurudub başa çatdırdıqdan sonra onun üzərində bir çox əməliyyatlar aparılırdı.

Belə ki, kök torpaqdan təmizlədikdən sonra onu xarici mantar qatdan azad edirdilər. Kökü xarici mantar qatdan azad etdikdən sonra onu sadə çəltik dinginə töküb əl ilə döyür, boyaq maddələri ilə zəngin olan qatdan ayırırdılar. Bəzi hallarda isə xirman düzəldib, camışlar vasitəsi ilə boyaq maddələri ilə zəngin qabığı əzib çıxarırdılar. Boyaqla zəngin qabığı ayırıb çıxartdıqdan sonra, piqmenti az olan şilindir qat qalır.

Sonra boyaq maddələri ilə zəngin olan qatı daş dəyirmanlarda üyüdərək narın un şəkilinə salıb, ondan boyaq məhlulu hazırlayıb, qumaş-(pambıq) parçaları al qırmızı rəngə boyayırdılar. Sonra bu boyaq ekstraktı ilə ipək və yun məmulatlarının boyan- masında da geniş istifadə olunurdu.

Bazara üç sort boyaq çıxarılırdı. 1-ci sort qabıq hissədən ha-zırlanmış boyaq, 2-ci sort şilindir hissədən hazırlanmış boyaq, 3- cü sort isə üyüdülmüş boyaq qalıqları ilə mantar qatdan hazırlanmış qatışıq daxil idi.

Süni boyaların kəşfi ilə əlaqədar olaraq, boyaq köklərinə olan tələbat azaldığına görə boyaq otunu sortlara ayırmadan birbaşa üyüdüb, aşağı keyfiyyətdə bazara çıxarıb satırdılar.

Müharibədən qabaq, Quba qəzasından tədarük olunan boyaq köklərini üyütmək üçün buxar dəyirmanlarından istifadə edilirdi. Buxar dəyirmanlarında üyüdülmüş boyaq aşağı keyfiyyətə malik olduğundan, fars sifarişçiləri daş dəyirmanda üyüdülmüş boyağa daha çox həvəs göstərirdilər.

Çünki buxar dəyirmanında üyüdülən boyaq çox qızdığından onun rəng vermə keyfiyyəti aşağı olurdu.

O zaman texnika çox aşağı səviyyədə olduğundan boyaq kökü üyüdülən zaman çoxlu itkiyə yol verilirdi. Məsələn 20 pud boyaq kökünü üyüdən zaman 4 pudu itkiyə sərf olunurdu. Yəni 20%-i itkiyə yol verilirdi. İtkinin qarşısını almaq üçün axırıncı vaxtlar boyaq kökünün üzərinə neft çiləyib üyüdürdülər.

1940-1950-ci illərdə boyaq bitkisi əkilən sahələr başlı-başına

buraxılmışdır. Bu dövrlərdə xüsusi adamlar gedib, yabanı hala düşmüş boyaqotu kökünü yığıb xüsusi boyaqçılara satırdılar. Bu /aman boyaq kökünü aşağıdakı üsulla sortlara ayırırdılar. Mart-aprel ayında toplanan kök 1-ci sort, yanvar-fevralda toplanan kök Ise 3-c sort hesab edilərək xüsusi təyin olunmuş qiymətlərlə satılırdı. Toplanma vaxtından asılı olaraq boyaqotunun kökündə bo- e miqdarı artıb-azalır. Qış dövrlərində toplanmış boyaq kö- ?n təmiz qırmızı rəng almaq olmurdu.

1950-ci illərə qədər bazarlarda satılan boyaq kökü sortlara ayrılmırdı. Onu ya kökləri hissələrə bölünmüş halda (kök boyağı), ya da "üyüdülmüş boyaq" adı altında satırdılar.

## *Boyaqotunun Biologiyası və aqrotexnixası*

Boyaqotunun toxumları 8-10 dərəcə temperaturda cücərməyə başlayır. Ən normal temperatur isə 20-25 dərəcə hesab olunur.



Toxumlar sahəyə səpildikdən sonra 5-10 (15) gündən sonra cücərməyə başlayırlar. Əlverişli olmayan hava şəraitində isə 30-40 gündən sonra cücərti verir. Cücərtilər yaz şaxtalarına və quraqlığa qarşı çox dözümsüzdürlər. Kök və kökümsovları isə 18-20 dərəcə şaxtaya davam gətirir. Vegetasiya dövr çox uzun olub, 140-160 gün davam edir. Birinci ili çox az meyvə verir. Sonrakı illər isə meyvəvermə qabiliyyəti artmağa başlayır. Hamaşçiçəyinin əmələ gəlməsi 10-12 gündən sonra, kollanması isə 30 ündən sonra əmələ gəlməyə başlayır.

Çiçək və meyvə əmələ gətirməsi 65-70 gündən sonra baş verir. Boyaqotunun təbii halda toxumları öz-özünə töküldüyündən, yetişən dövrdə hər bitkinin üzərində 15-25% toxum qalır.

Boyaqotu bitkisi üçün ən yaxşı sələf gübrələnmiş payız taxıl bitkilərinin əkin sahələri və yaxud erkən yazda yetişən yem, tərəvəz və texniki bitkilərin sahələri hesab olunur. Boyaqotu bitkisi yüngül, orta dərəcəli şumlanmış torpaqlarda yaxşı inkişaf edərək bol məhsul verir.

Boyaqotu əkilən sahəni 27-30 sm dərinliyində şum apardıqdan sonra üzvi və mineral gübrələrlə qidalandırırlar. Belə ki, hər hektar sahəyə 20-30 ton peyin və yaxud 45 kq №-2, 60 kq F, və 60 kq K gübrələri verməyi məsləhət görürlər.

Toxumu yazda torpaqda temperatur 6-8 dərəcə olduqda əkməyə başlayırlar. Toxumları qida sahəsi 45x60 sm aralı olmaqla 3-5 sm dərinliyində əkib becərirlər. Hər hektar sahəyə 15-20 kq toxum səpməyi məsləhət görürlər.

Boyaqotunu kökümsovları ilə artırıb çoxaltdıqda isə onu 6-8 sm uzunluğunda kəsib ehtiyatla 8-10 sm dərinliyində qazılmış yuvalara bir-birindən 10-15 sm aralı olmaqla qoyulur və dibini dolduraraq əkirlər. 20-30 gündən sonra gərgələr arası sıx şəkildə cücərtilər əmələ gəlir. Bu zaman cərgələr arasında əmələ gələn alaq otları təmizlənir, 3-4 dəfə mexanizm vasitəsilə cərgələr arası kultivasiya işləri aparılır. İkinci ilin yazında isə sahə məhv olub qalmış bitkilərdən təmizlənir, vegetasiyanın başlanğıcında isə nəmliyi saxlamaq üçün malalama işləri aparılır. Hər sahəyə 30 kq azot və fosfor kübrələri verilir. Boyaqotunun köklərini ya payızın axırlarında və yaxud erkən yazda hələ cücərmişdən qabaq toplayırlar.

Toplamaqdan əvvəl bitkinin yaşıl hissəsini mal-qara çün biçib götürürlər. Kök və kökümsovları kotanla qazıb çıxarır, silkib torpaqdan təmizləyir, axar soyuq suda və yaxud xüsusi yuyucu barabanlarda yuyub, 45-50 dərəcəli temperaturda quruducu şkaflarda qurudurlar.

3-4 illik boyaqotunun hər hektarından 4 sentnerdən, 10-12 sentnerə qədər quru kök məhsulu, 0,3-3,4 sentnerə qədər isə toxum əldə edirlər.

# *Xalq təsərrüfatı və tibbi əhəmiyyəti*

Biz yuxarıda qeyd etdik ki, boyaqotu köklərindən ta qədim zamanlardan başlamış XIX əsrin axırları və XX əsrin əvvəllərinə qədər pambıq, ipək və yun məmulatlarının qırmızı rəng və onların çalarlarına boyadılmasında geniş surətdə istifadə olunmuşdur.



Bunun kökündən alınan boyaq maddələrindən rəssamlıqla, keramikada, abidələrin və eləcə də mebellərin rənglənməsində də istifadə olunmuşdur.

Aparılan elmi-təbqiqat işlərinin nəticəsində elmə məlum olmuşdur ki, boyaqotunun kök və kökümsovuunun tərkibində üç rəng verən boyaq qlyukozidi: alizarin-qluykozid, (ruberitrin turşu- su)-C26 N28 04, bu da xüsusi enzim maddəsinin təsiri ilə parçalanaraq rubinaz, alzarin-C14 N8 04 dekstroz şəkərinə bir də hələ təmiz halda əldə olunmayan purpurin qlyukoziinə çevrilir. Purpurin qlyukozid isə purpurin (yəni 3-oksiantraxinona) və dekstroz şəkərinə çevrilir. Boyaqotunun kök hissəsinin əsas rəng verən maddəsi qırmızı rəngdə olan alizarin maddəsindən, həmçinin yaşıl piqment olan xloroqenin (rubixlor turşusuna oxşar) maddədən ibarətdir. Bunun qurudulmuş kök hissəsinin tərkibində 10%-ə qədər boyaq maddəsi tapılmışdır. Bundan başqa kökünün tərkibindən alma və üzüm turşusu, pektin, enzim, pentoza, zülali maddə və az miqdarda yağ maddəsi tapılmışdır. Kökünün tərkibində 14-15%-ə qədər şəkər maddəsi vardır. Boyaqotu bitkisinin köklərindən əsas ikinci dərəcəli “kran spirtinin” tapılması da xüsusi elmi əhəmiyyət kəsb edir.

Boyaqotunun kökləri hələ eramızdan əvvəl qədim Misirdə, İranda, Romada, Yunanıstanda nəinki rəngsazların, eyni zamanda təbabətlə məşğul olanların da nəzərini cəlb etmişdir. Boyaqotunun dərman xüsusiyyətləri haqqında Hippokrat, Dioskorid, sonralar isə Halen öz əsərlərində dönə-dönə qeyd etmişlər. Onlar boyaqotunun köklərindən hazırlanmış preparatları böyrək xəstəliklərində, sarılıqda, raxit xəstəliyində, tuberklyozda, irinli yaraların sağaldılmasında işlədirlər. Bundan başqa kök hissədən alınmış cövhərlə (məlhəmlə),sınmış və çatlamış sümüklərin birləşdirilməsində də geniş istifadə olunmuşdur. Boyaqotu bitkisinin kökləri Tibet təbabətində də çox işlənmişdir. Tibetin təbabət alimləri Monqolustan və Buryatiya çəmənliklərinə gəlib oradan boyaqotu köklərini toplayıb aparırdılar. İndi boyaqotu kökləri təsdiq olunmuş dərman bitkiləri sırasına daxildir.

Tibb aləmində boyaqotu köküncən hazırlanmış ekstraktdan, həbdən və çaydan istifadə edilir. Ekstraktı böyrək daşı xəstəliyində işlədirlər. Ö, daşı parçalayır, bəzən də xəstəni daş xəstəliyindən tamamilə azad edir.

Professor V.P. Maxlyuk göstərir ki, boyaqotu kökünün həlimi HİDik və odqovucu spazmanın qarşısını alan dərman kimi yaxşı tosir bağışlayır. Bu cür preparat bir sıra duzların həll edilməsinə və onların orqanizmdən çıxarılmasına kömək edir. Boyaqotu preparatları xalq təbabətində də böyrək və öd daş xəstəliyində işlədilir. A.LŞreter göstərir ki, boyaqotunu uşaq evində iltihabı oradan qaldıran, qan dövranını sürətləndirən, hərarəti azaldan, oynaqlarda şiş əmələ gəldikdə, sümük və əzələlərdə ağrılaş baş verdikdə ağrıları azaldan, boğaz nahiyyəsində iltihab və şiş əmələ gəldikdə, ilan dişlədikdə, ishalda və başqa xəstəliklərdə orqanizmə qüvvət verən bir dərman kimi də işlətmək olar. Boyaqotu kökündən dəmlənmiş çayı qan təzyiqi artdıqda, qara ciyər xəstəliyində və ağrını kəsmək məqsədi ilə istifadə edirlər. Çin, Hindistan və Tibet təbabət mütəxəssisləri boyaqotu kökünün yaman şişlərin müalicəsində çox işlədirlər. Boyaqotu kökünün ekstraktı keçmiş SSRİ klinikalarında sınaqdan keçirilmiş və böyrək, öd daş xəstəliklərinin müalicəsi üçün icazə verilmişdir.

Orta Asiya respublikalarında xalq təbabətində boyaq otu kökündən dəmlənmiş halda sarılıq xəstəliyini müalicə etmək üçün və hafizə zəiflədikdə işlədirlər. Boyaqotu kökünün tərkibində qırmızı rəngli qlükozid maddəsi olduğundan o, böyrəkdə olan daşı yumuşaldır.

Müalicə məqsədləri üçün boyaqotu kökündən aşağıdakı kimi istifadə etmək olar: 1 çay qaşığı miqdarında doğranmış boyaq otu kökü 1 stəkan qaynanmış soyuq suda 8 saat müddətində dəmlənir, tənzifdən süzülür, stəkanda qalan köklərin üstünə bir stəkan qaynar su tökülməklə 15 dəqiqə dəmlənir, yenə tənzifdən süzülür. Sonra hər iki maye qarışdırılır. Bir gün müddətində hər dəfə yarım stəkan miqdarında gündə dörd dəfə daxilə qəbul edilir. Boyaqotunun kökü güclü sidikqovucu xassəyə malik olduğu üçün onu çox işlətmək olmaz. Böyrək daşı xəstəliyində boyaqotu kökünü işlədən şəxslər bunu ancaq həkimin icazəsi ilə edə bilərlər.

Təsadüflə qeyde tmək lazımdır ki, boyaqotunun ehtiyatı respublikamızda xeyili azalmışdır. Unutmaq olmaz ki, boyaqotu mülafizə olunan bitkilər sırasına daxildir. Hal-hazırda boyaqotu bitkisi Azərbaycanın heç bir yerində əkilib becərilmir. Azərbaycan xalçalarının keçmiş şan-şöhrətini özünə qaytarmanq üçün bu

qiymətli bitkinin geniş sahələrdə əkib-becərmək lazımdır.

*Nar (Punica granatum)adətən* 1-5 m və bəzən 10 m hündürlükdə kol və ya ağacdır. Hamar, parlaq, qalın qabıqlı və uzunsov- lanset şəkilli yarpaqları var. Yarpaqları qarşı-qarşıya düzülmüş, yaşılımtıl-boz rəngdədir. Tikanla örtülmüş cavan budaqları yaşıl- boz, yaşlı budaqları isə sarımtıl-boz rəngdə olur. Tək-tək yerləşmiş parlaq qırmızı rəngli gözəl çiçəkləri diqqəti cəlb edir. Meyvəsi xaricdən al-qırmızı rəngli bərk qabıqla örtülmüşdür. Meyvəsinin forması kürə şəklində olub, içərisində çoxlu miqdarda nar dənəsi var.

Nar qədim meyvə bitkisidir. Qazıntılar nəticəsində bu bitkinin daşlaşmış budaq, yarpaq və habelə toxumları tapılmışdır. Qədim insanların şüurlu həyatının ilk dövrlərində narın meyvələri özünün yüksək qida keyfiyyətinə görə onların qidalanmasında əsas yer tutan taxıl və bal ilə bərabər qiymətlənirdi.

Bizim eradan beş əsr əvvəl nar haqqında məlumat verilir. Botanika elminin banisi, yunan filosofu Teofrast eramızdan 350 il əvvəl yazdığı əsərlərdə nar bitksini geniş təsvir edir. Yunan təbibi Hippokrat birinci olaraq narın tibbi əhəmiyyətindən danışırdı. O, narın şirəsini mədə xəstəliyinə qarşı, qabığını isə ishal xəstəliyində və yaraların sağalmasında istifadə edirmiş. Yunan əfsanələrində nar haqqında nağıllar da mövcuddur. Yunanlarda belə bir adət varmış; yeni evələnənlərin ayaqiarı altına narın meyvələri atırmışlar. Şərq ölkələrində müqəddəs yerlərin bəzənməsi işində nar bitkisindən istfifadə edirdilər.

Nar istiyə olduqca tələbkar bitkidir. Ona görə də onun becərilməsi ilə dünyanın isti ölkələrində geniş miqyasda məşğuldurlar. Əfqanıstanın nar sortları özlərinin məhsuldarlığı və yüksək keyfiyyəti il iyi nə görə dünyada böyük şöhrət qazanmışdır. Nar İranda əsl xurma və üzümlə birlikdə becərilən qiymətli meyvə bitkisidir. İranda nar bitkisinin ebecərilməsi ilə başlıca olaraq Xorasanda, Tehranda və Şirazda geniş sahələrdə məşğuldurlar.

Respublikamızda yabanı halda nar kolluqları geniş sahələr tutur. Lənkəran və Astara rayonlarında yabanı bitən nar kolluqlarının mabədi İranda davam edir. Yabanı nar kolluqları Orta Asiya respublikalarında, Krımda, Gürcüstanda, Dağıstanda da mövcuddur. Narın vətəni Azərbaycandır. Nar Azərbaycan xalqının ta qədimdən sevdiyi və becərdiyi meyvə bitkilərindəndir. Yabanı nar

kolluqları ilə yanaşı, Azərbaycanın özünə məxsus, xalq seleksiyasının məhsulu olan qözəl, yüksək keyfiyyətli, 'məhsuldar yerli nar sortları var. Hazırda bağlarda becərilən nar sortları vaxtilə bağbanlar tərəfindən meşələrdən gətirilib mədəni hala salınmış formalardır.

Respublikamızın Göyçay, Ucar, Kürdəmir, Ağsu, Xaldan, Ağdaş, Ağdam, Tərtər, Xanlar, Şəmkir rayonlarında və Abşeron yarımadasında nar bitkisinin yüksək keyfiyyətli sortları yetişdirilir.

Nar bitkisinin xalq təsərrüfatında böyük əhəmiyyəti var. Bir sıra meyvə bitkilərindən fərqli olaraq nar bitkisinin ayrı-ayrı hissələrindən müxtəlif məqsədlər üçün daha geniş istifadə edirlər.

Nardan meyvə, dərman, boyaq, aşı, texniki, bəzək və qismən bal verən bitki kimi istifadə edilir. Narın meyvələrini əhali yetişmiş halda çərəz kimi yeyir, konserv zavodlarında onlardan müxtəlif konserv məmulatı hazırlanır.

Nar meyvələrinin tərkibinə daxil olan maddələrin miqdarı onun sortundan, yetişdirildiyi iqlimin şəraitindən və bağlarda tərtib olunan aqrotexniki tədbirlərin keyfiyyətindən asılıdır. Nar işi- rəsinin tərkibində 76-78% su, 14-21% şəkər, 3% yağ: 3-4% turşu, 1,5% protein olur. Normal böyümüş meyvələrdən 75% şirə alınır.

Quru subtropik iqlimə malik olan rayonlarda becərilən narların tərkibində şəkər çox, rütubətli subtropik iqlimdə becərilən həmin narların tərkibində isə az olur.

Nar bir sıra meyvə bitkilərindən fərqlənərək uzun müddət çiçəkləyir. Bu bitkinin çiçəklənməsi may ayından başlayaraq avqust ayının axırınadək davam edir. May ayında açılmış çiçəklərdən əmələ gəlmiş meyvələrdə şəkər çox, turşu az, iyun, iyul aylarında açılmış çiçəklərdən əmələ gəlmiş meyvələrdə isə şəkər az, turşu çox olur.

Narın sortlarından asılı olaraq ondan alınmış şirənin tərkibində 4,4%-dən 21%-dək şəkər, 0,2%-dən 4%-dək turşu olur. Cır narın şirəsində 3,2%-dək şəkər, 14%-dək limon turşusu olur.

Azərbaycanda turş narın şirəsindən narşərab adlanan qatı şirə hazırlanır ki, bu da ədviyyə kimi ətdən və balıqdan hazırlanmış müxtəlif yağlı yeməklərdə işlədilir. Nar şirəsi ilə qatı üzüm şirəsini qarışdırıb nardanca alırlar. Nardanca Qafqaz əhalisi arasında,

xüsusilə Gürcüstanda məşhurdur. Narın meyvələrindən alınmış şirə müxtəlif qənnadı məmulatlarını rəngləmək, spirtsiz içkilər və qazlı sular hazırlamaq üçün istifadə edilir. Narın meyvələrindən yüksək keyfiyyətli, çəhrayı, tünd albalı; təbii sirələr hazırlayırlar. Nar şirəsi orqanizmin susuzluğunu yatırır. Narın şirəsindən və toxumlarından alınan yağdan kosmetikada geniş istifadə edilir.

Nar qabığının müalicə əhəmiyyəti onun tərkibinə daxil olan alkoloidlə bağlıdır. Axır vaxtlarda narın yarpaqlarında da alkoloidin olması müəyyən edilmişdir.

Xalq təbabətində yaranı sağaltmaq üçün nar meyvəsinin quruduomuş qabığını narın döyüb yaraya səpirlər ki, bunun da nəticəsində yara sağalır. Yaranı qabığın tərkibindəki aşı maddəsi sağaldır. Qədim vaxtlarda nar şirəsini qaynadıb bal ilə qarışdıraraq, ondan burunda əmələ gələn polip və habelə babasil xəstəliyinin müalicəsində istifadə edirdilər. Narın meyvəsinin qabığında 56,2% su, 24,4% büzüşdürücü (aşı) maddəsi var. Şirin meyvələrinin qabığında aşı maddələri az, turş narlarda isə çoxdur. Nar bitkisindən texniki məqsədlər üçün istifadə edirlər. Narın meyvə, kök, gövdə və budaqlarının qabağında büzüşdürücü və rəngverici maddələr var. Şərq ölkələrində olduğu kimi Azərbaycanda da tə qədim zamanlardan XIX əsrin axırları və XX əsrin əvvəllərinə kimi nar qabığından alınmış boyaqla yun, ipək və pambıq ip və sapları boyayıb çox gözəl, parlaq və solmaz rəng və çalarlar almışlar. Gön və dəriləri aşılayıb möhkəmlətmək məqsədi ilə nar meyvəsinin qabığından geniş istifadə olunur. İsitməli adamlara nar şirəsinin içilməsi məsləhət görülür. Nar şirəsi orqanizmdə iştah əmələ gətirir, müxtəlif yeməklərin asan nəzm olunmasına kömək edir.

Qidada S vitamininin çatışmazlığı nəticəsində sınqa adlanan dəhşətli xəstəlik baş verir. Bu xəstəliyə tutulan adamların dişlərinin dibi yara olur, dişlər laxlayır, sümük oynaqları boşalır, ürək ağrıyır, göz zəif görür və nəhayət insan əmək qabiliyyətini itirir. Nar şirəsinin tərkibində olan S vitamini orqanizmdə əmələ gələn bu xəstəliyin qarşısını alır.

Narın kök, budaq və habelə meyvələrinin qabığından bizim eradan 230 il əvvəl xalq təbabətində bağırsaq və qarın qurdlarına qarşı mübarizədə istifadə edirdirlər. Bağırsaq və qarın qurdlarını nar şirəsi ilə tökürdülər. Nar meyvəsinin qabığında alkoloidin .

olması kəşf edildikdən sonra ondan təbabətdə geniş istifadə etməyə başladılar.

Nar həm də əvəzolunmaz bəzək bitkisidir. Yaz və yay zamanı çiçək açmış nar ağacları necə də gözəl görünür. Bəzək məqsədilə bağçalarda becərilən yasəmən və bir sıra başqa bitkilər qısa vaxtda çiçəkləyir və çiçəklər tez solurlar. Nar isə yazdan payızadək çiçəkləyir. İlk yazda bu bitki yeni açılmış qəhvəyi rəngli xırda yarpaqlarla örtülü olur.

Nar bitkisinin arıçılıqda da müəyyən əhəmiyyəti var. Şəftəli, gilas, albalı, alma, armud və s. meyvə bitkilərindən fərqli olaraq narın çiçəklənməsi payıza kimi davam edir. Məhz buna görə də başqa meyvə bitkiləri çiçəklərini tökdükdə arılar nar bitkisinin çiçəklərindən istifadə edirlər.

Tarlaları küləkdən mühavizə etmək məqsədilə qoruyucu meşə zolaqlarının təşkilində meyvə ağaclarının meşə ağacları ilə birlikdə əkilməsini də tövsiyyə edirlər. Respublikamızda tarlaları küləkdən qorumaq üçün yaradılmış qoruyucu meşə zolaqlarında əkilmələri tövsiyə edilən ağac və kol bitkiləri sırasına nar da daxildir. Bundan əlavə dərələri, yamacları möhkəmləndirmək və habelə dəmir yollarının küləklərin gətirdikləri qumla örtülməsinin qarşısını almaq üçün quraqlığa davamlı olan nar bitkisinin əkilməsi də məsləhətdir.

Nar boyaq bitkisi kimi də qiymətlidir. Hazırda xalçaçılıq sənayesində təbii boyaq bitkilərinə tələbat günü-gündən artdığından □iz nardan boyaq almağı öz qarşımıza məqsəd qoyduq.

Laboratoriyada narın çiçək, qabıq, oduncaq və meyvə yanlığından boya məhlulu hazırlayıb yun, ipək və pambıq məmulatlarını sarı, sarı-narıncı, narıncı, narıncı-yaşıl, narıncı-boz, yaşılımtıl, yaşılımtıl-qəhvəyi, açıq qəhvəyi, zeytunu, zeytunu-yaşıl, yaşıl çəhrayı, çəhrayı, çəhrayı-bozumtul, kərpici, kərpici-boz, kərpici-qırmızı, bozumtul-qara, mixəyi və s. rəng və çalarlara boyamağa nail olduq. Aldığımız rəng və çalarlar günəş şüasına, sabunla yuyulmağa və kimyəvi təsiredicilərə qarsı davamlıdır.

Bir kq nar qabığından hazırlanan boya məhlulu ilə 10-15 kq yun, ipək və pambıq məmulatlarını boyamaq mümkündür.

Respublikamızda hər il 25-30 min tonlarla nar qabığı tədarük edib, boyaqçılıq sənayesində təhvil vermək olar.

# ÜZƏRLİYİM, ÜZƏRLİYİM-PEGANUM

Bir dostumuz var, uşaqlıq dostu. Təhsilimizi birlikdə aşa vurmuşuq. Elə o vaxtdan da ayrılmışıq. Təyinatı Tümenəyidi. O gedəndi getmişdi. Tümendə ad-san sahibi olub, müdafiəsini də eləyib. Deyəsən, sonrakı həyatını da birdəfəlik Tümenə bağlayıb, yurd-yuva salıb, ailə qurubdu orada.

Sözümüz onda deyil, Gəlmişdi. Dedi:-Kəndə birlikdə gedək. Təklifi ürəyimizdən oldu. Bu da bir bəhanəydi ömrümüzün çoxunu keçirdiyimiz kəndimizi-kəsəyimizi görməyə. Qoşulub getdik. Eşidən-bilən tökülüb gəldi görüşünə, kənd elliklə, qohum da, yad da...

Söz-söhbət, sorğu-sual... Çox oturduq, gecəyarıdan keçənə qədər... Yatmağa duranda dostumuz başağrısından şikayətləndi. Dedi: -Görünür, illərdən bəridir ayrıldığım ab-havaya dərhal alışa bilmədim, təsir elədi. Keçib gedər,-dedik. Bəlkə də uzaq yoldan gəlmisən, yuxusuzluq-filan da üstünə gəlib, yatarsan keçib gedər.

Söz ağrımızdan qurtarmamış anası bir xəkəndaz qıpqırmızı közünən başımızın üsütünü aldı.

-Başını bəri gətir, dərdin alım,-dedi. -Dərdin canıma, axşamdan bəri gedib-gələnin içində neçə-neçə gözündə nəzəri olan var, bəri dur görüm, üzərlik salacağam.

Dostumuz şaqqanaq çəkib güldü. Dedi:-Ay arvad, elə bilirdim daha üzərliyi yaddan çıxarmısan?! Xəkəndaz elə əlindədir ki...

Mübahisə başlandı, nə başlandı. Arvad üzərliyin hikmətindən dedi, dostumuz bütün bunları köhnəlmiş adətə, avamlığa bağladı. Araya girdik, dedik:-Arvadın ürəyini sındırma, hər halda xeyri olmasa, ziyanı da yoxdur, qoy üzərliyini yandırıb tüstüsünü versin, təzədən uşaqlığa qayıdaq.

Arvad üzərlik “əməliyyatını” qurtarıb getdi, biz də soyunub yerimizə girdik. Bir xeyli də yastıq söhbəti-filan... Ancaq “başağrısı” məsələsi deyəsən yaddan çıxdı, şikayət olmadı. Bu üzərlik məsələsi bizi yamanca götürdü. Doğrudur, bütün uşaqlığımız boyu bunu görmüşdük, öz evimizdə də qonşuda da. Ancaq dərinə get-

rnemişdik. Çalışdıq bunun elmi tərəfini özlüyümüzdə izah edək, başa düşdüyümüz kimi. Sonra üzərlik barədə ədəbiyyat topladıq, onun izinə düşdük, bərk düşdük.

Sən demə, min bir dərdin dərmanıymış üzərlik (Hindistanda bu bitkini belə adlandırırlar). Onun müalicə xüsusiyyətləri insanlara çoxdan məlumdur. Bu barədə hələ eramızdan bir əsr əvvəl məlumat verilir. Böyük yunan filosofları və həkimlərindən Diosko- rid və Halen göstərib ki, üzərliyin toxumundan alınan preparatlar zəif görmənin və suçiçəyi xəstəliyinin dərmanıdır.

Orta əsr təbibləri ondan hazırladıqları dərmanlarla kəskin əsəb xəstəliklərini müalicə ediblər, qusmanın qarşısını alıblar. Böyük təbib və alim İBN-Sina onu sidikqovucu, soyuqdəyməni və yorğunluğu aradan qaldıran dərman bitkisi kimi təbliğ edibdi.

Vaxtilə bəzi yerlərdə üzərliyin gövhərini balla qarışdırıb məlhəm hazırlayıblar. Bu məlhəm iflicin, oturaq sinirləri, həzm orqanları xəstələnənlərin dadına çatıbdı.

Birini ilan, yaxud əqrəb çalanda, başqası qızdırmaya tutulanda üzərliyi yardımçı vasitə kimi başqa dərmanlarla qarışdırıb içiriblər.

Öz dövrünün məşhur həkimi sayılan Məhəmməd Hüseyn göstərirdi ki, üzərlikdən döş, mədə, bağırsaq, başağrısı, ürəkgetmə və s. xəstəliklərin müalicəsi zamanı istifadə etmək olar.

Əfqanıstanda üzərliyin otundan məhlul hazırlayıb, yoluxma epidemiyasına tutulmuş xəstələrin paltarlarını həmin məhlulla dezinfeksiya ediblər. Tüstüsü ilə iflic, toxumundan hazırlanan dərmanlarla sinir, yarpaqları ilə yaman şişləri, toxumları ilə (kənaf toxumu ilə qarışdırıb) yel, astma, təngnəfəslik və s. xəstəlikləri müalicə ediblər.

Türkmənistanda üzərliyin toxum vermə vaxtı çatanda onu toplayıb arpa ununa qarışdırırlar. Sonra toz halına salıb 10 dəqiqə qaynadırlar. Alınan məlhəmlə irinli yaraları sağaldırlar. Diş ağrısı zamanı üzərliyin toxumunu qara üzümlə qarışdırıb ağrıyan dişin üstünə qoyurlar. Bu məlhəm diş ağrısını sakitləşdirir.

Ukraynada üzərliyin kökündən hazırlanan dərmanla qoturlu- ğun, uşaqlarda baş verən qıcolmanın qarşısı alınır.

Qafqaz xalqları üzərliyin otundan şirə hazırlayıb, gözün selikli qişasında baş verən ilkin xəstəlikləri müalicə edirlər. Bu dər-

man yuxusu dağılanların yuxusunu da normal hala sala bilər.

Xalq təbabətində üzərliyin meydanı genişdir. Kök hissəsindən məlhəm hazırlayıb, qoyun piyinə qatırlar. Birinin bir yeri zədələndimi, həmin dərmanla yaranı sarıyırlar. Xeyri dəyir. Üzərlikdən qurdqovucu, iştahagətirici dərman kimi də istifadə olunur.

Tibb sahəsində çalışan alimlər, əczaçılar üzərliyin xalq təbabətində xüsusi yer tutduğunu görüb, onun sirlərini elmi surətdə öyrənməyə çalışmışlar. Sən demə, üzərliyin müalicəvi xüsusiyyətlərinin əsas sirri onun tərkibində iki cür alkoloid maddənin olması imiş. Birinciyə indol (harmin, harmalin və s.) ikinciyə isə xi- nin törəmələri olan (peqanin və s.) maddə daxildir. Harmin və harmalin alkoloidləri hələ orta əsrlərdə kəşf olunub. Bu maddələrin preparatlarının farmakoloji xüsusiyyətlərinin öyrənilməsinə XX əsrin 30-cu illərində başlanmışdır. Məlum olmuşdur ki, üzərlikdən alınan harmin və harmalin preparatları ilə bir sıra əsəb xəstəliklərini, titrəmə halında baş verən iflic xəstəliklərini müalicə etmək olar. Özü də preparatlar ucuz və asan yolla alınır. Müəyyən edilmişdir ki, üzərlikdən hazırlanan harmalin preparatlarını iflic vurmuş xəstələr qəbul etdikdə tonus vəziyyətdə gərilmiş əzələlər zəifləyir, əzələlərin hərəkəti güclənir, danışıq, çeynəmə və udma qabiliyyəti artır.

Harmin preparatları normal dozada qəbul edildikdə orqanizmdə qan dövranı normal hala düşür, tənəffüs güclənir, eninə zolaqlı əzələlərin işləmə qabiliyyəti artır. Preparatı uzun müddət xəstəyə verdikdə orqanizmə heç bir zərərli təsir göstərmir.

Amerika tibb mütəxəssisləri harmin preparatlarını şizofreniya xəstəliklərinin müalicəsində yoxlamış və müsbət nəticələr əldə etmişlər. Məlum olmuşdur ki, harmin preparatı xərçəng hüceyrələrinin, xüsusilə də Erlix hüceyrələrinin inkişafının qarşısını 33 faiz ala bilir.

Sovet alimlərinin də bu sahədə xidmətləri böyük olubdur. Onlar öz qarşılarına belə bir məqsəd qoyublar: harmin preparatı sintez etsinlər və xaricdən həmin preparatları almağa daha ehtiyac qalmasın. Harmin preparatını ilk dəfə sovet alimlərindən L.M.Ya- xantova, M.V.Rubsov sintez etmişlər.

1938-ci ildə üzərlikdən ikinci bir preparat-peqanin alınmışdır. Farmakoloji sınaqların nəticəsində təsdiq olunmuşdur ki, bu pre-

parat ruhi xəstəliklər zamanı mərkəzi sinir sisteminin müalicəsinə müsbət təsir göstərir. Müəyyən edilmişdir ki, peqanin preparatı ürəyin işləmə fəaliyyətini.artırmaqla yanaşı, ödqovucu təsirə de malikdir. 1966-cı ildə SSRİ Dövlət Farmakologiyası tərəfindən peqanin preparatının tibdə istifadəsinə icazə verilmişdir.

Üzərliyin kimyəvi analizi göstərmişdir ki, onun tərkibində (kütləvi çiçək açan yaşıl kütləsində) 3,7 faiz yağ, 18 faiz sellüloza, 24,1 faiz protein, 30,7 faiz ekstraktiv maddələr və s. vardır. Üzərliyin toxumalarının tərkibində çoxlu miqdarda qırmızımtıl-yaşılımtıl rəngli parlaq yağ vardır. Bu yağın tərkibində 53 faizdən artıq li- nol turşusu vardır ki, bundan da tibb və s. sahələrdə istifadə olunur. Üzərliyin yağında yod vahidi aşağı olduğundan ondan sabun hazırlamaq da mümkündür.

Üzərliyin toxum və gövdəsinin tərkibində qiymətli boyaq maddəsi olan harmalin vardır. Üzərlikdən boyaq bitkisi kimi Şərq xalqları ta qədimdən bəri istifadə etmişlər. Onun tərkibindəki boyaq maddəsini isə ilk dəfə 1937-ci ildə Dem universitetinin professoru F.Habel öyrənib kəşf etmişdir. O, harmin boyaq maddəsinə yüksək qiymət vermiş və göstərmişdir ki, bu boyaq heç də qartamin boyaq maddəsindən geri qalmır, hətta bir çox cəhətdən ondan üstündür.

Azərbaycan SSR EA Botanika İnstitutunun laboratoriyasında üzərliyin toxumundan və kök hisslərindən boyaq məhlulu hazır-lanmışdır. Bu boyaqla yun və ipək məmulatları sarı, narıncı-kərpici, yaşılımtıl, qəhvəyi, zeytunu, bozumtul, firuzəyi və s. rənglərlə boyamaq olar. Ümumiyyətlə, institutda üzərlikdən 100-dən artın rəng və çalar alınmışdır. Bu rəng və çalarlar günəş şüasına, fiziki və kimyəvi təsirlərə, eəcə də yuyulmağa qarşı davamlıdır. Üzərliyin respublikamızın ərazisində böyük ehtiyatı olduğundan hər il 100 tonlarla üzərlik toxumu və kökünü toplayıb boyaqçılıq sənayesinə vermək mümkündür.

Bu bitki kənd təsərrüfatı mütəxəssislərini də çoxdan düşündürür. Çünki ölkəmizdə onun yayılma sahəsi çox genişdir. Orta Asiyada, Krımda, Qafqazda və s. üzərliyin bol ehtiyatı vardır. Ondan mal-qaranın yemlənməsində istifadə edilsə, yaxşı nəticə verərdi. Məlum olmuşdur ki, üzərlik yem bitkisi olmasa da (onun tərkibi az zəhərlidir) ondan mal-qaranın yemlənməsində istifadə etmək

mümkündür. Belə ki, payızın ortalarında və qışda üzərliyin tərkibində alkoloidlərin miqdarı azalır (bu maddələr kəskin iyə və acı dada malikdir. Ona görə də üzərliyin yaşıl kütləsini mal-qara yemir), acı dadı çəkilib gedir. Bizcə qış aylarında üzərlikdən əhəmiyyətli yardımçı yem kimi istifadə etmək olar.

Üzərliyin toxumlarından hazırlanan ekstraktlarla dəridə olan civzə və yaraları müalicə edirlər.

Yazımızda bir məsələni də əlavə etmək istərdik:

Üzərliyin tətbiqi və tərkibindəki maddələrlə tanışlıqdan sonra belə bir fikir də söyləmək olar ki, (əlbəttə, bu bizim şəxsi fikrimizdir), görünür, üzərlik salmanın sirri heç də avamlıqla, köhnədən- qalma adət və ənənələrlə əlaqəli deyil. Bəlkə də tökülüb görüşə gələnlər qucaqlaşma, öpüşmə, üz-üzə dayanma və sairlə bir sıra xəstəliklərin mikrob və virusunu da yayırlar. Bundan da başağrısı, ürəkbulanma və başqa qeyri-normal vəziyyət əmələ gəlir. Üzərliyin yandırılması ilə onun tərkibindəki maddələr, görünür, bunun qarşısını alır, mikroiqlimi qaydaya salır.

Bizcə, tədqiqatçılar bu barədə daha çox söz deyər, sirr açа bilərlər.

Üzərlik haqqında çoxlu şerlər, bayatılar qoşulmuş, rəvayətlər söylənmişdir.

**Üzərliksən, havasan,**
**Hazır dərdə davasan.**
**Sən tapılan evlərdə**
**Yüz min qada qovasan.**
**Üzərlik dönə-dönə**
**Tökülsün hərzə-canə.**
**Yad ola, qohum ola, Nəzəri odda yana. Üzərliklər çırtlasın Yaman gözlər pırtlasın.**

# TUT-MORUS

Tut fəsiləsi-Mosaceae. Tutun respublikamızın ərazisində 3 növü yayılmışdır. Ağ tut-Morus alba, qara tut-M.nigra, qırmızı tut- M.rubra. Bunlardan Azərbaycanın ərazisində ən çox yayılanı ağ və qara tut növləridir.

*Ağ tut-M.alba.* Bu hündürlüyü 15-25 m, diametri 1 m-ə çatan, sıx qalın şarvari çətirli ağacdır. Yarapaqları tünd yaşıl, üst tərəfdən parlaq olub, payız zamanı sarı samanı rəng alır, ilk payızda tökülür. Yarpaqlarının uzunluğu 5-14 santimetrdir. Meyvələri mayın axırından yetişməyə başlayaraq, avqustun əwələrinə qədər davam edir. Respublikamızın bütün rayonlarında geniş surətdə yayılaraq bol ehtiyatı vardır.

Azərbaycanda ağ tut yabanı halda Samur Dəvəçi zonasının tuqay meşələrində, Kür-Araz, Alazan Ağrıçay ovalıqlarında yayılmışdır. Bundan əlavə Azərbaycanın əksər rayonlarında, o cümlədən Abşeronda geniş becərilir.

*Qara tut-M.nigra.* Hündürlüyü 10-15 metr olan ağacdır. Çətiri nisbətən sallaq budaqlara malikdir. Yarpaqları yumurta şəkilli, tamkənarlı və ya 2-3 dilimli olur. Yarpaqları yaşılımtıl rəngdədir. Meyvəsi iyun-iyul aylarında yetişir. Qara tut Azərbaycanan aran və dağətəyi rayonlarında becərilir.

*Qırmızı tut-M.rubra.* Hündürlüyü 15-20 m olan ağacdır. Qabığı qəhvəyi-boz, cavan budaqları isə sarımtıl boz rəngdə olur. Yarpaqları yumurtavaridir. Yarpaq ayası 5-7 sm-dir.

Qırmızı tutun oduncaq hissəni çox qiymətlidir. Özək hissəsi sarı rəngli olub, illik həlqəpəri aydın görünür. Qırmızı tut yarpaqlarından boyaq, tərləmə dərmanı kimi, köklərindən isə bağırsaq qurdlarının təmizlənməsində istifadə edilir.

Meyvələrindən spirt, sirkə, şərab hazırlanır. Meyvəsinin tərkibində 22% şəkər vardır. Toxum və qələm vastəsilə çoxaldılır. Bu ağ tuta nisbətən az yayılmışdır. Bu növ Azərbaycanda əsasən Naxçıvan, Şəki, Şamaxı, Ağsu, Göyçay rayonlarında yayılmışdır.

Tutun yarpaqlarında 0,75% üzvi turşular, 50-60 mq% askorbin turşusu 1,5-2,0% şəkərli maddələr, 2-3% aşı maddələri vardır. Meyvələrində 23-24% şəkər, 2,5% üzvi turşular, 70-80 mq% askorbin turşusu, 4% limon turşusu, pektin maddələri və s. müəyyən edilmişdir. Göstərilənlərdən başqa tərkibində müxtəlif amin turşuları (alonin, valin, qlikoqol.qlütamin, asparaşin, fenilalain və s. turşular), flavonoidlərdən izokversetin, efir yağı, karotin, V1, V2, S1 vitaminləri aşkar edilmişdir. Ağ tutun toxumlarında 25- 30% piyli yağ vardır. Ağ tutun qurudulmuş yarpaqlarından hazırlanmış sulu dəmləmə, spirtli cövhəri (tinkturası) və duru ekstrak- tı ürək-damar sistemi xəstəliklərində müsbət təsir göstərdiyi kli- niki təcrübəyə aşkar edilmişdir.

Tut yarpaqlarından xalq təbabətində çox qədimdən istifadə edilir. Onlardan çay dəmləyib şəkər xəstəliyində, ürək ağrılarında içirlər. Meyvələri təzə halda yeyilir, həm də onlardan doşab hazırlayıb ürək zəifliyində, qanazlığında qəbul edilir. Bundan başqa meyvələrindən hazırlanan şirələrdən xərçəng, boğaz ağrılarında, mədə xəstəliklərində, qəbul edilir. Ağ tutun yarpaqlarından çay dəmləyib qəbizlikdə, soyuqdəymə xəstəliklərində içirlər. Ondan tərlədici və hərarəti aşağısalıcı maddə kimi, həmçinin diabet və epilepsiyə xəstəliyinə, qarşı da istifadə edilir. Mədə və onikibarmaq bağırsaq xoralarında ağ tutun meyvələri məsləhət görülür. Yarpaq, meyvə və qabıq hissələrindən hazırlanmış məlhəmlə civzə, irin və dəri yaraları müalicə olunur. Ağ, qara xartu- tun yetişmiş meyvələri qanartırıcı xassəyə malikdir.

Meyvələrindən hazırlanan ekstraktla Braziliyada, Fransada, Portuqaliya ölkələrində şəkər xəstəliklərinin müalicəsində istifadə edilir. Çox yerlərdə şəkər əvəzi kimi işlədilir. Çində hipertoni- ya əleyhinə işlədilir. Şirəsini balla qarışdırıb maz kimi boğaz xərçəngində sürtkü kimi istifadə edilir. Meyvəsindən kompot, sirop, müxtəlif şirə növləri, mürəbbə, cem, marmelad, şərbət, çaxır, spirt, sirkə, şəkər və limon turşusu hazırlanır. Yarpaq və oduncaq hissəsindən təbii boyaq kimi istifadə olunur.

Qeyd etdiyimiz yabanı şəkildə yayılan tut növlərindən başqa,

Indiyədək xalq seleksiyası tərəfindən gözəl rəngə və keyfiyyətli dada malik müxtəlif tut sortları yetişdirilmişdir. •

Bunlardan ən məşhuru xar tutdur.

Tut sözü Zaqafqaziya respublikalarında, Şimali Qafqazçla, Orta Asiyada, Türkiyədə, Suriya və başqa ərəb ölkələrində, İranda, Ofqanıstanda, Pakistanda, Hindistanda yaşayan müxtəlif xalqların dilində eyni ifadə kimi səslənir. Lakin “Xar tut” adı yalnız Azərbaycanda və iranda eyni cür ifadə olunur. Orta Asiyada, Hindistanda və Əfqanıstanda “şah tut” adı ilə məşhurdur.

Xar tutun vətəni Kiçik Asiya, İran və Azərbaycan sayılır.

Xar tut meyvələri tərkibindəki turşuların, vitaminlərin, taninlə- rin, mikroelementlərin, fermentlərin və başqa ekstraktiv və bioaktiv maddələrin miqdarına görə, alma, armud, albalı və s. meyvələrindən üstündür. Tərkibindəki limon turşusunun çoxluğu orqanizmdə qanın təmizlənməsinə kömk göstərir.

Xar tutun meyvəsindən mürəbbə, doşab, şirə, şərab, sirkə və bir sıra kluinariya məlumatları hazırlanır. Yarpağından Abşeronda dolma bükülür.

Məlum olduğu kimi, xar tut meyvələrinin yetişmə mövsümündə Bakının bazarlarında bir stəkan şirənin qiyməti 1500-2000 manata satılır. Bu tələbat bizi düşündürməlidir.

Azərbaycan MEA Genetika və Seleksiya İnstitutunun əməkdaşları xar tutun müxtəlif keyfiyyətli dada və zəngin vitaminli şirəyə malik hibrid formalarını əldə etmişlər.

Tutun meyvələrindən qiymətli sifət maskaları hazırlanır.

Abşeronun ucsuz-bucaqsız çöllərində meyvəli xar tut plantasiyaları salmaq məqsədəuyğun olardı və bu, əhalinin tuta olan ehtiyacını qismən ödəyərdi.

Xar tut ağacları calaq vasitəsilə artırılıb çoxaldılır.

# *Bitki və BƏZƏK kosmetikası*

Bir sıra faydalı bitkilərin ətərkibi qiymətli aktiv maddələrlə-vitaminlərlə, bioloji stimlyatorlan, fitonsid, karotinoid, flavanoid, aşı və bitki harmonları ilə zəngindir. Buna görə də kosmetika məlumatların-krem, maz, yağ, losyon və şampunların tərkibinə birbaşa bir neçə bitkidən alınan cövhər və ekstraktlardan əlpvə edib onların müalicəvi keyfiyyətlərini artırırlar. Bitki komponentləri dəriyə təsir edərək onun elastikliyini artırır, maddələr mübadiləsini yaxşılaşdırır, soyuqdəymə prosesini aradan qaldırır, qan dövranını nizamlayır, dizinfeksiyaedici təsirə malik olub, onun vaxtından tez qarışmasının qarşısını alır.

Müasir kosmetika sənayesində çoxlu yüksək keyfiyyətli, gige- nik və profilaktik təsirə malik olan vasitələrin tərkibinə dərman bitkilərdən alınan cövhər, efir yağı, karotin, antosian, flavonoid, vitalein və s. maddələr daxil edərək orqanizmin müxtəlif sahələrində əmələ gələn xoşa gəlməyən kosmetik qüsurların aradan qaldırılmasında geniş istifadə edilir.

## *Bitkilərdən hazırlanan kosmetik vasitələr*

Üz dərilərində istifadə edilən müxtəlif tərkibli emulyasiya kremləri “İtburnu” tərkibində faydalı bioloji aktiv maddələrdən: S vitamini, karotin, E vitamini, yağ və s. tapılmışdır. Üz dərisini təmizləyir, qidalandırır, təravətli edərək tonusunu artırır.

“Düyü stfdc7”-tərkibi, boymadərən, evkalipt və dazıotundan hazırlanmış ekstraktdan ibarətdir. Dərinin ümumi vəziyyətini yaxşılaşdırır, qan təzyiqini nizamlayır. “Leyla” tərkibi çobanyastığı, dazıotu və norka piyindən ibarət olub, dəriyə müsbət təsir edərək onun elaktikliyini artırır.

“Jenşen-tərkibi jenşen cövhəri və toyuq piyindən ibarətdir. Zülal və piy mübadiləsini stimullaşdırır. Toxumanın funksiya fəaliyyətini nizamlayır, yuyulduqdan sonra dərinin yığılmasının qarşısını alır, toxumanın fizioloji fəallığını yüksəldir.

## *Quru dəridə istifadə olunan emulsiyalar*

Moruq təbii moruq şirəsindən hazırlanır. Tərkibində yüksək keyfiyyətli piy maddəsi olan bu təbii emulyasiya dərinin alt qatlarına daxil olub, onu qurumaqdan, elastikliyinin itirilməsindən və qırışıqdan qoruyur.

## *Kosmetik losyonlar*

*"Gülsuyu'tərkibi* xoşa gələn və incə iyə malik qızıl gül yağından ibarətdir. Normal və yağlı üz dərisinin təmizlənməsi və yumşaldılması məqsədi üçün istifadə olunur.

"Flora"-Tərkibi vitaminlərlə, azulenlə, mineral duzlarla zəngin olan boymadərən, dazıotu və bağayarpağı cövhərlərindən ibarətdir. Normal və piyli üz dəriləri üçün nəzərdə tutulur.

"Rosinka"-Tərkibi bioloji aktiv maddələrlə zəngin olan sabah- gülü (kalendula), palıd qabığı və sürvə cövhərlərinin tərkibinə limon turşusu, spirt əlavə olunaraq hazırlanmış təbii kosmetik cövhərdir. Sifət dərisinin təmizlənməsində istifadə olunur.

"Flaminqo"-Tərkibi bioloji aktiv maddələrlə zəngin olan və yumuşaldıcı antimiqrob əlavə etməklə alınan qiymətli kosmetik ekstrakdır. Normal və quru sifət və boyun dəriləri üçün nəzərdə tutulmuşdur. Dəridə gedən maddələr mübadiləsini nizama salaraq, ona təravət və sağlam görkəm verir.

## *Qatı kosmetik kremlər*

Müxtəlif tip sifət dəriləri üçün nəzərdə tutulur. "Prima" tərkibi itburnu yağı, zəngin E və karotinlərdən ibarət olan kosmetik kremdir.

"Balet" tərkibi bioloji aktiv maddələrlə zingin və çobanyastığından alınan efir yağı qatılmış kremdir. Dəridə baş verən soyuqdəymə proseslərinin qarşısını almaq məqsədləri üçün işlədilir. "Alıe parusa" tərkibi quşarmudu, dazıotu, vitamin və aşı maddəsi ilə zəngin olan kremdir. Dəridə olan qırışığı azaldır və ona elastiklik verir.

## *Normal quru üz dərisində işlədilən kremlər*

“Ekstella” tərkibi eleuteronokka ekstraktından ibarət olub, maddələr mübadiləsinin nizamlanmasında və qan damarlarının genişdənlirilməsi məqsədləri üçün işlədilir.

“Çiçəyələkli” tərkibi çiyələk şirəsindən ibarət olub, dərinin elastikliyini artırır və qırışığın qarşısını alır.

“Çaytikanı” tərkibi çaytikanı ekstraktı, piy, mum və vitamin kompleksi əlavə edilmiş kremdir. Dəridə baş verən fizoloji prosesləri nizamlamaq və qırışığın qarşısını almaq şərti ilə işlədilir. *“Alenuşka”* tərkibi bioloji aktiv maddələrlə, vitamin və çobanyastığı, boymadərən, çölqatırquyruğu ekstraktları ilə zəngin olan kremdir. Dəriyə elaktiklik və yumşaqlıq vermək məqsədləri üçün işlədilir. “Marusa” tərkibi bitki ekstraktı, amin turşuları B və PP vitaminləri və miqroelementlərlə zəngin olan kremdir. Dərinin fizioloji qabiliyyətinin artırılmasında və qan dövranının nizama salınmasında işlədilir.

Çobanyastığı tərkibi çobanyastığı ekstraktından ibarət olub, dəridə gedən maddələr mübadiləsini stimullaşdırır və onun elastikliyini artırır.

## *Yağlı üz dərilərində istifadə olunan Bİtki kremləri*

Viktoriya tərkibində tonuslaşdırıcı xüsusiyyətinə malik çiyələk şirəsi olan kremdir. Dərini yaxşı təmizləyir və onun vaxtından qabaq qırışmasının qarşısını alır.

Kosmetika "tərkibi qırxbuğum, vitamin və bioloji aktiv maddələrlə zəngin olan kremdir. Dəridə gedən bioloji funksiyaların fəaliyyətinin artırılmasında, qandövranının nizama salınmasında, toxumaların sürətlə bərpa olunması məqsədləri üçün işlədilən kremdir.

# Maska kremləri

Meşə nifası jenşen ekstraktından ibarət olan krem- dir. Dərinin epiderma qatının funksiyasını artırır, zülal və piy mübadiləsinin nizama salır.

*"Vita"* tərkibi boymadərən ekstraktından ibarət olub, dəridə baş verən soyuqdəymənin aradan qaldırılmasında və onun tonusunun yüksəldilməsində işlədilən kremdir. Dəridə baş verən piy yığıntılarının kənar edilməsində də istifadə edilir.

*"Atyonuşka"*^^ çobanyastığı, boymadərən, çöl qatırquyruğu cövhərlərindən və A vitamini əlavə edilmiş kremdir. Dərinin dərinliklərinə asanlıqla daxil olub, toxumaları qidalandırır və qan-dövranının nizama salınmasında işlədilir.

Balet tərkibi çobanyastığı, evkalint, konfora yağından, A vitamini və piynən hazırlanan kremdir. Dəriyə asanlıqla yaxılır və onu asanlıqla təmizləyir.

# Əl Kremləri

*"Velyur tərkibi* çobanyastığı ekstraktı və A vitaminindən ibarət olan kremdir. Dəridə baş verən soyuqdəymələri aradan qaldırır və xırda qatların müalicəsində istifadə edilir. "Eleqiya" dırnaq üçün nəzərdə tutulan kremdir. "Beryoza" tərkibi tozağacı şirəsindən ibarət olub, dərinin yumuşaq saxlanılması məqsədləri üçün işlədilir.

# Ayaq Kremləri

Effekt tərkibi A, S vitaminindən, iynəyarpaqlardan alınan xlorofilindən, kükürd və kamfora əlavə etməklə hazırlanan kremdir. Antiseptik, dizinfeksiyaedici və yarasaxaldıcı xüsusiyyətlərinə malikdir. Mütəmadi istifadə edildikdə dərini yumşaldır və elastikliyini artırır.

Elan tərkibi dəvədabanı cövhəri və tamat toxumundan alınan yağdan ibarət olub, bakterosid xüsusiyyətinə malik olan kremdir. Mütəmadi istifadə edildikdə dərdi yumşalır və onun elastikliyi artır.

*"Ayaq üçün maye"* tərkibi müalicəvi otların cövhərlərindən

ibarət olub, ayaq yorğunluqlarını aradan götürür və dəri qatlamasının qarşısını alır.

## *Ev kosmetikasında istifadə olunan Bitkilər*

Kosmetik məmulatların hazırlanmasında müalicəvi əhəmiyyətli bitkilərdən geniş istifadə olunur. Belə ki, bitkilərin müxtəlif hissələrindən meyvə, giləmeyvə, toxum çiçək, gövdə, budaq, yarpaq, qabıq, kök, kökümsov, kök yumurusundan və soğanaqlarından istifadə edilərək onlardan dəmləmə, cövhər, sıyıq, maz və s. kosmetik məhsulların hazırlanmasında istifadə edilir.

## *Cövhər və dəmləmələr*

Cövhər və dəmləmələr dərman bitkilərindən hazırlanan sulu və spirtli çıxarışlardır. Cövhərlər əsasən yarpaq, çiçək və gövdədən hazırlandığı halda, dəmləmələr isə kök, qabıq, kökümsovdan əldə edilir. Cövhər və dəmləmələrin hazırlanması üçün bir sıra üsullar mövcuddur. Ən çox istifadə olunan ənənəvi üsullar aşağıdakılardır. Əvvəlcədən doğranmış xammaldan lazım olan miqdarda götürüb, emal və yaxud farfordan hazırlanmış qablara töküb, üzərinə otaq temperaturunda olan su əlavə edib, qapağını möhkəm bağlayıb zəif od üzərinə qoyurlar. Cövhərin hazırlanması üçün 15 dəqiqə, dəmləmənin hazır olması çün 30 dəqiqə qızdırmağı məsləhət görürlər. Əksər bitkilərdən cövhər və dəmləmələrin hazırlanması üçün xammalın 1:0 və yaxud 1:20 nisbətində götürməyi məsləhət görürlər. Ev şəraitində kosmetik məmulatları qynatmadan hazırlayırlar. Bunun üçün dərman xammalını qaynanmış suya töküb qabın ağzını qapaqla bağlayır və üzərini möhkəm parça ilə örtüb 4-6 saat saxlayırlar. Sonra təmizləyib, qalığı sıxaraq, filtirdən keçirirlər. Cövhər və dəmləmələr tez xarab olduğundan, ən çox da yay döründə, buna görə də onları təzə halda hər gün hazırlamağı məsləhət görürlər. Hərgah bu mümkün deyilsə, onları qaranlıq və soyuq yerlərdə və yaxud soyuducuda 2 gündən artıq saxlamağı məsləhət görürlər.

Təcrübəli mütəxəssislər cövhəri termossarda hazırlamağı məsləhət görürlər. Bunun üçün götürüləcək xammalın miqdarını qabaqcadan təyin edirlər. Belə ki, 2 xörək qaşığı xammalı, 2 stəkan qaynanmış suyun üzərinə tökür. Yaxşısı odur ki, bunu axşamlar edəsiniz. Belə ki, bütün gecə vaxtı otda dəmləmə prosesi gedir. Cövhəri termosda bir gündən artıq saxlamağı məsləhət görmürlər.

# *TƏPİTMƏLƏR*

Təpitmələri qədim zamanlardan başlayaraq hal-hazırkı dövrə kimi müalicə otlarından hazırlamışlar. Təbitməni hazırlamaq üçün doğranıb narın toz halına salınmış xammalı isti suya tökür, suyu yarıdan çox buxarlanana qədər qaynadırlar. Sonra sıyıqdan götürüb, parçanın üzərinə yaxıb, ağrıyan nahiyənin üzərinə qoyub, yaş sarğı ilə möhkəm sarıyırlar. Kosmetikada tərkibi müalicəvi maddələrlə zəngin olan sulu spirtli qatışıqlardan ibarət los- yonlardan geniş istifadə edilir. Bu cür losyonları ev şəraitində asanlıqla hazırlamaq olar. Belə ki, 1:4 nisbətində doğranmış bitki xammalını şüşə kolbaya töküb, üzərinə araq əlavə edib, ağzını möhkəm bağlayıb qaranlıq yerdə saxlayırlar. Qabın içərisindəki ekstraktı gün ərzində, bir neçə dəfə qarışdırmaqla 7-10 gün saxlamağı məsləhət görürlər. Sonra alınan cövhəri cunadan və yaxud filtirdən keçirib, qaynar su əlavə edib istifadə edirlər.

# *YAXMA MAZLAR*

Yaxma mazları dərman bitkilərinin sulu çıxarışlarından hazırlayırlar. Bu məqsədlə ən çox bitkilərin kök hissəsindən istifadə edilir. Yaxmanı aşağıdakı üsulla hazırlayırlar.

Kino və teatra gedəndə kosmetik bəzəkdən istifadə edirlər. Bəzi qadınlar isə kosmetikadan o vaxt istifadə etməyə başlayırlar ki, artıq onların dəriləri solub, qırışmağa başlayır.

İnsanın özünə vaxtlı-vaxtından düzgün qulluq etməməsi onun vaxtından tez yaşlaşmasına (qocalmasına) gətirib çıxarır.

İnsanın qocalma əlamətləri orqanizmin bütün üzvülərində o cümlədən də sifət, boyun və əl nahiyyələrində özünü daha aydın

büruzə verir.

Sifət və boyun dərilərində əmələ gələn xoşagəlməz hadisələr pis adətlərdən də irəli gəlir. Məsələn üz mimikasının həddindən artıq inkişafı, tez-tez anlın qırışdırılması, qaşın yuxarıya dartılması, günəşin altında çox dayanma və s. mənfi əlamətlər dəridə qırışığın vaxtından qabaq əmələ gəlməsinə səbəb olur. Dərini necə saxlamaq lazımdır ki, o vaxtından qabaq qırışıb öz təravətini itirməsin. Bu prosesi gecikdirmək üçün mütəmadi olaraq, müxtəlif kosmetik məmulatlardan istifadə edib, dərini vaxtlı-vaxtında təmizləməli, qidalandırmalı və onu xarici mühitin mənfi təsirlərindən qorunmalıdır. Dəriyə qulluq edilmə metodları, onun tipindən yəni (normal, quru və yağlı olmasından asılıdır. Dəri tipinin düzgün təyin edilməsi kosmetikadan düzgün istifadə olunmasına böyük köməklik göstərir.

Dərinin xüsusiyyətlərindən asılı olaraq sifətin dərisi normal, quru, yağlı və qarışıq olur. Dərinin tipi bir çox amillərdən-iqlimdən, irqdən, cinsdən, səhhətin vəziyyətindən, görülən işdən, həyat tərzindən asılıdır. Sifətin dərisinə düzgün qulluq edildikdə onu uzun müddət yaxşı vəziyyətdə saxlamaq, əsasən vaxtından əvvəl əmələ gələn qüsurlardan qorumaq olar.

## *NORMAL DƏRİ*

Normal dəriyə hər zaman rast gəlmək olmur. O tutqun, hamar, elastiki, parlaqsız, azca qırmızımtıl və qüsursuzdur. Bu cür dəri sabunu və suyu yaxşı qəbul edir, atmosfer təsirlərinə qarşı davamlı olur. Bu o demək deyil ki, normal dərilər xüsusi qulluq tələb etmir.

Su gegeniq cəhətdən ən gözəl kosmetik vasitədir. Yuyunan zaman dəri toxumasının buynuzlu qişası şişərək qopur, özü ilə tozu, çirki, piyi və tər qalıqlarını kənar edir. Əli yaşlayıb sifəti asanca döyməklə və tumarlamaqla üz dərisini yumşaldır, eyni zamanda qan dövranını gücləndirir, maddələr mübadiləsini yaxşılaşdırır, dərini qidalandıraraq tonusu artırır. Yuyunmaq üçün yumuşaq sudan istifadə edilir. Yumuşaq suyu cod sudan əldə edirlər. Belə ki, cod suyu bir saat qaynadıb, saxladıqdan sonra əldə edilir. Və yaxud bir litr suya 0,5-1 xörək qaşığı içməli soda və borat turşusunun natrium suyunu əlavə etməklə əldə edilir.

Yuyunan zaman nə çox soyuq, nə də çox isti su ilə yuyanmaq olmaz. Çünki soyuq suda dəri quruyur, qabıq qoymağa başlayır. Uzun müddət isti su ilə yuyunduqda isə qan damarları genişlənir, dəri boşalaraq solğunlaşır və soyuğa davamsız olur. Normal dərisi olanlar gündə iki dəfə "uşaq" və yaxud "kosmetik" sabunla axşamlar yumağı məsləhət görürlər. Elə ki, dərinizi yuyub qurtardınız pambığı əökə çiçəyindən hazırlanmış cövhərə batırıb sifətinizi silin.

Normal dərini axşamlar yağlı, ya da uşaq sabunu ilə yuyur, əvvəlcə ılıq, sonra otaq temperaturu su ilə yaxalayırlar. Əgər sifətə krem çəkilmişsə, yumamışdan əvvəl üzü kosmetik su ilə yuyurlar. Gündüzlər yarıyağlı kremdən bir az istifadə etmək olar, bunun üçün kremi nazik layla sifətə çəkmək lazımdır. Qışda, hava soyuq olduqda sifətin dərisini şaxtadan qorumaq, normal dərilər üçün aşağıdakı maskalardan istifadə etməyi məsləhət görürlər.

*Bal maskası* çay qaşığı bal, 1 ədəd yumurta, azca qliserin və bir xörək qaşığı cökə və çobanyastığı çiçəklərindən hazırlanmış cövhər əlavə edib, yaxşı qarışdırın. Sifətinizi təmiz yuduqdan sonra sifətinizə yaxıb 2 saatdan sonra əvvəl ılıq, sonra qaynadılmış soyuq su ilə yuyun.

*Dəniz duzu maskası yarı* fincan bitki yağı götürüb, üzərinə 1 ədəd yumurta, 1 çay qaşığı dəniz suyu, 1 çay qaşığı limn şirəsi. 2 xörək qaşığı çaytikanı cövhəri əlavə edib yaxşı-yaxşı qarışdırın. Alınmış maskadan sifətə yaxıb 15-30 dəqiqədən sonra əvvəl ılıq, sonra isə soyuq su ilə yuyun.

*Zəncirotu və yaxud cəfəri maskasa* xörək qaşığı zəncirotu və yaxud cəfərini qaynar suya töküb dəmləyin. Sonra alınmış cövhəri süzüb üzərinə 1 xörək qaşığı bal və 1 ədəd yumurta əlavə edib qarışdırın. Hazırlanmış qatışıqdan üzünüzə sürtüb 15-20 dəqiqə saxlayın.

*Çiyələk maskalarda* heç bir çətinlik çəkmədən dərini təzə vitaminli qarışıqlarla asanlıqla təmin etmək olar. Səhər tezdən yataqdan qalxan zaman 1 və yaxud 2 çiyələyi əzib şirəsini çıxarıb üz və boyun nahiyənizə yaxın. 15-20 dəqiqədən sonra maskanı soyuq su ilə yuyub təmizləyin. Yayda, ələlxüsus, gün altında qaraldıqda kremi daha qalın layla çəkmək lazımdır.

# QURU DƏRİ

Quru dəri-zərif, incə və hamar olur. Bu cür dərilərin həm üstünün həm də çatışmazlıq cəhətləri var. Quru dəri nazik, rəngi açıq-çəhrayı olur, su və sabunu götürmür, ətraf mühitin təsirinə həssas olur. Bu cür dərilər günəş, külək və temperatur dəyişmələrinə məruz qalır. Belə dərilərdə erkən yaşlarda göz və burun nahiyyələri ətrafında qırışıqlar əmələ gəlməyə başlayır.

Dərinin quruluğu anadangəlmə və qazanılma ola bilər. Bu, ona pis qulluq edilməsi, düzgün yuyunmamaq, kremlərin düzgün seçilməməsi, qabıq verən preparatlardan (çillərə qarşı krem) uzun müddət istifadə edilməsi..nəticəsində baş verir. Quru dəri çox diqqətli qayğı tələb edir. Üzdə kosmetikanın olub-olmasından asılı olmayaraq axşam sifəti yumamışdan əvvəl kosmetik süd, ya da yuyucu kremlə təmizləmək lazımdır. Quru dərini piy əlavə edilmiş “Spermaset” “Yumurta” və “Kosmetik” sabunlardan da istifadə etməyi məsləhət görürlər. Bu sabunlarla dərini hər gün yox, həftədə 1-2 dəfə yumağı məsləhət görürlər. Dərini yuduqdan sonra hökmən elastikliyi və qırışığı aradan qaldıran qida- lı kremlərdən “Yantar”, “Lyuks”, “Sevinc” “Axşam” “Vitaminli” “Nektar” “Aloe” və s. istifadə etməyi məsləhət görürlər.

Dərinin silinib təmizlənməsi üçün “Liliya”, “Gülsuyu” “Məlahətli”, “Səhər”, “Flora”, “Suvenir”, “Xiyar” və s. losyonlardan da istifadə etməyi məsləhət görürlər.

Bəzi yuyucu və qidalandırıcı kremləri özünüzdə hazırlaya bilərsiniz: bunun üçün 150 q təzə donuz piyi götürür, xırda-xırda doğranıb qazana tökülür, bu qazanı qaynar su olan başqa qazana qoyulub od üstünə qaynadılır. Bu üsulla hazırladıqda piyin hamısı əriyib cızdağa dönmür, ancaq təmiz yağ ayrılır, bu yağ da ayrıca bankaya tökülür. Piy donandan sonra ona 10 damcı salisil spirti əlavə edilib yaxşı-yaxşı qarışdırılır. Bu üsulla hazırlanmış krem barmaqların ucunun yüngül hərəkətləri ilə sifətin və boğazın dərisinə çəkilir və 5-10 dəqiqədən sonra qaynamış suda, ya da kosmetik süddə isladılmış pambıqla silinir.

Bundan sonra üzü yağlı sabun ilə yuyub qaynadılmış soyuq su ilə yaxalayırlar. Əgər dəri sabun götürmürsə, onda təmizlədik-

don sonra cökə çiçəyi dəmləməsi ilə yuyurlar. Cövhəri aşağıdakı üsulla hazırlayırlar: 1 xörək qaşığı çökə çiçəyini götürüb, yarım stəkan qaynadılmış suyun üzərinə töküb ağzını nəlbəki ilə örtüb, 15 dəqiqə saxalayırlar. Sonra süzgəcdən süzüb, üzərinə 1/3 çay qaşığı həcmində bal əlavə edib qarışdırın. Bu cür hazırlanmış cövhər dərini təmizləyir, onun elaktikliyini artırır və qabıq qoymasının qarşısını alır. Gecə üzə qidalandırıcı, ya da vitaminli krem- lər çəkmək olar. Əgər üzdə qırışlar varsa, vitaminli və bərpaedi- ci kremlər növbələmək lazımdır. Səhər üzü kosmetik südlə, gözləri isə zəif çay məhlulu ilə silirlər. Gündüzlər kirşanlanmamışdan əvvəl üzə yarıyağlı qışda isə yağlı krem çəkirlər. Ona nazik lay çəkirlər ki, dəriyə hopa bilsin. Krem və kirşan dərini soyuqdan qoruya biləcək qat əmələ gətirir. Yayda isə, ələlxüsus, gün altında olduqda krem daha qalın layla çəkilir.

Soyuq hava, külək yaxud hətta mərkəzdən isidilən otaqda zun müddət qalmaq da quru sifətin qırışmasına səbəb ola bilər. Belə hallarda üzü kosmetik süd və ya dərman bitkilərinin cövhəri ilə silmək, əgər yenidən küçəyə çıxmaq lazımdırsa, onda yağlı krem çəkmək olar. Otaqda qaldıqda isə üzə nəmişləndirici krem çəkilir.

Quru dəriyə daha çox qulluq lazımdır. O qabıq verir, üstündə qırmızı ləkələr əmələ gəlir, bəzən isə göynəmə və geyişmə hissi yaranır. Bu dövrlərdə dəriyə daha diqqətlə qulluq edilməlidir. Qidanın tərkibinə də fikir vermək lazımdır ki, vitamin azlığı (o cümlədən də A, B, C, F və E) olduqda çalışın bu vitaminlərlə zəngin olan qidalarla orqanizmliyi təmin edəsiniz.

Bəzi qida kremlərini ev şəraitində də hazırlamaq olar.

## ÇOBANYASTIĞINDAN HAZIRLANAN QİDA KREMİ

Bunu aşağıdakı kimi hazırlamaq olar: 3 xörək qaşığı çobanyastığı çiçəyini 200 ml qaynar suya töküb dəmləyin. Sonra süzgəcdən süzüb, üzərinə 50 qram marqarin yağı əridib əlavə edin, cövhəri ehtiyatla qarışdırıb, soyumağa buraxın. Alınan kremi soyuducuda saxlayın.

Çobanyastısı, sürvə, çökə çiçəyi və çöl qatırquyruğundan hazırlanan dəmləmə ilə quru dərinin elastikliyi artır. Müntəzəm olaraq üzü kətan toxumunun, ya da gülxətmi kökünün dəmləməsi ilə silməyi məsləhət görürlər.

## BÜZÜŞƏN DƏRİ ÜÇÜN LOSYON

Bunu aşağıdakı kimi hazırlamaq olar: yarpız, çobanyastığı çiçəyi, quşarmudunun yarpaq və meyvəsini, yarı limon götürüb 3 stəkan qaynar suya töküb zəif od üzərində 30 dəqiqə saxlayın. Sonra od üzərindən götürüb, 10 dəqiqə sakit buraxın. Sonra fil- tirdən süzüb, üzərinə çiçək ətri və qlisirin əlavə edib, istifadə edin.

## QURU SUSUZ DƏRİ ÜÇÜN LOSYON

Sürvə, boymadərən çiçəyi, çobanyastığı, dəvədaban yarpağı, gülxətmi kökü, kəklikotu, çöl qatırquyruğu qarışığından 2 xörək qaşığı götürüb, 200 ml qaynar suya töküb, 8-12 saat dəmləyin. Sonra filtirdən süzüb, üzərinə 2 çay qaşığı çiçək ətri əlavə edin.

## QIRIŞIQ DƏRİ ÜÇÜN LOSYON

Sürvə yarpacjı, çobanyastığı, çökərçiçəyi və dazıotu qarışığından 1 çay qaşığı götürüb, 2 stəkan qaynar suda 30 dəqiqə dəmləyin. Sonra süzgəcdən süzüb üzərinə 2 xörək qaşığı araq və 1

xörək qaşığı ətir əlavə edir. Müntəzəm olaraq üzünüzü gündə 2 dəfə silin.

## *QURU, susuz TEZ QLCIQLANAN DƏRI ÜÇÜN LOSYON*

Sürvə, boymadərən, dazıotu, çobanyastığı, dəvədabanı qarışığından 2 xörək qaşığı götürüb, 2 stəkan qaynar suda dəmləyib, 30 dəqiqə sakit halda buraxın. Sonra süzgəcdən süzüb, üzərinə 2 xörək qaşığı araq və 2 ampula B, vitamini əlavə edin.

*Novruzgülü çövhəri.* 3 xörək qaşığı novruzgülü yarpağından götürüb 500 ml qaynar suya töküb, 30 dəqiqə sakit buraxdıqdan sonra süzüb, yaş sarğı ilə üzüntüsü silin.

*Meşə çiyələyi cövhəri.* 2-3 xörək qaşığı çiyələk meyvəsindən götürüb əzib, 2 stəkan qaynadılmış soyuq suyun üzərinə tökün. Sonra 1,5-2 saat saxlayıb filtirdən keçirin. Alınmış cövhəri pambıqla isladıb üzünüzü silin.

# *ÜZ MASKASI*

Üz dərisinə qulluq etmək üçün ən geniş yayılan prosedura maska sayılır. Kosmetik maska üz dərisini qidalandırır, qan təzyiqini nizamlayır, dərinin fəaliyyətini artırır və onu vitaminlə zənginləşdirir. Maska dəridə möhkəm örtük əmələ gətirərək, qızdırıcı sarğı rolunu oynayır, dərinin dərin qatlarına işləyir, tər və piy vəzilərinin fəaliyyətini artırır. Şübhəsiz ki, maska əməliyyatından həddindən artıq sui-istifadə etmək olmaz. Normal dərisi olan cavan qadınlar 2 həftədən bir, yaşlı qadınlar isə həftədə bir dəfə, quru dərisi olan qadınlar isə hər gün maskadan istifadə edə bilərlər. Sifətində çoxlu cod tükləri və damarları geniş olan dərilərdə maskadan istifadə etməyi məsləhət görmürlər.

# SİFƏTƏ MASKANIN ÇƏKİLMƏSİ

Maska yaxmazdan qabaq üzünüzü yuyun və yaxud losyonla silin. Bu zaman maska dəriyə yaxşı hopur və dərinin dartılması kimi xoşagəlməz qüsurlar yaranmır. Maskanı götürüb barmaqların ucunun yüngül hərəkəti ilə üzə yaxırlar.

Maskanı alının ortasından başlayıb gicgahlara doğru istiqamətdə sürtürlər. Gözlərin ətrafına maska burun tərəfindən başlayıb qaşlar boyu, göz altına isə xaricdən başlayıb buruna doğru istiqamətdə sürtürlər. Buruna isə maskanı üstdən başlayıb aşağıya və yanlara doğru hərəkət etməklə yaxırlar.

Yanaqlara maskanı əvvəl burun-dodaq büküyündən, sonra ağızın künclərindən gicgahlara və çənənin ortasından başlayıb qulaqlara doğru getməklə çəkmək lazımdır.

Dodaqların ətrafına maska sağ əlin orta barmağı ilə ağızın sağ küncündən başlayaraq sürtülür. Çənəyə qoyulmuş az miqdarda maska ovucun içi ilə sürtülür. Buxağa və boyuna maska hər iki əlin barmaqları ilə qulaqlarından körpücük sümüyünə doğru istiqamətində sürtülür. Sifətə maska çəkildikdən sonra barmaqların ucu ilə astaca döyəcləməklə dəriyə hopdurulur. Bundan sonra isti suda isladılmış salfeti 2-3 dəqiqə sifətinizdə saxlayın. Bu zaman üzün əzələsi istinərək genişlənir, qida maskasını canına yaxşı çəkir. Həsas dərilərdə isti yaş sarğılarından istifadə etməyi məsləhət görürlər. Maskanı sifətdə uzanmış və bdən əzələsini boşalmış halda 15-20 dəqiqə saxlamağı məsləhət görürlər.

Bitkilərdən kosmetik məhsulları hazırlayan zaman əlinizin altında yağ, süd, kəsmik, qaymaq, tərəvəz, yumurta və s. də olmalıdır.

*Quru dəri maskaları.*^ növ dərilər üçün qida maskalarından istifadə etməyi məsləhət görürlər. Ən sadəsi isə yağlı maskadır. Bu cür maskanı istənilən növ yağlardan hazırlamaq olar. Pambığı qızdırılmış yağa batırıb üzünüzə qoyun. Sonra pambıq tıxacı isti suda isladıb üzünüzü sildikdən sonra, soyuq əski ilə qurudun. Kəsmik maskası dərini yaxşı qidalandıraraq, onun elastikliyini artırır. Kəsmik maskasını hazırlamaq üçün 2 xörək qaşığı kəsmik götürüb, üzərinə 2 çay qaşığı yağ əlavə edib qarışdırın. Sonra bu

maskadan götürüb üzünüzə yaxın.

Quru qaxac qırışıqlı dərilərdə 2 növ maskadan istifadə etməyi məsləhət görürlər. 1-ci dəriyə dartıcı təsir edən zülal maskasını sürtməyi məsləhət görürlər. Bunun üçün yaxşı qatışdırılmış yumurta zülalının üzərinə 10-12 damcı şirə əlavə edib, qarışdırıb sifətə sürtüb 2-3 dəqiqə saxladıqdan sonra isti su ilə yuyub təmizləyin. 2-ci 1 çay qaşığı bitki yağının üzərinə 10 damcı şirə əlavə edib, alınmış qarışıqdan sifətə yaxıb, 20 dəqiqə saxladıqdan sonra üzünüzü təmizləyib, sonra soyuq su ilə yuyun.

Aşağıdakı qidalandırıcı maskaları da məsləhət görmək olar.

*Ba!maskası.* 1/1 xörək qaşığı bal, 1 ədəd yumurta sarısı və 1 çay qaşığı bitki yağı götürüb yaxşı-yaxşı qarışdırıb həmin maskadan sifətinizə sürtüb, 14 dəqiqə saxlayın.

2/1 çay qaşığı bal ağarıncayadək çalınıb üstünə bir az təzə süd əlavə olunur.

*Vələmir-bal maskası.* 30 qram bal, 1 çay qaşığı limon şirəsi, 2 şaqış zülal və yarı çay qaşığı yağ götürüb, yaxşı qarışdırın. Sonra qatışığın üzərinə 1 xörək qaşığı narın hala salınmış vələ- mir əlavə edib, qatı kütlə halına düşənə qədər qarışdırın. Alınmış maskadan sifət və boyun nahiyyəsinə yaxıb 20 dəqiqə saxlayın.

*Meyvə-tərəvəz maskası.* Süzgəcdən keçirilmiş (moruq, çiyələk, alma, gavalı, ərik, şaftalı və s. meyvələrindən) alınan şirənin üzərinə 1 ədəd yumurta sarısı əlavə edib qarışdırın. Sonra bu maskadan götürüb sifətinizə sürtüb 10-15 dəqiqə saxladıqdan sonra üzünüzü əvvəlcə isti, sonra isə soyuq su ilə yuyub təmizləyin. Həssas dərilər üçün bu maskadan istifadə etməyi məsləhət görmürlər.

*Moruq maskası.* 100 qram moruq meyvəsini cunadan keçirib, şirəsini çıxarın. Sonra üzərinə 2 xörək qaşığı təzə süd əlavə edin. Alınmış maskadan üzünüzə sürtüb 15 dəqiqə saxladıqdan sonra üzünüzü soyuq su ilə yuyub təmizləyin.

*Alma maskası.* Almanın yarısını süzgəcdən keçirib, üzərinə 1 xörək qaşığı bal, 1 ədəd yumurta sarısı, 1 çay qaşığı askorbin tur- şusu, 1 çay qasığı sirkə turşusu, 1 çay qaşığı şirə əlavə edib qa- rışdırın. Sonra bu maskadan üzünüzə sürtüb 30 dəqiqə saxlayın.

*Xiyar maskası.* 2 çay qaşığı əzilmiş xiyar 1 çay qaşığı təzə südlə qarışdırılıb, saxladıqdan sonra soyuq su ilə yuyub təmizlə-

yin. Qış aylarında dondurulmuş meyvə və giləmeyvələrdən maskalar hazırlayıb istifadə etmək olar.

Maskaların dəriyə yaxşı təsir etsin deyə çobanyastığı çiçəyindən, dəvədabanı çaytikanı yarpaqlarından, boymadərən, novruz-çiçəyindən hazırlanan isti cövhərdən yaş sarğı hazırlayıb sifəti örtməyi məsləhət görürlər.

*Ot maskası.* Bu cür maskalar solub təravətini itirmiş sifət dəriləri üçün nəzərdə tutulur. Bunu aşağıdakı kimi hazırlamaq olar: təzə çiyələk, qarağat, bağayarpağı, çökə, boymadərən götürüb, ət maşınından keçirib, 4 xörək qaşığı suya töküb, qatı xama halına düşənə qədər qaynadın. Sonra soyudub sifət və boyun nahiyyələrinə sürtün.

*Quru ot maskası.* Bu cür maskalar yumuşaldıcı təsirə malik olurlar. Bunu aşağıdakı kimi hazırlamaq olar: çobanyastığı, çökə çiçəyi, dazıotu, yarpız yarpağı, qızılgül ləçəklərini, kofe dəyirmanından keçirin. Sonra həmin qarışıqdan 2 xörək qaşığı götürüb, qaynar suya töküb, sıyıq halına salıb, üzərinə 1 çay qaşığı istənilən bitki yağından əlavə edib, bədən temperaturuna endirib üzünüzə yaxın. Yaxmanı sifətinizdə 15-20 dəqiqə saxladıqdan sonra isti su ilə yuyub təmizləyin. Bal və çiyələk maskası sifətin dərisinə ola bilər ki, qıcıqlandırıcı təsir göstərsin. Odur ki, belə maskanı qoymamışdan qabaq onun allergik reaksiya baş verməyəcəyinə əmin olmaq lazımdır. Bunun üçün qulağın arxasında dərinin kiçik bir hissəsinə baldan, yaxud çiyələk əzməsindən çəkib 15 dəqiqədən sonra qaynanmış su ilə yuyurlar. Yüksək həssaslıq özünü gicitkən dalamasını xatırladan səpgi şəkilində qıcıqlanma və göynəmə kimi dərhal, ya da bir müddətdən sonra büruzə verir.

Kişilərdə quru dəriyə qadınlara nisbətən daha az təsadüf olunur. Belə hallarda üzü qırxmaq əzab-əziyyətə çevrilir, çünki bundan sonra üzün dərisi qıcıqlanır və göynəyir. Buna yol verməmək üçün üzü qırxmamışdan 5 dəqiqə əvvəl nəmişləndirici krem çəkməyi məsləhət görürlər.

# *YAĞLI DƏRİ*

Belə tipli dəri piy vəzilərinin ifrat sekrasiyası ilə xarakterizə olunur. Bu, insan həyatının hər bir dövründə baş verə bilər. Lakin yağlı dəri qızlarda və oğlanlarda daha çox cinsi yetişkənlik dövründə müşahidə olunur. Sekressiyanın artmasına səbəb pis qidalanma, mədə-bağırsaq traktınn xəstəlikləri, vitamin çatışmazlığı, vegetativ sinir sisteminin pozğunluğu ola bilər.

Piy vəzilərinin yüksək sekresiyası tozlu binalarda işləyənlər üçün daha xoşagəlməzdir. Toz dəri yağı üzərinə qonur, sonra onda həll olunub dəriyə keçir və dərini qıcıqlandırır. Bu yolla dəriyə keçən zəhərli maddələr zəhərlənməyə səbəb ola bilər.

Yağlı dəri çox hallarda boz rəngdə olur, parıldayır, üzərində çox vaxt tünd nöqtələr-məsamələr görünür, bəzən genişlənib portağalın qabığını xatırladır. Yağlı dəri atmosfer amillərinin təsirinə, sabun və suya yaxşı davam gətirir, ancan infeksiya və soyuqdəymə pis təsir göstərir. Yağılı dərilərin müsbət xüsusiyyətləri də vardır. Belə ki, uzun müddət yumuşaq, elastik olur, qarışıqlar gec əmələ gəlir. İnsan yaşa dolduqca daha da yaxşılaşır. Yağlı dərilərə qulluq edərkən bütün gigenik tələblərə riayət etmək lazımdır.

Dərisi yağlı olan qadınlar özlərinə fikir verməli, mümkünsə üzlərinə əl vurmamalı, qaşımamalı və cızmamalıdırlar. Əlləri və üzləri həmişə təmiz olmalı, dırnaqları qısa tutulmalıdır. Çivzələri sıxıb çıxarmaq qətiyyən olmaz.

Yağlı dərini gündə iki dəfə neytral tualet və qliserinli “Meşə”, “Bomotimol” sabunları ilə yumağı əsləhət görürlər. Yağlı dəriləri sabunla yuduqda sifətə ılıq su ilə, sonra soyuq su ilə yaxalamağı məsləhət görürlər. Axşamlar yağlı dərini “Çobanyastığı”, “Start” losyonları ilə təmizləməyi məsləhə görürlər.

Ev şəraitində hazırlanan losyondan da istifadə etmək olar.

Bunun üçün dərman bədrəncini 1:5 nisbətində arağın üzərinə töküb, 5 gün sakit halda saxladıqdan sonra üzərinə 2 hissə su əlavə edin. Sonra pambıq tıxacı cövhərə batırıb sifətinizi silib təmizləyin.

Yağlı dəriləri duzlu su ilə yumaq daha faydalı sayılır. Suya bir qədər yəni 1 l suya bir çay qaşığı düz töküb qarışdırın. Sonra pambığı duzlu suda isladıb yağlı sahə hesab edilən burun, çənə və alın nahiyyələrini silib təmizləyin. Dəri quruduqdan sonra köpüyü təmizləyin. Bu zaman dəri quruyur və tonusu artır. Sabun əvəzinə bəzən süd zərdabından istifadə eləyir, sonra üzü ılıq su ilə yaxalayır və pambığı yağlı dəri üçün olan losyona batırıb silirlər. Həssas olan dərini duzlu su ilə yumağı məsləhət görmürlər. Çünki belə dərilərdə kəskin qıcıqlanma hadisəsi baş verə bilər. Həssas dəriləri 11 suya 1 çay qaşığı içməli soda və yaxud 1 çay qaşığı borat turşusu töküb qarışdırıb, pambığı batırıb silməyi məsləhət görürlər. Piy vəzilərinin orta sekresiya zamanı evdə hazırlanmış aşağıdakı vasitə ilə dərini daha yaxşı dezinfeksiya etmək olar: 1 stəkan qaynar suda 1 çay qaşığı borat turşusu həll edir, 20 damcı qliserin töküb soyudurlar, sonra ona yarım stəkan araq tökürlər.

Sarıya çalan dərini xiyar şirəsi ilə silmək olar, bunu özünüz də hazırlaya bilərsiniz: bunun üçün təmiz yuyulmuş xiyarı nazik dilimlərlə doğrayır, üstünə 1 stəkan araq töküb, 10 gün saxladıqdan sonra mayeni süzür və ayrıca şüşəyə töküb ağzını bərk bağlayırlar.

Xırda çivzəli dərini qatıqla silmək, ya da qatıq maskası qoymaq olar. Bunun üçün tənzifi bir neçə qat qatlayıb gözlər, ağız üçün deşik açır, sonra turşumuş süddə isladıb üzə qoyurlar, 15- 30 dəqiqədən sonra qurumuş tənzifi yenidən isladıb üzə qoyurlar. Bundan sonra həmin tənziflə üzü silir, əvvəlcə ılıq, sonra soyuq su ilə yuyurlar. Belə maskaları həftədə iki dəfə olmaqla 6-8 həftə ərzində təkrar etmək lazımdır.

Sadə və yağlı dərini isə dazıotu, tozağacı, at bıtrağı kökündən hazırlanan təzə şirə ilə axşam və səhərlər silməyi məsləhət görürlər. Sifətdə olan məsamələrin normal hala salınması üçün çobanyastığı, sürvə, gülümbahar, dazıotu və yovşan qatışığından hazırlanmış cövhərlə yumağı məsləhət görürlər. Bəzən yağlı dəri yuyulandan sonra dartılmağa başlayır, qabıq verir və qızarır. Belə hallarda üzü çobanyastığı (1 stəkan suya 1 çay qaşığı ot) dəmləməsi ilə yumağı məsləhət görürlər. Əgər çivzələr böyük deyilsə üzü vələmir dəmləməsi ilə (1 stəkan suya 2 xörək qaşığı vələmir və 1 çay qaşığı duz əlavə edib) yumaq yaxşıdır, sonra üzü turş su ilə (turş alma qabıqları, ya da limon qabıqlarının üstünə ılıq su töküb 2 saat saxlanılır) yaxalayırlar.

Yağlı dərini təmizləmək üçün qaraqınıqdan hazırlanmış losyondan istifadə etməsi məsləhət görürlər. Bunu belə hazırlayırlar: 20 qram qaraqınıq otunu, 200 ml arağın üzərinə töküb 7-10 gün sakit halda saxlayıb, sonra süzgəcdən süzüb 1:1 nisbətində üzərinə su əlavə edib, hər gün dərinizi silməyi məsləhət görürük.

Yağlı dərini təmizləmək üçün yaş sarğı kimi qoz yarpaqlarından istifadə etməyi məsləhət görürlər. Bunun üçün 4-5 xörək qaşığı toz halına salınmış qoz yarpağından götürüb, 0,5 litr qaynar suya töküb, zəif od üzərində qaynadın. Sonra süzgəcdən keçirib möhkəm bez və yaxud 3-4 qatlanmış cunanı alınmış məhlula salıb yaxşı-yaxşı isladıb sifətinizə qoyub 15-20 dəqiqə saxlayın. Hərgay yağlı dəri dartılarsa və yaxud qabıq qoyarsa bu zaman “Ulıbka”, “Lotos”, “İdeal”, “Leninqrad" və s. yumuşaldıcı kremlər- dən istifadə etməyi məsləhət görürlər.

Üzü çivzəli, lakin dərisi çox həssas olmayan qadınlar üzlərini sabunla yuduqdan sonra 3%-li Hidrogen-pereoksid və vələmir dəmləməsindən hazırlanmış məhlulla silib, soyuq su ilə yaxalamağı məsələhət görürlər. Yuyunduqdan sonra kirşanlanmamış- dan əvvəl üzə nəmləşdirici, ya da uşaq kremi çəkmək lazımdır.

Çox həssas yağlı dərisi olanlara çalınmış yumurta ağından, 1

həb S və B vitaminlərdən və çay qaşığı kartof unundan hazırlanmış maska yaxşı kömək edir. Bunun üçün vitamin həbləri 2 xörək qaşığı qaynar suda əridilir. 1 çay qaşığı kartof unu və çalınmış yumurta ağı əlavə edilir. Maska 20-30 dəqiqəliyə üzə yaxılır və sonra çobanyastığı dəmləməsi ilə yuyulur.

*Maya maskası.* 10 qram mayanın üzərinə bir az qatıq əlavə edib, xama halına düşənə qədər qarışdırıb, üzərinə 1 çay qaşığı istənilən meyvə və yaxud yarpaq şirəsi əlavə edib dərinizə sürtün.

*Meyvə-tərəvəz maskas/.* Yumurtanın ağ hissəsinə 1 xörək qaşığı istənilən təzə tərəvəz, meyvə və giləmeyvə şirəsi əlavə edib qarışdırın. Sonra alınmış maskadan üzünüzə sürtün.

*Çiyələk maskas/.* 1,5-2 xörək qaşığı çiyələk meyvəsini əzib, yumurta zülalı ilə qarışdırıb, üzərinə 1 xörək qaşığı nişasta və 1 xörək qaşığı bitki yağı əlavə edib qarışdırın. Sonra alınmış maskadan götürüb üzünüzə yaxın.

*Alma maskas/.* Sürtgəcdən keçirilmiş 2 qaşıq turşa-şirin almanın üzərinə, çalınmış yumurta ağı, ya da 1 çay qaşığı kartof unu töküb qarışdırın.

*Badam Hə ot maskas/.* Bərabər miqdarda çobanyastığı, çökə, kəndalaş çiçəklərindən götürüb cövhər hazırlayın. Sonra bir xörək qaşığı narın hala salınmış badam içi götürüb, cövhərin üzərinə töküb 1/1 çay qaşığı bal və 1 çay qaşığı un əlavə edib, etiyatla sıyıq halına düşənə qədər qarışdırın. Alınmış sıyıqdan isti halda sifətinizə sürtün 30 dəqiqə saxladıqdan sonra yuyub təmizləyin.

Yağlı dərilər üçün hazırlanan maskaları bir sıra dərman bitkilərindən-gicitkən, iri bağayarpağından, çöl qatırquyruğundan, üç rəngli bənövşədən, boymadərəndən, çoban yastığından, quş üzümündən, kəndalaşdan, yarpızdan və s. hazırlamaq olar.

Yağlı dərisi olan yaşlı adamlarda artıq gözədəyən qırışlar (ələlxüsus, gözlərin qırağında və boynunda) əmələ gəldikdə on

lar tərkibində jenşendən, ciftdən alınmış şirə, xlorofil, qoyunqıran və s. cövhərlər olan yarıyağlı krem çəkə bilərlər.

Dərisi yağlı olan qadınlar kosmetikadan ancaq dərini qorumaq məqsədilə istifadə etməlidirlər. Qızlar və cavan qadınlar kirşandan ancaq gigiyenik vasitə kimi üzü qurutmaq üçün, istifadə etməlidirlər. Yağlı dərili qadınlar kirşanı üzə qalın qatla çəkməlidirlər. Lakin lazım olduqda kirşanın altından dərman bitkiləri cövhəri olan xüsusi yağlı krem çəkə bilərlər. Yağlı dəri üçün ənlik (rumyana) quru olmalıdır. Yuyunmamışdan əvvəl üzdəki yaxmaları kosmetik südlə yumaq lazımdır.

Yağlı dəri müntəzəm olaraq çivzələrdən təmizlənməlidir. Ya- xışı olar ki, bu məqsədlə kosmetik kabinelərə müraciət edəsiniz, lakin bəzən bunu evdə də eləmək olar, belə hallarda gigiyenik tələblərə maksimum riayət olunmalıdır. Əməliyyata başlamazdan əvvəl əlləri və üzü sabun və dezinfesiyaedici maddələrin qarışığı ilə yumaq lazımdır. Sonra buğ hamalı hazırlanmalıdır. Bunun üçün 2 xörək qaşığı çobanyastığı, sürvə və pıtraq kökündən götürüb 2 litr qaynar suya tökülür və 30 dəqiqə ağzı bağlı halda saxlanır. Bundan sonra məhlul qaynadılır və ləyənə tökülür. Başa hamam dəsmalı örtülür, üz ləyəndəki süyün üzərinə tutulur. 10- 15 dəiqiqə üzü tərlətdikdən sonra dəsmalla yüngülcə qurulanır, cizvə olan yerlər sıxılır. Fikir vermək lazımdır ki, piy vəzilərinin içi tam təmizlənsin, əks-təqdirdə həmin yerlərdə irinli sızanaqlar əmələ gələ bilər. Üzün dərisini təmizlədikdən sonra isti çobanyastığı məhlululu ilə yuyunmaq lazımdır. Buna 1 çay qaşığı at pıtrağı şirəsi əlavə etməyi məsləhət görürlər. Sonra üzün dərisini yığacaq bir maddə çəkmək, ya da çalınmış yumurta ağı və bir neçə damcı limon turşusunun hazırlanmış dartıcı qoymaq lazımdır. Əgər dəri hər hansı qıcıqlandırıcılara qarşı çox həssasdırsa, onda 1 xörək qaşığı döyülmüş vələmir, 1 xörək qaşığı quru süd və 1 xörək qaşığı çobanyastığı məhlulundan hazırlanmış maska qoymağı məsləhət görürək.

# *QARIŞIQ DƏRİ TİPLƏRİ*

Qarışıq dəri tiplərinə həm gənclər, həm də yaşlılar arasında çox təsadüf olunur. Belə hallarda sifətin orta hissəsi, yəni çənə, burun və alın yağlı,yanaqlar isə quru, ya da normal olur. Qarışıq dəri tiplərində fərq nə qədər çox olarsa, ona qulluq da bir o qədər çətinləşər. Yanaqlarda dəri normal, burun və çənədə piy vəzilərinin sekresiyası çox fəal olmadıqda üz uşaq sabunu ilə yuyulur. Yuyandan bir gün sonra üzün yağlı yerlərini yağlı dəri üçün məsləhət görülən losyonla silir, yanaqlara isə azca nəmləşdirici, ya da yarıyağlı krem çəkilir.

Civzə olan yerlərə mərmər tozu, ya da kosmetik kəpək sürtürlər. Kosmetik kəpəyi belə hazırlayırlar: bir tikə arpa çörəyi mətbəx piltəsində qurudulur, sonra həvəngdəstədə döyülür, ələkdən keçirilib bankaya tökülür. Sonra bu kəpəkdən 1 çay qaşığı götürülür və 3%-li hidrogen-pereoksidlə elə qarışdırılır ki, sıyıq alınsın. Sıyıq pambıqla civzə olan yerlərə sürtülür. Sonra bütün sifət süd məhlulu (1 stəkan qaynar suya 2 çay qaşığı süd) ilə yuyulur. Yuyunub qurtardıqdan sonra üzün yağlı yerlərinə dərini yığmaq üçün losyon sürtürlər, yanaqlara isə qidalandırıcı krem çəkilir.

Sifətində irinli sızanaqlar olan qadınlar kəpəkdən istifadə etməməlidirlər. Axşam sabunla yuyundaqdan sonra burun və çənəyə təmizləyici krem, sızanaqlara isə Lassar pastası çəkməyi məsləhət görürlər.

Suyu və sabunu götürməyən qarışıq tipli dərini axşamlar çobanyastığı dəmləməsi, ya da süd məhlulu ilə yumaq, yanaqlara isə qidalandırıcı, ya da yarıyağlı krem çəkməyi məsləhət görürlər.

Dərisi qarışıq tipli olanlar üzərinə iki cür maska qoymalıdırlar, birini yanaqlara və boyuna, digərini alına, buruna və çənəyə. Yuxarıda təsvir etdiyimiz yağlı və quru dəri üçün olan maskalardan savayı, meşə çiyələyi maskasından da istifadə etməyi məsləhət görürlər.

# GÖZLƏRƏ QULLUQ

Gözəl gözlər birinci növbədə sağlam gözlərdir. Bizim gözlərimizin sağlamlığı, qidamızın keyfiyyətindən və tərkibindəki A, B, D, S, və s. vitaminlərin zənginliyindən asılıdır. Boğanaq və tüstülü otaqlar gözlər tam sağlam olduqda belə gözlərə mənfi təsir göstərir. Çalışın belə, otaqlarda uzun müddət qalmayın çünki tüstü gözün selikli qişasını qıcıqlandırır, bunun nəticəsində gözlər qızarır və yaşarır. İş vaxtı çalışmaq lazımdır ki, parlaq, lakin gözü qamaşdırmayan işıq sol tərəfdən düşsün. Parlaq gün işığında gözləri qıymamaq üçün qara gözlüklü eynək taxmaq tövsiyyə olunur. Lakin belə eynək lüzumsuz taxıldıqda ziyan verir. Gözlər tam sağlam olduqda da 2-3 ildən bir dəfə gözün ziyasını yoxlamaq üçün göz həkiminə müraciət etmək lazımdır.

Gözlər üçün ən yaxşı istirahət yuxudur. Gecə yuxusundan başqa, gərginlik tələb edən işdən sonra da (məsələn, uzun müddət oxuduqda, yazdıqda, tikdikdə və s.) gözlərin əlavə istirahətə ehtiyacı olur. Bu vaxt işi dayandırıb sakitcə oturmaq, düz qabağa baxmaq, ya da gözləri yumaq tvövsiyyə olunur. Gözləri yumub 10 dəqiqə uzansanız daha yaxşı olar.

Normal yuxu yatmayan zaman, gözün ətrafında olan dəri qırışır, elastikliyi pozulur, gözün aşağı nahiyyəsində “kisə” əmələ gəlir. Bu cür çatışmazlıqları aradan qaldırmaq üçün göz dərisinin üzərində süd və yaxud su buzu qoymağı məsləhət görürlər.

Göz qızartısını aradan qaldırmaq üçün göz qapağını təzə xiyar şirəsi ilə silin və yaxud gözü qapayıb xiyarı yarıya bölüb üzərinə qoyaraq 15 dəqiqə saxlamağı məsləhət görürlər. Göz soyuqdəymələrini aradan qaldırmaq üçün çobanyastığı sarğısından istifadə etməsi məsləhət görürlər. Göz qapağı şişlərini aradan qal

dırmaqdan ötrü isə həmin nahiyyəiərin üzərinə süzgəcdən keçirilmiş kartof sıyığından götürüb, cuna salfetkasına büküb qoymağı məsləhət görürlər.

Göz qapağı şişləri aradan qaldırmaq üçün sürvə cövhərində isladılmış isti və soyuq pambıq tıxacından istifadə etməyi məsləhət görürlər.

Gözətrafı dəri də diqqətli qayğı tələb edir-axı, burada əzələ lifləri və piy toxuması çox azdır, ona görə də dəri çox zərif və nazikdir. Onun dartılmasının, vaxtından qabaq qırışmasının və göz qapaqlarının soluxmasının qarşısını almaq üçün kosmetikadan düzgün istifadə etməyi bacarmaq lazımdır. Bunun üçün kirpiklərə göz qapaqlarına bir qədər yumuşaldıcı krem (yaxşı olar ki, ya- rıduru olsun), ya da kirpiklər üçün olan xüsusi təmizləyici krem çəkilir. Sonra nəm pambıqla (pambığı sızdıqda su axmamalıdır) kirpiklərdən tuş silinir. Pambığı aşağıdan yuxarı aparıb tuşu silməyi məsləhət görürlər.

Üzü yuduqdan sonra alt və üst göz qapaqlarını çayın dəmi və ya da göyçiçək dəməməsi ilə yumağı məsləhət görürlər.

# QOY ÇİL SİZİ MƏYUS ETMƏSİN

Günəşin təsiri nəticəsində bir çox qadınların sifətində çil əmələ gəlir. Çillər, adətən, yazda görünməyə başlayır, yayda daha da aydınlaşır, payızda solğunlaşır və qışda tamam yox olur. Çilin sifətdə əmələ gəlməsi qadınları çox məyus hala salır. Bəzən isə çil sifətə xüsusi gözəllikdə verir. Qeyd etmək lazımdır ki, çil- lin qarşısını qabaqcadan almaq çox asan olur, nəinki sonradan. Sifətində çillər əmələ gələn qadınlar artıq yaz gələrkən üzlərini günəş şüalarından qorumalı, ona qarşı olan krem və kirşandan istifadə etməlidirlər. Əgər sizdə yaz günəşinin şüalarına meyillik varsa, küçəyə çıxmamışdan qabaq, “Luç”, “Foton”, “Spektr”, “Ve- resk” kremlərindən nazik halda sifətinizə sürtün. Bu kremlərin tərkibində dərini ultrabənöyşəyi şüalardan qoruyan maddələr vardır. Bundan əlavə dərinizə tünd pudralardan: “Kurortnaya, “Raşel” və s. sürtməyi məsləhət görürlər. Qeyd etmək lazımdır ki, günəş şüalarına qarşı istifadə edilən kremlərin qoruyucu qabiliyyəti 2-3 saatdır. Hərgah siz günəş qarşısında çox qalarsınızsa bu prosesi yenidən, ikinci dəfə təkarar etməli olacaqsınız. Əgər sifətdə artıq çil əmələ gəlibsə, onda ağardıcı təsirə malik olan “Me- lan”, “Axromin”, “Moloçay”, “Vesna” Kremlərindən istifadə etməyi məsləhət görürlər.

Üzü müntəzəm olaraq süd zərdabı ilə yumağı məsləhət görürlər. Çilə qarşı mübarizədə yaxşı olar ki, limon şirəsi, təzə xiyar və novruzçiçəyindən hazırlanmış sıyıqla gündə 2-3 dəfə sifətinizi si- ləsiniz. Çiyələk, pamidor və qaragilə maskaları da ağardıcı xüsu- siyyətə malikdir. Onları təmiz yuyulmuş üzə qoyur və 15-20 də- qiqədən sonra çökə və zəncirotu (1 l suya 1 xörək qaşığı çiçək) cövhəri ilə siilirlər. Çilə qarşı mübarizə aparmaq üçün anaızın kök və kökümsovundan, ağ tozağacının yarpaq və tumurcuğundan alınan cövhərlərdən istifadə etməyi məsləhət görürlər. Bir çox meyvə və giləmeyvə şirələri də çilə qarşı yaxşı təsir göstərir. Meyvə və giləmeyvələri əzib sıyıq halına salıb, sifətinizi örtüb 15- 20 dəqiqə saxladıqdan sonra soyuq su ilə yuyub təmizləyin. Əməliyyatı həftədə 1-2 dəfə təkrar edin. Alınmış şirələrdən 1,5-2 ay ərzində istifadə etməyi məsləhət görürlər. Əgər dəriniz quru

dursa şirə yaxma əməliyyatlarından sonra qida kremlərindən istifadə etməyi unutmayın.

Əgər çillər çox tünd, ya da çoxdursa, onda dərinin rəngini yerkökü şirəsi ilə düzəltmək olar, bunu gündə iki dəfə axşam və səhərlər sürtürlər. Şirə quruyandan sonra üzü təzə süd qatılmış su ilə (1 stəkan suya 1 xörək qaşığı süd) yaxalayırlar.

Nəzərə çarpan nəticəni almaq üçün yuxarıda göstərdiyimiz müalicə uzun müddət aparılmalıdır. Müalicəyə qışda (yanvarın axırı, fevralın əvvəli), çillər tamam olduqda başlamaq lazımdır.

Çillərə qarşı mübarizə aparmaq üçün qidanın tərkibi S, PP və P vitaminləri ilə zəngin olmalıdır.

## *PİQMENT LƏKƏLƏRİNDƏN XİLAS OLMAQ OLAR*

İsti yay havalarında üz dərisinə xüsusi diqqəti artırmaq lazımdır. Uzun müddət parlaq günəş şüasının altında qaldıqda sifətin dərisi quruyub, qabıq qoymağa başlayır.

Bu zaman həssaslığı artır və piqment ləkələri əmələ gəlməyə başlayır. Yaşlı qadınlarda sifətin qızartısı artır. Bu zaman qoruyucu kremlərdən, çətirlərdən istifadə etməyi məsləhət görürlər. Yayda ən çox bitki, meyvə və giləmeyvələrdən: çiyələk, quşəp- pəyi, dəmirovotu, zəncirotu və bağayarpağı yarpaqlarından hazırlanmış maskalardan istifadə etməyi məsləhət görürlər.

*“Badam* südü"maskasının da xeyiri çoxdur. Bunu aşağıdakı üsulla hazırlayırlar: 100 q badam götürüb, isladaraq qabığını soyun, və sonra üzərinə 100 q bal əlavə edib, 2 litr suya tökün. Sonra süzgəcdən keçirib, alınan qatışıqdan gündə 1-2 dəfə üzünüzə sürtüb, 15-20 dəqiqə saxladıqdan sonra soyuq su ilə yuyub təmizləyin.

Parlaq günəş-dərinin düşmənidir. Az miqdarda isə onun dostudur. Günəş şüası yağlı dərini qurudur, soyuq dəyməni müalicə edir.

Günəş vannası qəbul edən zaman gözünüzə pambıq tıxacı

qoyun. Bu göz qapağı dərisini günəş şüalarından qoruyur. Günəş vannası qəbul edən zaman kəskin qaralmağa qarşı “Niva” “xloro- fllli”, “Qaralma yağı”, “Nijnaya” və s. yağ qatılmış kremlərdən istifadə edilir. Bu kremlər dərini qurumaqdan, yanmaqdan, qorumaqla yanaşı, yanmağı qaydaya salır, dəriyə gözəl rəng və sağlam görünüş bəxş edir.

## *BƏDƏNƏ DAİM QULLUQ ETMƏK LAZIMDIR*

Dəri nəinki müdafiə edir. Bədən dərisinə qulluq etmək gigie- nik xüsusiyyət kəsb edir. Bəzən elə olur ki, üz dərisinə bədən dərisinə nisbətən daha çox qayğı göstərirsiniz. Axı dəri mürəkkəb bioloji mexanizmidir. Yaşlı insanlarda dərinin səthi 1,5-2 kvadrat metrdir. Dəri bir sıra ən vacib həyat funksiyalarını yerinə yetirir. Belə ki, orqanizmin bir çox xarici təsirlərindən, mexaniki zədə- lənmələrdən, bir sıra infeksiya xəstəliklərindən qorumaqla yanaşı, temperaturu nizama salır, tənəffüs prosesində iştirak edir, tər və dəri piyi əmələ gətirir və sairə.

Bundan başqa dəri orqanizmdə baş verən-su, duz, zülal, sulu karbohidrat və piy və s. bir sözlə ümumi maddələr mübadiləsində geniş iştirak edir. Ona görə də dərinin sağlamlığı üçün ona xüsusi qulluq etməyi heç vaxt unutmaq olmaz. Biz dəriyə nəinki qulluq etməliyik, həm də ona minnətdar olmalıyıq. Bizim dərimizin vəziyyəti nəsildən asılı olmaqla yanaşı, ətraf mühitin təsirindən, yaşdan və qulluq etmək əməliyyatından çox asılıdır. Keyfiyyətli qidalanmağın da böyük əhəmiyyət kəsb edir.

Dəri üçün təmiz hava qəbul etmək, idmanla mütəmadi məşğul olmaq, normal yuxu və sakit əsəb sistemi tələb olunur. Qoruyucu kremlərdən istifadə edib, dərini günəşin zərərli təsirindən, külək və soyuqdan qorumaq olur. Papiros və içkidən əl çəkin, həddindən artıq kofe və şəkər qəbul etməyin. Çalışın ki, həddindən artıq arıqlamayasınız, bu cür hal dəriyə qırışıq əmələ gətirməklə yanaşı onun elaktikliyini də azaldır. Dərinin sağlam olması üçün orqanizm normal qidalanmalıdır. Belə ki, orqanizmə gündəlik la-

zım olan protein, vitamin, mineral duzlar, normal qəbul olunmalıdır. Orqanizm üçün ən yaxşı qida yağsız ət, balıq, toyuq, təzə tərəvəz, mevyə, xiyar və kələm hesab edilir. Dərinin sağlamlığı üçün hökmən A, D və E vitaminləri lazımdır. Xüsusən də A vitamini xeyirlidir. A vitamini dəridə dəmirin funksiyasını nizamlayır, amaddələr mübadiləsini gücləndirir, dərini qurumaqdan və qabıq qoymaqdan qoruyur. E vitammin toxumaların bərpa olunmasına şərait yaradır.

Qocalığın qarşısını heç cür almaq olmaz, lakin bu prosesin tez əmələ gəlməsini ləngitmək olar.

## *HİPERTRİXOZLA MÜBARİZƏ*

Qadınlarda ən çox təsadüf olunan qüsurlardan biri hipertri- xozdur (ifrat tüklənmə). O anadangəlmə, hormon pozğunluğu üzündən (əsasən, cinsi və mədəüstü vəzilərin disfunksiyası zamanı) və hətta sinir sistemi fəaliyyətinin pozğunluğundan əmələ gələ bilər.

Tüklənmə ancaq bir yerdə, ya da bütün bədəndə ola bilər. Ümumən tüklənmə zamanı tüklər sifətdə, sinədə (ən çox məmələrin ətrafında) qarnın ortasında və həmçinin əllərdə və ayaqlarda çıxır, lakin bəzən əssən cavan qadınların kürəyində, budlarında, qollarında və topuqlarında da olur. Gözə dəyməyən nazik tükləri dartdıqda, ya da qırxdıqda həmin yerdə daha kobud və daha tünd tüklər çıxmağa başlayır. Qaşlar isə əksinə, əgər bir neçə il onları çəksəniz, onlar daha çıxmaya bilərlər.

Həm yerli, həm də ümumi hipertrixozun müalicəsi o qədər də asan deyil. Onu həkim-endokrinoloq, yəni hormonol pozuntularla məşğul olan mütəxəssis aparmalıdır. Qol və qıçlarda çıxan tükləri apteklərdə satılan depilyatorlarla təmizləmək olar. Tük çıxan yerlərə depilyator məhlulu, ya da sıyığı çəkilir və tüklərin qalınlığından asılı olaraq 3-10 dəqiqə saxlanılır. Sonra depilyatoru ılıq su ilə yuyur, dərini isə limon şirəsi, qaragilə şirəsi, ya da üzüm (1 litr suya 1 çay qaşığı) ilə yaxalayırlar.

Sifətdə çıxan tüklərdən yaxa qurtarmaq daha çətindir. Bu tükləri nə pinsetlə çəkmək, nə də qırxmaq olar, çünki bu tədbirlər onların daha sürətlə çıxmasına səbəb olur. Buna görə mütəxəs-

sis həkimin yanında, ya da kosmetik kabinetdə müalicə olunmaq daha yaxşıdır. Belə müalicələr böyük hövsələ tələb edir, ona görə ki, müalicənin müddəti çox çəkə bilər, (yarım ildən 2 ilə qədər) Tüklər qalvanookustika, ya da dintermiya vasitəsilə çıxırılır və bu prosedura bir neçə dəfə təkrar olunur. Nəticədə bəzi tüklər daha çıxmır o birilər isə get-gedə daha açıq və nazik olur, axırda onlar da tökülür.

Sifətdə olan nazik tükləri isə naşatır spirti qatılmış 6%-li hidrogen-peroksid məhlulu ilə (1 çay qaşığı hidrogen-peroksid məhluluna 5 damcı naşatır spirti) rəngsizləşdirmək olar. Bu məhlulu gündə iki dəfə səhər və axşam tük olan yerlərə çəkirlər. Qruyan- dan sonra dəri çox həssasdırsa, üzü limon şirəsi tökülmüş su ilə yaxalayır və yumuşaldıcı krem sürtürlər. Vaxt keçdikcə tüklər nəinki ağarır, onlar həmçinin nazik, quru və zəif olurlar.

Hipertrixoz zamanı kvars lapmadan istifadə etmək uzun müddət gündə olmaq və həmçinin tərkibində kükürd olan preparatları qəbul etmək məsləhət görülmür, ona görə ki, belə dərmanlar tüklərin artmasına səbəb olur.

Artıq tüklərin yox edilməsində bitki cövhərlərindən istifadə etməyi məsləhət görürlər.

1. 150 q dəlibəng bitkisini 1 litr suya töküb qatılaşana qədər qaynadın. Sonra pambığı həmin məhlula batırıb tük olan nahiyyə sürtün.

2. Yaşıl qozun qabığını kəsib pambığı şirəsinə batırıb gündə 2-3 dəfə tük olan sahəyə sürtün.

3. Qozun qabığını yandırıb, yerdə qalan külünü su ilə qarışdırıb sıyığını düzəldin. Sonra pambığı sıyıqda isladıb, gündə bir neçə dəfə tük gələn sahəyə sürtün. Bir neçə müddətdən sonra tük inkişafını dayandırıcaqdır.

4. 5 q nişasta, 5 q sönməmiş əhəng, 10 q natrium sulfid və su əlavə edib qarışdırın. Sonra aldığınız kütlədən götürüb tüklü sahəyə sürtün.

Qocalma zamanı dəri sarı rəng alır, quruyur, çatlayır, elastik liflərinin sayı azalır, skleroz prosesi başlayır. Alimlər isbat etmişdirlər ki, dərinin qocalması nəticəsində bütün maddələr mübadiləsi zəifləyir, toxuma tənəffüsündə dəyişiklər baş verir, ferment- lərin fəaliyyəti zəifləyir. Nəticədə duz mübadiləsi zəifləyir, orqa-

nizmdə və eləcə də toxumalarda olan suyun miqdarı azalır, bioloji fəaliyyət pozulur, toxumalarda parçalanma prosesi güclənir, hüceyrələrin iş görmə qabiliyyəti aşağı düşür. Piy və tər vəzilərinin pozulma fəaliyyəti sürətlənir. Dəridə baş verən qocalma prosesini dayandırmaq orqanizmin güclü qida ilə təmin etməyi məsləhət görürlər.

## *DƏRİ HƏMİŞƏ TƏMİZ OLMALIDIR*

Gigiyenik tədbirlərdən ən əhəmiyyətlisi su prosedurası hesab edilir. Su yalnız bədənin dərisini ən yaxşı təmizləyən vasitə olub, yalnız toz, çirk, piy və buynuz qişanı yuyub təmizləməklə öz fəaliyyətini başa vurmur. Eyni zamanda su maddələr mübadiləsini nizamlayır, bütün orqanizmə faydalı təsir göstərməklə yanaşı dərinin vaxtından əvvəl qurumasının qarşısını alır. Hər gün yuyunmaq lazımdır. Ən yaxşısı isə duş ilə yuyunmağı məsləhət görürlər. Ən yaxşı olar ki, axşamlar yuyunub, çirk və tərdən təmizlənəsiniz. Dərinizi 36-38 dərəcəli temperaturda olan isti su və sabunla ehtiyatla yuyunmağınızı məsləhət görürlər. Tərkiində çoxlu qələvi olan paltar sabunu, dəriyə kəskin qıcıqlandırıcı təsir edir. Ona görə də yuyunduqda “Uşaq”, “Kosmetika”, “Yumurta” və s. sabunlardan istifadə etmək məsləhət görürlər. Çox yağlı dəriləri isə xüsusi qatışıqlardan istifadə etməyi məsləhət görürlər. Belə ki, bərabər miqdarda əl-üz sabunu, çövdar unu, buğda yarması əlavə edib, qarışdırın. Sonra cunadan düzəldilmiş kisənin içərisinə töküb, vannaya salın. Bu cür qarışıq yaxşı köpük verir. Bədəninizi yuyan zaman hamam lifindən xüsusi əlcəklərdən, istifadə etmək lazımdır. Bunlar gigiyenik cəhətdən təmiz olsun deyə onları əvvəlcədən qaynatmaq lazımdır. Çox güclü təzyiq olmayan mülayim suya malik olan duş qəbul edən zaman əsəb sistemi sakitləşir, yuxu şirin olur. Sabunla yuyunduqdan sonra bədəninizi hökmən soyuq su ilə yaxalayın.

Səhərlər yaxşı olar ki, soyuq duş qəbul edəsiniz. Bu bədənə gümrahlıq və tonuslaşdırıcı təsir göstərir. Səhər duşunu soyuq su ilə əvəz edib yumuşaq dəsmala bədəninizi silməyi unutmayın. Bu orqanizmi möhkəmləndirir və onu xarici təsirlərdən qoruyur. Orqanizmi möhkəmləndirmək üçün soyuq suyun böyük əhəmiy

yəti vardır. Suyu 10-14 gün müddətində tədricən soyuq hala ea lıb yumağı məsləhət görürlər. Duş qəbul edən zaman bədəni, ba şı və ayaqları masaj etməyin sağlamlıq üçün böyük əhəmiyyəti vardır. Masaj qan dövranını yaxşılaşdırır. Xörək duzu qarışdırılmış su ilə yuyunduqda isə orqanizm tonusu artırır. Masaj nəinki dərinin fizioloji qabiliyyətini artırır, o bütün orqanizmə təsir edərək onun vəziyyətini yaxşılaşdırır, qan dövranını nizamlayır, yuxunu şirin edir, iş qabiliyyətini artırır, əhval ruhiyyəni yaxşılaşdırır. Həftədə bir dəfə isti vanna qəbul etməyi məsləhət görürlər. Bu orqanizm sağlamlığına yaxşı təsir edir. Nəinki isti su, hətta suyun yuxarı hissəsində olan parının da böyük əhəmiyyəti var. Belə ki, o dəri məsamələrini genişləndirir, onun içəri qatlarının təmizlənməsində böyük rol oynayır.

Vanna qəbul edərkən köpükləndirici şampunlardan-"Selen", “Badusan”, “Qloriya” “Qızıl balıq” və s. istifadə etməyi məsləhət görürlər.

Yuyunduqdan sonra yumuşaq dəsmalla bədəninizi silib qurudun.

İsti su və sabun yağsız dərini tez qurudur. Buna görə də vanna qəbul etdikdən sonra hökmən dərinizi qızdırılmış günəbaxan, zeytun, şaftalı və yaxud yağlı kremlə sürtün. Onlar yaxşı yaxılır, yaxşı hopur və yağ parıltıları əmələ gətirmir, dərini su itirməkdən və çat əmələ gətirməkdən qoruyur. Kremi dəriyə dairəvi hərəkət etməklə yaxın. Bu prosesdən sonra dəri hamar və elastikli olur.

5 dəqiqə 35-36 dərəcə temperaturda yuyunsanız, yorğunluğunuz tez çıxar, yuxunuz şirin olar. Orqanizmi təravətli etmək üçün xörək və yaxud dəniz suyundan istifadə etməyi unutmayın.

## *DƏRMAN BİTKİLƏRİNDƏN HAZIRLA-NAN KOSMETİK VANNALAR*

Son vaxtlar dərman bitkilərindən hazırlanan vannalardan kosmetika sahəsində geniş istifadə edilir. Bu vannalar qan dövranını nizama salır, dəri məsamələrini genişləndirir, bioloji fəal maddələrin dərinin daha dərin qatlarına sorulmasına şərait yaradır,

orqanizm ümumi fəaliyyətini artırır. Vannalara əlavə edilən qatışıqların xüsusiyyətdən asılı olaraq, orqanizmə təravətlik, gümrahlıq, yüngüllük bəxş etməklə ona xüsusi gözəllik verir. Vannaları ev “sanatoriyası” adlandırırlar. Bitkilərdən hazırlanan vannalar, rahat, ucuz və keyfiyyətli təsirə malikdirlər. Ev şəraitində dərman bitkilərindən cövhəri aşağadakı üsulla hazırlanır: 10 qram quru və yaxud 600 qram yaş müalicə otu götürüb, 2 litr qaynar suyun üzərinə töküb, zəif od üzərinə qoyub 15 dəqiqə qaynadın, sonra 45 dəqiqə sakit halda saxlayın. Cövhəri süzüb təmizləndikdən sonra, 36-38 dərəcəli temperaturu olan su ilə doldurulmuş vannanın üzərinə tökün. Hazırlanmış vannanın təsir müddəti 5- 20 dəqiqədir. Vanna qəbul etməmişdən qabaq sabunla yaxşı yuyunun. Vanna qəbul edən zaman çalışın ki, ürək nahiyyəsi su ilə örtülü olmasın. Vannalardan gigiyeniyə və eləcə də müalicə məqsədləri üçün istifadə etmək olar.

Müalicə məqsədləri üçün vannadan həftədə 2-3 dəfə, gigiyenik məqsədlər üçün isə həftədə 1 dəfə qəbul etməyi məsləhət görürlər. Müalicə vannaları həkim nəzarəti altında aparılır və nəticəsi qeyd edilir.

Sizin istədiyinizdən asılı olaraq aşağıdakı vannalardan istifadə edə bilərsiniz.

Soyuq vanna suyunun temperatunu 35-35 dərəcə olan eks- traktı sakitləşdirici təsir göstərir, yuxunu yaxşılaşdırır. Bu cür vannaları axşamlar 10-15 dəqiqə qəbul etməyi məsləhət görürlər.

Ot vannası-yağlı dərilər üçün nəzərdə tutulur. 5 qram çökə çiçəyi, 50 q qaraqınıq otu, 35 q dazıotu, 25 q çobanyastığı çiçəyi, 25 q ardıc, yarpaq və zoğundan götürüb cövhərini hazırlayıb 36- 37 dərəcə temperaturunda suyu olan vannaya töküb istifadə edin.

Quru dərilər üçün isə 100 qram çobanyastığı çiçəyi və 100 q adi kətandan götürüb, cövhərini hazırlayıb, sonra 10-15 dəqiqə müddətində vannasından istifədə edin. Bitki yığımlarından vannaların hazırlanması.

*Yığıntı 1.*1 hissə çəki hesabı ilə qaraqınıq, 5 hissə gicitkən yarpağı, 3 hissə çobanyastığı çiçəyi, 2 hissə qarağat yarpağı, 2 hissə xəşənbül, 5 hissə üç bölümlü qanqal otundan götürüb, cövhərini hazırlayıb istifadə edin.

*Yığıntı 2.* 4 hissə çəki hesabı ilə tozağacı yarpağı, 4 hissə koklik otu, 4 hissə çobanyastığı, 4 hissə dərman xəşənbülü, 2 hissə hamar herniyar götürüb cövhərini hazırlayın. Alınan cövhər xoşa gələn iyə malik olub, dərini əla təmizləyir, onun elastikliyini və möhkəmliyini artırır, xoşa gəlməz iyləri aradan götürür.

*Yığıntı 3.* Tozağacının tumurcuq və yarpaq, gicitkən otu, iriatpıtrağın kök və yarpağından, dikduranqaytarma, sarağan və sumaq yarpağı, zəncirotu, üçbölümlü qanqal, qaraqınıq otu götürün. Sonra qarışıqdan 250-300 qram götürüb cövhər hazırlayın. Hazırlanan vanna orqanizm ümumi müqavimətini artırır və maddələr mübadiləsini nizama salır.

*Yığıntı 4.* Bitki yığıntıları əlinizə keçmədiyi halda, məyus olmayın, 500-600 qram saman ovuntusu götürüb, cövhərini hazırlayın. Sonra vannaya töküb, yuyun. Vanna orqanizmə sakitləşdirici müqavimət artırıcı təsir edəcəkdir.

# *HAMAMDA MEŞƏ VƏ ÇÖLÜN ƏTİRLİ aoxasa*

Ən yaxşı gigiyenik proseduralardan və gözəl istirahət formalarından biri də hamamdır. O orqanizmə təravət və boşaldıcı təsir göstərir. Hamamda çimmək orqanizmə ümumi müsbət təsir göstərir. Belə ki, qan dövranını sürətləndirir, maddələr mübadiləsini yaxşılaşdırır, dərinin ifrazetmə qabiliyyətini artırır. Hamama girməzdən qabaq hökmən həkimlə məsləhətləşmək lazımdır. Çünki ürəyi, damar çatışmazlığı, kəskin soyuq dəymələrdə, şiş xəstəliklərinə tutulan adamlara hamam pis təsir göstərir. Yüksək temperatura və isti buxar orqanizmə güclü təsir edir, ona görə də həftədə 1 dəfə hamam qəbul etməyi məsləhət görürlər.

Bir neçə cürə hamam var. Bunların da ayrı-ayrılıqda özünə məxsus xüsusiyyəti vardır.

Hamamların tipindən asılı olmayaraq, buxar qəbul etməzdən qabaq, bədəninizi sabunla yaxşıca yuyub, qurudun. Nəmli buxarlı hamamlarda, bədən 40-45 dərəcə tempratura qədər qızır. Orqanizmə təsir edən güclü istilik axını və yüksək atmosfer nəmli

yi, tərləmə prosesini çətinləşdirir. Hamam qəbul edən zaman qan dövranını yaxşılaşdırmaq üçün tozağacı və yaxud palıddan hazırlanmış süpürgə ilə bədəninizi döyəcləyin. Nəmli buxar hamamına girməmişdən qabaq, ayaqlarınızı soyuq su ilə yuyun. Buxar qəbul edən zaman skamya uzanıb, üstünüzə dəsmal salıb, əzələnizi boşaldıb, düzgün nəfəs almağa çalışın. Buxar hamamını 5-10 dəqiqə müddətində qəbul etdikdən sonra, bədəninizi sərin və yaxud soyuq su ilə yaxalayın. Bu əməliyyatı həftədə 2-3 dəfə təkrar edin. Nəmli buxarlı hamamda 10-30 dəqiqədən artıq qalmağı məsləhət görmürlər. Buxar hamamından sonra, duş ilə bədəninizi birinci dəfə isti su ilə sonra isə soyuq su ilə yaxalayın. Orqanizmdə heç bir xoşagəlməyən hadisə baş vermədikdə onda bədəninizi masaj etsəniz faydalı olar. Masajdan sonra isti və soyuq duş qəbul etməyi unutmayın. Sonra bədəninizi səliqə ilə silib qurutduqdan sonra 30-40 dəqiqə, uzamış halında dincəlin. Yaxşı dincəlib istirahət etdikdən sonra geyinib evə gedə bilərsiniz.

Quru hamam (fin) buxarı güclü tərgətirici xüsusiyyətinə malikdir. Buxarlanma 70 dərəcədə başlayır. Tədricən yuxarı skamyalara hardakı temperatura 100-110 dərəcədir. Sonra, tədricən yavaş-yavaş aşağı yenir. Sonra isti su ilə yaxalayıb nəmli buxar hamamına keçin. Hərgah buxar azlıq edərsə, onda daşı möhkəm qızdırıb, suya salaraq istənilən buxarı ala bilərsiniz. Bu cürə kombinasiyalar yəni quru və nəmli istilər güclü tərləmə əmələ gətirir ki, bunun da nəticəsində orqanizm 1 kq-a qədər öz çəkisini itirə bilər. Bu itirilmiş çəkini tezliklə duru yeməklər qəbul etməklə bərpa etmək olar. Hamama girməyə hazırlaşan zaman öz əhval-ruhiyyənizə fikir verin. Hərgah buxar hamamında özünüzdə təngənəfəslik, zəiflik hiss edən kimi, tez soyuq binaya çıxın. Yadda saxlamaq lazımdır ki, hamama nə ac qarına, nə də tox qarına girmək olmaz. Ən yaxşısı yeməkdən 2-3 saat sonra hamam qəbl edəsiniz. Hamamda 2-3 saatdan artıq qalmağı məsləhət görmürlər.

Sağlam "ətirli" buxar qəbul etmək üçün suyun tərkibinə müxtəlif dava-dərman, yaxşı olar ki, dərman bitkiləri qatın. Bu cürə hamamın orqanizmə sağlamlıq təsiri artacaqdır. Həkimlər dərman peraparatlarını aerozol şəkilində, suya daxil etməyi məslə

hət görürlər. Belə halda aerozol ani hald ağciyər vasitəsilə qana keçir. Xalqa bu cür müalicə üsulu çoxdan məlum idi.

Qədim yunan rəvayətlərində qeyd edilir ki, tibb Allahı Asklete- yanin köməkçisi Xiron, ot və çiçəklərin ətirli iyini xəstələrə iylətməklə müalicə edərmiş. Yunanlar çiçək və otları sevinc, xoşbəxtlik və sağlamlıq rəmzi kimi qoruyub artırırdılar. Böyük İsveç alimi prof. Sezar alp dağlıların həsrətedici sağlam və uzun ömür sürmələrinə səbəbi onların daim çiçək və otların havaya buraxdıqları ən xoş ətirli iylərilə nəfəs almalarında görürdü. Hamamda istifadə edilən bir neçə dərman bitkiləri haqqında məlumat verməyi qərara aldıq.

Əksər adamlar çökənin müalicəvi əhəmiyyətini yaxşı bilir. Cökənin çiçəyində olan biiloji aktiv maddələr, tər vəzisi fəaliyyətini nizamlayır, eyni zamanda güclü dizinfeksiyaedici təsirə malikdir. Hamam üçün ən yaxşı dərman bitkilərindən kəklikotu hesab oluna bilər. Kəklikotunun iyi nəinki xoşa gələndir, həm də tənəffüs orqanları üçün əhəmiyyətlidir. Kəklikotundan havaya buxarlanan efir yağı atmosferi təmizləyir və zərərli mikrobları məhv edir. Hamam üçün əvəzsiz sayılan zərərli bitkilərdən biri də qa- raqınıqdır. Onun xoş iyi kəklikotunu xatırladır, qəlbi oxşayan xoş ətirli iyi, insanda gümrahlıq və yaxşı əhval-ruhiyyə yaradır.

Hamam buxarı üçün ən faydalı otlardan biri də dazıotu sayılır. O ayrı-ayrılıqda o qədər də xoşa gələn iyə malik deyildir. Ancaq başqa bitkilərlə qarışdırdıqda gözəl iyə malik olmaqla yanaşı buxarı havanı fizioloji aktiv maddələrlə zəngirləşdirir.

Əvəz olunmaz buxar hamamlardan biri də çobanyastığı qatı- şığıdır. Bunun çiçəkləri efir yağı, karotin və vitaminlərlə zəngindir. Hamam cövhəri hazırlamaq üçün çobanyastığı çiçəyi, qara- qınıq və kəklikotunu bir-birilə qarışdırıb “Çöl aramatı” və yaxud “hamam kokteli” hazırlayırlar. Tozagacı, ardıc yarpağından eləcə də çökə çiçəyindən hazırlanan cövhəri-bu buketi “meşə nağılı” adlandırırlar. Bu “koktel hamamının” tərkibinə az miqdarda yovşan əlavə edib, ona xüsusi xoşa gələn iy verirlər.

# YARPAQ, ÇİÇƏK VƏ OTLARDAN DƏMLƏMƏLƏRİN HAZIRLANMASI

Bunun üçün bir neçə bitkilərdən istifadə etməyi məsləhət görürlər. Emal qaba 3-4 litr qaynanmış su töküb, üzərinə 70-100 qram müxtəlif bitkilərin yarpaq və çiçəyindən əlavə edib odun üzərinə qoyun. Qabın ağzını qapaqla möhkəm bağlayıb, zəif od üzərində 30 dəqiqə saxlayın. Sonra qabı odun üzərindən götürüb, qapağını açmadan soyudun. Soyutduqdan sonra qabın içərisindəki otu süzgəcdən süzün. Ekstraktı cunadan keçirib, soyuq və qaranlıq yerlərdə 2 günə qədər saxlamağı məsləhət görürlər.

Hamama süpürgəsiz getmək çox şey itirmək deməkdir. Ən yaxşı hamam süpürgəsi tozağacı hesab edilir. Bir rus müdriki deyir ki, isti buxarda, tünd moruğu rəngli kürəyinizi tozağacı süpürgəsi ilə döyəcləməkdən yaxşı bir şey yoxdur. Hamamda tozağa- çı süpürgəsinin ləzzətini bilənlərə bunu izah etmək lazım deyil. Üç gün hamam qəbul etsəniz özünüzü çox gümrah hiss edəcəksiniz. Hamamsevərlər bilirlər ki, gümrahlıqdan başqa, tozağacı süpürgəsi bioloji aktivlik xüsusiyyətlərinə də malikdir. O havanı təmizləyir, yorğunluğu aradan götürür, zərərli mikrobları məhv edir.

Tozağacı həqiqi masaj cihazı olub, dəriyə çox gözəl təsir edir. Tozağacı süpürgəsindən sonra müalicəvi təsirinə görə palıd süpürgəsi faydalı sayılır. Yarpağının tərkibindəki müalicəvi təsirə malik olan maddələr dəriyə müsbət təsir göstərir. Qarağat ardıc, sərv və şairədən düzəldilən süpürgələrdən də dərinin sağlamlığında böyük rol oynayırlar. Belə ki, ardıc süpürgəsi bakterisid xüsusiyyət daşıdığı halda, sərv süpürgəsi isə masaj rolunu oynayır.

Gicitkəndən düzəldilən süpürgənin də qiymətli müalicəvi xüsusiyyətləri vardır.

# GÜNƏŞ YANMASINA NƏ KÖMƏK EDİR

Az miqdarda günəş şüası dəriyə müalicəvi təsir göstərir. Onun elastikliyi artır, soyuqdəymə prosesi əriyib yox olur. Dərinin rəngi dəyişib, qızılı çalara çevrilir, orqanizmin müqaviməti artır, qan dövranı yaxşılaşır. Qaralmaq nəinki xarici gözəlliyi artırır, o həmçinin orqanizmə ümumi sağlamlıq bəxş edir. Lakin uzun müddət günəş qarşısında dayanmaq xoşa gəlməz hadisələr baş verə bilər. Belə ki, dəri quruyar, həddindən artıq həssaslaşar və şiddətli baş ağrısı əmələ gələr. Kəskin qaralmaq, qırışığı az nəzərə çapdırır. Günəş vannasını yeməkdən 1-1,5 saat keçdikdən sonra qəbul etməyi məsləhət görürlər. Qaralmaq üçün ən yaxşı vaxt səhərlər saat 9-dan 11-ə kimi nəzərdə tutulur. Bərabər və gözəl qaralma, uzanmış halda yox, hərəkətdə olan zaman baş verir. Dəridə bərabər şəkildə qaralma əmələ gəlsin deyə, onu azca bitki yağı ilə sürtün. Bundan başqa qaralma üçün nəzərdə tutulan “Cənub”, “Soladol” qidalı kremlərindən istifadə etməyi məsləhət görürlər. Bundan başqa tərkibində spirt olan losyonlar vasitəsilə dərini yumaq məsləhət görülür. Bu tədbirlərin görülməsinə baxmayaraq, günəş vannasından sonra dəri qızarır və ağrılar verməyə başlayır. Bu xoşagəlməz prosesi aradan qaldırmaq üçün, dərinizə qatıq, xama sürtün, çobanyastığı, üçbölümlü qanqal sumaq, sarağan və bağayarpağından hazırlanmış qatı məhsuldan yaş sarğı və təpitmələr şəkilində istifadə etməyi unutmayın. Qızarmış dəri nahiyyəsinə qaragilə, moruq, çiyələk,heyva və şairədən əzib, sıyıq düzəldib yaş sarğı kimi istifadə etsəniz faydalı olar. Nar şirəsindən də istifadə etməyi unutmayın.

# TƏRİ NECƏ AZALTMAQ OLAR

Yayda, istilər düşən zaman orqanizm həddindən artıq tər ifraz edir. Bu dövrdə bədəninizə xüsusi diqqəti artırmalısınız, çünki tərin iyi adamda xoşagəlməz mənfi emosiya yaradır. Həddindən artıq tərləmə yeniyetmələrdə daha çox olur. Bu da ola bilsin ki, orqanizm (şəkər, piylənmə, tuberklyoz) xəstəliklərinə meyilliyini

bildirir. Tərləmə sadəcə olaraq, iti hərəkət etdikdə, ağır fiziki iş gördükdə, yüksək temperatura, isti xörək və çay içdikdə və eləcə də sıxıntılar zamanı əmələ gəlir. Bir çox adamlarda belə təsəvvür yaranır ki, guya tər pis iyin mənbəyidir. Bu tamam belə deyil. Tər dərinin üst qatına çıxan vaxt həqiqətən də rəngsiz, praktiki olaraq tamamilə iysiz olur. O əsasən sudan, duzdan az miqdarda isə üzvi maddələrdən ibarətdir. Xoşa gəlməyən iyi isə tərdə həll olan bakteriyalar əmələ gətirir. Bu isə bədən nəmliyinin buxar- lanmasının çətinləşdiyi zamanı baş verir. Sintetik materiallardan hazırlanmış paltarlar buxarlanmaya pis təsir göstərir.

## *TƏRLƏMƏYƏ QARŞI NECƏ MÜBARİZƏ APARMALI*

Birinci növbədə şəxsi gigiyeniyaya nəzər-diqqəti artırmaq lazımdır. Ən azı gündə duşda 2 dəfə əl-üz sabunu ilə yuyunmağı məsləhət görürlər. Yuyunduqdan sonra yumuşaq məhraba ilə tər ifraz edən sahələri yaxşı-yaxşı qurudub təmizləyin. Yuyunduqdan sonra hökmən xüsusi tərləmənin qarşısını alan və onu da- yanlıran dezodrantlardan və antirespirantlardan istifadə etməyi məsləhət görürlər. Tərləməyə qarşı mübarizə aparmaq üçün qələm, losyon və aerozoldan vaxtı-vaxtında istifadə edin. Hal-hazırda tərləməyə qarşı ən gözəl vasitə Teymurov pastası hesab edilir. Onun tərkibi bor, salisil turşusundan talkdan, drotropindən və formalidən ibarət olub zəhərsizdir. Qoltuqaltı çökəklərə xüsusi diqqət yetirmək lazımdır. Oradakı tükləri depilyatorun və yaxud ülgüclə qırxıb təmizləyin. Tükü təmizlədikdən sonra, dəri qıcıqlanmasın deyə təmizlənən yeri talkla pudralamağı məsləhət görürlər. Hərgah orqanizmdə həddindən artıq tərləmə baş verərsə o zaman dərman bitkilərindən hazırlanan cövhərlərdən daxilə qəbul etməyi məsləhət görürlər.

*Süvrə cövhəri.* 2 çay qaşığı otu 1 stəkan qaynar suda dəmləyib soyutduqdan sonra gün ərzində daxilə qəbul edin.

*Süvrə və gicitkən cövhəri.* Hər iki qarışıqdan 15 qram götürüb, 1 stəkan qaynar suda dəmləyin. Hər dəfə yarım stəkan ol

maqla gündə 2 dəfə, 4 həftə müddətində daxilə qəbul etməyi məsləhət görürlər. Bir neçə ay ara verdikdən sonra müalicəni yenidən davam etdirin.

Cökə, kəndalaş, gülxətmi, çobanyastığı çiçəklərindən, qoz yarpağından və ag söyüd qabığından hazırlanmış vannalardan istifadə etməyi məsləhət görürlər.

Yerli əhali tərləməyə qarşı çox qədim dövrlərdən gülxətiminin kök və yarpaqlarından sıyıq hazırlayıb tərləyən yerlərə yaxarmışlar.

# ƏLDƏ DAİMİ QULLUQ TƏLƏB EDİR

Əl qadının yaşını bədənin başqa üzvlərinə nisbətən ən tez təyin edən üzvüdür. Ona görə də ələ daim qulluq etmək lazımdır. Quru əl dərisi çat-çat olur, pis qulluq etdikd qabar, qaraquş (dırnaq yarası), nəinki qocalığı həm də sizin yaşınızı təyin edir. Dərinin zədələnməsi oraya asanlıqla xəstəlik törədicilərin daxil olmasına şərait yaradır.

Yaxşı qulluq edilmiş əllər təkcə qadınların yox, hər bir adamın yaraşığıdır. Hərəkətlərin dəqiqliyi tələb edilən bəzi peşələrdə isə əllərin yaxşı qaydada olması istehsalat tələbidir. Tarlada, ya da bostanda işləyən, ev işləri ilə məşğul olan, ya da öz peşəsi ilə əlaqədar həlledicilər, yağlar, qatranlar, toz və s. ilə təmasda olan qadınlara əllərinə qulluq etmək çox da asan deyil. Buna baxmayaraq həvəs olduqda ən əlverişsiz şəraitdə də çox iş görmək olar.

Hər bir qadın gün ərzində bir çox ev işləri yerinə yetirir. Ona görə də əllərə təsadüfən yox, gündəlik qayğı göstərmək lazımdır.

Əlrin yaxşı saxlanmasının ilk şərti onların dərisinə gündəlik qulluqdur. Onun da əsası gigeniya riayət etməkdir. Gigeniyanın mühüm qanunlarından biri əlləri ılıq suda yumaqdır ki, bu da də- rinint məsamələrinin genişlənməsinə və onların təmizlənməsinə, əllərin tez-tez soyuq su ilə yuyulması isə onların qurumasına və çatlamasına səbəb olur.

İstəyirsinizsə əlləriniz həmişə öz gözəl görnüşünü saxlasın; aşağıdakı şərtlərə vaxtlı-vaxtında riayət etmək lazımdır.

1. İstənilən işi yerinə yetirərkən nəmli şərait olarsa hökmən

əlcək geyməyi unutmayın. Qab-qacağı yuyarkən əlinizə içərisi pambıq parçadan tikilmiş astarı olan rezin əlcək geyin. Bağda iş- ləyərkən möhkəm əlcək geyməyi məsləhət görürlər.

2. Nəmli əlinizi qurumağa qoymayın, onu tez-tez dəsmalla silib, kremlə mazlayın. İmkan daxilində axşamlar həftədə 1-2 dəfə əlinizə pambıqdan hazırlanan əlcək geyin.

3. Əlinizi yuyarkən isti sudan və əl-üz sabunundan istifadə edin. Əlinizi yuyarkən tərkibində yüksək molekullu və yaxşı yuyucu xüsusiyyətlərinə malik olan “Detski”, “Lanolin”, “Kosmetik” və s. sabunlardan istifadə edin.

4. Həftədə 1-2 dəfə əlinizi qida kremləri ilə massaj edin. Yat- mazdan qabaq barmağınızın uc hissəsindən başlayıb, əlin içinə, oradan da barmaqlarınızın ucuna qədər massaj edin.

5. Həftədə bir dəfə qızdırılmış bitki yağından vanna hazırlayıb, əlinizi 30 dəqiqə onun içərisində saxlayın. Belə vannalar dırnaqlar üçün də faydalıdır.

Xiyar şirəsi, vələmir və kartof sıyığı, çobanyastığı, sürvə və çöl çiçəklərindən hazırlanan cövhər əl dərisini yumşaldır, elaktik- liyini artırır.

Əlin dərisini zərərli həlledicilərdən, qətran, mineral, yağlardan qorumaq üçün “İER”, “PM-I”, “Biokimyəvi əlcəkdən”, “Silkat”, “Qoryucu” kremlərdən istifadə etməyi məsləhət görürlər. Bu kremlər əl səthində gözə görünməyən nazik pərdə əmələ gətirərək dərini zərərli təsrlərdən qoruyur. Nazik krem pərdələri öz işlərini görüb qurtardıqdan sonra sabun və isti su ilə əllərinizi yuyub təmizləyin. Çox vaxt dəri quruyur, qızarır, codlaşır və qabıq qoymağa başlayır. Dəridə baş verən bu xoşa gəlməz halları aradan qaldırmaq üçün bitki yağından, naşatır spirtindən və qlisse- rin vannalarından istifadə etməyi məsləhət görürlər. Nişastada kömək edə bilir. Bunun üçün 1 çay qaşığı nişasta götürüb, 1 stəkan qaynar suya töküb qarışdırın. Sonra pambığı nişastaya batırıb əl dərisini silin. Vanna qəbul etdikdən sonra mütləq əlinizi istənilən vitaminli kremlə mazlamağı unutmayın. Vaxtlı-vaxtında qulluq görməyən əl dərisi üzərində əmələ gələn çatları, dırnaq sınmalarını, dirsək dərisinin codlaşmalarını müalicə etmək üçün Hamer Herniyar və zeytun yağından hazırlanan məlhəmdən istifadə etməyi məsləhət görürlər. Bunun üçün 100 q doğranmış tə

zə hamar herniyar otundan götürüb 0,5 litr zeytun yağının üzərinə töküb qarışdırın. Sonra bu qarışıqdan götürüb bir həftə müd- dotində əlinizə sürtün. Əlinizi kəskin şaxtalardan, aşağı tempe- raturlu havalardan mütləq qorumaq lazımdır. Soyuq keçən illərdə İsti əlcək geyməyi unutmayın. Əlin qızartısını aradan qaldırmaq üçün soyuq və isti su prosedurasından istifadə etməyi məsləhət görürlər. Əli soyuq vannaya 2-3 dəqiqə saxlayın. Bu cür proseduralarda əli suda 10-12 dəqiqə saxalamağı məsləhət görürlər. Hərgah əliniz həddindən artıq tərləyibsə, xörək duzu vannasından İstifadə edin. Bunun üçün 1 çay qaşığı xörək duzunu 11 isti suya töküb, qarışdırdıqdan sonra əlinizi həmin məhlulun içərisində 5- 10 dəqiqə saxlayın. Söyüd qabığından hazırlanan cövhərdən istifadə etməyi də məsləhət görürlər. Belə ki, 1 çay qaşığı narın toz halına salınmış söyüd qabığını 2 stəkan soyuq suyun üzərinə töküb qarışdırdıqdan sonra əlinizi hər 5-10 dəqiqədən bir 8 saat müddətində cövhərin içərisində saxlayın.

Meyvə və tərəvəzi təmizləyib qurtardıqdan sonra əlinizi zəif sirkə məhlulu ilə yumağı unutmayın. Bunun üçün 1 xörək qaşığı sirkə turşusunu 1 litr suya töküb qarışdıraraq istifadə edin. Bundan başqa qatıq “Yumuşaq" “Kristal” losyonlarla əlinizi silməyi də unutmayın.

## *DIRNAQLAR DA QULLUQ TƏLƏB EDİR*

Əl dərisinə qulluq edən zaman, eyni vaxtda dırnağa da xüsusi qayğı göstərmək lazımdır. Gözəl dırnaqlar yaxsı qulluq edilmiş əllərin yaraşığıdır. Sağlam dırnaqlar möhkəm, hamar və azca çəhrayı rəngdə olmalıdır. Suyun, qələvilərin, turşuların və s. uzunmüddətli təsiri dırnaqları dağıdır, onları kövrəkləşdirir və tez sınırlar. Əllərdə olduğu kimi, dırnaqları da əlcək geyməklə mühafizə edirlər. Bu məqsədlə qoruyucu kremlərdən də istifadə etmək olar.

İçərisində bir neçə damcı limon şirəsi tökülmüş ılıq zeytun yağı ilə hazırlanan vannalar və həmçinin dırnağı əhatə edən dəriyə limon şirəsi, dırnağın qaidəsinə və özünə üç hissə A və D vitaminləri, bir hissə E vitamini daxil edilmiş vannalar çox möhkəm- ləndirici təsir göstərir.

Dırnaq dərinin buynuzlu qişasından əmələ gələrək, onun quruluş irsiyyətini müəyyən edir. Dırnağın inkişafı üçün qidaların tərkibində olan dəmir, kalsium, yod, B, S, D və s. zənginliyindən asılıdır. Göyərti, turş dada malik süd məhsulları, kök, soya, yumurta və dəniz məhsulları dırnağın inkişafına faydalı təsir göstərir.

Dırnağın inkişaf surəti fərdin özündən çox asılıdır. Gənclik dövründə dırnaq sürətlə inkişaf edir. Bundan başqa isti havada, fəal fəaliyyətdə (maşinkada yazmaq, pianinada çalmaq və s.) eləcə də hamiləlik zamanı dırnaqlar sürətlə inkişaf edir. Müəyyən olunmuşdur ki, hər iki əlin orta barmaqlarının dırnaqları o biri barmaqlara nisbətən sürətlə inkişaf edir. Müəyyən edilmişdir ki, je- latin yedikdən sonra dırnaqlar daha tez böyüyür. Jelatindən müxtəlif yeməklərdə istifadə etmək olar, məsələn, jele hazırladıqda, ət və balıqdan hazırlanan xörəklərdə, çərəzlərdə istifadə edilir, hətta isti şorbaya da tökürlər.

Soyuğun, günəşin və eləcə də yumuşaq sabunun təsiri nəticəsində dırnaqlar asanlıqla sınır. Zülallarda, mineral duzlarla, vitaminlərlə zəngin müvafiq qida (pəhrizə daha çox süd və ağartı məhsulları, meyvə və tərəvəz daxil edib) ilə yanaşı, dırnaqları xaricdən də müalicə etmək səmərə verər. Dırnaq lövhəsində əmələ gələn dəyişikləri dəri və göbələk xəstəlikləri törədə bilər. Əgər dırnaqlar qalınlaşarsa, onların çəhrayı rəngi dəyişib boz, ya da sarı olarsa, dırnağın üstündə üfiqi, ya da şaquli şırımlar əmələ gəlirsə, dırnağı əhatə edən dəri şişib, irinləyirsə həkim-dermato- loqa müraciət etmək lazımdır. Dırnaqlarda olan üfüqi xətlər keçmişdə orqanizmdə baş verən xəstəliklərin əlamətindən xəbər verir. Qəribə də olsa dırnaqda xətlər bir nöqtədə müşahidə edilməsinə baxmayaraq çanağa da təsir göstərir.

Dırnağın saralmasına papiros, dərman və lakların təsiri də səbəb olur.

Müəyyən edilmişdir ki, mikrobların 95 faizi əl dərisində dırnağın altında olur, dırnağın açıq yerindən buynuz qişası, dəri piyi sahəsinə, toz, çirk və mikroblar yığılaraq çox keçmədən çoxalmağa başlayırlar.

Dırnağa qulluğun bir növü də mümkündür. Manikür dırnağa gözəl forma verir. Bu proseduraya dırnağın kəsilməsi, onu əhatə

edən dəri qatının təmizlənməsi və çox hallarda ona lak çəkilməsi daxildir. Buna görə də dırnağa manikür xidməti yalnız estetik cəhətdən yox, gigeniq cəhətdən də olduqca vacibdir. Manikürü 8-10 gündən bir aparmağı məsləhət görürlər. Dırnağınızı bir neçə dəqiqə qızdırılmış bitki yağında saxladıqdan sonra, kiçik mişarla ona badam və zeytun forması verin. Dırnağın künc hissəsini dərindən kəsmək olmaz, çünki soyuqdəymə prosesi baş verə bilər. Qızdırılmış yağ və yaxud çabun məhlulu ilə dırnaq yumuşa- lır və asanlıqla kəsilir.

Əlinizi salfetka ilə yaxşı qurutduqdan sonra dırnağı kəsib götürün. Manikür əməliyyatı aparan zaman əgər dəridə kəsik baş verərsə, onu peroksidlə təmizləyib, yod sürtün. Manikürün sonunda dırnaqlarınızı lakla örtün. Lakın seçilməsi sizin zövzünüz- dən asılıdır. Cavan qadınlar parlaq rənglərdən, yaşlı qadınlar isə açıq rənglərdən istifadə etməyi sevirlər. Lakı dırnağa kiçik kistlə (tük qələmlə) nazik təbəqə halında,birinci dəfə rəngsiz, sonra isə 1-2 dəfə rəngli lakla örtün. Lak tez quruyur və möhkəmlik verir. Hərgah dırnaqlar tez-tez qırılarsa lakdan istifadə etməyi məsləhət görmürlər. Bir çox adamlarda dəri çox həssas olduğundan onların laklardan istifadə etmələrinə məsləhət görmürlər. Belə hallarda laklardan imtina edib, təbii vasitələrdən limon şirəsi və yaxud üzüm şirəsindən istifadə etməyi məsləhət görürlər. Pambığı bu şirələrə batırıb dırnağı silin, yumuşaq məxmər parça ilə parlaqlıq verməyə çalışın.

Dırnağa sürtülən lak onu, bir növ, mexaniki zədədən, yuyucu tozların təsirindən mühafizə edir. Lakin vaxtaşırı dırnaqlara dinclik verilməlidir, yəni dırnaqdan lak silinməli və dırnağı möhkəmlədən dərmanlardan istifadə edilməlidir.

Qadın əllərinin həmişə gözəl görünməsi üçün dırnaqlara vaxt-lı-vaxtında qulluq etməli, mütəmadi olaraq manikür əməliyyatını yerinə yetirməli, ən başlıcası isə təmizliyə riayət etməyi məsləhət görürlər.

# AYAQLARDA QULLUQ TƏLƏBEDİR

Bizim ayaqlarımız daim qulluq tələb edir. Əbəs yerə deməyiblər ki, pintilik-gözəlliyin düşmənidir. Ayaqların sağlam və gözəl görkəmli olması üçün onlara müvafiq qulluq lazımdır. Qulluq görməyən ayaq çətin hərəkət edir, qaməti itirir, tez yorulur, hərəkət zamanı fiziki əziyyətlərə məruz qalır.

Əlbəttə, ayaqlarda hiss olunan xoşagəlməz hallar anadangəlmə meyilliklə əlaqədar ola bilər, lakin əKSər hallarda o, iş şəraitindən və işin xarakterindən daha çox asılı olur. Ayaqlara daha çox yük düşür, ona görə ki, bütün gün ərzində bədənin ağırlığına dözməli olur. Bununla əlaqədar, ayaqlara xüsusi diqqət verilməli, lazımi qulluq edilməlidir. Bu qulluğun əsas şərti ən əvvəl ayaqlara uyğun yüngül hava keçirən və ayağın ölçüsünə tən gələn çəkmələrin geyiıməsidir. Ayaqqabıların düzgün seçilməsi bir sıra xoşagəlməz halları aradan qaldırmağa imkan verir. Ayaqqabılar ayağın alt pəncəsinə uyğun gəlməli, corablar isə rahat olmalıdır kı, qan dövranı normal getsin. Bu ən çox ayağı sürətlə böyüyən uşaqlara vacibdir. İşdə nündürdaban dar çəkmələr geymək çox zərərlidir. Bu pəncənin formasının dəyişməsinə, ayaqda qabarların əmələ gəlməsinə, dırnaqların ətə keçməsinə və hətta onurğa sütunun əyilməsinə səbəb ola bilər. Ayaqqabıların düzgün seçil- məməsi, xüsusən də onun daralması yaqda ağrılar əmələ gətirir, sürtünmə nəticəsində qabarlar əmələ gəlir və tərləməni gücləndirir.

Ayaqlara qulluq edərkən ounun hər gün yuyulmasına xüsusi fikir vermək lazımdır. Bu, dərini təmizləyir, ayaqların tərləməsi- nin və tərdən bişməsinin, göbələk xəstəliklərinin əmələ gəlməsinin qarşısını alır. Ayaqlara edilən ilıq vannalar (xörək duzu da əlavə etmək olar) qan dövranının yaxşılaşmasına, bütün orqanizmin istirahət etməsinə kömək edir.

Ayaqları yağlı sabunlarla, ayaqlar tərlədikdə isə bakterisid əlavələri (məsələn, formalin) olan sabunlarla yumaq iməsləhət görülür.

Ayaqlara qulluq etməyin ən yaxşı forması dərman bitkilərindən düzəldilmiş vannalardan istifadə olunmasıdır.

*Ot vannaları.* Ayaq vannalarını ümumi təyin olunmuş qaydada hazırlayırlar: Belə ki, 100 q qurudulmuş toz halına salınmış yarpaq, ot, qabıq, kök və kökümsov qarışığından götürüb 1 litr isti suya töküb, zəif od üzərinə qoyub 15 dəqiqə qaynadın. Sonra 45 dəqiqə sakit halda saxladıqdan sonra süzgəcdən süzüb, üzərinə 3-4 litr 35-40 temperaturda su əlavə edib, sonra tasa töküb, ayaqlarınızı cövhərin içərisinə salın.

Çobanyastığı çiçəyi, sürvə və çölqatırquyruğundan hazırlanan vannalardan isə ayaq yorğunluqlarının aradan qaldırılmasında istifadə edilir. Hərgah yorğunluq nəticəsində ayaqlarda "qızışma" əmələ gələrsə, qara kəndalaş meyvəsindən hazırlanmış cövhərdən istifadə etməyi məsləhət görürlər. Yorulmuş və şişmiş ayaqları isə sürvə, çobanyastığı çiçəyi, boymadərən, peyğəmbərçiçəyi, dağ öküz gözü, üzçjəcotu və s. hazırlanan vannalardan istifadə etməsi məsləhət görürlər.

Ayaqlara qulluq etmək üçün bir sıra preparatlar hazırlanıb istifadəyə verilmişdir. Bu preparatlar gigiyenik əhəmiyyət kəsb edib, dəridə baş verən qabarların yumuşaldılıb tədricən yox edilməsində, tər iyinin aradan götürülməsində və eləcə də dərinin qidalandırılmasında böyük əhəmiyyə kəsb edir. Yorğunluğu aradan qaldırmaq üçün bir sıra kremlərdən də istifadə edilir.

"Effekt" kremi ayaqlarda baş verən yorğunluğu aradan qaldırmaq üçün istifadə edilən ən gözəl vasitə hesab edilir. Bu krem- dən işinin xüsusiyyətindən asılı olaraq daha çox ayaq üstə duranlar və çox hərəkət edən işçilər üçün istifadə etməyi məsləhət görürlər. Bu krem antiseptik, dezodorasiya və yarasağaldıcı xüsusiyyətlərə malikdir. Analoji olaraq "Olimp" "Elan" "Losyon-MD", "Ayaq üçün krem" və s. göbələk xəstəliklərinə qarşı istifadə etməsi məsləhət görürlər. Bu cür kremlərdən müntəzəm istifadə olunarsa, pəncə dərisi yumuşalır və elastikliyi artır. Ayaqlara qulluq edilməsinin ən gözəl formalarından biri də massajdır. Massa- jı hər gün kobud dəsmala barmaqlardan başlayıb yuxarıya doğru aparmağı məsləhət görürlər.

Pəncə, baldır, diz və bud nahiyyələrini daha möhkəm massaj edirlər. Bəzən massajı şotka ilə aə aparırlar. Massaj edilmiş nahiyyələrə krem və yaxud maz sürtməyi məsləhət görürlər.

Dizin codlaşmış dərisini portağal və limon şirələrinə yağ qarışdırıb dərinizə sürtsəniz o yumşalar. Yarı fincan əzilmiş buğda

nı isti südlə qarışdırıb alınan sıyığı dizinizə sürtüb, 15-20 dəqiqə saxladıqdan sonra isti su ilə yuyub təmizlədikdən sonra qida kre- mi sürtün.

Çox vaxt cavanlar ayaqlarının tərləməsindən narahat olurlar. Ayaqların tərləməsi xoşa gəlməz kəskin iy verir. Bu xoşa gəlməz halların qarşısını almaq üçün tərləyən ayaqlara uqulluq, ən əvvəl gigiyenik tədbirlərə diqqətlə riayət edilməsinə əsaslanır: bunlar ayaqların gündə 2 dəfə sabunla yuyulması, sonra tərə qarşı dərmanlardan istifadə edilməsi məsləhət görülür. Ayaqları yuduqdan sonra yumuşaq dəsmalla qurudub, tər əleyhinə istifadə edilən maye “gigiyenya”, “Turist”, “Effekt” kremlərindən istifadə etməyi məsləhət görürlər. Bundan əlavə həftədə 2-3 dəfə manqandan hazırlanmış vannalardan istifadə etsəniz faydalı olar. Çobanyastığı, palıd qabığı, çöl qatırquyruğu, dazıotundan hazırlanmış cövhər vanhasından istifadə etsəniz ayaqlarınızın təri azalar.

Xalq təbabətində ayaqlardakı təri azaltmaq üçün aşağıdakı bitkilərdən istifadə etməyi məsləhət görülür: quş qırbuqumu, düyümlü qjrxbuğum bitkilərinin kökümsovlarından cövhər hazırlayıb yaş sarğı kimi istifadə edin.

*Adi süpürgə kolu cövhəri.* Bitkinin gövdə, yarpaq və çiçək hissələrindən götürüb, qaynar suya töküb cövhərini hazırlayıb vannasından istifadə etsəniz ayağından təri azalar.

Nar qabıqlarından hazırlanan cövhərdən də tər əleyhinə istifadə etmək olar.

Ərik dənəsini əzib, suya əlavə edib sıyıq əmələ gələnə qədər qarışdırın. Sonra sıyıqdan götürüb ayağın pəncəsinə yaxıb 15-20 dəqiqə saxladıqdan sonra yuyub təmizləyin. Sonra dəsmala yaxşıca silib qurudun. İtburnunun-yarpaq, ləçək və meyvəsindən hazırlanan dəmləmədən tər əleyhinə işlədilir.

Axşamlar vanna qəbulundan sonra ayaqlarınızı şotkayla podralayın. Corabları hər gün dəyişməyə çalışın. Sintetik corablar ayaqların kəskin surətdə tərləməsinə səbəb olur. Ona görə də bu cür corablardan istifadə etməyi məsləhət görmürlər. Tərləmiş dərilər göbələk xəstəliklərinin əmələ gəlməsinə şərait yaradır. Gö- bəbələk xəstəlikləri ən çox barmaqlar arasında baş verir. Buna görə də dəridə, hər hansı bir ciddi dəyişiklik əmələ gələrsə hökmən həkimə müraciət etməyi unutmayın.

# *YASTIAYAQLIQ, SÜRTÜNMƏ VƏ QABARLAR*

Ayaq üstə işləmək nəinki qan dövranının pozulmasına, eləcə də yastıayaqlığın inkişafına şərait yaradır. Yastıayaqlığa meyl anadan gəlmə olur, lakin uzunmüddət ayaq üstə işləmək, ayaqqabının düzgün seçilməməsi, köklük bu qüsurun inkişafını xeyli sürətləndirə bilər. Məsələn köndələn yastıayaqlığın əsas səbəbi daim hündürdaban ayaqqabı geyməkdir.

Yastıayaqlıq aydın göründükdə həkim-ortopedə müraciət edib müalicə olunmaq və supinator geymək lazımdır. Yastıayaqlığın qarşısını almaq üçün gün ərzində yastıdaban ayaqqabı geymək və eləcə də xalça, ot, qum üstündə ayaqyalın gəzmək lazımdır. Düzgün seçilmiş ayaqqabıdan başqa bu qüsurun aradan qaldırılması üçün vacib olan profilaktik tədbirlərdən biri də ayaqların əzələlərini möhkəmləndirən idman hərəkətləridir. Hər gün bir neçə dəqiqə ərzində aşağıdakı hərəkətləri etməyi məsləhət görürlər.

-ayaq barmaqlarını yığıb açmaq

-ayaq barmaqlarını mümkün qədər geniş açmaq və sonra əvvəlki vəziyyətə qayıtmaq.

-gah pəncələr, gah da dabanlar üstə gəzmək.

Ayaqda sürtünmə və qabarlar çox vaxt dar, narahat çəkmələrdən əmələ gəlir. Bunların qarşısını almaq üçün onlara krem çəkməyi məsləhət görürlər. Ayağın ən mühüm problemlərindən biri də dabanın quruması və buynuz maddəsinin əmələ gəlməsidir. Hərgah daban quruyursa onda çatlar əmələ gəlir. Bu qüsurları aradan qaldırmaq üçün hər gün axşamlar isti vanna qəbul etməyi məsləhət görürlər. Bu əməliyyatlar nəkinki dərini təmizləyir, eyni zamanda qandövranını nizama salır. Çay sodası və çobanyastığından hazırlanan ekstrakt ən gözəl nəticə verir.

Dabanların dərisinin kobudlaşmasının qarşısını almaq üçün hər dəfə ayaqları yuyandan sonra onu dabandaşı ilə sürtüb ayaq kremi çəkmək lazımdır. Çox kobud ayaqqabı geydikdə ayaqların qızması nəticəsində və yaxud fərdi xüsusiyyətlərdən asılı olaraq, onların dərisi bişə bilər. Bunun qarşısını almaq üçün corabın içərisinə bir az talk, ya da kirşan tökmək və rahat, yaxşı hava keçirən ayaqqabı geymək lazımdır. Əgər bişmə əmələ gəlmişsə, onda ayaqları palıd qabığı, ya da sürvə tökülmüş su ilə vanna edir və bundan sonra pəncəyə məlhəm sürtüb xüsusi toz səpirlər.

Bəzən ayağın altındakı buynuzlu qişanın nazikləşməsi nəticəsində sarımtıl rəngli qabarıqlar əmələ gəlir. Bu cür xəstəlikləri ancaq pedikür otaqlarında müalicə edilməsi məsləhət görülür.

Ev şəraitində bu cür xəstəliyi müalicə etmək üçün adi sarmaşıq yarpaqlarından təpitmə şəkilində xəstə yerlərə yaxıb sarğı ilə sarıyırlar. Dairə yarpaq şahçiçəyindən hazırlanan mazlardan qabar və döyənəklərin üzərinə sürtüb müalicə edirlər. Bundan əlavə dəvədabanı və söyüd qabığından hazırlanan gecə vannalarından istifadə etməyi məsləhət görürlər. Sürtünmə nəticəsində ayaqda əmələgələn yaraları infeksiya xəstəliyin qorumaq üçün suyun tərkibinə aşlayıcı və dizinfeksiyaedici maddələr söyüd qabığı, gicitkən və bağayarpağından hazırlanan cövhərin tərkibinə kalium permanqanat əlavə edib, vannasını qəbul etməyi məsləhət görürlər. Vanna qəbul etdikdən sonra ayaqları dəsmala silib qurutduqdan sonra “Start”, “Effekt”, “Atlasnıy” və s. kremlərdən sürtün.

# DƏRİNİN BƏZİ QÜSURLARI

*Adi çivzələr.* Adi çivzələr piy vəzilərinin fəaliyyətinin çox təsadüf olunan təhazürüdür. Çivzələr əsasən cavanlarda, bəzən yaşlılarda da təsadüf olunur. Qara çivzələr, adətən, çivzə səpgisindən sonra əmələ gəlir. Onların əmələ gəlməsinə səbəb piy vəzilərinin ağzını qoruyan epitel hissəciklərinin tutulmasıdır kı, bu da ifrazatın çıxmasını çətinləşdirir. Dəri piyinin parçalanma məhsullarının yığılması və onun içində bakteriyaların çoxalması nəticəsində dəridə və onun daha dərin qatlarında irinli sızanaqlar əmələ gəlir. Bəzən çivzə səpgiləri 20-30 yaşlarında özündən sonra heç bir əlamət qoymadan keçib-gedir. Əksər hallarda isə ələlxüsus sızanaqlar olduqda dəridə boz-sarı ləkələr və çapıqlar qalır.

Çivzələr həm xarici, həm də daxilə qəbul edilən dərmanlarla müalicə edilməlidir, ona görə də, çivzələrin ilk əlamətləri görünən kimi (hələ sızanağa keçməmişdən) həkimə müraciət etməyi məsləhət görürlər.

Müəyyən pəhrizə riayət edilməsi mühüm şərtlərdən biri sayılır. Duzlu xörəklər, spirtli içkilər kakao, şokolad, heyvan yağları və s. tünd tamlı yeməklər gündəlik qidadan çıxarılmalıdır. Yağsız balıqlar və ət, ağartılar, meyvə və tərəvəz (çiy halda daha yaxşıdır) yemək tövsiyyə olunur. Təmiz havada çox olmaq, hər hansı idman növü ilə məşğul olmaq lazımdır.

Gənc oğlan və qızlarda daha çox sızanaqlar olur. Bu infeksiyanın çox tez yayıldığını nəzərə alaraq gigiyenik tədbirlərə daha çox əməl olunmalıdır. Üzü gündə iki dəfə tərkibində kükürd olan sabunla yumaq lazımdır. Lakin sifətinə tüklər çıxan qızlar kükürdlü sabundan istifadə etməməlidirlər. Onlar üzlərini adi sabun və ılıq su ilə yuyub sonra çay sodası (1 l suya 1 xörək qaşığı ot qarışığı) su ilə yaxalamaq da yaxşı nəticə verir.

Üzü ba aca dəsmala silmək lazımdır ki, hər dəfə siləndən sonra onu yumaq asan olsun. Üzü yuyandan sonra (və eləcə də bütün gün ərzində) ona dərini yığan vasitə çəkmək olar. Gecələr sızanaqlara (əgər həkim heç bir xüsusi dərmanlar təyin etməyibsə) quruducu maddə sürtmək, sızanaqlara qarşı krem çəkmək, ya da Lassar pastası sürtmək lazımdır. Sızanaqlar iltihabı xarakter aldıqda günaşırı (7-10 gün ərzində), ya da hər gün buğ maskası

eləmək tövsiyyə olunur. Bunun üçün aşağıdakı otlardan dəmləmə hazırlayırlar: çobanyastığı, nanə, sürvə və pıtraq qarışığından 1 xörək qaşığı görürüb, 31 suya töküb zəif od üzərinə qoyub 5 dəqiqə qaynadıb, soyudaraq süzgəcdən süzüb istifadə edirlər. Bu maskanı eləməmişdən əvvəl uzü sabunla yuyur, dərini yığan məhlul və üzə quruducu vasitə çəkilir.

Əgər sızanaqlar vaxtaşırı çıxırsa, onda çobanyastığı, gülümbahar, qayınağacı, qızılağac qatışığından 1 xörək qaşığı götürüb, dəmləməsini hazırlayıb isti kompres qoymağı məsləhət görürlər. Kompreslərdən sonra üz yaxalanır və quruducu məhlul sürtülür. Dəri qabığ verirsə, üzü sabunla yuduqdan sonra onu üzüm sirkəsi tökülmüş və qliserin əlavə edilmiş su (1 l suya 1 xörək qaşığı qliserin) ilə yaxalayırlar.

Sızanaqların müalicəsi çox mürəkkəbdir və uzun çəkir. O, adamdan hövsələ və həkimin göstərişlərinə dəqiq riayət etmək tələb edir. Belə adamlar müntəzəm olaraq üzlərini kosmetik kabinədə təmizlətməlidirlər.

Ziyillər. Bəzən dəridə adi ziyillərə təsadüf olunur. Bunlar dəri rəngində, diametri bir neçə millimetrdən, bir neçə santimetrədək olan törəmələrdir. Əvvəlcə bu törəmələr hamar, sonra digir-digir olur, üstünü dərin şırımlr örtür, boz, bozumtul-sarı, ya da tünd qəhvəyi rəngdə olur. Ziyillərə uşaqlarda və gənclərdə, bəzən isə yaşlılarda da rast gəlinir. Ziyillər, adətən, ovucda və ayaq altında çıxır.

Yastı ziyillər ən çox uşaqlarda olur. Onların üzündə, əllərində və boynunda hamar, parıldayan, oval ya da yumru, açıq-sarı, ya da aıq-qəhvəyi rəngdə törəmələr əmələ gəlir. Onlar çox tez yayılırlar, ələlxüsus dərınn zədəli yerlərinin ətrafında əmələ gəlirlər.

Adi və yastı ziyillər müalıcəsiz, öz-özünə keçib gedə bilər. Onaa görə də ziyilləri qayçı ilə kəsmək, üstünü qopartmaq olmaz. Bəzən uşaqlar ziyilləri dişləri ilə qopartmaq istəyirlər.

Dəridə digər törəmələrə də təsadü olunur: onlar bərk, ya yumuşaq, hamar, ya da tüklü, yastı, ya da ayaqcıq üstə ola bilər. Bütün bu törəmələrə görə mütləq həkimlə məsləhətləşmək lazımdır. Onları ev şəratində türkəçarə ilə müalicə etmək olmaz, çünki belə müalicə pis nəticələr verməsə də kifir çapıqlar (məsələn, ziyilləri lyapislə, ya da azot turşusu ilə yandırdıqda olduğu kimi) qala bilər. Tünd rəngli, lap qaraya çalan ziyillərə də toxunmaq olmaz, bu, yaman şişlərin-melanomanın əmələ gəlməsinə səbəb ola bilər.

*Qırışıqlar.* Həyat hər bir sifətdə öz izini qoyur. Lakin insanın keçirdiyi həyat tərzindən, xəstəliklərdən və eləcə də, dəriyə necə qulluq edilməsindən asılı olaraq üzdə qırışlar tez, ya gec əmələ gələ bilər. Onların əmələ gəlməsi müəyyən qədər də bizim özümüzdən asılıdır. Biz ayrı-ayrı həyati dərdlərə, yaxud hətta xoş hadisələrə üzün mimikası ilə cavab verərək, təsirlənərək, özün də hiss etmədən sifətində vaxtından qabaq qırışıqların yaranmasına gətirib çıxarır.

Tez-tez və lazımsız yerə gözləri qıymaq gözlərin qıraqlarında xırda qırışıqlar əmələ gətirir. Tez-tez qaşları dartmaq, yaxud burnu qırışdırmaq kimi daimi vərdiş tədricən alında və qaşların arasında qırışıqların yaranmasına gətirib çıxarır.

Bundan başqa qırışlar səthi (dəriyə pis qulluq edildikdə və o çox quruduqda) və dərin (əzələlərin və dərinin elastikliyinin itməsi nəticəsində) ola bilər.

Səthi qırışların əmələ gəlməsinin qarşısını almaq üçün dəriyə yaxşı qulluq edilməlidir. Bunu ən çox dərisi quru olan qadınlar yadda saxlamalıdırlar, çünki quru dəridə yağlı dəriyə nisbətən qırışlar daha tez əmələ gəlir.

Müxtəlif kremlərin tətbiqindən savayı, dərinin nəmliyi qayğısına da qalmaq lazımdır. Bunun üçün vaxtaşırı nəmişləndirici kompreslər, dərman bitkiləri ilə buğ hamamı, meyvə maskaları eləmək azımdır. Yayda dərini gündə qurutmaq olmaz. Qışda mərkəzi istilik qurğuları ilə qızdırılan binalarda bir nimçədə su qoymaqla, ya da xüsusi nəmləşdirici qurğularla otağı nəmləşdirmək lazımdır. Qırışlar qısa müddət ərzində kəskin surətdə arıqladıqda da əmələ gələ bilər.

Əl-üzünü yuduqdan sontira onu ehtiyatsız silməklə qırışıqların əmələ gəlməsinə səbəb olursan. Sifəti məhrəbanı yumuşq suda isladaraq ehtiyatla silmək lazımdır, gücü gəldikcə sürtmək lazım deyil,-dəri bundan yalnız uzanır.

Sağlam həyat tərzi, dəriyə münasib qulluq, üzün ifadəsinə nəzarət yaxşı əhval-ruhiyyə qırışldarın gec əmələ gəlməsinin rəhnidir. Özünü saxlaya bilməyən, əsəbi adamların dərisi sakit xasiyyətli adamlara nisbətən daha tez qırışır.

Dəridə əmələ gələn qırışıqları azaltmaq üçün çobanyastığı, qaragılıq, dazıotu, nanə, yarpız, pıtraq, gicitkən, gülümbahar, dəvədabanı, gülxətmi, rəvənd, kəklikotu, reyhan, yersarmaşıöı, cəfəri, zirinc, qarağat, moruq, çiyələk, palıd, qızılağac, bal, süa, kəsmik yumurta, xama və s. maskalar düzəldib istifadə etmək lazımdır.

# GÖZƏL VƏ SAĞLAM GUR SAÇLAR GÖZƏLLİYİN AYNASIDIR

Gözəl parlaq saçlar nəinki qadının yaraşığıdır, həm də onun sağlamlığının nişanəsidir. Hər bir qadın yaxşı görünmək istəyir. Cazibədar görkəm həmişə yaxşı təəssürat oyadır. Qadının sçaç- ları dağınıqdırsa nə cür bahalı, gözəl paltar geyirsə-geyinsin, o yaraşıqlı və gözəl görünməyəcək. Bütün ölkələrin, qitələrin qadınları qədim zamanlardan gözəlliyə can atmışlar. Gözəllikdə saçlar az rol oynamırlar. Onlara həmişə böyük əhəmiyyət verilmişdir: onunla sifəti bəzəyib, çiyinlərə töküblər, onları hörüblər, onlara ətirli otların cövhərlərindən sığal çəkərdilər.

İnsanlar yaşlarından asılı olmayaraq, saçlarının təbii olaraq, sağlam və gözəl olmasına həmişə fikir verməyə çalışmışlar. Bu təbiətin insanlara əvəzsiz bəxş etdiyi gözəllikdir, bunu gənclik yaşlarından qorumaq lazımdır. Təəssüflər olsun ki, son vaxtlar saçlarda bir sıra xəstəliklərin əmələ gəlməsi, gəncləri çox narahat etməyə başlamışdır. Səbəblər müxtəlifdir: bəzi xəstəliklər irsi olaraq baş verir, digərləri isə qadın uşaq doğduqdan sonra hormonlarda baş verən dəyişikliklər nəticəsində əmələ gəlir. Əsəb gərginliyi, stresslər, orqanizmin ümumi xəstəlikləri saçın tökülməsinə səbəb olur. Bir sözlə saç sağlamlığın güzgüsüdür. Saç insanın əhval-ruhiyyəsinin yaxşı və küskün olmasında böyük rol oynayır. Fransızlar deyirlər: “Nə vaxt siz pis görünürsünüzsə, onda başınızı yuyun”. Bu sözlərin dərin mənası vardır. Qadınlar gözəl, sıx, təravətli, yumuşaq parlaq saçları ilə kənardan baxanları oana doğru maqnit kimi çəkir.

Saçlar hansı sıxlıqda olmalıdır? İnsanın genetik quruluşundan asılı olaraq, onun başında 20-140 minə qədər tük olur. Sarışın qadınların tükləri çox nazik olduğundan onların tüklərinin sayı

çox, qarayanız və qonurumtul (kürən) saçları olanlarda tüklərin miqdarı nisbətən az olur. Saçların ömrü bir neçə aydan başlayaraq uzun ömürlü olur. Saçlarda daimi təzələmə prosesi baş verir. Normal halda tüklərin tökülməsi və inkişafı hiss olunmaqdan baş verir. Hərgah hər gün sizin başınızdan 40-60-a qədər tük tökülərsə bu normal hal hesab edilir. Tökülən tüklərin yerinə yeniləri əmələ gəlir. Tüklərin kəskin surətdə tökülməsi baş verərsə, deməli orqanizmdə hər hansı bir xəstəliyin əmələ gəlməsindən xəbər verir. Bu zaman o saat həkimə müraciət etməli və sağlamlığınızın qayğısına vaxt itirmədən qalmalısınız. Başınızdakı tük so- ğanacaqları sağlam olarsa hər ay tüklər 10-13 millimetr uzanır. Bu proses insan yaşa dolduqca azalmağa başlayır.

Aparılan təcrübələrə əsasən müəyyən olunmuşdur ki, isti günlərdə yaz və yay vaxtlarında tüklər tez inkişaf edir və yaxud gecələr tüklər sürətlə inkişaf edir nəinki gündüzlər, hərgah qadınlar saçlarını bel və ondan aşağı nahiyyələrinə qədər uzatdıqda bu zaman saçlar tez inkişaf edir və uzunömürlü olur. Belə saçlar gənc sağlam qadınlarda olur. Tüklər nə qədər nazik və yumuşaq olarsa, onlar daxili və xarici dəyişkənliklərə qarşı bir o qədər həssas olurlar.

Təəssüflər olsun ki, biz heç cürə tüklərimizi inkişafını arzuladığımız qədər uzada bilmirik. Tüklər müəyyən uzunluğa çatdıqda inkişafını 2 dəfə azaldır. Hərgah saçlar qısa kəsilərsə onlar sürətlə inkişaf etməyə başlayır və uzun ömürlü olur. Hərgah tüklər həddindən artıq tökülərsə və qırılırsa, saçları qısa hala salmağı məsləhət görürlər. Hamar və düz kəsilmiş saçlar həmişə səliqəli görünüşə malik olur. Saçların qısa hala salınması, onlara qulluq etməyi və müalicəni asanlaşdırır. Saçların ülgüclə kəsilməsi, qayçı ilə kəsilməsindən üstün sayılır. Tükləri qayçı ilə düz kəsdikdə, bir vaxtdan sonra, budaqlanma baş verməyə başlayır.

Saçların həmişə gözəl və sağlam olması üçün vaxtlı-vaxtında gigenik qaydalara fikir vermək lazımdır.

Saçlar normal, yağlı və quru halda olurlar.

Sağlam normal saçlar. Bu cür saçlar xoşa gələn canlı parlaq, sıx, elastik! olur, dəridə qaşınma və qovaq olmur. Belə saçları asanlıqla bir yerə yığıb istənilən formaya salmaq olar. Belə saçlar kom halında olanda keçəlləşmir.

Sağlam saçları olan qadınlara aşağıdakı giginiq qaydalara riayət etməyi məsləhət görürlər. Saçları tez-tez yumaq olmaz. Saçları həftədə 1 dəfə tərkibində qələvi az olan sabunla və yaxud şampunla yumağı məsləhət görürlər.

Müxtəlif tip saçları isə tərkiblərinə bitkilərdən alınmış bioloji aktiv maddələr daxil edilmiş aşağıdakı şampunlardan istifadə etməyi məsləhər görürlər.

1. Bioloji aktiv maddələrlə zəngin “Çobanyastığı” ekstraktı, bataqlıq zanbağı, mayaotu cövhərindən hazırlanmış “Zolotonoşs- ki” ekstraktı, iynəyarpaqlı ağac bitkilərindən hazırlanan “Yantar” ekstraktı, gənəgərçək yağı qatışdırılmış “Arbat” ekstraktı, iynəyarpaq bitkilərindən hazırlanmış “Xvoinıi”ekstraktı. Saçlar öz təbii rəngini və parlaqlığını saxlasın deyə, başı yuduqdan sonra açıq rəngli tükləri çobanyastığı ekstraktı ilə yaxalamağı məsləhət görürlər. Bunun üçün 2 xörək qaşığı çobanyastığı çiçəyindən götürüb, 1 litr qaynar suya töküb, 5 dəqiqə müddətində dəmləyib, soyuduqdan sonra, süzüb başınızı yaxalayın. Tünd saçları isə çay dəmləməsindən alınan cövhərlə yaxalamağı məsləhət görürlər. Saçları qurudan zaman fendən çox istifadə etməyi məsləhət görmürlər.

Yaxşı olar ki, saçlarınızı açıq havada qurudasınız. Saçı yaş halda yox, nəm halda qurutmağı məsləhət görürlər. Saçı darayarkən yaxşı olar ki, plasmas daraqlardan istifadə edəsiniz. Yaxşı olar ki, buqidini (saçları burmaq üçün lüləcik) gecə saçlarda saxlamağı məsləhət görmürlər. Yadda saxlayın ki, siz nə qədər tez- tez yəni səhər və axşam saçlarınızı darasanız bir o qədər gözəl görünərsiniz. Saçlarınızı formaya salarkən müəyyən olunmuş

qaydalara riayət etməyi unutmayın. Heç vaxt saçlarınızı dartıb bir yerə kom halda yığmayın, bu saçların tez tökülməsinə səbəb olur.

Kosmetoloqlar arasında belə bir məşhur termin var. Buna "qerlandiya dazlığı" deyilir. Belə ki, bir vaxtlar Qrelandiyada və Yaponiyada saçı dartıb bağlama moda idi. Sonra bu ölkələrin qadınları dazlaşmadan çox əziyyət çəkməyə başlamışlar. Saçları bərk hörmək, bərk sıxılmış bantlar, sancaq, telbasan, rezin, qaytan kimi heç nə korlaya bilməz.

Saçları vızlaşdırmaqda onu çox korlayır. Baxmayaraq ki, vız saçlar saç forması kimi XVII əsrdən istifadə olunmağa başlanmışdır. Bəşəriyyətin neçə əsrlər özünə ziyan vurduğunu təsəvvür edirsinizmi? Vız saç dövrü artıq keçdi. Moda saçların təbii gözəlliyinə səs verir. Saç qəşəng şəkildə üzə və boyna töküləndə onun qadınlığını, fərdliyini nəzərə çapdırmalıdır.

Moda müxtəlif saç uzunluğunu nəzərdə tutur. Qızlara daha çox qısa saç yaraşır. Qalın uzun saçları hörmək, amma çox sıxmamaq lazımdır. Yoxsa saç arxadan dartılır və başın yanlarında isə dartılmaqdan seyrələr.

Yadda saxlamaq lazımdır ki, başın ən yaraşıqsız hissəsi qulaqların artasıdır. Özünüzün düşməni olmayın-o yeri açmayın. Əgər saçlar nazik və seyrəkdirsə, hörük saxlamaqda çəkinin. Bu halda ən yaxşısı qısa saç formasıdır. Saçları həmişə eyni bir yerdən uzun müddət ayırmağı məsləhət görmürlər. Daimi parik gəzdirmək, süni saç və s. qoymaq saçların vaxtından tez tökülməsinə səbəb olur. Dar baş geyimləri da saçlara pis təsir göstərir.

# *YAĞLI SAÇLAR*

Bu cür saçlar yüksək parlaqlığa malik olur. Kənardan baxanda sanki belə təsəvvür oyanır ki, saçlara çoxlu yağ sürtülübdür. Yağlı saçlar yuyulandan 2-3 ün sonra öz yumuşaqlıgını itirir, yağlanıb bir-birinə yapışır və xoşa gəlməz görkəm alır. Yağlı saçları hər gün yumaq olmaz. Bu cür saçları 4-5 gündən bir “Uşaq?’ ve yaxud “Borlutimolu” sabunla yumağı məsləhət görürlər. Saçlarda yağların artması piy vəzilərinin ifrat sekresiyası zamanı baş verir. Bu xəstəlik həyatın müxtəlif dövrlərində əmələ cəlir, bəzən südəmər uşaqların da başı yağlı qabıqla örtülmüş olur. Piy vəzilərinin fəaliyyətinin artması, adətən cinsi yetişkənlik dövründə müşahidə olunur, lakin bu hal bir qədər gec də baş verə bilər.

Yağlı saçlar piy vəzilərinin artıb-artmamasından asılı olmayaraq artıq 15-17 yaşından tökülməyə başlayır. Saçların tökülməsinə məhəl qoyulmursa və lazımi müalicə aparılmırsa, bu vaxtından əvvəl dazlaşmaya səbəb ola bilər. Yağlı saçları yumaqdan qabaq kifir və qatıq yaxıb 15-20 dəqiqə müddətində dəsmalla bağlayın. Sonra yuyub təmizləyin. Yağlı saçları yuduqda xardal cövhərindən də istifadə etsəniz yaxşı nəticə verir. Bundan başqa saçları yuduqdan sonra dəvədabanı, gicitkən, bağayarpağı, da- zıotu, qatırquyruğu, nanə, palıd kimi dərman bitkilərinin dəmləməsindən (1 l suya bu otların hərəsindən 2 xörək qaşığı) hazırlanmış su ilə yaxalamağı məsləhət görülür. Sarışın saçlar üçün həmin nisbətdə qatırquyruğu, çobanyastığı, mayasarmaşığı tumurcuqları götürmək faydalı olar. Başın dərisinin qabıq verməməsi üçün günaşırı başa sarışın saçı olanlara “Beryozovı voda” qara saçı olanlara “Krapivni voda” çəkilməsi tövsiyyə olunur.

Dəridə olan yağlı qovaqların təmizləmək üçün 100 q xırda doğranmış gicitkəndən götürüb 0,5 litr 6% sirkə turşusunun üzərinə töküb 30 dəqiqə qaynatdıqdan sonra süzüb, 10 gün müddətində yumağı məsləhət görürlər. Tüklərin möhkəmləndirilməsində, şampun, losyon, tualet suyu və s. istifadə olunur. Tərkibində müalicə otlarından turp kökü, gicitkən, sabahgülü, çobanyastığı, tozağacı yarpağı, çöl qatırquyruğu bitkilərindən hazırlanan “Qer-

basulfat" preparatı başda olan qovağı təmizləmək üçün ən gözəl vasitə sayılır.

Bitkilərin spirtli çıxarışından hazırlanan "Karmazin" yağlı saçlar üçün çox faydalıdır. Tərkibində A, S, K vitaminləri, bitki hormonları və qətranla zəngin olan "Gicitkən" şampunu ilə yağlı saçları yuyub normal hala salmaq olar.

Xınadan hazırlanan "Osobıy" şampunu saçlara gözəl çalarlıq, parlaqlıq verməklə yanaşı tüklərin dibini möhkəmləndirir.

# *QURU SAÇLAR*

Saçların quru olmasının müxtəlif səbəbləri ola bilər, məsələn xəstəliklər, vitamin azlığı, pis qulluq və s.

Quru saçlar parıltısız, kövrək olub tez qırılır və çox vaxt ucları haçalanır. Belə saçlara qulluq iki istiqamətdə aparılmalıdır. Əvvəla, saçların qurumasına gətirib çıxaran bütün prosedur və maddələrdən, məsələn, saçların rənglənməsindən, onlara sarışın rəng verilməsindən, saçların burulmasından, gün altında uzun müddət başıaçıq qalmasından və s. çəkinmək lazımdır. İkincisi, quru saçlar müntəzəm olaraq qidalandırılmalıdır.

Quru saçı olanların başlarında xırda quru qabıqlar əmələ gəlməyə başlayır. Quru saçları tez-tez yumaq olmaz. Quru uzun saçları 2-3 həftədən bir, qısa saçları isə 10-12 gündən bir yumağı məsləhət görürlər. Başınızı yuyan zaman çoxu sudan və sabun köpüyündən istifadə edin.

Quru saçları "Barxat", "Kosmetika", "Lanolin" sabunları, "Yumurta" və yaxud "Jeltkovıy", "Lesitinovoy" şampunlarından istifadə etməyi məsləhət görürlər. Quru saçları yumurta sarısı ilə də yuyub təmizləmək olar. Çox quru olan saçları yumazdan bir və yaxud iki saat əvvəl zəif qızdırılmış bitki yağı sürtməyi məsləhət görürlər. Saçların qırılmasının qarşısını almaq və quruluş strukturunu bərpa etmək üçün yuyulmuş nəmli saçı 3-5 dəqiqə "Moskva", "Qolf", "Saç üçün balzam" yaxalayıb, sonra yumuşaq su ilə yumağı məsləhət görürlər. Saçları yumazdan əvvəl ona zeytun, ya da soya yağından kompres qoymaq lazımdır. Onu belə hazırlayırlar: balaca qazançaya bir az yağ tökür və qazançanı isti su olan digə qazana qoyurlar, yağa 100 qram təzə doğranmış atpıt- '

rağı kökü, bir az limon şirəsi töksəniz yaxşı olar. Beləliklə, qızdırılmış yağ diqqətlə saçın dibinə sürtülür, sonra başa polietilen papaq qoyulur və üstündən isidilmiş tiftikli dəsmal bağlanır. Belə kompres bir-iki saat qalmalıdır. Quru saçlar üçün sənayedə bitki qarışıqlarından ibarət çox sayda preparatlar istehsal olunur. “Flora” şampunun tərkibi mayaotundan hazırlanan bioloji aktiv maddələrlə zəngin olub, tüklərin möhkəmləndirilməsində istifadə edi-

"Malaxit"qamış kökündən hazırlanmış kremdir. Quru saçla- I rın xarici görünüşünü qaydaya salır.

*“Piperin*"gənəgərçək yağından hazırlanan krem olub, tüklə- 1 rin

inkişafına kömək edir.

“Sombero"tərkibində gənəgərçək yağı, P vitamini və çoban- I yastığı cövhərindən hazırlanan krem dəridə qabığın əmələ gələ- məsinin qarşısını alınmasında istifadə edilir.

Çox qədim dövrlərdən başlayaraq, hal-hazırkı dövrə kimi xalq təbabətində müalicə otlarından bir sıra reseplər hazırlanıb saçların dibini möhkəmləndirən onun inkişafını sürətləndirən, qovağı təmizləyən, yağlığı və quruluğu aradan qaldıran cövhərlər əldə etmişdilər. Bunlar aşağıdakılardır.

1. *Hamar herniyar cövhəri.* 2 xörək qaşığı doğranmış otdan götürüb, 2 stəkan qaynar suya töküb 15 dəqiqə saxlayıb süzün. Aldığınız cövhərlə 1,5-2 ay ərzində saçların dibinə sürtüb, tükləri mökəmləndirin.

2. *Adi kətan cövhəri.* 4 xörək qaşığı doğranmış quru kətandan götürüb, 0,5 litr qaynar suya töküb 5-7 dəqiqə qaynadın, sonra süzüb saçların bərkidilməsində və qovağın təmizlənməsində istifadə edilir.

3. *Sarmaşıq cövhəri.* Sarmaşıq cövhərindən saçlarda istifadə etdikdə saçların inkişafı sürətlənir, tük qovucuqlarından qanın sürətini nizamlayır.

4. *Çobanyastığı cövhəri.* Açıq saçlar üçün çobanyastığı cövhərindən istifadə etməyi məsləhət görürlər. Belə ki, 2 çay qaşığı çobanyastığından götürüb, 3/4 stəkan arağın üzərinə tökb, 2 həftəyə qədər qaranlıq yerdə saxladıqdan sonra süzüb, təmiz şüşə butulkaya töküb ağzını möhkəm bağlayın. Sonra həftədə 2 dəfə işlədilmiş diş fırçasına isladıb başın dərisini silin.

5. *Bataqlıq zanbaq cövhəri.* Başda olan kəpəyi və tükün tökülməsinin qarşısını almaq və onun inkişafını sürətləndirmək üçün çox qədimlərdən bir məqsəd üçün bataqlıq zanbağının kökündən istifadə edilmişdir. Belə ki, 4 xörək qaşığı narın toz halına salınmış bataqlıq zanbağından götürüb 0,5 litr suya töküb 15 dəqiqə qaynadıqdan sonra, 30-35 dəqiqə müddətində dəmləyib tüklərinizin dibinə sürtün.

6. *Boymadərən cövhəri.* 4 xörək qaşığı boymadərən tozundan götürüb 0,5 litr suya töküb 5 dəqiqə qaynadın. Sonra süzüb, 1,5-2 ay müddətində tükün dibinə sürtüb onu möhkəmləndirir və kəpəkdən təmizləyərsiniz.

## *SAÇLARIN BOYANMASI*

Saçların rəngini boyamaqla və rəngsizləşdirmək yolu ilə dəyişmək olar. Yadda saxlamaq lazımdır ki, nazik saçlar qalın saçlardan pis rənglənir, ona görə ki, nazik saçlar tez qırılır. Saçı rəngləyəndən sonra kimyəvi üsulla burmaq olmaz, əvvəlcə saçları burdurun, sonra isə rəngləyin. Yoxsa saçlar qırılacaq və töküləcəkdir.

Hamiləlik dövründə bərk baş ağrılarında, böyrək xəstəliklərində və s.-də saçları rəngləmək tövsiyyə edilmir. Saçların rənglən- məsində süni boyalardan “Qamma”, “Blondoran”, “Parladıcı şam- pun” və s. istifadə olunur. Süni i boyalardan saçları sıx və elasti- ki olan qadınlar istifadə edə bilərlər.

Bitki boyalarından isə xına və basma çox faydalıdır. Bundan başqa bitki mənşəli vasitələrdən: rəvənd, çobanyastığı, soğan qabığı, qoz qabığı çay və s. məsləhət görülür.

Ev şəraitində saçları yüngülcə rəngləmək, ya da daha parlaq çalar vermək istədikdə başı adi çobanyastığı (2 ovuc quru çobanyastığının üstünə yarım stəkan su töküb qaynadın və 20 dəqiqə qapağını açmadan saxlayırlar) dəmləməsi ilə yaxalamaq lazımdır.

Saçı parlaq qızılı rəngə boyamaq üçün soğan qabığından istifadə edilir. Bunun üçün 30-60 qrama qədər soğan qabığını götürüb 200 ml suya töküb, 10-20 dəqiqə qaynadın. Sonra süzüb, bir neçə dalbadal istədiyiniz rəng alana qədər saçlarınıza sürtün.

Saça xurmayı və yaxud açıq şabalıd rəng vermək üçün rəvənd kökündən istifadə edirlər. Belə ki, 0,51 ağ şərab götürüb, üzərine 200 q qurudulmuş rəvəndin gövdə və kökündən töküb, mayenin yarısını buxarlanana qədər qaynadın. Sonra süzüb, soyudaraq saçlarınıza sürtün.

2-ci üsul. 3 illik rəvənd kökünü ya erkən yazda və yaxud payızda, lapatka ilə yerdən qazıb çıxarın. Sonra yuyaraq, xırda hissələrə salıb, kölgəli yerlərdə qurudun. Qısa saçlar üçün 10 q, uzun saçlar üçün 20 q, daha uzun saçlar üçün isə 30 q götürüb 1 stəkan həcmində soyuq suya töküb, mütəmadi surətdə qatışdırmaqla 15-20 dəqiqə qaynadın. Maye qatılaşandan sonra onu odun üzərindən götürüb, soyudaraq cunadan süzün. Sonra aldığınız mayenin içərisinə bir çimdik içməli soda əlavə etsəniz, saçlarınız tünd qəhvəyi rəngə, azca xama əlavə etsəniz yumuşaq parlaq rəngə boyanar.

Xına ilə saçları boyadıqda qəhvəyi rəng, xına ilə basmanı bərabər miqdarda götürdükdə şabalıdı, bir hissə xına, 2 hissə basma götürdükdə isə qara rəng alınır. Gözəl xoşa gələn şabalıdı rəngi yaşıl qoz meyvəsinin qabığından alırlar. Onu qeyd etmək yerinə düşər ki, qozun yaşıl qabığından saçın boyanması tarixi çox qədimlərə gedib çıxır. Rəngin açıq və tünd olması götürülən suyun və xammalın miqdarından asılıdır. Belə ki, xammaldan çox götürülərsə saç tünd-qəhvəyi rəngə boyanar. Rəngin hazırlanması: 100 q qoz qabığı götürüb, 1 l suya töküb, mayenin yarısı qalana qədər qaynadın. Sonra cunadan süzüb, saçınıza sürtüb 30-40 dəqiqə saxlayın.

Saçlarınızı qara rəngə boyamaq üçün adi moruq yarpağından alınan məhluldan istifadə edin. Saçlarınızı boyuyan zaman çalışın ki, onun rənci kəskin surətdə dəyişməsin. Çalışın ki, saçlarınıza açıq rəng verəsiniz. Tünd rəng hər qadına düşmür. Yaşınıza göz və dərinizin rənginə uyğun boyalardan istifadə etməyə çalışın.

Qadınlardan çoxu saçlarının quruluşundan və rəngindən razı qalmırlar. Saçları düz olan qadınlar, müxtəlif üsullardan istifadə edib, ona qıvrım forma verməyə çalışırlar. Bəziləri isə kimyəvi üsullarla saçlarını qıvrım formaya salırlar. Yadda saxlamaq lazımdır ki, kimyəvi üsullardan həddindən artıq istifadə etdikdə

huçlar öz elaktikliyini itirir və asanlıqla kövrəlləşib qırılır. Hərgah »açlarınız quru, tez sınandırsa çalışın ki, kimyəvi üsullardan kənar olasınız.

Saçları, əsasən, ağardıqda rəngəyirlər. Saçlar onlara rəng ve- ren maddənin tədricən itməsi nəticəsində ağarır. Ağ saçlar təxminən 40 yaşlarında görünməyə başlayır, bu da tamamilə təbiidir. Bəzən saçların ağarması gənclərdə, hətta uşaqlarda müşahidə olunur. Saçların vaxtından əvvəl ağarmasına ruhi sarsıntı, in- foksion xəstəliklərin keçirilməsi, anemiya, vitamin çatışmazlığı, ya da onun pis mənimsənilməməsi səbəb ola bilər.

Saçların ağarmasının qarşısını almaq, ya da onu müalicə etmək olarmı? Uzun müddət və çoxlu vitamin qəbul etməklə saçların ağarmasını müalicə etmək təşəbbüsü göstərilmişdir, lakin bu heç bir xeyirli nəticə verməmişdir. Ona görə də hələ ki, saçları rəgləmək, onlara açıq rəng vermək və ya rəngsizləşdirmək kimi üsullara əl atmaq lazım gəlir. Bunun üçün bitki mənşəli boyalardan istifad etməyi məsləhət görürlər. Saçı uzun müddət və tünd rənglərlə boyandıqda onların ağarmasını yaxşı gizlətmək mümkün olur.

## *SAÇLARIN XINA VƏ BASMA İLƏ BOYANMASI*

Xına ilə basmanın qarışığından saçları müxtəlif rəng çalarla- ra, qonur, açıq-şabalıdı, şabalıdı, tünd-şabalıdı qara və s. boya- maq olar. Saçı rəngləyən zamanı çalışmaq lazımdır ki, boyaq maddəsi sifətə və boyun nahiyyəsinə düşməsin. Çünki həmin nahiyyələrdə rəng ləkələri əmələ gələ bilər. İki boyama üsulu mövcuddur. 1 xına və basmadan saçların ayrı-ayrılıqda boyan- ması; 2. Xına və basma qarışığı ilə saçların boyanması.

*1. Xına və basma Hə saçın boyanması.* Bunun üçün 1 paket xınanı, 70 dərəcəli isti suya töküb sıyıq alıncaya qədər qarışdırıb, diş fırçası ilə xınadan götürüb saçlarınıza yaxın. Elə ki, saçlarınız xına sıyığı ilə tamamilə örtüldükdən sonra, mütləq ikinci dəfə saçların ağaran hissələrinə xına çəkməyi unutmayın. Sonra ba-

şınızı kompress kağızı və yaxud polietilənlə, pambıq və dəsmala 2-3 saat bağlamağı məsləhət görürlər.

Boyağın saçlarda qalma müddətindən asılı olaraq rəng çalarlarının alınması aşağıdakı kimidir: Açıq şabaldıdı rəng almaq üçün 40 dəqiqə, tünd şabalıdı-1 saat 20-1 saat 30 dəqiqə, qara rəng-1 saat 40 dəqiqə və s. saxlamağı məsləhət görürlər.

Xına ilə saçlarınızı boyadıqdan sonra sabunsuz yuyun. Yaxşı boyanmış saç parlaq qırmızı rəngə çalır. Hərgah ağarmış saçlar, sarı rəngə çevrilərsə 2-ci dəfə xına çəkməyi məsləhət görürlər. Yuxarıda qeyd etdiyimiz üsulla yəni 25 q basma götürüb sıyığını hazırlayıb saçınıza çəkin. Sonra yaş sarğı ilə başınızı bağlayıb sizə lazım olan rəng alınana qədər bağlı halda saxlayın. Açıq şabalıdı rəng almaq üçün 15-20 dəqiqə, qara rəng almaq üçün 1 saat 20 dəqiqə, 1 saat 30 dəqiqə, tünd şabalıdı rəng almaq çün isə 40-60 dəqiqə saxlamağı məsləhət görürlər.

Hərgah siz saçlarınızın kök hissəsini boyamaq istəsəniz onda 12,5 qram xına və yaxud basma götürüb istifadə edin. Uzun saçlar üçün isə 1,5 paket xına və yaxud basma götürməyi məsləhət görürlər. Götürdüyünüz boya maddəsinin miqdarından asılı olra- qa saçlarınızı müxtəlif tona sata bilərsiniz. Hərgah saçlarınız xına ilə boyandıqdan sonra kürən rəng atarsa, onda tərkarən basma ilə boyayın. Boyadıqdan 3 gün sonra saçlarınızı sabunla yuyun.

## *XINA VƏ BASMA QARIŞIĞI İLƏ SAÇIN BOY ANMASI*

Xurmayı rəng almaq üçün 1 hissə xına, 2 hissə basmanı götürüb, sıyığını hazırlayıb saçlarınıza yaxıb 30 dəqiqə saxlayın. Boyanı saçlarınızda 30 diqəqədən artıq saxlasanız qəhvəyi rəng alarsınız. Şabalıdı rəng almaq üçün isə boyanı saçlarınızda 1,5 saat saxlayın. Saçlarınızı qara rəngə boyamaq üçün 1 hissə xına, 3 hissə basma götürüb qarışdırıb sıyığını hazırlayıb, saçlarınıza yaxıb, 4 saat bağlı halda saxlayın. Saçlarınızda istədiyiniz tonu almaq üçün çox çətinliklərlə qarşılaşarsınız. Tonu asanlıqla almaq üçün saçlarınızdan bir neçə tükü kəsib müxtəlif miqdarda

boyaq ilə rəngləyib vaxtını düzgün təyin edə bilərsiniz.

Xına və basmanı qapalı qabda qaranlıq yerdə saxlamağı məsləhət görürlər.

## *SAÇLARIN YUYULMASI*

Saçları düzgün və vaxtlı-vaxtında qulluq insandan böyük bir məharət tələb edir. Saçları “nə gec, nə də tez” yumaq olar. Onları çirklənəndə yumaq lazımdır. Hər saçın öz vaxtı var. O, orqanizmin xüsusiyyətləri ilə, dərinin yağlılığı, yaxud quruluğu ilə əlaqədardır. Saçları onlarda ərp qoyan maddələr olan sabundansa, şampunla yumaq daha yaxşıdır. Şampunlar güclü yuyucu vasitələrdir. Onları yumuşaltmaq üçün şampunlara vitaminlər, müxtəlif yağlar və digər qidalı maddələr əlavə edilmişdir. Sənayedə buraxılan “Solnışko”, “Malaxit” “İvuşka", “Lada”, “Beryozka” “Alyonuş- ka” “Yantar” şampunları ilə hər cür saçları yumaq olar. “Romaş- ka” şampunu saçların dibinin möhkəmlənməsinə, qabıq verməsinin azalmasına kömək edir, çünki onun tərkibində bioloji cəhətdən fəal zülal maddələri və çobanyastığı cövhəri vardır. Tərkibində iyi və mayasarmaşığı dəmləməsi olan “Zolotonoşski” vitaminlər və xüsusi qidalandırıcı əlavələri olan “Prima” şampunları da bu qəbildəndir.

Qırılan kövrək saçları kimyəvi burmadan və rəngləyəndən sonra tərkibində saçların yumuşaqlığını artıran və onun uzanmasına kömək edən aminturşular, vitamin və əlavə bir sıra qidalandırıcı maddələr olan “Nataşa” şampunu, ya da tərkibində vitamin kompleksi və lesitin olan “Lesitinovı” şampunu ilə yumağı məsləhət görürlər.

Qatılaşdırılmış “Remol” şampunu çox gözəl antiseptik və antibakteroloji təsiri göstərir. Tərkibində gicitkən, mayasarmaşığı cövhəri, vitaminlər olan “Krapiva", şampunu saçları tez yağlananlara, “Flora”, “Yayiçnı", “İzumrudnı” şampunları isə saçları daha quru olanlara tövsiyyə edilir.

Başı yuyandan sonra “Qolf”, “Moskovski” “Malaxin” və başqıı sularla yaxaladıqda, saçları daha yumuşaq və təbii parıltısı olur, yaxşı daranır.

Saçların dibini möhkəmləndirən “Panarin”, “Osobı” kremlərl, “Vitaminnaya voda”, “Somberero” pastası kimi cürbəcür vasitələr saçların qidalanmasını yaxşılaşdırır, başın dərisində mübadilə prosesini nizamlayır, sakitləşdirici təsir göstərir, qabıq vermənin qarşısını alır. Saçları çay və yağış suyu ilə yumaq daha yaxşıdır. Çünki onlarda qələvi yoxdur. Saçı isti məhraba ilə silmək lazımdır, onu peçin yanında, yaxud gündə qurutmaq məsləhət görülmür: bundan saçlar çox quruyur, kövrəkləşir, parıltısını itirir. Onları qurudan zaman daramaq xeyirlidir.

Saçları necə daramaq lazımdır? Bunun da öz qaydaları var. Saçları yolmamaq və dərini cızmamaq üçün onu hər gün o qədər də sıx və iri dişi olmayan daraqla daramaq lazımdır. Şotka ilə daramaq xeyirlidir. O, qan dövranının və saçların qidalanmasını yaxşılaşdırır.

Daraq da, şotka da olduqca təmiz olmalıdır. Heç kimə öz darağını “borc” vermək məsləhət görülmür.

# QARABAŞAQ-FAQOPURUM

Qarabaşaq (Fagopyrum) dünya florasında qarabaşaq cinsinin 3 növü yayılmışdır. Bunlardan Qafqazda 2, o cümlədən də Azərbaycanda 1 növünə rast gəlmək olar. Bunlar aşağıdakılardır: əkilən və yaxud mədəni qarabaşaq-F.esculentum, yabanı və mədəni halda yayılan tatar qarabaşağı-F.tataricum, yarımkol qaraba- şağı-F.suffruticosum.

Qarabaşaq cinsinin növləri birillik və çoxillik ot bitkiləridir.

Bunların içərisində geniş surətdə əkilib-becərilən qarabaşaq haqqında məlumat verək.

Əkilən qarabaşaq (F.esculentum). Qırxbuğum fəsiləsi-polygo- naceae. Bu, gövdəsinin içərisi boş, hündürlüyü 30-150 sm olan, budaqlanan, tilli, birillik ot bitkisidir. Əlverişli şəraitdə bir gövdə üzərində 10-12-yə qədər budaq yerləşir. Bitki yetişən dövrdə gövdəsi qızarır, qırmızı rəng alır.

Qarabaşağın yarpaqları ürək şəkilli-üçkünc və yaxud ürək şəkilli ox formasındadır. Saçaqlı və uzun kök sistemi kök tükcükle- ri ilə əhatə olunub, bitkinin normal qidalanması üçün şərait yaradır.

Əgər toxum azca zədələnərsə, bitkinin kökü zəif inkişaf edir, məhsuldarlıq aşağı düşür. Qarabaşaq kökü torpağın 70-90 sm-ə qədər dərinliyinə işləmə qabiliyyətinə malikdir. Kökün əsas kütləsi torpağın üzərində, yəni 25-30 sm hündürlükdə yerləşir.

Qarabaşağın çiçəkləri ikievlidir, çəhrayı və yaxud qırmızı rəngli həşaratları özünə cəlbedən xoş ətirli iyə malikdir. Çiçəklər həmaşçiçək, salxım, qalxancıq və yaxud yarımçətir şəklində olub, gövdə yarpaqlarının, yaxud yan budaqların qoltuğunda yerləşirlər. Qarabaşağın çiçəkləri müxtəlif quruluşda olurlar. Belə ki, bir qrup çiçəkdə erkəkcik dişiciyin sütuncuğundan uzun, digərlərində isə sütuncuqdan qısa olur. Bitkidə böyük və kiçik sütuncuq- lar əkin sahəsində bərabər sayda olurlar.

Qarabaşağın toxumları üçüzlü, fındıqça şəkilindədir; iti tillərdən ibarət, hamar səthli, qanadlı və qanadsız, qara qəhvəyi, boz,: bozumtul, sarımtıl və s. rənglərdə olur. 1000 ədədi toxumun çəkisi 18-32 q-dır.

*Bioloji xüsusiyyətləri.* Qarabaşaq sürətlə inkişaf edən bitkidir. Bitkidə həqiqi birinci yarpaq əmələgən kimi gövdə və budaqlar inkişaf edir. Cücərti əmələ gəldikdən 8-10 gün sonra qönçə yaranır və 25-30 gündən sonra çiçəkləyir. Bu zaman bir bitkidə çoxlu miqdarda, yəni 1000-ə qədər çiçək əmələ gəlir. Lakin bu dövrdə bitkinin kök və assimilyasiya orqanları hələ tam inkişaf etmir. Qarabaşaq bitkisinin çiçəklənməsi uzun müddət, yəni 25- 30 gün çəkir, tez səpilən sortlarda isə 30-40 gün davam edir. Bu zaman yarpaq və gövdə intensiv surətdə inkişaf etməyə başlayır. Bitkidə fotosintez prosesinin sürətlə getməsi nəticəsində vegetativ orqanlar böyüyür və generativ orqanları formalaşmağa başlayır.

Bunun yarpaqlarının miqdarı buğda bitkisindəki 1,5-2 dəfə azdır. Qida maddəsinin çatışmazlığı çiçək və meyvələrin vaxtsız quruyub tökülməsinə səbəb olur, nəticədə bitkidə əmələ gələn toxumların sayı çiçəklərin sayından 10-15 faiz az olur. Bu da onu gösterir ki, generativ orqanları çiçək və meyvəvermə fazasında bitkinin inkişafına təsir edən faktlara qarşı çox tələbkardır. Qarabaşağın bioloji xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun çiçəkləri müxtəlif quruluşda olur. Qarabaşaqda normal meyvəvermə o vaxt düzgün gedir ki, tozcuğun uzunluğu, dişiciyin uzunluğuna bərabər olsun və yaxud əksinə, qısa erkəkcik, qısa dişiciklə üst-üstə düşsün. Bu zaman təbii və ya cinsi tozlanma prosesi baş verir. Əgər dişicik ağızcığına erkəkciyin tozu düşərsə və erkəkcik dişicik sütuncuğundan uzun olarsa, bu zaman qeyri-cinsi tozlanma baş verir ki, bunun nəticəsində də bitkidə ancaq 50 faizə qədər toxum əmələ gəlir. Bu prosesi Ç.Darvin də öz təcrübələrində müşahidə etmişdir. Qarabaşaqda arılar vasitəsilə çarpaz tozlanma prosesi də gedir. Bir çiçəyin digər çiçəyi tozlandırması əksər hallarda külək vasitəsilə də gedir.

Qarabaşaq istisevən bitkidir. Toxumları 5 dərəcə S-də cücərmə qabiliyyətinə malikdir. Cücərtilər 7-8 dərəcə S temperaturda 18-20 gündən sonra inkişaf edir. Temperatur $12^0$ S olduqda cücərtilər 10 gündən, 15 dərəcə S olduqda isə 7-8 gündən sonra çıxır. Qarabaşaq şaxtaya çox həssasdır. Səhərlər $15\text{-}20^0$ S şaxta olduqda məhv olur. Qarabaşaq payız mövsümünə qarşı da olduqca davamsızdır. $0{,}12\text{-}13^0$ temperaturda çox pis böyüyür, 30

"S-dən yüksək temperatura qarşı çox davamsız olur. Çiçəkləmə dövründə bu daha çox nəzərə çarpır. İsti, yağmursuz havalarda mayalanma olduqca zəif gedir. Belə havada çiçəkdə nektar az ifraz olunur. İfraz olunan nektar isti nəticəsində tez quruyur ve çi- çek həşəratı özünə cəlb edə bilmir. Nəticədə çarpazlanma prose- ıl tam getmir və məhsuldarlıq xeyli aşağı düşür. Bir çox gecyetişən sortlarda bu proses baş vermir. Onlarda tozlanma normal getməklə yanaşı bol məhsul əldə edilir. Çiçək və meyvə əmələ gələndə bitki nəmliyə qarşı çox tələbkar olur.

Növbəli əkin sahəsi-Qarabaşaq müxtəlif torpaqlarda, əsasən yüngül və qumsal torpaqlarda daha yaxşı inkişaf edib bol məhsul verir. Aparılan çöl-təcrübə işləri zamanı məlum olmuşdur ki, qarabaşağı kökümeyvəli, dənli və paxlalı və s. bitkilərin (noxud, çöl- noxudu, kartof, kətan yerinə əkdikdə buğda bitkisinə nisbətən 30-40 faiz çox məhsul əldə etmək olar. Qarabaşaq üçün ən yaxşı sələf çuğundurdur. Şərq rayonlarında Qarabaşaq üçün ən yaxşı sələf yazlıq buğdanın əkin sahələri hesab olunur.

Qarabaşaq bitkisinin özü isə başqa mədəni bitkilər üçün ən yaxşı sələf ola bilər. Başqırdıstanın Çişminski təcrübə stansiyasında aparılan elmi-tədqiqat işləri nəticəsində müəyyən olmuşdur ki, qarabaşaq bitkisinin yerinə yazlıq buğda əkilərsə, hər hektar sahədə məhsuldarlıq 37 faizə çatar.

Qarabaşaq üçün ən yaxşı sələf payızlıq raps, arpa, tezyetişən kartof sortları və s. ola bilər.

*Torpağın əkinə hazırlanması.* Qarabaşaq bitkisi bütün inkişaf dövrü ərzində nəmliyə qarşı tələbkardır. Payızda torpağı əkinə hazırlayan zaman əvvəlcə həmin sahəyə əkiləcək bitkinin xüsusiyyətlərinə əsasən işlər görülür.Taxıl ve kartof bitkilərindən sonra torpağa qarabaşaq əkmək üçün əvvəlcədən onu üzdən 5- 6 sm qalınlığında şumlayırlar. 1-2 həftədən sonra yenidən 28-30 sm dərinliyində keyfiyyətli şum aparılır. Yay əkini qabağı isə torpaqda nəmliyi saxlamaq üçün onu şumladıqdan sonra 2-3 dəfə kultivasiya edir, alaq otlarından təmizləyib malalayır, üzvi və mineral gübrələrlə qidalandırırlar.

*Gübrələnməsi.* Qarabaşağın kökləri zəif inkişaf etdiyinə görə o, mineral və üzvi gübrələrlə qarşı olduqca tələbkardır. Belə ki, 1 sentner qarabaşaq bitkisinin samanında 4,4 kq N, 2,5 kq fosfor

turşusu, 7,5 kq kaliumoksidi tapılmışdır. Bitki inkişaf dövründə gübrələri bərabər miqdarda mənimsəmir. Belə ki, əkindən 1,5 av sonra, yəni çiçəklənmə dövrünə kimi 61 faizi və 40 faizə qədər P mənimsəyir. Bitki çiçək və toxum əmələ gətirən zaman P-a qarşı daha tələbkar olur.

Qaratorpaq sahələrdə qarabaşaq ən çox P gübrəsini tələb edir. Qələvi küllə zəngin və boz-meşə torpaqlarda P,K və N gübrələrinə qarşı olduqca tələbkardır.

D.N.Pryanişnikovun apardığı təcrübələr göstərmişdir ki, fosfo- rit unu qarabaşaq bitkisinin məhsuldarlığını xeyli artırır. Smolensk təcrübə stansiyasına hər hektar sahəyə 90 kq fosforit unu verməklə 5,2 S artıq toxum məhsulu əldə edilmişdir.

K və P gübrələrinin birlikdə verilməsi qarabaşaq çiçəyində çoxlu miqdarda neftar ifrazına səbəb olur ki, bu da bitkinin həşaratlarla tozlanmasına şərait yaradır.

*Toxumun əkinə hazırlanması.* Əkin üçün toxumu yüksək məhsuldarlıqla qarabaşaq sortundan seçirlər. Əkin üçün xəstəliyə davamlı, ən iri və sağlam toxumları seçirlər. Toxumu 15-15$^0$ S temperaturda, torpaq qızan zaman 8-10 sm dərinliyində əkirlər. Ümumiyyətlə, qarabaşaq bitkisini elə bir vaxtda əkmək lazımdır ki, çiçək və meyvəvermə dövrü kifayət qədər mülayim temperatur və rütubət şəraitinə keçsin. Ona görə də qarabaşağı münbit torpaq sahələrində əkib-becərmək məsləhətdir.

İqlim və torpaq şəraitindən asılı olaraq müxtəlif zonalarda qarabaşağı müxtəlif vaxtlarda əkirlər. Məsələn, Saknt-Peterburq və Tula vilayətlərində onun ən əlverişli əkin dövrü 25 maydan 5 iyuna, Orlov rayonunda may ayının axırlarına, iyun ayının birinci onünlüyünə qədərdir.

Qarabaşaq başqa mədəni bitkilərə nisbətən seyrək və qidalanma sahəsi geniş olan şəraitdə becərilməyi sevir. Toxumlarını əsasən bir-birindən 45-51 sm aralı əkirlər. Bu üsulla əkilən sahənin hər hektarından 16,6-18,6 sentner məhsul əldə edirlər. 1 ha sahəyə 38-40 kq toxum səpirlər. Torpağın quruluşundan və əkin vaxtından asılı olaraq onu müxtəlif dərinlikdə əkirlər: kifayət qədər rütubətə malik olan ağır torpaqlarda qarabaşaq toxumunu 4- 5, üst qatı şiddətli surətdə quruyan və yüngül torpaqlarda isə toxumları 6-7 sm dərinliyində basdırırlar.

1

*Bitkilərə qulluq edilməsi qaydaları.* İlk növbədə ketman vasitəsilə yumşaldılma işləri aparılır ki, torpaq həmişə nəm qalsın. Torpaqda nəmliyi normal halda saxlamaqla hər hektar sahədən məhsuldarlığı 1,1 sentner artırmaq mümkündür. Səpindən sonra güclü yağışlar nəticəsində torpağın səthi qabıq qoyur. Bu çatışmazlığı aradan qaldırmaq üçün təcili malalama işləri aparılır. Cücərti əmələ gələn kimi cərgələrarası yuşşaltma və alaq otlarından təmizləmə işləri görülür. Aparılan təcrübələr nəticəsində müəyyən olunmuşdur ki, məhsuldarlığı kifayət qədər artırmaq üçün qarabaşağın dibi çiçək açmazdan qabaq yüngülcə yumşaldılmalıdır, bu zamaq bitkidə əlavə köklər və yan budaqlar əmələ gəlir. Qarabaşaq bitişində tam tozlanma getməsi üçün çiçəkləyən zaman hər hektar sahəyə 2-4 arı ailəsi buraxırlar. Bu, heç bir xərc və çətinlik törətmir, əksinə əkin sahəsində məhsuldarlığı artıraraq təsərrüfata xeyli gəlir verir.

Ukrayna təcrübə stansiyasında aparılan təcrübələr göstərmişdir ki, arı pətəkləri əkin sahələrinin yaxınlığında olarsa, hər hektardan 18 s 05 km aralı olduqda 6,4 s məhsul götürmək olar. Göründüyü kimi, arı pətəkləri əkin sahəsinə nə qədər yaxın yerləşərsə, məhsuldarlıq da bir o qədər yüksək olar.

*Məhsulun toplanması.* Qarabaşağın toxumları çiçək solduqdan 30 gün sonra yetişməyə başlayır. İtkiyə yol verilməsin deyə, toxumları hələ tam yetişmədiyi halda toplamağa başlayırlar. Bitkinin 2/3 hissəsi qonur rəng aldıqda toxum məhsulunu toplamaq məsləhət görülür.

Havaların quru və yağmursuz keçdiyi illərdə qarabaşağın çiçəklənmə və toxumvermə prosesi gecikir. Yağıntının miqdarı çoxaldıqda, bitki intensiv inkişaf etməyə başlayır. Bu zaman bitkidə əlavə toxumvermə orqanlarının sayı artır ki, nəticədə məhsuldarlıq yüksəlir. Qarabaşağı intensiv toxum yetişən zaman toplamaq məsləhət görülür. Yığılan məhsulu xüsusi kombanylarda üyüdürlər. Üyüdülmüş toxumları normal nəmliyin saxlamaqla qurudur və toxum saxlanılan anbarlara təhvil verirlər. Tam təmizlən- məməsi və eləcə də nəmlik dərəcəsi artıq olarsa, toxum tez qızışır və cücərmə qabiliyyətini itirir. Anbarlarda yaxşı təmizlənmiş, sortlara ayrılmış, nəmlilik dərəcəsi 14 faizdən artıq olmayan toxumları saxlamaq məsləhət görülmür.

*Qarabaşağın əhəmiyyəti.* Qarabaşaq böyük əhəmiyyətli qida bitkisidir. Ondan yeyinti sənayesinin müxtəlif sahələrində geniş istifadə edilir. Bu mədəni bitkidən əsasən toxum və qiymətli qida məhsulları hazırlanan qarabaşaq yarması əldə edilir. Qara başaq yarması asan həzm olunmaqla yanaşı, ondan yüksək qidalılıq xüsusiyyətinə malik dadlı və ləzzətli xörəklər hazırlanır. Toxumlarının tərkibində 82 faiz nişasta, 10-16 faizə qədər zülal, 3 faiz piyli maddə, 0,3-0,5 faiz şəkər, 2 faiz sellüloza və s. təpal- mışdır. Toxumların tərkibindəki zülal maddəsinin miqdarı əkildiyi torpağın zənginliyindən, rütubətin miqdarından, havanın qumluğundan asılı olaraq dəyişilir. Qarabaşağın tərkibindəki zülal buğdadakından daha qiymətli sayılır. Toxumundakı zülali maddənin əsas tərkibini qlobulin və albumin təşkil edir. Zülalın bioloji aktivliyi onun tərkibindəki amin turşularının keyfiyyətindən asılıdır. Qarabaşaq zülalının tərkibi 18-ə qədər amin turşularından ibarətdir ki, bunun da əsas hissəsini triptofan, lizin, leysin və me- tionin təşkil edir. Birləşmiş Millətlər Təşkilatınnın "Ərzaq və kənd təsərrüfatı şöbəsi"nin verdiyi məlumatlara əsasən hər hansı bir ərzağın tərkibində əvəzolunmayan amin turşularının-triptofan, lizin və metionin miqdarı 1:3:3 nisbətində olarsa, bu, normal hesab edilir. Hesablamalara görə, qarabaşağın tərkibindəki əsas amin turşularının nisbəti 1:3,1:7 olub standarta uyğun gəlir. Qarabaşaq zülalının keyfiyyəti taxıl bitkilərininkindən yüksək, paxla- lılarınkına yaxın, bəzən isə onlardan yüksək olur. Bu zülal yüksək həzmolma faizinə malikdir (75%). Südlə hazırlanan qarabaşaq sıyığının tərkibindəki amin turşularının keyfiyyəti ətinkinə yaxındır. Qarabaşaq unundan fəsəli, qoğal, kökə, bir çox peçenye növlərinin, bundan başqa, hərbi işçilər üçün qida, müxtəlif çörək növlərinin hazırlanmasında istifadə edilir. Ondan qiymətli vermişel və yarma növləri də istehsal olunur. Yarmanın tərkibi mineral maddələrlə zəngindir; külünün tərkibini 48,7 faiz fosfor turşusu, 23,1% k və 12,4% Mg oksidləri təşkil edir. Başqa dənli bitkilərə nisbətən qarabaşaq dəninin tərkibində Fe-in miqdarı 1,7%-dən çoxdur. Dəmir toxumdakı Imon, alma və quzuqulağı turşularının duzları ilə birləşərək onun tərkibində bərabər miqdarda yayılır. Toxumun tərkibində olan Cu orqanizmdə hemoqlobinin əmələ gəlməsində böyük rol oynayaraq, qanazlığının aradan qaldırılma

sına fəal köməklik göstərir. Qarabaşaq yarmasının tərkibindəki B (tiamin), B2 (riboflavin), PP, B9 (foliv turşusu) vitaminləri orqanizmdə qanın həmişə normal işləməsini təmin edir. Bundan əlavə, onun tərkibində Zn, Y, B, Ni, Co və s. mikroelementlər də aşkar olunmuşdur. Toxumun tərkibindəki lipid maddəsi 14 yağ turşusunun (əsasən palmitin, olein və linol) birləşməsindən əmələ gəlmişdir. Qarabaşaq toxumunda (tokoferol) vitaminin olması orqanizmin xarici təsirlərə qarşı müqavimətinin artırılmasında böyük rol oynayır. Lipidin tərkibində xeyli miqdarda lesitin maddəsinin olması orqanizmdən xolesterinin kənar edilməsində böyük rol oynayır. Qarabaşaq yarmasında piyli maddənin onun oksidlə- şib xarab olmasının qarşısını almaqla yanaşı toxumun qidalılıq keyfiyyətinə zərər dəymədən uzun müddət saxlanmasına şərait yaradır.

Qarabaşağın tərkibinə asan həzm olunan mühüm qida maddələrinin, mineral birləşmələrin, həmçinin üzvi turşuların və vitaminlərin zənginliyi ondan bir sıra pəhriz və müalicə məhsulları hazırlayıb müxtəlif xəstəliklərin sağaldılmasında geniş istifadə etməyə imkan yaradır. Qarabaşaqdan P (rutin) vitamini istehsal olunur ki, bu da tibb elmində qan kapilyarlarının çatlaması, dağılması və eləcə də orqanizmdə qansızmalarının aradan qaldırılması, qan laxtalanması vaxtının azaldılması, ürək döyüntülərinin normalaşdırılmasında böyük rol oynayır. Çiçək və yarpaqlarından hazırlanan cövhərlərin tərkibində faqopirin və rutin maddələrinin olduğu üçün bronxit, hipertoniya, ateroskleroz və şüa xəstəliklərinə qarşı cjeniş istifadə olunurlar. Onun müalicəvi təsirə malik olan tozcuğunun tərkiindən 17 mq/% rutin tapılmışdır.

Qarabaşaq qiymətli nektar bitkisidir. Mülayim iqlim zonalarında əkilən qarabaşağın tam çiçəkləmə dövründə hər hektar sahədən 70-80 kq bal məhsulu əldə etmək olar. Qarabaşaq balı xoş ətrə, yüksək keyfiyyətə malikdir. 1 kq qarabaşaq samanının tərkibində 0,29 yem vahidi, 24 q həllolan protein, 15,7 q Ca, 1,42 q P və 2,9 q karotin tapıldığı halda, 1 kq tullantının tərkibində 0,56 yem vahidi 82,2 q həllolan protein, 23,92 q Ca, 2,4 q Pb, 10,6 q karotin və s. müəyyən olunmuşdur. Ona görə də qarabaşağın saman tullantısından ot unu hazırlayıb donuzların əsas qidasını təşkil edən yemlərin tərkibinə qatırlar. Qarabaşaq bitkisi aqrotexni-

ki cəhətdən də qiymətlidir. Belə ki, o, tez böyüyür, sulu torpaqlarda yaxşı bitir, alaq otlarının inkişafının qarşısını alır. Ona görə də bir çox mədəni bitkilərin sələfi hesab edilir. Qısa vegetativ xüsusiyyətlərə malik olduğundan, onu yenidən şaxta və quraqlıqdan məhv olmuş payızlıq bitkilərin sahəsinə əkib təkrar məhsul əldə etmək olar.

Cənub rayonlarının rütubətli torpaq sahələrində qarabaşağı becərərək yüksək məhsul əldə edirlər.

Hazırda Rusiya qarabaşağın əkin sahəsinə görə dünyada ikinci yeri tutur. 1988-ci ildə bu sahə Rusiyada 2 milyon hektara yaxın olmuş və yaxud bütün dünyada əkilən qarabaşaq sahəsinin yarıdan çoxunu təşkil etmişdir. Qarabaşaq Polşa, Fransa, Almaniya ABŞ, Kanada həmçinin Monqolustan, Çin, KXDR, Hindistan, Yaponiya və s. ölkələrdə əkilib-becərilir.

Qarabaşaq bitkisi qeyri-qaratorpaq sahələrdə, Ukrayna və Belorusiyasının meşə kənarlarında, mərkəzi və aran rayonlarında becərilir.

Azərbaycanda qarabaşağı qarşı diqqətin az olması aşağıdakı səbəblərə: bitkinin guya ölkənin şimal hissəsinə aid olması, xarici mühitin qarabaşağa təsiri, onun yetişirilmə və yığılma texnologiyası, iqtisadi səmərəsi haqqında və s. bu kimi elmi məlumatların olmaması ilə izah etmək olar.

Qarabaşaq bitkisini b.e.n. Imanxan Əziz Masallı rayonunun M.Ə.Sabir adına sovxozunda təcrübə məqsədilə əkib-becərmiş və yüksək məhsul əldə etmişdir.

Qarabaşaq iqtisadi cəhətdən əlverişli olmaqla yanaşı çox rentabellidir. Bitkinin faydalı xüsusiyyətlərini nəzərə alıb respublikamızda geniş miqyasda əkilib-becərilməsi üçün biotexniki tədbirlərdən istifadə etmək lazımdır.

Qarabaşağın tərkibində qiymətli bioloji aktiv maddələrin zənginliyini nəzərə alıb kosmetika sənayesində ondan müalicə məqsədləri üçün geniş cürətdə istifadə olunur.

# ƏRİK-ARMENIACA

Əriyin (Armeniaca) dünya florasının tərkibində ərik cinsinin 10-a qədər növü yayılmışdır.

Əriyin Azərbaycan ərazisində 2 növü: adi ərik-A.vulgaris qaysı-gavalı-A.dasycarpa mədəni halda yayılmışdır.

Əriyə yabanı halda Orta Asiyada, Şimal şərqi Çin, Dağıstanın mərkəzi hissələrində dəniz səviyyəsindən 500-1200 m yüksəklikdə rast gəlmək olar.

Əriyin vətəni Tyan-Şan sayılır. İlk mənşəyini Şimal şərqi Çindən götürərək, dünyanın bir çox ölkələrində yayılmışdır. Yabanı halda ən çox Tyan-Şan dağlarının gündüşən cənub yamaclarında, daşlı-çınqıllı torpaqlarda, daşlıq və qayalıq ərazilərdə yayılmışdır. Ərik bizim eradan 2000 il əvvəl mədəni hala keçirilmişdir. Hazırda həvəskar bağbanlar, seleksiyaçılar, aqronomların gərgin əməyi nəticəsində əriyin meyvələrinin ölçüsünə, quruluşuna, rəngi və ətirinə görə yüzlərlə sortları alınmışdır. Bunlardan ən qiymətlisi adi ərik (qyası) hesab edilir.

Adi ərik-A.vulgaris-hündürlüyü 6-10 m olan dəyirmi və ya bir qədər yastı sıx çətirə və düz gövdəyə malik ağacdır. Gövdəsi 25- 40, bəzən də 50-60 sm diametrdə olur. Çiçəkləri ir, ağ və ya çəhrayıdır. Çəyirdəyin ölçüsü və forması müxtəlifdir: oval, dəyirmi, lansetşəkilli, üzəri hamar və ya kələ-kötürdür. Çəyirdək meyvənin ətli hissəsinə yapışan və ya ondan asan ayrılandır. Onun ləpəsi adətən, şirin olur. Yarpaqlamazdan qabaq çiçəkləyir. Çiçəkləmə çox tez başlayır və cəmi 7-10 gün çəkir ki, bu da bitkiyə mənfi təsir göstərir. Belə ki, yazın ilk isti günlərində çiçək tumurcuqları açılmağa başlayır, havalar soyuyanda yaz şaxtalarının təsirindən tələf olurlar. Meyvəsi çəyirdəkli, dəyirmi-oval və ya badam şəkillidir, rəngi açıq sarı, narıncı, qırmızımtıl-narıncı, qırmızı olur, üzəri qızartılı, ortadan uzununa şırımlı, qabığı adətən məxməri tüklü bəzi hallarda çılpaqdır. Meyvəsi (Mezokarpı) ətirli, şirəli, şirin, müxtəlif irilikdə yetişdikdə töküləndir. Meyvələri mülayim isti iqlimli rayonlarda iyun-avqust aylarında yetişir. 1 ha sahədən 8-12 t ərik məhsulu götürmək olar. Meyvəsinin çəkisi 50-80 q olur.

Əriyin bir çox forma və sortları Azərbaycanın bütün rayonlarında, xüsusən Naxçıvan MR-in dağətəyi rayonlarında geniş əkilib-becərilir. Meyvə əldə etmək üçün əkilib-becərilən əriklərin əsas hissəsini A.vulgaris növü təşkil edir. Yabanı halda bitən növlərə nisbətən mədəni halda becərilənlər daha çox yayılmışdır. Dəniz səviyyəsindən hündürlüyə görə ərik geniş yayılma arealına malikdir. O, Abşeron şəraitində də çox yaxşı yetişir. Ordubad rayonunda isə ərik ağacları dəniz səviyyəsindən 1400 m hündürlüyədək sahədə becərilir. Quraqlığa davamlı bitkidir. Çox işıqlı yerlərdə üaxşı boy atır, yüksək məhsul verir, əksinə, kölgə və nəm yerlərdə az müddət ərzində müxtəlif göbələk xəstəliklərinə tutulur, kitrə buraxır. Rütubətli, bataqlıq və şoran torpaqları sevmir. Tez böyüməsi və meyvə verməsi ilə fərqlənir. 15-20, 20-25 illik ağacları isə 80-100 (150) kq-a qədər meyvə verir.

Meyvəsinin tərkibində çoxlu miqdarda şəkər (qlükoza, frukto- za və s.) karotin, B1, B2, və P və S vitaminləri, üzvi turşular (limon, alma turşuları), aşı və pektin maddələri, çoxlu miqdarda Fe, K, Na, Ca, Mg və P aşkar edilmişdir. Toxumlarında 50-60 faizə qədər donmayan, tərkibində 20-yə qədər zülal və 10 faizə qədər karbohidratlar olan yağ müəyyən edilmişdir ki, bundan da tibbdə geniş sistifadə olunan kamfora yağı hazırlanır. Bundan əlavə, tərkibində, mühüm müalicə əhəmiyyəti olan panqam turşusu (vitamin B15) da vardır. Acı toxumlarının tərkibində amiqdalin qliko- zidi olduğuna görə zəhərlidir.

Ərikdən konserv, şirniyyət, mürəbbə, kompot, sərinləşdirici içki və s. məhsuldar hazırlanır. Meyvələri təzə və qurudulmuş halda pəhriz maddə kimi anemiya xəstəliyi zamanı hamilə qadınlara qüvvətverici və qanartırıcı vasitə kimi məsləhət görülür. Qurudulmuş qayısıdan ürək zəifləyəndə və bir sıra başqa xəstəliklərdə istifadə edilir. Lakin şəkər xəstəliyi zamanı məsləhət görülmür.

Pakistan alimərinin məlumatlarına görə yeməklə qəbul edilən 100 q əriyin insan orqanizminə olan xeyri (qanartırıcı) 40 mq və ya 250 q təzə heyvan qaraciyərinə bərabərdir.

Xalq təbabətində ərikdən həzm prosesini yaxşılaşdıran, su- suzluğun qarşısına alan vasitə, eləcə də xroniki qəbizlikdə yüngül işlətmə dərmanı kimi istifadə edilir. Qurudulmuş qaysıdan bir

sıra xörəklərin tərkibinə ədviyyat kimi qatılır. Yağından qənnadı sənayesində geniş istifadə edilir. Yandırılıb kömürə dönmüş qabıqlarından xalçaçılıq sənayesində qara rəng almaq olar. Ərik ağacının kitrəsindən həm yapışqan kimi, həm də yeyinti və tibb sənayesində istifadə edilir.

Ərik çox gözəl bəzək ağacıdır. Oduncağının möhkəmliyinə və başqa mühüm keyfiyyətlərinə görə müxtəlif xarrat məmulatlarının hazırlanmasında geniş istifadə edilir.

Biz isə ilk dəfə olaraq əriyin yarpaqları və qabığından boyaq ekstraktı hazırlayıb yun ipi sarımtıl, sarımtıl-narıncı, narıncı, qonur, qonurumtul, qəhvəyi, şabalıdı, tütünü, yaşılımtıl, zeytunu və s. rənglərə boyadıq.

Bu kitabda biz ancaq ona görə ərik haqqında məlumat veririk ki, bir nadan və səriştəsiz “erməni alimi” utanıb-çəkinmədən ərik meyvəsini də özlərinin adına çıxmağa cəhd göstərmişdi. Nə yaxşı ki, dünya səyyahları, coğrafiyaşünasları öz xatirələrində ordu- badlıların hələ qədim zamanlardan bu bitkinin sərrafı olduğunu göstərmişlər. Hələ eramızdan çox-çox əvvəllər Ordubad bağlar diyarı kimi şöhrət tapmışdı. Zaqafqaziyanın ticarət yollarının ayrıcında yerləşən Ordubadın əriyi, onun qaxı, miyanpuru qış aylarında ən qiymətli azuqə hesab edilirdi. Yaxın və Orta Şərq, eləcə də Avropa və Asiya ölkələrinin bir çoxuna daşınan quru meyvələr hər yerdə alıcıların rəğbətini qazanmışdı.

Əksər dövrlərdə təbiətşünaslar, tarixçilər, səyyahlar öz əsərlərində Ordubad meyvələrinin ətirli, ətli, şirəli, dadlı-tamlı olduqlarını təbliğ etmişlər. Nəsirəddin Tusi nəslinin görkəmli nümayəndəsi olan İsgəndər Münşi (1560-1634) fars dilində yazdığı “Tarixi aləm arayi Abbasi” (“Dünyanın bəzəyi Abbasın tarixr) əsərində (1630) Ordubadın meyvəçiliyi, meyvə bağları, həm də onun folkloru, incəsənət və təsərrüfatı barədə məlumat vermişdir.

“Ordubad Ələngöz və Zəngəzur dağlarından başlanan Dübən- di və Əlkar çaylarının səfalı, barlı-bəhrəli vadilərində, saysız-hesabsız ətəklərində, yamaclarda əsrarəngiz bir görkəmə malikdir... Şəhər əhalisinin əsas məşğuliyyəti bağçılıqdır. Dad-tam xüsusiyyətləri ilə seçilən geniş, zəngin və bərəkətli meyvə bağları bu yerlərə bir təkrarolunmaz şeriyyət bəxş edir. Ordubad meyvələri, ələlxüsus əriyi, bütün Orta və Yaxın Şərq ölkələrində şöhrət

tapmışdır. Albuxarasını, şaftalısını, hyeyvasını, gilasını, cevizini hələ demirəm". Ərəb filoloqu, coğrafiyaşünası və tarixçisi Yaqut Həməvi (1179-1229) özünün irihəcmli "Müğəm əl-bundan" ("Ölkələr siyahısı") əsərində Siyahrud və Ordubad (ümumiyyətlə, təqribən 90-na yaxın Azərbaycan yaşayış məntəqəsi) haqqında da məlumat vermişdir. Ordubad bağlarını səyahət edən Y.Həmə- vi onun əriyni belə təsvir etmişdir: "...Mən Ordubadda gördüyüm barlı, minçeşidli, mincinsli ərik bağlarını dünyanın gəzdiyim, mehmanı olduğum heç bir ölkəsində görməmişəm. Bu qədər şirin, dadlı və ətirli ərik ordubadlılara ilahi payıdır. Ərik və şaftalı çeşidləri məni lap əfsunladı..."

Türk alim və səyyahları da yalnız Ordubadda təsadüf etdikləri dadlı və ləziz ərik becərilməsi, eləcə də onun çoxçeşidliliyi haqqında məlumatlar vermişlər. Tarixin ən böyük cinayəti baş verdikdən (bölünməz torpağıımız xalqın xəbəri olmadan tikə-tikə edildikdən sonra bütün Azərbaycanın varı, sərvəti kimi, onun quru və yaş meyvələri də daşınmağa başlandı, onlar Zaqafqaziya, Rusiya, eləcə də Avropaya ixrac edildi. İngilis səyyahı Anton Cenginson yazırdı: "Ordubadın ərik bağlarının yanından ötəndə adamı həmin bağın xoş, qəlbəyatımlı rayihəsi məst edir. Burada gördüyüm şirəli ətli və dadlı ağ əriyi dünyanın heç yerində görə bilməzdim. İri, ətirli şaftalısı da başqa yerlərdə bitmir. Bağbanlar çox səriştəli təsərrüfatçılardır". Rus səyyahı və tarixçisi M.P.R0I- lov 1896-cı ildə Tiflisdə dərc etdirdiyi "İrəvan quberniyasının meyvələri" (0 vaxtlar İrəvanı azərbaycanlılar idarə edirdilər) oçerkində göstərirdi ki, "Ordubad mahalı ətirli və dadlı meşələri, ələlxüsus ecazkar təbii gözəllikləri ilə hamının diqqətini özünə cəlb edən cənnət guşəsidir. Ordubadın bütün meyvələri ləziz və lətifdir. Lakin onların sırasında çox çeşidli olan ərik və şaftalını mən xüsusilə qeyd etmək istərdim..."

T.A.Bünyatov, Q.C.Cavadov (1988-ci il) qeyd edirlər ki, Azərbaycan meyvəçiliyində Naxçıvan və Ordubad xüsusi yer tutmuşdur. Öz dadlı meyvələri və onların hazırlanma üsullarına görə Ordubad yalnız Azərbaycanda deyil, bütün Zaqafqaziyada birinci yeri tuturdu. Ordubad meyvəsi əhalinin həm də taxıla olan tələbatını ödəmək üçün yeganə mənbə idi. Belə ki, yerli əhali meyvənin bir hissəsini satır, bir hissəsini də Qaradağ əyalətinə (Cə

nubi Azərbaycana) apararaq taxıl məhsullarına dəyişirdi.

Ordubadın qurudulmuş meyvələri Tiflisə, Yerevana aparılırdı, Dizə, Vənənd, Əylis, Əndəmic, Dırnıs, Anabat, Nüsnüs kəndləri başdan-başa armud, şaftalı, ərik bağları ilə əhatə olunmuşdu. Bağçılıq təkcə kəndlərdə deyil şəhərdə də inkişaf etmişdi.

Ordubad meyvələrinin şöhrəti ucsuz-bucaqsız ölkəmizin hüdudlarını çoxdan aşmışdır. Hələ 1861-ci ildə ABŞ-da keçirilən Beynəlxalq meyvəçilik sərgisində nümayiş etdirilən Ordubad ərik və şaftalısı ən yüksək qiymətə layiq görülmüşdür. Bizim yüzilliyin əvvəllərində Almaniyada eləcə də 1891-ci ildə İtaliyanın Fironze şəhərində açılmış Beynəlxalq dünya kolleksiyasında Ordubad əriyi və şaftalısının hər birinin iki sortu yüksək qiymətləndirilmişdi.

Ordubad əriyi 1939, 1953, 1954, 1955-ci illərdə ümumittifaq kənd təsərrüfatı sərgisində, 1961-62-ci illərdə isə keçmiş SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində uğurla nümayiş etdirilmiş və yüksək qiymətləndirilmişdir. Ərik qiymətli meyvə bitkisidir. Ordubad əriyinin təbliğatçısı N.Həsənəliyev danışır ki, bağban babası Məşədi Hümmət tükəçarə yolu ilə neçə-neçə ürək- damar xəstəliyinə mübtəla olmuş həmyerlilərini ərik qaxı (qurusu) ilə müalicə edirdi (o, ərik və şaftalı qurusunu qaynar suya salardı: axşamlar islanmış, şişmiş meyvələri yeyərdi, erkən sübhdən isə şərbətini içərdi.

Əriyin meyvəsindən, yarpaqlarından, gövdəsindən alınan kitrəsindən kosmetika sahəsində geniş istifadə edilir. Əriyin meyvəsindən vitaminlə zəngin sıyıqlar, maskalar, şampunlar və losyonlar hazırlanıb sifətdə xoşagəlməz qüsurların, sızanaqların, dəridə olan qırışıqların aradan qaldırılmasında istifadə edilir.

## *İKİNCİ ÇÖRƏK KARTOF-SOLANIUM*

Kartofu hamı sevir. Bunun közdə bişirilməsi, tavada qızardılması, bütöv halda suda bişirilməsi, yumuşaq bişmişindən ət, balıq, göbələk, kələm və xiyar ilə həvəslə yeyilir. Oz işinin məşhur ustası olan aşpazın dediyinə görə kartofdan yüzə qədər xörək növləri hazırlamaq mümkündür.

Kartofu çox vaxt ikinci çörək adlandırırlar. Kartof bir çox illər

taxıl məhlulu az olan dövrlərdə insanları aclıqdan xilas etmişdir.

Kartof-Solanum tuberosum (Badımcançiçəklilər fəsiləsi-Solanaceae). Kartof cinsinin Amerika qitəsində 200-ə qədər yabanı və mədəni növlər yayılmışdır. Bunların içərisində birillik kartof növü yəni Solanum tuberosum mədəni hala keçirilərək dünyanın əksər ölkələrində qida bitkisi kimi əkilib becərilir.

Bu 70-80 (90) sm hündürlükdə birillik ot bitkisidir. Kök sistemi saçaqlıdır. Yarpaqları bərabər olmayan daraqvari şəkilində olub, bir neçə yarpaqcıqdan ibarətdir. Yarpaq ayası çı paqdır. Kolda adətən 3-6 ədədə qədər budaq olur. Rüşeyim daxi ində yarpağın qoltuğundan yarpaqaltı zoğun inkişafı nəticəsində yeraltı kök yumurtalarını əmələ gətirir.

Cavan kök yumrusu epidermis toxuması ilə əhatə olunur, tam yetişmişində (kökyumurusunda) isə mantarvari hamar və yaxud torvari hüceyrə ilə əhatə olunur. Qabığın altında hüceyrə qatı, onun da altında nişasta ilə dolu toxum yerləşir. Kartof özünün müsbət xüsusiyyətlərinə və qidalıq keyfiyyətlərinə baxmayaraq, biz onu çox çətinliklə özümüzə tabe etdirib, öz xeyrimizə istifadə etmişik.

XVIII əsrin ortalarına kimi rus xalqının kartofla tanışlığı olmamışdır. O vaxtlar ruslar əsasən, çörək, ət, süd, turp, kələm və bir sıra tərəvəz bitkilərindən istifadə edirdilər. Kartof rus torpağına haradan gəlib çıxmışdır? Kartof üç dəfə kəşf olunmuşdur. Birinci dəfə hindular tərəfindən, ikinci dəfə XVI əsrdə ispanlar, üçüncü dəfə XX əsrin 20-ci illərində ruslar tərəfindən.

Ən əvvəl başlayaq kartofun “üçüncü kəşfindən”. Yer kürəsinin bitki ehtiyatlarını öyrənməyə can atan akademik N.İ.Vavilov belə bir fikir irəli sürdü ki, Latın Amerikasında böyük təbii “seleksiya məqsədli anbar” kartof olmalıdır. N.İ.Vavilovun təşəbbüsü ilə 1925-ci ildə oraya elmi işçilərdən S.M.Bukasov və S.V.Yuzençuk elmi ekspersiyaya göndərilir. Hər iki elmi işçi Meksikaya gəlir və orada bir-birindən ayrılırlar. Bukasov-Qavatemal və Kolumbiya, Yuzençuk isə-Peru, Boliviya və Çiliyə gedir.

Sovet alimlərinin kəşflərinə qədər, avropalılar kartofun yalnız bir növünü-Solanumtuberosum tanıyırdılar. Lakin sonralar iki sovet aliminin Amerika qitəsindən 60-a qədər yabanı və 20-yə qədər mədəni növünün öyrənilib aşkar edilməsi dünya seleksiya

işinə böyük təkan verdi. Rus alimlərinin bu yenilikləri qərbdə böyük sevinclə qarşılandı. Bu yeniliklər qərb ölkələrində botanika və seleksiya işlərinin genişləndirilməsində əsas rol oynamışdır. Amerika qitəsində yayılan kartof növləri uzun müddət hindu xalqlarının əsas qidalarını təşkil etmişdir. Kartofun yabanı və mədəni növlərindən müxtəlif xəstəliklərə fitoftor, rak və s. qarşı davamlı tezyetişən, soyuğa qarşı məhsuldar, sortlar əldə olunmuşdur. İlk “birinci keçilər” adlanan Sovet alimlərinin izi ilə ABŞ, Almaniya, İsveçrə, Norvegiya, İngiltərə və s. kartof bitkisini ətraflı surətdə öyrənmək məqsədi ilə uzun müddətli ekspedisiyalar təşkil etmişdir.

Bu zaman Peru, Uruquvay, Çili mütəxəssisləri öz ölkələrinin ərazilərində kartofun növ və yarımnövlərini axtarıb tapmaq üçün çox saylı ekspedisiyalar təşkil etmişlər. İlk dəfə bu “Qızıl mədəni” Leninqrad alimləri kəşf etmişdilər.

Arxeloji qazıntılar nəticəsində elmə məlum olmuşdur ki, Cənubi Amerikanın qədim insanları olan hindular, əkinçilik mədəniyyəti yaranmamışdan qabaq, geniş surətdə yabanı halda yanılmış kartofun kökünü yerdən qazıb çıxarmış, ondan müxtəlif xörəklər hazırlayıb yeyərmişlər. Sonralar insanlar dərk etməyə başladılar ki, Cənubi Amerikanın yumuşaq bərəkətli torpaqlarında kartof yaxşı inkişaf edib bol məhsul verir. Buradan belə bir fikir irəli sürmək olar ki, hindular kartofu öz yaşayış ərazilərinin ətraflarında əkib becərmişlər. Alimlər qeyd edirlər ki, hindular bizim eranın 2 və ya daha çox minilliklərində kartof bitkisinin əkib becərməsi ilə məşğul olmuşlar. Yabanı halda yayılan kartofun kök yumurtaları xırda və azca acımtıl dada malikdir.

Təbiidir ki, hindular əkin məqsədləri üçün iri ölçülü kartof yumurtalarından istifadə edirmişlər. Kartofun əkilib becərilmə tarixini tədqiq edən professor V.S.Lexnoviç belə bir fikirə gəlmişdir ki, Amerikada kartofu iki istiqamətdə əkib becərmişlər. Birinci əkin sahələri Çili ölkəsinin ətraf adalarında, ikinci istiqamət isə Andın dağlıq sahələrindən başlayıb Kolumb, Ekvador, Peru, Bol- viya və Şimali-Qərbi Argentina əraziləri olmuşdur.

Dağlıq ərazilərdə yaşayan hindular kartofu bişirməkdən qabaq onun tərkibində olan acı maddəsini kənar edirdilər. Əməliyyat aşağıdakı qaydada aparılırdı: toplanmış kartofu açıq havada
'

yerə sərir, harda ki, bu yerlərin axşamları çox sərt və soyuq keçir; gündüzləri isə çox isti olur. Dağlıq sahələrin gecələri çox sərt soyuq, gündüzləri isə şiddətli isti və küləkli olduğundan kartofun acılığı tədricən azalıb yeməli hala düşür. Sonra kartofun qabığını soyur, axar sularda yuyub, axırıncı dəfə sərib qurudur və istifadə edirmişlər. Kartof hinduları uzun müddət aclıqdan qorumuşdur.

Avropa xalqları kartof bitkisi ilə ilk dəfə 1935-ci ildə tanış olmuşdur. İspaniyanın Qonsalo de Kesado adlı hərbi ekspediyası Cənubi Amerikada olarkən iki dəfə kartof bitkisi ilə tanış olmuşlar.

Kolumb kartof bitkisi haqqında yazırdı: "Onun untəhər kökmeyvəsi çox dadlı və yeməlidir. Bu hətta o dövrlər "ispanların ən ləziz xörəyi" hesab edilirdi. Kasteliyanın kartof barəsində dediyi bu xoş sözlər, uzun müddət heç kimə məlum olmamışdır. Yalnız avropalılar kartof haqqında daha geniş məlumatı 1538-ci ildə aldıqdan sonra onu geniş surətdə bir çox ölkələrdə əkib becərməklə məşğul oldular. Kartof haqqında Slesa de Lione adlı yazıçınn "Perunun salnaməsi" adlı kitabında yazırdı: "Mən Perudan İspaniyaya qayıdarkən-hinduların kartofun kökyumurusundan (kökyu- murusuna "papa", qurudulmuş acı maddədən təmizlənmişini isə "çunya" adlandırırlar. Necə ləziz xörəklər hazırlamaları haqqında geniş məlumat vermişdir.

Xarici gömüşünə görə kartof yerdən "danbalıb" çıxan tryufel- ya göbələyinə oxşar olduğuna görə onun da adına "tryufeliya" deyirdilər. 1551-ci ildə yetişdirilən kartof haqqında geniş məlumat verildi. 1565-ci ildə kartofun kökyumurularını İspaniyaya gətirirlər. O, dövrdə kartofun müalicəvi xüsusiyyətlərini nəzərə alıb, ispan kralı kartofu, uzun müddət xəstə yatan.Roma papası, IV Pi- yuya hədiyyə göndərir. Kartof İspaniyadan, İtaliya, Fransa, Belçika, Hollandiya, Polşa və eləcə də bir çox Avropa dövlətlərinə yayıldı. İngilislər isə ispanlardan asılı olmayaraq özləri kartofu əldə etmişlər. Prusiya karolun I ciridrix Vilhelm XVIII əsrdə Almaniyada kartof əkilib becərilməsi üçün sərəncam verdi. Fransada kartofu 1630-cu ildə əkib becərməyə başlamışlar. Lakin o vaxtın bir sıra həkimləri kartof bitkisi haqqında əks təbliğatlar aparırdılar. Onlar kartofun zəhərli və bir sıra xəstəliklər törətdiyi haqqında məlumatlar verirdilər. Kartof haqqında əksi təbliğatı isə hərbiçi

kimyaçı-əczaçı Antuan Parmante aparırdı. 0, 7 illik müharibə zamanı Almanlara əsr düşür. Bu dövrdə artıq Almaniyada kartof bitkisi çox əzizlənir, və ondan müxtəlif ləziz xörəklər hazırlanırdı. Kartofun sirlərinə yaxşı bələd olan əczaçı başlayıb kartofu qızğın təbliğ etməyə. Deyirlər kartof zəhərlidir. Parmante kartofdan ləziz xörəklər hazırlayaraq kimyaçı alim Antuan Lovuazeni və siyasətçi demokrat Veniamina franklini xörək stoluna dəvət edir. Dəvət olunanlar kartofdan hazırlanan müxtəlif xörək növlərinə yüksək qiymət verirlər. Bir qrup adamlar başladılar ki, kartofyumuruları torpağı korlayıb xarab edir. Bu zaman Parmante bir yeni kələk işlədir. 0, Lyudovik XVI-dan xahiş edir ki, ona Paris ətrafında qa- rovulçuların qoruduqları sahədən bir az torpaq versin. Karol mə- muniyyətlə əczasının xahişini yerinə yetirib, ona 50 morqon torpaq verməyi tələb edir. Parmante 1787-ci ildə oraya kartof əkir. Bu zaman karol təntənəli bir mərasimdə əmr verir ki, əgər kim əkilmiş qiymətli kartofu oğurlayarsa, ona ən ağır cəza veriləcək, hətta ölümə məhkum olunacaq. Kartof məhsulu toplanan zaman karol qarovulçulara göstərir verir ki, onu göz bəbəkləri kimi qorusunlar.

Parmantenin təşəbbüsü öz bəhrəsini verdi. Belə ki, o dövrdən başlayaaq parislərin kartofa olan həvəsi ildən-ilə artmağa başladı. Bundan başqa parislilər Parmenteni bu günün qəhrəmanı kimi hörmətlə sevməyə başlayır və onun əldə etdiyi nəticələri əb- liğ etməyə başlayırlar. Qəbul günlərinin birində Parament XVI Lyudovikə bir dəstə kartof gülü təqdim edərək deyir:”bu güllərdən siz götürüb döşünüzə taxın, kraliça isə öz saçlarını bəzəsin.”

Bundan sonra Kral öz aşpazlarına tapşırır ki, bu gündən onun ailəsini kartofdan hazırlanmış ləziz xörəklərlə təmin etsinlər. Bundan sonra parislilər arasında kartofun çiçək və kökyumurula- rına kəskin surətdə həvəs artır.

Kəndçilər kartofu öz həyatyanı sahələrdə həvəslə əkib becərməyə başlayırlar. Az bir müddət ərzində kartof bütün Fransa vilayətlərinə yayılaraq, əkilib becərilməyə başlayır. 1793-cü ildə taxılın məhsuldarlığı çox aşağı düşdüyündən kartof 100 minlərlə fransızı aclıqdan xilas etmişdir.

Fransızlar Parmanteyə təşəkkür əlaməti olaraq onun qaravolçuların qoruduqları torpaq sahəsində, eyni zamanda onun vətəni

sayılan Mondidedə heykəlini ucaldaraq bu sözləri yazmışdılar: “Xeyirxah insana” və başqa bir heykəlində isə XVI Lyudovikin ona dediyi “siz ac qalmış insanlara çörək bəxş etdiniz” sözləri həkk edilmişdir. Bu maraqlı xəbər yəni Antuan Parmante tərəfindən kartofun Fransaya gətirilərək, onun burada əkilib becərilməsini həyata keçirərək insanlara xidmət etməsi, bir çox tarixi və elmi ədəbiyyatlarda geniş işıqlandırılmışdır.

Lakin akademik P.M.Jukovski buna şübhə ilə yanaşaraq, öü-zünün “Mədəni bitkilər və onlar arasında qohumluq əlaqəsi” əsərində yazır: “Ancaq XVIII əsrin axırlarında, məşhur Vilmoren firması kartofun əkilib becərilməsi ilə şöhrət qazanmışdır.” Bu firma bir çox Avropa ölkələrinə kartof göndərərək onu həmin ölkələrdə yaymaqla məşğul olmuşlar. Həmin finmanı “kartof əkininin ilk pioneri” adlandırmışdır. Ona görə birincilər sırasında Antuana Parmante yox, Vilmoren firmasının adı yazılmalıdır. Bu tarixi səhv gərək düzəldilsin. 1905-ci ildə VASXNİL-in xarici üzvi olan Roje de Vilmorenin şəxsi işlərinin arasında onların ilk dəfə kartofla məşğul olduqları haqqında və onun müxtəlif ölkələrədə əkilməsini təşkil etdikləri barəsində təsdiqedici əsasnamələrin olduğu aşkar edilmişdir. Akademik P.M.Jukovskinin irəli sürdüyü fikirin düzgün olduğunu təsdiq edir. Lakin fransız xalqı heç vaxt A.Parmantenin də xidmətlərini yaddan çıxartmalıdırlar. Birinci dəfə İngiltərəyə kartofu gətirən şəxs dənizdə üzən vitse-admiral (o vaxtlar dəniz qulduru) sayılan Frensis Dreyka olmuşdur. 1584- cü ildə indiki Şimali Amerikanın ştatı olan Şimali Karolinaya quldur ekspedisiyasını təşkil edən Virqney kaloniyası tərəfindən gətirilmişdir. 1585-ci ildə F.Dreyk Cənubi Amerikadan qayıdan zaman həmin yerlərə gedir. Kaloniyada çalışanlar ona işlərinin çox əziyyətli və ağır olduqları barəsində şikayət edirlər və onların İngiltərəyə qayatmaqları üçün kömək etməklərini xahiş edirlər. Dreyk bunların xahişini yerinə yetirir. Elə həmin ildə kaloniyada işləyənlər İngiltərəyə qayıdırlar. Buradan belə bir nəticəyə gəlmək olar ki, kartof İngiltərəyə ya Cənubi Amerikadan gələn İspan gəmilərində quldurluqla məşğul olanlar tərəfindən ya da başqa bir ingilis tərəfindən Avropanın hər hansısa bir ölkəsindən gətirilmişdir.

Müxtəlif ölkələrin xalqları kartofu bir neçə adla çağırırlar. Mə-

sələn ispanlar hinduların dili ilə “papa”, islandiyalılar göbələyə oxşar olduğuna “tryuflya”, “tartuffoli”, ingilislər. “İrlandiya batatı”, fransızlar “tomm de.terr”-yer alması” və s. adlarla çağırırlar.

Rusiyaya kartof İspaniyada əkildikdən bir əsr sonra gəlib çıxmışdır.

Kartof qida əhəmiyyəti, dərman xüsusiyyətli texniki, bəzək və nektar bitkisi sayılır. Kartofun kökyumurulannm tərkibində insan orqanizm üçün lazım olan zəngin bioloji aktiv maddələr vardır. Belə ki, onun kökyumurusunda 76,3% su, 23,7% quru maddə, 17,5-20,7% nişasta, 0,5% şəkər, 1-2% zülal, 1%-ə qədər mineral maddələr o cümlədən 12-15 mq% Ca, 400-500 mq% K, 45-50 mq% P, 1 mq% Fe və s. tapılmışdır. Bundan əlavə tərkibindən C, B1, B2, B6, D, PP, K, E, U karotinoid və s. maddələr tapılmışdır. İnsan orqanizmi S vitamininə olan tələbatını yarsını kartofla təmin edir, zülal maddəsi yüksək bioloji əhəmiyyətə malikdir. Yeyinti Sənayesi kartofdan müxtəlif qida məhsulları-qızardılmış, dondurulmuş, kartof lopası, krypası və s. istehsal edir. 1 ton kartof yumurusundan 160 kq dekastrin və yaxud 80 kq qlyukoza, 112 I spirt və yaxud 55 kq maye karbonat turşusu alınır. Yeyinti tullantılarından isə cem, qəliz, cecə, xımıx, mal-qara üçün vitaminli yem hazırlanır. Standarta uyğun gəlməyən kökyumurusun- dan və yaşıl hissəsindən isə donuz və quşlar üçün yem əldə edilir. 100 kq kökyumurusu 35 yem vahidi, 2,1 kq həll olmuş formada protein əldə edilir. Kartofdan sənayedə foto lentləri, açeton, süd turşusu, plasmas, yapışqan, avtomaşın padrışkaları, kinolentləri, süni ipək, yüksək keyfiyyətli lak, boyaq və s. məhsullar istehsal olunur.

Kartofun müalicəvi xüsusiyyətləri xalqlara çoxdan məlum idi. Kaotofu çiy halda yastı fermada doğrayıb yanıq, ekzema, olan yerlərə qoyub onları sağaldırmışlar. Kartof bitkisi Avropa dövlətlərində əkilən dövrlərdə qısa bir vaxt ərzində sinqa xəstəliyi ta-’ mamilə aradan qalxmışdır. Kartof buxarı ilə astmatik xəstələri müalicə edirdilər. Tərkibində çoxluq olduğuna görə sidikqovucu xüsusiyyətinə malikdir. Kartof ürək xəstəliyində də istifadə edilir. Çiy kökyumurusundan alınan şirəsindən mədə və 12 barmaq ba- ğıraqda olan yaraların müalicəsində geniş tətbiq edilir. Çiçəklərinin tərkibində rutin maddəsi olduğundan ondan tibbdə qan kap-

liyarlarının möhkəmləndirilməsində istifadə edilir.

Burdan aydın olur ki, kartof yalnız "ikinci çörək" olmayıb, həm də qiymətli dərman və texniki bitki sayılır.

Kartofdan hazırlanan sıyıqlardan, maska və nişasta tərkibli vitamini! mazlardan kosmetikada geniş istifadə edilir.

Kartofu açıq havada uzun müddət saxlamaq olmaz. Çünki onun tərkibi yaşı solanin alkaloidinə çevrilir bu da insanı zəhərləyə bilər. Biz ilk dəfə olaraq kartofun yarpaqlarından boyaq eks- traktı hazırlayıb yun ipi sarı, sarı narıncı, narıncı, narıncı-sarı, yaşımtıl, qonur, tütünü zeytunu, açıq qəhvəyi, bozumtul və s. rəng və çatarlara boyadıq. Alınan rəng və çalarlar sabunla yuyulmağa və işığa qarşı davamlı olur.

## *SUFINDIĞI-TRAPA*

Sufındığı Trara birillik su bitkisidir. Dünya florasında onun 25, Azərbaycanda isə 1 növü məlumdur. Uzun, nazik və budaqlanan gövdəsinin uzunluğu 1,5-2 metr, bəzən isə 3,5-4 metr olur. Yarpaqlarının kənarları küt dişvari tüklüdür. Meyvəsinin uzunluğu 4- 4,5 sm. eni isə 2-2,5 sm-dir. Respubltkamızın Lənkəran, Astara, Zaqatala rayonlarının göl və bataqlıqlarında yayılmış sufındığı qiymətli qida, dərman, boyaq, aşı bitkisidir.

Sufındığının tərkibində zəngin qida maddəsi olduğu elmi əsaslarla təsdiq edilmişdir. Belə ki, 1891-ci ildə K.T.Romanko. sufındığının ləpəsinin tərkibindən 0,460 faiz piyli yağ. 1.498 faiz kitrə, 3.278 faiz şəkər, 8.4 faiz zülal, 51.4 faiz nişasta, 0.6 faiz sellüloza, 2.1 faiz kül ıvə s. maddələr aşkar etmişdi. Neyman isə 1899-cu ildə sufındığının təzə ləpəsinin tərkibində 38.45 faiz su, 10.78 faiz azot maddəsi, 0.69 faiz piyli yağ, 47.34 faiz sulu karbohidratlar, 1.20 faiz sellüloza, 3.30 faiz kül maddəsi və s. müəyyənləşdirmişdir.

Sufındığının tərkibində zəngin sulu karbohidrat maddələrinin olması, nişastanın çoxluğu və şəkərin azlığı onun keyfiyyətli qida bitkisi olduğundan xəbər verir. Onun çəkisinin 66.46 faizinin ləpə, 33.54 faizinin isə qabıq təşkil edir. Bundan əlavə sufındığının tərkibində makro və mikro maddələri tapılmışdır.

İnsanlar sufındığından hələ çox qədim zamanlardan qida

məhsulu kimi istifadə etməyə başlamışlar. Alim Laybax torf sahəsindən neolit dövrünə aid 15 sm qalınlığında sufındığı layı aşkar etmişdi. Həmin dövrdə daşdan düzəldilmiş əl dəyirmanı tapılmışdır. Alimlərin fikrinə görə, həmin əl dəyirmanından sufındığını əzib un şəklinə salınmasında istifadə olunmuşdur. 1940-cı ildə Latviyada qazıntı işləri aparılarkən torflu sahədən ağacdan düzəldilmiş həvəngdəstə aşkar edilmişdir. Həmin həvənqdəstədə sufındığını qabıqdan təmizləyirmişlər. Kiçik Plini qeyd edir ki, Struma və Qeafasu sahillərində yaşayan frakiyalılar sufındığının unundan keyfiyyətli çörək növləri bişirirmişlər: Mantu və Ferari ərazilərində yaşayan əhali orta əsrlərdə sufındığından bişirilmiş halda istifadə etməklə yanaşı, onun unundan çörək və fəsəli bişirirmişlər.

Sufındığı hazırda cənubi Afrika ölkələrində qida bitkisi kimi sakit axan çay, göl və gölməçələrdə geniş surətdə əkilib-becərilir. Sufındığı ən çox ada və çaylarla zəngin olan Viktoriya-Niassa gölündə əkilir. Buralarda sufındığı o qədər çox olur ki, hətta qayıqların hərəkətinə belə mane olur.

Afrikada yaşayan əhali sufındığından müxtəlif çeşidli xörək növləri hazırlayır. Yuqoslaviyada sufındığını çiy, qızardılmış və bişirilmiş halında yeyirlər. Unundan müxtəlif növ çörək hazırlayırlar.

D.Buanın yazdığına görə Hindistanda sufındığı məhsulunu toplamağa başladıqları günü bayram edirlər. Çinlilər sufındığın- dan çiy, bişirilmiş, qovrulmuş halda istifadə etməklə yanaşı, unundan da dadlı sıyıq bişirirlər. Bundan əlavə sufındığına unla şəkər və yaxud bal qataraq çox keyfiyyətli və insan sağlamlığı üçün böyük əhəmiyyət kəsb edən qida məhsulu hazırlayırlar. Yay aylarında onun meyvəsi çox ətirli və sərinləşdirici olduğundan, çinlilər bunu həvəslə yeyir və bir sıra Avropa ölkələrinə ixrac edirlər.

Sufındığından müalicə məqsədilə də eniş istifadə edilmişdir. Hələ Hippokrat dövründə sufındığından sərinləşdirici ekstratlar hazırlayıb, soyuqdəyməni müalicə edərmişlər. Dioskorid və Plini qeyd edirlər ki, sufındığından hazırlanan cövhər dəmləmələrin köməyi ilə qızdırma, revmatizm, göz, quduzluq, ilan sancmalarında, soyuqdəymələrin müalicəsində istifadə edilmişdir.

Toxumunun spirtlə çıxarışından Erlix şişlərini əmələ gətirən hüceyrələrin qarşısının alınmasında istifadə edilir. Volqaboyunda əhali sufındıgını malyariya ağcaqanadı yayılan çay, göl və gölməçələrə əkərək, ondan həm mübarizə məqsədilə istifadə edir, həm də bol məhsul əldə edirdidər. Çində sufındığı qabığından hazırlanan çaydan tonuslaşdırıcı vasitə kimi də istifadə edirlər. Sufındığından donuzların, ördək və qazların yemləndirilmə- sində də geniş istifadə edirlər. Bunun nəticəsində onlar qısa bir müddətdə piy bağlayır, ətləri çox ləzzətli olur.

Meyvəsindən kofe surroqatı hazırlayıb tonusartırıcı çay kimi içirmişlər. Çində, Hindistanda sufındığının meyvələrini deşib saplara düzərək, boyunbağı düzəldib bazarlarda satırmışlar.

Bundan başqa Qərbi Avropa, İtaliya, Hindistanda sufındığın- dan təsbeh, boyunbağı və bəzək əşyaları hazırlayırmışlar.

Çində sufındığını suşabalıdı adlandırırlar. Onu ən çox Pekin, Keenton, Szyansu və Çjesyan rayonlarında əkib becərirlər. Bu rayonlarda sufındığının 15-dən çox növü əkilib becərilir. Çin əhalisi hər il min tonlarla sufındığı tədarük edərək, ondan qida, mal- qara üçün yem kimi istifadə edir, artığını isə qonşu ölkələrə ön- dərirlər. Biz isə sufındığının tullantı şəklində olan qabıq hissəsindən boyaq ekstraktı hazırlayıb, yun ipi sarı, narıncı, boz, qəhvəyi, firuzəyi, zeytunu, qonur-qəhvəyi, şabalıdı və s. rəng və çalar- lara boyadıq və maraqlı nəticələr əldə etdik.

## Saçların rəngiənməsində istifadə edilən BİtKİlər

| Bitki | Əsas bioloji aktiv maddələr | Fizioloji təsiri | Tətbiqi | Boyama təsiri |
|---|---|---|---|---|
| Adi boymadərən | Axilleik, xamazulen alkaloidləri: aşı maddəsi, qatran, üzvi turşular karobin, SK və vitaminləri tapılmışdır. | Soyuqdəymə, alergiya əleyhinə, tonuslaşdırıcı, qankəsici, yarasağaldıcı piy vəzilərinin fəaliyyətini normalaşdırır. | Uşaq kosmetikasında, müalicə kosmetikasında, saçlara və dəridə istifadə edilir. | Saçı sarı-qızılı rəngə boyayır |
| Mayaotu | Efir yağı, qatran, acımtıl və ası maddələri, xumulin, xolin alkaloidləri, xumulen və valerian turşulan, mum, estroqen maddəsi, askorbin turşusu, təbii hormon tapılmışdır | Tonuslaşdırıcı, antiseptik, soyuqdəymə və sakitləşdirici xüsusiyyətinə malikdir. Soyuqdəymə və ağrıkəsici tə-sirə malikdir. | Hazırlanan kremlərdən saçın möhkəmləndirilməsində və müalicə kosmetikasında istifadə edilir | Saça qızılı rəng verir |
| Ardıc meyvəsi | Kamfora, S vitamini, tokoferol tapılmışdır. | | Hazırlanan kremlərdən saçın dibinin möhkəmləndirilməsində istifadə edilir. Saçların inkişafına təsir edir | Saça sarı rəngə boyayır |
| Xına gülü | Naftoxinon, davon tayuqlon maddələri tapılmışdır | Soyuqdəymə, antiseptik, baktersid təsirə malikdir. | | Saçı açıq şabalıdı rəngə boyayır |
| Dazıotu | Tərkibindən aşı, flavonoid, hiperisin azulen, S və PP vitaminləri, karotin, xolin, nikotin turşusu, saponin, qatran maddəsi tapılmışdır | Antimiqrob, qankəsici soyuqdəymə, stimullaşdırıcı, büzüşdürücü, tükün tökülməsinin azaldıcı xüsusiyyətlərinə malikdir | Bundan hazırlanan kosmetik kremlərdən saçlarda istifadə edilir | Saçı qızılı rəngə boyayır |

# Dəriyə, sifətə qulluq zamanı işlənən bəzi dərman otları və meyvələri

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Adi ərik (Armeniaca vuigaris) | Meyvələri | Tərkibində çoxlu miqdarda: A vitamini, dəmir, kalsium, fosfor və eləcə də C, B, PP vitaminləri vardır. Qələviləşdirmək xüsusiyyətinə malikdr | |
| Əzvay (Aloe) | Təzə, ya da qurudulmuş yarpaqları | Tərkibində oksiantrixin və antrenil qlikozidləri olur. Dərinin qan dövranının yaxşılaşmasına şərait yaradır. Bakterisid və bakteriostatik xüsusiyyətə də malikdir. Toxumalara tonizəedici təsir göstərir. | Təzə yarpaqlarının dəmləməsi-sızanaqlı dərini yumaq üçün istifadə olunur. "Biostimin" preparatı kimi civzələrdə, sızanaqlarda, çibanlarda, revmatizmdə, furunkulyozda və s. istifadə olunur |
| Bəlğəmotu (Althaea officinalis) | Yarpaqları, kökləri | Tərkibində 35 faizə qədər selikli birləşmələr, 37 faizə qədər nişasta, pektinlər, lesitin, üzvi turşular, flavonlar, mineral duzlar (bunlardan savayı hələ fosfaronlar da) olur. Yumşaldıcı və qoruyucu xüsusiyyətə malikdir. | Dəri iltihabı zamanı və quru həssas dərinin qıcıqlanmasında onu yumaq üçün dəmləmə halında istifadə olunur. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Öküzgözü (Arnica montana) | Çiçəkləri | Tərkibində bitki mumu, karbohidratlar, aşı maddələri, mineral birləşmələr olur. Antiseptik, ağrıazaltmaq xüsusiyyəti vardır. Yaranın sağalmasını sürətləndirir | Xaricə tətbiq edilir, qanaxmanı saxlamaq, qançırın sorulmasını sürətləndirmək üçün kompres zamanı dəmləmə halında işlənir, yaralandıqda, sıyrıntılarda və yanıqlarda istifadə olunur. |
| Banan (Musa) | Meyvələri | Tərkibində maqnezium, manqan, dəmir, fosfor, kükürd, potaş, A, $B_1$, $B_2$ $B_6$, E, C vitaminləri 20 %-ə qədər şəkərlər vardır. Qələviləşdirmə xüsusiyyətinə malikdir. | Quru və normal dəri üçün maska kimi xaricə işlənir. |
| Tozağacı (Betula pendula) | Yarpaqları | Yarpaqlarının tərkibində qatranlı, aşı maddələri, mineral duzlar, üzvi turşular, C vitamini, karotinlər vardır. Tumurcuqları da oxşar tərkibə malikdir, lakin onda qatranlı maddələr daha çoxdur. Sidikqovucu, revmatizmə qarşı, tərlədiyi və yüngül ödqovucu xüsusiyyətə malikdir. | Yrək-damar və böyrək çatışmazlığı fonunda ödəmli xəstələri baharda ağırlàşma verdiyi zaman müalicə olunmaq üçün istifadə edilir. Bu məqsədlə tozağacı şirəsindən də istifadə etmək olar |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Kəndəlaş (Sambucus nigra) | Çiçəkləri, meyvələri | Çiçəklərinin tərkibində flavon, aşı, xolin, terpen birləşmələri və eləcə də cinsi hormonlara oxşar birləşmələr vardır. Meyvələrinin tərkibinə üzvi turşular, yəni çaxır, limon turşuları, aşı maddələri, mineral duzlar daxildir. | Xaricə işlənir, dərinin iltihabi xəstəlikləri, ekzemalar, yanıqlar, civzə və sızanaqlarda çiçəklərin dəmləməsi ilə dəri yuyulur, ya da kompres qoyulur. |
| Göyçiçək (Centaurea cyanus) | Ancaq ləçəkləri | Tərkibində selikli, qatran, aşı maddələri, üzvi turşular, mineral duzlar vardır | Gözlərin konyunktiviti, quru dərinin qıcıqlanması zamanı yumaq üçün dəmləməsi işlənir. |
| Bədmüşk (Salux alba) | Təzə zoğların qabıqları | Tərkibində fenol birləşmələri, aşı maddələri, salisil turşusunun törəmələri vardır | Xaricə işlənir. Sızanaq və civzələrdə dərini yumaq üçün tətbiq edilir. |
| Palıd (Quercus robur) | Qabığı | Bakterisid, iltihaba qarşı və quruducu xüsusiyyəti vardır. Tərkibində kversetinlər (o, P vitamini kimi təsir göstərir), aşı maddələri, alma turşusu vardır. Bakterisid və dartıcı xüsusiyyətə malikdir, dərinin keyişməsini azaldır | Furunkulyoz, yanıqlar və sızanaqlar nəticəsində əmələ gəlmiş irinli yaraların yuyulmasında onun dəmləməsi xaricə işlənir. Donduqda; sızanaqlara və dərinin irinli yaraları zamanı vannaya əlavə edilir. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | | **Diqqət!** Bəzən meyvədə dövrə şəklində allergiya reaksiyası əmələ gəlir. |
| Gülümbahar (Calendula officinalis) | Çiçəklərin ləçəkləri | Tərkibində qatranlı, flavonlu, selikli və kalendulin birləşmələri, karotinoidlər, karotin, bitki mənşəli generativ hormonlar vardır. İltihaba qarşı, bakterisid xüsusiyyətə malikdir. Yaraların sağalmasını sürətləndirir. | Yanıqların, donma yaralarının, baldırların trofik xorasının və eləcə də stafilokokkla zədələnmələrin, cücülərin dişləməsinin sağalmasını sürətləndirmək üçün dəmləməsi xaricə sürtmə dərmanı kimi tətbiq edilir. |
| Kartof (Solanum tuberosum) | Kök yumrusu | Tərkibində nişasta; C, A, $B_1$, $B_2$ PP vitaminləri, mineral duzlar vardır. Qoruyucu, iltihaba qarşı və yumşaldıcı xüsusiyyətə malikdir. | Maskalara kartof unu kimi daxil edilir. Qabıqlarının bişmişindən donma zamanı kompres kimi istifadə olunur. |
| Çiyələk (Fragaria grandiflora) | Meyvələri | Tərkibində çoxlu miqdarda C, $B_2$, $B_1$, A vitamini, dəmir, kalsium, fosfor, maqnezium və manqan vardır | Normal və quru dəridə meyvələrin əzməsindən maska kimi istifadə edilir. Quru dəridə ona təzə süd əlavə olunur. **Diqqət!** Qıcıqlanma və allergik reaksiya törədə bilər. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | | **Diqqət!** Bəzən meyvədə dövrə şəklində allergiya reaksiyası əmələ gəlir. |
| Gülümbahar (Calendula officinalis) | Çiçəklərin ləçəkləri | Tərkibində qatranlı, flavonlu, selikli və kalendulin birləşmələri, karotinoidlər, karotin, bitki mənşəli generativ hormonlar vardır. İltihaba qarşı, bakterisid xüsusiyyətə malikdir. Yaraların sağalmasını sürətləndirir. | Yanıqların, donma yaralarının, baldırların trofik xorasının və eləcə də stafilokokla zədələnmələrin, cücülərin dişləməsinin sağalmasını sürətləndirmək üçün dəmləməsi xaricə sürtmə dərmanı kimi tətbiq edilir. |
| Kartof (Solanum tuberosum) | Kök yumrusu | Tərkibində nişasta, C, A, $B_1$, $B_2$ PP vitaminləri, mineral duzlar vardır. Qoruyucu, iltihaba qarşı və yumşaldıcı xüsusiyyətə malikdir. | Maskalara kartof unu kimi daxil edilir. Qabıqlarının bişmişindən donma zamanı kompres kimi istifadə olunur. |
| Çiyələk (Fragaria grandiflora) | Meyvələri | Tərkibində çoxlu miqdarda C, $B_2$, $B_1$, A vitamini, dəmir, kalsium, fosfor, maqnezium və manqan vardır | Normal və quru dəridə meyvələrin əzməsindən maska kimi istifadə edilir. Quru dəridə ona təzə süd əlpvə olunur. **Diqqət!** Qıcıqlanma və allergik reaksiya törədə bilər. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Gicitkən (Urtica dioica) | Yarpaqları | Tərkibində selikli və mumlu birləşmələr, aşı maddələri, lesitin, mineral duzlar (dəmir, silisium) karotin, C vitamini, xlorofill vardır. Dalayıcı qamçılarda histamin və asetilxolin olur. Bakteriostatik və damardaraldıcı təsir göstərir. Tərin xoşagəlməz iyini yox edir, maddələr mübadiləsini yaxşılaşdırır, qanaxmanı saxlayır. | Dəmləməsindən çox tərlədikdə və nevrologiyalarda vanna qəbul edərkən, eləcə də yuyunmaq və yaxalanmaq üçün istifadə edilir. Baş yumaq üçün olan məhlulların və şampunların tərkibinə daxildir. |
| Lavanda (Lavandula officinalis) | Çiçəkləri | Tərkibində aşı maddələri, mineral duzlar vardır. Sakitləşdirici xüsusiyyətə malikdir. | Əsəbilikdə dəmləməsi vannaya əlavə olunur. Həmçinin lavanda spirti kimi qançırlarda və qansızmalarda işlənir. |
| Kətan (Linum usiatissiumum) | Toxumu | Tərkibində zülallı birləşmələr, selikli maddələr, mineral duzlar, yağ turşularının (linol və linolin) qliseridləri vardır. Yumşaldıcı, iltihaba qarşı və qoruyucu təsir göstərir. | Ekzemalarda, xoralarda, civzələrdə, dərinin irinli xəstəliklərində, selikli qişanın və dərinin iltihabı proseslərində dəmləmə şəklində xaricə istifadə olunur. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Limon (Citrus limon) | Meyvələri | Tərkibində kalsium, manqan, fosfor, $B_1$, C, P vitaminləri limon turşusu vardır. Qələvitörətmə xüsusiyyətə malikdir. | Yemək və içkilərə əlavə kimi istifadə olunur (qabığı ilə birlikdə) Sifəti (yuduqdan sonra) və eləcə də saçları (ələlxüsus sağlam olmayan) yaxalamaq üçün işlədilir. |
| Cökə (Tilia cordata) | Çiçəkləri | Tərkibində selikli maddələr, pektinlər, flavonlar, üzvi turşular, E vitamini vardır. Sidikqovucu, qoruyucu, spazmı aradan qaldırıcı təsir göstərir. Qan damarlarını daraldır. | Ağız boşluğunun iltihabi proseslərində, çillərdə, saçların tökülməsində, quru və normal dəridə, yuyunmaq və kompres etmək üçün dəmləməsindən istifadə olunur. |
| Moruq (Rubus idaeus) | Yarpaqları, meyvələri | Yarpaqlarının tərkibində aşı maddələri, üzvi turşular (kəhraba, alma, süd), mineral duzlar, qatranlı və selikli birləşmələr olur. Meyvələrinin tərkibinə C vitamini, selikli maddələr, pektinlər, mineral duzlar, üzvi turşular daxildir. | Ağız boşluğunu və dərini yaxalamaq üçün yarpaqlarının dəmləməsindən istifadə olunur. Təzə meyvələri quru və normal dəridə maska üçün işlədilir. Titrəmə-qızdırma xəstəliyində yarpaqlarının dəmləməsi içilir. Qurudulmuş |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | Dartıcı, bakerisid təsir göstərir. Bundan başqa; meyvələrin yumşaldıcı xüsusiyyəti vardır. | meyvələri angina; C vitamininin çatışmazlığı zamanı qəbul edilir. |
| Qızçiçəyi (Bellis perennis) | Çiçək səbəti | Tərkibində üzvi turşular, qatranlı maddələr, mumlar, selikli birləşmələr, flavonlar vardır. Sidikqovucu və damardaraldıcı xüsusiyyətə malikdir. | İrinli sızanaqlarda: dəmləməsi ilə dəri yaxalanır. |
| Yerkökü (Dacus carota) | Kökləri | Tərkibində karotin $B_1$, $B_2$, C, D vitaminləri, mineral duzlar, fosfaronlar, lesitin vardır. Yumşaldıcı və mikroblara: qarşı xüsusiyyətə malikdir. Yaraların sağalmasını sürətləndirir. | Yanıqlarda; xoralarda; dəmrovlarda; ekzemalarda: xaricə istifadə edilir. Təzə şirəsi maskaların tərkibinə daxildir. |
| Dənizotu (Zostera: minor) | Təzəsi, ya: da: qurusu istifadə edilir. | Tərkibində E, B12 vitaminləri, yod, aminturşular, karbohidratlar, mineral duzlar (kalsium, dçmir, manqan, mis, maqnezium, kobalt, sink, ftor) vardır. Bərpaedici və yumşaldıcı təsir göstərir. | Kompreslər, vannaya; dərinin təmizlənməsi üçün olan məhlullara; maskalara: və kremlərə əlavələr kimi xaricə işlənir. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Ardıc (Juniperus communis) | Meyvələri | Tərkibində fermentasion şəkərlər, qatranlı maddələr, qarışqa turşusu, 5 faizə qədər mineral duzlar və s. vardır. Bakterisid, bakteriostatik və stimuledici təsir göstərir. | Dərinin irinli xəstəliklərində dəmləməsi vannaya əlavə edilir. |
| Nanə (Mentha piperita) | Yarpaqları | Tərkibində aşı maddələri və qatranlı birləşmələr, pektinlər, saponinlər, 25 faizə qədər mentol, skipidar, terpen birləşmələri vardır. Antistatik, dartıcı xüsusiyyətə malikdir. Mentol soyuducu qıcıqlandırıcıları qəbul eləyən sinir qurtaracaqlarına qüvvətli stimuledici və həssaslıq sinirlərinə tormozlayıcı təsir göstərir ki, bunun da nəticəsində həssaslığın kütləşməsinə nail olunur. | Əzilmələrdə, dərinin qıcıqlanmasında, nevrologiyalarda, diş ətinin iltihabında dəmləməsi xaricə sürtmə dərmanı kimi işlənir |
| Xiyar (Cucumis sativus) | Meyvələri | Tərkibində bir qədər vitamin və mineral duzlar, digər meyvə və tərəvəzlərdə (məsələn, | Lətindən bütün dəri tiplərində maska hazırlamaq üçün işlənir. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | pamidor və kahıda) S vitaminini parçalayan askorbinaza fermenti vardır. Ağardıcı xüsusiyyətə malikdir. Dərinin qıcıqlanmasını azaldır. | **Diqqət!** Xiyarda ən az kalori (100 q xiyarda 8 kalori) vardır |
| Şaftalı (Persica) | Meyvələri | Tərkibində A vitamini, bir az da S, PP, $B_1$, $B_2$ vitaminləri, çoxlu miqdarda maqnezium, kalsium, dəmir kimi mineral birləşmələr vardır. Qələviləşdirmə xüsusiyyətinə malikdir. | Normal və qarışıq dəridə meyvələrinin lətindən maska hazırlayırlar. Dəri quru olduqda meyvənin əzməsinə təzə süd də əlavə olunur. Diqqət! Az kalorili meyvədir. 100 q meyvədə ancaq 40 kalori vardır. |
| Cəfəri Fetroselinum crispum) | Kökləri | Tərkibində selikli, qatranlı maddələr, üzvi turşular, S vitamini vardır. Təzə yarpaqlarında çoxlu S vitamini olur. Sidikqovucu təsirə malikdir. | Kimyəvi burma və saçların rənglənməsindən sonra saçların yuyulmasında dəmləməsindən istifadə olunur. |
| Bağayarpağı (Planfago major) | Yarpaqları | Tərkibində selikli və aşı maddələri, A, S, K vitaminləri, limon və kəhraba turşusu, bakterisid xüsusiyyətə malik | Səpkilərdə, həşaratların dişləməsi zamanı, yanıqlarda xarici dərman kimi istifadə olunur. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | naməlum antibiotik vardır. | |
| Pomidor (Lycopersicon esculentum) | Meyvələri | Tərkibində mineral duzlar (fosfor, kobalt, maqnezium, mis, dəmir, kalsium) karotinlər, limon və alma turşuları, A, $B_1$, $B_2$, S, PP və bir qədər də D, E, K vitaminləri vardır. Yüngül sidikqovucu və qələviləşdirici xüsusiyyətə malikdir. | Yağlı dəridə maska kimi lətindən istifadə olunur. **Diqqət!** Bəzən pomidoru yedikdə allergiya verir. |
| Əməköməci (Malva sylvestris) | Çiçəkləri, yarpaqları | Tərkibində selikli maddələr, üzvi turşular, aşı maddələri, mineral duzlar vardır. Mühafizəedici, yumşaldıcı, iltihaba qarşı xüsusiyyətə malikdir. | Dərinin iltihabı xəstəlikləri zamanı dəmləməsindən xaricə sürtmə dərmanı kimi istifadə olunur. |
| Rəvənd (Rheum palmatum, R.ribes) | 8-10 illik bitkilərin kökləri | Tərkibində pektinlər, üzvi turşular, yağ turşularının birləşmələri, mineral duzlar, aşı maddələri vardır. | Saçlara sarışın rəng vermək üçün xırda doğrayıb başı yaxalayan suya əlavə edirlər. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Pıtraq (Xanthium spinosum) | Təzə kökləri | Tərkibində aşı və qatranlı maddələr, mineral duzlar, lokton birləşmələri vardır. Bakterisid və bakteriostatik xüsusiyyətə malikdir. | Dəmləməsindən seboreya zamanı dəriyə və saçlara qulluqda; saçların tökülməsində, saçların qabıq verməsində, civzələrdə, həşaratların dişləməsində istifadə olunur. Dərini yumaq üçün pıtraq şirəsi işlənir. |
| Rozmarin (Rosmarinus officinalis) | Yarpaqları | Tərkibində aşı maddələri, mineral duzlar, qatranlı birləşmələr, acılıq, skipidar, kamfora, saponinlər vardır. Dartıcı, stimuledici xüsusiyyətə malikdir. | Dəmləməsindən dərman otları əlavə olunan vannalar üçün istifadə olunur. Dərinin elastikliyini və təravətini artıran məhlulların hazırlanmasında da işlənir. |
| Çobanyastığı (Chamamilla recutita) | Çiçək səbətləri | Tərkibində azulen, üzvi turşular, aşı maddələri, mineral duzlar, C və PP vitaminləri vardır. İltihaba, spazma qarşı xüsusiyyətə və ağrıkəsici təsirə malikdir. | Dəmləməsi dərinin və selikli qişanın iltihabı və irinli xəstəlikləri, ekzemalar, yanıqlar, donmalar, saçların qabıq verməsi və seboreya zamanı xaricə sürtmə dərmanı kimi işlənir. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| Sədo (Ruta graveolens) | Yarpaqları, gövdələri | Tərkibində qatranlı, aşı maddələri, flavonlar, rutinlər vardır. Kapilyarlara qədər damardaraldıcı xüsusiyyətə malikdir. | Donmalarda, çəhrayı civzələrdə xaricə sürtmə dərmanı kimi dəmləməsindən istifadə edilir. |
| Şam ağacı (Pinus sylvestris) | Tumurcuqları | Tərkibində qatranlı və aşı maddələri, mineral duzlar, skipidar olan efir yağları, borneol efirləri vardır. Bakteriostatik və sakitləşdirici xüsusiyyətə malikdir. | Venaların verikoz genişlənməsi, dərinin soluxması və yorğunluq zamanı vanna qəbul edərkən və eləcə də buğ vannasına dəmləməsi əlavə olunur. |
| Alabəzək bənövşə (Viola tricolor) | Yarpaqları, gövdələri | Tərkibində aşı, selikli, flavon birləşmələri, mineral duzlar, saponinlər vardır. "Qan təmizləyən" bitki qrupuna aiddir. Kapilyar damarların divarlarının qalınlaşmasına şərait yaradır. | Cövhərlərin içmək, civzələrdə, dərinin iltihabi xəstəliklərində, donmalara dərini yumaq üçün işlənir. |
| Kəklikotu (Thymus serpyllum) | Gövdəsi, yarpaqları | Tərkibində aşı maddələri, flavonlar, mineral duzlar, skipidar, serpellinlər vardır. Dartıcı, ağrıkəsici bakterisid təsirə malikdir. | Dərinin ilhabi xəstəliklərində nefralgiyalarda, əzilmələrdə, tromboflebitlərdə vannalara əlavə kimi və kompres qoyduqda dəmləməsindən istifadə olunur. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
| --- | --- | --- | --- |
| 1 | 2 | 3 | 4 |
| Sürvə (Salvia officunalis) | Yarpaqları, gövdəsi | Tərkibində aşı, selikli və qatranlı maddələr, üzvi turşular, təsiri estrogen effekti verən birləşmələr, PP vitamini, kamfora; mineral duzlar vardır. Dartıcı, antiseptik təsirə malikdir. Dəridə gedən prosesləri və dərinin qan dövranını yaxşılaşdırır. Tərin çıxmasını azaldır. | Göbələk xəstəliklərində, donmada; yanıqlarda; başın dərisinin qabıq verməsində, saçların tökülməsində, əzilmələrdə dəmləməsindən xaricə sürtmə dərmanı kimi istifadə olunur. |
| İtburnu (Rosa canina) | Meyvələri | Tərkibində çoxlu miqdarda C vitamini ( 100 q meyvədə 500-1500 mq-ə qədər), karotin, K, P, $B_2$ E, PP, $B_1$ vitaminləri, pektinlər vardır. Sakitləşdirici, sidikqovucu təsirə malikdir. | Dərinin qıcıqlanmasında dəmləməsi ilə yuyunurlar. Çəhrayı civzələrdə, dərinin iltihabi xəstəliklərində dəmləməsi içilir. |
| Qatırquyruğu (Equisetum arvense) | Göyzoğları | Tərkibində 17 faizə qədər mineral duzlar vardır ki, bunlardan da silisium birləşmələrini, flavonları, qatranlı maddələri və yağ turşularının birləşmələrini, S vitaminini göstər- | Əzilmələrdə və sıyrıntılarda dəmləməsindən kompres qoyurlar. Venaların varikoz genişlənməsində dərinin elastikliyini artırmaq üçün vannalara əlavə olunur. |

| Adı | Xammalın növü | Tərkibindəki bəzi kimyəvi maddələr, onların dəriyə təsiri | İstifadə qaydası və göstərişlər |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| | | mək olar. Sidikqovucu və qansaxlayıcı təsirə malikdir. Qan damarlarını daraldır. Yaraların sağalmasını tezləşdirir. | |
| Maya sarmaşığı (Humulus lupulus) | Dişi çiçəkqrupu (maya sarmaşığının yumruları) | Tərkibində lipulinlər, selikli, qatranlı və aşı maddələri vardır ki, bunlar da qadın cinsi hormonları kimi təsir göstərir. Bakteriostatik təsir malikdir. (Həzm şirələrinin ifrazına şərait yaradır | Dəmləməsi ilə saçlar yuyulur. |

# İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT
## AZƏRBA YCAN DİLİNDƏ

M.Ə.Qasımov Floramızın boyaq bitkiləri, “Aəzərbaycan təbiəti” №.6 1976.

M.Ə.Qasımov Gülümbahar “Azərbaycan təbiəti” 1978

M.Ə.Qasımov Azərbaycanın boyaq bitkiləri “Azərnəşr" 1980

M.Ə.Qasımov Gülxətmi “Elm və həyat” 1980

M.Ə.Qasımov E.Nəsibli İşıqlı məlhəmlər “Elm və həyat" 1980

M.Ə.Qasımov Naxçıvan Muxtar Respublikasının boyaq bitki ləri, “Elm” 1981

M.Ə.Qasımov E.Nəsibli Yovşan “elm və həyat", № 3,1983

M.Ə.Qasımov Karatinoid maddəsi sənayedə "Elm və həyat", 1984

M.Ə.Qasımov Yaşıl xlorofil fabriki, “Azərbaycan təbiəti" 1986

M.Ə.Qasımov Azərbaycanın edeviyyat bitkiləri. "Azərnəşr. 1992

M.Ə.Qasımov Gicitkən “Elm və həyat" 1994

M.Ə.Qasımov Azərbaycan “Jenşlni” “Elm və heyat" Nv 2,1995

İ.A.Dəmirov, N.A.İsmayılova

Y.B.Kərimov, R.M.Mahmudov Azərbaycanın müalicə ohomly yətli bitkiləri “Azərnəşr”, 1988

İ.A.Dəmirov, C.Z.Şükürov Azərbaycanın meyvə və tərəvəz bitkilərinin müalicəvi əhəmiyyəti, Bakı 1990

İ.D.Mustafayev, M.Ə.Qasımov Azərbaycanın faydalı bitki səı vətləri, “Aəzərnəşr” 1992

M.Ə.Qasımov Su fındığı. Elm və həyat, № 1-2 2000-ci II

M.ƏQasımov Abşeronun Sənaye əhəmiyyətli bitkiləri “Azərbaycan təbiəti” № 1 -2, 2000-ci il

# RUS DİLİNDƏ


Абу Али ибн Сина. Трактат по гигиене: Пер. с араб. Ташкент, ФАН, 1980.-116 С

А.Агафанов, Как сохранить здоровье и красату.-Алма-Ата: изд-во Казахыстан, 1972-165 С.

Б.Е.Айзенман, Н.А.Дербенцева Антимикробные препараты из зверобая. Киев, 1976. 173 С.

И.Э. Акопов Кравоостановливающие растения. Ташкент, 1981. 296 С

И.Э. Акопов Важнейшие отечественные лекарственные растение и их применение М.1990. 442 С

Б.Д.Алексеев, С.П.Альперович Природа и косметика-Став- ропольское книжное издательство, 1998-95 с.

Р. К.Алиев Кровоостанавливающие препараты из некоторых растений флоры Азербайджана. Баку, 1960, 191 с.

П.К.Алимбаева, Ж.С.Нуралиева, З.С.Арбаева, Т.М.Шамге- тов Лекарства вокрук нас. Фрунзе: Кыргызтан, 1978, 176 с.

Д.Н.Андреева, Н.П.Боброва, С.Н.Потанова, Г.В.Пчелкина Е.А.Соболева, И.Г.Шишикина Справочник по медицинской косметике-Л.Медицина, 1978. 172 с.

Атлас ареалов и ресурсов лекарственных растений СССР- М.:ГГК, 1976-340 с.

А.С.Ахабадзе Косметика для всех.-М.:Знание, 1974-90 с.

Ф.Х.Бахтеев Важнейшие плодовые растения.-М.Просвещение, 1970-351 с.

А.А.Бирюков Самомассаж для всех каждого-М.Физкультура и спорт, 1987.-96 с.

С.Вендровска Сто минут для красаты и здоровые: Пер. с польск-М.: Физкультура и спорт, 1985-48 с.

Х.Вилламо Косметичиская Химия, “Мир” 1990-278 с.

Е.В.Вульф, О.Ф.Малеева Меровые ресурсы полезных рас- тений-Л.Наука, 1969-556 с.

Б.Выдмухова Ева всегда молода-М.Физкультура и спорт, 1985-127 с.

А.В.Галицкий, Щедрый дар: Очерки о русской бане и ее близких и дальних родичах-4-е изд, перераб.-М.: Физкультура и спорт, 1986-96 с.

А.А.Гроссгейм Красильные растения-растительные ресурсы Кафказа. Изд. Баку, 1946. 355-371 с.

Ф.Гуске, Азбука косметики: Пер. с нем.-М.Медицина, 1973-198 с.

А.Д.Егоров Витамин С и каротин в растительности Якутии. М„ 1954-248 с.

Н.П.Иойриш Лечебные свойства меда и пчелиного Яда М., 1956-200 с.

А.И.Картамышев Косметический уход за кожей. Киев: Здоровье, 1964-187 с.

М.А.Касумов Новые пищевые красители масложировой, бисавитной, крамелной и ликеро-водочной промышленности/Докл. АНАзССР.-1984-Т. 40 № 1 69-74 с.

М.А.Касумов Красильные растения Азербайджана. 2-е пе- рераб. И дон. Изд.-Баку, Азернешр-1987-112 с.

М.А.Касумов Новые источники растителного сырья для получения желтого пищевого красителя /Докл. АНАз ССР.-1990- Т.46.-№ 8-9, с. 60-63.

Л.Орлова Тайны красаты. М., 1992, 95 с.

И.И.Орлов, Рябчук Березовый сок.-М.,1982 54 с.

М.А.Касумов Новые пищевые красители/Пищевая просышленность-1991-№ 12 с. 75-77.

М.А.Касумов, А.А.Гасымов Полифенольные желтые пищевые красители/Пищевая промышленность-1994-№ 6, с. 12.

М.А.Касумов Богатства “растительной аптеки”/Азербайд- жан: проблемы развития.-1995-№ 12, с. 15-17.

М.А.Касумов Химическая основа окраски цветов растений- /Азербайджан: проблемы развития-1996. № 23, с. 15-18.

М.А.Касумов Флористический анализ красильных растений Азербайджана/Докл. АН Азербайджан-1995-1996.-Т.51-52-№112, с.129-140.

А.Кайяс Пыльца: Сбор, свойства, применение. Бухарест, 1975. 90 с.

Н.Г.Ковалева, Лечение травами: Очерки по фитотерапии.-

М.Медицина, 1972.-352 с.
Г.Т.Козловский, Л.Хубев, М.Пушкарова, И.Трошев, Всегда красивая-София: изд-во “Медицина и физкультура”, 1986-260 с.
Н.Б.Корестылев От А до Я.-М.Медицина, 1987-285 с.
Д.И.Ласс, М.Г.Поликарпова, Уход за кожей лица.-М.:Изд. мин. ком.хозяйства РСФСР, 1956-160 с.
Н.Левенсон, Красота и здоровье. М., 1914. 142 с.
В.Любимова Секреты дамского туалета и тайны женского сердца.-М.,1848, I и II.
С.Г.Макченко, Б.Д.Алексеев, А.Ф.Гаммерман Лечение травами. Изд.2. Л., 1978. 159 с.
П.С.Массачетов Заветные травы.-2-е изд.доп.-М.Мысль 1985-208 с.
Л.В.Полуденный, В.Ф.Сотник, Е.Е.Хлацьев Эфиромасличные лекарственные растения-М.:Колос, 1979, 288 с.
А.П.Попов, Лесные целебные растения. М., 1973, 192 с.
С.Н.Потапова Советы врача-косметолога.-М.:Знание, 1964-50 с.
Х.Райнботе, Тайна растений. М.:Знание, 1979-208 с.
Растения, применямые в быту. М., 1966. 280 с.
М.Л.Рева, В.М.Липовеций растения в быту. Изд. 2-е. Донецк. 1977. 208 с.
И.Г.Редко, Т.В.Ефимова, Х.Х.Халматов Соки свежей травы зверебоя и грыхники, Вин: Матер, юбил. Респ. Науч. Ионф. Фармацев. 50-летию образования СССР. Тажикстан 1972, 86- 87 с.
А.Реко Вечная красота: Пер. с франц-с Пб:тип, Безобразова, 1866-60 с.
В. Г.Рубцов Зеленая аптека-Лениздат, 1984-240 с.
Русский народный лечебный травник и цветник. Изд 2-е М, 1892-1893. 60. с.
Рустовский Б.Н. Эфирные масла Т.1. М.:Л., 1931. 594 с
Секреты красоты знаменитых Нинон де-Ленкло и Марион де Лорм.-СПб: тип Шумахера 1899-24 с.
Справочник по медцинской косметике. Москва, 1975. 253 с.
С.С.Станков, Н.В.Ковалевский Наши лекарственные рас

тения и их врачебное применение Горький, 1945. 164 с.

В.В.Телятьев Целебные клады восточной Сибири. Иркутск, 1976,446 с.

А.Д.Турова, Э.Н.Сапожникова Лекарственние растения СССР и их применение. М., 1983. 288 с

РАФридман Парфюмерия. Изд. 2-е М., 1955. 527 с.

Х.Х.Халматов Дикорастущие лекарственные растения Узбекистана. Ташкент, 1964, 279 с

П.Чуролинов Фитотерапия в дерматологии и косметите.- София-Медицина и физкультура, 1979. 147 с.

М.С.Шалыт Дикорастущие полезные растения Туркменской ССР. М„ 1951,222 с.

В.Шененбергер Сони растений-источник здоровья М.: Знание^1979.

Т.И.Йоркова Цветущая косметика. М.:изд-во реклама, 1971-96 с.

Х.Я.Янис Приемные часы для здоровых.-М.:Медицина, 1987-175.

А.И.Якубова Косметика и флора: растения в лечебной кос- метике-Камерова, 1980-127 с.

Б.Ярощенко Труд и красота-М.:Профиздат, 1986-223 с.

F.Dorfler Roselt Unsere Heilpflanzen. Lepizig etc-1970.4925/M.S.Karawaya, S.I.Balba, M.S.A.Afifi Investigation of the carbohydrate contents of certain mucifaginous plants.-planta med., 1971. vol. 20, нем.1, p. 14-23.

J.L.Hartwell plants used against cancer.-Lloyolia, 1968, vol. 31, нем.2 p.71-170.

R.N. Chopra, S.Y.Nayar, I.C.Chopra. Glossary of Indian medicinal plants. New Dehli, 1956. 330 p.

H.Diener. Drogenkunde. Leipzig, 1968, 488 s.

# Kitabın içindəkilər

Giriş ... 3
Bəzək və bitki kosmetikasının tarixinə dair qısa nəzər ... 5
Misir kosmetika elminin vətənidir ... 7
Qədim yunanların gözəllik harmoniyası ... 11
Gözəlliyin canlanma dövrü ... 14
Rus kosmetikası ... 17
Azərbaycan qadınlarının istifadə etdikləri təbiikosmetik vasitələr ... 19

## KOSMETİKADA İSTİFADƏ EDİLƏN BİTKİLƏR

Şam-Pinus ... 22
Ärdıc-Yuniperus L ... 25
Gəcəvər-Acorus ... 28
Səhləb-Orchis ... 31
Süsən-Ris ... 35
Qoz-Yuqlans ... 38
Söyüd-Salix ... 42
Palıd-Quercus ... 47
Şabalıd-Castanea ... 50
Tozağacı-Betula ... 54
Qızılağac-Alnus ... 57
Adi mayasarmaşığı (xamırmaya)-himulus ... 59
Gicitkən-Urtica ... 62
Bağamburc-(həmişəcavan)-Viscum ... 66
Hemiyar-Herniara ... 69
Sabunotu-Saponara ... 71
Zirinc-Berberıs ... 73
Quşəppəyi-Capsella ... 80
Qarağat-Ribes ... 82
Firəng üzümü (rus alçası)-Grossularia ... 86
Çin limonu-Schizandra ... 89
Heyva-Cudonia ... 91
Alma-Malus ... 94
Quşarmudu-Sorbus ... 96
Böyürtkən-Rubus ... 98
Moruq-Rubus ... 102

Çiyələk-Fraqaria........................................................................ 107
Quşqonmaz-Filipendula..............................................................111
Sincanotu-Sanduisorba............................................................ 113
İtburnu-Rosa.............................................................................. 115
Badam-Amuqdayus.................................................................. 118
Adi meşəgilası-Padus avium.................................................. 120
Ononis-Ononis..................................................................... 122
Safora-Sophora.........................................................................124
İinnab-Zizyphus.........................................................................126
Qızıigül-Rosa.......................................................................... 129
Saragan-Cotinus...................................................................... 132
Sumaq-Rhus .........................................................................135
Mürdəşər-Frangula.................................................................. 138
Cökə-1 ilia .........................................................................141
Bəlğəmotu-Althaea............................................................. 144
Dazıotu-Nypericum............................................................. 146
Bənövşə-Vıola ........................................................................149
Xina-Lavsopia inermis............................................................. 153
lindiqofera-lndiqofera .........................................................158
Mərcangilə-Vaccinum.............................................................. 164
Xəndəkotu-Sumphutum.......................................................... 167
Novruzçiçəyi-Prımuia.............................................................. 168
Çilədağı-Eremostachys....................................................... 173
Sürvə və yaxud adaçayı-Salvia............................................. 176
Bədrənc (balhnanə)-Melissa.................................................. 178
Dağnanəsi-Satureya.......................................................... 181
Qaraqınıq-Origanum............................................................. 184
Sığırquyruğu-verbascum........................................................ 188
Qurdotu-Linaria.......................................................................... 191
Bağayarpaöı-Plantago............................................................. 192
Gəndəlaş-Sambucus................................................................ 195
Başınağacı-Viburnum.............................................................. 198
Doqquzdon-Lonicera................................................................ 200
Pişikotu-Valeriana................................................................. 203
Andız-Inula............................................................................ 206
Dəvədabanı (ögeyana)-Tussilago......................................... 209
Pıtraq-Xanthium........................................................................ 213
Üçbölümlü yatıqqanqal-Bidens............................................... 215
Boymadərən-Achillea............................................................. 218

Yovşan-Aremisia ........................................................ 220
Gülümbahar-Calendulea ............................................. 227
Atpıtrağı-Arctium........................................................ 230
Göyçiçək (güləvər)-Centaurea .................................... 232
Zənci rotu-Taraxacum ................................................. 234
Mollabaşı (çobanyastığı)-Chamomilla .......................... 238
Boyaqotunun biologiyası və aqrotexnikası ................... 247
Xalq təsərrüfatı və tibbi əhəmiyyəti .............................. 249
Üzərliyim, üzərliyim-Peganum ...................................... 256
Tut-Morus .... ............................................................... 261
Bitki və bəzək kosmetikası ........................................... 264
Bitkilərdən hazırlanan kosmetik vasitələr ..................... 264
Quru dəridə istifadə olunan emulsiyalar ....................... 265
Kosmetik losyonlar ...................................................... 265
Qatı kosmetik kremlər.................................................. 265
Normal quru üz dərisində işlədilən kremlər .................. 266
Yağlı üz dərilərində istifadə olunan bitki kremləri ......... 266
Maska kremləri ............................................................ 267
Əl kremləri ................................................................... 267
Ayaq kremləri............................................................... 267
Ev kosmetikasında istifadə olunan bitkilər.................... 268
Cövhər və dəmləmələr ................................................ 268
Təpitmələr ,.k............................................................... 269
Yaxma mazlar.............................................................. 269
Normal dəri.................................................................. 270
Quru dəri...................................................................... 272
Çobanyastığından hazırlanan qida kremi ..................... 274
Büzüşən dəri üçün losyon ............................................ 274
Quru dəri üçün losyon .................................................. 274
Qırışıq dəri üçün losyon................................................ 274
Quru, susuz tez qıcıqlanan dəri üçün losyon ............... 275
Üz maskası.................................................................. 275
Sifətə maskanın çəkilməsi............................................ 276
Yağlı dəri...................................................................... 279
Qırışıq dəri tipləri ......................................................... 284
Gözlərə qulluq ............................................................. 285
Qoy çil sizi məyus etməsin .......................................... 287
Piqment ləkələrindən xilas olmaq olar .......................... 288
Bəoənə daim qulluq etmək lazımdır ............................. 289

Hipertrixozla mübarizə.................................................... 290
Dəri həmişə təmiz olmalıdır............................................ 292
Dərman bitkilərindən hazırlanan kosmetik vannalar......... 293
Hamamda meşə və çölün ətirli qoxusu............................ 295
Yarpaq, çiçək və otlardan dəmləmələrin hazırlanması...... 298
Günəş yanmasına nə kömək edir.................................... 299
Təri necə azaltmaq olar.................................................. 299
Tərləməyə qarşı necə mübarizə aparmalı........................ 300
Əl də daimi qulluq tələb edir............................................ 301
Dırnaqlar da qulluq tələb edir........................................... 303
Ayaqlar da qulluq tələb edir............................................. 306
Yastıayaqlıq, sürtünmə və qabarlar...................................... 309
Dərinin bəzi qüsurları........................................................ 311
Gözəl və sağlam gur saçlar gözəlliyin aynasıdır...................... 314
Yağlı saçlar.......................................................................... 318
Quru saçlar.......................................................................... 319
Saçların boyanması............................................................... 321
Saçların xına və basma ilə boyanması................................... 323
Xına və basma qarışığı ilə saçın boyanması.............................. 324
Saçların yuyulması................................................................ 325
Qarabaşaq-Faqopürum........................................................ 327
Ərik-Armeniaca...................................................................... 335
ikinci çörək-Kartof-Solanium.................................................... 339
Sufındığı-Trapa...................................................................... 346
Saçların rənglənməsində istifadə edilən bitkilər...................... 349
Dəriyə, sifətə qulluq zamanı işlənən bəzi dərman otları və
meyvələri.......................................................................... 350

*M.Ə.Qasımov, T.S-Məmmədov "Bitki kosmetikası", Bakı, "Araz" nəşriyyatı 2002.*

Kompüter tərtiblatçısı: Əsmər Əlirzaqızı
Korrektor: C.İsaqızı

*Yığılmağa verilmişdir: 20.01.2002*
*Çapa imzalanmışdır: 18.05.2002*
*Kağız formatı: 60x84 1/16*
*Şərti çap vərəqi: 23,5*
*Uçot nəşr vərəqi: 23,4*
*Sayı 100*
*Sifariş 31*
*Qiyməti müqavilə Hə*

*'Araz' nəşriyyatının Kompüter mərkəzİndə yığılın səhif ələnmiş və 'El-aliance' şirsə tinin mətbəəsində çap olunmuşdur.*